AZƏRBAYCAN
RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI BEYNƏLXALQ
MULTİKULTURALİZM
MƏRKƏZİ

MƏNƏVİ DƏYƏRLƏRİN
TƏBLİĞİ FONDU

# MULTİKULTURALİZMƏ GİRİŞ

***Ali məktəblər üçün dərslik***

*Azərbaycan Dillər Universiteti Elmi Şurasının
8 iyul 2019-cu il tarixli iclasının qərarı ilə (pr. №29)
çapa tövsiyə olunmuşdur.*

**Bakı – 2019**

*Elmi redaktor və ön sözün müəllifi:*

**Akademik Ramiz Mehdiyev**

*Dərslik müəllifləri:*

AMEA-nın həqiqi üzvü, professor Kamal Abdulla, fəlsəfə elmləri doktoru, professor Etibar Nəcəfov, fəlsəfə elmləri doktoru, professor Əlikram Abdullayev, fəlsəfə elmləri doktoru, professor Əyyub Kərimov, sosiologiya üzrə fəlsəfə doktoru Asəf Qənbərov, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov, filologiya üzrə fəlsəfə doktoru Billurə Aslanova, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov, siyasi elmlər üzrə fəlsəfə doktoru İrina Kunina, filologiya üzrə fəlsəfə doktoru Könül Aslanova, ilahiyyat üzrə fəlsəfə doktoru Mehman İsmayılov, siyasi elmlər üzrə fəlsəfə doktoru Moisey Bekker, fəlsəfə üzrə fəlsəfə doktoru Rəşad İlyasov, Anar Əlizadə, Ceyhun Əliyev, Elnarə Kərimova, Əliheydər Zülfüqarov, Əli Həziyev, Gündüz İsmayılov, Mahir Qəniyev, Nahid Məmmədov, Nicat Məmmədli, Rəvan Həsənov, Rəfi Qurbanov, Rəhim Rəhimov, Sadiq Mirzəyev, Tərlan Orucova.

**Rəyçilər:**
**Akademik İsa Həbibəyli**
**Professor Musa Qasımlı** (AMEA-nın müxbir üzvü)

**Nəşrə məsul:** Anar Əlizadə
**Nəşriyyat redaktoru:** Əliheydər Zülfüqarov
**Dizayner:** Raman Dadaşov

**MULTİKULTURALİZMƏ GİRİŞ: Ali Məktəblər üçün dərslik. – Bakı: Şərq Qərb, 2019.**

# KİTABIN İÇİNDƏKİLƏR

**ÖN SÖZ** (Akademik Ramiz Mehdiyev)..............................................................9

**I BÖLMƏ**
**Giriş**

**I FƏSİL**
**"Multikulturalizmə giriş" fənninin predmeti və əhəmiyyəti**.......................16
**Multikulturalizmə liberalizm və kommunitarizm yanaşmaları**...........16

**1.1. Multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi** *(Etibar Nəcəfov)*..............................................................16
**1.2. "Multikulturalizmə giriş" fənninin obyekti, predmeti və məqsədi. Onun digər ictimai elmlərlə münasibəti** (*Kamal Abdulla)*.....21
**1.3. "Multikulturalizmə giriş" fənninin metodları** *(Etibar Nəcəfov)*.....24
**1.4. "Multikulturalizmə giriş" fənninin əhəmiyyəti** (*Kamal Abdulla)*...36
**1.5. Multikulturalizmə liberalizm yanaşması və onun nümayəndələri** *(Rəhim Rəhimov)*..............................................................38
**1.6. Multikulturalizmə kommunitarizm yanaşması və onun nümayəndələri** (Rəşad İlyasov)..............................................................46

*Fəslə aid suallar*..............................................................*50*
*Ədəbiyyat*..............................................................*53*

**II BÖLMƏ**
**DİNİ MÜXTƏLİFLİK**

**II FƏSİL**
**Dinin mahiyyəti və onun təzahür formaları** *(Asəf Qənbərov)*......................56

**2.1.Dinin mahiyyəti və onun meydana gəlməsinə dair nəzəriyyələr**....56
**2.2.Din fərdi dünyagörüşün və ictimai şüurun forması kimi**...............60

*Fəslə aid suallar*..............................................................*63*
*Ədəbiyyat*..............................................................*64*

**III. FƏSİL**
**Dünya dinləri**......................................................65

**3.1. Buddizm** *(Əliheydər Zülfüqarov)*......................................................65
3.1.1.Tarixi......................................................66
3.1.2. Dini təlimin əsasları......................................................71
3.1.3. Buddizmdə dini cərəyanlar......................................................75

**3.2.Xristianlıq** *(Anar Əlizadə)*......................................................79
3.2.1. Tarixi ......................................................79
3.2.2. Dini təlimin əsasları......................................................82
3.2.3. Dini mətnlər ......................................................83
3.2.4. Dini ayin və mərasimlər ......................................................84
3.2.5. Əsas xristian konfessiyaları......................................................87
3.2.6. Azərbaycanda Xristianlıq ......................................................93

**3.3.İslam**......................................................102
3.3.1.Tarixi *(Aqil Şirinov)*......................................................102
3.3.2.Dini təlimin əsasları......................................................108
3.3.3.Dini mətnlər......................................................109
3.3.4. Dini ayin və mərasimlər......................................................111
3.3.5.Məzhəblər......................................................114
3.3.6. Azərbaycanda İslam *(Nahid Məmmədov)*......................................................122

*Fəslə aid suallar......................................................135*
*Ədəbiyyat......................................................137*

**IV FƏSİL**
**Milli dinlər**......................................................140

**4.1.Yaxın Şərq** ......................................................140
**4.1.1. Zərdüştilik** *(Sadiq Mirzəyev)*......................................................140
4.1.1.1. Tarixi......................................................140
4.1.1.2. Dini təlimin əsasları......................................................412
4.1.1.3. Dini mətnlər......................................................144
4.1.1.4. Dini ayin və mərasimlər......................................................145

4.1.1.5. Azərbaycanda Zərdüştilik ....................................................148

**4.1.2.Yəhudilik** ....................................................................................151
4.1.2.1. Tarixi *(Elnarə Kərimova)*....................................................151
4.1.2.2. Dini təlimin əsasları ...........................................................156
4.1.2.3. Dini mətnlər .........................................................................157
4.1.2.4. Dini ayin və mərasimlər.......................................................160
4.1.2.5. Azərbaycanda Yəhudilik *(Əli Həzi)*....................................161

**4.2. Uzaq Şərq** *(Güney Həsənova)*..........................................................165
4.2.1.Konfutsiçilik...............................................................................165
4.2.2.Daosizm.....................................................................................169
4.2.3.Sintoizm.....................................................................................172

**4.3. Cənubi Asiya** *(Mehman İsmayılov)*..................................................176
4.3.1. Hinduizm..................................................................................176
4.3.2. Caynizm...................................................................................181
4.3.3. Siqhizm....................................................................................186

**4.4.Qədim türk inancları** *(Ceyhun Əliyev)*............................................190

*Fəslə aid suallar* ..................................................................................*192*
*Ədəbiyyat*..............................................................................................*194*

**V FƏSİL**
**Müasir dövrdə din**..................................................................................196

**5.1. Müasir dünyada dinin yeri və roluna dair nəzəriyyələr**
*(Mehman İsmayılov)*...............................................................................196
**5.2. Yeni dini hərəkatlar** *(Mahir Qəniyev)*..............................................202
**5.3. Dini radikalizm və onunla mübarizə yolları**
*(Gündüz İsmayılov)*...............................................................................213
**5.4. Müasir dövrdə Azərbaycanda dövlət-din münasibətləri**
*(Ceyhun Məmmədov, Gündüz İsmayılov)*...............................................218

*Fəslə aid suallar*....................................................................................*224*
*Ədəbiyyat*..............................................................................................*226*

## III BÖLMƏ
## ETNİK MÜXTƏLİFLİK

**VI FƏSİL**
**Etnik müxtəliflik və milli ideya** *(Əlikram Abdullayev, Əyyub Kərimov)*.....229

**6.1. Etnik birliklər və onların təkamülü**..............................................229
**6.2. Etnik kimlik və milli müəyyənlik problemi** ................................237
**6.3. Etnik dəyərlər və milli mentalitet** ..............................................242
**6.4. Milli şüurun və milli ideyanın formalaşmasında**
**etnik dəyərlərin rolu**...........................................................................249

*Fəslə aid suallar*....................................................................................257
*Ədəbiyyat*..............................................................................................258

## IV BÖLMƏ
## MULTİKULTURALİZM

**VII FƏSİL**
**Multikulturalizm etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin səmərəli siyasət modeli kimi** *(Etibar Nəcəfov)*...........................................................262

**7.1. Etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə münasibətdə**
**mümkün siyasət modelləri: assimilyasiya, izolyasiya,**
**aparteid və multikulturalizm**...............................................................262
**7.2. Müasir dövrdə ictimai inkişafda mədəniyyətin**
**aparıcı rolu və multikulturalizm**..........................................................266
**7.3. Tolerantlıq, multikulturalizm və interkulturalizm**.......................268

*Fəslə aid suallar*....................................................................................274
*Ədəbiyyat*..............................................................................................275

**VIII FƏSİL**
**Multikulturalizmin cəmiyyətin siyasi, iqtisadi, sosial və**
**mədəni inkişafına təsiri** ........................................................................276

**8.1.Multikulturalizm daxili və xarici siyasətin tərkib**
**hissəsi kimi** *(Etibar Nəcəfov)*..............................................................276

**8.2. Multikultural təhlükəsizlik** (*Kamal Abdulla)*................................282
**8.3. Davamlı və inklüziv inkişafın əldə olunmasında multikulturalizm siyasətinin rolu** *(Etibar Nəcəfov*)............................285
**8.4. Multikulturalizm və gender** *(Könül Aslanova)*.............................288
**8.5. Multikulturalizm və media** *(Billurə Aslanova)*.............................296

*Fəslə aid suallar.......................................................................................304*
*Ədəbiyyat..................................................................................................306*

**IX FƏSİL**
**Etnik-mədəni müxtəlifliyin və multikulturalizm siyasətinin ölçülməsi. Miqrant inteqrasiya siyasəti indeksi (MİPEX)**.........................................310

**9.1. Azlıqda olan yerli xalqlar üzrə multikulturalizm siyasəti indeksi** *(Etibar Nəcəfov)*............................................................311
**9.2. Alloxton azlıqlar üzrə multikulturalizm siyasəti indeksi** *(Etibar Nəcəfov)*............................................................315
**9.3. İmmiqrant azlıqlar üzrə multikulturalizm siyasəti indeksi** *(Etibar Nəcəfov)*............................................................318
**9.4. Miqrant inteqrasiya siyasəti indeksi** (MİPEX) *(Tərlan Orucova)*........................................................325

*Fəslə aid suallar.......................................................................................335*
*Ədəbiyyat..................................................................................................336*

**X FƏSİL**
**Müasir dövrdə Qərb ölkələrində etnik–mədəni müxtəliflik və onun tənzimlənməsi**..................................................................................339

**10.1.Müasir dövrdə Qərb ölkələrində multikulturalizmin vəziyyəti** *(Nicat Məmmədli)* ...........................................................................339
**10.2.Qərb ölkələrində etnik–mədəni müxtəlifliyə immiqrasiya prosesinin təsiri** *(Rəfi Qurbanov)*...................................344
**10.3. Qərb ölkələrində dözümsüzlüyün, ksenofobiyanın və ayrıseçkiliyin geniş yayılmış formaları**...............................................347
**10.3.1.İslamofobiya** *(Etibar Nəcəfov)*.................................................*347*

**10.3.2. Antisemitizm** *(Moisey Bekker)*..............................................355
**10.4. Qərb ölkələrində etnik–mədəni müxtəlifliyin tənzimlənməsi təcrübəsi**..........................................................362
**10.4.1. Multikulturalizmin Kanada modeli** (*Rəfi Qurbanov*)............362
**10.4.2. Multikulturalizmin Avstraliya modeli** *(Rəfi Qurbanov)*........366
**10.4.3.ABŞ-da multikulturalizm** *(Rəfi Qurbanov)*............................369
**10.4.4. Böyük Britaniyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi** *(Asəf Qənbərov)*.........................................................374
**10.4.5. Fransada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi** *(Asəf Qənbərov)*........................................................376
**10.4.6.Almaniyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi** *(Rəfi Qurbanov)* ......................................................378
**10.4.7. Hollandiyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi** (*Rəfi Qurbanov*).......................................................381
**10.4.8.İspaniyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi** *(Cavid Ələkbərov)*.....................................................386
**10.4.9.İtaliyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi** *(İrina Kunina)*.............................................................389
**10.5. Müasir dövrdə multikulturalizm və tolerantlığa dair beynəlxalq sənədlər** *(Rəvan Həsənov)* ..................................................394

*Fəslə aid suallar........................................................................................399*
*Ədəbiyyat..................................................................................................404*

**XI FƏSİL**
**Müasir dövrdə Azərbaycanda multikulturalizm** .....................................411

**11.1.Azərbaycanda multikulturalizm siyasəti modelinin formalaşmasını şərtləndirən obyektiv və subyektiv səbəblər***(EtibarNəcəfov*)..................................................................................411
**11.2. Azərbaycan multikulturalizminin əsas xüsusiyyətləri** *(Kamal Abdulla, Etibar Nəcəfov)*..................................415
**11.3. Multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı** *(Rəvan Həsənov)*...............................................................423

*Fəslə aid suallar........................................................................................428*
*Ədəbiyyat..................................................................................................429*

# ÖN SÖZ

“Multikulturalizmə giriş” fənni yeni interdissiplinar bir fənn olaraq fəlsəfə, tarix, sosiologiya, kulturologiya, hüquq və politologiya kimi ictimai elmlərin nəzəri müddəalarına əsaslanır. Qeyd etmək lazımdır ki, bu müddəalar “Multikulturalizmə giriş” fənnində təhlil olunan mövzuların, ümumiyyətlə, onun predmetinin dərk olunmasına kömək edir. “Multikulturalizmə giriş” fənninin predmetinə gəlincə isə, bu fənn cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin, o cümlədən bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərlərin qorunması yollarını öyrədir. Məlum olduğu kimi, cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin qorunması multikulturalizm siyasəti vasitəsilə həyata keçirilir.

2019-2020-ci tədris ilindən başlayaraq, “Multikulturalizmə giriş” ölkənin ali məktəblərinin bakalavriat səviyyəsi üzrə bütün ixtisasların təhsil proqramlarının humanitar fənlər blokuna məcburi fənn kimi daxil edilmişdir. Bu fənnin ali məktəblərdə tədris olunması zəruriliyi, ilk növbədə, müasir qloballaşma şəraitində çoxmədəniyyətli cəmiyyətlərdə mövcud olan etnik-mədəni müxtəlifliyin tənzimlənməsində multikulturalizm siyasətinin əhəmiyyətindən və alternativsizliyindən irəli gəlir. Məlumdur ki, hazırda dünyanın bir sıra dövlətlərində assimilyasiya, izolyasiya və aparteid kimi siyasi idarəçilik modelləri mövcuddur. Lakin tarixi-siyasi təcrübə və müasir etnik-dini proseslər göstərir ki, bu modellər coxmədəniyyətli və coxmillətli cəmiyyətlərdə milli-mənəvi harmoniya və həmrəyliyə gətirib çıxarmır, əksinə, dinlərarası və mədəniyyətlərarası ziddiyyətləri daha da dərinləşdirir. Belə ki, multikulturalizm assimilyasiya, izolyasiya və aparteid siyasətindən fərqli olaraq, cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin müdafiəsini, eyni zamanda, titul etnosla milli azlıqlar arasında qarşılıqlı mədəni-mənəvi zənginləşmə və harmoniya üçün lazımi şəraiti və ictimai-siyasi sabitliyi təmin edir. Bu isə, öz növbəsində dinlərarası və mədəniyyətlərarası dialoqun və əməkdaşlığın inkişafına, milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiyasına səbəb olmaqla, müasir dövrdə çoxmədəniyyətli cəmiyyətin inkişafını şərtləndirən əsas amillərdən biridir.

Hazırda dünyanın müxtəlif yerlərində etnik, dini və ya irqi zəmində baş verən bir çox toqquşmalar, münaqişə və müharibələr multikulturalizmin siyasi zərurətini bütün ciddiyyəti ilə qarşıya qoyur.

Multikulturalizmin daha bir mühüm əhəmiyyəti ondan ibarətdir ki, müasir mərhələdə bu siyasət modeli öz mahiyyətinə görə demokratik cəmiyyətin norma və prinsiplərinə uyğun gəlir. Belə ki, milli azlıqların etnik-mədəni dəyərləri beynəlxalq hüquqda təsbit edilmiş əsas insan haqları və azadlıqları sisteminin tərkib hissəsidir. Milli azlıqların müdafiəsi məsələsi BMT, Avropa İttifaqı, Avropa Şurası, ATƏT, UNESKO və digər beynəlxalq təşkilatların qəbul etdikləri sənədlərdə əks olunmuşdur. BMT-nin Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci ildə qəbul olunmuş *"Soyqırım cinayətinin qarşısının alınmasına və cəzalandırılmasına dair Konvensiya"*nı, 21 dekabr 1965-ci ildə qəbul olunmuş *"İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya"*nı, 16 dekabr 1966-cı ildə qəbul olunmuş *"Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Pakt"*ı, 18 dekabr 1992-ci ildə qəbul olunmuş *"Milli və yaxud etnik, dini və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında Bəyannamə"*ni, Avropa Şurası tərəfindən 1 fevral 1995-ci ildə qəbul olunmuş *"Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası"*nı, ATƏT tərəfindən 29 iyun 1990-cı ildə qəbul olunmuş "*Kopenhagen Sənədi"*ni, UNESKO tərəfindən 2 noyabr 2001-ci ildə qəbul olunmuş *"Mədəni müxtəlifliyə dair universal Bəyannamə"*ni və s. sənədləri buna misal göstərmək olar. Avropa Şurasının *"Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası*"nın 1-ci maddəsində qeyd olunur: *"Milli azlıqların və bu azlıqlara mənsub şəxslərin hüquq və azadlıqlarının müdafiəsi insan hüquqlarının beynəlxalq müdafiəsinin ayrılmaz tərkib hissəsidir və buna görə də, beynəlxalq əməkdaşlı*ğın bir sa*həsi hesab olunur"*. Və yaxud UNESKO-nun *"Mədəni müxtəlifliyə dair universal Bəyannamə"*sinin 4-cü maddəsində deyilir: *"Mədəni müxtəlifliyin qorunması insan ləyaqətinə hörmətlə sıx bağlı olan etik imperativdir. O, insan hüquqlarını və fundamental azadlıqları, xüsusilə milli azlıqlara mənsub olan şəxslərin və yerli xalqların hüquqlarının müdafiə olunmasını nəzərdə tutur."*

"Multikulturalizmə giriş" dərsliyi filosofların, dinşünasların, ilahiyyatçıların, politoloqların, tarixçilərin, ədəbiyyaşünasların və hüquqşünasların birgə səyi nəticəsində ərsəyə gəlmişdir və dörd bölmədən ibarətdir.

Dərsliyin birinci bölməsi məzmununa görə onun giriş hissəsini təşkil edir. Bu hissədə, ilk növbədə, "Multikulturalizmə giriş" fənninin obyekti, predmeti və məqsədi, metodları, onun digər ictimai elmlərlə münasibəti və əhəmiyyəti müəyyən edilir. Bu hissədə multikulturalizmin mahiyyəti, multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi, multikulturalizmin formalaşmasının əsas səbəbləri, multikulturalizmin assimilyasiya və izolyasiya siyasət modelləri ilə müqayisəli təhlili, multikulturalizmin zəif və güclü formaları, multikulturalizmə liberalizm və kommunitarizm yanaşmaları kimi bir sıra mühüm nəzəri məsələlər də təqdim olunur.

*"Dini müxtəliflik"* adlanan ikinci bölmə dinlər tarixinə həsr olunmuşdur. Burada dinin mahiyyətinə və onun meydana gəlməsinə dair elm dünyasında irəli sürülən nəzəriyyələr barədə məlumat verilir, ibtidai inanc formaları nəzərdən keçirilir, Buddizm, Xristianlıq və İslam kimi dünya dinlərindən, Yaxın Şərqdə meydana gəlmiş Zərdüştilik və İudaizm, Uzaq Şərqdə yaranmış Konfutsiçilik, Daosizm, Şintoizm, Cənubi Asiyada yayılmış Hinduizm, Caynizm, Siqhizm kimi milli dinlərdən, eləcə də qədim türk inanclarından ətraflı bəhs olunur.

Məlumdur ki, Sovet hakimiyyəti illərində Sovet İttifaqının bütün ali məktəblərində elmi ateizm fənni tədris olunur, hətta bəzi ali məktəblərdə eyniadlı kafedralar da fəaliyyət göstərirdi. Elmi ateizm fənni çərçivəsində müxtəlif dinlər haqqında müəyyən məlumat verilsə də, din kommunist ideologiyası mövqeyindən neqativ bir fenomen kimi təqdim edilirdi. Karl Marksın məşhur *"Din – xalq üçün tiryəkdir"* kəlamının doğruluğu "elmi" əsaslarla sübuta yetirilməyə çalışılırdı.

Sovet İttifaqı dağıldıqdan sonra ali məktəblərin elmi ateizm kafedraları bağlanmış və tələbələrə müxtəlif dinlər haqqında obyektiv bilik çatdırmaq imkanı yaranmışdır. Lakin bu sahədə Azərbaycan dilində dərs vəsaitinin olmaması səbəbindən ictimai fənlər çərçivəsində dinlər haqqında məlumat vermək istəyən müəllimlər əsasən rus, türk və digər xarici dillərdə olan dərs vəsaitlərinə müraciət etmək məcburiyyətində qalırlar. Ümid etmək olar ki, *"Dini müxtəliflik"* bölməsi ölkəmizdə dinlər tarixi sahəsindəki boşluğu aradan qaldıracaqdır.

Bu bölmənin nəzəri əhəmiyyəti ilə yanaşı, praktiki önəmi də qeyd edilməlidir. Belə ki, hazırda din və məzhəb zəminində münaqişələrin artması, din pərdəsi altında çıxış edən müxtəlif ekstremist təmayüllü qrup və təşkilatların fəaliyyət coğrafiyasının getdikcə genişlənməsi və daha çox

ölkələri əhatə etməsi müasir dünyanın ən ağrılı problemlərindən biridir. Dini-siyasi ekstremizm planetimizin müxtəlif regionlarında getdikcə geniş vüsət alır və bunun nəticəsi kimi dini şüarlar altında törədilən terror aktlarının sayı durmadan artır. Bu gün müxtəlif ekstremist qruplar dünyəvi və demokratik dəyərlərə qarşı çıxır, insanlar arasında qorxu və xof yaratmaqla, eləcə də zorakılıq və silahlı terror təxribatları törətməklə öz ifrat dini ideyalarını bərqərar etməyə çalışırlar.

Müşahidələr göstərir ki, ifrat dini ideyaların təsiri altına daha çox dini cəhətdən savadsız şəxslər düşür. Onlar nəinki başqa inanclar, hətta təəssübkeşliyini çəkdikləri öz etiqadları barədə elementar biliklərə malik deyillər. Bunu ABŞ Hərbi Akademiyasının elmi əməkdaşlarının apardıqları elmi təhlillər də təsdiqləyir. Akademiyanın tədqiqatçıları özünü İslam dövləti kimi təqdim edən İŞİD terror təşkilatına məxsus olan anket bazasını nəzərdən keçirərək 2013-2014-cü illərdə bu qeyri-qanuni silahlı birləşmənin tərkibində vuruşmaq üçün müraciət etmiş 4188 şəxsin ərizə-anketini təhlil etmişlər. Məlum olmuşdur ki, həmin şəxslərin on nəfərindən yeddisi öz ərizə-anketində İslam dini haqqında səthi biliklərə malik olduğunu göstərmişlər. Bu isə bir daha sübut edir ki, ifrat dini ideyalar din haqqında məlumatı olmayan kəslər arasında uğur qazanır. Odur ki, dini fanatizm və radikalizmin təzahürləri ilə mübarizənin ən səmərəli yollarından biri dini biliklərin artırılması və düzgün dini maarifləndirmə işinin aparılmasıdır.

Dini maarifləndirmənin başlıca məqsədi fərdə onun mənsub olduğu dinlə yanaşı, həm də müxtəlif dinlər haqqında obyektiv elmi meyarlara cavab verən biliyin çatdırılmasıdır. Çünki fərqli dini inanclar sistemi haqqında məlumatlılıq fərdin dünyagörüşünü artırmaqla, onda digər dinlərin mənsublarına tolerant münasibət formalaşdırır. Bu isə, öz növbəsində, insanda ifrat ideologiyalara qarşı immunitet yaradır. Dinşünaslığın banisi, XIX əsrin məşhur alman alimi Maks Müllerin təbirincə desək, *"yalnız öz dinini bilən kəs heç bir dini bilmir"*.

Bu mənada hesab edirik ki, dərsliyin *"Dini müxtəliflik"* bölməsində dini maarifləndirmə işinin aparılması, gənclərimizdə müxtəlif dini inanclar sistemi barədə təsəvvürün yaradılması, onlarda başqa etiqad mənsublarına hörmətlə yanaşmaq kimi yüksək insani keyfiyyətlərin formalaşdırılması baxımından zəruri materiallar toplanmışdır.

Dərsliyin *"Etnik müxtəliflik"* adlanan üçüncü bölməsində öz elmi

ənənələrimizə, sovet və post-sovet elmi məkanında, habelə beynəlxalq miqyasda əldə edilmiş nəzəri müddəalara əsaslanaraq, insanların tarixi birlik formaları, etnik kimlik və milli müəyyənlik problemi, etnik dəyərlər və milli mentalitet, milli şüurun və milli ideyanın formalaşmasında etnik dəyərlərin rolu, etnik müxtəliflik və onun qorunması kimi nəzəri-metodoloji məsələlər tələbə və geniş oxucu auditoriyasına təqdim edilir.

Dərsliyin *"Multikulturalizm"* adlanan sonuncu - dördüncü bölməsində multikulturalizm siyasət modelinin mahiyyəti və əhəmiyyəti açıqlanır, onun assimilyasiya, izolyasiya və aparteid siyasət modelləri, eyni zamanda, interkulturalizmlə müqayisəli təhlili aparılır, multikulturalizmin ölkənin xarici siyasətinə təsiri, multikultural təhlükəsizlik, davamlı və inklüziv inkişafın əldə olunmasında multikulturalizm siyasətinin rolu, multikulturalizm və gender, multikulturalizm və media kimi bir sıra mühüm ictimai-siyasi əhəmiyyət kəsb edən aktual məsələlər nəzərdən keçirilir.

Qeyd olunan nəzəri məsələlərlə yanaşı, bu bölmədə əksini tapan və praktiki əhəmiyyət kəsb məqamlardan biri cəmiyyətdəki *etnik-mədəni müxtəlifliyin qorunmasının və multikulturalizm siyasətinin səmərəliliyinin ölçülməsi* məsələsidir. Multikulturalizm siyasətinin effektivlik səviyyəsi konkret indikatorlar vasitəsilə müəyyən edilir. İndikatorlar bu və ya digər çoxmədəniyyətli cəmiyyətin multikultural və tolerant olduğunu ümumi sözlərlə deyil, konkret faktlar vasitəsilə göstərməyə imkan verir. Dərslikdə hər bir çoxmədəniyyətli cəmiyyətdə yaşayan 3 əsas azlıq qrupunun *(avtoxton və alloxton xalqlar, immiqrantlar)* nümayəndələri üçün ayrılıqda müvafiq indikatorlar təqdim olunmuşdur. Bu indikatorlar hər bir azlıq qrupunun yaşadığı cəmiyyətə inteqrasiya dərəcəsini, eyni zamanda, ölkədə multikulturalizm siyasətinin səmərəlilik səviyyəsini göstərir.

Bu bölmənin mühüm əhəmiyyət kəsb edən *"Müasir dövrdə Qərb ölkələrində etnik–mədəni müxtəliflik və onun tənzimlənməsi"* adlı fəslində multikulturalizm siyasətinin meydana gəldiyi Qərb ölkələrinin bu sahədəki təcrübəsi nəzərdən keçirilir. Burada müasir dövrdə Qərbi Avropa ölkələrində geniş yayılan islamofobiya və antisemitizm kimi dözümsüzlük və ayrı-seçkilik formalarından bəhs olunur. Təhlillər nəticəsində belə bir qənaətə gəlinir ki, Qərbi Avropada multikulturalizmin iflasa uğramasının başlıca səbəbi bu ölkələrdə islamofobiya və antisemitizmin yayılmasıdır. Bölmədə, həmçinin,

Kanada, Avstraliya, ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Hollandiya, İspaniya və İtaliyada multikultural dəyərlərin qorunması və etnik-mədəni müxtəlifliyin tənzimlənməsi təcrübəsi geniş təhqiqata cəlb edilərək qeyd olunan Qərb ölkələrində ən səmərəli multikulturalizm siyasətinin Kanada, Avstraliya və Hollandiyada həyata keçirildiyi göstərilir.

"*Müasir dövrdə Azərbaycanda multikulturalizm*" adlı fəsildə multikulturalizmin Azərbaycan modeli hərtərəfli təhlil olunur. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və müasir dövrdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla aparılan multikulturalizm siyasətinin əsas göstəricisi Azərbaycanda etnik və dini zəmində heç bir qarşıdurmanın olmaması, ölkədə ictimai-siyasi sabitliyin və davamlı milli-mənəvi həmrəyliyin hökm sürməsidir. Məhz belə bir uğurlu və düşünülmüş siyasətin nəticəsidir ki, Azərbaycan dünyada multikulturalizmin əsas mərkəzlərindən birinə çevrilmişdir. Dərslikdə multikulturalizmin Azərbaycan modelinin formalaşmasının obyektiv və subyektiv səbəbləri, xüsusiyyətləri nəzərdən keçirilir, multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı barədə ətraflı məlumat verilir.

Dərslik tələbələr, magistrlər və doktorantlar, həmçinin multikulturalizmin aktual məsələləri ilə maraqlanan geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

***Akademik Ramiz Mehdiyev***

# I BÖLMƏ

## GİRİŞ

# I FƏSİL

# "MULTİKULTURALİZMƏ GİRİŞ" FƏNNİNİN PREDMETİ VƏ ƏHƏMİYYƏTİ. MULTİKULTURALİZMƏ LİBERALİZM VƏ KOMMUNİTARİZM YANAŞMALARI

## 1.1. Multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi

### *Multikulturalizm sosial hadisə kimi*

Multikulturalizm məfhumu iki mənada işlədilir: *geniş* və *dar* mənalarda. Geniş mənada işlədilən multikulturalizm məfhumu onun etimologiyasını əks etdirir. Məlum olduğu kimi, "multikulturalizm" məfhumu iki sözün birləşməsindən əmələ gəlmişdir- "multi" və "kultura" (latın dilindən tərcümədə çoxmədəniyyətlilik deməkdir). Buna görə də sözün geniş mənasında multikulturalizm termini onun etimologiyasından irəli gələrək çoxmədəniyyətlilik məfhumunun sinonimi kimi işlədilir. Çoxmədəniyyətlilik dedikdə isə ilk növbədə etnik, irqi, dini və mədəni müxtəlifliklər, eləcə də bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərlər nəzərdə tutulur.

Düzdür, ilk baxışda etnik, irqi, dini və mədəni müxtəlifliklərlə yanaşı çoxmədəniyyətlilik mənasında işlədilən multikulturalizm terminınə kişi-qadın bərabərliyi, cinsi azlıqların hüquqları kimi məsələlər də daxildir. Lakin multikulturalizm məhfumu çoxmədəniyyətlilik məfhumunun sinonimi kimi ilk növbədə etnik, irqi, dini və mədəni müxtəlifliklər və bu müxtəlifliklərin əsasını təşkil edən etnik-mədəni dəyərləri ehtiva edir. Bununla əlaqədar Stenford Ensiklopediyasında qeyd olunur ki, multikulturalizm məfhumuna bütün məzlum qruplar – afro-amerikalılar, qadınlar, cinsi azlıqların nümayəndələri, şikəstlər və s. – aid edilsə də, multikulturalizmin tədqiqatçılarının əksəriyyəti adətən bu

məfhuma etnik və dini azlıqları təşkil edən immiqrantları (mühacirləri) (məs., ABŞ-dakı Latın Amerikalıları, Qərbi Avropada müsəlmanları), milli azlıqları (məs. katalonları, baskları, uelsliləri, kvebekliləri) və yerli xalqları (məs., Şimali Amerikadakı yerli xalqları, Yeni Zellandiyadakı maoriləri) daxil edirlər.

Müasir dövrdə, xüsusilə də qloballaşma şəraitində, etnik, irqi, dini və/ və ya mədəni müxtəlifliklərin mövcud olmadığı ölkəni tapmaq qeyri mümkündür. Dünyanın hər bir ölkəsində qeyd olunan müxtəlifliklərin ən azı birinə, bir neçəsinə və ya hətta hamısına rast gəlinir. Bu müxtəlifliklər hər bir xalqın həyatında əhəmiyyətli rol oynayır. Belə ki, müxtəlifliklər xalqların etnik-mədəni dəyərlərini, mədəniyyətlərini xarakterizə etməklə, onların dünyagörüşünün və fəaliyyətlərinin əsasını təşkil etməklə həyatlarında müsbət rol oynayır. Sözün geniş mənasında işlədilən multikulturalizm məhfumunun əsasında biz müxtəlif etnik, irqi, dini və mədəni qrupların nümayəndələrinin birgə yaşadıqları cəmiyyəti *multikultural cəmiyyət* adlandıra bilərik. Buna görə də sözün geniş mənasında müasir dövrdə, demək olar ki, bütün dövlətlər multikulturaldır.

Çoxmədəniyyətlilik mənasında, yəni sözün geniş mənasında işlədilən multikulturalizm məfhumu ilk növbədə özünü *sosial hadisə* kimi büruzə verir. Multikulturalizmə sosial hadisə kimi yanaşma onun tədqiq olunmasında tətbiq olunan mühüm metodlardan biri olan sosioloji metodun əsasını təşkil edir.

Multikulturalizmin sosial hadisə kimi təqdim edilməsi onun mühüm cəhətlərindən birinin qeyd olunması deməkdir. Bu isə onun mahiyyətinin və əhəmiyyətinin müəyyən edilməsinə kömək edir. Belə ki, multikulturalizmin sosial hadisə kimi təqdim olunması onun cəmiyyətin məhsulu olaraq ictimai inkişafının müəyyən mərhələsində, eləcə də cəmiyyətdə cərəyan edən bu və ya digər hadisələrin təsiri altında meydana gəlməsini göstərir. Məsələn, multikulturalizmin bir sosial hadisə kimi formalaşmasına müəyyən ərazidə uzun illərdən bəri müxtəlif xalqların birgə yaşamaları, miqrasiya prosesləri, xalqlar arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsi və bu kimi bir sıra digər mühüm sosial hadisələr təsir göstərmişdir. Bundan başqa multikulturalizmin bir sosial hadisə kimi təqdim edilməsi onun formalaşma və inkişaf mərhələlərində digər sosial hadisələrə (siyasətə, iqtisadiyyata, mədəniyyətə, mənəviyyata, ictimai şüurun müxtəlif formalarına və s.) təsiri, onlarla qarşılıqlı münasibətdə olması müəyyən edilir.

## *Multikulturalizm siyasət modeli kimi*

Yuxarıda qeyd etdiyimiz kimi, multikulturalizm termini iki mənada işlədilir: *geniş* və *dar* mənalarda. Sözün geniş mənasında multikulturalizm termini çoxmədəniyyətlilik məfhumunun sinonimi kimi işlədilirsə, sözün dar mənasında bu termin cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərə münasibətdə dövlətin apardığı konkret siyasəti xarakterizə edir. Bu siyasətin əsasında cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması durur.

Kanadalı tədqiqatçı Pol Dyumoçel (Paul Dumouchel) *"Müqayisəli Multikulturalizm"* adlı məqaləsində multikulturalizm termininin ədəbiyyatda ən azı 3 müxtəlif mənada işlədilməsini qeyd edir. Birinci mənada bu termin elə bir sosial-tarixi situasiyanı xarakterizə edir ki, orada bir neçə müxtəlif etnik-mədəni qrupun nümayəndələri birgə yaşayırlar. Onun fikrincə, bu mənada işlədilən multikulturalizm termini deskriptiv (təsviredici) xarakter daşıyır. Dyumoçelin bu mənada işlətdiyi multikulturalizm termini bizim yuxarıda qeyd etdiyimiz multikulturalizm termininin sözün geniş mənasında işlədilməsini xatırladır.

Dyumoçelə görə, multikulturalizm termininin ikinci mənası cəmiyyətdəki etnik-mədəni müxtəlifliyə münasibətdə dövlət tərəfindən aparılan konkret *siyasətlə* bağlıdır. Multikulturalizm termininin ikinci mənası onun birinci mənasından irəli gəlir. Belə ki, cəmiyyətdəki multikultural situasiyanı idarə etmək məqsədilə dövlət bir neçə mümkün siyasət sırasında multikulturalizm siyasətinə də müraciət edir. Bu mənada işlədilən multikulturalizm termini dövlətin cəmiyyətdəki etnik-mədəni müxtəlifliyə reaksiyasını, daha konkret desək, bu müxtəlifliyin qorunmasını, eləcə də bəzi hallarda hətta inkişaf etdirilməsini nəzərdə tutan multikulturalizm siyasətini ehtiva edir. Dyumoçelin ikinci mənada işlətdiyi multikulturalizm termini bizim yuxarıda qeyd etdiyimiz multikulturalizm sözünün dar mənası ilə eynidir.

Dyumoçelə görə, multikulturalizm termininin üçüncü mənası *normativ xarakter* daşıyaraq çoxmədəniyyətli cəmiyyətin ədalət baxımınından necə olmalı olduğunu göstərir. Dyumoçel multikulturalizm termininin bu anlamda multikulturalizm fenomeninin tanınmış tədqiqatçıları olan Çarlz Teylorun, Vil Kimlikanın və Ceyms Tallinin əsərlərində istifadə edilməsini göstərir. Bu müəlliflər hesab edirlər ki, etnik-mədəni müxtəliflik olan cəmiyyətdə müxtəliflik

qorunmalı və inkişaf etdirilməlidir. Bu, *multikultural ədalətin* normativ tələbidir.

Əslində Dyumoçelin təqdim etdiyi multikulturalizm termininin üçüncü mənası bu terminin ikinci mənasının konkretləşdirilməsidir. Bu səbəbdən onu multikulturalizm termininin ayrıca bir mənası kimi vermək düzgün deyil.

Beləliklə, siyasət modeli mənasında işlədilən multikulturalizm termini bu sosial hadisənin mühüm cəhətini xarakterizə edir- onu *dövlət ideologiyasının tərkib hissəsi*, *dövlət siyasətinin mühüm istiqaməti* kimi təqdim edir. Daha konkret desək, multikulturalizm siyasət modeli kimi cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunmasını nəzərdə tutur. Etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması ictimai inkişafın mühüm mənbələrindən biridir. Bununla bağlı 2 noyabr 2001-ci il tarixində UNESKO-nun "Mədəni müxtəliflik haqqında ümumdünya Bəyannaməsi"nin "Mədəni müxtəliflik, bəşəriyyətin ümumi irsi" adlı 1-ci maddəsində deyilir: *"Mübadilənin, innovasiyanın və yaradıcılığın mənbəyi olan mədəni müxtəliflik təbiət üçün biomüxtəlifliyin zəruri olduğu kimi bəşəriyyət üçün zəruridir. Buna görə də mədəni müxtəliflik bəşəriyyətin ümumi irsidir və o, indiki və gələcək nəsillərin rifahı naminə tanınmalı və təsdiq olunmalıdır"*. Cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin qorunmasına yüksək önəm verən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: *"Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir"*.

## *Multikulturalizm həyat tərzi kimi*

Bir sosial hadisə kimi meydana gələn multikulturalizmin inkişafının sonrakı mərhələsi onun dövlət ideologiyasına, dövlət siyasətinə çevrilməsi ilə bağlıdır. Bu mərhələlərin reallaşmasında əsas rol dövlətə məxsusdur. Multikulturalizmin cəmiyyətdə inkişafının sonrakı mərhələsi onun xalqların *həyat tərzinə* çevrilməsi ilə bağlıdır. Multikulturalizmin vətəndaşların həyat tərzinə çevrilməsi onun inkişafının ən yüksək mərhələsidir. Düzdür, elə xalqlar var ki, multikulturalizmin dövlət ideologiyasına, dövlət siyasətinə çevrilməsindən asılı olmayaraq və bu prosesdən çox əvvəl tarixən yüksək multikultural və tolerantlıq ənənələrinə malik olmuşdular. Belə xalqlar ərazilərində yaşayan digər xalqları heç vaxt ayrı-seçkiliyə, təqibə məruz qoymamışdılar, onlara qarşı heç vaxt dözümsüzlük nümayiş etdirməmiş və onlarla sülh və əmin-amanlıq şəraitində yaşamışdır.

Belə xalqlardan biri Azərbaycan xalqıdır. Azərbaycan xalqı tarixinin bütün mərhələlərində onun ərazisində yaşayan bütün xalqların nümayəndələrinə xoş münasibət bəsləmiş, onların etnik, dini və mədəni dəyərlərinə nəinki dözümlük nümayiş etdirmiş, həmçinin hörmətlə yanaşmışdır. Tarixin müxtəlif mərhələlərində Azərbaycan xalqı təqibə məruz qalan etnik, dini azlıqların nümayəndələrinə sığınacaq vermişdir. Multikulturalizmin Azərbaycan xalqının həyat tərzinə çevrilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində aşağıdakıları söyləmişdir: *"Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Eyni zamanda, bu, bizim həyat tərzimizdir. Multikulturalizmin nisbətən yeni və bəzən çətin tələffüz edilən termin olmasına baxmayaraq, multikulturalizm ideyaları hər zaman ölkəmizdə mövcud olmuşdur. Tarixi dönəmdən və siyasi sistemdən asılı olmayaraq, xalqımız hər zaman istər ölkədə, istərsə də onun hüdudlarından kənarda multikulturalizmi fəal müdafiə və təşviq etmişdir".*

Lakin tarixi təcrübə göstərir ki, bu və ya digər xalqın tarixi multikultural və tolerantlıq ənənələrinin multikulturalizmin onun həyat tərzinə çevrilməsində mühüm rol oynamasına baxmayaraq, dövlət tərəfindən məqsədyönlü şəkildə cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması təmin olunmadıqda cəmiyyətin inkişafında etnik, dini və mədəni zəmində qarşıdurmalar yaranır. Başqa sözlə desək, multikulturalizmin xalqın həyat tərzinə çevrilməsində dövlət, onun apardığı multikulturalizm siyasəti əhəmiyyətli rol oynayır. Deyilənləri sübut etmək üçün Qərb ölkələrində multikulturalizmin meydana gəlməsində və bir dəyər kimi yayılmasında dövlətin bu sahədə həyata keçirdiyi siyasəti göstərmək olar. Bundan başqa hazırki dövrdə, xüsusilə də Qərb ölkələrində multikulturalizm siyasətinin ciddi çətinliklərlə üzləşdiyi bir dövrdə, dövlət tərəfindən multikulturalizmə dəstək olmasa həmin ölkələrdə islamofobiyanın, antisemitizmin, ksenofobiyanın və ayrıseçkiliyin, dözümsüzlüyün digər formalarının yayılmasının qarşısını almaq mümkün olmaz. Buna görə də multikulturalizmin xalqın həyat tərzi səviyyəsinə keçirdirilməsi onun dövlət siyasəti səviyyəsinə qaldırılması şəraitində daha realdır.

Beləliklə, multikulturalizmin sosial hadisə, siyasət modeli və həyat tərzi kimi təqdim olunması onun mahiyyətini acır. Bu isə öz növbəsində "Multikulturalizmə giriş" fənninin predmetinin müəyyən edilməsində əhəmiyyətlidir.

## 1.2. "Multikulturalizmə giriş" fənninin obyekti, predmeti və məqsədi. Onun digər ictimai elmlərlə münasibəti

Hər bir fənnin, elmin öyrənilməsi onun obyektinin, predmetinin və məqsədinin müəyyən edilməsindən başlayır. Bu isə öz növbəsində elmin məzmununun açıqlanmasına kömək edir. Elmin obyekti və predmeti bir-birilə sıx bağlıdır. Lakin onları bir-birilə eyniləşdirmək düzgün deyil. Elmin obyektini insanın idraki fəaliyyəti vasitəsilə dərk olunan reallıq təşkil edir. Obyektin bilavasitə tədqiq olunan xüsusiyyətləri, əlamətləri, tərəfləri isə elmin predmeti kimi çıxış edir. Elmin obyekti onun predmetinə münasibətdə daha genişdir. Daha konkret desək, elmin predmeti onun obyektinin müəyyən bir hissəsi kimi obyektin bu və ya digər elm sahəsi üçün müəyyən elmi-nəzəri və praktiki əhəmiyyət kəsb edən xüsusiyyətlərini, əlamətlərini, tərəflərini əks etdirir. Elmin predmeti subyektin, yəni tədqiqatçının obyektə münasibətini ifadə edir. O, subyekt tərəfindən reallığın hansı xüsusiyyətlərinin və əlamətlərinin öyrənildiyini göstərir.

Elmin obyekti və predmeti haqqında yuxarıda deyilənləri nəzərə alaraq "Multikulturalizmə giriş" fənninin obyektini və predmetini müəyyən etmək olar. "Multikulturalizmə giriş" fənninin obyektini çoxmədəniyyətlilik təşkil edir. Əvvəlki yarımfəsildə qeyd olunmuşdur ki, çoxmədəniyyətlilik məfhumu sözün geniş mənasında işlədilən multikulturalizm məfhumunun məzmununu əks edir və o, cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəliflikləri, eləcə də bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərləri ehtiva edir.

"Multikulturalizmə giriş" fənninin predmetinə gəldikdə isə, *cəmiyyətdəki çoxmədəniyyətliliyin, yəni etnik, irqi, dini və mədəni müxtəlifliklərin, bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərlərin qorunmasının yollarını öyrədir.*

Fənnin predmetinin tərifində onun məqsədi aydın şəkildə özünü büruzə verir. *Müasir multikultural cəmiyyətdə etnik, irqi, dini və mədəni müxtəlifliklərin, həmçinin bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərlərin qorunmasının yollarının müəyyən edilməsi "Multikulturalizmə giriş" fənninin məqsədidir.*

"Multikulturalizmə giriş" fənninin obyekti olan çoxmədəniyyətliliyi digər fənlər də öyrənə bilər. Məsələn, çoxmədəniyyətlilik fəlsəfə, sosiologiya və

mədəniyyətşünaslıq kimi elmlər üçün də tədqiqat obyekti qismində çıxış edə bilər. Lakin bu sadalanan elmlərin hər biri çoxmədəniyyətliliyə öz predmetinə uyğun şəkildə yanaşır. Fəlsəfə çoxmədəniyyətliliyin əsasən mahiyyətini, sosiologiya onun cəmiyyətdə formalaşmasını, digər sosial hadisələrlə münasibətlərini, mədəniyyətşünaslıq isə daha çox əhəmiyyətini ön plana çəkir.

"Multikulturalizmə giriş" fənni *interdissiplinar* bir fəndir. O, fəlsəfə, tarix, sosiologiya, kulturologiya, hüquq, politologiya kimi ictimai elmlərin müddəalarına əsaslanır. Bu müddəalar "Multikulturalizmə giriş" fənninin predmetinin əsaslı şəkildə dərk olunmasına kömək edir.

Qeyd olunan ictimai elmlərin "Multikulturalizmə giriş" fənninə təsirini nəzərdən keçirək.

*Fəlsəfə* "Multikulturalizmə giriş" fənninin nəzəri-metodoloji əsasını təşkil edir. "Multikulturalizmə giriş" fənni fəlsəfənin bir neçə mühüm elmi-nəzəri müddəalarına əsaslanır. Məsələn, müasir fəlsəfə elmində geniş yayılmış mədəniyyətin ictimai inkişafda aparıcı rol oynaması ideyası və bu ideyaya əsaslanan mədəni-sivilizasion yanaşma cəmiyyətdəki etnik, dini, irqi və mədəni müxtəlifliklərin tənzimlənməsində multikulturalizmin digər siyasət modellərindən daha üstün və daha optimal siyasət modeli olmasını əsaslandırmağa kömək edir. Bundan başqa multikulturalizm bir nəzəri-ideoloji cərəyan kimi yeni dövrdən bəri dünya fəlsəfi fikrində olan bəzi nəzəriyyələrə əsaslanır. Müasir dövrdə isə multikulturalizmin nəzəri əsaslarından olan liberalism və kommunitarizm yanaşmaları öz mahiyyətinə görə fəlsəfi yanaşmadır.

"Multikulturalizmə giriş" fənninin bir çox nəzəri müddəaları müxtəlif ölkələrdə baş verən hadisələrin ümumiləşdirilməsinin nəticəsində əldə edilmişdir. *Tarix elmi* tərəfindən empirik material kimi təqdim olunan faktlar, xüsusilə də müxtəlif ölkələrdə etnik, dini, irqi və mədəni müxtəlifliklərin tənzimlənməsi təcrübəsi bu fənnin bir sıra mühüm müddəalarının əsaslandırılması üçün mühüm rol oynayır.

*Sosiologiya* ilə "Multikulturalizmə giriş" fənninin münasibətinə gəldikdə qeyd etmək lazımdır ki, sosiologiya elmi multikulturalizmə bir sosial hadisə kimi yanaşaraq onun mahiyyətinin müəyyən edilməsi istiqamətində mühüm rol oynayır. Bundan başqa sosiologiya multikulturalizmi bir sosial hadisə kimi sosioloji metod vasitəsilə tədqiq edərək onun digər ictimai hadisələrdən, ilk növbədə mövcud iqtisadi münasibətlərdən, dövlətin daxili və xarici siyasətindən,

cəmiyyətin sosial strukturundan, hakim ideologiyadan, titul xalqın etnik-mədəni dəyərlərindən asılılığını müəyyən edir. Başqa sözlə desək, sosioloji metod multikulturalizmin mahiyyətini, hərəkətverici qüvvələrini bu və ya digər cəmiyyətin inkişafı ilə əlaqələndirir.

*Kulturologiya* dünya xalqlarının mədəniyyətində, ədəbiyyatında, incəsənətində əks olunan etnik, dini və mədəni dəyərləri onların dünyagörüşlərinin və fəaliyyətlərinin mühüm bir istiqamətverici faktoru kimi təqdim edir. Bu, həm mədəniyyətin ictimai inkişafda aparıcı rol oynaması ideyasını, həm də multikulturalizmin cəmiyyətdəki etnik, dini, irqi və mədəni müxtəlifliklərin tənzimlənməsində əlverişli siyasət modeli olmasını təsdiqləyir.

*Hüquq elmi* etnik, irqi, dini və mədəni azlıqların hüquqlarının müdafiə olunması və onların etnik-mədəni dəyərlərinin qorunması sahəsində beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş sənədləri təhlil etməklə multikulturalizmin, tolerantlığın beynəlxalq müstəvidə yayılmasına dair məlumat verir.

*Politologiya elmi* dünya ölkələrində multikulturalizmin meydana gəlməsi və inkişafını şərtləndirən amilləri müəyyən edərək etnik, dini, irqi və mədəni müxtəlifliklərin tənzimlənməsi təcrübəsi sahəsində ölkələr arasında olan fərqlərin səbəblərini açıqlayır. Bu, müasir dövrdə multikulturalizm siyasətinin müəyyən ölkələrdə uğurla həyata keçirilməsinin, digər ölkələrdə isə çətinliklərlə üzləşməsinin səbəblərini anlamağa kömək edir. Bundan başqa multikulturalizm siyasətinin müasir dövr üçün ən aktual məsələlərindən biri olan- bu siyasətin meydana gəldiyi bir sıra Qərb ölkələrində iflasa uğramasının səbəbləri göstərilir.

## 1.3. “Multikulturalizmə giriş” fənninin metodları

Hər bir fənnin tədqiqat metodları olduğu kimi “Multikulturalizmə giriş” fənninin də tədqiqat metodları vardır. Metod (yunan dilindən tərcümədə “nəyəsə aparan yol” deməkdir) elmi biliyin əldə olunmasının yolu, dərketmə prosesinin, xüsusən də elmin predmetinin öyrənilməsi üsuludur. Elmi cəhətdən əsaslandırılmış metodların tətbiq edilməsi idrakın müvəffəqiyyətlə inkişafının ən mühüm şərtidir. Metod elmi biliyin əldə edilməsinin və onun praktik fəaliyyətdə tətbiqinin yollarını, üsullarını göstərir. Əgər metodun tətbiq edilməsinin məqsədi elmi biliyin əldə edilməsidirsə, onda tətbiq edilən metodun özü də elmi olmalıdır. Buna görə də hər bir elmdə, o cümlədən hər bir tədris fənnində tətbiq ediləcək müvafiq metodların seçilməsi mühüm bir məsələdir.

“Multikulturalizmə giriş” fənnində *müşahidə, müqayisə, ölçü, eksperiment, induksiya və deduksiya, analiz və sintez, abstraktlaşma, ümumiləşdirmə*, *təsnifat və analogiya* kimi ümumməntiqi metodlardan və ya elmi idrakın ümumi metodlarından istifadə olunur.

### *Müşahidə*

*Müşahidə* - cisim və hadisələrin öyrənilməsinə, onların mənasının və əhəmiyyətinin müəyyən edilməsinə yönələn gerçəkliyin məqsədyönlü qavrayışıdır.

Müşahidə prosesi müşahidənin *obyekti* (müşahidə olunan cisim və ya hadisə), müşahidənin *subyekti* (müşahidəçi), müşahidənin *vasitələri* və müşahidənin *məqsədi* kimi tərkib hissələrdən ibarətdir.

Müşahidə tədqiq olunan obyekt haqqında ilkin məlumatın alınmasına yönəlmişdir. Müşahidə vasitəsi kimi insanın hiss orqanları çıxış edir. Bir qayda olaraq müşahidə zamanı subyekt obyektin inkişafına müdaxilə etmir. Obyekt təbii, adi şəraitdə olur. Subyekt isə onu öyrənir.

Müşahidə nəticəsində əldə olunan məlumat subyektin istəyindən, arzularından asılı olmur. Başqa sözlə desək, bu məlumat obyektiv xarakter daşıyır. O, müşahidə olunan cisim və hadisələrin obyektiv əlamətləri və münasibətləri haqqında bizə xəbər verir. Sözügedən məlumatın məzmunu tədqiq olunan cisim və hadisələrin sonrakı öyrənilməsinin növbəti mərhələlərində tədqiqatçı üçün faydalı olur.

Müşahidənin iki növü vardır:

**a.** Xarici və ya kənardan aparılan müşahidə. Xarici müşahidədə müşahidəçi baş verən prosesi kənardan izləyir;

**b.** Daxili müşahidə. Burada müşahidəçı baş verən prosesin fəal iştirakçısı kimi çıxış edir.

Məsələn, bu və ya digər Avropa ölkəsinə miqrant kimi gəlmiş əcnəbilərin adət-ənənələrini öyrənmək üçün tədqiqatçı onları 2 yolla müşahidə edə bilər. Ya onları kənardan seyr edə bilər, yaxud onlarla yaxından tanış olub aralarında tədqiqatını apara bilər. Birinci halda aparılan müşahidə xarici, ikinci haldakı isə daxili müşahidə adlanacaqdır.

Bundan başqa müşahidə zamanı texniki vasitələrdən istifadə olunub-olunmamasından asılı olaraq müşahidə *bilavasitə və ya dolayı (instrumental)* ola bilər. Bilavasitə müşahidədə subyekt obyekt haqqında məlumatı heç bir texniki vasitədən (audio, video vasitələrdən, müxtəlif texiki avadanlıqlar və s.) istifadə etmədən əldə edir. Subyekt obyekt haqqında bilikləri dolayı yolla da (məsələn, müsahibə və ya anket sorğusu yolu ilə) əldə edə bilər. Belə müşahidəni dolayısı adlandırırlar.

Dərketmə prosesinin səmərəli metodu olmaq üçün müşahidə bir sıra tələblərə cavab verməlidir. İlk növbədə müşahidə *planlı* şəkildə aparılmalıdır. Müəyyən müşahidə aparmağı nəzərdə tutan tədqiqatçı konkret plan əsasında fəaliyyət göstərməlidir. Bundan başqa müşahidə *məqsədyönlü* olmalıdır. Tədqiqatçı bu və ya digər hadisəni müşahidə edərkən qarşısında müəyyən məqsəd qoymalıdır. O, müşahidə olunan hadisənin bütün əlamətlərini deyil, tədqiqat üçün müəyyən əhəmiyyət daşıyan əlamətini öyrənməlidir. Planlı və məqsədyönlü şəkildə aparılan müşahidə konkret situasiyadan asılı olaraq müşahidə metodunun yuxarıda qeyd olunan növlərindən (*daxili, xarici, bilavasitə və dolayı*) biri və ya bir neçəsi vasitəsilə fəal şəkildə həyata keçirilməlidir. Müşahidənin çevik olması onun qarşısında qoyulan daha bir mühüm tələbdir.

### *Müqayisə*

*Müqayisə*- idrak prosesinin ən geniş yayılmış və universal metodlarından biridir. Bu metod cisim və hadisələrin mahiyyətinin müəyyən edilməsində mühüm rol oynayır. Müqayisənin əsas məqsədi obyektlər arasında oxşar və fərqli

cəhətləri müəyyən etməkdən ibarətdir. Buna obyektlərin bir-birilə müəyyən əsasa görə tutuşdurulması vasitəsilə nail olunur.

Digər tədqiqat metodları kimi müqayisə də səmərəli olmaq üçün müəyyən tələblərə cavab verməlidir. Belə tələblərdən aşağıdakıları göstərmək olar:

1.Müqayisə bir metod kimi aralarında müəyyən *oxşar* əlamət olan obyektlərə münasibətdə tətbiq olunmalıdır;

2. Müqayisə cisim və hadisələrin *mühüm* əlamətləri üzrə aparılmalıdır.

Məsələn, cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin effektivliyi baxımından iki ölkə arasında müqayisə aparılarkən bu ölkələr arasında müəyyən oxşar əlamətlər olmalıdır. Bu əlamətlər ölkələrin tarixində, coğrafiyasında, etno-siyasi, dini durumunda və ya digər mühüm əlamətində öz əksini tapmalıdır. Deyilənləri nəzərə alaraq, etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin effektivliyi baxımından, məsələn, Azərbaycanla Qazaxstanın müqayisə olunması Azərbaycanla Almaniyanın müqayisə olunmasından daha məqsədəuyğundur, çünki Azərbaycanla Qazaxstanın tarix, coğrafiya, etno-mədəni mühit və s. baxımından oxşar cəhətləri onun Almaniya ilə oxşar cəhətlərindən daha çoxdur.

## *Ölçü*

Ölçü- xüsusi texniki vasitələrdən və ölçü vahidlərindən istifadə etməklə obyektin kəmiyyət tərəflərinin müəyyən edilməsi metodur. Bu metod vasitəsilə obyektlərin kəmiyyəti ilə onların xüsusiyyətləri arasında qarşılıqlı münasibət müəyyən edilir.

Ölçü müqayisə metodu ilə bağlıdır. Hər bir müqayisənin aparılması ölçüyə əsaslanır. Buna görə də ölçü müqayisənin əsasını təşkil edir. Lakin müqayisədən fərqli olaraq ölçü daha dəqiq dərketmə prosesidir. Ölçü ətraf mühit haqqında daha dəqiq məlumat verir. Ölçünün keyfiyyətinin, onun elmi dəyərinin ən vacib göstəricisi dəqiqlikdir. Bu göstərici alimin çalışqanlığından, onun tətbiq etdiyi metodlardan və ölçü alətlərindən asılıdır.

Ölçü metodu bütün elmlər sahəsində, o cümlədən “Multikulturalizmə giriş” fənnində geniş istifadə olunur. Məsələn, “Multikulturalizmə giriş” fənnində bu metod vasitəsilə dövlətin immiqrant azlıqlar, milli azlıqlar və yerli xalqlar üzrə multikulturalizm siyasətinin indeksləri müəyyən edilir. Qeyd olunan

indekslər vasitəsilə bu və ya digər ölkədə multikulturalizm siyasəti vasitəsilə etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin vəziyyəti göstərilir.

### *Eksperiment*

*Eksperiment* (latın dilindən tərcümədə- təcrübə)- empirik tədqiqatın elə bir metodudur ki, o, bu və ya digər müddəanın həqiqiliyini yoxlamaq məqsədilə müşahidə situasiyası yaradaraq nəzarət və idarə olunan şəraitdə əşya və hadisələri tədqiq edir. Eksperiment müşahidə, ölçü və tədqiq olunan obyektlərə fiziki təsirdən ibarətdir. Müşahidədən fərqli olaraq eksperiment zamanı tədqiq edilən şərait əvvəlcədən mövcud olmur. O, xüsusi məqsədlə yaradılır. Digər empirik tədqiqat metodlarından fərqli olaraq eksperiment tədqiq olunan obyektin gedişatına müdaxilə etməyi nəzərdə tutur. Eksperiment zəruri şərtlərin yaradılmasına maneçilik törədən bütün təsirlərin və faktorların aradan götürülməsini, müvafiq texniki qurğularla müşahidənin və ölçünün aparılmasını ehtiva edir. Başqa sözlə desək, eksperiment obyekti dərk etmək məqsədilə həmin obyektə və ya onu əhatə edən mühitə bilavasitə fiziki təsiri nəzərdə tutan dərketmə metodudur.

Elmi idrakın tədqiqat metodu olan eksperimentin əsas xüsusiyyəti ondadır ki, burada məqsədyönlü şəkildə süni situasiya yaradılır. Belə bir situasiyanın yaradılmasında zərurət isə obyektin daha dərindən öyrənilməsidir. Tədqiqatçı məqsədyönlü şəkildə yaratdığı situasiyaya müdaxilə edərək faktorlarla manipulyasiya edir və tədqiq olunan obyektin davranışında baş verən müvafiq dəyişiklikləri qeydə alır.

Eksperiment elmi idrakın metodları arasında aparıcı rol oynayır və bir çox hallarda elmi biliyin həqiqiliyinin meyarı funksiyasını yerinə yetirir. Eksperiment vasitəsilə biliyin həqiqi olub-olmaması müəyyən edilir. Onun bu rolu özünü xüsusilə təbiət elmlərində göstərir. Lakin eksperimentin sözügedən funksiyası ictimai elmlərdə, o cümlədən “Multikulturalizmə giriş” fənnində də öz ifadəsini tapır. İctimai elmlər sahəsində müxtəlif eksperimentlər vasitəsilə cəmiyyətdəki hadisələr arasında səbəb-nəticə əlaqələri müəyyən edilir və yaxud tədqiq olunan hadisələrə müəyyən əlamətin xas olub-olmaması yoxlanılır. Məsələn, konkret bir ölkədə etnik və dini ayrı-seçkiliyin olub-olmamasını yoxlamaq məqsədilə bir eksperiment keçirtmək olar. Eksperiment zamanı respondentlər üçün nəzarət və

idarə olunan müşahidə situasiyası yaradaraq onlara müəyyən suallar verməklə, qarşılarına müəyyən praktik seçim etmək məsələsini qoymaqla qeyd olunan müddəanın həqiqiliyini eksperimental yolla sübuta yetirmək mümkündür.

## *İnduksiya*

İnduksiya (latın dilindən tərcümədə- yönəltmək) - bir tədqiqat metodu kimi biliyin konkret faktlardan ümumi müddəalara doğru hərəkətini ifadə edir. İnduktiv metod vasitəsilə konkret faktlar toplanır və ümumiləşdirilir. Nəticədə ümumiləşdirilmiş yeni bilik alınır.

İnduksiya - məqsədi biliyin fərdi hökmdən ümumi hökmə doğru hərəkətini təhlil etməkdən ibarət olan tədqiqat metodu olmaqla yanaşı müəyyən məntiqi forma kimi də çıxış edir. O, düşünülən məzmunun elə bir sabit əlaqəsidir ki, orada fikir xüsusi məddəalardan ümumi müddəalara tərəf yönəlmişdir. Aristotel əqli nəticənin bir forması kimi induksiyanın böyük idraki əhəmiyyətini qeyd etmişdir. Aristotelin fikrincə, induksiyanın müşahidə və eksperimentlə sıx bağlı olması, induktiv ümumiləşdirmənin yoxlanılması onu deduktiv əqli nəticə ilə müqayisədə daha sadə və geniş istifadə olunan edir.

İnduktiv metod "Multikulturalizmə giriş" fənnində çox istifadə olunan metodlardan biridir. Fənnin bir çox nəzəri müddəaları induktiv metodla alınmışdır. Məsələn, cəmiyyətdə dini ekstremizmin yayılmasında savadsızlığın böyük rol oynaması müddəası induktiv yolla əldə olunan faktların ümumiləşdirilməsdir.

Ümumi biliyin əldə edilməsində bütün faktlar istifadə olunursa, induksiya *tam* olur. Əks halda o, *natamam* olur. Əksər hallarda induktiv metodun tətbiqi zamanı əsasən obyektiv səbəblərdən bütün faktları nəzərə almaq çətindir. Buna görə də natamam induksiyaya daha çox rast gəlinir. Lakin tam induksiyadan fərqli olaraq natamam induksiyada əldə edilən bilik ehtimali xarakter daşıyır.

## *Deduksiya*

*Deduksiya* - induksiyaya əks olan metoddur. Deduksiya (latın dilindən tərcümədə- çıxartmaq) - bir tədqiqat metodu kimi bir və ya bir neçə ümumi xarakterli həqiqi müddəadan yeni həqiqi biliyin alınmasını səciyyələndirir. Əldə edilən bilik, bir qayda olaraq, zəruri xarakter daşıyır. Natamam induksiyadan

fərqli olaraq deduktiv metod vasitəsilə alınan nəticə ehtimal xarakterli deyildir.

İnduksiya kimi deduksiya da tədqiqat metodu olmaqla yanaşı müəyyən məntiqi forma kimi də çıxış edir. Bu özünü deduktiv əqli nəticədə göstərir. Deduktiv əqli nəticədə təfəkkür ümumi müqəddimədən (ilkin verilən həqiqi müddəa) xüsusi müqəddiməyə tərəf yönəlir.

Deduktiv əqli nəticədən alınan yeni biliyin (nəticənin) həqiqi olması üçün müqəddimələr həqiqi olmalıdır və məntiqin qaydalarına riayət edilməlidir. Əgər müqəddimələr həqiqi müddəalardan ibarətdirsə və düzgün təfəkkürün qaydalarına riayət olunursa, alınan nəticə həqiqi olacaqdır.

“Multikulturalizmə giriş” fənnində induktiv metod kimi deduktiv metodun da istifadə sahəsi genişdir. Bu metod vasitəsilə həqiqiliyi müəyyən edilmiş ümumi müddəalardan məntiqi yolla yeni həqiqi müddəalar əldə olunur. Məsələn, etnik-mədəni müxtəlifliyin multikulturalizm siyasəti vasitəsilə tənzimlənməsinin vacibliyini əsaslandırarkən bir çox tədqiqatçılar tərəfindən həqiqi müddəa kimi qəbul olunmuş müasir dövrdə ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması ideyasına istinad etmək olar.

### *Analiz və sintez*

Analiz (*yunan dilindən tərcümədə - təhlil, bölmə, ayrıma*) – tədqiq olunan obyektin xəyalən tərkib elementlərə bölünməsini nəzərdə tutan bir tədqiqat metodudur. Analiz tədqiqatçıya obyekti tərkib hissələrə bölməklə onun mahiyyətini dərk etməyə imkan verir. Analiz vasitəsilə tədqiq olunan obyektin strukturu, tərkib hissələri, onların arasındakı münasibət müəyyənləşdirilir. Bir məntiqi əməliyyat olaraq analiz hər bir elmi tədqiqatın tərkib hissəsi kimi özünü göstərir. Tədqiqatçı tədqiq olunan obyektin quruluşunu, tərkibini, funksiyalarını, əlamətlərini, eləcə də əlamətlər arasındakı əlaqələri öyrənmək məqsədini güdəndə analiz elmi tədqiqatın birinci mərhələsini təşkil edir. Analiz ümumi dərketmə prosesinin hissi idrak mərhələsində özünü büruzə verir. Ümumi dərketmə prosesinin nəzəri mərhələsində analiz özünü əqli yaxud məntiqi təhlil kimi göstərir.

Analiz vasitəsilə tədqiq olunan obyektin bütün tərkib hissələri öyrənildikdən sonra dərketmə prosesinin *sintez* adlanan növbəti mərhələsi gəlir.

İnduksiya deduksiyaya əks olduğu kimi, analiz də *sintezə* əks olan

metoddur. Əgər analiz tədqiq olunan obyektin xəyalən tərkib elementlərə bölünməsini nəzərdə tutursa, sintez (*yunan dilindən tərcümədə- birləşmə*) bu elementlərin fikrən bütövə birləşdirilməsini nəzərdə tutur.

Sintez analizə əks olsa da, o, sonuncunun davamı kimi çıxış edir. Sintez tədqiq olunan obyekti bütövlükdə öyrənir. O, bütövün elementlərini necə gəldi birləşdirmir. Sintez nəticəsində hissələr bütövə müəyyən bir mühüm cəhət əsasında birləşdirilir. Analiz və sintez metodlarının əhəmiyyətini Azərbaycan Respublikasının multikulturalizm siyasətinin timsalında göstərmək olar. Azərbaycan Respublikasının multikulturalizm siyasətini öyrənərkən əvvəlcə analiz metodu vasitəsilə bu siyasətin əsas elementləri (istiqamətləri) müəyyən edilir, hər bir element (istiqamət) ayrı-ayrılıqda nəzərdən keçirilir, onlar arasında əlaqə nəzərə çarpdırılır. Sonra isə sintez metodu vasitəsilə Azərbaycan Respublikasının multikulturalizm siyasətinin tərkib hissələri haqqında toplanan məlumat bir yerə cəmləşdirilərək bu siyasət haqqında bütöv bilik əldə olunur.

### *Abstraktlaşdırma*

Abstraktlaşdırma (*latın dilindən tərcümədə- uzaqlaşdırma, kənar etmə, rədd etmə, təmizləmə*) - tədqiq olunan obyektdən onun bir sıra əlamətlərinin xəyalən kənarlaşdırılması metodudur. Adətən, obyektdən xəyalən ayrılan və kənarlaşdırılan ikinci dərəcəli, vacib olmayan, mahiyyəti əks etdirməyən əlamətlər olur. Dərketmə prosesində bu cür əlamətlərdən azad olan tədqiqatçı obyektin mahiyyətinə asanlıqla yaxınlaşır.

Abstraktlaşdırma analiz metodu ilə sıx bağlıdır. Daha konkret desək, abstraktlaşdırma metodu analiz metodunun məntiqi davamıdır. Belə ki, obyektin vacib olan, mahiyyətini əks etdirən əlamətlərini onun vacib olmayan, mahiyyətini əks etdirməyən əlamətlərindən ayırmazdan əvvəl sözügedən obyekti analiz etmək, yəni tərkib hissələrə bölmək lazımdır. Elmin bütün sahələrində istifadə olunan məfhumların (elm, kino, dostluq və s.) yaranması abstraktlaşdırmanın nəticəsi kimi özünü göstərir. Məsələn, insan məfhumunun məzmununu, yəni insanın mahiyyətini təşkil edən əlaməti müəyyən etmək üçün əvvəlcə analiz metodu vasitəsilə insanın müxtəlif əlamətləri (görmək, hərəkət etmək, üzmək, fikirləşmək, yatmaq, abstrakt təfəkkürə malik olmaq və s.) aşkar edilir, sonra bu əlamətlər arasında yalnız insana xas olan, yəni onu digər canlılardan fərqləndirən

əlamət (abstrakt təfəkkürə malik olmaq) götürülür və nəhayət abstraktlaşdırma metodu vasitəsilə insanın digər canlılarda da müşahidə olunan əlamətləri kənara qoyulur.

## *Ümumiləşdirmə*

Ümumiləşdirmə elə bir metoddur ki, onun vasitəsilə bir neçə obyektin ümumi cəhətləri bir məfhumda birləşdirilir. Məsələn, "udi xalqı", "ingiloy xalqı" və "xınalıq xalqı" məfhumları "alban xalqları" məfhumunda ümumiləşdirilir. Obyektlərin ümumi cəhətləri onların analiz və müqayisə olunması nəticəsində əldə olunur. Ümumiləşdirmə metodu xüsusi məfhumdan ümumi məfhuma doğru yönəlmişdir. Məfhumun ümumiləşdirilməsi bir məntiqi əməliyyat kimi onun həcminin genişlənməsi, məzmununun isə daralması ilə xarakterizə olunur. Bu əməliyyat eyni zamanda məfhumun konkretliyinin azalmasına da səbəb olur. Məsələn, "müasir dövrdə Qərb ölkələrində multikulturalizm siyasəti vasitəsilə cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsi" məhfumunun ümumiləşdirməsindən alınan "Qərb ölkələrində multikulturalizm siyasəti vasitəsilə cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsi", "multikulturalizm siyasəti vasitəsilə cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsi" və s. məhfumlar məzmun və konkretlik baxımından verilmiş məfhumdan kiçikdir. Lakin buna baxmayaraq yeni alınmış məfhumlar tədqiq olunan obyektin mahiyyətinin aşkarlanması istiqamətində atılan mühüm bir addımdır. Çünki yeni bir məfhumun mahiyyətini müəyyən edərkən atılan ilk addım onun ümumiləşdirməsidir, yəni verilmiş məfhumun həcm baxımından daha geniş məfhumun həcminə daxil edilməsidir. Məsələn, "multikultural təhlükəsizlik" məfhumunu dərk etmək üçün biz ilk növbədə onu ümumiləşdirmə metodu vasitəsilə həcm baxımından daha geniş məfhum olan "təhlükəsizlik" məfhumunun həcminə daxil edirik. Bu isə bizdə "multikultural təhlükəsizlik" məfhumu haqqında müəyyən fikrin yaranmasına səbəb olur.

Ümumiləşdirmə metoduna əks olan metoda *məhdudlaşdırma* deyilir. Məhdudlaşdırma – ümumi məfhumdan konkret məfhuma keçidə səbəb olan məntiqi əməliyyatdır. Bu keçid verilmiş məfhuma müəyyən əlamətləri əlavə etməklə reallaşır. Məsələn, "cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsi", "Qərb ölkələrində multikulturalizm siyasəti vasitəsilə

cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsi", "Kanadada multikulturalizm siyasəti vasitəsilə cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsi".

## *Təsnifat*

Təsnifat (*latın dilindən tərcümədə - classis- növ, facio- etmək*) – obyektlərin qruplara elə bir bölgüsüdür ki, orada hər bir qrupun müəyyən yeri vardır. Obyektlərin qruplara bölgüsü onlara xas olan mühüm fərqləndirici əlamətlər üzrə aparılır.

Təsnifat vasitəsilə məfhumun *həcmi* açılır. Yəni bu metod vasitəsilə məfhuma daxil olan digər məfhumlar müəyyən edilir. Məsələn: "Müasir dövrdə keçmiş Sovet İttifaqı respublikalarındakı dinlər ənənəvi və qeyri-ənənəvi dinlərə bölünür".

*Təsnifatın strukturu*

Təsnifat 3 hissədən ibarətdir: həcmi açıqlanan məfhum, təsnifatın əsası və təsnifatın elementləri. Yuxarıdakı misalda ("Müasir dövrdə keçmiş Sovet İttifaqı respublikalarındakı dinlər ənənəvi və qeyri-ənənəvi dinlərə bölünür") təsnifatın struktur elementləri aşağıdakılardır:

*Müasir dövrdə keçmiş Sovet İttifaqı respublikalarındakı dinlər* - həcmi açıqlanan məfhum;

*Tarixən Sovet İttifaqı respublikalarına mövcud olmaq baxımından* - təsnifatın əsası;

*Ənənəvi və qeyri-ənənəvi dinlər* - təsnifatın elementləri.

*Təsnifatın qaydaları:*

1. Təsnifat *proporsional* (mütənasib) olmalıdır, yəni bölünən məfhumun həcmi bölgünün elementlərinin həcmlərinin cəminə bərabər olmalıdır. Bu qayda 2 halda pozula bilər:

a. *Natamam təsnifat*- bölgünün elementləri bölünən məfhumu tam əhatə etmir. Məsələn, *"Beynəlxalq münasibətlər nəzəriyyəsi realizm, liberalizm, marksizm nəzəriyyələrini ehtiva edir"*. (Burada konstruktivizm, neorealizm və digər nəzəriyyələr göstərilməmişdir).

b. Əlavə elementləri daxil edən təsnifat. Məsələn, “Kimyəvi elementlərə metallar, qeyri-metallar və ərintilər daxildir”. Bu misalda “ərintilər” əlavə elementdir;

2. Təsnifat *bir əsasa* görə aparılmalıdır ki, onun elementlərinin həcmləri kəsişməsin. Bu qayda pozulduqda, təsnifatın elementlərinin həcmləri kəsişir. Məsələn, “Nəqliyyata quru, su, hava, özəl və dövlət nəqliyyat növləri daxildir”. Bu təsnifat iki əsasa görə (*nəqliyatın hərəkət məkanı, nəqliyatın mülkiyyət forması*) aparılmışdır. Buna görə də onun elementlərinin həcmləri kəsişir;

3. Təsnifatın elementləri bir-birini *istisna* etməlidir. Bu qayda əvvəlki qaydadan irəli gəlir, çünki təsnifat bir əsasa görə aparılmadıqda, onun elementlərinin həcmləri bir-birilə kəsişəçəkdir. Məsələn, “Müharibələr ədalətli, ədalətsiz, azadlıq uğrunda və dünya müharibələri növlərinə bölünür”. Bu təsnifat bir əsasa görə aparılmamışdır. Ona görə də təsnifatın elementlərinin həcmləri bir-birilə kəsişir. Belə ki, azadlıq uğrunda aparılan müharibə ədalətli müharibə sayılır. Buna görə də “azadlıq uğrunda aparılan müharibə” “ədalətli müharibə” məfhumunun həcminə daxildir. Yəni bu təsnifatın elementlərinin həcmləri bir-birini istisna etmir.

4. Təsnifat *ardıcıl* aparılmalıdır, yəni burada boşluq olmamalıdır. Məsələn, “Müasir dövrdə keçmiş Sovet İttifaqı respublikalarındakı dinlər ənənəvi, qeyri-ənənəvi, missionerlər tərəfindən yayılan dinlər, milli dinlərə bölünür”. Bu təsnifat ardıcıl deyil, çünki “müasir dövrdə missionerlər tərəfindən yayılan dinlər” məfhumunun həcmi “qeyri-ənənəvi dinlər” məhhumunun həcminə daxildir. Bundan başqa bu təsnifat bir əsasa görə yox, üç əsasa görə aparılmışdır (əraziyə tarixən xas olan dinlər, missionerlər tərəfindən yayılan dinlər, dünya yaxud milli dinlər). Bu təsnifat qeyd olunan 3 əsas üzrə ayrılıqda aparılmalıdır.

*Təsnifatın növləri*

İki cür təsnifat vardır:

1. Əlamətin şəklinin dəyişdirilməsinə görə aparılan təsnifat. Məsələn, “Nüvə partlayışları partlayışın keçirildiyi yerdən asılı olaraq hava, yerüstü, yeraltı və ya sualtı partlayışlara bölünür”;

2. *Dixotomik təsnifat* (bölünən məfhumun həcmi bir-birinə zidd olan məfhumlara bölünür).

Məsələn, “Məfhumlar müqayisə olunan və müqayisə olunmayan qruplara bölünür”.

Dixotomik təsnifatın bir neçə üstünlüyü vardır:

a. O, həmişə proporsionaldır;
b. Təsnifatın elementləri həmişə bir-birini istisna edir;
c. Təsnifat yalnız bir əsasa görə aparılır.

*Analogiya*

*“Analogiya”* sözü qədim yunan dilində *tənasüb, proporsiya* mənasını verir. Geniş mənada bu termin cisim və hadisələrin uyğunluğunu, oxşarlığını, onların münasibətlərinin eyniliyini ifadə edir. Cisim, tarixi hadisələrlə bərabər məfhumlar və fikirlər də analoji ola bilər.

*Analogiya* – elmi tədqiqatın elə bir metodudur ki, onun vasitəsilə obyektlərin bir cəhətdə olan oxşarlıqlarının əsasında onların digər cəhətlərdə də oxşar olmaları haqqında fikir söylənilir.

Analogiyada aşağıdakı terminlərdən istifadə edilir:

- *analogiyanın nümunəsi* – naməlum obyektə əlaməti köçürülən obyekt;
- *analogiyanın subyekti* – müəyyən əlamətin köçürüldüyü obyekt;
- *analogiyanın terminləri* - analogiyanın nümunəsi və subyekti;
- *köçürülən əlamət* - analogiyanın nümunəsindən subyektinə keçirilən əlamət;
- *analogiyanın əsası* - analogiyanın hər iki termininə xas olan və eyni zamanda müəyyən əlamətin köçürülməsi üçün əsas olan əlamət.

Analogiyanın bir tədqiqat metodu kimi əhəmiyyətini həmçinin onun yuxarıdakı terminlərinin mahiyyətini anlamaq üçün bir misal gətirək.

Fərz edək ki, biz müasir dövrdə Fransada islamofobiyanın yayılmasının səbəbləri haqqında məlumat əldə etmək istəyirik. Lakin qeyd olunan sahədə elmi araşdırma aparılmadığına görə bu haqda məlumat yoxdur. Niderland Krallığında isə islamofobiyanın yayılması ilə bağlı elmi araşdırma aparılmışdır. Buna görə də Niderland Krallığında sözügedən məsələ ilə bağlı müəyyən məlumat vardır. Analogiya metodu vasitəsilə Fransada islamofobiyanın yayılmasının səbəblərinə dair məlumat əldə etmək mümkündür. Bu iki ölkə arasında bir sıra mühüm ümumi oxşar cəhətlər vardır. Fransa və Niderland Krallığı Avropa İttifaqının əsas üzv

ölkələrindəndir. Bu ölkələrdə yüksək iqtisadi inkişafın müşahidə olunması, həmçinin hər iki ölkədə hökumət tərəfindən əsaslı şəkildə əhalinin sosial müdafiəsi proqramının tətbiq edilməsi onları miqrantlar üçün cəlbedici edir. İslamofobiyanın yayılması ilə bağlı Niderland Krallığında aparılmış elmi tədqiqatda müəyyən edilmişdir ki, burada sağçı radikal qrupların ölkədə gedən siyasi proseslərə fəal müdaxilə etmələri islamofobiyanın yayılmasında mühüm rol oynamışdır. Fransa və Niderland Krallığı arasında olan bu mühüm oxşarlıqlara əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, müasir dövrdə Fransada islamofobiyanın yayılması burada sağçı radikal qrupların fəallaşması ilə əlaqədardır.

Bu misalda Niderland Krallığı termini- *analogiyanın nümunəsi*, Fransa - *analogiyanın subyekti*, Niderland Krallığı və Fransa - *analogiyanın terminləri* kimi çıxış edir. *Köçürülən əlamət* kimi Niderland Krallığında sağçı radikal qrupların ölkədə gedən siyasi proseslərə fəal müdaxilə etmələrini göstərmək olar. Fransa və Niderland Krallığının Avropa İttifaqının əsas üzv ölkələrindən olmaları, bu ölkələrin yüksək iqtisadi inkişaf səviyyəsi, hər iki ölkədə hökumət tərəfindən əsaslı şəkildə əhalinin sosial müdafiəsi proqramının tətbiq edilməsi *analogiyanın əsası* kimi özünü göstərir.

Lakin analogiya vasitəsilə alınan nəticələrin həqiqiliyi ehtimal xarakteri daşıyır. Bu nəticələrin həqiqilik ehtimallığının artırılması yolları vardır. Onlar aşağıda verilmişdir:

1.Analogiyanın nümunəsi və subyekti üçün ümumi olan əlamətlərin sayı mümkün qədər çox olmalıdır;

2. Analogiyanın əsası kimi istifadə edilən əlamətlər müqayisə olunan obyektlər üçün əhəmiyyətli olmalıdır;

3. Ümumi əlamətlər müqayisə olunan obyektlərin müxtəlif tərəflərini əhatə etməlidir;

4. Köçürülən əlamət analogiyanın əsasını təşkil edən əlamətə aid olmaqla yanaşı onunla bağlı olmalıdır;

5.Obyektlər arasında olan oxşarlıqla yanaşı onlar arasında olan fərqi də nəzərə almaq lazımdır.

## 1.4. ”Multikulturalizmə giriş” fənninin əhəmiyyəti

Yeni tədris fənnini öyrənməyə başlayarkən qarşıya çıxan əsas məsələlərdən biri fənnin əhəmiyyətinin müəyyən edilməsidir. İnformasiya bolluğu şəraitində çoxlu sayda təklif olunan fənlər arasında düzgün seçimin edilməsi, daha vacib olan fənlərin öyrənilməsi praktiki cəhətdən önəmlidir. Fənnin əhəmiyyətini müəyyən etməklə onun öyrənilməsinin nə dərəcədə vacib olduğunu göstərmək olar.

Hər bir fənnin, elmin əhəmiyyəti onun funksiyalarından irəli gəlir. Bunu nəzərə alaraq ”Multikulturalizmə giriş” fənninin əhəmiyyətini onun funksiyalarını göstərməklə müəyyən edək.

”Multikulturalizmə giriş” fənninin beş əsas funksiyası vardır: nəzəri-idraki, praktiki, siyasi-ideoloji, proqnozlaşdırıcı və mənəvi-tərbiyəvi.

### *Nəzəri-idraki funksiya*

Yuxarıda ”Multikulturalizmə giriş” fənninin fəlsəfə, tarix, sosiologiya, kulturologiya, hüquq, politologiya ilə münasibəti təhlil olunarkən onun qeyd olunan ictimai fənlərin müddəalarına əsaslandığını göstərmişdik. Lakin bu, o demək deyil ki, ”Multikulturalizmə giriş” fənni tədqiq etdiyi obyekt haqqında heç bir yeni bilik, müddəa irəli sürmür. Qeyd olunduğu kimi, ”Multikulturalizmə giriş” fənninin öz predmeti vardır. O, predmetinin öyrənilməsi çərçivəsində nəzəri-idraki funksiyanı yerinə yetirir. Başqa sözlə desək, ”Multikulturalizmə giriş” fənni öyrəndiyi obyekt haqqında, yəni çoxmədəniyyətlilik, etnik, irqi, dini və mədəni müxtəlifliklər, bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərlər haqqında, onların qorunması yollarına dair yeni biliklərin əldə edilməsinə kömək edir.

### *Praktiki funksiya*

”Multikulturalizmə giriş” fənninin nəzəri-idraki funksiyasının nəticəsində əldə olunan yeni biliklər, nəzəri müddəalar cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin düzgün idarə olunması, tənzimlənməsi işində istifadə olunur. Daha konkret desək, ”Multikulturalizmə giriş” fənni cəmiyyətdəki etnik,

irqi, dini və mədəni müxtəlifliklərin, bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərlərin qorunmasının yollarına dair praktiki əhəmiyyət kəsb edən tövsiyələr verir.

### *Siyasi-ideoloji funksiya*

Birinci yarımfəsildə qeyd olunduğu kimi, sözün dar mənasında multikulturalizm termini cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərə münasibətdə dövlətin apardığı konkret siyasəti xarakterizə edir. Bu siyasətin əsasında cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması durur. Cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəliflikləri tənzimləmək məqsədilə multikulturalizmi siyasət modeli kimi istifadə edən dövlətlər ona ideologiyanın tərkib hissəsi kimi yanaşırlar. Məsələn, Azərbaycan Respublikası multikulturalizmi dövlət siyasəti kmi istifadə edən dövlətlərdən biridir.

### *Proqnozlaşdırıcı funksiya*

Müasir qloballaşma şəraitində xalqların etnik-mədəni dəyərlərini, mədəniyyətlərini xarakterizə edən, onların dünyagörüşü və fəaliyyətlərinin əsasını təşkil edən etnik, dini və mədəni müxtəlifliklərin hər bir xalqın həyatında əhəmiyyətli rol oynadığını nəzərə alaraq cəmiyyətin sonrakı inkişafını müəyyən dərəcədə bu müxtəlifliklərin vəziyyəti ilə proqnozlaşdırmaq mümkündür. Əgər bu və ya digər çoxmədəniyyətli ölkədə etnik-mədəni müxtəliflik dövlət tərəfindən düzgün təmzimlənirsə, həmin ölkənin inkişaf üçün potensialı var. Əks halda, sözügüdən ölkədə etnik və/ və ya dini zəmində münaqişə təhlükəsi yarana bilər.

### *Mənəvi- tərbiyəvi funksiya*

”Multikulturalizmə giriş” fənninin mənəvi-tərbiyəvi funksiyası ilk növbədə bu fənnin predmetindən irəli gəlir. İkinci yarımfəsildə qeyd olunduğu kimi, ”Multikulturalizmə giriş” fənni cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin, bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərlərin qorunması yollarını öyrədir. Müasir dövrdə bir çox ölkələrdə, hətta inkişaf etmiş Qərb ölkələrində islamofobiyanın, antisemitizmin, ksenofobiyanın

və ayrıseçkiliyin digər formalarının sürətlə yayıldığını, etnik və dini zəmində qanlı toqquşmaların baş verdiyini nəzərə alaraq, cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması yollarını öyrədən ”Multikulturalizmə giriş” fənninin böyük mənəvi və tərbiyəvi əhəmiyyəti vardır. Bu fənnin tədrisi öyrəncilər arasında tolerantlıq və multikulturalizm ideyalarını yayaraq onları xalqlar arasında ayrıseçkiliyin bütün formalarına qarşı mübarizə ruhunda tərbiyə edir.

## 1.5. Multikulturalizmə liberalizm yanaşması və onun nümayəndələri

Multikulturalizm müxtəlif mədəni qrupların birlikdə yaşamasını və etnik-mədəni müxtəlifliyin qorunmasını nəzərdə tutduğu halda, liberalizm liberal-demokratik dəyərləri, fərdlərin hüquq və azadlıqlarına hörməti və onların müdafiəsini ön plana çəkir. Multikulturalizmə liberalizm yanaşması multikulturalizmi liberal demokratik prinsip və dəyərlər baxımından nəzərdən keçirməyi tələb edir. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, o, bir tərəfdən dözümlülüyə sadiqdir, digər tərəfdən isə mənəvi sahədə xüsusən də mədəni və ya dini ənənələrə bağlı fərdi seçim azadlığına rəğbət göstərir. Amma bu iki baxışı bir araya gətirmək asan deyil. Ona görə də liberalizm nümayəndələri arasında multikulturalizmlə bağlı fikir ayrılıqları və ziddiyyətlər vardır.


*Vil Kimlika*

Siyasi nəzəriyyəçi Vil Kimlika liberal multikuturalizmin ən nüfuzlu nümayəndələrindən biri hesab olunur və multikulturalizmə müasir liberalizm nöqteyi-nəzərindən yanaşır. Kimlikanın əsas diqqəti azlıqda olan qruplarla ədalətli rəftar olunması məsələsinə cəmləşir. O, azlıqda olan qrupları iki kateqoriya üzrə təsnif edir: *mühacir (poli-etnik) qrupları və milli (yerli)* qruplar.

Mühacir qrupları dedikdə, ölkəyə sonradan köçmüş qruplar nəzərdən tutulur.

Milli azlıqlar isə tarixən ölkədə yaşamış, özünün idarəetməsi olmuş və ya dövlətin yaradılmasında iştirak etmiş qruplar nəzərdə tutulur. Kimlika bu iki kateqoriyaya münasibətdə fərq qoyulması fikrini irəli sürür. Onun fikrincə, milli azlıqlar mühacir qruplarına nisbətdə daha üstün hüquqlara malik olmalıdırlar, çünki onlar dövlətin yaradılmasında müəyyən rol oynamışdılar. Mühacir qruplar isə ölkəyə sonradan gəlmişlər. Bu, onların üzərinə mövcud olan dövlətin qaydalarına uyğun yaşamaq kimi müəyyən bir öhdəlik qoymuşdur.

Kimlika qrupa xas olan üç kateqoriyadan ibarət hüquqlar müəyyən edir: təmsilçilik, özünü idarəetmə və polietnik hüquqlar. Bu üç kateqoriya hüquqlar onun irəli sürdüyü *"Multikultural Vətəndaşlıq"* anlayışını təşkil edir. Qrupa xas olan hüquqlardan bəhs edərkən Kimlika *daxili məhdudiyyət və kənar müdafiə* konsepsiyaları arasındakı fərqi göstərir. *Daxili məhdudiyyət* (buna Pis Qrup Hüquqları deyilir) dedikdə, qrup tərəfindən onun daxilindəki münasibətlərdə məhdudiyyətlərin tətbiq edilməsi nəzərdə tutulur. Burada qrupdaxili həmrəylik naminə qrup üzvləri arasında ayrı-ayrı fərdlərin azadlığına məhdudiyyət qoyulur. *Kənar müdafiə* (buna Yaxşı Hüquq da deyilir) isə qruplar arasında münasibətlərdə həssas və zəif qrupların (ilk növbədə milli azlıqların) digərlərinə münasibətdə qorunmasını nəzərdə tutur. Kimlika bildirir ki, liberal prizmadan yanaşdıqda kənar müdafiəyə haqq qazandırıla bilər, çünki onun məqsədi bərabərliyin təmin olunmasıdır. Amma bu müdafiə ifrat dərəcədə aparılmamalı, eləcə də təqib səviyyəsinə qalxmamalıdır.

Kənar müdafiəyə misal olaraq, Kanadanın Kvebek bölgəsini göstərmək olar. Kvebekdə əksəriyyət təşkil edən fransızdilli əhalinin Kanadanın ölkədə çoxluq təşkil edən ingilisdilli hissəsinə münasibətdə öz fransız irsini, adət-ənənəsini və mədəni kimliyini qoruyub saxlamaq istəyi kənar müdafiə anlayışı vasitəsilə təmin olunmuşdur. Eyni zamanda kənar müdafiə anlayışı vasitəsilə Kvebekin özündə fransızdilli çoxluğa nisbətdə azlıqda olan, amma bölgədə ilk olaraq məskunlaşmış İnuit və Amerindlərin öz dil və mədəniyyətlərini qorumaq və inkişaf etdirmək hüquqları tanınır. Kimlika daxili məhdudiyyətə haqq qazandırmır, çünki daxili məhdudiyyət fərdin azadlığını məhdudlaşdırır. Daxili məhdudiyyətə misal olaraq, qaraçıların öz uşaqlarını məktəbdən, təhsildən ayırmasını göstərmək olar. Qaraçılar uşağının məktəbə getməsini onların həyat tərzinə və "dəyərlərinə" zidd sayır və qaraçı icması daxilində həmrəyliyin pozulmasına gətirib çıxara bilər.

Digər bir misal isə odur ki, hər hansı bir dini icmaya mənsub şəxslərdən biri həmin icmanın dəyərlərinə və ənənələrinə zidd olan həyat tərzi sürərsə və ya davranarsa, icma həmin fərdə qarşı məhdudiyyət tətbiq edir. Məsələn, Fransada ictimai yerlərə, o cümlədən məktəblərdə müsəlman qızların hicab geyməsi qadağan olunduqdan sonra bəzi ailələrin öz qız övladlarını məktəbdən uzaqlaşdırmasını qeyd etmək olar. Fransada hicab məsələsindən bəhs edərkən belə bir maraqlı məqam ortaya çıxır ki, müsəlmanlara münasibətdə kənar müdafiə anlayışı tətbiq edilmir və çoxluğun iradəsi azlığa, yəni müsəlmanlara məcburən yeridilir.

Tanınmış politoloq, London iqtisad məktəbinin professoru Çandran Kukatasın multikulturalizmə yanaşması klassik liberalizmə əsaslanır. Bununla da o, müasir liberalizmə söykənən Kimlikadan fərqlənir. Klassik liberalizm hökümətin rolunu azaldaraq əsas diqqəti fərdin azadlıqları üzərində cəmlədiyi halda, müasir liberalizm ədalət və bərabərliyə nail olmaq istiqamətində tərəqqini sürətləndirmək üçün hökumətdən istifadə olunmasını müdafiə edir. Klassik liberalizmdən fərqli olaraq, müasir liberalizm dövlətin müdaxilə etməməsi prinsipini cəmiyyətin əziyyət çəkdiyi məsələlərin əlacı kimi qəbul etmir. Klassik liberalizm fərdi azadlığı dövlət üzərinə qoyulan məhdudiyyətlərin nəticəsi kimi qavradığı halda, müasir liberalizm dövlət tərəfindən yeni hüquqlar yaradılması məqsədini güdür. Klassik liberalizm fərqli mədəni azliqların mövcudluğuna daha tolerant yanaşır, çünki liberal cəmiyyətdə mədəni azlıqların olması tamamilə məqbuldur. Buna görə də, liberalizmin əsas vəzifəsi müxtəlif dəyərlərin daşiyicilarının dinc və münaqişəsiz yanaşı yaşamasına imkan verən yol axtarıb tapmaqdır. Belə axtarış zamanı ziddiyyətlər və çətinliklər meydana çıxsa da, liberal yanaşmanın əsas üstünlüyü ondan ibarətdir ki, nəyin yaxşı və düzgün olması barədə ziddiyyətlər yarandıqda, məsələ dominant fikrin digərlərinə yeridilməsi yolu ilə həll edilmir. Belə hallarda ziddiyyət və ixtilaflara rəğmən dinc yanaşı yaşayışa səy göstərilir. Ona görə də liberalizm cəmiyyətdə mədəni müxtəlifliyə rəğbətlə yanaşır və insanlar bu cəmiyyətdə hansı mədəni dəyərlərə və meyarlara uyğun yaşamağı seçməkdə azaddırlar. Amma bir önəmli şərt var ki, insanlar həmin azadlığı digər, fərqli mədəniyyətli insanlara da tanımalıdırlar. Məhz bu şərt liberal doktrinanı ifadə edir. Birinin azadlığı digərinin azadlığını məhdudlaşdırmamalıdır. Bu, Con Stuart Millin irəli sürdüyü “Zərər vurma!” prinsipinə əsaslanır. Liberalizmin

və multikulturalizmin əsaslarını təşkil edən bu prinsip Con Mill tərəfindən aydın surətdə belə ifadə olunur: "Bir insana digər bir insanın hərəkət azadlığına müdaxilə etmək ixtiyarı yalnız və yalnız özünümüdafiə məqsədi ilə verilə bilər. Hər hansı bir insan üzərində onun öz iradəsinin əleyhinə olaraq güc yalnız və yalnız başqalarına zərər vurulmasının qarşısını almaq məqsədilə haqlı olaraq tətbiq oluna bilər". Başqa sözlə və qısa ifadə etsək, hər kəs istədiyi hər şeyi edə bilər, bir şərtlə ki, başqalarının azadlığını məhdudlaşdırmasın və ya hərəkətinə müdaxilə etməsin. Multikulturalizm kontekstində bu, o anlama gəlir ki, insan həyatını istədiyi tərzdə, istədiyi dəyərə uyğun olaraq yaşaya bilər, yəni insan mədəni, dini və s. baxımdan seçimlərində azaddır ki, bu da klassik multikulturalizmin əsas prinsipidir. Liberal ehkama görə, bir insanın və ya qrupun digərinin üzərinə öz iradə və ya istəyini məcburi yeritməsi yolverilməzdir.



*İngilis mütəfəkkiri və iqtisadçısı Con Stüart Mill (1806-1873).*

Beləliklə, klassik liberalizmdə bir tərəfdən fərdiyyətçilik ön plandadır, digər tərəfdən isə burada tolerantlıq zərurət kimi özünü büruzə verir. Artıq yuxarıda qeyd edildiyi kimi, müasir liberalizmdə qruplar və qrup hüquqları ön plandadır və Vil Kimlikanın irəli sürdüyü "kənar müdafiə" konsepsiyası vasitəsilə həssas və zəif olan müxtəlif qrupların, xüsusən də mill azlıqların başqalarına münasibətdə qorunmasının və bərabərliyinin təmin olunmasını nəzərdə tutur. Kimlika qrup üzvü olan ayrı-ayrı fərdlərə qarşı tətbiq edilən daxili məhdudiyyətlərə haqq qazandırmır, amma bununla belə o, fərdləri ön plana da çəkmir.

London İqtisad Məktəbinin professoru Çandran Kukatas multikulturalizmin klassik və müasir liberal yanaşmalara əsaslanan versiyalarını müvafiq olaraq "zəif multikulturalizm" və "güclü multikulturalizm" kimi xarakterizə edir. O, özü "zəif multikulturalizm" tərəfdarı kimi çıxış edir və Kimlikanın nəzəriyyəsini isə "güclü multikulturalizm" hesab edir. Bu iki yanaşma arasındakı əsas fərq ondan ibarətdir ki, zəif

multikulturalizmdə dövlətin rolu və ya müdaxiləsi azdır. Kukatas qeyd edir ki, azlıqlar dövlət müdaxiləsindən azad olmalıdırlar. Onun konsepsiyasına görə, birləşmə azadlığından açıq cəmiyyət doğur və digər mədəniyyətlərin nümayəndələri bu cəmiyyətin mənsublarına qoşularaq onun üzvünə çevrilə bilərlər. Eyni zamanda yeni qoşulmuş üzvlər və ya kosmopolit mühitin bir hissəsi olaraq öz ənənələrinə uyğun surətdə, yaxud da digərləri ilə yalnız minimal həddə əlaqəyə girərək mədəni azlıqların nümayəndələri kimi rahat yaşaya bilərlər. Kukatasın bu konsepsiyası xüsusən "Dözülməzə Dözmək" (Tolerating the Intolerable) adlı əsərində ifadə olunmuşdur.

Kimlika isə dövlətin müdaxiləsini və aktiv rolunu dəstəkləyir. O, bildirir ki, qruplar arasında münasibətlər sadəcə dözümlə kifayətlənərsə, onda qrup daxilində üzvlərlə bərabərhüquqlu davranılma təmin olunmaz. Buna görə də, Kimlika "qrup-differensasiyalı hüquqlar" vasitəsilə tanınma (recognition) konsepsiyasını irəli sürür. Bu cür hüquqları iki kateqoriyaya bölür: ayrı-ayrı qrupların bir-birlərinə münasibətdə olan hüquqlarını nəzərdə tutan qrup hüquqları və hər hansı qrupun öz daxilində onun üzvlərinin fərdi hüquqları. Bir məqamı da qeyd etmək lazımdır ki, qrup hüquqları bəzən öz müqqəddaratını təyinetmə hüququ kimi də qavranılır və bu səbəbdən də multikulturalizm həm də etnik millətçiliklə əlaqələndirilə bilir. Bunun da səbəbi qrup hüquqlarının özündə təmsilçilik və özünü idarəetmə hüquqlarını ehtiva etməsidir. Özünü idarəetmə və təmsilçilik hüququ əldə etmiş qruplar bir tərəfdən özünü idarəetməni öz müqəddaratını təyin etmə səviyyəsinə qaldırmağa meyl edirlər, digər tərəfdən isə öz müqəddəratını təyinetmə hüququnu müstəqil dövlət formasında reallaşdırmaq istəyirlər. Bu da etnik millətçiliyin inkişafına rəvac verir. Misal olarar, multikulturalizm siyasətinin ən uğurlu nümunələrindən sayılan Kanadada Kvebek bölgəsi əsas etibarilə fransızdilli olan və əcdadları Fransadan köçmüş insanlardan formalaşmışdır.

Kvebek bölgəsi Kanada dövləti daxilində yüksək muxtariyyətə, yəni özünüidarəetməyə malikdir. Amma bununla kifayətlənməyərək, Kvebekin Kanadadan ayrılaraq müstəqil dövlətə çevrilməsi istiqamətində aparılan ciddi cəhdlər müəyyən gərginliyə səbəb olmuşdur və bu zəmində etnik millətçilik özünü büruzə vermişdir. Hətta bölgənin müstəqilliyi ilə bağlı 1980-ci və 1995-cı illərdə iki referendum keçirilmişdir.

Çandran Kukatas bildirir ki, klassik multikulturalizm prinsipləri üzərində qurulmuş multicultural cəmiyyətdə bir sıra qeyri-liberal elementlər də mövcud



*Çandran Kukatas*

ola bilər. Amma həmin elementlər nə təqibə, nə də assimliyasiyaya məruz qalmamalıdır. Sadəcə olaraq onlara tolerant münasibət göstərilməlidir. Çünki yad mədəniyyətlər və ənənələr, hətta liberalizmə və liberal dəyərlərə uyğun olmadıqda belə onlara tolerantlıqla yanaşmaq lazımdır. Məhz bu baxımdan klassik liberal multikultural rejim ən tolerant rejim kimi xarakterizə oluna bilər. Məsələ ondadır ki, belə rejim hətta ona qarşı çıxanların mövcud olması ilə də barışmağa hazırdır. Amma heç bir qrupa və ya icmaya hansısa xüsusi üstünlük və ya imtiyaz verilmir. Eyni zamanda klassik liberal multikulturalizm heç kəsin öz dəyərlərinə riayət etməsinə və ya müəyyən ənənələrini dəstəkləməsinə mane olmamalıdır, lakin heç bir məqsəd və ya ənənəyə də xüsusi üstünlük verməməli və ya təbliğ etməməlidir.

Kukatasın qənaəti ondan ibarətdir ki, klassik liberal multikulturalizm qorxu və ya favoritizmin olmadığı bir yanaşmadır. Multikulturalizmə klassik liberal yanaşmasının əsas problemi ondan ibarətdir ki, ona real həyatda praktik olaraq heç bir nümunə yoxdur. Hətta Çandran Kukatas özü də bu faktı etiraf edir və onu belə izah edir ki, klassik liberal multikulturalizmdə qeyri-real dərəcədə yüksək standart müəyyən etdiyinə görə onu faktiki olaraq həyata keçirmək mümkün deyil. Həmin standart mütləq tolerantlıq standartıdır. Bunları nəzərə alaraq, klassik liberal multikuturalizmi utopik və ya romantik multikulturalizm kimi də xarakterizə etmək olar.

Multikulturalizmə liberal yanaşmasından bəhs edərkən bir önəmlı məqamı nəzərə almaq lazımdır. Bu da ondan ibarətdir ki, liberal multikulturalizm məfhumu ilə multikulturalizmə liberal yanaşması eyniləşdırilməməlidir. Multikuluralizmə Vil Kimlikanın və Çandran Kukatasın liberal yanaşmaları müvafiq olaraq müasir liberal multikulturalizm və klassik liberal multikulturalizm kimi xarakterizə oluna bilər. Yəni multikulturalizmə bu iki müəllifin liberal yanaşmaları (klassik və müasir) liberal multikulturalizm anlayışına münasibətdə sinonim kimi çıxış edə bilər.

Amma bu hal həmişə belə olmur. Misal olaraq, eqalitar liberalizmin nümayəndəsi, Britaniyalı filosof Brayan Barrinin yanaşmasını qeyd etmək olar. O, multikulturalizmə liberal mövqedən yanaşır, amma multikulturalizmin qəti əleyhinə çıxır və hesab edir ki, liberal dövlət qeyri-liberal elementlərə tolerantlıqla yanaşa bilməz. Lakin burada problem ondan ibarətdir ki, hansı dəyərin liberal, hansı dəyərin qeyri-liberal olması mübahisəli məsəlidir. Digər ziddiyyət isə odur ki, liberalizmin digər nümayəndələrinə, məsələn, Çandran Kukatasa görə, liberal cəmiyyətdə hətta qeyri-liberal elementlərə də yer olmalıdır və həmin elementlərə tolerantlıqla yanaşılmalıdır, çünki bu liberalizmin mahiyyətindən irəli gəlir.

Barri “Mədəniyyət və Azadlıq” (Culture and Equality) adlı əsərində multikulturalizmə eqalitar liberalizm nöqteyi-nəzərindən yanaşır. O, etnik, dini irqi və mədəniyyət fərqlərinin tanınmasından doğan patologiyalardan bəhs edərək multikulturalizmə tənqidi baxışla yanaşır. Barrinin eqalitar liberal nəzəriyyəsinin əsası ondan ibarətdir ki, hər kəs üçün eyni qanun tətbiq edilməlidir və heç bir istisna olmamalıdır və yaxud da həmin qanunun mövcudluğu əsaslı deyildirsə, ləğv edilməlidir.

Beləliklə, Barri müxtəlif dini və ya mədəni səbəblərlə bağlı olan mənfi, xoşagələməz ənənə və ya prakitikalarla bağlı qanuna istisnanı nəzərdən tutan multikulturalizm strategiyasının əleyhinə çıxır. Bu o deməkdir ki, hər hansı etnik, mədəni və ya dini səbəbdən fərdlərin qanun qarşısında bərabərliyi pozulmamalı, hamı eyni hüquqa malik olmalı və eyni dərəcədə məsuliyyət daşımalıdır. Barriyə görə, multikulturalizmdə fərdlərin bərabərlik prinsipinə istisnalar baş verə bilir ki, bu da nəticə etibarı ilə insanların bərabər imkanlardan məhrum olmasına gətirib çıxarır. Həmin mənfi, xoşagələməz ənənə və ya prakitikalara misal olaraq, Barri qaraçılara öz uşaqlarını lazımi təhsildən məhrum etmək hüququ verən qanunları numunə gətirir.

Barri hər kəs üçün eyni qanunun tətbiq edilməsini və burada heç bir istisnaya yol verilməməsini, hər kəs üçün bərabər qanunları müdafiə edir və istisnaların yolverilməzliyini vurğulayır. Buna baxmayaraq, o, uşaqlar üçün bərabər təhsil imkanlarının təmin edilməsi məqsədilə bəzi istisnaları dəstəkləyir. Məsələn, Barri Fransada müsəlman qızların dövlət məktəb sistemində hicab geyinməsinin Fransanın dünyəvilik prinsipinə təhdid törətmədiyini bildirir. Başqa sözlə desək, Barrinin bərabər qanunları müdafiə etməsi ilə bərabər təhsil

imkanlarının dəstəkləməsi arasında müəyyən ziddiyyətin olduğu görünür. Bu ziddiyyəti fərdiyyətçilik və xüsusən də bərabərlik prinsipləri ilə izah etmək olar. Məhz buna görə də, Barrinin eqalitar liberal yanaşmasını anti-multikulturalism adlandırırlar.

Eqalitar liberalizmə görə, “ədalətli” dövlət ənənəvi liberal azadlıqları qorumaqla yanaşı, iqtisadi faydaları yenidən bölüşdürərək zənginlərdən kasıblara çatdırılmasını və ictimai xidmətlərə çıxışda bərabərliyi təmin etməlidir. Barriyə görə, imkan bərabərliyi özəl təhsil və özəl tibb kimi institutlarla bir araya sığmır. Əsl imkan bərabərliyi yalnız o zaman mövcud olur ki, nəticələr sosial sinif, irq və ya ailə mənsubiyyətinin təsir etdiyi faktorlara deyil, müstəsna olaraq insanların seçimlərinə və qərarlarına əsaslansın.

Yekun olaraq qeyd edilməlidir ki, multikulturalizmə liberalizm yanaşmaları yekcins deyil və fərqlidir. Müasir liberalizmin nümayəndəsi Vil Kimlika mukltikulturalizmdə dövlətin rolunu önə çəkir və qrup hüquqları məsələsində, xüsusən də özünün irəli sürdüyü “kənar müdafiə” konsepsiyasının həyata keçirilməsində dövlətin rolunun əhəmiyyətini vurğulayır. Klassik liberalizmin nümayəndəsi Çandran Kukatas isə əsas diqqəti fərdlərin azadlığı üzərinə yönəldir və dövlətin rolunu məhdudlaşdırılmasını müdafiə edir. Kimlika qruplar arasında tolerantlığı daha önəmli saydığı halda, Kukatas multikultural cəmiyyətdə fərdlər arasında tolerantlığı zəruri hesab edir və bildirir ki, liberal cəmiyyət həm də qeyri-liberal elementlərə dözümlü olmalıdır. Eqalitar liberalizmin nümayəndəsi Barri Brayan fərdlərin bərabərliyi prinsipini qətiyyətlə müdafiə edir. Barri nə Kimlikanın qrup hüquqları konsepsiyasını, nə də Kukatasın liberal cəmiyyətin qeyri-liberal elementlərə tolerant yanaşmalı olduğu fikrini qəbul edir və ümumiyyətlə, multikulturalizmi sərt tənqid edir. Multikulturalizmə liberalizm yanaşmaları arasındakı qeyd olunan ziddiyyət və fikir ayrılıqları təkcə nəzəriyyələrlə məhdudlaşmır, həm də praktikada müxtəlif dövlətlərin həyat keçirdiyi multikulturalizm siyasəti modellərində əks olunur.

## 1.6. Multikulturalizmə kommunitarizm yanaşması və onun nümayəndələri

Qədim və orta əsrlərdə ictimai kimlik ön planda idi. Həmin vaxt fərdi kimlik anlayışı həddindən artıq zəif bir anlayış kimi qəbul olunurdu. Artıq XX əsrdə müxtəlif mədəniyyətlərin dəyərli olduğu və mühafizə edilməsi haqqında düşüncələr multikulturalizm müzakirələrinin liberal və kommunitarian anlayışları ətrafında aparılmağa başlandı. Xüsusilə 1980-ci illərdən etibarən liberal multikulturalizmin atomist fərdiyyətçi anlayışına ciddi tənqidlər yönəldildi. Sırf fərdi azadlıqları önə çıxaran liberalizmin yetərsiz olacağı düşüncəsi kommunitarianizmin daha geniş şəkildə yayılmasına təkan verdi. Bu görüşə görə ilkin olaraq hər bir mədəniyyət orjinaldır və xüsusi mahiyyətə malikdir. Kommunitarianlar fərdi dəyərlər qarşısında qrup və kollektiv dəyərləri (community values) müdafiə edirlər.

Kommunitarian multikulturalizmin məşhur nümayəndələri olan Çarlz Teylor, Maykl Uolzer, Alasdair Makintayr və başqaları liberalizmin insan təbiə tini düzgün dəyərləndirmədiyini düşünürlər. Onlara görə, liberalizmin insanı cəmiyyətdən təcrid olunmuş fərd kimi görməsi səhv fikirdir. Kanadalı məşhur tədqiqatçı Çarlz Teylora görə, insanın kimliyi onun aid olduğu qrup daxilində formalaşır. Teylor Jan Jak Russoya istinad edərək digər insanlar ilə olan münasibətlərimizin dialoqa əsaslandığını və demokratik çərçivədə hər hansı bir cəmiyyətdə fərdi kimliklərin ictimai dialoqlar nəticəsində yarandığını iddia edir. Fərdi azadlıqlar üçün qrup təhlükəyə atıla bilməz və multikulturalizm siyasəti də fərdlərdən daha çox kollektiv hüquqlara istiqamətlənməlidir. Bu mənada Çarlz Teylor ortaya atdığı bu multikulturalizm modelini “tanınma siyasəti” (politics of recognition) adlandırır. Teylor tanınma siyasəti ilə müxtəlif mədəniyyətlərin siyasi müstəvidə tanınmasını və ədalətli bir şəkildə qəbul olunmasını vurğulayır. Onun fikrincə, multikulturalizm siyasəti “hərkəsə mənsub spesifik olanı tanımaq yoluyla” universal mənada hər kəsin bir kimliyi olduğu həqiqətinə hörmət etmək deməkdir.

Bhixu Parex, Vil Kimlika və Çarlz Teylor kimi multikulturalizm nəzəriyyəçilərinə görə, insanlar iki növ hörmət və ehtirama layiqdirlər:

1. Hər bir fərd cinsiyyəti, irqi və etnik kimliyindən asılı olmadan fərd olaraq bərabərhüquqlu kimliyə malikdir;



*Çarlz Teylor*

2. Hər bir fərd daxilində yaşadığı qrupun norma və dəyərlərinə qarşı hörmət və ehtiram gözləyir.

Bu baxımdan insanlardan yalnız fərdi azadlıqları ilə kifayətlənmələrini tələb etmək düzgün deyil. Çünki fərdlər diskriminasiyaya məruz qalarkən eyni zamanda etnik və ya dini qrupa aid olduqları səbəbindən də bunu yaşayırlar. Məhz kommunitarian baxış tərzinə görə, fərdlər olaraq insan hüquqlarının qorunması və fərdlərin mədəni ictimai sferalara aid olması vacibdir. Bu səbəbdən də fərdi etnik-mədəni mənsubiyyətindən ayrı düşünmək mümkün deyildir. Bu mənada liberalizmin dəstəklədiyi fərdiyyətçilik və etnik mənsubiyyətlərə skeptik yanaşma bütün qrupun yox olması ilə nəticələnə bilər.

Alasdair Makintayr "Əxlaqın ardınca" adlı əsərində etik qayda və qanunların fərddən daha çox ictimai, toplu şüurda meydana gəldiyini vurğulayır. Kommunitarian görüşə malik olan Makintayra görə, qrup və cəmiyyətdən müstəqil şəkildə fərd özbaşına inkişaf edə bilməz. Bu mənada liberalizmin səhvi onun dünyanı yanlış təsvir etməsində deyil, daha çox onun arzuolunmaz dəyişikliklərə səbəb olmasında yatdığı iddia olunur.

Bu kontekstdə qeyd olunmalıdır ki, kollektiv hüquqlarda fərdiyyətçiliyə yer verilməklə birlikdə bu fərdlərə daha çox kollektiv və ya qrup kimliyinin və məqsədinin daşıyıcıları olaraq baxılır. Qısaca olaraq fərd və qrup mübahisəsində fərdiyyətçilər fərdin qrup və ya kollektivdən daha əvvəl gəldiyini iddia edirlər. Qrup və ya kollektiv hüquqların ilkinliyinə inanlar isə hər bir fərdin bir qrup və ya kollektiv içində dünyaya gəldiyini və "mənliklərini" orada formalaşdırdığı üçün qrupu fərdin var olma şərti olaraq irəli sürürlər. Bu məqam birbaşa eyni zamanda liberallar və kommunitarianlar arasında əsas müzakirə mövzusunu da təşkil edir.

Kommunitarian yanaşmasına görə, fərdlər cəmiyyət tərəfindən qəbul olunan sərhədləri aşdıqda ictimai həyatda xaoslar yarana bilir. Digər tərəfdən isə insanlardan sadəcə fərdi azadlıqları ilə kifayətlənmələrini istəmək ehtiyaclara tam cavab verməz. Məhz liberal demokratik baxış tərzi müxtəlifliyə universal insan hüquqları və azadlıqları çərçivəsində baxır.

Kommunitarian baxış tərzində şəxs fərdi səviyyədən (intimate plane) ictimai sfera (public sphere) səviyyəsinə keçir. Bu sfera kommunitarian sferadır. Bu mənada kommunitarianlara görə, hər bir fərd qrup və icma daxilində anadan olduğu üçün öz “mən” və kimlik anlayışlarını orada qazanır. Bu qrup anlayışına görə, fərd ictimai formalaşmanın daxilində var olur və “yaxşı həyat” anlayışını irs olaraq əldə edir. Parex və Teylora görə, liberalizm liberal olmayan qrupları və həyat tərzlərini qəbul etmir. Buna görə də Teylor müxtəlifliyə qarşı onları “fərqliliklərə kor” olaraq tənqid edir.

Məşhur alman filosofu Yurgen Habermas liberal və kommunitarian multikulturalizmə dair dilemmanı belə ifadə edir: *“Bir tərəfdə mədəni müxtəlifliyi əsas alan siyasət, digər tərəfdə isə fərdi hüquqların universallığına dair siyasət...“.* Habermas demokratiya və “konstitusional vətəndaşlıq” ilə müxtəlifliklərə qarşı “fərqliliklərə kor” olmama tərzini birləşdirərək məsələnin həlli yollarını təqdim edir. Bu mənada Habermas fərdi azadlığın yolunun eyni zamanda qrupun bəzi hüquqlara malik olmasından keçdiyinə inanır. Nəticədə ona görə, fərdi kimliklərimiz daxilində yaşadığımız kommunitarian anlayış tərəfindən xarakterizə olunur.

Bu mövzuda Vil Kimlikanın görüşləri də əhəmiyyət kəsb edir. O, hesab edir ki, kommunitarian hüquqlara inanmanın məntiqi arxa planında fərdlərin yaşadıqları qrupun mədəniyyət anlayışından təsirləndikləri durur və fərdi razı salmanın yolu onun sahib olduğu mədəniyyəti nəzərə almaqdır. Kimlika fikrini belə tamamlayır: “Əgər qruplar öz daxillərində fərdlərə kifayət qədər azadlıq verirlərsə və ya ən azından fərdə istədiyi andan etibarən o qrupun yaşam tərzindən çıxma imkanı verirsə, bu məqsədəuyğundur“.

Müasir dövrdə qlobal dünyada fərqli multikultural anlayışlar mövcuddur. Məsələn, multikulturalizm deyildiyində daha çox milli azlıqlar və xaricdən gələn işçi qüvvəsi anlaşılır. Ancaq multikultural baxış tərzi demokratik dövlətlərdə birbaşa konstitusiyadakı vətəndaşlıq maddəsinə istinad edərək tənzimlənir. Belə ki, bir cəmiyyəti təşkil edən bütün fərdlərin və fərqli qrupların din, dil, irq və digər mənsubiyyət fərqi olmadan dövlət nəzdində bərabərhüquqlu olduğu, ölkənin ictimai resursları və imkanlarından bərabər şəkildə istifadə etdiyi, bu səbəblə də vətəndaşı olduğu dövlətdə konstitusional vətəndaşlıq statusunu daşıyır. Xüsusilə bu istiqamətdə Yurgen Habermasın «konstitusional vətəndaşlıq» ideyası əhəmiyyət kəsb edir. O, “Vətəndaşlıq və milli kimlik” («Citizenship and National

İdentity») adlı məqaləsində mövzunu belə xarakterizə edir: *«İsveç və ABŞ-dakı multikultural cəmiyyət nümunələri göstərir ki, konstitusional prinsiplərin içində yer aldığı siyasi hakimiyyət daxilində qətiyyən bütün vətəndaşların eyni dili, eyni etnik mənsubiyyəti yaxud eyni mədəniyyəti bölüşmələri məcburi deyil. Əksinə multikultural bir cəmiyyətdə siyasi strategiya, müxtəlif həyat anlayışlarının plüralizmini və inteqrasiyasını şüurlu şəkildə təşviq edən konstitusional vətəndaşlığa istinad edilməlidir»*. Digər tərəfdən Habermasa görə, bu arqument kommunitarian kontekstdə həm etik relyativizmin, həm də etik doqmatizmin əleyhinə yönəlmişdir.

Maykl Uolzer irqçi və nifrət ehtiva edən tendensiyaların multikulturalizmlə uzlaşmayacağını, bunlara tolerant yanaşmanın qeyri mümkünlüyünü vurğulayır. O, bu kontekstdə anti-demokratik proseslərə qarşı gəlməyi heç də multikulturalizmə qarşı olma mənasında başa düşülməməsinin vacibliyini ifadə edir.

Yekun olaraq qeyd olunmalıdır ki, multikulturalizm kontekstində müxtəlif mədəniyyətlərin mövcudluğuna dair məsələlər liberal və kommunitarian anlayışlar çərçivəsində müzakirə olunur. Bu mənada multikulturalizmə kommunitarian yanaşma hər bir mədəniyyətin özünəməxsus dəyərlər sisteminə mənsub olduğu prinsipinə əsaslanır. Bu yanaşmanın tərəfdarları fərdin hər hansı bir mədəniyyət və ya kollektiv dəyərlər sisteminə sahib olmadan öz varlığını və inkişafını həyata keçirməkdə ciddi manelərlə qarşılaşacağını iddia edirlər.

# Fəslə aid suallar

1. Sözün geniş mənasında multikulturalizm termini nə deməkdir?
2. Sözün dar mənasında multikulturalizm termini nə deməkdir?
3. Etnik, irqi, dini və/və ya mədəni müxtəlifliklərin hər bir xalqın həyatında əhəmiyyətli rol oynaması nə ilə bağlıdır?
4. Multikulturalizmə sosial hadisə kimi yanaşmanın əhəmiyyəti nədir?
5. Multikulturalizm siyasətinin əsasında nə durur?
6. Multikulturalizmin xalqların həyat tərzinə çevrilməsinin əhəmiyyəti nədir?
7. Multikulturalizmin dövlət siyasəti səviyyəsinə keçmədən xalqların həyat tərzinə çevrilməsi mümkündürmü?
8. "Multikulturalizmə giriş" fənninin obyekti nədir?
9. "Multikulturalizmə giriş" fənninin predmeti nədir?
10. "Multikulturalizmə giriş" fənni üçün fəlsəfənin əhəmiyyəti nədən ibarətdir?
11. "Multikulturalizmə giriş" fənni üçün politologiyanın əhəmiyyəti nədən ibarətdir?
12. "Multikulturalizmə giriş" fənni üçün sosiologiyanın əhəmiyyəti nədən ibarətdir?
13. Metod nədir?
14. Müşahidə nədir?
15. Müşahidə prosesinin tərkib hissələri hansılardır?
16. Xarici və daxili müşahidə arasında fərq nədən ibarətdir?
17. Bilavasitə və dolayı müşahidə arasında fərq nədən ibarətdir?
18. Dərketmə prosesinin səmərəli metodu olmaq üçün müşahidə hansı tələblərə cavab verməlidir?
19. Müqayisə nədir?
20. Bir tədqiqat metodu kimi səmərəli olmaq üçün müqayisə hansı tələblərə cavab verməlidir?
21. Elmi araşdırmada müqayisə metodu vasitəsilə obyekt haqqında məlumatı hansı yolla əldə etmək olar?
22. Obyektlər arasında müqayisə onların mühüm yoxsa qeyri-mühüm əlamətləri üzrə aparılmalıdır? Niyə?

23. Bir tədqiqat metodu kimi ölçü nədir?
24. Ölçü ilə müqayisə metodları arasında hansı münasibət vardır?
25. Eksperiment nədir?
26. Müşahidə ilə eksperimentin oxşar və fərqli cəhətləri hansılardır?
27. Bir tədqiqat metodu kimi induksiya nədir?
28. Tam induksiya nədir?
29. Natamam induksiya nədir?
30. Deduktiv metod nədir?
31. Deduktiv metod vasitəsilə alınan nəticə ehtimal xarakteri daşıyır? Niyə?
32. Deduktiv əqli nəticədən alınan yeni biliyin həqiqi olması üçün şərt nədən ibarətdir?
33. Analiz metodu nədir?
34. Sintez metodu nədir?
35. Abstraktlaşdırma metodu nədir?
36. Niyə abstraktlaşdırma metodu analiz metodunun məntiqi davamı hesab olunur?
37. Ümumiləşdirmə metodu nədir?
38. Məhdudlaşdırma metodu nədir?
39. Təsnifat metodu nədir?
40. Təsnifat hansı hissələrdən ibarətdir?
41. Təsnifatın qaydaları hansılardır?
42. Təsnifatın neçə növü vardır?
43. Dixotomik təsnifatın üstünlükləri hansılardır?
44. Analogiya metodu nədir?
45. Analogiyada hansı terminlərdən istifadə edilir?
46. Analogiya vasitəsilə alınan nəticələrin həqiqilik ehtimallığının artırılmasının hansı yolları vardır?
47. “Multikulturalizmə giriş” fənninin əsas funksiyaları hansılardır?
48. “Multikulturalizmə giriş” fənninin nəzəri-idraki funksiyası nədən ibarətdir?
49. ”Multikulturalizmə giriş” fənninin praktiki funksiyası nədən ibarətdir?
50. ”Multikulturalizmə giriş” fənninin siyasi-ideoloji funksiyası nədən ibarətdir?
51. ”Multikulturalizmə giriş” fənninin proqnozlaşdırıcı funksiyası nədən ibarətdir?

52. ”Multikulturalizmə giriş” fənninin mənəvi- tərbiyəvi funksiyası nədən ibarətdir?
53. Liberalizm nümayəndələri arasında multikulturalizmlə bağlı fikir ayrılıqlarının səbəbi nədir?
54. Niyə Kimlika mühacir qruplarına münasibətdə milli azlıqların daha üstün hüquqlara malik olduqlarını iddia edir?
55. Multikulturalizmə klassik və müasir liberalizm yanaşmaları arasında fərq nədən ibarətdir?
56. Con Stuart Millin irəli sürdüyü “Zərər vurma!” prinsipinin mahiyyəti nədən ibarədir?
57. Niyə Kimlika “güclü multikulturalizm”in, Kukatas isə “zəif multikulturalizm”in tərəfdarıdır?
58. Brayan Barrinin eqalitar liberal nəzəriyyəsinin əsas ideyası nədən ibarətdir?
59. Kommunitarian baxış tərzinin əsas xüsusiyyətləri hansılardır?
60. Liberallar və kommunitarianlar arasında əsas müzakirə mövzusu nədir?
61. Kommunitarianlara görə, fərdin mənliyi harada formalaşır?
62. Çarlz Teylor və Alasdair Makintayrın kommunitarian görüşlərinin əsas müddəalarını göstərin.
63. Yurgen Habermas və Maykl Uolzerin kommunitarian görüşlərinin əsas müddəalarını göstərin.

## Ədəbiyyat


1. İlham Əliyev. Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında iştirak edib. http://www.yap.org.az/az/view/news/12931/prezident-ilham-eliyev-bizim-uchun-multikulturalizm-dovlet-siyasetidir
2. İlham Əliyev. Prezident İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışında iştirak edib. 2 may 2019-cu il. https://president.az/articles/33027
3. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. (AMEA-nın həqiqi üzvü K.M.Abdullayevin və prof. E.Ə.Nəcəfovun redaktəsi ilə), Bakı, 2017
5. Nəcəfov E.Ə. İctimai elmlərdə akademik yazı və tədqiqat metodları. Ali məktəblər üçün dərslik. Bakı, 2017
6. Nəcəfov E.Ə. Multikulturalizmin mahiyyətinə dair. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N3 (51), 2015, s.103-112
7. Hacıyev A.N., Cəfərova E.H., Məmmədov İ.M. Multikulturalizmə giriş. Ali Məktəblər üçün dərs vəsaiti. Bakı, 2018.
8. Barry B. Culture and Equality: An Egalitarian Critique of Multiculturalism, Polity Press, Cambridge 2001
9. Barry B. The Muddles of Multiculturalism // Journal New Left Review, London, 2001
10. Dumouchel P. Comparative multiculturalism. http://www. ritsumei.ac.jp/acd /gr/gsce/s/pd01/Comparative_Multiculturalism.pdf
11. Kukathas C. Rawls: A Theory of Justice and Its Critics, Polity Press, Cambridge, 1990
12. Kukathas C. Theoretical Foundations of Multiculturalism http://econfaculty. gmu.edu/pboettke/workshop/fall04/theoretical_fo undations.pdf
13. Kukathas C. Tolerating the Intolerable // Papers on Parliament, Australia, 1999
14. Kymlicka W. Finding Our Way: Rethinking Ethnocultural Relations in Canada, Oxford University Press, 1998
15. Kymlicka W. Immigration, Multiculturalism, and the Welfare State // Journal Carnegie Council on Ethics & International Affairs, Cambridge

University Press (CUP), 2006
16. Kymlicka W. Liberalism, Community and Culture, Oxford University Press, 1989
17. Kymilcka W. Multicultural Citizenship: A Liberal Theory of Minorty Rights, Oxford University Press, 1995.
18. Kymlicka W. Multiculturalism as Fairness // Journal of Political Philosophy 5 (4), New Jersey, Wiley 1997, pp.406-427
19. Kymlicka W. Politics in the Vernacular: Nationalism, Multiculturalism, Citizenship, Oxford University Press, 2001
20. Livingstone K. It's not Marx, But Mill, The Guardian, November 30, 2016 https://www.theguardian.com/commentisfree/2006/nov/30/post731
21. Makintyre A. After Virtue, University of Notre Dame Press, 2007.
22. Oakes L., Peled Y. Normative Language Policy: Ethics, Politics, Principles, Cambridge University Press, 2017
23. On S. Barry Brian and the Headscarf Case in France, Department of Political Science University of California, Los Angeles USA, 2006
24. Parekh B. Rethinking Multiculturalism: Cultural Diversity and Political Theory, London: Macmillan, 2000, pp.142-178
25. Song S. Multiculturalism, The Stanford Encyclopedia of Philosophy (Spring 2014 Edition), Edward N. Zalta (ed.), http://plato.stanford.edu/archives/ spr 2014 /entries/multiculturalism
26. Taylor Ch. Multiculturalism: Examining the Politics of Recognition, Princeton University Press, 1994.
27. Walzer M. On Toleration, Yale University Press, 1999.
28. Wieviorka M. Is Multiculturalism a Solution? // Journal Ethnic and Racial Studies, 21(5) 1998, p. 882-910

# II BÖLMƏ

## DİNİ MÜXTƏLİFLİK

# II FƏSİL

# DİNİN MAHİYYƏTİ VƏ ONUN TƏZAHÜR FORMALARI

## 2.1. Dinin mahiyyəti və onun meydana gəlməsinə dair nəzəriyyələr

Din insanlıq tarixində universal ictimai institut kimi çıxış edir. Tarixi, antropoloji və sosioloji tədqiqatlar göstərmişdir ki, istər ənənəvi, istərsə də müasir cəmiyyətlər özünəməxsus dini etiqad sisteminə malikdir. Şübhə yoxdur ki, dinin universallığı onun cəmiyyət həyatı üçün yerinə yetirdiyi əhəmiyyətli rollar və funksiyalarla bağlıdır. Belə olduğu halda, dinin mahiyyətini, onun meydana gəlmə və inkişaf qanunauyğunluğunu elmi konsepsiyalar əsasında öyrənmək zərurəti yaranır. Bu zərurətin nəticəsi olaraq, XVIII əsrdən etibarən dinin mahiyyəti, mənşəyi, cəmiyyətdəki rolu və yerini təhlil edən müxtəlif nəzəriyyələr irəli sürülmüşdür.

Bu nəzəriyyələr din fenomenini əsasən iki tərəfdən izah etməyə çalışır:

I.Dinin strukturunun əsas elementləri;

II. Dinin cəmiyyətdəki rolu və funksiyası.

Dinin strukturu əsasən üç formada təzahür edir:

1. Fövqəltəbii varlığa inam;
2. Dini fəaliyyət;
3. Dini təşkilatlar. Başqa sözlə desək, din - fövqəltəbii varlığa və ya qüvvələrə etiqad etmək, onlara pərəstiş göstərmək, ayin və mərasimləri yerinə yetirmək, nəhayət, öz inancını ifadə etmək məqsədilə dini qruplarda birləşmək deməkdir.

Dinin mahiyyəti ilə bağlı konsepsiyaların bəzilərini nəzərdən keçirək. İngilis antropoloqu Edvard Bernet Teylor (1832-1917) dinin mahiyyətini *“ruhani varlıqlara inanmaq”* kimi xarakterizə etmişdir. Burada “ruhani varlıqlar” ifadəsi insan idrakının fövqündə duran, fövqəltəbii güclərə malik olduğuna inanılan metafizik varlıqlar (tanrı, mələk və s.) kimi başa düşülür. Dinin mahiyyətini tanrıya (monoteist dinlər) və ya tanrılara (politeist dinlər) etiqad etməklə əlaqələndirən fikirlər də geniş yayılmışdır.

Dini fenomenoloji baxımdan öyrənən tədqiqatçılar hesab edirlər ki, dinin səciyyəvi cəhətlərindən birini də müqəddəslik və ya fövqəltəbiilik duyğusu təşkil edir. Burada fövqəltəbiilik insanın ruh aləmində qorxu və ya xof yaradan, sirli bir hissiyyat kimi təzahür edir. Bu mənada məşhur antropoloq Rudolf Otto (1869-1937) dini *"müqəddəs olanın təcrübə edilməsi"* şəklində xarakterizə edir. Onun fikrincə, din insanın müqəddəs qəbul edilən varlıqla qarşılıqlı əlaqəsindən ibarətdir. Burada dini təcrübə müqəddəs varlığın hiss edilməsi, ona yaxınlaşma və onu bilavasitə təcrübə etmək kimi başa düşülür.

Dinin mahiyyətinin funksional izahı dinin fərd və cəmiyyət üçün oynadığı rolları nəzərdə tutur. Bu izahda dinin cəmiyyəti bütünləşdirən və eyni inancları daşıyan insanlar arasında həmrəylik yaradan xüsusiyyətləri vurğulanır. Dinin fərd üçün əhəmiyyətinə gəlincə, bu daha çox insanın mənəvi həyatı və psixikası ilə əlaqədardır. Belə ki, din insan həyatına məna qazandırır, onu mənəvi böhran, ümidsizlik, depressiya və digər psixoloji problemlərdən qoruyur. Dinin sosioloji nəzəriyyəsini hazırlamaqda böyük xidmətləri olan görkəmli fransız sosioloqu Emil Dürkheym (1858-1917) hesab edir ki, *"din müqəddəs varlıqla bağlı inamlar və ayinlərdən ibarət olan, inananları mənəvi bir birlik və ya dini qrupda birləşdirən, beləliklə ictimai həmrəylik yaradan sistemdir"*. Bu tərifdə dinin mahiyyəti izah olunmaqla yanaşı, onun insanları mənəvi bağlarla birləşdirmə funksiyası da qeyd edilir.

Dinin meydana gəlməsinə dair irəli sürülən nəzəriyyələr ciddi mübahisələrə səbəb olmuşdur. Bu mübahisələrin əsasında dinə müxtəlif aspektdən yanaşma və metodoloji fərqlər durur. Ümumiyyətlə, sosial elmlərdə metodoloji baxımdan dinə yanaşma tərzinin iki əsas istiqaməti mövcuddur: *pozitivist və fenomenoloji* yanaşma.

Pozitivizm fəlsəfəsinə əsaslanan ilk yanaşma dini şüur və fəaliyyəti anlamaqla kifayətlənməyərək, onun mənşəyini təbiətşünaslığın metodları əsasında izah etməyə cəhd edir, beləliklə də, dini etiqad sistemini ibtidai və mifoloji dünyagörüşündən təkamül edərək formalaşan ictimai şüur forması kimi dəyərləndirir. Burada din ictimai inkişafın erkən dövrlərində meydana gələn ictimai şüur forması, kollektiv illüziya, irrasional fikirlər, dünyəvi qayğılardan qaçmağın və iztirabları səngitməyin təsəlli vasitəsi kimi nəzərdən keçirilir.

Metodoloji baxımdan dinə münasibətin ikinci forması isə öz əksini dinə *fenomenoloji* yanaşmada tapır. Burada dini fenomenlər daxildən, yəni inanan

insanların nöqteyi-nəzərindən tədqiq edilir və dini fenomenlərin həqiqiliyinin araşdırılması nəzərə alınmır. Məlum olduğu kimi, obyektiv yanaşma dini tərəfsizlik prinsipi kontekstində öyrənməyə çalışır, dini inancın və davranışların yalnız ona inananların subyektiv təcrübələri əsasında düzgün anlaşılacağını fərz edir. Dinə bu baxımdan yanaşan tədqiqatçılar üçün mühüm olan inancların həqiqətə əsaslanması deyil, onların insan psixikasına, ictimai fəaliyyətlərə və cəmiyyətə təsirləridir.

Dinin mənşəyini izah edən pozitivist-evolyusionist (təkamülçü) nəzəriyyələr, əsasən, aşağıdakılardır: *animizm*, *totemizm, fetişizm* və *naturizm* (və ya animatizm).



*Ağdam rayonunun Boyəhmədli kəndində tapılmış və ibtidai dini inancı əks etdirən daş heykəl. Erkən orta əsrlər.*

*Animizm* təbiətin və onun ayrıca elementlərinin (dağ, ağac, günəş, və s.) canlı, yəni insan kimi ruha malik olduğuna dair mifoloji dünyagörüşüdür. Dinin ibtidai forması hesab edilən animizm insana xas qabiliyyətlərin təbiətə şamil edilməsindən ibarətdir. İbtidai həyat tərzi sürən qəbilələrdə (məs.: Avstraliya aborigenlərində) hələ də animist inanclar yaşamaqdadır.

*Totemizm* insanla müqəddəs sayılan totem (bitki, heyvan, əşya və s.) arasında fövqəltəbii qohumluğun mövcud olduğuna inam bəsləmək deməkdir. Bu inanc sistemində insanların ulu əcdadı hesab edilən xüsusi bir bitki və ya heyvan totemi qəbilələrin əlaməti kimi çıxış edir və qəbilə həyatının bütün ictimai münasibətlərini tənzimləyir. Totem müqəddəs qəbul edildiyi üçün həmin adı daşıyan qəbilə və fərdlər də toxunulmazlıq qazanır. E.Dürkheymə görə, totemizm bütün dinlərin mənşəyini təşkil edən ən ibtidai inancdır.

*Fetişizm* müəyyən qeyri-adi formaya malik predmetlərin müqəddəsləşdirilməsi və onlara sitayişə əsaslanan dünyagörüşüdür. Əslində fetişizm animist dünyagörüşünün xüsusi bir formasıdır.

*Naturizm* və ya *animatizm* təbiət qüvvələrinin şəxsiləşdirilməsi, fiziki dünyada baş verən hadisələrin sakrallaşdırılması, başqa sözlə desək, təbiətə sitayiş etməkdir. Naturizm nəzəriyyəsində belə bir fikir irəli sürülür ki, ictimai inkişafın erkən dövrlərində insanlar ildırım, fırtına, zəlzələ, vulkanlar, günəş və ay tutulması, eləcə də digər təbiət hadisələri qarşısında qorxu və dəhşətə qapılmış, təbiət qarşısında aciz olduğunu başa düşmüş, bunun nəticəsində də təbiət hadisələrini tanrılaşdırmışlar.

Məşhur alman filosofu və marksizm nəzəriyyəsinin banisi Karl Marksın (1818-1883) kapitalist iqtisadi sistemin təhlili kontekstində dinin yeri və roluna dair fikirləri dinin mahiyyətinin izahı baxımından əhəmiyyətlidir. Çünki marksizm dinin mahiyyətini materialist nöqteyi-nəzərdən ən dolğun şəkildə açıqlamışdır. Marksın din nəzəriyyəsi ictimai fikir tarixində dinin tənqidi ənənəsini davam və inkişaf etdirmiş, həmin tənqidi keyfiyyətcə yeni mərhələyə qaldırmışdır.

Marksizm dinə bir sosial hadisə kimi yanaşaraq onun meydana gəlməsini və yayılmasını real ictimai-tarixi münasibətlər kontekstində izah edir. Bu nəzəriyyəyə görə, din insanın insanı istismar etməsi üzərində qurulan sinfi cəmiyyətin meydana gəlməsi səbəbilə yaranmışdır. Belə ki, din şərin hökm sürdüyü yer üzündə məzlum insanlara təskinlik hissi verir, reallıqda mövcud olan ictimai ədalətsizliklə barışdırır, qurtuluş yolunu bu dünyada deyil, axirətdə axtarmağa səsləyir. Beləliklə, din istismar və zülmə bəraət qazandıraraq hakim siniflərin maraqlarına xidmət edir. K.Marks "Din - xalqın tiryəkidir" deyəndə, dinin məhz bu sosial funksiyasını nəzərdə tutmuşdur.

Dinin meydana gəlməsini izah etməyə cəhd göstərən materialist və təkamülçü nəzəriyyələr bəzi tənqidlərə məruz qalmışdır. Belə ki, bu nəzəriyyələr, ilk növbədə, dinlərin müxtəlifliyini izah edə bilmir. Çünki bu günədək dünya dinləri və ibtidai dinlərin eyni mənşədən yarandığının obyektiv əsaslandırılması mümkün olmamışdır. Digər tərəfdən, dinin meydana gəlməsinə dair alternativ izahlar da verilmişdir. Məsələn, avstriyalı linqvist, antropoloq, eyni zamanda katolik kilsəsində keşişlik etmiş Vilhelm Şmid (1868-1956) politeist (çoxtanrılı) dinlərdə belə, digər tanrılardan üstün, yaradıcı bir səma tanrısına inamın mühüm yer tutduğu faktından çıxış edərək, bütün dinlərin ibtidai monoteizm əsasında yarandığını irəli sürmüşdür.

## 2.2. Din fərdi dünyagörüşün və ictimai şüurun forması kimi

Din ictimai şüurun tarixi bir forması kimi meydana gəlmişdir. Doğrudur, dini şüur əsasını fərdi şüurdan irəli gəlmişdir, lakin tarixə nəzər saldıqda görürük ki, bütün dünya dinləri fərdi şüurun hüdudlarını keçib ictimai xarakter qazanmışdır.

Dini şüur tarix boyu müxtəlif cəmiyyətlərdə fərqli formalarda təzahür etmişdir. Bu müxtəliflik, ilk növbədə, cəmiyyətlərin ictimai-mədəni təməllərinin fərqliliyindən irəli gəlir. Ümumilikdə, dini şüur nəzəri, praktik və ictimai olmaqla üç ifadə formasında özünü göstərir. Dini şüurun nəzəri ifadəsi ilə dini inam və etiqadlar, praktik ifadəsi ilə ibadət və ayinlər, ictimai ifadəsi ilə dini birliklər nəzərdə tutulur.

Dini şüurun təməli kimi çıxış edən nəzəri aspektin özü də müxtəlif səviyyələrdə təzahür edir. İbtidai dünyagörüşlərində miflər şəklində ifadə edilən etiqadlar mədəniyyətin daha mütərəqqi mərhələlərində "dini doktrinalar" və ya teologiyaya (ilahiyyat) çevrilmişdir. Dini şüurun nəzəri ifadəsi xüsusi əhəmiyyətə malik olan üç mövzunu əhatə edir: tanrı, kainat və insan. Başqa sözlə, teoloji, kosmoloji və antropoloji anlayışlar müxtəlif dinlərdə miflər, inamlar və doktrinalar formasında təzahür etmişdir. Teologiyada tanrının və ya tanrıların mahiyyəti, atributları, mənşəyi və bunların isbat edilməsi mövzularından bəhs edilir. Kosmologiyada kainatın mənşəyi, inkişafı, müxtəlif mərhələləri, onun aqibəti və ya sonu ilə əlaqəli konsepsiyalar yer tutur. Dini təcrübənin nəzəri ifadəsinin antropoloji bəhsi isə insanın yaranması, onun mahiyyəti, vəzifəsi və aqibəti ilə bağlı mövzulardan ibarətdir.

Dini şüurun praktik təzahürünə müqəddəs hesab edilən varlıqla bağlı ayinlər, mərasimlər, ibadətlər, simvollar və müxtəlif qurban ritualları daxildir. Dini şüurun nəzəri, yoxsa praktik yönünün daha önəmli olduğu mövzusunda çoxlu müzakirələr aparılmışdır. Nəticə olaraq, ibtidai və milli dinlərdə dini təcrübənin praktik və ya ritual aspektinin, ümumbəşəri dinlərdə isə dini şüurun nəzəri (etiqad) aspektinin daha əhəmiyyətli olduğu fikri qəbul edilir.

Dini şüurun başqa bir yönünü isə onun ictimai ifadəsi təşkil edir, çünki dinlər insanları dini qruplar və birliklərdə birləşdirmə potensialına malikdir.

Dini şüurun ictimai aspekti, əslində fərdi şüurun ictimai şüur müstəvisinə yüksəlmə prosesidir. Belə ki, subyektiv dini şüurun yayılması və ictimailəşməsi nəticəsində din bir qrup insanın və ya bütövlükdə cəmiyyətin ictimai şüurunun formalaşmasında mühüm rol oynayır.

Dinin funksiyası dedikdə, dinin fərd və cəmiyyət üçün əhəmiyyəti, dinin cəmiyyətdəki rolu və yeri nəzərdə tutulur. Dinin sosioloji təriflərinin, eləcə də dini şüurun ifadə formalarının müxtəlif olması, dinin fərd və cəmiyyət üçün bir-birindən fərqli funksiyaları yerinə yetirdiyi mənasına gəlir. Dinin bütün cəmiyyət və zamanlar üçün dəyişməz funksiyalarını müəyyənləşdirmək o qədər də asan deyil. Onun ictimai rolu cəmiyyətin strukturundan və mədəniyyətindən asılıdır. Məsələn, dövlət strukturuna malik olmayan primitiv cəmiyyətlərdə ictimai nizamı tənzimləyici funksiyanı din, dünyəvi dövlətlərdə isə bu funksiyanı mədəni hüquq yerinə yetirir. Deməli, dinin funksiyaları universal deyildir, əksinə, bunlar dəyişkən və nisbi xarakter daşıyır. Bununla belə, müxtəlif tarixi dinlərin keçmişdə və günümüzdə cəmiyyət və fərd üçün vacib olan bəzi rollarını müəyyənləşdirmək mümkündür. Bunları, əsasən, iki qismdə – dinin fərdi funksiyaları və dinin ictimai funksiyaları olaraq nəzərdən keçirək.

Dinin fərd üçün əhəmiyyəti çox böyükdür. Belə ki, din insanların həyatına məna qazandırır və onların dünyagörüşünü formalaşdırır. İstər keçmişdə, istər müasir dövrdə insanlar "Nə üçün varam?", "Nə etməliyəm?", "Öldükdən sonra nə olacaq?" kimi suallara cavab axtarıblar. Lakin din xaricində bu suallara konkret cavab verən başqa dünyagörüşü forması mövcud deyildir. Dini şüurun nəzəri ifadəsi, daha öncə də gördüyümüz kimi, müxtəlif etiqad sistemləri, miflər, yaxud dini hekayələr vasitəsilə kainatın, insanın necə və nə üçün yaradıldığı, vəzifələri, onun aqibəti ilə bağlı cavabları ehtiva edir.

Elm təbiətlə bağlı olan bir çox hadisələri izah etməyə nail olsa da, həyatın mənası və dəyərini izah etmək elmin vəzifələrinə daxil deyildir. Odur ki, bir çox filosoflar həyatın mənası, məqsədi və hədəfini elmin deyil, yalnız dinin müəyyənləşdirə biləcəyini etiraf etmişlər. Məsələn, tanınmış alman sosioloqu *Maks Veberə (1864-1920)* görə, həyata məna vermək dinin əsas funksiyasıdır. Çünki iztirab, haqsızlıq, ədalətsizlik, ölüm kimi hallara din xüsusi məna qazandırır, fərdin mənəvi-psixoloji ehtiyaclarına cavab verən əhatəli dünyagörüşü formalaşdırır.

Həmçinin insana mənsubiyyət və kimlik qazandırmaq dinin digər fərdi funksiyasıdır. İnsan inandığı fövqəltəbii qüvvəyə tabe olaraq, hansı dinə və ya məzhəbə mənsub olduğunu, qısaca, öz kimliyini müəyyənləşdirir. Beləliklə, din müasir dövrdə bir çox insanın məruz qaldığı kimlik böhranına qarşı güclü sipər funksiyasını yerinə yetirir.

Dinin ictimai funksiyaları da müxtəlifdir. Burada dinin sosial inteqrasiya, tənzimedici və legitimləşdirici funksiyaları xüsusilə qeyd edilməlidir. Dinin sosial inteqrasiya və birləşdirmə funksiyasını yerinə yetirməsi, demək olar ki, bütün funksionalist sosioloqlar tərəfindən vurğulanmışdır. Din ortaq inanc, ayin və mərasimlər vasitəsilə insanları dini birlik və qruplarda birləşdirir. Müştərək dünyagörüşü və eyni hədəflər insanların cəmiyyət halında yaşamasını mümkün edir. E.Dürkheym məhz din sayəsində cəmiyyət həyatının mümkün olduğunu ifadə edir və bildirirdi ki, din, əslində ictimai həyatın simvolik ifadəsindən ibarətdir. Buna baxmayaraq, dinin inteqrasiyaedici funksiyası nisbi xarakter daşıyır. Din müştərək inancları bölüşən insanları birləşdirdiyi halda, fərqli inanclara malik olanlara və ya inancsızlara qarşı mənfi münasibət bəsləməyə, hətta zorakılığa da səbəb ola bilər. Dinin bu qəbildən olan mənfi rollarına isə dinin *disfunksiyası* deyilir. Tarixdə və günümüzdə dini zəmində çoxlu münaqişələrin baş verdiyi məlumdur. Odur ki, dinin inteqrasiya və ya münaqişəyə səbəb olması situasiyaya bağlı olaraq dəyişir.

Eyni zamanda, din ictimai dəyərləri, normaları və mədəniyyəti legitimləşdirmə, onlara haqq qazandırma funksiyasına malikdir. Belə ki, o, ictimai norma və dəyərlərə müqəddəs məna yükləməklə sosial strukturu qoruyur. Beləliklə, din adət-ənənələr, ictimai normalar və dəyərlər üçün sağlam təməl rolunu oynayır, həmçinin dini məna daşıyan norma və dəyərləri nəsildən-nəslə ötürür. Yaxşı və ya pis əməllərin (normalar) din tərəfindən müəyyənləşdirilməsi insanlarda özünənəzarət mexanizmini gücləndirir. Bu da ictimai asayişin təmin olunması və ictimai nizamın möhkəmlənməsi sahəsində öz töhfəsini verir.

Sonda bir daha qeyd etmək lazımdır ki, dinin inteqrasiyaedici, ictimai nizamı dəstəkləmə və ya iğtişaşlara səbəbolma funksiyaları cəmiyyətin mövcud sosial, mədəni, iqtisadi və siyasi strukturundan, habelə toplumda, geosiyasi mühitdə baş verən proseslərdən asılı olaraq, müsbət və ya mənfi istiqamətdə inkişaf edə bilər.

# Fəslə dair suallar

1. Dinin mahiyyətini təşkil edən əsas elementlər hansılardır?
2. Edvard Bernet Teylor dinin mahiyyətini necə xarakterizə etmişdir?
3. Emil Dürkheym dinin əsas funksiyasını nədə görür?
4. Bu məşhur kəlam kimə məxsusdur: "Din xalqın tiryəkidir"?
5. Karl Marks dinin mahiyyətini necə izah edirdi?
6. Dinin mahiyyətini izah edən pozitivist və fenomenoloji yanaşmaların metodoloji fərqlilikləri nədən ibarətdir?
7. Dinin meydana gəlməsinə dair hansı nəzəriyyələr irəli sürülmüşdür?
8. Animizm nədir?
9. Totemizm nədir?
10. Animatizm nədir?
11. Fetişizm nədir?
12. Təkamülçü nəzəriyyələrin zəif tərəfi hansılardır?
13. Dinin meydana gəlməsinə dair pozitivist-evolyusionist nəzəriyyələrin mahiyyəti nədən ibarətdir?
14. Dinin meydana gəlməsində fərdi və ictimai şüurun rolu nədən ibarətdir?
15. Dini şüurun əsas istiqamətlərini və dini şüurun insanların dünyagörüşünə təsirlərini təhlil edin.
16. Dinin funksiyası dedikdə nə nəzərdə tutulur?
17. Dinin fərdi və ictimai həyatda oynadığı mühüm rollar və funksiyalar hansılardır?
18. Cəmiyyətin inteqrasiyası prosesində din institutunun müxtəlif rollarını təhlil edin.
19. Din institutunun fərdin psixikasına və mənəvi dünyasına təsirlərini müəyyənləşdirin.
20. Maks Veberə görə, dinin əsas funksiyası nədən ibarətdir?
21. Dinin disfunksiyası dedikdə nə başa düşülür?

## Ədəbiyyat

1. Freyd Z. Musa və təkallahlılıq. Bakı: Qanun Nəşriyyatı, 2016.
2. Freyd Z. Totem və tabu. Bakı: Qanun Nəşriyyatı, 2016.
3. Hacıyev Z. Fəlsəfə: Ali məktəblər üçün dərslik. Bakı: "Turan evi" nəşriyyatı, 2012.
4. Qənbərov A. Dinin sosioloji konsepsiyası ve dindarlığın aspektləri, Dövlət və Din: İctimai Fikir Toplusu, Say: 9 (38), Bakı-2015.
5. Qənbərov A. Sekulyarizasiya və Müasir Dünyada Dinin Yeri. Dövlət və Din: İctimai Fikir Toplusu, Say: 3, (32), Bakı-2015.
6. Rüstəmov Y. Fəlsəfənin əsasları. Bakı: Nurlar nəşriyyatı, 2007.
7. Vahidov F.Q., Ağayev T.B. Sosiologiya: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: "Zərdabi LTD", 2013.
8. Durkheim E. The Elementary Forms of Religious Life. London: Hollen Street Press, 1964.
9. Edward B. Tylor. Primitive Culture. London: John Murray, Albemarle Street Press, 1871.
10. Giddens A. Sociology. Cambridge: Polity Press, 2009.
11. Hamilton M. The Sosiology of Religion: Theoretical and Comparative Perspective. Routledge, London and New York, 2001.
12. Otto R. Kutsala Dair. İstanbul: Altıkırkbeş Yay., 2014.
13. Roberts A. Keith. Religion in Sociological Perspective. California: Wadsworth Publishing, 1990.
14. Schmidt W. The Origin and Growth of Religion: Fact and Theories. Cooper Square Publishers, 1931.
15. Ünver G. Din Sosyolojisi. İstanbul: İnsan Yayınları, 2005.
16. Wach J. Din Sosyolojisi, (tər. Ünver Günay), İstanbul: İFAV Yay., 1995.

# III FƏSİL

# DÜNYA DİNLƏRİ

## 3.1. Buddizm

Buddizm dünyada yayılmış üç ümumbəşəri dinin (Buddizm, Xristianlıq və İslam) ən qədimidir. Buddizmin ümumbəşəri din sayılmasının səbəbi onun Xristianlıq və İslam kimi etno-konfessional və coğrafi sərhədləri aşaraq, fərqli mədəniyyət və ənənələrə mənsub müxtəlif xalqların dininə çevrilməsidir. Təxmini hesablamalara görə, dünya üzrə Buddizmin 450-500 milyon (təqribən 1 milyonunu rahiblər təşkil edir) mənsubu vardır və onlar əsasən, Cənub, Cənub-Şərqi və Şərqi Asiya ölkələrində (Butan, Vyetnam, Hindistan, Kamboca, Çin, Koreya, Laos, Monqolustan, Myanma, Nepal, Tailand, Tibet, Şrilanka, Yaponiya, eləcə də Sinqapur və Malayziyada çinli əhalinin məskunlaşdığı bölgələrdə) yaşayırlar. Həmçinin Rusiya Federasiyasının subyektləri olan Buryatiya, Kalmıkiya, Tıva, Saxa (Yakutiya) və Xakasiya respublikalarında ənənəvi olaraq Buddizmə sitayiş olunur.

XIX əsrin sonlarından etibarən Buddizmin Avropa və Amerika qitələrində yayılması prosesi başlamışdır. Elə "Buddizm" termini də XIX əsrdə avropalılar tərəfindən bu dinə verilən addır. Onun mənsubları isə dinlərini "Dharma" (qanun, təlim), yaxud "Buddadharma" (Budanın təlimi) adlandırırlar. "Budda" sözü isə sanskrit və pali dillərində - "aydınlanmış", yaxud "oyanmış şəxs" mənasını verir.

Buddizm ilk baxışda dindən daha çox, fəlsəfi sistemə bənzəyir. Ona görə də bəzi tədqiqatçılar ona fəlsəfi-etik təlim, idrakla bağlı elm və mədəni ənənə kontekstində yanaşmışlar. Lakin qeyd etmək lazımdır ki, Buddizmdə bir dinə xas olan bütün keyfiyyətlər mövcuddur. Buddizm kainatı yaradan fövqəlqüdrətin (tanrının) mövcudluğu ideyasından bəhs etməsə də, ümumən, mistik təmayüllü din kimi xarakterizə olunur.

## 3.1.1. Tarixi

Buddizm eramızdan əvvəl I minilliyin ortalarında qədim Hindistanın şimal-şərqində yaranmışdır. Bu dövrdə Hindistanın məhz həmin bölgəsində yeni dini təlimin yaranmasına bir sıra faktorlar təsir göstərmişdir. Belə ki, kasta sisteminin hakim olduğu qədim veda dinində yüksək imtiyaz tanınan brahman sinfinin (ruhanilərdən ibarət ali təbəqə) bu bölgədə təsirləri nisbətən zəif idi. Kasta sisteminin digər nüfuzlu zümrəsi sayılan kşatrilərin (döyüşçü və dünyəvi hakimlər sinfinin) təsirləri isə əksinə daha güclü idi. Bundan başqa, həmin bölgədə dini prinsiplərə deyil, dünyəvi qanunlara əsaslanan dövlət quruculuğu prosesi gedirdi. Bu da sözügedən iki təbəqə arasında fikir ayrılığına, hətta konfliktlərin yaranmasına səbəb olurdu. Tədqiqatçıların fikrincə, məhz dünyəvi hakimlərə istinad edən Buddizm kasta sistemini tamamən rədd etmiş və bununla da brahmanizmə müxalif dünyagörüşü kimi meydana çıxmışdır.

Qeyd etmək lazımdır ki, brahmanizm həmin tarixi dönəmdə dini ideya baxımından da ciddi böhran dövrünü yaşayırdı. Brahmanların təlimlərinin və formal icra olunan ayinlərin təsiri insanlar arasında getdikcə zəifləyirdi. Bunun əvəzinə şramanlar adlanan yeni, ənənəvi olmayan cərəyan təşəkkül tapmağa başlayırdı. Şramanlar zahid (asket) həyat tərzini seçən, daim səyahət edərək həyatın mənasını axtaran azad filosoflar kimi tanınırdılar. Onlar ənənəvi din xadimlərini (brahmanları) qəbul etmir, həyatın mahiyyətinin yoqa və fəlsəfə vasitəsi ilə dərk ediləcəyinə inanırdılar. Məhz belə şramanlardan biri Sakya qəbiləsindən olan və daha sonra "Budda" adı ilə məşhurlaşan **Siddhartha Qautama** idi.

Siddharthanın hansı tarixlərdə yaşadığı, ümumiyyətlə, Buddizmin dəqiq yaranma tarixi barədə tədqiqatçılar arasında yekdil fikir mövcud deyil. Ona görə də şərti olaraq e.ə. 544-cü il UNESKO tərəfindən bu dinin yaranma tarixi kimi qəbul edilmiş və buna əsasən 1956-cı ildə Buddizmin 2500 illiyi qeyd olunmuşdur.

Buddizmin mahiyyətini anlamaq üçün ilk növbədə Siddhartha Qautamanın ənənəvi həyat hekayəsini bilmək olduqca vacibdir. Buddizmin mənbələrində qeyd olunur ki, gələcək Budda döyüşkən Sakya çarlığının hökmdarı Suddhodananın ailəsində şahzadə olaraq dünyaya gəlmişdir. Paytaxtı Kapilavastu şəhəri olan bu

kiçik dövlət Hindistanın şimal-şərqində, Himalay dağlarının ətəyində yerləşirdi (hazırda Nepalın ərazisidir).

Ənənəyə görə, uşağın dünyaya gəlməsinə az qalmış anası, şahzadə Mahamaya, ata evinə yollanır. Lumbini kəndinin meşəliyində övladını dünyaya gətirir. Lakin yeddi gündən sonra o vəfat edir və dayəlik yeni doğulmuş şahzadənin xalasına həvalə olunur.

Hökmdar Suddhodana övladının gələcəyini öyrənmək üçün məşhur münəccim Aşitanı saraya çağırır və o, uşağın bədənində onun böyük şəxsiyyət olacağını göstərən otuz iki əlamət müəyyənləşdirir. Bu əlamətlər əsasında Aşita qeyd edir ki, balaca şahzadə gələcəkdə ya böyük bir hökmdar - bütün dünyanın hakimi (çakravartin), ya da həqiqəti dərk edəcək müqəddəs zahid (budda) olacaq. Bundan sonra uşağın adını Siddhartha Qautama qoydular. "Siddhartha" – "məqsədinə tam nail olmuş şəxs" mənasını verir. "Qautama" isə onun mənsub olduğu sülalənin adıdır.

Suddhodana oğlunun gələcəkdə zahid deyil, onun yerinə keçəcək böyük hökmdar olmasını arzulayırdı. Bu məqsədlə o, övladının ömrü boyu həyatın mənası, əzab və ölüm haqqında fəlsəfi düşüncələrə meyllənərək zahid olmaması üçün onu xarici aləmdən təcrid edir, gözəl sarayda zənginlik və firavanlıq içində yaşamasını təmin edir. Hətta əhalinin qoca, xəstə və kasıb insanlarını paytaxt Kapilavastudan ayrı bir şəhərə köçürdür. Siddhartha məhz belə bir mühitdə böyüyür.

Dövrünə görə yaxşı təhsil alan, öz yaşıdlarını həm elmdə, həm də idmanda üstələyən Siddhartha uşaqlıqdan düşünməyə, fikir yürütməyə meyl göstərir, xeyirxahlığı hər şeydən üstün tutur, kin, nifrət və düşmənçilikdən uzaq olmağa çalışır. On altı yaşında Siddhartha Yaşodhara adlı şahzadə qızla evlənir və Rahula adlı oğlu dünyaya gəlir. Hər şey atasının istədiyi kimi getdiyi halda 29 yaşlı Siddhartha ova getmək üçün ilk dəfə icazəsiz saraydan kənara çıxır və bu onun həyatını tamamilə dəyişir.

Yolda şahzadə Siddharthanın qarşılaşdığı dörd hadisə onu həyatın məşəqqət və əzab-əziyyəti barədə dərin düşünməyə vadar edir və nəticədə o, mənəvi sarsıntı keçirir. Belə ki, şahzadə həyatında ilk dəfə dəfn mərasimi görür və anlayır ki, özü də daxil olmaqla bütün insanlar ölümlüdür. Nə var-dövlət, nə də səltənət ölümdən xilas etməyə qadir deyil. Daha sonra cüzama tutulmuş xəstəyə rast gəlir və başa düşür ki, hər bir insan xəstəliyə mübtəla ola bilər.

Şahzadə bir müddət sonra pul istəyən dilənçi ilə qarşılaşır və var-dövlətin, ad-sanın mahiyyət etibari ilə ötəri və bihudə olduğunu anlayır. Nəhayət o, dünyadan əlini çəkərək zahidlik edən və bununla da həyatdan razı qalan müdrik bir qocaya rast gəlir. Qoca ilə görüşdən sonra şahzadə başa düşür ki, insanın zahidlik edərək öz nəfsinə yönəlməsi və daxili dünyasını dərk etməsi həyatın əzab-əziyyətinin səbəbini bilmək və ondan qurtulmağın yeganə yoludur.

Rastlaşdığı hadisələrdən sonra şahzadə Siddhartha artıq dəbdəbəli sarayda rahat yaşaya bilmir və bir gün gecə yarı xidmətçisinin müşayiəti ilə sarayı tərk edir. Meşənin kənarında atını və qılıncını xidmətçiyə verir və onunla vidalaşır. Dünya həyatından əl çəkir, uzun saçlarını kəsdirib sadə geyim geyinir və meşəyə yollanır. Bununla da Siddhartha mənəvi axtarış yoluna – zahidliyə qədəm qoyur.

Siddhartha əvvəlcə yuxarıda qeyd olunan müxtəlif şraman qruplara qoşulur və onların təlimlərini öyrənir. Şramanlar cəmiyyətdən kənar gəzərək, özlərini hər şeydən məhrum edir, ac qalmaq və digər üsullarla nəfslərini sınağa çəkirdilər. Onlar həmçinin yoqa və nəfəsin gimnastikası metodu ilə ruhun bədəndən asılılığını azaltmağa çalışırdılar. Siddhartha tezliklə şramanların bütün təlimlərini mənimsəyir, tətbiq edir, amma heç kimin davamçısına çevrilmir. Beş yoldaşı ilə birlikdə qidadan imtina edərək asketizmin sərt metodlarını tətbiq edir, lakin gəldiyi nəticələr insan, həyat və həqiqət mövzusunda axtardığı suallara cavab vermədiyindən onu razı salmır. Belə olan təqdirdə Siddhartha sərt zahidlikdən əl çəkir və yaxınlıqda yaşayan bir qızdan sadə, lakin kifayət qədər qidalı yemək (südlü düyü sıyığını) qəbul edir. Bunu görən ətrafındakı yoldaşları Siddharthanı dönük adlandırıb, tənha qoyub tərk edirlər.

Siddhartha qatı zahidliyin əvəzinə nə nəfsin hər istəyinə boyun əyən, nə də bədəni zəiflədəcək qədər məhrum buraxan orta yol müəyyənləşdirir və meşənin dərinliyində tənha altı il yaşayır. Otuz beş yaşı olanda bir gün Neranjara çayının sahilində bodhi ağacının (əncir ağacının bir növü) altında oturur və and içir ki, həyatın, ölümün, əzab və əziyyətin həqiqi mahiyyətini və səbəbini dərk etməyənə qədər yerindən durmayacaqdır. O, meditasiya icra edir və dərin düşüncələrə dalır.

Buddizmin mistik ənənəsində bildirilir ki, dərin düşüncə zamanı Siddharthanın ölüm və doğuş dünyalarına qalib gələcəyini görən şər qüvvə Mara vəsvəsə edərək onu əvvəlcə qorxutmağa, daha sonra qızlarının gözəlliyi vasitəsilə yoldan çıxartmağa çalışır. Lakin bütün bunlar Siddharthaya təsir etmir

və Mara təslim olur. Siddhartha düçüncənin ən dərin qatlarına enəndə artıq ona əzab, əzabın səbəbləri, əzabın qurtarması və onun sona çatmasına aparan yollar barədə *Dörd nəcib həqiqət* aşkar olur. Bir az da dərinə enəndən sonra ona səbəb-asılılıq əlaqəsinin yaranmasının ümumi prinsipi aydın olur. Nəhayət, Siddharthanın dərrakəsi dördüncü mərhələyə çatır və zehnində nirvananın pozulmayan sükunət nuru parlayır. Bu vaxt o, trans (samadhi) vəziyyətinə düşür və artıq şahzadə Siddhartha Qautama şəxsiyyət kimi əriyib yox olur, əvəzində dünyaya aydınlanmış, oyanmış müdrik – Budda qayıdır.



*Buddizmin simvolu - Sansara Çarxı.*

Həmçinin Buddizmin mistik ənənəsində qeyd olunur ki, Budda yeddi gün trans vəziyyətində qalır, səkkizinci gün bu haldan çıxır. Dərhal Mara yaxınlaşıb sonuncu dəfə onu yoldan azdırmağa çalışır. O, Buddaya təklif edir ki, heç yerə getmədən bodhi ağacının altında qalsın, qazandığı xoşbəxtlik hissindən həzz alsın, həqiqəti digər insanlara təbliğ etməsin. Lakin Budda bunu rədd edir və Hindistanın dini mərkəzlərindən biri olan Benaresə (Varanasi) yollanır. Benaresdə Maral parkında özünün Budda olduğunu elan edir və "Təlim təkərinin dönüşü" mövzusunda ilk möizəsini söyləyir. Buddanın ilk dinləyiciləri vaxtı ilə onu "dönük" adlandıraraq tərk edən beş zahid yoldaşı idi. Onlar Buddanı dinlədikdən sonra söylədiklərinə iman gətirirlər, beləliklə "sanqha" adlanan buddist icmasının ilk rahibləri olurlar.

Siddhartha bundan sonra hər yerdə Budda Şakyamuni (Sakya qəbiləsinin aydınlanmış müdriki) kimi tanınır və ömrünün son qırx beş ilini Hindistanın şimal-şərqində yerləşən dövlətlərdə təlimini yaymağa həsr edir. Varlı tacir Anathapindada Koşala dövlətinin paytaxtı Şravasti şəhərinin yaxınlığında yerləşən meşəliyi yeni yaranmış icmaya bağışlayır. İcmaya qoşulanların sayı sürətlə artır. Budda qadınlar üçün də ayrı icma yaradır və beləliklə kişi rahiblərlə (bhikşu) yanaşı, qadın rahibələr (bhikşuni) meydana gəlir.

Budda ailəsini və yaxın qohumlarını unutmayaraq öz məmləkətinə qayıdır. Başda atası hökmdar Suddhodana, həyat yoldaşı Yaşodhara olmaqla

sakya qəbiləsi onu böyük sevinclə qarşılayır. Budda ilə söhbətdən sonra xanımı Yaşodhara və oğlu Rahula rahibliyi qəbul edirlər. Hökmdar Suddhodana vəliəhdsiz qalır və Buddadan söz alır ki, o bir daha ailənin bir oğul övladını valideynlərinin icazəsi olmadan icmaya qəbul etməyəcək. Budda buna söz verir və bu adətə indinin özündə də Buddizmin yayıldığı ölkələrdə ciddi riayət olunur.

Buddanın məşhurluğu onun əmisi oğlu Devadattanın paxıllığına səbəb olur. O, əvvəllər də şahzadə Siddharthanın uğurlarını paxıllıqla qarşılayırdı. İndi isə Buddanı fiziki olaraq məhv etməyə cəhd göstərir, lakin uğursuzluğa düçar olur. Daha sonra icmanı daxildən parçalamaq üçün yalandan rahibliyi qəbul edir. Amma onun bütün fitnə-fəsadları ifşa olunur və o, icmadan rüsvayçı şəkildə qovulur.

Zaman ötür, Budda yaşlanırdı. Mənbələrə görə, o, 80 yaşında Nayrancani çayının sahilində, Kuşinaqara adlanan yerdə tələbələri ilə vidalaşır, onlara öz güvvələrinə güvənmək və xilas olmaq naminə səylə çalışmaq barədə son məsləhətlərini verir. Daha sonra sağ tərəfi üstündə uzanır, üzünü şərqə çevirir, sağ əlini başının altına qoyaraq meditasiyaya qərq olur və əbədi nirvanaya qovuşur (parinirvana).

Onun vəfatından sonra tələbələri adət-ənənə üzrə Buddanın nəşini yandırdılar. Hörmət əlaməti olaraq, ətraf dövlətlərin hökmdarları onun yanmış cəsədinin külündən bir hissə götürüb saxladılar. Daha sonra həmin külü "stupa" adlanan və konusvari formada inşa olunan xüsusi tikililərin içərisinə yerləşdirdilər.

Budda sağlığında özündən sonra icmanı idarə etmək üçün heç kəsi təyin etməmişdir. Ona görə də onun vəfatından qısa müddət sonra tələbələri Rajagriha şəhərində toplaşaraq ilk böyük şura yığıncağı çağırdılar. Şuranın məqsədi Buddanın dediyi və öyrətdiyi bütün məsələlərin şifahi ötürülməsində səhvlərin baş verməməsini təmin etmək idi. Buddanın üç məşhur tələbəsi – Ananda, Mahakaşyapa və Mahamaudqalyayana hafizələrindən Buddanın fəlsəfi təlimini, moizələrini, nəsihətlərini, öyrətdiyi normaları, icmanın qayda və qanunlarını bir araya gətirirlər. Sonrakı dövrlərdə də buddist rahiblər arasında yaranmış müəyyən fikir ayrılıqlarını aradan qaldırmaq üçün üç böyük şura yığıncağı çağırılmış və imperator Aşokanın (e.ə. 273-232) bu məsələdə xüsusi xidmətləri olmuşdur. Ümumiyyətlə, Buddizmin tarixi baxımından e.ə. III əsrdə Hindistanda hakimiyyətdə olmuş imperator Aşokanın fəaliyyəti böyük əhəmiyyət kəsb etmişdir.

Belə ki, Aşoka Buddizmi qəbul etdikdən sonra, onun geniş arealda yayılması istiqamətində tədbirlər görmüş, bu dinin təbliğatçılarını dəstəkləməklə onu dövrünün ən böyük dininə çevirmişdir.

## 3.1.2. Dini təlimin əsasları

Buddizmin təliminin əsas hədəfi, icra olunan bütün ibadət və normaların məqsədi insanı həyatın məşəqqət, əzab və iztirabından xilas edib mütləq mənəvi xoşbəxtlik, səadət hissinə - Nirvanaya çatdırmaqdır. Qədim hind fəlsəfəsi və dini dünyagörüşünə görə, insan, heyvan və bitkilər bədən və ruha sahibdirlər. Bədən ölümlü, ruh isə həmişəyaşardır. Bədən öldükdən sonra ruh görülən pis və yaxşı əməllərdən asılı olaraq (karma) digər insan, heyvan, yaxud bitki bədəninə keçir (reankarnasiya). Sonsuz təkrarlanan bu zəncirvari doğuş-ölüm prinsipi "Sansara" adlanır. Kasta sisteminə görə, brahmanlardan başqa digər insanların sansaradan xilas olması mümkün deyil. Hətta brahmanların belə sansaradan azad olması olduqca çətin iş sayılır.

Buddanın gətirdiyi yeni təlim isə tamamilə bu fikrə qarşı çıxır, kasta sistemini inkar edir və individual insan olaraq hər bir fərdin sansaradan xilasının mümkünlüyünü ifadə edirdi. Bu isə nirvanaya çatmaqla, yəni həyatın aldadıcı arzu və istəklərindən qurtulub, həqiqətin mahiyyətini dərk edib zehni aydınlanmaqla (oyanmaqla) mümkündür. Dolayısı ilə nirvanaya çatmış insanın ruhu sansaradan tamamilə azad olmuş sayılır.

Budda qeyd edirdi ki, gətirdiyi təlim ilahi vəhy sayılmır, bu onun meditasiya vasitəsi ilə öz ruhu və ətraf aləm barədə apardığı dərin düşüncələrin nəticəsində əldə edilmişdir. Təliminə ehkam kimi yanaşılmasına qarşı çıxan Budda vurğulayırdı ki, onu hər bir insan yalnız şəxsi təcrübəsindən keçirdikdən sonra qəbul etməlidir.

Tədqiqatçıların ümumi fikrinə görə, Buddanın doktrinası aşağıdakı təlimləri ehtiva edir:

- Dörd nəcib həqiqət haqqında təlim;
- Səkkiz mərhələli nəcib qurtuluş yolu barədə təlim;
- Qarşılıqlı asılılığın yaranması qanunu barədə təlim;
- Varlığın üç fundamental xüsusiyyəti: a) dəyişkənlik, b) şəxsiyyətsizlik, c) qənaətbəxş olmama barədə təlim

- Dharma haqqında təlim;
- Boşluq haqqında təlim;
- “Mən”in – nəfsin yox edilməsi barədə təlim (anatmavada)



*Buddhist meditasiya halında.*

Buddizmin sadalanan təlimlərinin əsasında *Dörd nəcib həqiqət* haqqında ideya dayanır: 1-ci həqiqət dünyada hər şeyin əzab, əziyyət, iztirab, narahatlıq, narazılıq, qeyri-məmnunluq, həyəcan, təşviş, təlaş, qorxu olduğunu ifadə edir. Buna “dukkha” deyilir. Yəni doğum, qocalıq, xəstəlik, bir sözlə ötəri olan hər şey əzab və iztirabdır; 2-ci həqiqət dukkhanın səbəbini göstərir. Yəni əzab və iztirabın mənbəyi arzu və istəkdir; 3-cü həqiqət dukkhadan azad olmağın, onun səbəblərinin aradan qaldırılmasının mümkünlüyünü açıqlayır; 4-cü həqiqət isə dukkhanın yox edilməsinin yeganə yolunu göstərir və bunun nirvanaya çatmaq olduğunu bildirir.

Bu yol isə, öz növbəsində, səkkiz mərhələdən keçir. Səkkiz mərhələli nəcib qurtuluş yolunun ümumi mahiyyəti müdrik olmaqdan, əxlaqlı davranmaqdan və zəkanın nizam-intizamda saxlanılmasından ibarətdir. Yəni qurtuluşa çatmaq istəyən insan həyata müdrikcəsinə yanaşmalı, hər şeyi doğru anlamalı, saf niyyətli olmalı və bütün məsələlərə düzgün istiqamətdən baxmalıdır. Əxlaqlı olmaq üçün doğru danışmalı, yaxşı işləri görməli və düzgün həyat tərzi seçməlidir. Zəkanın nizam-intizamda saxlanılması isə doğru yöndə çalışmaq, səy göstərmək, düşüncəni düzgün istiqamətə yönəltmək və bir yerə toplamaqla mümkündür.

Qarşılıqlı asılılığın yaranması və dharma (varlığın ümumi qanunu) haqqında konsepsiya, eləcə də “mən”in – nəfsin yox edilməsi barədə doktrina da Buddizm təlimində əsas yerlərdən birini tutur. Qarşılıqlı asılılığın yaranması qanunu Buddizmdə varlığın əsas qanunu hesab edilir. Yəni bu dünyada bütün hadisələr səbəbiyyət əlaqəsindən asılıdır və bu qanunauyğunluqdur. Hər hansı

təsadüf mövcud deyil. Heç nə boş yerə yaranmır və ya yox olmur, hər şeyin səbəbi vardır. Buddizm mənbələrində qeyd olunur ki, arası kəsilməyən bu sonsuz zəncirvari dəyişkənlik ailəmində bənd rolunu oynayan "skandhi" adlı kiçik hissəciklər vardır və yalnız bu hissəciklər möhkəm sayılır, dəyişikənliyə uğramır. Budda hesab edirdi ki, insan nəfsinin – "mən"inin möhkəm, bölünməz hissəciyi isə "atmana"dır. O, hər bir şəraitdə stabildir. Stabillik, öz növbəsində, asılılıq yaradır, asılılıq isə əzab və iztiraba səbəb olur. Ona görə də atmananı daim qruplaşdırılmış skandhilərlə əvəzlədikdə insan asılılıqdan qurtulur, bununla da əzab və iztirabdan azad olur. Bir sözlə, bu qeyd olunan təlimlərin məqsədi insanın eqosentrizmdən xilas olmağına yönəlmişdir.

Buddizmdə aləmi yaradan tanrı ideyasından bəhs olunmur. Çünki Budda tanrı haqqında fikir söyləməmişdir. Bu baxımdan aləmin yaradılışı və sonu haqqında səmavi dinlərə məxsus metafizik anlayışlar Buddizmə xas deyil. Buddistlərin nəzərində kainat əzəldən sonsuz olaraq yaranma və məhv olma xüsusiyyətinə malikdir. Bu dinə görə, kainatın sayı sonsuz olduğu kimi, buddaların sayı da sonsuzdur. Budda Şakyamuni tələbələrinə özünün 25-ci budda olduğunu bildirmiş, həmçinin ondan sonra Metteyya (yaxud Maytreya) adlı buddanın gələcəyini söyləmişdir. Onun zühur edəcəyi dövr "qızıl əsr" dövrü hesab olunacaqdır. Buddaların vəzifəsi müəllimlik edərək insanlara qurtuluş yolunu göstərməkdir. İnsan isə yalnız öz səyi və çalışqanlığı ilə xilas olacaqdır.

### *Ehkam və ibadət*

Bir insan özünü buddist adlandırmaq üçün ayrı-ayrılıqda üç iman kəlməsini, yəni "Buddaya, dharmaya (təlimə) və sanqhaya (rahiblərin icmasına) pənah gətirirəm" cümləsini deməlidir. Bu dinin mənsublarının praktik əxlaq və ehkam normaları baxımından minimum aşağıdakı beş öhdəliyə riayət etmələri vacibdir:

1. Canlı varlıqlara heç bir ziyan yetirməmək;
2. Əgər könüllü bəxş etmirsə, heç kimdən heç nə almamaq;
3. Ər-arvad sədaqətini pozmamaq;
4. Yalan danışmamaq;
5. Sərxoşedici içki və digər vasitələrdən uzaq durmaq.

Rahibliyə hazırlaşanlar isə bundan əlavə beş öhdəliyə də əməl etməlidirlər:

1. Qarınqululuqdan imtina etmək və az yemək;

2. Rəqs, musiqi, mahnı oxumaqdan uzaq olmaq, həmçinin tamaşaya baxmamaq;

3. Ətir vurmamaq və bər-bəzək taxmamaq;

4. Hündür oturacaq və yataqlardan istifadə etməmək;

5. Heç kimdən qızıl və gümüş almamaq.

Rahiblik yolunu seçənlər saçlarını dibindən kəsdirməli, sarı (narıncı, yaxud çəhrayı) rəngdə sadə geyim geyinməlidirlər. İki ayda bir dəfə oruc tutmalı və oruclu olanda günahlarını etiraf etməlidirlər.

Buddizmdə konkret dua, yaxud ibadət forması mövcud deyil. Bunun əvəzində *"samatha"* və *"vipassana"* adlanan iki meditasiya növü var. Samatha statik meditasiya sayılır və şüuru mənəvi sakitliyə, aydınlığa qovuşdurmaq, zehni çirkab duyğulardan təmizləmək üçün icra olunur. Vipassana isə dinamik və analitik meditasiyadır. Onun vasitəsi ilə dörd nəcib həqiqət və fanilik ideyası barədə dərindən düşünülür və anidən daxili aydınlanma hissi keçirilir. Buddistlər meditasiya zamanı dünyanı və özlərini müəyyən elementlərin yığını kimi gözdən keçirirlər. Bu zaman onlar özlərinin həm ətraf dünyadan, həm də öz cismani bədənlərindən fərqli olduqlarını dərk edirlər.

Buddizmin məbədləri *"paqoda"* adlanır. Bu məbədlərdə Buddanın bütü yerləşdirilir. Hər buddist məbədə girəndə Buddanın heykəlinə hörmət göstərir, çiçək, ətirli tüstü və qida qoyur. Buddist evlərində də Buddanın bütünün yerləşdiyi guşə mövcuddur. Lakin qeyd etmək lazımdır ki, Buddanın özü bütlərə sitayiş etməyə qarşı çıxmışdır. Zaman keçdikcə bu dinin mənsubları Buddanın şəxsiyyətini tanrılaşdırmış və onun heykəlini düzəldərək sitayiş etmişlər. Bu baxımdan hazırda Buddanın heykəllərini, ona aid müqəddəs əşyaların saxlandığı stupaları, xüsusilə də altında ilham aldığı Bodhi ağacını ziyarət etmək Buddizmdə böyük mənəvi əhəmiyyət kəsb edir.

## *Dini mətnlər*

Budda daim səyahət edərək öz təlimini insanlara öyrətdiyi üçün onun sağlığında sözləri yazılı mətn formasına salınmamışdır. Ona görə də Buddizm dörd əsrə yaxın müddət ərzində nəsildən-nəsilə şifahi şəkildə öyrədilmişdir.

Büddanın sözləri ilk dəfə eradan əvvəl I əsrdə Seylon adasında (Şri-Lanka) pali dilində yazıya köçürülmüş və bununla da Buddizmin dini mətnləri – *"Tripitaka"* formalaşmışdır. "Tripitaka" "üç səbət" mənasını verir. O dönəmdə yazılı mətnlər palma yarpaqlarında qələmə alınıb səbətlərdə saxlanıldığından bu ad verilmişdir.

*"Tripitaka"* üç hissədən ibarətdir:

1. *Vinaya-pitaka* (Nizam-intizam səbəti) dini icma, rahib və rahibələrlə bağlı qaydaları ehtiva edir. Burada moizə söyləmə, qidalanma və geyimlə əlaqədar mövzulardan bəhs olunur, rahiblərin günahlarının etirafı məsələlərinə yer verilir;

2. *Sutra-pitaka* (Təlqin səbəti) Buddanın və onun bəzi tələbələrinin moizə, xütbə, nəsihət və hikmətli sözlərini ehtiva edir;

3. *Abhidharma-pitaka* (fəlsəfi və psixoloji izahlar səbəti) isə Buddizmin fəlsəfi və psixoloji təlimlərini açıqlayan, nirvanaya aparan yolların mahiyyətini göstərən mövzulardan bəhs edir.

Hazırda "Tripitaka"nın üç variantı mövcuddur. Pali dilində olan variant Şri-Lanka, Birma (Myanma), Tailand, Kamboca və Laos buddistləri üçün müqəddəs sayılır. Digər variant isə çin dilindədir (VII əsrdə tərcümə olunmuşdur). Tripitakanın bu variantı Çin, Koreya, Yaponiya və Vyetnam buddistləri tərəfindən mötəbər hesab edilir. "Tripitaka"nın üçüncü variantı isə tibet dilindədir. Tibet, Monqolustan və Rusiya Federasiyasının subyektləri olan Buryatiya, Kalmıkiya və Tıva respublikalarında yaşayan buddistlər bu varianta istinad edirlər.

Mütəxəssislərin fikrincə, keçmişdə "Tripitaka"nın sanskrit dilində də variantı olmuş, lakin tam şəkildə müasir dövrə qədər gəlib çatmamışdır. Bu variantın ancaq müəyyən kiçik hissələri aşkar edilmişdir.

## 3.1.3. Buddizmdə dini cərəyanlar

Buddizm geniş ərazilərdə yayıldıqca onun fəlsəfəsinin və təlimlərinin izahında müəyyən fərqliliklər yaranmış, bu da tarixi dövr ərzində bu dinin müxtəlif istiqamət və məktəblərinin meydana gəlməsinə səbəb olmuşdur. Hazırda Buddizmin üç əsas qolu mövcuddur – *Hinayana* ("dar yol", yaxud "kiçik döyüş arabası"), *Mahayana* ("geniş yol", yaxud "böyük döyüş arabası") və *Vajrayana* ("almaz yol"). Qeyd olunan qollar müxtəlif ölkələrdə yerli buddist cərəyanlarının formalaşmasına da öz təsirini göstərmişdir.

*Hinayana* Buddizmin cənub qolu sayılır və e.ə. IV-III əsrlərdə formalaşmışdır. Təqribən b.e. I əsrinədək hakim mövqedə olmuşdur. Müasir ədəbiyyatda "hinayana" termini əvəzinə ilk buddist məktəblərindən birinin adı olmuş "theravada" (qocaman böyüklərin təlimi) sözündən də istifadə olunur. Belə ki, Buddizmin tarixində konservativ istiqamət olan theravadanın ümumi mahiyyəti bu qolda səciyyəvi sayılır. Hinayananın mənsubları hesab edirlər ki, nirvanaya çatmaq yalnız rahiblərin icmasına (sanqha) daxil olmaqla mümkündür. Yəni təkcə icma üzvləri buna nail ola bilərlər. Buddizmin bu qolu qatı və sərt prinsiplərə əsaslanır, ona görə də mənsubları ehkamlara, bədən və ruh intizamına daha çox həssaslıqla yanaşırlar. Burada monastır nizam-intizamı olduqca sərtdir. Hətta dünyəvi buddistlər həyatlarında heç olmasa bir dəfə monastırda rahib kimi yaşamağa dəvət olunurlar. Digər qollardan fərqli olaraq hinayanada mistisizmə və mistik fərziyyələrə yer verilmir. Buddizmin bu istiqaməti əsasən cənub-şərqi Asiya ölkələrində – Birma, Malaziya, Tayland, Laos, Kamboca, İndoneziyada yayıldığı üçün "cənub məktəbi" adını almışdır.

*Mahayana* Buddizmin şimal qolu sayılır. Burada Buddanın moizələrinin əxlaq tərəfinə xüsusi əhəmiyyət verilir və bununla nirvanaya çatmağa çalışılır. Bu qolun mənsubları hesab edirlər ki, nirvanaya yetişmək olduqca çətin işdir. Çox nadir insanlar istisna olmaqla, heç kim bu "kamilliyə" nail ola bilməz. Lakin bodhisattvalar həmişə mövcuddur və onlar kamilliyə çatmağı səmimiyyətlə arzu edənlərin yanındadır. Mahayana mənsubları hesab edirlər ki, bodhisattvalar mütləq məhəbbətə, yaxşılığa doğru bu yolda insanlara rəhbər olmaq və bütün varlıqları xilas etmək üçün bilərəkdən nirvanaya qovuşmağı təxirə salırlar. Yəni bodhissattvalar öz əxlaqi və mənəvi keyfiyyətləri ilə nirvanaya yetişib qurtuluşa layiq olduqları halda, insanlara bəslədikləri mərhəmət səbəbindən şüurlu şəkildə son addımı atmır, dünyada qalıb insanlığın aydınlanmasına xidmət edirlər.

Buddizmin bu qolunun mənsubları icmanı (sanqhanı) qapalılıqdan çıxarıb ətraf dünyaya daha açıq olmasına, bununla da rahiblərlə dünyəvi buddistlər arasındakı mövcud bölünməni yumşaltmağa çalışırlar. Mahayana Buddizmi əsasən Çin, Koreya, Yaponiya və Tibetdə yayıldığı üçün "şimal məktəbi" adını almışdır. Ondan daha sonra digər cərəyanlar törəmişdir. Bizim eranın V-VI əsrlərində mahayana öz hakim mövqeyini itirmiş və liderliyi hind-tibet Buddizminə - Vajrayanaya təhvil vermişdir.

*Vajrayana* tantrik, yəni ezoterik (batini) Buddizm kimi səciyyələnir. Bizim eranın V əsrində mahayana Buddizminin tərkibində formalaşmışdır. Ona görə bəzən onu mahayana Buddizminin digər növü kimi də qəbul edirlər. Vajrayana sisteminin praktikasında "abhişeka" adlanan və su ilə yuyunmaqla icra olunan ayinə xüsusi əhəmiyyət verilir. Buddizmin bu qolunda aydınlanmaya çatmaq üçün əsas vasitə gizli mantraların səsləndirilməsi hesab olunur. Digər metodlara isə yoqa meditasiyası, "mudra" adlanan əl və barmaq hərəkətləri ilə yerinə yetirilən xüsusi ayinlər, qurulara (mənəvi rəhbər, müəllim) ehtiram bəsləmə və s. daxildir. Vajrayana Buddizmi Nepalda, Tibetdə, Monqolustanda və qismən Yaponiyada yayılmışdır.

Qeyd etmək lazımdır ki, Buddizm geniş arealda yayıldıqca yerli inancların təsirinə də məruz qalmışdır. Bu, eyni zamanda, Buddizmin bu və ya digər ölkələrdə rahat uyğunlaşmasına şərait yaratmışdır. Məsələn, Çin və Yaponiyada Buddizm bu ölkələrin mədəniyyətindən, adət-ənənələrindən xeyri təsirlənmiş, nəticədə yerli cərəyanlar meydana gəlmişdir. Hindistandan Çinə Buddizmi Bodhidharma (b.e. 440-526) adlı rahib gətirmişdir. Çin dilində onun adı "Damo", yapon dilində isə "Daruma" şəklində səslənir. O, Çan (yaxud Dzen) Buddizm təliminin qurucusu hesab olunur. "Çan" sanskrit dilində meditasiya, yaxud düşüncənin bir yerə toplanması mənasına gələn "dhyan" terminindən (çin dilində "çança") törəmişdir. Bu heroqlif yapon dilində "dzen" şəklində oxunur. Bodhidharmanın təbliğatı nəticəsində Çində meditasiya (dhyan) praktik əhəmiyyət daşımağa başlamış və rahiblər ölkəni gəzərək onu geniş kütlələrə təbliğ etmişlər. Çan Buddizmin təlimi yerli daosizm dininin və hinduizmin dhyan təlimlərinin sintezindən yaranmışdır. Bu təlimə görə, insan eyni bədəndə və eyni həyatda aydınlanaraq budda ola bilər. Bunun üçün dəfələrlə ölməyə və dirilməyə ehtiyac yoxdur. Məhz bu yanaşma təlimin çoxlu tərəfdar qazanmasına səbəb olmuşdur.

Bodhidharmanın təlimi Yaponiyada *Dzen Buddizm* adı ilə yayılmış və samurayların döyüşçü mentaliteti ilə uyğunlaşmağı bacarmışdır. Yaponiyada Dzen Buddizmə yerli din olan sintoizm də öz təsirini göstərmişdir. Dzen Buddizmdə insanın yalnız şəxsi təcrübəsinə istinad etməsinə diqqət daha çox ayrılır. Yəni, nə Buddanın, nə də ustad müəllimlərin mistik təcrübəsi özlüyündə insana heç bir kömək göstərə bilməz, ona görə də həqiqəti dərk etmək yalnız şəxsi təcrübə ilə mümkündür.

Bu gün Yapon xalqı sintoizmə bağlı olsa da, Buddizmə də dərin hörmət bəsləyir. Hətta bir çox yapon sintozmlə Buddizmi bir-birini tatamlayan iki din kimi qəbul edir. Məsələn, bir yaponun sintoizm məbədində evlənməsi və buddist məbədində icra olunan mərasimlə dəfn edilməsi normal hesab olunur. Həmçinin qeyd etmək lazımdır ki, Yaponiyada Buddizmin təkamülü təzadlı xarakter daşıyır. Belə ki, ənənəvi Buddizm məktəbləri (məsələn, Dzen Buddizm) durğunluq dövrü yaşadığı halda, *Niçiren Şoşu* və ya *Soka Qakkay* kimi tanınan yeni buddist sektalar inkişaf etməkdədir.

Bundan başqa, Tibetdə Buddizmin *Lamaizm* adlı özünəməxsus forması mövcuddur. Onun qurucusu Tibetin böyük filosofu və din xadimi Szonxava (1355-1419) hesab edilir. "Lama" sözü tibet dilindən tərcümədə "müəllim" mənasını verir. Buddizmin bu forması mahayana və vajrayana qollarının ənənəvi təlim və meditasiya texnikasına əsaslanır. Lamaizmin mənsubları hesab edirlər ki, Buddizm tarixində böyük rol oynamış görkəmli şəxsiyyətlər Tibetdə lamaların bədənində (cismində) yenidən dünyaya gəlir, öz təlimlərini, eləcə də ruhani və dünyəvi hakimiyyətlərini onlara ötürürlər (tulku). Bu təlimin inkişafı nəticəsində özündə ruhani və dünyəvi hakimiyyəti birləşdirən dalay-lama institutu formalaşmışdır. İndiyədək on dörd dalay-lama gəlmişdir. Sonuncu XIV Dalay-lama (doğulduqda adı Lhamo Dhondrub idi) Tibetdə Çin hakimiyyətinə qarşı baş vermiş üsyandan sonra 1959-cu ilin martında Hindistana mühacirət etmiş və o vaxtdan Dharamsala şəhərində yaşayır. O, bəyan etmişdir ki, Tibet Çin işğalında olduğuna görə növbəti zühuru burada baş verməyəcəkdir.

Qeyd etmək lazımdır ki, XII əsrdən etibarən Buddizm Hindistandan tamamilə sıxışdırılıb çıxarılsa da, son altmış ildə bu ölkədə yenidən kiçik buddist qruplar meydana gəlməyə başlamışdır. Bu gün Hindistanda 4 milyona yaxın buddist olduğu ehtimal edilir. Tibetdən mühacirət edən buddistlər sayəsində Hindistanın şimalında Buddizmin lamaizm qolunun mənsublarının sayı 100 min nəfəri ötmüşdür. Hazırda Dharamsala şəhəri lamaizmin güclü təbliğat mərkəzinə çevrilmişdir. Həmçinin Buddizmin bu forması tarixi dövr ərzində Monqolustanda, Rusiya Federasiyasının Buryatiya, Kalmıkiya, Tıva və digər regionlarında yayılmışdır.

Buddizm son yarım əsrdə Avropa və Amerikada ciddi maraq cəlb etməyə başlamışdır. Xüsusilə Dzen Buddizmin və Tibet lamaizminin təbliğat fəaliyyətləri, eyni zamanda Tibetdən və Vyetnamdan bir çox buddistin

mühacirəti nəticəsində Avropada bu dinin 10 minlərcə mənsubu olan icmaları formalaşmışdır. Onlar arasında xeyli sayda yerli avropalılar da vardır. Avropada buddist meditasiyalarına maraq göstərənlərin sayı artmaqdadır. Amerikada isə Dzen Buddizmlə yanaşı, Tanrtik Buddizmə də xüsusi maraq göstərilir. ABŞ-ın beynəlxalq "PEW" Araşdırmalar Mərkəzinin 2010-ci il üçün olan məlumatına görə, ümumilikdə Avropada 1 milyon 330 min, Amerika qitəsində isə 4 milyon 270 min buddist yaşayır.

## 3.2. Xristianlıq

### 3.2.1.Tarixi

Mənsublarının sayına görə dünyanın ən böyük dini olan xristianlıq bizim eranın I əsrində Fələstində yəhudi cəmiyyətində meydana gəlmişdir. Bu dinin yaranması İsus Xristosun (İsa Məsih) adı ilə bağlıdır. Xristos yunanca "məsh edilmiş" deməkdir. "Xristianlıq" sözünün özü də "xristos" kəlməsindən törəmişdir.

Fələstində meydana gəldikdən sonra xristianlıq Pyotr, Pavel və digər apostolların (İsa Məsihin şagirdləri və ya həvarilər. – Red.), habelə onların davamçılarının təbliğatı sayəsində qədim Roma imperiyasının nüfuz dairəsinə daxil olan Aralıq dənizi sahilindəki şəhərlərdə yayılır. Erkən kilsələrdən biri Antioxiya şəhərində (indiki Türkiyənin Antakya şəhəri. – Red.) təşəkkül tapır. Burada İsa Məsihin davamçılarına ilk dəfə "xristian" adı verilir. Xüsusən apostol Pavelin fəaliyyəti xristianlığın bütpərəst xalqlar arasında yayılmasında böyük rol oynayır.

Zaman keçdikcə xristian təlimi bütün qədim Roma imperiyası ərazisində özünə tərəfdar qazanır. İlk vaxtlar xristianlığı yoxsul və məzlum insanlar qəbul edirdi. Roma imperatoru Neronun (hakimiyyət illəri: 54-68) dövründə xristianları dövlət səviyyəsində təqib etməyə başladılar. Bu amansız təqiblər IV əsrədək davam etmişdir.

Təqiblərə baxmayaraq, xristian dini Roma imperiyasının əyanları və varlıları arasında da yayılırdı. Nəhayət Roma imperatorları I Konstantin

(hakimiyyət illəri: 306-337) və Lisiniy (hakimiyyət illəri: 308-324) 313-cü ildə Milan şəhərində görüşüb imperiya ərazisində dini dözümlülüyün elan edilməsi ilə bağlı razılaşma sənədi imzaladılar. "Milan edikti" adlanan bu sənəd qəbul edildikdən sonra xristianların nəinki təqiblərinə son qoyuldu, hətta xristianlığın hakim dinə çevrilməsi istiqamətində addımlar atılmağa başlanıldı.

Xristianlığın nüfuzu artdıqca, onun mənsubları arasında ziddiyyətlər böyüyür, İsa Məsihin təbiəti ilə bağlı müxtəlif təlimlər ortaya çıxırdı. Bu ixtilafların aradan qaldırılması məqsədilə fərqli dövrlərdə kilsə məclisləri çağırıldı. Qeyd edək ki, tarixdə xristian ehkamının formalaşmasına böyük təsir göstərən aşağıdakı yeddi ümumdünya kilsə məclisi keçirilmişdir:

I Ümumdünya Kilsə Məclisi - Roma imperatoru I Konstantin tərəfindən 325-ci ildə Nikeya (indiki Türkiyənin İznik şəhəri. – Red.) şəhərində çağırıldı. Həmin məclisdə arianlıq bidətçi təlim kimi səciyyələndirildi, həmçinin Tanrının üç sifətdən ibarət olması əqidəsi, yəni Müqəddəs Üçlük (Ata, Oğul və Müqəddəs Ruh) haqqında ehkam rəsmi şəkildə qəbul olundu.

II Ümumdünya Kilsə Məclisi - 381-ci ildə Konstantinopol (indiki Türkiyənin İstanbul şəhəri. – Red.) şəhərində keçirildi. Bu kilsə məclisində Müqəddəs Üçlük haqqında ehkamın formalaşması başa çatdırıldı.

431-ci ildə Efes şəhərində (Türkiyə ərazisindədir. – Red.) keçirilmiş III Ümumdünya Kilsə Məclisində nestorianlıq və 451-ci ildə Xalkedon (indiki İstanbul şəhərinin Kadıköy bölgəsi. – Red.) şəhərində çağırılmış IV Ümumdünya Kilsə Məclisində monofizitlik bidətçi təlimlər kimi rədd edildi.

V Ümumdünya Kilsə Məclisi - 553-cü ildə Konstantinopol şəhərində Bizans imperatoru I Yustian tərəfindən çağırıldı. Bu məclisdə suriyalı üç xristian ilahiyyatçısının (Mopsuestiyalı Feodor, Kiriyalı Feodorit və Edesalı İv) nestorian təlimləri, eləcə də yunan xristian mütəfəkkiri Origenin dini-fəlsəfi görüşləri kəskin şəkildə tənqid edildi.

VI Ümumdünya Kilsə Məclisi - 680-681-cı illərdə Konstantinopol şəhərində keçirildi. Bu məclisdə İsa Məsihdə həm ilahi, həm də insani iradənin olduğu haqqında dini təlim qəbul edildi.

VII Ümumdünya Kilsə Məclisi - 787-ci ildə Nikeya şəhərində (hazırda Türkiyənin İznik şəhəri. – Red.) keçirildi Bu məclisdə isə ikonalara (xristianlıqda

müqəddəs sayılan şəxslərin və ya dini hekayələrin bədii təsviri. – Red.) qarşı çıxanlar küfrdə ittiham olundu.

Qeyd edək ki, xristian dünyasında ixtilafların səbəbi təkcə ilahiyyatçıların dini təlimlərindən qaynaqlanmırdı. 395-ci ildə qədim Roma imperiyasının iki hissəyə - Qərbi və Şərqi Roma imperiyalarına bölünməsi də xristianlar arasında nifaqın yaranmasına və vahid xristian kilsəsinin parçalanmasına gətirib çıxardı. Belə ki, Qərbi Roma imperiyası ərazisində yaşayan xristianlar dini ayinlərini latın dilində yerinə yetirirdilər. Zaman keçdikcə onlar Roma şəhərində oturan yepiskop (Roma Papası) ətrafında birləşdilər. Şərqi Roma imperiyasındakı xristianlar isə yunan dilində ibadət edirdilər. Onların əsas dini mərkəzi Konstantinopol şəhərində yerləşən patriarxatlıq oldu. Əsrlər ötdükcə qərbi və şərqi xristianlar arasında ziddiyyətlər böyüdü, nəticədə 1054-cü ildə Roma Papası və Konstantinopol Patriarxı bir-birlərini lənətlədilər. Beləliklə, xristian dini katoliklik (qərbi xristianlıq) və pravoslavlıq (şərqi xristianlıq) olmaqla iki böyük qola bölündü.

Bütün bu təzad və ixtilaflara rəğmən, xristianlıq Avropada öz mövqeyini möhkəmləndirməkdə davam edirdi. Artıq IX-X əsrlərdə bu monoteist din german və slavyan xalqları, X-XIII əsrlərdə isə baltik xalqları tərəfindən qəbul olundu. Bununla yanaşı, erkən orta əsrlərdə Qərb dünyasında katolik kilsəsinin başçıları mütləq hakimiyyət əldə etdilər. Roma Papası III İnnokentinin (hakimiyyət illəri: 1198-1216) dövründə isə Papalıq (752-1870-ci illərdə Roma Papaları tərəfindən idarə olunmuş teokratik dövlət. – Red.) Avropanın ən qüdrətli dövlətinə çevrildi. Lakin XVI əsrdə Roma Katolik Kilsəsinin nüfuzu xeyli sarsıldı. Həmin dövrdə qərb dünyasını katoliklik əleyhinə yönəlmiş reformasiya hərəkatı bürüdü, nəticədə xristianlığın yeni qolu – protestantlıq meydana gəldi.

Xristian dünyasını bürümüş bütün bu təlatümlərə baxmayaraq, böyük coğrafi kəşflər (XV-XVI əsrlər), Avropa dövlətlərinin yürütdüyü müstəmləkəçilik siyasəti, qərb müstəmləkəçiləri tərəfindən dəstəklənən katolik və protestant missionerlərin fəaliyyəti sayəsində xristianlıq Avropanın hüdudlarını aşaraq daha geniş coğrafi arealda - Afrika, Amerika və Avstraliya qitələrində, eləcə də Okeaniyada yayıldı. Beləliklə, xristianlıq mənsublarının sayına görə dünyanın ən böyük dininə çevrildi. Hazırda Yer kürəsində yaşayan xristianların ümumi sayı 2,2 milyard nəfərdən çoxdur.

## 3.2.2.Dini təlimin əsasları

Xristian təliminin əsasında “Üç üqnum”, yaxud “Müqəddəs üçlük” əqidəsi dayanır. Bu inanca əsasən, tək və vahid olan Tanrının sifətləri üçdür – Ata, Oğul və Müqəddəs Ruh.

“Üç üqnum” əqidəsi “İncil”dəki rəvayətlərə əsasən formalaşmışdır. “İncil”ə görə, bakirə Məryəm Müqəddəs Ruh vasitəsi ilə hamilə qalaraq Tanrının yeganə oğlu İsa Məsihi Beytləhm və ya Betlehəm (Fələstində şəhər. – Red.) şəhərində dünyaya gətirmişdir. Rəvayətlərə əsasən, İsa otuz yaşına çatdıqda Vəftizçi Yəhya tərəfindən xaç suyuna salınmışdır. Bu zaman onun üzərinə göyərçin şəklində Müqəddəs Ruh enmişdir. Daha sonra İsa Məsih qırx gün səhrada iblis tərəfindən sınağa çəkilmişdir. İblisə aldanmayan İsa Məsih səhradan qayıtdıqdan sonra özünə on iki həvari seçmiş, insanlar arasında moizə etməyə başlayaraq onları xeyirxahlığa, mərhəmətə, mənəvi kamilliyə, ülvi məhəbbətə, insanpərvərliyə səsləmiş, habelə müxtəlif möcüzələr göstərmişdir (toyda suyu şəraba döndərmiş, cinləri qovmuş, xəstələrə şəfa vermiş, su üzərində yerimiş, ölüləri diriltmiş və s.).

“İncil”dəki rəvayətlərə əsasən, yəhudi cəmiyyətinin nüfuzlu şəxsləri, xüsusən din adamları İsa Məsihin təlimini etirazla qarşılamışlar. Həmçinin on iki həvaridən biri olan Yəhuda İskariotun xəyanəti nəticəsində o, həbs olunmuş və cəzalandırılmaq üçün Roma canişini Ponti Pilatın qarşısına çıxardılmışdır. Yəhudi ağsaqqalları tərəfindən təhrik olunan camaatın tələbi ilə Ponti Pilat İsa Məsihin edamı əmrini vermişdir. Edamdan öncə İsa Məsih müxtəlif ağır işgəncələrə məruz qalaraq Yerusəlim şəhəri (Qüds) yaxınlığında yerləşən Qolqofa adlı təpədə çarmıxa çəkilmişdir. Rəvayətlərə görə, guya İsa Məsih xaçda ölən kimi günəş tutulmuş, Yerusəlim məbədində pərdə cırılmış, zəlzələ baş vermiş və s. hadisələr baş vermişdir. Həmçinin edamdan üç gün sonra İsa Məsih dirilmiş, qırx gün şagirdlərinə moizə etmiş və sonda qeybə çəkilmişdir.

Xristianlar inanırlar ki, İsa Məsihin xaça çəkilməsi əbəs yerə olmamışdır. Bununla Ata Tanrı bəşəriyyətin xilası və ilkin günahdan azad olunması üçün öz vahid və yeganə oğlunu, yəni İsa Məsihi qurban vermişdir. Xristian etiqadına əsasən, Adəm və Həvva qadağan olunmuş ağacdan meyvə yedikləri üçün ilk dəfə günaha bataraq cənnətdən qovulmuşlar. Odur ki, onlardan törəyən bütün insanlar bu ilk günaha görə məsuliyyət daşıyaraq dünyaya günahkar gəlirlər. Xristianlığa

görə, insanlar yalnız İsa Məsihin xilaskarlıq missiyasına iman gətirdikdə bu ilk günahdan azad ola və əbədi həyat qazana bilərlər. Təsadüfi deyildir ki, İsa Məsih "İncil"də "Tanrının Qurbanlıq quzusu" və "Xilaskar" adlandırılır.

Xristian inancına görə, İsa Məsih axır zamanda yer üzünə ikinci dəfə qayıdacaq, məhşərdə bütün insanları mühakimə edərək günahkarları cəzalandıracaq, salehləri isə xoşbəxt əbədi həyatla mükafatlandıracaqdır.

Beləliklə, xristian təliminin əsasında İsa Məsihin Tanrının oğlu olması və insanların xilası naminə özünü qurban verməsi ideyası dayanır.

## 3.2.3. Dini mətnlər

Xristianlığın dini mətnlər toplusu "Bibliya" və ya "Müqəddəs Kitab" adlanır "Bibliya" yunan dilində "kitab" mənasına gəlir. – Red.). Bu dini kitablar toplusu Əhdi-Ətiq və Əhdi-Cədid adlı iki böyük hissəyə bölünür. Əhdi-Ətiq və Əhdi-Cədidin özləri də çoxsaylı dini kitablardan ibarətdir.

Xristianların inancına görə, Əhdi-Ətiq Tanrı tərəfindən vəhy olunub və buraya Tövrat, Zəbur və digər yəhudi müqəddəs mətnləri daxildir. Ümulikdə 39 kitabdan ibarət olan Əhdi-Ətiq qədim yəhudi dilində e.ə. XIII-V əsrlərdə qələmə alınmışdır. Yalnız Daniel peyğəmbərin və Ezranın kitablarının bəzi hissələri arami dilində yazılmışdır.

"Bibliya"nın ikinci hissəsini Əhdi-Cədid təşkil edir. Xristianlıqda Əhdi-Cədid Əhdi-Ətiqlə müqayisədə daha mühüm məqama malikdir. Adətən Əhdi-Cədid dedikdə, "İncil" başa düşülür. Halbuki Əhdi-Cədidə daxil olan 27 kitabdan yalnız ilk dördü, daha dəqiq desək, bu dörd kitabdan hər biri İncil və ya Yevangeliya (yunan dilində "xoş xəbər", "müjdə" deməkdir) adlanır. Həmin yevangeliyalar bunlardır: "Matfeyin İncili", "Markın İncili", "Lukanın İncili", "Yəhyanın (İohannın) İncili". Qeyd edək ki, Müqəddəs Kitabın Azərbaycan dilinə tərcüməsində həmin dörd İncilin adı Mattanın, Markın, Lukanın və Yəhyanın nəql etdiyi müjdələr kimi verilmişdir.

Bu dörd "İncil"də İsa Məsihin doğulması, həyatı, moizələri, möcüzələri, xaça çəkilməsi, dirilməsi və göyə qalxması haqqında bəhs edilir. Xristianlar inanırlar ki, Əhdi-Cədidə daxil olan 27 kitabın hər biri tanrı tərəfindən İsa Məsihin şagirdlərinə və onların davamçılarına vəhy olunub. Bu səbəbdən xristianlıqda həmin 27 kitab kanonik, yəni kilsə tərəfindən tanınmış sayılır. Əhdi-Cədidə dörd

"İncil"lə yanaşı, bu kanonik dini mətnlər də daxildir: "Həvarilərin işləri" kitabı, Həvarilərin 21 məktubu və "Vəhy kitabı" ("Yəhyaya nazil olan vəhy").

Bir çox tədqiqatçının fikrincə, Əhdi-Cədidə daxil olan dini mətnlərin əsl müəllifləri bilinmir. Bu mətnlər qədim yunan dilində qələmə alınmışdır. Əhdi-Cədidin günümüzədək gəlib çıxmış ən qədim əlyazma fraqmenti (Matta İncilinin 26-cı fəslinin bir hissəsi) bizim eranın 66-cı ilinə aid edilir. Bununla yanaşı, dünyanın müxtəlif muzeylərində Əhdi-Cədidin II-III əsrə aid olan əlyazma parçaları saxlanılır. Əhdi-Cədidin ən qədim tam əlyazma nüsxəsinin yaşı isə IV əsrə gedib çıxır.

Kanonik Əhdi-Cədidlə yanaşı, çoxsaylı qədim apokrifik, yəni kilsə tərəfindən tanınmayan və rədd edilən "İncil" nüsxələri mövcuddur. Apokrifik "İncil"lər arasında bunların adlarının çəkmək mümkündür: "Həqiqət İncili" (II əsr), "Məryəmin İncili" (II əsr), "Filippin İncili" (III əsr), "Yəhudanın İncili" (III-IV əsrlər).

## 3.2.4. Dini ayin və mərasimlər

Xristianlıqda əsas dini ayinlər latın dilində "sirr, öhdəlik" mənasına gələn "sakrament" adlandırılır. Xristianlar inanırlar ki, "sakrament"lər İsa Məsihin özü tərəfindən təyin olunub. Bu əsas yeddi dini ayin aşağıdakıdır:

*1. Vəftiz.* Xristianlıqda ən birinci və ən vacib dini ayin sayılır. "Vəftiz" kəlməsi yunan dilində "suya batırmaq" mənasına gələn "baptizo" sözündən törəmişdir. Vəftiz və ya xaç suyuna salmaq ayini insanın bütün günahlardan təmizlənərək yeni və pak həyata başlaması və xristianlığa daxil olmasının rəmzidir.

Vəftiz ayini müxtəlif üsullarla yerinə yetirilir. Hər xristian məzhəbi bu ayini özünəməxsus şəkildə yerinə yetirir. Məsələn, katoliklər xaç suyuna salınan adamın başına üç dəfə su çiləmək və ya su tökmək yolu ilə bu ayini icra edirlər. Pravoslavlıqda isə vəftiz mərasimi zamanı dindarlar üç dəfə suya batırılırlar.

Xristianlar arasında vəftiz ayini ilə bağlı digər fikir ayrılıqları da mövcuddur. Belə ki, pravoslav və katoliklər uşaqların xaç suyuna salınmasını doğru saydıqları halda, baptizm, adventizm kimi bəzi protestant cərəyanlarında həddi-buluğ yaşına çatmayan şəxslərin vəftiz olunması qətiyyən qəbul olunmur. Bu protestant cərəyanların mənsubları bildirirlər ki, fərd yalnız xeyir ilə şəri

ayırd edə bildikdə, həddi-buluğ yaşına çatdıqda və xristianlığı şüurlu şəkildə qəbul etdikdə vəftiz olunmalıdır.

*2. Yevxaristiya* (yunan dilində "minnətdarlıq", "şükür" mənasına gəlir). Bu əsas xristian ayini Azərbaycan dilində "Rəbbin süfrəsi" yaxud "Çörək və şərab ayini" adlanır. Rəbbin süfrəsi ayininin yaranması İsa Məsihin sonuncu şam yeməyindən bəhs edən rəvayətlə bağlıdır. "Əhdi-Cədid"ə görə, İsa Məsih çarmıxa çəkilməmişdən əvvəl sonuncu dəfə 12 həvarisi ilə birgə şam yeməyi yemiş, onlara bir parça çörək və şərab verərək çörəyin onun bədəni, şərabın isə onun qanı olduğunu demişdir. Beləcə, Rəbbin Süfrəsi ayini yaranmışdır.



*İlk yevxaristiya. İspan rəssamı Visente Xuan Masip. XVI əsr.*

Gördüyümüz kimi, yevxaristiya ayini yerinə yetirilərkən möminlərə paylanılan çörək və şərab rəmzi məna daşıyaraq, İsa Məsihin bədəni və qanını təcəssüm etdirir. Xristian inancına görə, Rəbbin süfrəsi ayinində müntəzəm iştirak etmək lazımdır, çünki yevxaristiya insanın xilasında və əbədi həyat qazanmasında böyük rol oynayır. Xristianlar inanırlar ki, Rəbbin süfrəsi ayini dindarlara İsa Məsihin vasitəsi ilə Tanrıya qovuşmaq, Rəbb ilə birləşmək və vəhdətdə olmaq imkanı qazandırır.

Xristianlar arasında Rəbbin süfrəsi ayininin yerinə yetirilməsi məsələsində fərqlər mövcuddur. Məsələn, katoliklər bu ayin zamanı mayasız, pravoslavlar isə mayalı çörəkdən istifadə edirlər.

*3. Mirro yağı ilə məshetmə.* Tarixi kökü həvarilər dövrünə gedib çıxan və vəftiz mərasimindən sonra yerinə yetirilən bu ayin pravoslav məzhəbində "mirosürtmə" adlanır, çünki bu ayin zamanı "miro" deyilən təqdis olunmuş ətirli yağdan istifadə olunur. Belə ki, pravoslavlıqda yepiskop (kilsədə ali dərəcəli ruhani rütbəsi. - Red.), əksər hallarda isə daha aşağı rütbəli keşiş Müqəddəs Ruhun nazil olması haqqında dua oxuduqdan sonra yenicə xaç suyuna salınmış şəxsin bədən üzvlərinə (alın, göz, burun, dodaq, qulaq, sinə, əl və ayaqlarına) xaç şəklində "miro" yağı sürtür. Pravoslavlar inanırlar ki, bu zaman "miro" yağı vasitəsi ilə

mömin Rəbbin lütfünü qazanır, ona ənam qismində Müqəddəs Ruh nazil olur.

Katoliklikdə bu ayin "konfirmasiya" (latın dilində "təsdiqləmə", "möhkəmlənmə", "bərqərar olma" mənasına gəlir. – Red.) adlanır və yepiskop tərəfindən yerinə yetirilir. Bu məzhəbdə konfirmasiya ayinindən yalnız 13-14 yaşlı yeniyetmələr və yaşı daha yuxarı olan şəxslər keçirlər. Çünki konfirmasiya möminin kilsəyə qəti surətdə daxil olması və kilsə icmasına qəbulunu təcəssüm etdirir.

Katoliklərdə konfirmasiya belə yerinə yetirilir: yepiskop əlini möminin başına qoyur, alnına "miro" yağı sürtür, müəyyən dualar oxuyaraq sonda belə deyir: "Müqəddəs Ruh ənamının əlamətini qəbul et". Konfirmasiya ayini bitdikdən sonra "miro" yağı ilə məsh edilmiş şəxs "Rəbbin döyüşçüsü" adlanır.

*4. Tövbə.* Xristianlıqda əsas yeddi ayindən sayılan tövbə belə yerinə yetirilir: dindar keşişin yanında öz günahlarını etiraf edir və Tanrıdan bağışlanma diləyir. Bundan sonra keşiş müəyyən dualar oxumaqla İsa Məsihin adından günahkarı bağışlayır. Katolik kilsələrdə bu ayin xüsusi tövbə hücrəsində yerinə yetirilir.

*5. Kilsə nikahı.* Xris-tianlıqda ailə "kiçik kilsə" hesab olunur. Kilsədə dini qaydalara uyğun şəkildə kişi və qadın arasında bağlanan nikah isə "sakrament" sayılır. Xristianlar inanırlar ki, ailə həyatına qədəm qoyan şəxslər nikah mərasimi zamanı Tanrının lütfünü və xeyir-duasını alırlar.

*6. Keşişlik.* Bu ayin vasitəsi ilə namizəd üç keşişlik dərəcəsindən (yepiskop, presviter və dyakon) birinə təyin olunur. Bunlardan ən ali dərəcə yepiskop, ən aşağı dərəcə isə dyakondur. Hər üç dərəcə üçün keşişlik ayini yepiskop tərəfindən yerinə yetirilir. Belə ki, yepiskop keşişlik dərəcəsinə namizəd olan şəxsin başına əl qoyur və təntənəli surətdə həsr etmə duası oxuyur. Dua zamanı yepiskop Tanrıdan keşişlik dərəcəsinə namizəd üçün Müqəddəs Ruhun ənamlarının verilməsini diləyir. Mərasim vaxtı yepiskop namizədin başına əl qoyduğu üçün bu dini ayin "əlqoyulma", "xirotoniya" (qədim yunan dilində hərfi mənada "əl qaldırmaqla səs vermək" deməkdir) və ya "ordinatio" (latınca "əlqoyulma, həsretmə") adlanır.

Qeyd edək ki, yalnız vəftiz olunmuş kişilər keşişliyə namizəd ola bilərlər. Keşişlik ayini namizədə dini mərasimləri yerinə yetirmək səlahiyyəti verir.

*7. Xəstələrin yağlanması.* Ayinin yerinə yetirilmə şəkli belədir: keşiş tərəfindən cismani və ya psixoloji (qəm, qüssə, ümidsizlik kimi) xəstəlikdən

əziyyət çəkən, eləcə də ölüm yatağında olan insanın bədən üzvlərinə təqdis olunmuş zeytun yağı sürtülür, beləliklə xəstələnmiş şəxs ətirli yağla məsh edilir. Məshetmə keşişin duası ilə müşayiət olunur.

Bu ayini yalnız yepiskop və ya presviter yerinə yetirə bilər. Ayinin məqsədi Tanrıdan xəstə üçün şəfa diləmək, həmçinin onun günahlarının bağışlanması üçün dua etməkdir. Təqdis olunmuş zeytun yağı ilə məsh etmək ayini bir şəxs üzərində bir neçə dəfə yerinə yetirilə bilər.

Pravoslavlıqda sözügedən ayin yeddi keşiş, zəruri hallarda isə bir kilsə xadimi tərəfindən icra olunur. Katoliklikdə isə bu ayini bir və ya bir neçə keşiş keçirə bilər. Bununla yanaşı, pravoslavlıqda bu ayin yerinə yetirilərkən xəstənin alnına, burnuna, yanaqlarına, dodaqlarına, sinəsinə, əllərinə xaç şəklində zeytun yağı sürtülür. Katoliklikdə isə zeytun yağı ilə yalnız xəstənin alnı və ovucları məsh edilir.

### 3.2.5. Əsas xristian konfessiyaları

*Katoliklik*

Katoliklik və ya katolisizm (yunan dilində "ümumdünya" mənasını verən "katholikos" sözündən törəmişdir. – Red.) mənsublarının sayına görə ən böyük xristian konfessiyasıdır. 2016-cı ilin statistik məlumatına görə, dünyada təqribən 1 milyard 299 milyon insan özünü katolik məzhəbin mənsubu sayır.

Bu xristian konfessiyası üçün sərt mərkəzləşdirilmiş idarə sistemi xasdır. Belə ki, katoliklərin vahid dini mərkəzi Vatikan şəhər-dövlətində yerləşir. Katoliklərin dini-inzibati mərkəzi rəsmi olaraq Müqəddəs Taxt-Tac adlanır. Müqəddəs Taxt-Tac – teokratik seçkili monarxiyadır.

Bu teokratik dövlətə konklav (kardinallar kollegiyası. – Red.) tərəfindən ömürlük seçilən bütün katoliklərin dini rəhbəri Roma Papası (yun. "papış" – "ata") başçılıq edir. Roma Katolik Kilsəsinin başçısı "pontifik" (lat. pontifices – baş kahin, baş keşiş, körpüləri tikənlər. – Red.) də adlanır. Onun tam titulu belədir: Roma Yepiskopu, İsa Məsihin canişini, həvarilər knyazının (yəni apostol Pyotrun. – Red.) varisi, Qərb kilsəsinin ali ruhanisi, Qərbin patriarxı, İtaliya priması, Roma əyalətinin arxiyepiskopu və mitropoliti, Vatikan şəhər-dövlətinin hökmdarı.

Roma Katolik Kilsəsinin başçısının qərarları Ümumdünya Kilsə Məclislərinin qərarlarından belə üstün tutulur. Katolik təlimə əsasən, Roma Papası dini məsələlərlə bağlı qərar verərkən qətiyyən səhv buraxmır. 1870-ci ildə Birinci Vatikan Məclisində qəbul edilmiş həmin ehkama görə, pontifik etiqadi və əxlaqi məsələlərlə bağlı rəsmi şəkildə çıxış edən vaxt Müqəddəs Ruhdan xüsusi ənam alır. Bu ənam kilsə başçısını əqidə mövzularında səhv fikir bildirməkdən qoruyur.

Katoliklikdə Məryəm Ana İsa Məsihə bərabər tutulur. Belə ki, xristianlıqda "İsa Məsihin pak döllənməsi" haqqında ehkam mövcuddur. Bu ehkama əsasən, İsa Məsih möcüzəvi şəkildə Müqəddəs Ruhdan döllənmiş və Bakirə Məryəm tərəfindən dünyaya gətirilmişdir. Katolik etiqadında isə bu dini təlimlə yanaşı, "Bakirə Məryəmin pak döllənməsi" barədə ehkam da vardır. Həmin katolik ehkamına əsasən, Bakirə Məryəm İoakim və Anna adlı adi valideynlər tərəfindən dünyaya gətirilsə də, onun da döllənməsi məsumanə şəkildə baş vermişdir.

Katolik ehkamın başqa fərqli cəhətləri də var. Belə ki, pravoslav və protestantlardan fərqli olaraq, katoliklər Ərafa (dini təsəvvürə görə, cənnətlə cəhənnəm arasında yer. – Red.) inanırlar. Bununla yanaşı, Roma Katolik Kilsəsinin özünəməxsus "filiokve" (lat. Filioque - "oğuldan" . – Red.) adlı təlimi mövcuddur. Həmin dini təlimə əsasən, Müqəddəs Ruh təkcə Ata Tanrıdan deyil, həm də Oğul Tanrıdan, yəni İsa Məsihdən gəlir.

Katoliklər imanın mənbəyi kimi Bibliya və Müqəddəs Rəvayəti qəbul edirlər. Katolik kilsəsinə görə, Müqəddəs Rəvayət - İman Rəmzindən (xristianlığın inanc əsaslarının qısa ifadəsi. – Red.), Kilsə Ataları və Kilsə Müəllimlərinin dini təlimləri, habelə Ümumdünya Kilsə Məclislərinin qərarlarından ibarətdir.

Katoliklərə görə, ümumdünya kilsə məclislərinin sayı iyirmi birdir. Belə ki, 1054-cü ildə xristian dünyası iki qola parçalandıqdan sonra Roma Katolik Kilsəsi yalnız özünün keçirdiyi məclisləri də ümumdünya kilsə məclisi kimi səciyyələndirmişdir. Axırıncı belə katolik məclis (II Vatikan Məclisi) 1962-1965-ci illərdə keçirilmişdir.

Roma Katolik Kilsəsində dyakonlar istisna olmaqla, ruhanilərə evlənmək qadağandır. Bu dini hökm katoliklikdə "selibat" (latınca "subay kişi" mənasına gəlir. – Red.) adlanır. Katoliklikdə boşanmaq demək olar ki, qeyri-mümkündür.

Bu xristian məzhəbində həmçinin fransiskan, karmelit, dominikan,

avqustin kimi müxtəlif yoxsul ordenlərə (cəmiyyətlərə) bölünən rahiblik institutu mövcuddur.

Katoliklər diofizit dini təliminə etiqad bəsləyirlər. Həmin təlimə əsasən, İsa Məsihin həm insani, həm də ilahi təbiəti mövcuddur. Katolikliyin ardıcılları mələklərə, müqəddəslərə və onların qurumuş cəsədlərinə, "müqəddəs" əşyalara sitayiş edirlər. Roma Katolik Kilsəsi ikonapərəstliyi qəbul edir. Lakin katoliklikdə pravoslavlıqla müqayisədə ikonalara daha az əhəmiyyət verilir.

İbadətlərin yerinə yetirilməsi formasına görə katoliklər latın ayinli, şərq ayinli, milan ayinli, braq ayinli və mosarab ayinli kimi müxtəlif qruplara bölünürlər. Bu qruplar içində sayca ən böyük olanı latın ayinli katoliklərdir. Latın və ya Roma ayinli katoliklər beş düz barmaqla soldan sağa xaç çevirirlər. Onlarda əsas ibadət dili latın dilidir. Lakin II Vatikan Kilsə Məclisinin qərarı ilə latın ayinli katoliklərə də milli dillərdə ibadət etməyə icazə verilmişdir.

Hər il dekabr ayının 25-də keçirilən İsa Məsihin Miladı katoliklərin ən əsas dini bayramı sayılır. Sırf katolik dini bayramları bunlardır: İsa Məsihin cismi günü, İsanın müqəddəs qəlbi bayramı, Padşah İsanın bayramı və s. Bununla yanaşı, katoliklikdə Müqəddəs Məryəmə 16 bayram həsr olunmuşdur. Xüsusən 8 dekabrda keçirilən Bakirə Məryəmin Pak Döllənməsi bayramı böyük əhəmiyyətə malikdir.

Katoliklərdə xaç dördguşəlidir.

## *Pravoslavlıq*

1054-cü ildə xristianlıq iki böyük qola parçalandıqdan sonra şərqi xristianlar ortodoks (yunan dilində "doğru təlim", "həqiqi inanc", "düzgün etiqad" mənasına gəlir. – Red.) və ya pravoslav (hərfi tərcüməsi: "doğru mədh etmə" . – Red.) adlandırıldı.

Pravoslavlıq katoliklik və protestantlıqdan sonra xristianlığın sayca üçüncü ən böyük qoludur. Dünyada pravoslavların sayı 125-180 milyon nəfər arasında dəyişir. Başqa xristian məzhəbləri ilə müqayisədə pravoslavlar daha çox mühafizəkardır. Onlar erkən xristianlığın ehkamlarını dəyişdirmir və ya onlara əlavə etmirlər.

Müqəddəs Rəvayət pravoslavlıqda imanın əsas mənbəyi sayılır. Pravoslavlara görə, Müqəddəs Rəvayət - Bibliya, Kilsə Ataları (pravoslavlar

yalnız II-VIII əsrlərdə yaşamış kilsə atalarının təlimlərini qəbul edirlər) və Kilsə Müəllimlərinin dini təlimləri, ilk yeddi ümumdünya kilsə məclislərinin qərarları və müqəddəslərin həyat hekayələrindən ibarətdir.

Pravoslavlar etiqadca diofizitdirlər. Bu xristian konfessiyanın mənsubları arasında Məryəm Anaya, mələklərə, müqəddəslərə, onların "cəsədlərinə", ikonalar kimi müqəddəs sayılan dini əşyalara pərəstiş geniş yayılmışdır.

Pravoslavlarda katoliklərdəki kimi sərt mərkəzləşdirilmiş kilsə hakimiyyəti mövcud deyildir. Yəni pravoslavlıqda Müqəddəs Taxt-Taca bənzər vahid dini mərkəz yoxdur. İri yerli pravoslav kilsələri tamamilə müstəqildir (avtokefal). Müstəqil pravoslav kilsələri milli kimlik əsasında formalaşmışdır. Bunu onların rəsmi adlarından da görmək mümkündür: Yunan Pravoslav Kilsəsi, Gürcü Pravoslav Kilsəsi və s. Hər avtokefal pravoslav kilsə öz yerli məclisini keçirərək qərarlar qəbul edir. Pravoslav kilsələrini sadəcə ortaq dini dəyərlər və ibadət şəkilləri birləşdirir.

Pravoslav aləmdə vahid dini mərkəz olmasa da, nüfuzuna görə Konstantinopol Ortodoks Kilsəsi ilk yerdə gəlir. Bu kilsənin rəsmi adı belədir: Ümumdünya Konstantinopol Patriarxatlığı.

Pravoslavlıqda əsas dini ayin liturgiya adlanır. Dini ayinlər milli dillərdə, daha çox onların arxaik formalarında yerinə yetirilir (məs.: Rus Pravoslav Kilsəsində ayinlər qədim slavyan dilində həyata keçirilir). İbadət zamanı məbədlərdə şam və buxur (ətirli tüstü. – Red.) yandırılır. Pravoslavlar sağdan sola üç barmaqla xaç çevirirlər. Onlarda daha çox səkkizguşəli xaç forması səciyyəvidir.

Pravoslav dünyada rahiblik geniş yayılıb. Bu xristian məzhəbində ruhanilər qara (rahib həyatı yaşayan) və ağ olmaqla iki qrupa bölünürlər. Qara ruhanilərə evlənmək qadağandır. Ağ ruhanilər isə yüksək dini rütbə alanadək evlənə bilər. Lakin ağ ruhanilərə boşanmaq və ya həyat yoldaşlarını itirsələr belə, təkrar evlənmək qadağandır.

Pravoslavlarda ən böyük dini bayram İsa Məsihin dirilməsi şərəfinə keçirilən Pasxadır. Bu dini bayram aprel və ya may aylarında yaz gecə-gündüz bərabərliyindən sonra ilk bazar günü keçirilir. Pasxadan sonra bu on iki dini bayram da pravoslavlıqda böyük əhəmiyyətə malikdir: İsa Məsihin Miladı, İsa Məsihin vəftiz olunma günü, Sreteniye (Rəblə qarşılaşma günü), Preobrajeniye (İsa Məsihin şəklini dəyişmə günü), Məryəm Ananın Mövludu, Müqəddəs

Məryəmin Qüds Məbədinə daxil olması günü, İsa Məsihin Qüdsə daxil olması günü, Blaqoveşşeniye (Məryəm Anaya xoş xəbərin verilməsi günü), Uspeniye (Müqəddəs Məryəm Ananın vəfatı günü) və İsa Məsihin çarmıxının qurulması günü.



*Bakıda yaşayan rus pravoslavları Müqəddəs Varfolomeyin anım mərasimini keçirərkən. "Jen Mironosits" rus pravoslav kafedral kilsəsi. 24 iyul 2016-cı il.*

Pasxa və yuxarıda sadalanan on iki bayramdan başqa, pravoslavlar "müqəddəs"lər, "möcüzəvi" ikonalar və əlamətdar dini hadisələrə həsr olunmuş bir çox bayram qeyd edirlər. Hər yerli pravoslav kilsənin öz "müqəddəsi" vardır. Yerli kilsələr öz müqəddəslərinin şərəfinə bayramlar keçirirlər. Məsələn, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının müqəddəsi - apostol Varfolomey sayılır. Hər il iyun ayının 24-də ölkəmizdə yaşayan rus pravoslavları Qız qalasının yanında yığışaraq, bu həvarinin şərəfinə dini ayin yerinə yetirirlər. Eyni zamanda, Azərbaycandakı rus pravoslavlar hər il noyabr ayının 2-də Müqəddəs Əzabkeş Bakılı İohannın xatirəsini yad edirlər.

## *Protestantlıq*

Mənsublarının sayına görə ən böyük ikinci xristian konfessiyası protestantlıqdır. Dünya üzrə protestantların sayı 800 milyon nəfərdən yuxarıdır.

Protestantlığın meydana gəlməsi alman rahibi və ilahiyyatçısı Martin Lüterin (1483-1546) adı ilə bağlıdır. Belə ki, o, 31 oktyabr 1517-ci ildə Saksoniya knyazlığının inzibati mərkəzi olan Vittenberqdə "95 tezis"ini bəyan edir. Latın dilində yazılan bu sənədlə M.Lüter Roma Katolik Kilsəsində geniş yayılmış sui-istifadə hallarına qarşı çıxırdı. Alman ilahiyyatçısı cənnət qəbzinin (indulgensiya) satışını kəskin tənqid edir, keşişlərin Tanrı ilə insan arasında

vasitəçi ola bilməyəcəklərini deyir, Tanrı tərəfindən Roma Papasına günahları bağışlamaq kimi imtiyaz və səlahiyyətin verilmədiyini bildirirdi. O, "95 tezis"ində vurğulayırdı ki, insan kilsənin hökmü ilə deyil, yalnız imanı ilə xilas ola bilər.

Əslində, M.Lüterin yeni bir məzhəb yaratmaq niyyəti yox idi. O, sadəcə Roma Katolik Kilsəsində islahatların aparılmasını tələb edirdi. Lakin "95 tezis"in bəyanından sonra cərəyan edən tarixi proseslər sonunda yeni bir xristian məzhəbin yaranmasına gətirib çıxardı. Belə ki, Roma Katolik Kilsəsinin zülmü və katolik ruhanilərin hərisliyindən əziyyət çəkən alman əhalisi M.Lüterin ideyalarını dəstəklədi.

1520-ci ildə Roma Papası "95 tezis"in müəllifini bidətçi elan etdi. Bununla yanaşı, Müqəddəs Roma İmperiyasının imperatoru V Karl (1500-1558) 1521-ci ildə "Vorms edikti" adlı fərmana imza atdı. Həmin fərmanı imzalamaqla imperator M.Lüteri bidətçi və cinayətkar elan etdi, onun əsərlərinin nəşrinə və yayılmasına qadağa qoydu. Buna baxmayaraq, bəzi alman knyazları M.Lüteri müdafiə etdilər. Saksoniya kurfüstü (seçici knyazı) III Fridrix (1463-1525) isə ona himayəçilik etdi.

1529-cu ildə 2-ci Şpeyer reyxstaqı (Müqəddəs Roma imperiyasında qanunverici məclis. – Red.) M.Lüteri cinayətkar sayan "Vorms edikti"ni təsdiqlədi. Bu səbəbdən 19 aprel 1529-cu ildə M.Lüterin tərəfini tutan altı alman knyazı və on dörd müstəqil şəhər etiraz əlaməti olaraq "Şpayer etirazı" və ya "Şpayer protesti" adlı sənədi reyxstaqa təqdim etdilər. Bundan sonra həmin sənədin adına uyğun olaraq, M.Lüterin tərəfdarları "etiraz edənlər" mənasına gələn protestantlar adını aldılar.

M.Lüterin dini ideyaları XVI əsrdə Qərbi Avropada Roma Katolik Kilsəsi əleyhinə yönəldilən Reformasiya (İslahatçılıq) hərəkatının baş verməsinə səbəb oldu. Bu dini, ictimai-siyasi hərəkatın geniş vüsət alması nəticəsində Avropanı qanlı məzhəblərarası müharibə bürüdü. Ən əsası isə M.Lüterin "95 tezis"i yeni xristian qolunun – protestantlığın yaranmasına gətirib çıxardı. Zaman keçdikcə protestantlığın özü də müxtəlif dini cərəyanlara və təriqətlərə parçalandı. Müasir dövrdə protestantlıq olduqca mürəkkəb, rəngarəng və çoxcəhətli xristian konfessiyasıdır. Həmçinin günümüzdə bu xristian məzhəbi bəzi Qərb dövlətlərində hakim mövqeyə malikdir.

## 3.2.6. Azərbaycanda Xristianlıq

### *Alban Həvari Kilsəsi*

Azərbaycanda xristianlıq hələ İsa Məsihin şagirdləri dövründə yayılmağa başlamışdır. Belə ki, bu dini yaymaq məqsədi ilə qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasına apostollar gəlməyə başladılar. Burada xristian dininin yayılması apostollar Varfolomey və Faddeyin, eləcə də Faddeyin şagirdləri olan Yelisey və Marın adları ilə bağlıdır. Yeliseyin fəaliyyəti nəticəsində indiki Şəki rayonunun Kiş kəndi ərazisində "Şərq kilsələrinin anası" kimi məşhurlaşan Qafqazın ilk xristian kilsəsinin əsası qoyuldu. Daha sonra Qafqaz Albaniyasının digər yerlərində də xristian icmaları meydana gəldi, beləliklə həvari mənşəli Alban Kilsəsi təşəkkül tapdı.



*Kiş Alban Məbədi. Şəki şəhəri, Kiş kəndi. I-II əsrlərdə daha qədim bütpərəst məbədinin yerində təməli qoyulub.*

Qədim şərq kilsələri qrupuna daxil olan Alban Həvari Kilsəsi nəinki Qafqazda, hətta bütün xristian dünyasında ən qədim kilsələrdən biri sayılır. Eyni zamanda, bu kilsə vaxtilə Azərbaycan torpaqlarında hakim mövqedə olub. Belə ki, 313-cü ildə Arşakilər sülaləsindən olan alban çarı Urnayr xristianlığı dövlət dini elan etməklə Alban Həvari Kilsəsini rəsmi kilsə statusuna qaldırdı.

Alban Həvari Kilsəsi Qafqaz Albaniyasının mədəniyyətinin inkişafında mühüm rol oynadı. Xüsusən IV-VII əsrlər alban xristian memarlığının çiçəklənmə dövrü sayılır. Bu dövrdə Amaras monastırı (IV əsr), Kilsədağ kilsəsi (IV-V əsrlər), Mamrux məbədi (IV-V əsrlər), Ləkit məbədi (IV-VI əsrlər), Qum bazilikası (IV-V əsrlər), Xudavəng monastır kompleksi (VI-VII əsrlər), Mingəçevirdəki kilsə kompleksi (IV-VII əsrlər) kimi möhtəşəm alban xristian məbədləri tikilmişdir.

V-VII əsrlərdə Mehranilər sülaləsi dövründə Alban Apostol Kilsəsinin siyasi-iqtisadi mövqeyi güclənmiş, səlahiyyətləri xeyli artmışdır. Həvari mənşəli olduğuna görə Alban Kilsəsi hələ 340-cı ildə avtokefal, yəni müstəqil olmuşdur.

705-ci ildə Qafqaz Albaniyası süquta uğrayıb Ərəb xilafətinin tərkibinə qatıldıqdan sonra Alban Həvari Kilsəsi tənəzzül dövrünə qədəm qoymuşdur. Buna baxmayaraq, XIII əsrdə knyaz Həsən Cəlalın (1215–1261) hakimiyyəti dövründə Alban Həvari Kilsəsinin nüfuzu artmışdır. O, 1240-cı ildə möhtəşəm Gəncəsər məbədini inşa etdirmişdir. 1511-ci ildə Gəncəsər monastırı alban katolikoslarının iqamətgahına, zaman keçdikcə isə Qarabağdakı Alban knyazlığının siyasi mərkəzinə çevrilmişdir. Həsən Cəlaldan sonra onun nəslindən olan bir çox din xadimləri 1836-cı ilədək ölkənin mənəvi rəhbərləri, Alban Kilsəsinin katolikos-patriarxları olmuşlar.

XIX əsrin əvvəllərində Şimali Azərbaycan torpaqlarının Rusiya imperiyası tərəfindən işğal olunması ilə Alban Həvari Kilsəsinin fəaliyyətinə birdəfəlik son qoyuldu. Belə ki, çar hökuməti İran və Türkiyədən Şimali Azərbaycana öz sadiq nökərlərini - erməniləri kütləvi şəkildə köçürməyə başladı. Çar Rusiyasının müstəmləkə rejimi onların vasitəsilə regionda öz dayaqlarını möhkəmləndirməyə çalışırdı. Bu səbəbdən Rusiya imperiyası erməni əhalisinin, o cümlədən erməni-qriqorian kilsəsinin maraqlarını qorumaq yolunu tutmuşdu. Bunu fürsət bilən erməni-qriqorian kilsəsi çar hökuməti qarşısında Alban Katolikosluğunun birdəfəlik ləğv edilməsi məsələsini qaldırdı. Nəticədə rus çarı I Nikolayın

(hakimiyyət illəri: 1825-1855) 11 mart 1836-cı il tarixli Fərmanı ilə Alban Katolikosluğu ləğv olundu. Beləliklə, Alban Kilsəsi erməni-qriqorian kilsəsinə birləşdirildi. Bununla da tarixi ədalətsizliyə yol verildi.

Erməni ruhanilərinin Alban Apostol Kilsəsinə qarşı ədavəti bununla bitmədi. 1909-1910-cu illərdə Rusiya imperiyasının Müqəddəs Sinodu erməni keşişlərinə yeparxiyaların köhnə arxiv sənədlərini məhv etməyə icazə verdi. Bu qərar isə Alban Apostol Kilsəsinə məxsus bütün tarixi sənədlərin məhvinə, yəni erməniləşdirilərək mənimsənilməsinə gətirib çıxardı. Erməni ruhaniləri Alban Kilsəsinin sənədlərini məhv edərkən bu qədim şərq kilsəsini tarixin yaddaşından birdəfəlik silmək istəyir, gələcəyə hesablanmış məkrli planlar həyata keçirirdilər.

Ermənilər Qafqaz Albaniyasının zəngin maddi-mədəni irsinin saxtalaşdırma yolu ilə mənimsəyir, qədim alban məbədləri üzərindəki əski kitabələri məhv edir, onları qrabar dilində olan yazılarla əvəzləyir, alban kilsələrinin memarlıq quruluşunu dəyişdirirdilər. Akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, *ermənilər Alban kilsəsinin arxivlərini, albanların tarixini və mədəniyyətini əks etdirən digər zəngin maddi nümunələri məhv edərkən Alban dövlətinin və avtokefal Alban kilsəsinin mövcud olmadığını, albanların torpaqlarının isə əzəldən bəri haylara, yəni ermənilərə məxsus olduğunu sübuta yetirməyə çalışırdılar*.

Qriqorianlaşdırma və erməniləşdirmə siyasətinin həyata keçirilməsi yerli xristian əhalinin müqavimətinə rast gəlirdi. Alban Həvari Kilsəsinin mənsubları olan udinlər erməni keşişlərin başçılığı altında ibadət etmək istəməyərək 1867-ci ildə rus çarına etiraz məktubu yazdılar. Həmin məktubda onlar erməni qriqorian keşişlərinin ixtiyarına verilən qədim alban xristian məbədlərində toplaşmaqdan belə imtina etdiklərini bildirirdilər.

Qafqaz Albaniyası və Alban Apostol Kilsəsini xatırladacaq hər şeyi saxtalaşdırmağa və məhv etməyə çalışan ermənilər məkrli niyyətlərini tam reallaşdıra bilmədilər. Hazırda Azərbaycanın Qəbələ və Oğuz rayonlarında yaşayan udinlər bu qədim şərq kilsəsinin dini ənənələrini günümüzədək qorudular. Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa etdikdən sonra isə iki Alban-Udi dini icması dövlət qeydiyyatına alındı: Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icması və Oğuz şəhəri Alban-Udi Xristian dini icması. Həmçinin 14 iyul 2013-cü ildə Alban-Udi dini icmasında 80 ildən artıq bir

müddətdə unudulan vəftiz ənənəsi yenidən dirçəldildi. 3 avqust 2013-cü ildə dövlətin dəstəyi ilə Alban-Udi kilsəsinin dirçəlişinin 10 illiyi və Qafqaz Albaniyasında Xristianlığın rəsmi din kimi qəbul edilməsinin 1700 illiyinə həsr olunmuş bayram mərasimi keçirildi. O da bir reallıqdır ki, ölkəmizdə yaşayan udilər Azərbaycan dövlətinin diqqət və qayğısı ilə tam əhatə olunublar.

Azərbaycan dövləti Qafqaz Albaniyasının qədim və zəngin tarixinin öyrənilməsi, əsl elmi və tarixi həqiqətlərin üzə çıxarılması, erməni saxtakarlığının ifşası istiqamətində mühüm işlər həyata keçirir. Çünki təkzibolunmaz tarixi faktlar sübut edir ki, Qafqaz Albaniyasının möhtəşəm maddi-mədəni irsinin yeganə varisi Azərbaycan xalqıdır.

### *Pravoslavlıq*

Rus Pravoslav Kilsəsi Azərbaycanda mənsublarının sayına görə ən böyük xristian konfessiyasıdır. Bu kilsənin ölkəmizdə bərqərar olması XIX əsrin əvvəllərinə təsadüf edir. Belə ki, Şimali Azərbaycan torpaqları Rusiya imperiyası tərəfindən istila edildikdən sonra rus, belorus, ukraynalı kimi pravoslav xalqların nümayəndələri ölkəmizdə məskunlaşmağa başladı. Təbii ki, yenicə tutulmuş torpaqlarda, müsəlmanların üstünlük təşkil etdiyi bölgələrdə rus, ümumiyyətlə, xristian əhalisinin artması və pravoslavlığın yayılması çarizmin maraqlarına cavab verirdi. Çünki rus imperiyası regionun xristianlaşdırılması və ruslaşdırılması yolu ilə öz dayaqlarını möhkəmləndirməyə çalışırdı. Pravoslavlıq isə imperiyanın əsas ideoloji sütunlarından sayılırdı. Rus kilsəsi də yerlərdə çarizmin maraqlarının qoruyucusu kimi çıxış edirdi.

XIX əsrdə məskunlaşan rusların sosial mənşəyinə gəlincə, ölkəmizdə yerləşən erkən pravoslav rus kontingentinin əsas hissəsini hərbçilər, müstəmləkə üsuli-idarəsinin məmurları, onların ailə üzvləri təşkil edirdi. Onların dini tələbatlarını ödəmək üçün yaşadıqları ərazilərdə hərbi prixodlar yaradılırdı. Bakı şəhəri də istisna deyildi. İlk vaxtlar burada yalnız səyyar hərbi kilsə fəaliyyət göstərirdi.

Bakıda yaşayan rusların məbədə ehtiyac duyduğunu görən Qafqazdakı rus qoşunlarının baş komandanı general-leytenant Nikolay Fyodoroviç Rtişev (1754—1835) pravoslav kilsələrinin tikilməsi təşəbbüsü ilə çıxış edir və 1815-ci ildə şəhər əhalisinin ianələri hesabına Qız qalasının yanında “Müqəddəs Miro-

Likiyalı Möcüzə göstərən Nikolay" rus pravoslav məbədi ucaldılır. Sonradan camaat arasında bu rus məbədinə "köhnə" və ya "ən birinci kilsə" deyirdilər.

XIX əsrin sonu - XX əsrin əvvəllərində neft bumu yaşayan Bakıya müxtəlif millətlərdən olan çoxlu mütəxəssis və işçi qüvvəsi gəldi. Onlar arasında xeyli rus vardı. Məsələn, 1893-cü ildə Bakıda 106 467 nəfər yaşayırdı ki, onlardan da 21 744 nəfəri rus pravoslavları idi. Çar üsuli-idarəsi rus əhalisinin dini tələbatını daim diqqət mərkəzində saxlayır və Azərbaycanın müxtəlif şəhərlərində çoxsaylı pravoslav kilsələrin tikilməsinə dəstək verirdi. Təkcə Bakı şəhərində 1893-cü ildə 25 pravoslav təsisatı (6 pravoslav kilsə, 2 çasovnya və 17 digər təyinatlı kilsə binası) vardı. 1889-1899-cu illərdə isə Bakıda Cənubi Qafqazın ən böyük rus pravoslav kilsəsi tikildi. Aleksandr Nevskinin şərəfinə ucaldılan bu ehtişamlı məbədin təməlqoyma mərasimində rus çarı III Aleksandr (hakimiyyət illəri: 1881-1894) ailəsi ilə birlikdə iştirak etmişdir.

28 aprel 1920-ci ildə Azərbaycanda bolşeviklər zorla hakimiyyəti ələ keçirdikdən sonra ateizm dövlət ideologiyası səviyyəsinə qaldırıldı. Sovet hakimiyyətinin yürütdüyü bu siyasətdən bütün dinlərin mənsubları, o cümlədən rus pravoslavları da əziyyət çəkdi. Məsələn, Bakıda "Aleksandr Nevski" Baş kilsəsi (1936-cı il), "Müqəddəs Möcüzə göstərən Nikolay" Baş kilsəsi (ötən sərin 30-cu illəri), Qız qalasının yanında tikilmiş "Müqəddəs Varfolomey sövməəsi" (1936-cı il) və digər rus məbədləri dağıdıldı.

Azərbaycan xalqı yenidən müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə dini etiqad və vicdan azadlığı təmin olundu. Xüsusən ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə etnokonfessional durumun tənzimlənməsi sahəsində müsbət irəliləyişlər baş verdi. Təkcə onu qeyd etmək kifayətdir ki, sovet hakimiyyəti illərində ləğv olunmuş Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyası (hazırda Bakı və Azərbaycan Yeparxiyası) məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə bərpa olundu. Bu isə ümummilli liderin etnik və dini azlıqlara göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə 15 noyabr 2013-cü ildə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini – Mədəniyyət Mərkəzi açıldı.

Hazırda Bakı və Azərbaycan Yeparxiyasının tabeçiliyində səkkiz ibadət yeri (5 kilsə, 2 çasovnya, 1 dua evi) fəaliyyət göstərir. Onlardan dördü Bakı şəhərində, digərləri isə Gəncə, Sumqayıt, Xaçmaz və Lənkəranda yerləşir.

Azərbaycanda rus pravoslavları ilə yanaşı, Gürcü Pravoslav Kilsəsinin mənsubları da yaşayırlar. Onlar əsasən Qax rayonunda məskunlaşıblar. Burada 4 gürcü pravoslav məbədi fəaliyyət göstərir: Qaxingiloy kəndində Müqəddəs Georgi gürcü-pravoslav kilsəsi, Əlibəyli kəndində Müqəddəs Nino kilsəsi, Kötüklü kəndində Müqəddəs Sameba kilsəsi, Meşəbaş kəndində Müqəddəs Mixeyil kilsəsi. Bu gürcü pravoslav məbədlərinin hamısı XIX əsrin sonunda tikilmişdir.

## *Katoliklik*

Bu xristian məzhəbinin Şimali Azərbaycandakı tarixi XIV əsrin əvvəllərinə təsadüf edir. Belə ki, 1320-ci ildə fransız rahib Jurden Katali de Severak Bakı və başqa şəhərlərə baş çəkir, ondan az sonra ölkəmizə fransiskan rahibi Odorik Pordenonski gəlir. Nəticədə Bakı, Şamaxı, Gəncə və Naxçıvanda katolik missiyalar, monastırlar, məktəblər təsis olunur. Təkcə Naxçıvan şəhərində 12 katolik monastır açılır. Lakin 1346-53-cü illərdə baş verən taun epidemiyası, Əmir Teymurun işğalçı müharibələri Şərqdə, o cümlədən Şimali Azərbaycanda katolik missiyaların fəaliyyətinə son qoyur.

Azərbaycan Səfəvilər dövlətinin qurulması ilə katoliklik ölkəmizdə növbəti inkişaf mərhələsinə qədəm qoyur. Səfəvi imperiyası ilə Müqəddəs Taxt-Tac arasında qurulan yüksək diplomatik münasibətlər sayəsində katolik missiyalar regionda yenidən dirçəlir, ölkəmizdə müxtəlif katolik cəmiyyətlər (ordenlər) fəaliyyət göstərməyə başlayır. Katolik rahib ordenləri Səfəvilər dövlətində bu illərdə fəaliyyət göstərmişdir: avqustinlər (1573-1747), karmelitlər (1604-1775), kapusinlər (1628-1765), yezuitlər (1653-1760), dominikanlar (1677-1764). Bununla yanaşı, 1680-cı ildə regionda polyak yezuitlərinin missiyaları yaranır. Ən birinci belə missiya Gəncə şəhərində təsis olunur. Xüsusən I Şah Abbas (1587-1629) və Şah Sultan Hüseynin (1694-1722) hakimiyyət illərində katolik ruhaniləri sərbəst fəaliyyət göstərmək imkanı qazandılar.

Çar Rusiyası dövründə Şimali Azərbaycanda katolikliyə etiqad bəsləyən polyakların saylarının kəskin artması nəticəsində Roma Katolik Kilsəsinin ölkəmizdə növbəti inkişaf mərhələsi başlayır. Belə ki, XVIII əsrin əvvəllərində Şimali Azərbaycana Rusiya imperiyasının ordusunun tərkibində məcburi şəkildə hərbi xidmət göstərən polyak əsgərləri gəlir. Polşalı hərbçilərin gəlməsi

nəticəsində Zaqatala, Qusar və Bakıda polyak hərbi qarnizonları yaradılır. Həmin qarnizonların dislokasiya yerlərində katolik çasovnyalar (kiçik kilsələr) ucaldılır. Burada dini ayinləri kapellanlar (hərbi keşişlər) icra edirdi.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakıda yaşanan neft bumu da katoliklərin sayının artmasına səbəb oldu. Onlar arasında həkim, əczaçı, mühəndis, memar və digər peşələrin sahibləri vardı. Bakıya gələn katoliklər əsasən polyak idi. 1916-cı ildə şəhərdə katolik kilsəsinin üzvlərinin sayı 2550 nəfərə çatdı. 1903-cü ildə katoliklər Bakıda Roma Katolik Xeyriyyə Cəmiyyəti və Açıq Ev - Polyak Katolik Cəmiyyətini təsis etdilər. Yenə həmin il şəhər qəbiristanlığında Müqəddəs Xaç kilsəsini ucaltdılar. 1904-cü ildə isə katolik prixodun birsinifli dördillik məktəbi açıldı. Lakin katolik icması üçün ən əlamətdar hadisə 1912-ci ildə baş verdi. Həmin il Bakıda Məryəm Ananın şərəfinə möhtəşəm katolik məbədi açıldı. Qotik üslubda tikilən bu kilsədə eyni anda 1200 nəfər ibadət edə bilirdi. Sovet hakimiyyəti illərində həmin kilsə dağıdıldı (1931 və ya 1934-cü il), katolik icma isə məhv edildi.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra katolik icması yenidən fəaliyyətini bərpa edə bildi. 2 aprel 1999-cu ildə Bakı şəhəri Roma Katolik dini icması dövlət qeydiyyatına alındı. Həmçinin ümummilli lider Heydər Əliyevin göstərişi ilə Bakıda katolik kilsəsinin inşası üçün ərazi ayrıldı. Nəticədə 2007-ci ildə ölkə paytaxtının ən gözəgəlimli yerində Məryəm Ananın şərəfinə katolik kilsə ucaldıldı. 2011-ci ildə isə "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası" dini qurumu dövlət qeydiyyatından keçdi.

Respublikamızda katoliklik mənsublarının sayına görə pravoslav və protestantlıqdan sonra gəlir. Ölkəmizdə katolik icma kiçik olsa da, ictimai həyatda fəal iştirak edir, geniş xeyriyyə fəaliyyəti ilə məşğul olur. Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturasının nəzdində Tereza Ana adına kimsəsizlər üçün sığınacaq evi, "Məryəm" tədris mərkəzi və digər xeyriyyə təsisatları fəaliyyət göstərir.

### *Protestantlıq*

Azərbaycanda protestantlığın yayılmağa başlaması çar Rusiyası dövrünə təsadüf edir. Lüteranlıq və piyetizm ölkəmizdə yayılan ilk protestant cərəyanlarıdır. Belə ki, 1819-cu ildə vürtemberqli separatçılar ölkəmizdə

Yelenendorf (indiki Göygöl şəhəri) və Annenfeld (indiki Şəmkir) adlı ilk alman məskənlərinin əsasını qoydular. Sonrakı illərdə vürtemberqli separatçılar ölkəmizdə daha altı alman koloniyası yaratdılar.

Bazel Yevangelik Missioner Cəmiyyəti də Qafqazda, eləcə də Şimali Azərbaycanda lüteranlığın yayılmasında rol oynayırdı. Həmin cəmiyyətin missionerləri XIX əsrin 20-ci illərində Şuşa şəhərində missioner məktəb və xristian ədəbiyyatını çap edən mətbəə açmaqla regionda lüteranlığın möhkəmlənməsinə təsir göstərdilər. Bununla yanaşı, çar Rusiyası dövründə Şimali Azərbaycanın müxtəlif bölgələrində baptistlərə və Yeddinci Günün Adventistləri Kilsəsinə məxsus protestant icmalar da təşəkkül tapmışdı.

Sovet hakimiyyəti illərində təqib və təzyiqlərlə üzləşən protestantlar Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa etdikdən sonra azad və sərbəst şəkildə fəaliyyət göstərmək imkanı qazandılar. Hazırda ölkəmizdə protestantlıq müxtəlif cərəyanları ilə təmsil olunmuşdur. Qeyd edək ki, Azərbaycanda dövlət qeydiyyatından keçən protestant icmaları bunlardır: "Yeni Həyat" Xristian incil dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması, "Həyat sözü" Xristian dini icması, "Həyat Sözü - 2" Sumqayıt xristian dini icması, Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icması, Bakı şəhəri Nərimanov rayonu "Yeddinci Günün Adventistləri" dini icması, "Gəncə şəhəri Yeddinci Günün Adventistləri" xristian dini icması, "Vineyard Azərbaycan" xristian dini icması, Bakı şəhəri "Alov" xristian dini icması.

### *Ruhani Xristianlıq*

Ruhani xristianlıq – XVII-XVIII əsrlərdə Rusiya imperiyasında kəndli mühitində yaranmış, Rus Pravoslav Kilsəsinin ruhani sinfi və dini ayinlərinə qarşı çıxmış, sosial bərabərliyə, xristian qardaşlığına və erkən xristianların yaşayış tərzinə qayıtmağa çağıran, Tanrıya "ruh və həqiqətdə" ibadət etməyə səsləyən rus təriqətlərinə verilən ümumi addır.

Molokanlığın ardıcılları ölkəmizdə məskunlaşan ilk ruhani xristianlar olmuşlar. Onların bir qismi çar hökuməti tərəfindən məhkəmə qərarı ilə Qafqaza, o cümlədən Azərbaycana sürgün edilmişdir. Bir hissəsi isə Qafqazda İsa Məsihin ikinci gəlişini qarşılamaq üçün könüllü şəkildə məskunlaşmışdır. Azərbaycanda ilk molokanlar 1832-ci ildə Qarabağ qəzasının Vərəndə mahalında yerləşmişlər.



*Molokanlar dua edərkən. Azərbaycan Respublikasının İsmayıllı rayonunun İvanovka kəndi. Foto: Reza Deqati.*

Daha sonra XIX əsrin 30-40-cı illərində ölkəmizin müxtəlif yerlərində molokan kəndləri yaranmışdır.

Qeyd edək ki, günümüzdə Azərbaycanda bu dörd molokan dini icması dövlət qeydiyyatına alınmışdır: Bakı şəhəri "Molokan ruhani-xristian" dini icması, Sumqayıt şəhəri "Molokan ruhani-xristian" dini icması, Qobustan rayonu Hilmilli kəndi "Molokan ruhani-xristian" dini icması, İsmayıllı rayonu İvanovka kəndi "Molokan ruhani-xristian" dini icması.

Ruhani xristianlığın digər qolu olan duxoborluğa gəlincə, ilk növbədə qeyd edək ki, Azərbaycanda bu təriqətin ardıcılları 1844-cü ildə məskunlaşaraq Slavyanka kəndinin əsasını qoymuşlar. Qədəbəy rayonunda yerləşən bu kənd ölkəmizdə yeganə duxobor yaşayış məskənidir.

# 3.3. İslam

## 3.3.1.Tarixi

İslam ibrahimi dinlərin sonuncusu sayılır. “Təslim olmaq, boyun əymək, itaət etmək” mənalarında işlədilən “İslam” sözü ərəb dilində “sülh” mənasına gələn “silm” kökündən yaranıb. Bu dinə inananlar ərəb dilində “müslim”, dilimizdə isə “müsəlman” adlanır.

Məşhur yapon islamşünası Toşihiko İzutsu “İslam” kəlməsinin müxtəlif izahlarını təhlil edərək bildirmişdir ki, “insanın bilərəkdən və səmimiyyətlə Allaha boyun əyməsi” tərifi həmin izahlar içərisində ən düzgünüdür. Qurani-Kərimin bir sıra ayələrinə istinad edən müsəlman alimləri isə vurğulayırlar ki, bütün peyğəmbərlərin təbliğ etdikləri hənif dini (“hənif” ifadəsi “Allahın birliyinə inanmaq və bütlərə tapınmamaq” mənasını verir) İslam adlanır. Məsələn, Quranın “Ali-İmran” surəsinin 67-ci ayəsində deyilir: *“İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O ancaq hənif bir müsəlman idi və müşriklərdən deyildi”.*

İslam Məhəmməd peyğəmbərin (570/571-632) təbliğ etdiyi bir din olaraq VII əsrin əvvəlində Ərəbistan yarımadasının Hicaz bölgəsində tarix səhnəsinə çıxmışdır. Məhəmməd peyğəmbər Məkkə şəhərində məskunlaşan Qüreyş qəbiləsinin Bəni-Haşim (Haşimoğulları) qoluna mənsub olmuşdur. Müsəlman mənbələrinə görə, Məkkə yaxınlığındakı Hira mağarasında ona ilk vəhy gəlmişdir. Bundan sonra o, məkkəli bütpərəstləri təkallahlılıq əqidəsinə dəvət etmişdir.

Lakin bütpərəstlər Məhəmməd peyğəmbərin dəvətinə sərt reaksiya göstərmiş və yeni dinin ardıcıllarını təqib etmişlər. Xüsusən Əbu Cəhl ləqəbli Əmr ibn Hişam, peyğəmbərin öz əmisi olan Əbu Ləhəb ləqəbli Əbdülüzza ibn Əbdülmüttəlib kimi Məkkənin nüfuzlu şəxsləri İslama böyük kin və nifrət bəsləyərək yeni dini boğmağa çalışmışlar. Buna baxmayaraq, Məhəmməd peyğəmbərin üç illik təbliğatı nəticəsində məkkəlilərin bir hissəsi İslam dinini qəbul etmişdir. İlk müsəlmanlar bunlar olmuşdur: Məhəmməd peyğəmbərin həyat yoldaşı Xədicə binti Xüveylid, əmisi oğlu Əli ibn Əbu Talib və yaxın dostu Əbu Bəkr ibn Əbu Qühafə.

İslamın yayılmasından narahat olan məkkəli bütpərəstlər müsəlmanlara qarşı sərt cəza tətbiq edirdilər. Məsələn: Süməyyə binti Xübbat adlı müsəlman qadınla həyat yoldaşı Yasir ibn Amir 615-ci ildə qətlə yetirildi. Əmmar ibn Yasir, Bilal Həbəşi və digər bir çox müsəlman isə işgəncələrə məruz qaldılar. Bu işgəncələrdən xilas olmaq üçün Məhəmməd peyğəmbərin icazəsi ilə ilk müsəlmanların bir hissəsi Həbəşistana, indiki Efiopiyaya köçmək məcburiyyətində qaldı.

Məhəmməd peyğəmbərin təbliğatı yalnız məkkəlilərlə məhdudlaşmırdı. O, Kəbəni ziyarət etmək, yaxud ticarət məqsədilə Məkkəyə gələn ərəb qəbilələrini də İslama dəvət edirdi. Bunlar arasında Övs və Xəzrəc qəbilələrinin nümayəndələri də vardı. Onlar Məkkədən sonra Hicazın (Ərəbistan yarımadasının qərbindəki ərazinin adı – Red.) ikinci böyük şəhəri olan Yəsribdə (sonrakı adı Mədinə – Red.) məskunlaşmışdılar. 620-ci ildə bu qəbilələrin bəzi nümayəndələri Məkkəyə gələrək Məhəmməd peyğəmbərə beyət (birinin hakimiyyətini qəbul edərək ona tabe və sadiq olma – Red.) etdilər. Daha sonra onlar doğma şəhərlərinə dönərək İslamı yaymağa başladılar. Nəticədə Yəsrib şəhərində bir çox insan İslam dininə keçdi.

Bu zaman Məkkədə müsəlmanlara qarşı təqib pik həddinə çatmışdı. Artıq bu şəhər müsəlmanlar üçün təhlükəli bir yerə çevrilmişdi. Odur ki, 622-ci ildə məkkəli müsəlmanların əksəriyyəti, həmçinin Məhəmməd peyğəmbərin özü Yəsrib şəhərinə köçdü. Məhəmməd peyğəmbər Yəsribdə yerləşdikdən sonra bu şəhər "Mədinətur-rəsul" ("Peyğəmbərin şəhəri") və ya "Mədinə" adlandırıldı.

Qeyd edək ki, Məhəmməd peyğəmbərin və onun tərəfdarlarının 622-ci ildə Məkkədən Mədinəyə köçməsi müsəlman mənbələrində "hicrət" termini ilə ifadə olunur. Həmçinin ikinci xəlifə Ömər ibn Xəttabın dövründə, daha dəqiq desək, 638-ci ildə Əli ibn Əbu Talibin təklifi ilə hicrət ili müsəlman təqviminin ilk ili kimi qəbul edildi

Mədinəyə köçdükdən sonra Məhəmməd peyğəmbər bu şəhərin həm mənəvi liderinə, həm də idarəçisinə çevrildi. O, qısa zamanda əhalisi müsəlman, yəhudi və bütpərəstlərdən ibarət olan Mədinədə sülh və əmin-amanlığı təmin etdi. Bu məqsədlə o, müxtəlif dinlərin mənsublarının haqlarını müəyyənləşdirərək, bununla bağlı qanunlar toplusu ortaya qoydu. Müsəlman qaynaqlarında həmin qanunlar toplusu "səhifə" yaxud "kitab" adlandırılır. Bəzi müasir tədqiqatçılar sözügedən qanunları Mədinə konstitusiyası kimi xarakterizə edirlər.

Məhəmməd peyğəmbərin Mədinənin siyasi və mənəvi liderinə çevrilməsi Məkkə bütpərəstlərinin liderlərini narahat edirdi. Buna görə də onlar digər bütpərəst ərəb qəbilələrinin də köməyi ilə müsəlmanlara qarşı müharibə elan etdilər. Bütpərəstlərlə müsəlmanlar arasında Bədr, Uhud, Xəndək və digər döyüşlər baş verdi. Bu döyüşlərin bəzilərində müsəlmanlar, bəzilərində isə məkkəli bütpərəstlər qələbə qazandı.

Lakin zaman keçdikcə İslamın nüfuz dairəsi genişlənir, bu dini qəbul edən ərəb qəbilələrin sayı durmadan artırdı. Məhəmməd peyğəmbərin müxtəlif ərəb tayfalarına göndərdiyi təbliğatçılar İslamın uğur qazanmasında böyük rol oynayırdılar. Çünki həmin təbliğatçılar sayəsində İslamla tanış olan bütpərəst ərəblər bu dinin üstün cəhətlərini görüb çoxtanrılıqdan təkallahlığa keçirdilər. Hətta müsəlmanların qatı düşmənləri belə İslamın mütərəqqi ideyaları qarşısında təslim olaraq, bu dini qəbul edirdilər. Həmçinin 628-ci ildə müsəlmanlarla məkkəli bütpərəstlər arasında Hüdeybiyyə sülh müqaviləsinin bağlanması İslamın yayılmasına öz müsbət təsirini göstərdi. Çünki bu müqavilə sayəsində müsəlmanlar Məkkədə dinlərini təbliğ etmək fürsəti qazandılar. Beləliklə, istər Məkkədə, istər ondan kənarda müsəlmanların sayı get-gedə çoxalırdı.

Nəticədə 630-cu ildə müsəlmanlar Məkkə şəhərini fəth etdi və Qüreyş qəbiləsinin qalan hissəsi də İslama keçdi. Bundan sonra İslam dini Ərəbistan yarımadasında daha sürətlə yayılaraq hakim dinə çevrildi.

Ömrünün sonuna qədər Mədinədə yaşayan Məhəmməd peyğəmbər 632-ci ildə dünyasını dəyişdi. O, Mədinədəki Peyğəmbər məscidinin ("Məscid ən-Nəbəvi"; "Məscidün-Nəbi" ərazisində yerləşən evində dəfn olundu. Vəfat etməzdən əvvəl həcc ziyarətindən qayıdarkən Ərəfat vadisində on minlərlə müsəlmana xitab edərək son tövsiyələrini verdi. Bu tövsiyələr "Vəda xütbəsi" adı ilə İslam tarixinə düşdü. "Vəda xütbəsi"ndə bütün insanların bərabər olduğu və eyni mənşədən, yəni torpaqdan gəldiyi bildirilir, can və mal toxunulmazlığına diqqət çəkilir, qan davası və sələmçilik kimi islamaqədərki əməllərin ortadan qaldırıldığı vurğulanır. Həmçinin "Vəda xütbəsi"ndə qadınlarla şəfqət və mehribanlıqla rəftar etmək, dində ifratçılığa yol verməmək, əmanəti qoruyub saxlamaq tövsiyə olunur.

Məhəmməd peyğəmbərin vəfatından sonra İslam tarixində xilafət dövrü başladı. Məşvərət yolu ilə seçilən ilk dörd xəlifə (Əbu Bəkr, Ömər ibn Xəttab, Osman ibn Əffan və Əli ibn Əbu Talib) dövründə baş verən ərəb istilaları

nəticəsində İslam dini Ərəbistan yarımadasının hüdudlarını aşaraq İraq, Suriya, İran, Şimali Afrika və yer üzünün digər regionlarında yayıldı.

Dörd xəlifədən sonra Qüreyşin Ümeyyəoğulları sülaləsi (Əməvilər) hakimiyyətə gəldi. İlk Əməvi xəlifəsi Müaviyə ibn Əbu Süfyan özündən sonra hakimiyyətə məşvərət yolu ilə deyil, varislik yolu ilə oğlu Yezidi təyin etdi. Bu da İslam cəmiyyətində ciddi narazılığa səbəb oldu. Odur ki, Yezid ibn Müaviyənin hakimiyyətinə qarşı üsyanlar baş verdi. Onlar arasında ən məşhuru Məhəmməd peyğəmbərin nəvəsi, Əli ibn Əbu Talibin isə oğlu Hüseyn ibn Əlinin qaldırdığı qiyamı idi. 10 oktyabr 680-ci ildə bu üsyan böyük amansızlıqla yatızdırıldı, Hüseyn ibn Əli başda olmaqla xeyli insan qətlə yetirildi.

Qeyd edək ki, ilk üç xəlifənin hakimiyyəti illərində xilafətin paytaxtı Mədinə şəhəri idi. Dördüncü xəlifə Əli ibn Əbu Talib dövründə paytaxt İraq ərazisində yerləşən Kufə şəhərinə köçürüldü. Əməvilər sülaləsi hakimiyyəti ələ keçirdikdən sonra isə xilafətin paytaxtı Suriyadakı Dəməşq şəhəri oldu.

Əməvilərin yürütdüyü ərəbçilik siyasəti məvalilərin, yəni ərəb olmayan müsəlmanların narazılığına səbəb olurdu. Odur ki, 750-ci ildə Abbasilər sülaləsi məvalilərin və Əli tərəfdarlarının köməyi ilə Əməviləri devirərək hakimiyyətə gəldi. Bununla da İslam tarixinin yeni bir mərhələsi – Abbasilər dövrü başladı.

Əməvilərdən fərqli olaraq, Abbasilər sülaləsi daha çox məvalilərə arxalanırdı. Buna baxmayaraq, xilafətə qarşı çoxlu üsyan baş verirdi. Xüsusən 816-835-ci illərdə Babəkin başçılığı ilə geniş vüsət alan Xürrəmilər hərəkatı, eləcə də IX əsrin birinci yarısında Cənubi Mesopotomiyada baş vermiş Zəncilərin üsyanı Abbasilərin hakimiyyətini laxlatdı.

Abbasilər dövründə ərəb işğalları demək olar ki, dayandı. Lakin bu sülalənin hakimiyyəti vaxtı İslam mədəniyyəti inkişaf etdi. Müsəlmanlar qədim yunan, −Roma, Hindistan, İran və digər mədəniyyətlərin nailiyyətlərindən faydalanaraq möhtəşəm sivilizasiya qurdular. Abassilərin hakimiyyəti dövründə xilafətin paytaxtı olan Bağdad şəhəri dünyanın əsas elm, ticarət və mədəniyyət mərkəzlərindən biri sayılırdı. IX əsrin 20-ci illərində həmin şəhərdə "Hikmət evi"nin ("Beyt əl-Hikmə") yaradılması İslam dünyasında elmin inkişafına güclü təkan verdi. Bu elmi mərkəzdə çalışan alimlər yunan, latın, fars, hind, çin və digər dillərdə olan riyaziyat, tibb, fəlsəfə, astronomiya kimi elmlərə dair əsərləri ərəb dilinə tərcümə edirdilər. Sonradan müsəlman alimləri bu zəngin mirasdan istifadə edərək müxtəlif elm sahələrində fundamental əsərlər ortaya qoydular.



*Bağdad kitabxanası. XII əsr əlyazmasından fraqment. Rəssam əl-Vasiti.*

Müasir İspaniya və Portuqaliya ərazisində mövcud olmuş Kordova xilafəti (929-1031) də İslam dünyasında elm və mədəniyyətin inkişafına böyük töhfə vermişdir. Kordova xilafəti bir vaxtlar təkcə müsəlman aləminin deyil, həmçinin Avropanın ən mühüm elmi-mədəni mərkəzi sayılırdı. Kordova xilafətinin elmə verdiyi dəyər sayəsində avropalılar yenidən qədim yunan və romalıların irsi ilə tanış olmuşdular. Çünki qədim Roma imperiyasının süqutundan sonra antik dövrün zəngin elmi və fəlsəfi irsi qərb dünyasında unudulmuşdu. Müsəlman alimləri isə bu irsi üzə çıxararaq ərəb dilinə tərcümə etmişdilər. Daha sonra antik müəlliflərin ərəb dilinə tərcümə olunmuş əsərləri Kordova xilafəti vasitəsi ilə Avropaya ötürülmüşdü.

Burada Şimali Afrikanın böyük bir hissəsini, Suriya və Fələstini əhatə edən, ismailiyyə məzhəbinin (ətraflı məlumat üçün bax: dərsliyin III fəslinin 3.3. bəndinin "Məzhəb və təriqətlər" adlı altbəndi) mənsubları tərəfindən qurulan Fatimilər xilafətinin (909-1171) müsəlman aləmində elm və mədəniyyətin inkişafında oynadığı rolu qeyd etmək lazımdır. Məşhur misirli tarixçi Məqrizinin (1364-1442) "əl-Xitat" adlı əsərində verdiyi məlumata görə, Fatimilər xilafətinin paytaxtı Qahirə şəhərində fəaliyyət göstərən "Hikmət evi"nin kitabxanasında 1 milyon 600 min əsər saxlanılırdı ki, onlardan 18 mini antik müəlliflərin əsərləri təşkil edirdi.

Abbasilər xilafətinin sonrakı taleyinə gəlincə, bu qüdrətli imperiya IX-X əsrlərdə tənəzzül dövrünü yaşayaraq müstəqil və yarımüstəqil dövlətlərə parçalandı. 945-ci ildə Büveyhilər (935-1055-ci illərdə İranın

cənub hissəsini və İraqı idarə edən şiə məzhəbli sülalə) xilafətin paytaxtı Bağdad şəhərini tutduqdan sonra Abbasilər dünyəvi hakimiyyətlərini itirdilər. Artıq Bağdad şəhərində oturan Abbasi xəlifələrin hakimiyyəti formal və rəmzi xarakter daşıyırdı. Onlar yalnız sünni dünyasının ali ruhani liderləri kimi qəbul olunurdu. 1258-ci ildə monqollar Bağdadı ələ keçirib Abbasi xəlifəsi əl-Müstəsim Billahı öldürdükdən sonra Abbasilər sülaləsinin nümayəndələri Misirə köçdülər. Həmin dövrdə Misir Məmlüklər (qıpçaq və Qafqaz mənşəli nökərlərdən təşkil olunmuş xüsusi hərbi silk) tərəfindən idarə olunurdu. Bununla da Məmluklərin hakimiyyəti altında fəaliyyət göstərən Abbasi xəlifələrin mərkəzi Misirin paytaxtı Qahirə şəhəri oldu. 1517-ci ildə Osmanlı sultanı I Səlim (hakimiyyət illəri: 26 may 1512 - 21 sentyabr 1520. - Red.) Məmlükləri məğlub edərək Misiri tutduqdan sonra Abbasilərin İslam dünyasındakı formal dini liderliyinə son qoydu. Artıq xilafət titulu Osmanlı imperiyasının hökmdarlarına keçdi. Osmanlı sultanları xilafət titulunu XX əsrin əvvəllərinədək daşıdılar. Nəhayət 24 iyul 1923-cü ildə Türkiyə Respublikası qurulduqdan sonra xilafətin mövcudluğuna son qoyuldu. 3 mart 1924-cü ildə Türkiyə Böyük Millət Məclisinin qərarı ilə bu dini hakimiyyət forması birdəfəlik ləğv olundu.

Xilafət sistemi ləğv olunsa da, İslam dini müsəlman aləminin ictimai-siyasi həyatına təsirini qoruyurdu. Belə ki, XIX əsrin sonlarında az qala bütün müsəlman ölkələri Avropa dövlətlərinin müstəmləkələrinə çevrilmiş və ya onlardan asılı vəziyyətə düşmüşdü. Qərb müstəmləkəçiliyi əleyhinə baş qaldırmış milli azadlıq hərəkatlarında islami ideyalar aparıcı rol oynayırdı. Bunun nəticəsində XX əsrdə İslam dünyasında yeni müstəqil müsəlman dövlətləri meydana gəldi.

Eyni zamanda, müasir İslam tarixində 25 sentyabr 1969-cu ildə İslam Konfransı Təşkilatının təsis olunması əlamətdar hadisəyə çevrildi. Mənzil-qərargahı Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşən həmin təşkilata (2011-ci ildən İslam Əməkdaşlığı Təşkilatı adanır) hazırda 57 dövlət üzvdür. Dünyanın 28 ölkəsində isə İslam dövlət və ya rəsmi din statusundadır.

Müasir dövrdə İslam dini xristianlıqdan sonra mənsublarının sayına görə dünyanın ən böyük dinidir. Hazırda yer kürəsində təqribən 1 milyard 800 milyon müsəlman yaşayır ki, bu da dünya əhalisinin 24,1 faizini təşkil edir.

## 3.3.2. Dini təlimin əsasları

İslam dininin etiqad əsaslarına "üsulüddin" ("dinin əsasları") deyilir. Dilimizdə bəzən "iman əsasları" ifadəsindən də istifadə olunur. Etiqad əsasları dedikdə dinin nəzəri əsasları başa düşülür. İslamın etiqad əsasları müxtəlif İslam məktəblərində (məzhəb) fərqli formalarda öz əksini tapsa da, bütün müsəlmanların qəbul etdiyi təməl əqidə prinsipləri aşağıdakı kimidir:

### *Tövhid*

İslamda təkallahlılıq inancına böyük əhəmiyyət verildiyi üçün "tövhid" ən əsas etiqadi prinsip sayılır. Hətta müsəlman alimləri bu etiqadi prinsipə "əslül-üsul" ("əsasların əsası") adını vermişlər.

"Tövhid" kəlməsi ərəb dilində "yeganə", "bir" mənalarına gələn "vəhdət", "vəhd" kökündən törəmişdir; hərfi mənada "hər hansı bir şeyin yeganə və bir olduğunu qəbul etmək" deməkdir. İslam terminologiyasına görə, "tövhid" sözü "Allahın təkliyini qəbul etmək" mənasını ifadə edir.

Tövhid təliminə görə, zatı (mahiyyəti) və sifətləri (atributları) baxımından bir olan Allah kainatı yaradan və idarə edən yeganə varlıqdır. Onun heç bir şəriki yoxdur. Qurani-Kərimin "İxlas" surəsində bu barədə deyilir: *"De: "(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur); Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! O, nə doğmuş, nə də doğulmuşdur! Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!"* Hər bir müsəlmanın bilməli olduğu "kəlmeyi-şəhadət"də ("şəhadət kəlməsi") Tanrının təkliyi xüsusən vurğulanır: *"Allahdan başqa ilahın olmadığına, Məhəmmədin onun bəndəsi və elçisi olduğuna şahidlik edirəm"*.

İslam antropomorfik, yəni insanabənzər tanrı obrazını rədd edir. Müsəlman alimlər Allahın mükəmməl ad və sifətlərə malik olduğunu vurğulamaqla yanaşı, bunların yaradılmışlara xas olan əlamətlərə bənzəmədiyini xüsusilə qeyd edirlər. Məsələn, İslamda Allah bilən (alim), görən (bəsir) və eşidən (səmi) kimi təsvir olunur, lakin Tanrının bu xüsusiyyətləri insanların bilməsi, görməsi və eşitməsinə bənzəmir. Təsadüfi deyildir ki, kəlam elmində (İslam ehkamlarını əqli və fəlsəfi cəhətdən əsaslandırmağa çalışan elm – Red.) Allahın insan ağlına gələn hər şeydən fərqli olduğu, Tanrının insana və digər varlıqlara bənzəmədiyi vurğulanır.

*Nübüvvət*

Peyğəmbərlərə iman gətirmək İslamın ikinci inanc əsasını təşkil edir. Dini ədəbiyyatda bu inanc əsası "nübüvvət" (ərəb dilində "peyğəmbərlik" mənasına gəlir) termini ilə ifadə olunur. İslama görə, Allah bəşəriyyətə və ya hər hansı topluma doğru yol göstərmək üçün insanlar arasından seçdiyi öz elçilərini göndərir. Onlar Tanrıdan vəhy alır, günah işləmir, müdrikliyi, zəkası, sədaqəti, etibarlı olmaları ilə seçilir, qətiyyən yalan danışmır və digər üstün əxlaqi keyfiyyətləri ilə seçilirlər.

Müsəlmanlar inanırlar ki, Məhəmməd peyğəmbər Allahın sonuncu elçisidir və ondan sonra Tanrı tərəfindən heç bir peyğəmbər göndərilməyəcək.

*Axirət*

İslamın inanc əsaslarından biri ölümdən sonrakı həyatın varlığına inanmaqdır. Müsəlmanlar ölümdən sonrakı həyata "axirət" (ərəb dilində "son", "sonuncu gün" deməkldir) və ya "məad" (ərəb dilində "qayıdış" mənasına gəlir) deyirlər.

Axirət inancına əsasən, insanlar öldükdə onların ruhları bədənlərindən ayrılaraq yaşamağa davam edir. Qiyamətədək sürən bu ruhani həyata müsəlman qaynaqlarında "bərzəx" (ərəb dilində "aralıq", "keçid" mənasına gəlir) adı verilmişdir. Qiyamət qopduqda insanlar yenidən dirildiləcək, dünyada etdikləri əməllərinə görə Allah tərəfindən mühakimə olunacaqlar. Yaxşı əməl sahibləri "cənnət" adlanan əbədi mükafat yurduna, pis əməl sahibləri isə "cəhənnəm" deyilən cəza yurduna göndəriləcəklər. Beləliklə, insanların dünyada etdikləri yaxşı və pis işlər əvəzsiz qalmayacaqdır.

### 3.3.3. Dini mətnlər

İslam etiqadına görə, bəzi peyğəmbərlərə Allah tərəfindən Cəbrayıl mələk vasitəsi ilə müqəddəs mətnlər göndərilmişdir. Bu müqəddəs mətnlərin bəziləri kitab, bəziləri isə səhifələr şəklində olmuşdur. Kitab şəklində olan müqəddəs yazılar bunlardır: "Tövrat", "Zəbur", "İncil" və "Quran". "Tövrat"

Musaya, "Zəbur" Davuda, "İncil" İsaya, "Quran" isə Məhəmməd peyğəmbərə göndərilmişdir.

Müsəlmanlar inanırlar ki, "Qurani-Kərim" son ilahi kitabdır. Həmçinin Məhəmməd peyğəmbərin ən böyük möcüzəsidir. Çünki "Quran" ədəbi dilinin mükəmməlliyi, bənzərsiz üslub xüsusiyyətləri və ehtiva etdiyi üstün hikmətləri ilə digər kitablardan seçilir. İslam mənbələrinə görə, "Quran" Məhəmməd peyğəmbərə vəhy yolu ilə 23 il ərzində tədricən nazil olub.

"Oxumaq" mənasına gələn "Quran" 114 surədən, yəni bölümdən ibarətdir. Hər surə isə ayələrə bölünür. "Quran"ın ən uzun surəsi Bəqərə (286 ayə), ən qısası isə Kövsər surəsidir (3 ayə).

Müsəlman alimləri "Quran"ı izah və şərh edən bir çox təfsir (ərəb dilində "açıqlamaq", "bəyan etmək" mənasına gəlir) əsəri qələmə almışlar. Təfsir kitablarında surə və ayələrin nazil olma səbəbləri araşdırılır, qrammatik və semantik təhlilləri aparılır, həmçinin hədislər, tarixi məlumatlar və əqli mühakimələr əsasında onların mənaları izah olunur.



*Qədim Quran nüsxəsindən fraqment. IX əsr.*

"Quran"dan sonra İslam dininin ikinci əsas mənbəyi hədislərdir. Hədis - Məhəmməd peyğəmbərin kəlam və davranışlarını, eləcə də ətrafındakı insanların hərəkətlərinə göstərdiyi münasibəti ifadə edən termindir. Şiə məzhəbinin

ardıcılları Məhəmməd peyğəmbərin qızı Fatimə və on iki imamın kəlam və davranışlarını da hədis olaraq qəbul edirlər.

İslamın ilk dövrlərindən etibarən müsəlman alimləri, daha dəqiq desək, hədisçilər Məhəmməd peyğəmbərlə bağlı çoxsaylı rəvayətləri toplayaraq onları sistemləşdirmiş, hədis məcmuələri tərtib etmişlər. Məcmuələrdə yer alan hədis mətnlərinin əvvəlində ravilər, yəni hədisləri nəql edən şəxslərin adları yaşadıqları dövrə görə sıralama ilə verilmişdir.

Hədisçilər Məhəmməd peyğəmbərlə bağlı rəvayətlərin etibarlılıq səviyyəsini müəyyənləşdirmək üçün ravilərin həyatlarından bəhs edən əsərlər qələmə almışlar. Müsəlman alimləri həmin bioqrafik xarakterli kitablara müraciət edərək ravilərin üstün və zəif əxlaqi keyfiyyətlərini (məs.: yalançı və ya düz danışan olduqlarını) öyrənir, onların rəvayət etdikləri hədislərin doğruluğunu yoxlayırlar. Bununla yanaşı, hədis elmində hədislər etibarlılıq dərəcəsinə görə səhih, yaxşı, zəif, uydurma kimi müxtəlif kateqoriyalara bölünmüşdür.

## 3.3.4. Dini ayin və mərasimlər

"İbadət" kəlməsi ərəb dilində hərfən "tapınmaq", "boyun əymək", "itaət etmək" deməkdir. İslam dinində ibadətlər yalnız Allahın razılığını qazanmaq məqsədilə yerinə yetirilir. Ondan başqasına sitayiş etmək Allaha şərik qoşmaq kimi qəbul olunur.

İslam dinində ibadətlər üç qismə bölünür: 1. Bədənlə edilən ibadətlər; 2. Mal və ya maddi qazanc ilə icra olunan ibadətlər; 3. Həm bədən, həm də mal ilə yerinə yetirilən ibadətlər.

Bədənlə icra olunan ibadətlər içində ən əsası namaz (fars dilində "ehtiram göstərmək" demək) sayılır. Namaz fars mənşəli sözdür, "ehtiram göstərmək","ehtiramla əyilmək", "ibadət" mənasına gəlir. Bu sözün Qurani-Kərimdəki qarşılığı ərəb dilində "dua", "ibadət", "qulluq", "din" kimi müxtəlif mənalara gələn "salət" kəlməsidir.

İslama görə, namaz - insana Allahı xatırladan, başqalarına sitayiş etməməyi öyrədən, yüksək mənəvi duyğuları aşılayaraq bəşər övladını pis əməllərdən çəkindirən bir ibadətdir. Bu ibadət xüsusi formada və müəyyən vaxtlarda icra olunur. Müsəlmanlar namazdan əvvəl həm fiziki, həm də mənəvi paklığı ifadə

edən dəstəmaz alırlar. Dəstəmaz bədənin müəyyən orqanlarının yuyulması və məsh edilməsi ilə həyata keçirilən xüsusi təmizlənmə formasıdır. Qeyd edək ki, “dəstəmaz” fars mənşəli sözdür; “dəst” (“əl”) və “namaz” kəlmələrindən meydana gələrək leksik dəyişikliyə məruz qalan mürəkkəb sözdür. “Quran” və hədislərdə dəstəmaz sözünün qarşılığı olaraq, ərəb dilində “təmizlik” mənasına gələn “vudu” kəlməsi işlədilir.

Hər müsəlman səhər, zöhr, günorta, günəş qürub edərkən və gecə olmaqla gündə beş dəfə namaz qılmağa mükəlləfdir. Həmçinin cümə günü günorta vaxtı da namaz qılmaq (cümə namazı) vacib sayılır. Bundan əlavə, İslam dinində Qurban və Ramazan bayramlarında yerinə yetirilən bayram namazı, vəfat edən şəxsi son mənzilə yola salarkən icra olunan cənazə namazı və digər bir çox namaz növü mövcuddur. Müsəlmanlar gündəlik namazlarını məscid və evlərdə, yaxud təmiz olan istənilən yerlərdə qıla bilərlər. Cümə və bayram namazları isə, əsasən, məscidlərdə yerinə yetirilir.

İslam dinində bədənlə edilən başqa ibadət növü orucdur. “Oruc” sözü fars dilində “gündəlik” mənasına gələn “ruze” kəlməsindən törəmişdir. Qurani-Kərim və hədislərdə oruc kəlməsinin qarşılığı kimi “savm” və onun cəm halı olan “siyam” sözləri işlədilir. “Savm” ərəb dilində “özünü saxlama”, “nəfsini saxlama”, “qarşısını almaq”, “pəhriz” mənasına gəlir. Oruc səhər dan yeri ağarmağa başlayandan axşam günəş batana qədər tutulur. Bu müddət ərzində yemək, içmək və cinsi həyatdan uzaq durmaq tələb olunur, eləcə də yalan danışmaq, qeybət etmək kimi pis əməllərdən çəkinmək tövsiyə olunur. Müsəlmanlar inanırlar ki, oruc insanı həm cismən, həm də ruhən paklandırır. Ramazan ayında bir ay boyunca tutulan oruc İslam dinində ən mühüm ibadətlərdən sayılır.

Mal və sərvət vasitəsi ilə yerinə yetirilən ibadətlər kateqoriyasına zəkat, sədəqə və s. daxildir. Sərvət vasitəsi ilə icra olunan ibadətlər içində ən əsası zəkat sayılır. “Zəkat” sözü ərəb dilində “artma”, ”çoxalma”, ”təmizləmə” deməkdir. İslama görə, hər imkanlı müsəlman ildə bir dəfə zəkat, yəni öz sərvətinin müəyyən bir hissəsini ehtiyacı olan möminə verməlidir. Zəkatdan fərqli olaraq, sədəqə vermək könüllüdür. “Sədəqə” kəlməsi ərəb dilində “doğruluq”, “düzgünlük” mənasına gəlir. İslamda sədəqənin verilmə miqdarı, şərti və vaxtı göstərilməyib. Bu isə o deməkdir ki, hər bir müsəlman kasıb möminə əl uzatmaq məqsədilə istədiyi vaxtda və miqdarda sədəqə verə bilər.



*Müsəlman zəvvarlar “Məscidül-Həram”dakı Kəbə ətrafında dövr edərkən.*

Daha əvvəl qeyd etdiyimiz kimi, İslam dinində həm bədən, həm də mal ilə edilən ibadətlər də mövcuddur. Buna nümunə kimi həcc ziyarətini göstərmək olar. “Həcc” kəlməsi ərəb dilində “getmək”, “yönəlmək”, “ziyarət etmək” mənalarına gəlir. İslama görə, gücü çatan, yəni zəngin və sağlam olan hər müsəlman həyatında ən azı bir dəfə həcc ziyarətinə getməlidir. Zilhiccə ayında (hicri-qəməri və ya İslam təqviminin 12-ci ayı – Red.) yerinə yetirilən həcc ibadətinin əsas məqsədi Məkkə şəhərindəki “Məscidül-Həram”ın (“Hörmətli məscid”, “Müqəddəs məscid” və ya “Toxunulmaz məscid” mənalarına gəlir – Red.) ərazisində yerləşən Kəbəni ziyarət etməkdir. “Kəbə” sözü ərəb dilində hərfi mənada “kub şəklində olan ev” deməkdir. Həmçinin müsəlmanlar Kəbəni “Beytullah”, yəni “Allahın evi” adlandırır, namaz qılarkən üzlərini bu müqəddəs məkana tərəf çevirirlər. Həcc ziyarəti vaxtı isə onlar Kəbə ətrafında 7 dəfə dövr edərək namaz qılırlar. Daha sonra Kəbənin yaxınlığında yerləşən Səfa və Mərvə təpələri arasında müəyyən dini ayinlər yerinə yetirir, zilhiccə ayının 10-12-də Məkkə yaxınlığındakı Mina dağında qalaraq namaz qılır, günahlarının bağışlanması üçün dua edirlər. Adətən, həcc mərasimində iştirak edən zəvvarlar Mədinə şəhərinə də baş çəkərək Peyğəmbər məscidini ziyarət edirlər.

## 3.3.5.Məzhəblər

### *Etiqadi və hüquqi məzhəblər*

Ərəb dilində “məzhəb” sözü “gedilən yol” mənasına gəlir. İslam ədəbiyyatında geniş istifadə olunan “məzhəb” termini altında bu dinin qolları (istiqamətlər), yaxud təlim və hökmlərinin müxtəlif aspektlərdən izah olunması nəticəsində meydana gələn məktəblər nəzərdə tutulur.

Məzhəblər etiqadi və fiqhi (hüquqi) olmaqla iki qrupa bölünür. Etiqadi məzhəblər kateqoriyasına İslamın inanc əsasları və əqidə prinsiplərini özünəməxsus şəkildə izah edən dini məktəblər daxildir. Bu məktəblərin alimləri arasında fikir ayrılığı Allahın sifətləri, insana iradə azadlığının verilib-verilməməsi, Quranın yaradılıb-yaradılmaması, qəza və qədər kimi müxtəlif etiqadi məsələlərlə bağlı yaranmışdı. Məsələn, bəzi etiqadi məktəblərin nümayəndələri “Quran”da keçən Allahın üzü, əlləri və buna bənzər ifadələri hərfi mənada qəbul etdikləri halda, digər etiqadi məzhəblərin ardıcılları bu məfhumları məcazi anlamda başa düşmüşlər.

Etiqadi məzhəblərdən danışarkən, mötəziliyi ayrıca qeyd etmək lazımdır. Bu etiqadi məzhəb tarixə qovuşsa da, İslam dünyasında dini-fəlsəfi fikrin inkişafında böyük rol oynamışdır. Ərəb dilində bu məzhəb “əl-mütəzilə” (“ayrılanlar, “uzaqlaşanlar”) adlanır. Mötəzilə məzhəbinin nümayəndələri fəlsəfəçilər və müxtəlif dinlərin nümayəndələri ilə elmi mübahisələr apararaq İslamın inanc əsaslarını ağıl və məntiqə uyğun izah etmiş, rasional dəlillər əsasında dini müdafiə etməyə çalışmışlar. VIII-X əsrlərdə çiçəklənmə dövrünü yaşamış mötəzilə məzhəbi zaman keçdikcə siyasi dəstəkdən məhrum qalmış, beləliklə, tarix səhnəsindən silinmişdir.

Fiqhi məzhəblər ortaq və fərqli hüquqi metodların tətbiqi səbəbilə meydana gəlmişdir. Bütün fiqhi məzhəblər hər hansı məsələ barədə hökm çıxararkən, ilk növbədə, “Quran” və sünnəyə əsaslanır. Sadəcə hər məzhəbdə “Quran” ayələri və hədislər özünəməxsus şəkildə təfsir olunur. Həmçinin müsəlman hüquq məktəblərində icma, qiyas və digər İslam hüququnun əsasları ilə bağlı fərqli yanaşmalar mövcuddur.

## *Dini istiqamətlər*

### *I. Sünnilik*

İslam dünyasında mənsublarının sayı baxımından ən böyük dini istiqamət sünnilik sayılır. Dünyadakı müsəlmanların təqribən 85-90 faizini sünni təmayüllü məzhəblərin mənsubları və ya sünnilər təşkil edir. Sünnilər özlərini "Əhli-sünnət vəl-cəmaət" və ya qısa olaraq "Əhli-sünnət" adlandırırlar. "Əhli-sünnət vəl-cəmaət" dedikdə, Məhəmməd peyğəmbərin sünnəsinə tabe olanlar nəzərdə tutulur. Tədqiqatçılar sünniliyi ən qısa şəkildə "dinin əsas mövzularında Məhəmməd peyğəmbərin və onun səhabələrinin (yəni silahdaşlarının – Red.) tutduğu yolu mənimsəyənlər" kimi xarakterizə edirlər.

Sünni məzhəbinə görə, İslamın şərtləri, yəni etiqadı əsasları və ya əqidə prinsipləri bunlardır: 1. Allaha inam; 2. Mələklərə inam; 3. Allahın göndərdiyi kitablara inam; 4. Peyğəmbərlərə inam; 5. Axirətə inam; 6. Qəza və qədərə inam (yəni xeyir və şərin Allahdan olduğuna inanmaq – Red.). Həmçinin sünni məzhəbinə əsasən, İslam dininin sütunları sayılan əməllər bunlardır: 1. Kəlmeyi-şəhadət; 2. Namaz; 3. Oruc; 4. Zəkat; 5. Həcc.

Qeyd edək ki, keçmişdə sünni istiqamətə mənsub çoxaylı fiqhi (hüquqi) məzhəblər mövcud olsa da, onlardan yalnız dördü günümüzədək varlığını qoruyub saxlamışdır. Sözügedən məzhəblər aşağıdakılardır:

*1. Hənəfilik.* Məzhəbin banisi Əbu Hənifə Numan ibn Sabit (698-767) hesab olunur. Hənəfilik Pakistan, Hindistan, Banqladeş, Türkiyə və Orta Asiya ölkələrində yayılmışdır;

2. Şafeilik. Bu hüquqi məktəbin banisi Məhəmməd ibn İdris ibn Abbas əş-Şafei (767-820) sayılır. Şafeilik məzhəbinin mənsubları İndoneziya, Malayziya, Misir, Somali və bir çox Yaxın Şərq ölkələrində yaşayırlar;

*3. Malikilik.* Məzhəbin banisi 708-716-cı illər arasında doğulan və 795-ci ildə vəfat edən Malik ibn Ənəsdir. Bu məzhəb Misir istisna olmaqla Şimali və Qərbi Afrika ölkələrində, həmçinin Sudan və Çad kimi Mərkəzi Afrika dövlətlərində intişar tapmışdır;

*4. Hənbəlilik.* Məzhəbin banisi Əhməd ibn Hənbəldir (780-855). Bu fiqhi məktəbin ardıcılları əsasən Ərəbistan yarımadasında yaşayırlar.

Sünnilikdə dörd hüquqi məktəblə yanaşı, üç etiqadi məzhəb də mövcuddur. Həmin məzhəblər aşağıdakılardır:

**1.** *Sələfilik.* Bu məzhəbin adı ərəb dilində “əvvəlki nəsil” mənasına gələn “sələf” sözündən törəmişdir. Çünki sələfilər hesab edirlər ki, yalnız “əs-Sələfi əs-Salih” (ərəbcə “əməlisaleh əcdadlar” deməkdir) adlanan Məhəmməd peyğəmbərin davamçılarının ilk üç nəsli əsl İslama riayət etmişlər. Bu ilk üç nəslə bunlar daxildir: 1.Səhabələr. Məhəmməd peyğəmbərin əshabı; 2. “Tabiun”lar (ərəb dilində “tabiun” sözü “tərəfdar” deməkdir) - səhabələri görən müsəlmanlar; 3. “Tabiu ət-tabiin” (ərəb dilində “tabiunlara tabe olanlar” mənasına gəlir. –Red.) - “tabiun”ları görən müsəlmanlar.

Etiqadi məsələlərdə bu ilk üç müsəlman nəslinin dövrünə qayıtmağa səsləyən sələfilik ehkamında İslamın tövhid və ya təkallahlılıq prinsipinə böyük əhəmiyyət verilir, bu anlayışlara ifrat həssaslıqla yanaşılır. İslamı “yeniliklərdən təmizləməyi” qarşılarına məqsəd qoyan sələfilər “bidət” (ərəb dilində “daha əvvəl bənzəri olmayan”, “sonradan ortaya çıxan”, “yenilik” və sair mənalarda işlədilir) anlayışına xüsusi əhəmiyyət verirlər. İslam terminologiyasına əsasən, bidət – Məhəmməd peyğəmbər dövründə mövcud olmayan və sonradan İslamın istər etiqadi prinsiplərində, istər isə əməli hökmlərində artırma və ya əskiltmə yolu ilə edilmiş dəyişikliklər deməkdir. Başqa sözlə desək, dində edilmiş yeniliklərdir. Mühafizəkarlığı ilə seçilən sələfiliyin mənsubları bidət məfhumuna istinad edərək Məhəmməd peyğəmbərin və övliyaların (ərəbcə hərfi mənada “Allah dostları” deməkdir) qəbrini ziyarət edərək onlardan şəfaət, yəni kömək diləyən, eləcə də pirlərə, ocaqlara və digər ziyarətgahlara ehtiram göstərən müsəlmanları, həmçinin sufiliyin ardıcıllarını Allaha şərik qoşmaqda və küfrdə ittiham etmişlər.

Sələfilər Allahın sifətlərindən bəhs edən ayə və hədislərin zahiri mənası ilə kifayətlənib, onların yozum və şərhlərini rədd edirlər. Məsələn, “Quran”da keçən Allahın əli, üzü kimi ifadələrin məcazi mənada şərh olunmasını doğru saymırlar. Eyni zamanda, onlar şəriət məsələlərində təqlid olunan məzhəb anlayışını inkar edirlər.

Qeyd etmək lazımdır ki, İslam tarixində sələfilik etiqadı zəminində dini-siyasi hərəkatlar meydana gəlmişdir və onlardan biri vahhabilikdir. XVIII əsrdə Ərəbistan yarımadasında meydana gələn bu hərəkatın banisi Məhəmməd ibn Əbdülvahhabdır (1703-1792). O, Ərəbistan yarımadasının Nəcd vilayətinin Uyəynə şəhərində dünyaya gəlmişdir. İslam hüquqçusu Əhməd ibn Hənbəl və məşhur sələfi alimi İbn Teymiyyənin (1263-1328) dini ideyalarından təsirlənərək

"Tövhid kitabı" ("Kitab ət-Tövhid"), "Şübhələrin rəddi" ("Kəşf əş-şübühat") və "Üç əsas və onların sübutu" ("əl-Usul əs-Sələsə") adlı əsərlər qələmə almışdır. Kitablarında digər məzhəblərin mənsublarını Allaha şərik qoşmaqda, bidətçilik və küfrdə ittiham etmişdir. Zaman keçdikcə onun əsasını qoyduğu vahhabilik hərəkatı Ərəbistan yarımadasında geniş intişar tapmışdır.

Onu da qeyd edək ki, müasir dövrdə din pərdəsi altında gizlənib Yaxın Şərq və dünyanın digər qaynar nöqtələrində terror aktları törədərək, dinc sakinləri qətlə yetirən, guya böyük İslam xilafətinin qurulması uğrunda müqəddəs müharibə apardıqlarını elan edən "İŞİD" ("İraq Şam İslam Dövləti"), "əl-Qaidə" kimi terrorçu qruplaşmalar da özlərini sələfi ideologiyasının davamçıları olduğunu bəyan edirlər.

***2.*** Əşərilik. Məzhəbin banisi Əbül-Həsən Musa ibn İsmail əl-Əşəridir (837-935). Bu etiqadi məzhəbə görə, bəşər övladının bütün əməlləri Allah tərəfindən yaradılmışdır, insan yalnız bu xəlq edilmiş hərəkətləri öz istək və səyinə uyğun olaraq mənimsəyir. Gördüyümüz kimi, əşərilər insanın iradəsi məsələsində qədərçi (insan taleyinin əvvəlcədən Allah tərəfindən müəyyənləşdirildiyi və bəşər övladının bunu dəyişdirməyə qüdrəti çata bilməyəcəyini öyrədən təlim və ya dünyagörüşü tərzi. – Red.) dünyagörüşə yaxın olmuşlar. Həmçinin onlar qadın peyğəmbərlərin göndərildiyinə, qəlbdəki imanın artıb və ya azala biləcəyinə inanır, "Quran"da Allahın sifətləri ilə bağlı ayələri məcazi mənada şərh edir və s.

Şafeilik və malikilik hüquqi məktəblərinin ardıcıllarının əksər hissəsi etiqadi baxımından əşərilik məzhəbinə mənsubdur.

***3.*** *Matüridilik.* Məzhəbin banisi Əbu Mənsur Məhəmməd ibn Məhəmməd əl-Matürididir (?-944). Bu etiqadi məzhəb əşəriliyə nisbətən insanın öz əməllərində daha azad olduğunu qəbul edir. Matüridiliyə görə, mütləq və külli iradəyə malik olan Allah bəşər övladına cüzi iradə verib. Məhz bu iradə ilə insan öz hərəkətlərini həyata keçirir. Matüridilər bildirirlər ki, Allahın varlığını ağıl vasitəsilə dərk etmək mümkündür. Lakin insanın ağlı vəhy yolu ilə bildirilən Allahın əmr və hökmlərinin hikmətini anlamaq iqtidarında deyildir. Odur ki, insan bu məsələdə ağla deyil, vəhyə güvənməli, yəni imanla Allahın buyruqlarına əməl etməlidir. Hənəfilik hüquqi məktəbinin mənsublarının əksər hissəsi etiqadi baxımından matüridilik məzhəbinə aiddirlər.

Sünnilikdə mövcud olan etiqadi və hüquqi məzhəbləri nəzərdən

keçirdikdən sonra qeyd etməliyik ki, bu məzhəbdə altı hədis toplusu ən etibarlı hədis mənbələri kimi qəbul olunur. Həmin hədis topluları bunlardır:

1. "əl-Camius-səhih" və ya "Səhihi-Buxari" - müəllifi Məhəmməd ibn İsmail əl-Buxaridir (810-870);
2. "əl-Camius-səhih" və ya "Səhihi-Müslim" - müəllifi Müslim ibn Həccacdır (821-875). Qeyd etmək lazımdır ki, "Səhihi-Buxari" və "Səhihi-Müslim" sünni məzhəbində ən etibarlı hədis məcmuələri sayılır;
3. "Sünəni-Əbu Davud" - müəllifi Əbu Davud Süleyman ibn əl-Əşəs əs-Sicistanidir (817-888);
4. "əl-Camius-səhih" və ya "Sünəni-Tirmizi" - müəllifi Məhəmməd ibn İsa ət-Tirmizidir (824-892);
5. "Sünəni-İbn Macə" - müəllifi İbn Macə əl-Qəzvinidir (824-887);
6. "Sünəni-Nəsai" - müəllifi Əhməd ibn Şüeyb ən-Nəsaidir (829-915).

## *II. Şiəlik*

İslamın ikinci ən böyük istiqaməti şiəlikdir. Dünya müsəlmanlarının təqribən 10-20 faizi bu məzhəbə mənsubdur. Xəlifəlik məqamının Əli ibn Əbu Talibə və onun övladlarına məxsus olduğunu irəli sürən məzhəb və dini cərəyanlar "şiə" adlandırılmışdır. Ərəb sözü olan "şiə" Azərbaycan dilinə tərcümədə "tərəfdar" mənasını verir, yəni şiə dedikdə "Əli tərəfdarları" nəzərdə tutulur.

Müasir dövrdə şiəliyin üç əsas qolu mövcuddur: 1. İmamilik (imamiyyə); 2. İsmaililik; 3. Zeydilik. Həmin məzhəblərə nəzər yetirək.

*1. İmamilik.* Şiəlikdə mənsublarının sayına görə ən böyük məzhəb imamilikdir. Bu məzhəbin mənsubları dünyadakı şiələrin təqribən 85 faizini təşkil edir, yaxud daha dəqiq desək, imamiliyin ardıcıllarının ümumi sayı 150-200 milyon arasında dəyişir. Azərbaycan, İran, İraq, Livan və Bəhreyndə yaşayan müsəlmanların əsas hissəsini imamilik məzhəbinin mənsubları təşkil edir.

İmamilikdə "üsuli-din" (ərəb dilində "dinin kökləri" deməkdir) adlanan 5 etiqad əsası mövcuddur: 1. Tövhid; 2. Nübuvvət; 3. Məad (ərəb dilində "qayıdış" mənasına gəlir – Red.), yəni axirətə inanmaq; 4. İmamət; 5. Ədl, yəni ilahi ədalətə inanmaq. Həmçinin imamiliyə görə, müsəlmanlar "fürui-din" (ərəb dilində "dinin budaqları" mənasına gəlir) adlanan bu on əməli hökmə riayət etməlidirlər: 1. Namaz; 2. Oruc; 3. Həcc; 4. Zəkat; 5. Xüms (ərəbcə "beşdə bir" deməkdir) – illik gəlirin artıq qalanının beşdə bir hissəsini vermək; 6. Cihad

; 7. Yaxşılığı əmr etmək; 8. Pis əməllərdən çəkindirmək; 9. Təvəlla (ərəb dilində "dostluq", "məhəbbət" mənasına gəlir) – Allahın sevdiyi insanları sevmək və daim onlarla dost olmaq; 10. Təbərra (ərəbcə "üz çevirmək", "rədd etmək" deməkdir) – Allahın sevmədiyi insanlardan uzaq olmaq.

Qeyd etiyimiz kimi, imamiliyin 5 inanc əsalarından birini imamət etiqadı təşkil edir. Bu etiqada görə, Allah tərəfindən Məhəmməd peyğəmbərin kürəkəni Əli ibn Əbu Talib, onun övladları Həsən və Hüseyn, eləcə də Hüseynin soyundan gələn 9 nəfər müsəlmanlara imam, yəni rəhbər təyin olunmuşlar. Beləliklə, imamilik məzhəbinin mənsubları on iki imamı istər dini, istər dünyəvi işlərdə öz rəhbərləri kimi qəbul edirlər. Odur ki, imamilik həm də "on iki imam şiəliyi" (ərəb dilində "əş-şiə əl-imamiyyə əl-isna əşəriyyə") adı ilə tanınır.

İmamilik məzhəbinin ardıcılları inanırlar ki, on iki imama ilahi biliklər verilmiş və onlar peyğəmbərlər kimi məsumluq sifətinə malik olmuşlar, yəni qətiyyən günah iş görməmişlər. Bu səbəbdən şiələr hesab edirlər ki, Məhəmməd peyğəmbərlə yanaşı, imamların da həyatı müsəlmanlar üçün örnəkdir.

On iki imam şiəliyində "Əhli-beyt"ə (ərəb dilində "ev əhli" mənasına gəlir) sevgi və ehtiram xüsusi yer tutur. "Əhli-beyt" dedikdə, Məhəmməd peyğəmbərin ailəsi nəzərdə tutulur. Şiələrə görə, xüsusi seçilmiş şəxslər, yəni Əli ibn Əbu Talib, onun oğulları Həsən və Hüseyn, Məhəmməd peyğəmbərin qızı Fatimə, habelə Hüseynin nəslindən gələn digər doqquz imam "Əhli-beyt"ə mənsubdur. Onlardan fərqli olaraq, sünnilər Məhəmməd peyğəmbərin bütün ailə üzvlərini "Əhli-beyt"ə aid edirlər.

İmamilik məzhəbinin etiqadına görə, İmam Mehdi adı ilə tanınan on ikinci imam Məhəmməd ibn Həsən X əsrin birinci yarısında qeybə çəkilmişdir. Bu məzhəbin mənsubları inanırlar ki, İmam Mehdi bəşəriyyəti qurtarmaq üçün qiyamətə yaxın zühur edəcək və yer üzündə ədaləti bərpa edəcəkdir. Mehdi ilə bağlı inanc sünnilikdə də mövcuddur. Lakin sünnilər hesab edirlər ki, Mehdinin kim olduğu bilinmir, çünki o, qiyamətdən əvvəl dünyaya gələcəkdir.

Onu da qeyd etmək lazımdır ki, İslam dünyasında imamilik həm də ayrıca hüquqi məktəb kimi də qəbul olunur. Bu fiqhi məzhəbin hüquqi metodlarının sistemləşdirilməsində altıncı imam Cəfər ibn Məhəmməd əs-Sadiq (700/702 — 765) böyük rol oynadığı üçün imamilik məzhəbinin fiqhi məktəbi "cəfərilik" adı ilə tanınmışdır.

*2. İsmaililik.*Şiəliyin ikinci böyük qolu ismaililikdir. Bu məzhəbin

ardıcılları imamiliyin ilk altı imamını qəbul edirlər. Lakin imamilikdən fərqli olaraq, ismaililikdə Cəfər əs-Sadiqin kiçik oğlu Musa əl-Kazım (745-799) deyil, onun böyük oğlu İsmayıl (719/721-755) yeddinci imam sayılır. Bu səbəbdən məzhəbin özü ismaililik adlandırılmışdır. Həmin məzhəbin mənsubları inanırlar ki, İsmayıl vəfat etməmiş və qeybə çəkilmişdir. Onlar İsmayılı mehdi sayaraq hesab edirlər ki, o, zamanı çatdıqda bir xilaskar kimi geri dönəcəkdir. Beləliklə, ismaililik məzhəbində qəbul olunan imamların sayı yeddidir.

Hazırda dünyada ismaililik mənsublarının sayı 15 milyondan yuxarıdır. Onların əsas hissəsi İran, Orta Asiya, Suriya, Hindistan və digər ölkələrdə yaşayır.

*3. Zeydilik.* Zeydilik məzhəbinin adı dördüncü imam Əli ibn Hüseynin (659–713) oğlu Zeyd ibn Əlinin (695-740) adından götürülmüşdür. Çünki zeydilər dördüncü imam Əli ibn Hüseyndən sonra onun oğlu Zeyd ibn Əlini öz imamları kimi qəbul edirlər. Halbuki imamilik və ismaililikdə Əli ibn Hüseynin digər oğlu Məhəmməd ibn Əli beşinci imam hesab olunur.

Hazırda zeydilər ən çox Yəməndə yaşayırlar. Yəmən əhalisinin təqribən 40-42 faizi bu məzhəbə mənsubdur. Səudiyyə Ərəbistanında da az sayda zeydilər yaşayır. Dünyadakı zeydilərin ümumi sayı on milyondan yuxarıdır.

Şiəlik daxilində meydana gəlmiş əsas məzhəblərdən bəhs etdikdən sonra şiələr tərəfindən mötəbər sayılan hədis qaynaqlarına nəzər yetirək. Belə ki, şiəlikdə dörd hədis toplusu ən etibarlı hədis qaynağı hesab olunur. Sözügedən dörd hədis toplusu aşağıdakıdır:

1. “əl-Kafi” (“Kifayət edən”) - müəllifi Məhəmməd ibn Yaqub əl-Küleynidir (864-941);
2. “Kitabü mən la yəhzuruhul-fəqih” (“Yanında fəqih olmayanın kitabı”) - müəllifi “Şeyx Səduq” və “ibn Babaveyh əl-Qummi” kimi məşhur olan Məhəmməd ibn Əli əl-Qummidir (918 – 991);
3. “əl-İstibsar” (“Dərin öyrənmə”) - müəllifi Məhəmməd ibn Həsən ət-Tusidir (995-1067);
4. “Təhzibul-əhkam” (“Hökmlərin düzgün müəyyənləşdirilməsi”) - müəllifi Məhəmməd ibn Həsən ət-Tusidir (995-1067).

## *III. İbazilik*

İbazilik məzhəbi xaricilik zəminində meydana gəlmişdir. Xaricilik İslam tarixində ortaya çıxmış ilk dini-siyasi hərəkat sayılır. Hərəkat VII əsrdə Ərəb xilafətində hakimiyyət uğrunda gedən siyasi mübarizə səbəbilə yaranmışdır. Belə ki, 657-ci ildə dördüncü xəlifə Əli ibn Əbu Talib ilə xilafətin Suriya valisi Müaviyə ibn Əbu Süfyan arasında baş verən Siffin döyüşündən sonra sülh müqaviləsi bağlanmışdır. Bu isə Əli ibn Əbu Talibin ordusunda parçalanmaya səbəb olmuşdur. Çünki onun ordusunda sülh müqaviləsinin şərtlərindən narazı qalan bir dəstə ortaya çıxmışdır. Sayı 12 minə çatan bu döyüşçü dəstə xəlifənin ordusundan ayrılaraq "hökm yalnız Allahındır", "Allahdan başqa heç kəsin hökm vermə haqqı yoxdur" kimi şüarlar səsləndirmiş, həm Əli ibn Əbu Talibə, həm də Suriya valisi Müaviyəyə qarşı gələrək, özlərindən olmayan hər kəsə kafir damğası vurmuşlar. Bu dəstənin üzvləri "xəvaric" (ərəb dilində "kənara çıxanlar", "ayrılanlar" "tərk edənlər" mənasına gəlir) və ya "xaricilər" adlandırılmışdır. Beləliklə, ifrat dini dünyagörüşü ilə seçilən xaricilik meydana gəlmişdir.

Xaricilər böyük günah (Allaha şərik qoşmaq, adam öldürmək, israf etmək, oğurluq etmək, içki içmək, qumar oynamaq və s.) törədən bütün müsəlmanları kafir elan edir, onların qətlini məqbul sayır və cəhənnəmdə əbədi cəza çəkəcəklərini deyir, habelə istənilən müsəlmanın xəlifə seçilə biləcəyini bildirirdilər. Fanatizm, dözümsüzlük və zorakılığa əl atma, habelə İslamın hökmlərini hərfi mənada başa düşmə bu məzhəbin xüsusiyyətlərindəndir.

İbazilik istisna olmaqla xariciliyin digər istiqamətləri orta əsrlərdə tarix səhnəsindən silinmişdir. İbazilik xariciliyin ən mödədil məzhəbi sayılır. Məzhəbin adı Əməvilərin beşinci xəlifəsi Abdullah ibin Mərvanın hakimiyyəti dövründə xaricilik hərəkatı daxilində yeni firqənin əsasını qoymuş hüquqçu Abdullah ibn İbazın (708-ci ildə vəfat etmişdir – Red.) adı ilə bağlıdır. Lakin, tədqiqatçıların fikrincə ibazilik məzhəbinin əsas qurucusu müsəlman ilahiyyatçısı Cabir ibn Zeyd (641/642-712) hesab olunur.

Xariciliyin digər qollarından fərqli olaraq, ibaziliyin tərəfdarları hesab edirlər ki, onların etiqadları ilə razılaşmayan müsəlmanların qanını tökmək haramdır. Eyni zamanda, ibazilik ayrıca bir hüquqi məzhəb kimi xarakterizə olunur. Hazırda ibazilərin əsas hissəsi Oman dövlətində (Ərəbistan yarımadasının

cənub-şərqində yerləşir. – Red.) yaşayır. Belə ki, buranın əhalisinin 85.9 faizini müsəlmanlar təşkil edir ki, onlardan da 45 faizi ibazilik məzhəbinin mənsublarıdır. Eyni zamanda, ibaziliyin mənsublarına az sayda Əlcəzair, Tunis, Liviya və Şərqi Afrika ölkələrində rast gəlinir.

## 3.3.6. Azərbaycanda İslam

Azərbaycanda islam dininin yayılmağa başlaması ərəb fəthləri ilə bağlıdır. Ərəb istilalarından öncə Cənubi Azərbaycan Sasanilər imperiyasının tərkibində olmuş, Şimali Azərbaycanda mövcud olan Qafqaz Albaniyası dövləti isə bu imperiyadan asılı vəziyyətə düşmüşdü. Həmçinin islamaqədərki dövrdə Cənubi Azərbaycanda atəşpərəstlik və zərdüştilik, Qafqaz Albaniyasında xristianlıq hakim mövqedə olmuşdur. Qafqaz Albaniyasında xristianlığın dövlət dini statusunda olmasına baxmayaraq, buranın əhalisinin əksər hissəsi xristianlıqdan qabaqkı qədim inanclara etiqad bəsləyirdi. Xüsusən orta və yoxsul təbəqə arasında müxtəlif bütpərəst etiqadlar və oda sitayiş geniş yayılmışdı.

Gördüyümüz kimi, ərəb işğalları ərəfəsində Azərbaycanda dini mənzərə olduqca mürəkkəb idi. Ərəb istilaları isə bu mənzərəni köklü şəkildə dəyişərək azərbaycanlıları birləşdirəcək, onların milli şüurunun, mənəvi dəyərlərinin formalaşmasında əhəmiyyətli rol oynayacaq yeni dinin - islamın yayılmasına səbəb oldu. Bu tarixi prosesin başlanğıcına nəzər yetirək.

632-ci ildə Məhəmməd peyğəmbərin vəfatından sonra meydana gələn Ərəb xilafəti qısa müddətdə uğur qazanaraq o dövrün ən güclü dövlətləri olan Bizans və Sasanilər imperiyaları üzərində ard-arda böyük qələbələr qazandı. Bu qələbələrdən ruhlanan ərəb istilaçıları yürüşlərini davam etdirərək get-gedə daha böyük ərazilər fəth etdilər. Beləliklə, 639-cu ildə xilafət qoşunları sərkərdə Hüzeyfənin başçılığı ilə ilk dəfə Cənubi Azərbaycana daxil oldu və burada güclü müqavimətə rast gəldi. Həmin il mərzban (Sasanilər dövlətində sərhədyanı hərbi-inzibati dairələrin canişini. – Red.) Fərruxzadın oğlu İsfəndiyar ərəblərə məğlub olaraq əsir düşdü. Onun qardaşı Bəhram qoşun toplayaraq yenidən döyüşə başladı. Lakin ərəblər yenə də qələbə əldə etdilər. Bundan sonra mərzban İsfəndiyar 644-cü ildə əhali adından ərəblərlə müqavilə bağlamağa məcbur oldu. Müqaviləyə görə, azərbaycanlılar ərəblərə tabe olmalı, vergi verməli, ərəb əsgərlərini bir gecə-gündüz evlərində saxlamalı idilər. Bunun müqabilində

ərəblər yerli əhalinin dini inanclarına toxunmamağı, adət və məişətlərinə qarışmamağı öhdələrinə götürürdülər. Həmçinin ölkəni tərk etmək istəyənlərə özlərinə sığınacaq tapanadək aman verilirdi, yerli əhalidən ərəb ordusunda könüllü xidmətə daxil olanlardan həmin il vergi alınmırdı.

Ərəblərin Şimali Azərbaycana hücumu isə 639-cu ilə təsadüf edir. Həmin il ərəb qoşunlarının başçısı Bukeyr ibn Abdullah Şimali Azərbaycana basqın edərək əhalinin güclü müqaviməti ilə üzləşdi. Döyüşlər bir neçə il çəkdi, nəticədə 642-ci ildə ərəblər çətinliklə Muğanı işğal edə bildilər. Buranın əhalisi ilə də ərəblər müqavilə bağladı. Bu sazişdə də mərzban İsfəndiyar ilə bağlanan müqavilənin şərtləri təkrar olunurdu, sadəcə alınan cizyənin miqdarı fərqli idi.

Bağlanan müqavilələrə rəğmən, ərəblər Azərbaycan əhalisini özlərinə asanlıqla tabe etdirə bilmədilər. Çünki ərəb qoşunları getdikdən sonra əhali üsyan qaldırıb ərəblərlə bağlanan müqavilənin şərtlərinə riayət etmək istəmirdi. Bu isə Ərəb xilafətini yenidən regiona qoşun göndərməyə vadar edirdi. Məsələn, 646-cı ildə ərəb ordusu Valid ibn Ukbənin başçılığı ilə Cənubi Azərbaycana yenidən yürüş etdi və buradakı əhalinin müqavimətini qırdı. Ərəblər yerli əhali ilə təkrar müqavilə bağladılar.

Yenə həmin il ərəb qoşunu sərkərdə Salman ibn Rəbiənin başçılığı ilə Şimali Azərbaycana hücum çəkdi. Bu dəfə xilafət ordusu Naxçıvandan çıxaraq Şəki və Gorus istiqamətində hərəkət etdi, Beyləqanı, Bərdəni, Şəmkiri, Qəbələni, Şəkini, Şirvanı tutaraq əhalini vergi verməyə məcbur etdi.

Ərəb qoşunlarının bu fasiləsiz basqınlarına baxmayaraq, yalnız 90 illik kəskin mübarizədən sonra xilafət Azərbaycanın istilasını başa çatdıra bildi. Belə ki, ərəblərin aramsız hücumları səbəbilə 651-ci ildə Sasanilər imperiyası süquta uğradı, bunun nəticəsində Cənubi Azərbaycan xilafətin tərkibinə qatıldı. Şimali Azərbaycan torpaqlarını əhatə edən Qafqaz Albaniyası dövləti isə alban hökmdarı Cavanşirin müdrik siyasəti sayəsində nisbi müstəqilliyini qoruya bildi. Əvvəllər Sasanilər ordusunun tərkibində ərəblərə qarşı vuruşan Cavanşir döyüşlərdə özünü cəsur və istedadlı sərkərdə kimi göstərmişdi. Sasanilər imperiyası dağıldıqdan sonra bu görkəmli dövlət xadimi Qafqaz Albaniyasının əvvəlki qüdrətini bərpa etməyə çalışdı. Lakin onun hakimiyyət illəri olduqca mürəkkəb tarixi dövrə təsadüf etmişdi. Qafqaz Albaniyasına bir tərəfdən xilafət qoşunları, digər tərəfdən isə xəzərlər

hücum çəkirdi. Mövcud vəziyyəti nəzərə alan Cavanşır uzaqgörən siyasət yürüdərək Ərəb xilafətinin vassalığını qəbul etdi. Bununla da ölkəsinin daxili müstəqilliyini qorudu.

681-ci ildə (bəzi mənbələrdə 680-ci il göstərilir) sui-qəsd nəticəsində Cavanşir qətlə yetirildi. Onun ölümü Qafqaz Albaniyasının sonrakı taleyinə ağır təsir göstərdi. Bundan sonra Ərəb xilafəti bu qədim Azərbaycan dövlətinin daxili müstəqilliyini tədricən əlindən almağa başladı. Nəhayət 705-ci ildə Qafqaz Albaniyası tamamilə müstəqilliyini itirərək xilafətin tərkibinə qatıldı.

Azərbaycan torpaqlarında Ərəb xilafətinin hökmranlığının bərqərar olması barədə bəhs etdikdən sonra ərəblərin özləri ilə gətirdikləri yeni dinin - islamın ölkəmizdə yayılma prosesi və səbəblərinə nəzər yetirmək lazımdır.

İslamın Azərbaycanda yayılma xəritəsinə baxdıqda görürük ki, bu din atəşpərəstliyin və çoxtanrılı inancların hakim olduğu Cənubi Azərbaycanda, eləcə də Şimali Azərbaycanın düzənlik yerlərində sürətlə yayılırdı. Şimali Azərbaycanın dağlıq və dağətəyi bölgələrində, yəni xristianlığın yayıldığı regionlarda İslam dininin mövqeyi zəif idi. Bu onunla izah olunur ki, ərəblər işğal etdikləri ölkələrdə, o sıradan Azərbaycanda "kitab əhli"nə ("əhli-kitab"), yəni "Tövrat", "Zəbur", "İncil" kimi müqəddəs kitabları qəbul edən yəhudi və xristianların etiqadlarına hörmətlə yanaşırdılar. Odur ki, xristianlıq ölkəmizin dağlıq və dağətəyi hissələrində öz mövcudluğunu qoruya bildi.

"Əhli-kitab"dan fərqli olaraq, digər etiqadların mənsubları, o cümlədən atəşpərəst və bütpərəstlər ərəblər tərəfindən təzyiq və təqiblərə məruz qalırdı. Bu səbəbdən Cənubi Azərbaycan, eləcə də Şimali Azərbaycanın düzənlik ərazilərində islam hakim dinə çevrildi. Lakin məşhur rus şərqşünası Vasili Bartoldun fikrincə, ərəblər atəşpərəstlərə belə toxunmamış və onlar arasında islamı sülh yolu ilə yaymışlar.

İslamın yayılma səbəbini təkcə müsəlmanların başqa dinlərin mənsublarına göstərdikləri münasibət kontekstində izah etmək də doğru deyildir. İslamın regionda uğur qazanması müxtəlif səbəblərlə bağlıdır. Belə ki, ərəblərin hücumlarına qədər Azərbaycan əhalisi Sasani-Bizans müharibələrindən, xəzərlərin basqınlarından çox əziyyət çəkirdi. Habelə yerli əhali Sasanilər dövləti tərəfindən yığılan ağır vergilərdən təngə gəlmişdi. Ağır vergilər altında əzilən və aramsız müharibələrdən bezən əhali yeni din gətirərək asayiş və səadət vəd edən ərəblərə inam və ümid bəsləyirdi. Çünki ərəblər ilk vaxtlar fəth

olunmuş ərazilərdə vergi aldıqdan sonra əhalinin dini etiqadına, adət-ənənələrinə toxunmur və mümkün qədər insanların əmin-amanlığını qoruyurdular. Həmçinin ilk dörd xəlifə dövründə verginin miqdarı Sasanilərin aldıqları vergidən xeyli aşağı idi. Sasanilərdən fərqli olaraq, ərəblər vergini tək-tək şəxslərdən deyil, bütün ölkədən alırdılar. Qeyd olunanlar nəticədə yerli əhalidə islama rəğbət hissi oyadırdı.

Əhalinin müxtəlif təbəqələrinin yeni dinə münasibəti də fərqli idi. Məsələn, islamın mənəvi-əxlaqi, tərbiyəvi üstünlüklərini və gələcəyini düzgün başa düşən, eyni zamanda öz əmlakını və imtiyazını əlində saxlamağa çalışan hakim təbəqə bu dini tərəddüdsüz qəbul edirdi. Ərəb xilafətinin ticarətə və sənətə rəğbətini nəzərə alan tacirlər və sənətkarlar da yeni dinə ləngimədən keçirdilər. Şəhər yoxsulları, kəndilər və əhalinin kasıb təbəqəsinin nümayəndələri isə islamı qəbul etdikdə yardımlar alır və güzəştlər əldə edirdilər. Bu isə yeni dinin sadə camaat arasında yayılmasına gətirib çıxarırdı.

Azərbaycanın görkəmli şərqşünas alimi Ziya Bünyadovun fikrincə, artıq VIII əsrin əvvəllərində islam ölkəmizdə hakim dinə çevrilmişdir. Bəzi tədqiqatçıların fikrincə isə, islamın ölkəmizdə yayılma prosesi X əsrin II yarısınadək davam etmişdir.



*Ən qədim müsəlman ibadətgahlarından biri - Şamaxı Cümə məscidi.*
*Tikilmə tarixi: 743-cü il.*

İslamın yayılmasında müsəlman ibadət yerləri də böyük rol oynamışdır. Belə ki, ərəblər Azərbaycanın Ərdəbil, Marağa, Beyləqan, Bərzənd, Bərdə, Dərbənd, Naxçıvan və digər strateji cəhətdən əhəmiyyəti olan şəhərlərində hərbi dəstələr saxlayırdılar. Bu hərbi dəstələrin yerləşdiyi ərazilərdə isə mütləq məscid inşa edilirdi. Tarixi mənbələrə görə, Azərbaycanda ilk məscid Ərdəbildə ucaldılmışdır. Artıq X-XI əsrlərdə ölkəmizin bütün yaşayış məntəqələrində müsəlman ibadətgahları mövcud idi. Məsələn, ərəb səyyahı və coğrafiyaçısı Şəmsəddin Əbu Abdullah əl-Məqdisi (946/947-təxm.1000) "İqlimlərin öyrənilməsi üçün mükəmməl təsnifat" adlı kitabında Təbriz, Ərdəbil, Mərənd, Urmiya, Şamaxı, Qəbələ, Şəki və Azərbaycanın digər şəhərlərində mövcud olan böyük məscidlər haqqında ətraflı məlumat verir.

Məscidlərin yanında fəaliyyət göstərən mədrəsələr (müsəlman dini təhsil müəssisəsi. Burada dini elmlərlə yanaşı, müxtəlif dünyəvi fənlər də tədris olunur – Red.) fəth olunmuş ərazilərdə islamın möhkəmlənməsinə töhfə verirdi. Mənbələrdə qüdrətli Azərbaycan Atabəylər dövlətində (1136-1225) mədrəsələrin inşasına xüsusi diqqətin yetirildiyi qeyd olunur. Atabəylər dövləti dövründə Xoy şəhərində "əl-Fərəc əl-Xuveyyə", Marağada "Atabəkiyyə" və "əl-Qazı" adlı mədrəsələr məşhur idi. Naxçıvanda Möminə Xatun türbəsi kompleksinə daxil olan mədrəsə də dövrün məşhur təhsil ocaqları sırasında yer alırdı.

Beləliklə, müxtəlif amillər səbəbilə, o cümlədən özündə mütərəqqi ideyalar ehtiva etdiyi üçün islam dini Azərbaycanda yayıldı, tarix səhnəsindən əvvəlki inancları sıxışdırıb çıxararaq xalqımızın qəlbində xüsusi yer tutdu. Bununla da Azərbaycan xalqı islam sivilizasiyasına daxil oldu. Bu isə xalqımızın taleyində müsbət rol oynadı. Çünki İspaniyadan tutmuş Hindistanaqək uzanan Ərəb xilafətinin tərkibində müxtəlif xalqların birləşməsi zəngin ümumislam mədəniyyətinin meydana gəlməsinə gətirib çıxardı. Hətta VIII-XIV əsrlər "İslamın qızıl çağı" və ya "müsəlman intibahı" kimi tarixə düşdü. O vaxtlar dünyada ən böyük tədris ocaqları, tibb müəssisələri, elm mərkəzləri məhz islam aləmində fəaliyyət göstərir, müsəlman alimləri böyük kəşflərə imza atırdı.

Həmin dövrlərdə islam dünyasında yaşanan tərəqqi Azərbaycanın qədim mədəniyyətinin inkişafına və daha da zənginləşməsinə səbəb olmuşdur. Azərbaycan xalqının özü də bu mədəniyyətin inkişafına böyük töhfələr vermiş, nəinki müsəlman aləminə, ümumən, bəşəriyyətə görkəmli alimlər, mədəniyyət və incəsənət xadimləri, mütəfəkkirlər bəxş etmişdir.

Azərbaycan, sözün əsl mənasında, XI-XII əsrlərdə özünün intibah dövrünü yaşayırdı. O vaxtlar yaşayıb-yaratmış görkəmli azərbaycanlılar arasında bunların adlarını çəkmək mümkündür: filosoflar Əbülhəsən Bəhmənyar (993-1066) və Xətib Təbrizi (1030-1108), dövrün məşhur astronomu Fazil Fəridəddin Şirvani (XII əsr), şairlər Qətran Təbrizi (1010-1080), Fələki Şirvani (1108-1146), Əfzələddin Xaqani (1120-1199), nəhayət dahi söz ustası Nizami Gəncəvi (1141-1209).



*"Sultan Səncər və qarı". Azərbaycanlı rəssam Sultan Məhəmməd tərəfindən Nizami Gəncəvinin "Xəmsə" əsərinə çəkilmiş miniatür. XVI əsr.*

Azərbaycan xalqı sonrakı dövrlərdə də islam dünyasına görkəmli şəxsiyyətlər bəxş etmişdir. XIII əsrdə ensiklopedik biliyə malik olan, 1259-cu ildə Azərbaycanın Marağa şəhərində dövrün ən böyük rəsədxanasını yaradan görkəmli alim Nəsirəddin Tusi (1201-1274) bunun bariz nümunəsidir.

Orta əsrlərdə azərbaycanlı alimlər dünyəvi elmlərlə yanaşı, islami elmlər sahəsində də şöhrət tapmışdılar. Abdullah ibn əl-Hüseyn əl-Bərdəi Əbu Səid əl-Hənəfi (vəfatı 929), Əbu Bəkr Əhməd ibn Harun ibn Ruh əl-Bərdəci (v.914), Məkki ibn Əhməd Sədəveyh əl-Bərdəi (v.914), Əbülula ibn Abdullah Əli əl-Xəlili əl-Qəzvini (v.1054), Büdeyl əl-Bərzəndi (v.1082), Əbülfəzl əl-Urməvi (v.1152), İsmayıl Gəncəvi (v.1192), Əbülvəfa Xəlil ibn Həsən ibn Məhəmməd əl-Mərəndi (v.1012), Əbülqasım əz-Zəncani (v.1066), Əbu Bəkr Məhəmməd əl-Hüseyni (v.476/1083), Məhəmməd ibn Abdullah əl-Bərdəi (v.VI/XII) kimi azərbaycanlı din alimləri məşhur idilər.

Azərbaycan həmçinin bir sıra sufi təriqətinin vətəni sayılır. Zahidliyə, mənəvi saflığa səsləyən sufilik (və ya təsəvvüf) dini-mistik və fəlsəfi-əxlaqi bir cərəyan kimi Azərbaycanın ictimai-fəlsəfi fikir tarixində böyük rol oynamışdır.

Sufiliyin Azərbaycandakı tarixi X əsrdən başlayır. Hələ təsəvvüfün inkişafının ilk mərhələlərində İbn Bakuyyə Baba Kuhi (v.1050-51) və onun

qardaşı Hüseyn Şirvani (v.1074) kimi Azərbaycan sufiləri böyük nüfuz sahibi idilər. Artıq XII əsrdə Azərbaycanda yüzlərlə sufi ocağı fəaliyyət göstərirdi. XII əsrin müəllifi Məhəmməd İbn Münəvvərin verdiyi məlumata görə, təkcə Şirvanda sufi şeyxi Əbu Səid Əbülxeyrin tərəfdarlarının 400-dən artıq xanəgahı vardı. Belə xanəgahlardan biri günümüzədək gəlib çıxmış Pir Hüseyn xanəgahıdır. Hacıqabul rayonunun Qubalıbalaoğlan kəndi ərazisində yerləşən bu dini-tarixi abidə Şeyx Hüseyn Şirvaninin məqbərəsi ətrafında inşa edilmişdir. XI – XII əsrlərdə tikilmiş Pir Hüseyn xanəgahı XIII əsrdə böyük bir kompleksə çevrilmişdir.

Artıq XII əsrdən etibarən Azərbaycanda bir sıra sufi təriqəti yaranaraq islam dünyasında geniş yayılmışdır. Bu təriqətlərdən biri sührəvərdilik olmuşdur. Təriqətin qurucusu Şihabəddin Ömər Sührəvərdi (1144-1234) Cənubi Azərbaycanın Zəncan əyalətində yerləşən Sührəvərd şəhərində dünyaya gəlmişdir. Onun əsərlərində sufilərin əxlaq normaları və davranış qaydalarının təfsilatlı izahı verilir. O, sufilərin "səma" (musiqi və nəğmə sədaları altında firlanaraq Allahı zikr etmək. - Red.) adlanan zikr növünə qarşı çıxmış, yalnız "xəfi"" ("gizli", "səssiz") və "cəhri" ("yüksək səslə edilən") zikrləri məqbul saymışdır.

Azərbaycanda meydana gəlmiş digər sufi təriqəti hürufilikdir ("hüruf" sözü ərəb dilində "hərflər" mənasına gəlir. - Red.). XIV əsrin sonlarında təşəkkül tapmış bu təriqətin banisi Şeyx Fəzlullah Cəlaləddin Nəimidir. Hürufilər Allahın təbiətdə, əşyada, sözdə, xüsusən insanda təcəssüm etdiyinə inanırdılar. Onların təliminə görə, Fəzlullah Allahın qüvvəsinin təzahürü, timsalı və naibi olmuşdur. Bu təriqətin ardıcılları Allahın söz şəklində təcəssüm etdiyini, ərəb əlifbasının hərflərinin müqəddəs olduğunu, onlar vasitəsi ilə dünyanın sirlərini açmağın mümkün olduğunu qeyd edir, 4, 7, 28, 32 kimi rəqəmlərə xüsusi məna yükləyirdilər. Hürufiliyin görkəmli nümayəndələrindən biri dahi Azərbaycan şairi İmadəddin Nəsimi (1369-1417) olmuşdur.

Hürufiliklə eyni dövrdə Azərbaycanda digər bir sufi təriqəti – xəlvətilik meydana gəlmişdir. Bu təriqətin əsası Əbu Abdulla Siracəddin Ömər Xəlvəti (v.1349/1397) tərəfindən Şamaxıda qoyulmuşdur. Məşhur azərbaycanlı sufi Seyid Yəhya Bakuvinin fəaliyyəti sayəsində xəlvətilik Azərbaycanın hüdudlarını aşaraq digər müsəlman ölkələrində özünə xeyli tərəfdar tapmışdır. Xəlvəti dərvişləri başlarına qara və ya yaşıl rəngli dördkünc əmmamə qoyur, bununla da digər sufi təriqətlərinin ardıcıllarından fərqlənirdilər.



*Şirvanşahlar saray kompleksində yerləşən Seyid Yəhya Bakuvinin türbəsi.*

Azərbaycan xalqının dövlətçilik tarixində böyük rol oynamış, milli incəsənətimizin, ədəbiyyatımızın, memarlığımızın, ümumiyyətlə, mədəniyyətimizin inkişafına əhəmiyyətli təsir göstərmiş sufi təriqəti isə, şübhəsiz, Səfəviyyə təriqətidir. Bu sufi təriqəti XIII əsrin sonunda Cənubi Azərbaycanın Ərdəbil şəhərində Şeyx Səfiəddin əl-İshaq əl-Musəvi əl-Ərdəbili (1252-1334) tərəfindən yaradılmışdır. Səfəviyyə təriqətinin altıncı başçısı Şeyx Heydərin (1460-1488) dövründə təriqətdə yeniliklər baş vermişdir. Onun vaxtında təriqətin tərəfdarları şiə məzhəbinə mənsub olduqlarını göstərmək üçün başlarına 12 zolaqlı qırmızı çalma qoymağa başlamışlar. Bu zolaqlar on iki imama işarət edirdi. Səfəvilərin baş örtüyü qırmızı rəngdə olduğuna görə onlar "qızılbaşlar" kimi də tanınırdılar. Zaman keçdikcə Səfəviyyə təriqətinin nüfuzu artmış və onun ideologiyası əsasında qüdrətli Azərbaycan Səfəvi dövləti qurulmuşdur. Tariximizin ən şanlı və parlaq səhifələrindən biri olan, 1501-ci ildə görkəmli Azərbaycan hökmdarı və şairi Şah İsmayıl Xətai tərəfindən əsası qoyulan Səfəvilər dövləti 1736-cı ilədək mövcud olmuşdur.

Azərbaycanda İslamın tarixindən danışarkən mütləq çar Rusiyası dövrünü də qeyd etmək lazımdır. Çünki XIX əsrin əvvəllərində Qafqaz ərazisi, o cümlədən Şimali Azərbaycan Rusiya imperiyası tərəfindən istila edildikdən sonra çar hökuməti tərəfindən dini sahədə bir sıra tədbirlər həyata keçirildi. İlk növbədə, müsəlmanların dini həyatını nəzarətə götürmək məqsədilə ruhani idarələr təsis olundu. Belə ki, rus çarı II Aleksandr 5 aprel 1872-ci ildə "Şiə məzhəbinə mənsub Zaqafqaziya müsəlman ruhanilərinin idarə olunması haqqında" və "Sünni məzhəbinə mənsub Zaqafqaziya müsəlman ruhanilərinin idarə olunması haqqında" əsasnamələri təsdiq etdi. Bununla da 2 yanvar 1873-cü ildə Şiə məzhəbi üzrə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi və Sünni məzhəbi üzrə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi yaradıldı. Bakı, Yelizavetpol (Gəncə), Tiflis və İrəvan quberniyalarında yaşayan müsəlmanların tabe olduqları bu idarələrin mərkəzləri Tiflis şəhərində yerləşirdi. Şiə ruhani idarəsinə şeyxülislam, sünni ruhani idarəsinə isə müfti titulunu daşıyan din xadimləri başçılıq edirdi. Həm şeyxülislam, həm də müfti çar hökuməti tərəfindən təyin olunur və Qafqaz canişini qarşısında cavabdehlik daşıyırdılar.

28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra dini işlərin həllində şeyxülislamın və müftinin roluna diqqət artırıldı. Cümhuriyyət hökumətinin 1918-ci il 18 iyun tarixli qərarı ilə islam dininə aid məsələlərin Nazirlər Şurasında müzakirəsi zamanı şeyxülislama və müftiyə həlledici səs hüququ verilirdi. Fətəli xan Xoyskinin 2-ci hökumət kabinəsində Xalq Maarifı və Dini Etiqad Nazirliyi yaradıldı. Həmin nazirliyin şeyxülislama və müftiyə 1918-ci il 10 avqust tarixli müraciəti nəticəsində Şiə məzhəbi üzrə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi və Sünni məzhəbi üzrə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi Tiflisdən Gəncəyə köçürüldü. Hər iki idarə rəhbərinin 1918-ci il 1 sentyabr tarixli qərarı ilə şiə və sünni ruhani idarələri birləşdirildi. Yeni yaradılan ruhani idarə "Məşyəxət-i islamiyyə" ("islam şeyxləri, ağsaqqalları, rəhbərləri, başçıları" mənasındadır) adlandırıldı. Xalq Maarifı və Dini Etiqad Nazirliyinə təqdim edilmiş ştat cədvəlinə görə, "Məşyəxət-i islamiyyə" idarəsi 2 sədr, 4 idarə üzvü, katib, 2 kargüzar, ümumiyyətlə, 15 nəfərdən ibarət olmalı idi. Hökumət 1918-ci il 8 oktyabr tarixli qərarı ilə müfti və şeyxülislamın aylıq məvacibini 2 min 500 manat müəyyən etmiş, digər dövlət və hökumət orqanları ilə birlikdə, onların da dəftərxanalarını Bakıya köçürtmüşdü. Sonralar müfti və şeyxülislamın məvacibi 1 min 500 manat məbləğində müəyyənləşdirildi.

“Məşyəxət-i islamiyyə” idarəsi Bakıya köçürüldükdən sonra onun strukturunun dəqiqləşdirilməsi sahəsində işlər davam etdirildi. İdarəyə şeyxülislamın və müftinin həmsədrlik etməsi qərara alındı. Hökumətin 1920-ci ilin mart ayında verdiyi sərəncama əsasən, həmsədrlər nazir köməkçisi ilə eyni status alırdı.

28 aprel 1920-ci ildə Azərbaycanın bolşeviklər tərəfindən işğalı nəticəsində ölkədə sovet hakimiyyəti quruldu. Ateizm siyasəti yürüdən bolşevik-kommunist hakimiyyəti bütün dinlərlə, o cümlədən islamla mübarizə aparmış, nəticədə dini təsisatların fəaliyyəti dayandırılmış, “Məşyəxət-i islamiyyə” idarəsi ləğv olunmuş, müsəlman din xadimləri və alimləri təqiblərə məruz qalmış, ibadət yerləri və ziyarətgaların əksəriyyəti bağlanılmış və ya məhv edilmiş, məscidlər anbar və müəssisələrə çevrilmiş, müqəddəs kitablar yandırılmış, dini hər vasitə ilə unutdurmaq, insanları dini köklərindən ayrı salmaq yönündə ciddi-cəhdlə səylər göstərilmişdir.

Lakin İkinci Dünya müharibəsi illərində sovet hakimiyyətinin dinlə bağlı siyasətində müəyyən dəyişiklik baş verdi. Mövcud dini vəziyyətə nəzarəti effektiv həyata keçirmək, eləcə də ağır müharibə illərində dindar əhali arasında rəğbət qazanmaq üçün islahatlar aparıldı. Həmin dövrdə dini idarələrin formalaşdırılması labüd hesab edildi. Nəticədə Qafqazdakı müsəlmanların dini həyatını tənzimləyəcək ruhani idarə bərpa edildi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 14 aprel 1944-cü il tarixli 17 saylı qərarı ilə mərkəzi Bakı şəhərində yerləşən Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi təsis olundu. 25-28 may 1944-cü ildə Bakıda Zaqafqaziya müsəlmanlarının I qurultayı keçirildi. Zaqafqaziyada yaşayan müsəlmanların şiə və sünni məzhəblərinə mənsub dindarların say nisbəti nəzərə alınaraq, bu təşkilatın idarə heyətinin 7 üzvündən 4-ü şiə, 3-ü isə sünni məzhəbinin nümayəndələri seçildi. İdarənin sədri vəzifəsini çoxluq təşkil edən şiələrin nümayəndəsi tutdu və ona şeyxülislam rütbəsi verildi. Sünnilərin nümayəndəsi isə idarə sədrinin müavini vəzifəsini tutaraq müfti rütbəsi aldı.

1989-cu ildə Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin nəzdində Bakı İslam Mədrəsəsi təsis olundu. 1991-ci ildə həmin təhsil müəssisəsinin bazasında Bakı İslam İnstitutu (hazırda bu ali dini təhsil ocağı Bakı İslam Universiteti adı ilə fəaliyyət göstərir) yaradıldı.

1991-ci ildə Azərbaycan xalqı öz müstəqilliyini bərpa etdikdən sonra ənənəvi islami dəyərlərə qayıdış prosesi başladı. İlk növbədə, sovet hakimiyyəti

illərində bağlanılmış müsəlman ibadət yerləri və ziyarətgahların fəaliyyəti bərpa olundu, respublikanın bütün bölgələrində yeni məscidlər inşa edildi.

Əgər sovet hakimiyyəti dövründə ölkəmizdə cəmi 17 məscid fəaliyyət göstərirdisə, hazırda onların sayı 2 mindən yuxarıdır. Həmin məscidlərdən 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. İslam dəyərlərinə, onun tarixi-dini abidələrinə qayğı göstərilməsinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Göstərilən bu qayğı nəticəsində Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və Gəncə şəhərindəki "İmamzadə" kompleksi əsaslı şəkildə təmir və bərpa olunmuş, ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər məscidi inşa edilmişdir.

Bununla yanaşı, Sovet imperiyası dağıldıqdan sonra respublikamızda yüzlərlə yeni müsəlman dini icması fəaliyyətə başlamış, Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin bazası əsasında Qafqaz Müsəlmanları İdarəsi təsis olunmuşdur. Azərbaycan Respublikasında fəaliyyət göstərən müsəlman dini icmaları bu tarixi dini mərkəzdə birləşirlər və təşkilat məsələlərində ona tabedirlər.

Müstəqillik dövründə Azərbaycanda islam dininin elmi əsaslarla öyrənilməsi və müvafiq təhsil müəssisələrinin formalaşdırılması üçün də münbit şərait yarandı. 1992-ci ildə Bakı Dövlət Universitetinin (BDU) nəzdində İlahiyyat fakültəsi təsis olundu. 2018-ci ilin fevralın 9-da Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu təsis olundu. BDU-nin İlahiyyat fakultəsi həmin institutun strukturuna daxil edildi. Həmçinin respublikamızın müxtəlif bölgələrində islam dininin ehkamlarını öyrədən orta dini təhsil müəssiələri və dini icmaların tərkibində kurslar açıldı.

Sadalanan faktlar onu göstərir ki, müasir Azərbaycanda ənənəvi islami dəyərlərin qorunub-saxlanılması və yaşadılması üçün dövlət tərəfindən geniş imkanlar yaradılmışdır.

İslam dünyası ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi dövlətimizin xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Təsadüfi deyildir ki, İslam Konfransı Təşkilatı (2011-ci ildən İslam Əməkdaşlıq Təşkilatı (İƏT) adlanır.-Red.) Azərbaycanın ilk üzv olduğu beynəlxalq qurumdur.

Dövlətimiz öz müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikaları arasında ilk olaraq həmin təşkilata üzv olmaq barədə müraciət etmiş, nəticədə 8 dekabr 1991-ci ildə Seneqalın paytaxtı Dakar şəhərində keçirilən VI İslam Konfransında Azərbaycan İslam Konfransı Təşkilatına tamhüquqlu üzv kimi qəbul olunmuşdur. Həmçinin 1991-ci ildə Azərbaycan Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə İslam Təşkilatının (İSESKO) üzvü seçilmişdir. Burada qeyd etmək lazımdır ki, İslam Konfransı Təşkilatı Ermənistanın Azərbaycana qarşı təcavüzünü açıq şəkildə pisləyən ilk beynəlxalq təşkilat olmuşdur.

Azərbaycan dövləti qısa zamanda İƏT və İSESKO kimi nüfuzlu beynəlxalq müsəlman qurumların fəal üzvünə çevrilmişdir. Məsələn, ölkəmizin təşəbbüsü ilə İƏT Gənclər Forumu, İƏT Əmək Mərkəzi, İƏT-ə üzv Dövlətlərin Jurnalistləri Assosiasiyası kimi yeni qurumlar təsis edilmişdir. Ölkəmizin müsəlman aləmində fəal rol oynadığının digər bariz nümunəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətidir. Məhz bu səbəbdən o, 23 noyabr 2006-cı ildə İSESKO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür. Diqqətəlayiq məqam odur ki, Mehriban xanım Əliyeva İSESKO-nun Xoşməramlı səfiri adına layiq görülmüş ilk qadındır.

Qeyd etmək lazımdır ki, bu gün Azərbaycan islam dünyasında həmrəyliyin möhkəmləndirilməsi işinə böyük töhfələr verir. Dövlətimizin bu istiqamətdə fəaliyyəti isə müsəlman aləmində yüksək qiymətləndirilir. Bakı şəhərinin 2009-cu ildə İSESKO-nun dəstəyi ilə İslam mədəniyyətinin paytaxtı elan olunması, 2018-ci ildə isə bu şərəfli ada bizim digər qədim şəhərimiz Naxçıvanın layiq görülməsi bunun bariz nümunəsidir.

Azərbaycan dövlətinin müsəlman aləmində sülh və birliyin bərqərar olması sahəsində həyata keçirdiyi mühüm təşəbbüs və tədbirlərə nümunə kimi Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsini, yaxud 12-22 may 2017-ci ildə respublikamızın paytaxtında "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsini göstərmək olar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili" elan olunması da islam həmrəyliyinin möhkəmlənməsi işinə öz töhfəsini vermişdir. Belə ki "Multikulturalizm ili" çərçivəsində 15 yanvar 2016-cı ildə Bakıdakı Heydər məscidində məzhəbindən asılı olmayaraq, bütün müsəlmanlar bir araya gələrək

vahid məkanda cümə namazı qılmışlar. "Vəhdət namazı" adlandırılan bu dini mərasimin yerinə yetirilməsi olduqca böyük tarixi əhəmiyyət daşıyır. Müasir dünyada tolerantlıq və multikulturalizmin əsas mərkəzlərindən biri hesab olunan Azərbaycanda vəhdət namazının qılınması və daha sonra bu ibadətin ənənə halına çevrilərək ölkəmizin digər məscidlərində yerinə yetirilməsi, əslində, xalqımızın dünyaya verdiyi bir sülh və həmrəylik mesajıdır. Vəhdət namazının ilk dəfə Heydər məscidində qılınması isə rəmzi məna daşıyır. Çünki məhz ulu öndər Heydər Əliyev Azərbaycanda tolerantlığı və multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldırmışdır. Hazırda isə bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Gördüyümüz kimi, uzun əsrlərdən bəri islam sivilizasiyasının əsas mərkəzlərindən biri olan Azərbaycan bu gün də müsəlman aləmində mühüm mövqe tutur. Təsadüfi deyildir ki, respublikamızın suverenliyinin əsas atributlarından olan Dövlət bayrağımızın üç rəngindən biri, yəni yaşıl rəng, Azərbaycan xalqının islam sivilizasiyasına mənsubluğunu ifadə edir.

Azərbaycan xalqının mənəviyyatını, həyat tərzini islam dəyərləri olmadan təsəvvür etmək çətindir. İslam dininin ölkəmizin müqəddəratında, xalqımızın taleyində müstəsna, birləşdirici və mütərəqqi rol oynaması danılmaz tarixi həqiqətdir. Xalqımızın genetik yaddaşında dərin iz qoymuş islam azərbaycanlıların vahid xalq kimi təşəkkül tapmasına, onların milli kimliyinin, dövlətçilik ənənəsinin, mədəniyyətinin formalaşmasına güclü təsir göstərmişdir.

Lakin o da reallıqdır ki, Azərbaycan xalqı islam sivilizasiyasına mənsub olmaqla yanaşı, özündə ümumbəşəri, sivil, dünyəvi, tolerant və multikultural dəyərləri yaşadır. Bu baxımdan demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş, vətəndaş cəmiyyətinin bərqərar olunması istiqamətində inamla addımlayan Azərbaycan islam dünyasında özünəməxsusluğu ilə fərqlənir. Çünki Şərq və Qərb mədəniyyətləri arasında körpü rolunu oynayan ölkəmiz dünyada dinlər və sivilizasiyalararası dialoqun inkişafına, yer üzündə sülh və harmoniyanın bərqərar olunmasına mühüm töhfələr verir, unikal birgəyaşayış və nümunəvi multikulturalizm modeli təqdim edir. Beləliklə, Azərbaycan həm ümumbəşəri, həm də milli-mənəvi dəyərlərinə, o cümlədən tarixi müqəddəratında mütərəqqi rol oynamış islam dininin yüksək mənəvi-əxlaqi prinsiplərinə sadiq qaldığını göstərir.

## Fəslə aid suallar

1. Buddizm nə vaxt yaranıb və dünyanın hansı ölkələrində geniş yayılmışdır?
2. Buddizmin meydana gəlməsinə hansı faktorlar təsir göstərmişdir?
3. Buddizmin qurucusu haqqında nə deyə bilərsiniz?
4. Buddizm təliminin əsasları nədən ibarətdir?
5. Buddizmin əsas ehkamları barədə nə deyə bilərsiniz?
6. Buddizmin dini mətnləri haqqında nələri bilirsiniz?
7. Buddizm hansı qollara bölünmüşdür və əsas fərqləri nələrdir?
8. Buddizmin lamaizm forması haqqında nə deyə bilərsiziniz?
9. Hansı şəhərdə ilk dəfə İsa Məsihin ardıcıllarına xristian adı verilmişdir?
10. “Xristos” sözü yunan dilində hansı mənaya gəlir?
11. Roma imperatoru I Konstantinin hakimiyyəti dövründə 313-cü ildə Milan ediktinin qəbul edilməsi xristianlıq tarixində hansı dəyişikliklərə səbəb oldu?
12. Katolik və pravoslav məzhəblərin özünəməxsus cəhətlərini sadalayın.
13. Martin Lüter “95 tezis”ində nəyə qarşı çıxırdı?
14. Azərbaycanda xristianlığın yayılması hansı həvarilərin adları ilə bağlıdır?
15. Ermənilər Alban Həvari Kilsəsinin arxivlərini, albanların tarixini və mədəniyyətini əks etdirən digər zəngin maddi nümunələri məhv edərkən nəyə nail olmaq istəyirlər?
16. Azərbaycanda Rus Pravoslav Kilsəsini hansı qurum təmsil edir?
17. Müasir dövrdə ölkəmizdə hansı protestant cərəyanları mövcuddur?
18. Ruhani xristianlıq Azərbaycanda hansı rus təriqətləri ilə təmsil olunub?
19. “İslam” kəlməsinin mənasını izah edin.
20. Məhəmməd peyğəmbərin həyatı haqqında qısa məlumat verin.
21. Məkkəli müsəlmanlar Mədinəyə niyə köçmüşlər?
22. Mədinə şəhərinin əvvəlki adı necə olub?
23. Məhəmməd peyğəmbər “Vəda xütbəsi”ndə hansı məqamlara toxunub?
24. İlk dörd xəlifənin adlarını çəkin.
25. Məvalilər kimlər idi? Onlar niyə Əməvilər sülaləsinin siyasətindən narazı qalmışdılar?
26. Abbasilər dövründə İslam dünyasında hansı dəyişikliklər baş verdi?

27. IX əsrin 20-ci illərində Bağdad şəhərində "Hikmət evi"nin ("Beyt əl-Hikmə") yaradılması hansı sahələrin inkişafına təkan verdi?
28. Kordova xilafəti və Fatimilər dövlətinin İslam dünyasında elm və mədəniyyətin inkişafında oynadığı rolları barədə məlumat verin.
29. Bütün müsəlmanların qəbul etdiyi üç əsas etiqadi prinsip hansıdır?
30. İslamın əsas dini mənbələri hansılardır?
31. "Quran" neçə surədən ibarətdir?
32. "Quran"ın ən böyük və ən kiçik surələri hansılardır?
33. Təfsir elminin məqsədi nədir?
34. Hədis termininin tərifini verin.
35. İslamda ibadətlər neçə növə bölünür və hansılardır?
36. Etiqadi məzhəb nədir?
37. Fiqhi məzhəb nədir?
38. Hansı səbəbə görə islam dini Cənubi Azərbaycanda, eləcə də Şimali Azərbaycanın düzənlik bölgələrində daha sürətlə yayılırdı?
39. Azərbaycanda yerli əhalinin islamı qəbul etməsinə təsir edən amillər hansılardır?
40. XI-XII əsrlərdə yaşayıb-yaratmış görkəmli azərbaycanlı şəxsiyyətlərdən kimlərin adlarını çəkə bilərsiniz?
41. Hansı sufi təriqətləri Azərbaycanda meydana gəlmişdir? Onlar haqqında qısa məlumat verin.
42. Çar Rusiyası dövründə Qafqazda yaşayan müsəlmanların dini həyatını nəzarətə götürmək məqsədilə hansı dini təsisatlar yaradıldı?
43. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış "Məşyəxət-i islamiyyə" adlı dini qurum barədə məlumat verin.
44. Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi nə vaxt təsis olunub?
45. Azərbaycan xalqı müstəqilliyini bərpa etdikdən sonra ölkənin dini həyatında hansı müsbət dəyişikliklər baş verdi?
46. Ölkəmizin ilk üzv olduğu beynəlxalq təşkilat hansıdır?
47. İSESKO-nun Xoşməramlı səfiri adına layiq görülmüş ilk qadın kimdir?
48. Azərbaycanın təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatının nəzdində hansı yeni qurumlar yaradılmışdır?
49. Azərbaycanda "İslam Həmrəyliyi İli" nə vaxt elan olunmuşdur?
50. IV İslam Həmrəyliyi Oyunları harada və nə vaxt keçirilmişdir?

# Ədəbiyyat

1. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1994. – s. 237, 241-246, 248- 251, 356 357.
2. Əlizadə A. Azərbaycanda xristianlıq: keçmişdən bu günə. Bakı: Elm və təhsil, 2016. – s. 167-170, 178-184.
3. Həmidullah M. İslama giriş. Bakı, 2006, səh.83.
4. Katolik kilsəsinin katexizisi. Kompendium. Bakı. 2011. s.116-150.
5. Məşyəxət-i İslamiyyə idarəsi // Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. — Bakı: "Lider", 2005. — 2 cilddə. — II cild. — səh. 195.
6. Orucov H. Azərbaycanda din: ən qədim dövrdən bu günədək. Bakı, 2012.
7. Şeyx Müfid Məhəmməd ibn Məhəmməd ibn Nöman. Əvailul-məqalat. thq. Mehdi Mühəqqiq. Tehran, 1372/1413, səh. 4-6.
8. Şəhristani Əbdülkərim. əl-Miləl vən-nihəl. thq.Ə.F.Məhəmməd. Beyrut, 1413/1992, səh. 106-134, 199.
9. Tusi Nəsirəddin. Təcridul-etiqad. Qum, 1407/1987, səh. 211-216.
10. Zülfüqarov Ə. Sufilik və onun Azərbaycanda yayılması// "İrfan" ictimai fikir jurnalı. №14. Yanvar 2008. s. 18-21.
11. Берзин А. "Буддизм в современном мире" https://studybuddhism.com/ru/tibetskiy-buddizm/o-buddizme/mir-buddizma/buddizm-v-sovremennom-mire
12. Всеобщая история религий мира / шеф редактор В. Людвинская, Эксмо, Москва, 2008, с. 375-438
13. Зейналова С.М. Формирование европейских этнических общин на Кавказе (XIX-первая половина XX вв.). – Баку: Мутарджим, 2010. - səh. 83.
14. Игнатенко Е. Протестанты – кто они? История протестантских церквей г. Комсомольска-на-Амуре. – Комсомольск-на-Амуре, 2012 г. – s. 5-8.
15. История католического прихода в Баку. https://www.baku.ru/enc-show.php?cmm_id=276&id=148170&c=1899
16. История польской общины «Полония - Азербайджан».- https://www.polonia-azeri.org/history1.html

17. История христианства – кратко. http://rushist.com/index.php/byzantium/3508-istoriya-khristianstva-kratko
18. Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. – М.: Издательство Московского Университета, 2010. – s. 21-26, 71-79.
19. Мамедова Ф., Абасов А. Азербайджан//Католическая энциклопедия. – Москва: Издательство Францисканцев, 2002. – т.1.- 105 səh.
20. Махмудов Я. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. /половина XV – начало XVII века. – Баку: Издательство Бакинского университета, 1991. - стр. 202.
21. Мехтиев Р. Григорианская церковь как инструмент шпионажа против Сефевидского государства (XVII-первая четверть XVIII вв.). - s. 149-150.
22. Пособие для работников органов исполнительной власти и правоохранительных органов по вопросам взаимодействия государства и религиозных организаций (разработано сотрудниками ФАДН России, МВД России и Минюста России). http://missia.me/wp-content/uploads/Posobie_po_religii_FADN_Rossii.pdf
23. Сумбатзаде А.С. Азербайджанцы – этногенез и формирование народа. – Баку: Элм, 1990. – с. 105-106.
24. Терентьев А. Буддизм: как вписать его в определение религии? // Свеча-2013. Том 23. Религия, religio и религиозност в региональным и глобальном измерении. Сборник докладов Международной конференции "Религия и религиозность в глобальном измерении" / отв. Ред. Е.И. Аринини, Владимир: ВлГУ, 2013, с. 217-225.
25. Тимощук А.С.,Федотова И.Н., Шавкунов И.В., "Введение религиоведение: Учеб. пособие", ВЮИ ФСИН России, Владимир, 2014, с. 66-74
26. Торчинов Евгений Алексеевич, Лекция 1. Предпосылки возникновения буддизма/ /Введение в буддологию: курс лекций. Санкт-Петербург: Санкт-Петербургское философское общество, 2000. http://anthropology.ru/ru/text/torchinov-ea/lekciya-1-predposylki-vozniknoveniya-buddizma#n1
27. Элиаде М. "История веры и религиозных идей, Том II - От Гаутамы Будды до триумфа христианства", Payot Paris Критерион, Москва, 2002, с. 41-54, 99-105

28. Эррикер К. “Буддизм”, Фаир-пресс, Москва, 2000, с. 7-299Янг Дж. Христианство. – М.: ФАИР-ПРЕСС, 2001. – 92 səh.
29. Büyükkara Mehmet Ali. Vehhabilik// Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi. İstanbul, 2012, c. 42, səh. 611-614.
30. Daftary Farhad. The Ismailis: Their History and Doctrines. Cambridge, 2007. səh. 238-402.
31. Hussain Ikhlaas. From Sufism to Ahmadiyya: A Muslim Minority Movement in South Asia.İndiana University Press, 2015, səh. 3, 53.
32. Knysh A. “A Clear and Present Danger: "Wahhabism" as a Rhetorical Foil”. Die Welt des Islams. New Series. Vol. 44, Issue 1 (2004), səh. 3-26.
33. Köse S, Yaran Rahmi. İslam dininin əsasları (ibadətlər)-II. Bakı, 2010. 70- 71.
34. Mapping The Global Muslim Population: A Report on the Size and
35. Distribution of the World's Muslim Population. Washington DC: Pew Research Center. October 2009, səh.10. http://www.npdata.be/Data/Godsdienst/PEW/Pew-Muslimpopulation-2009.pdf (26.02.2019).
36. Mehmet A. “Dinler tarihine giriş”, Dizgi Evi, Konya, 2002, s. 82-90
37. Pew Research Center, “The Global Religious Landscape: Buddhists” http://www.pewforum.org/2012/12/18/global-religious-landscape-buddhist/
38. Gölcük Şerafeddin, Toprak Süleyman. Kelam: Tarih, Ekoller, Problemler. 5-ci nəşr. Konya, 2001, səh. 307-308.
39. Sinanoğlu Mustafa. “İbadet”. Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi. İstanbul, 1999, c. 19, səh. 233.

# IV FƏSİL

# MİLLİ DİNLƏR

## 4.1.Yaxın Şərq

### 4.1.1. Zərdüştilik

#### 4.1.1.1. Tarixi

Dünyanın ən qədim dinlərindən biri sayılan zərdüştiliyin mənsubları öz etiqadlarını *“mazdayasna”* (Avesta dilində “Mazda tanrısına pərəstiş” deməkdir. –Red.) və ya *“vahvi-daena”* (Avesta dilində “xeyirxah din” deməkdir –Red.), özlərini isə *“behdin”* (fars dilində “dindar” mənasına gəlir –Red.) adlandırırlar.

Qərb dünyasında bu din Zoroastrizm kimi məşhurdur. Zərdüştilik və Zoroastrizm adları sözügedən dinin banisi Zərdüştün adından götürülmüşdür. Qədim yunanlar ona “ulduza sitayiş edən” mənasına gələn “Zoroastr” adını vermişlər. Onun adı zərdüştiliyin müqəddəs kitabı “Avesta”da “Zaratuştra Spitama” şəklində keçir. “Zaratuştra” sözü qədim pəhləvi dilində “dəvələri tərbiyə edən”, “yaşlı dəvə sahibi”, “sarı dəvə sahibi” mənalarına gəlir. Spitama isə Zərdüştün mənsub olduğu kahin nəslinin adıdır.

Zərdüştün həyatı haqqında etibarlı məlumatları yalnız “Avesta”nın ən qədim hissəsi olan “Qat”lardan əldə etmək mümkündür. Lakin bu mötəbər məlumatların sayı azdır. “Avesta”nın digər mətnlərində Zərdüşt əfsanəvi şəxsiyyət kimi təsvir olunur. Onun həyatına dair əfsanə və rəvayətlər orta əsrlərdə pəhləvi dilində yazılmış zərdüşti ədəbiyyatda, habelə X-XI əsrlərdə Bəhram adlı şəxs tərəfindən fars dilində qələmə alınmış “Zərdüştnamə” kitabında əksini tapmışdır.

Əksər tədqiqatçılar hesab edirlər ki, Zərdüşt peyğəmbər e.ə. VII-VI əsrlərdə yaşamışdır. Elm dünyasında onun doğulduğu yer barədə müxtəlif mülahizələr irəli sürülmüşdür. İran, Əfqanıstan, Fələstin və Orta Asiyada dünyaya gəldiyini

iddia edənlər vardır. Lakin elm dünyasında Zərdüşt peyğəmbərin Cənubi Azərbaycanda anadan olduğunu bildirən tədqiqatçılar da az deyildir.

Rəvayətlərə görə, Zərdüşt kahin ailəsində dünyaya gəlmişdir. Onun atasının adı Poruşasp, anasının adı isə Duqdova olmuşdur. Atası kahin olduğu üçün o, yeddi yaşından etibarən bu vəzifəyə hazırlanmışdır. Bunun üçün Zərdüşt müxtəlif dini mətnləri əzbərləmiş və ayinlərin yerinə yetirilmə qaydalarını öyrənmiş, on beş yaşında kahinliyə təyin olunmuş, iyirmi yaşına çatdıqda isə valideynlərindən ayrılaraq, özünü dərk etmək və həqiqəti tapmaq məqsədilə səyahətə çıxmışdır. Səyahət zamanı Zərdüşt müdriklərlə görüşərək biliklərini artırmışdır.

Həmçinin rəvayətlərdə qeyd olunur ki, o, 30 yaşında Daitiya çayı kənarında xeyir tanrısı Ahura Mazda (avesta dilində "Müdrik Tanrı" deməkdir.- Red.) və ya Hörmüzdən (Ahura Mazda adının sadələşdirilmiş forması. – Red.) vəhy almışdır. Bu hadisə "Avesta"da belə təsvir edilmişdir: *"Bahar bayramında iştirak edən Zərdüşt dan sökülәndə yemək hazırlamaq üçün su dalınca çaya yollandı. O, axının ortasından su doldurub sahilə qayıdanda elə bu zaman yaz səhərinin təmiz havasında onun qarşısında bir xəyal görünüb onu işıq saçan Ahura Mazdanın və başqa beş zatın yanına gətirdi. Bu zaman bu yeddi tanrı (ilahə) ona vəhy verdi"*.

Vəhy aldıqdan sonra o, yeni dini təlimi təbliğ etməyə başlamış, insanları tanrı Ahura Mazdanın yolu ilə getməyə və xeyirxahlığa dəvət etmişdir. Lakin çoxallahlığa etiqad bəsləyən soydaşları onun təlimini rədd etmişlər. O, on il boyu diyar-diyar gəzib dolaşaraq öz təlimini təbliğ etmiş, lakin təhqir və təzyiqlərlə üzləşmişdir. Dövrün kahinləri onun əleyhinə çıxaraq yeni dinin yayılmasına mane olmağa çalışmışlar. Bu on il ərzində Zərdüşt peyğəmbər yaxın qohumu Madiomanhdan başqa, özünə tərəfdar qazana bilməmişdir.

"Avesta"dan belə məlum olur ki, uzun illər təzyiqlərə məruz qalan Zərdüşt Kavi Viştaspa adlı hökmdarın simasında özünə himayədar tapmışdır. Onun adı "Qat"larda dörd dəfə çəkilir. Bu hökmdarın yaşadığı yer və idarə etdiyi dövlət barədə dəqiq məlumat olmasa da, tədqiqatçılar onun bir tarixi şəxsiyyət olduğunu inkar etmirlər.

Rəvayətlərə görə, Kavi Viştaspa Zərdüştün dinini qəbul etdikdən sonra təkcə öz ölkəsində deyil, habelə digər məmləkətlərdə də yaymağa başlamışdır. Hesab olunur ki, Zərdüşt Kavi Viştaspanın sarayında yeni dinin əsaslarını

formalaşdırdı, dini ayinləri və dua mətnlərini sistemləşdirdi. O, ömrünün sonunadək Kavi Viştaspanın sarayında yaşadı, 70 və ya 77 yaşında ikən qətlə yetirildi. Belə ki, köhnə inancların tərəfdarı olan bir kahin dua edən Zərdüştün kürəyinə xəncər saplayaraq onu öldürdü.

Zərdüşt üç dəfə ailə həyatı qurmuşdur. Bu evliliklərdən Urvatat-nara, Hvara-çitra, İsad-vastra adlı üç oğlu və Freni, Triti, Poruçista adlı üç qızı dünyaya gəlmişdir. Onun ölümündən sonra Zərdüştilik təlimi Yaxın və Orta Şərqdə, o cümlədən Azərbaycan, İran, Orta Asiya, Əfqanıstanda geniş intişar tapdı, Əhəmənilər dövləti (e.ə. 550 – e.ə. 330) və Sasanilər imperiyasında (224 – 651) dövlət dini səviyyəsinə yüksəldi.

Onu da qeyd edək ki, zərdüştiliyə məxsus ilk yazılı abidələr Əhəmənilər dövləti dövründə yaranmışdır. Sasanilər imperiyası vaxtı isə mərkəzləşdirilmiş zərdüşti dini təşkilatın formalaşdırılması məqsədilə tədbirlər görülmüş, habelə Adurbad Mahraspandananın rəhbərliyi altında "Avesta" kitabı sistemləşdirilmişdir.

İslamın gəlişindən sonra Zərdüştilik əvvəlki hakim mövqeyini itirmiş və tənəzzülə uğramışdır. Hazırda azsaylı zərdüşti icmalar İran və Hindistanda mövcudluğunu qoruyur. Bununla yanaşı, Əfqanıstan, Tacikistan, Pakistan, habelə ABŞ və bir sıra Avropa dövlətlərində zərdüştiliyin mənsublarının yaşadığı məlumdur. Lakin müasir dövrdə dünyada yaşayan zərdüştilərin ümumi sayı dəqiq bilinmir. Ehtimal olunur ki, dünya üzrə bu dinin mənsublarının sayı 125-300 min nəfər təşkil edir.

## 4.1.1.2. Dini təlimin əsasları

Zərdüştilik yarandığı coğrafi arealda çoxallahlılıq hökm sürürdü. Lakin bu dinin banisi Ahura Mazdanı yeganə yaradıcı tanrı elan etməklə çoxallahlılığı rədd etdi, bununla da Yaxın və Orta Şərqdə yaşayan bir çox xalqların dini həyatına yenilik gətirdi. Lakin Alman dinşünası Annemari Şimmelin (1922-2003) qeyd etdiyi kimi, bu din formalaşarkən daha əvvəlki inanclardan təsirlənmiş və onları sistemləşdirmişdir.

Zərdüştün təlimi bu üç əsas prinsipə əsaslanır: xeyirxah fikir, xeyirxah söz və xeyirxah əməl. Tədqiqatçıların əksər hissəsi zərdüştiliyi dualist din sayırlar. Dini anlamda dualizm (latınca "ikili" mənasına gəlir.- Red.) – canlı və cansız

aləmin iki fövqəltəbii qüvvə, yaxud iki tanrı tərəfindən yaradıldığına, yaxud idarə olunduğuna inanmaq deməkdir. Lakin bir sıra alimlər zərdüştiliyi dualist deyil, monoteist və ya təkallahlı din hesab edirlər. Onların fikrincə, dualizm zərdüştiliyə sonradan keçmişdir. Bu nəzəriyyənin tərəfdarları öz mülahizələrini əsaslandırmaq məqsədilə "Avesta"nın "Qat"lar hissəsindən dəlillər gətirirlər.

Zərdüştilər inanırlar ki, sonsuz nur içində olan xeyir tanrısı Ahura Mazda hər şeyin fövqündə dayanır. Onun varlığının başlanğıcı və sonu yoxdur. O, hər şeyi biləndir, bütün canlı və cansız aləmin yaradıcısı, dünyanın idarəçisi və hakimi-mütləqidir. Həmçinin Ahura Mazda işığın, saflığın və bütün həqiqətlərin tanrısıdır, hər bir yaxşılıq ondan gəlir. Ondan törəyən altı ilahi qüvvə və ya xeyir tanrıları isə kainatda harmoniyanın qorunmasında Ahura Mazdaya köməklik edirlər. Ahura Mazdanın özü də daxil olmaqla bu ruhani varlıqlar "ameşa spenta" (Avesta dilində "ölməz müqəddəslər" deməkdir- Red.) adlanır. "Ameşa spenta"ya bunlar daxildir: 1. *Ahura Mazda* – Xaliq, hər şeyin yaradıcısı;

2. *Vohu-Mana* – mal-qaranın himayəçisi və xeyirxahlığın tanrısı;
3. *Aşa-Vahişta* – odun himayəçisi və həqiqətin tanrısı;
4. *Hşatra-Varya* – metalın himayəçisi və ilahi padşahlığın tanrısı;
5. *Spenta-Armati* – mömin həyatın tanrısı və torpağın himayəçisi;
6. *Xaurvatat* – bütövlüyün tanrısı və suyun himayəçisi;
7. *Amertat* – ölümsüzlüyün tanrısı və bitki aləminin himayəçisi.

Zərdüştiliyə görə, *Ahura Mazdanın* rəqibi *Anqra-Manyu* və ya *Ahra-Manyu* (Avesta dilində "şər ruh" deməkdir; qısaldılmış şəkildə - Əhrimən- Red.) adlı şər tanrıdır. Xeyir tanrısından fərqli olaraq, o, nəyisə xəlq etmək iqtidarında deyildir, yəni yaradıcı qüvvədən məhrumdur. Buna baxmayaraq, Ahura Mazdanın xəlq etdiyi pak və yaxşı olan hər şeyə Anqra-Manyu şər toxumları səpir, dağıdıcı və zərərverici qüvvə kimi çıxış edir. Ona görə də Zərdüştilikdə Anqra-Manyu bütün bəla və fəlakətlərin mənbəyi, şər qüvvələrin simvolu hesab olunur. Onun hər cür əxlaqsızlığı və eyibi təcəssüm etdirən "dev"lər (fars dilində "əcinnə" mənasına gəlir- Red.) adlı köməkçiləri vardır. Anqra-Manyudan törəyən bu şər ruhlar xeyir tanrısının yaratdığı pak və təmiz olan hər şeyə, o cümlədən bəşər övladına zərər yetirməyə çalışırlar.

Gördüyümüz kimi, Zərdüştilik etiqadının əsasında xeyir və şər arasında mübarizə ideyası dayanır. Zərdüştilər inanırlar ki, dünyanın sonunadək davam edəcək bu mübarizə xeyrin şər üzərində qələbəsi ilə bitəcəkdir. Onlar inanırlar

ki, bütün insanlar axirətdə hesaba çəkiləcək, yaxşı əməlləri pis əməllərindən çox olanlar cənnətə, günahkarlar isə cəhənnəmə düşəcəklər. Zərdüştilikdə cənnət "vahista ahu" (Avesta dilində "ən yaxşı mövcudiyyət" deməkdir), cəhənnəm isə "duzahu" (Avesta dilində "ən pis mövcudiyyət" mənasına gəlir) adlanır.

Qeyd edək ki, zərdüştiliyin axirət inancında *"Çinvat"* körpüsü anlayışı da mövcuddur. "Çinvat" Avesta dilində "külək körpüsü" anlamına gəlir. Zərdüştilərin inancına əsasən, "Çinvat" körpüsü dirilər və ölülər dünyasını ayıran əfsanəvi çay üzərində qurulub. Axirətdə xeyirxah insanların ruhları bu körpüdən asanlıqla keçərək cənnətə daxil olacaqlar. Günahkar bəndələrin ruhları isə "Çinvat"dan keçə bilməyəcək və cəhənnəmə düşəcəklər.

## 4.1.1.3. Dini mətnlər

Qeyd etdiyimiz kimi, zərdüştiliyin dini mətnlər toplusu "Avesta" adlanır. Bu sözün mənası ilə bağlı mütəxəssislər arasında ortaq fikir olmasa da, pəhləvi ədəbiyyatında bu kəlmə "əsas", "qanunlar külliyyatı", "təsbit edilmiş", "mədh", "din", "iman", "vəhy" kimi anlamlarda işlədilir.

"Avesta" bir neçə dəfə məhv edildiyindən, dövrümüzədək tam şəkildə çatmamış və bir çox hissəsi nəsildən-nəslə əzbərlənərək ötürülmüşdür. Rəvayətlərə görə, Zərdüştün Ahura Mazdadan aldığı vəhylər bu peyğəmbərə himayədarlıq edən hökmdar Kavi Viştaspa tərəfindən bir yerə yığılmış və 12 min öküz (inək) dərisi üzərində qızıl hərflərlə yazılmışdır. Lakin Əhəmənilər imperiyasını süquta uğradan Makedoniyalı İsgəndər (e.ə.356 – e.ə.323) "Avesta" mətnlərinin əksər hissəsini məhv etmiş, bir qisminin isə yunan dilinə tərcümə olunmasını əmr etmişdir.

Ehtimal olunur ki, Parfiya hökmdarı I Vologez bizim eranın I əsrində nəsildən-nəslə şifahi şəkildə ötürülən, yaxud ayrı-ayrı yazılı parçalar halında saxlanılan "Avesta" mətnlərini bir yerə toplamağa və sistemləşdirməyə səy göstərmişdir. Həmçinin "Avesta" mətnlərinin toplanması, sistemləşdirilməsi və redaktə edilməsi işi bizim eranın III-VI əsrlərində Sasanilər imperiyası dövründə də davam etdirilmişdir.

"Avesta"nın müasir dövrə gəlib çatmış hissələri aşağıdakılardır:

*1. "Yasna"* (Avesta dilində "ehtiram", "pərəstiş" mənasına gəlir- Red.) – "Avesta"nın əsas kitabıdır. 72 fəsildən ibarət olan bu kitabın 17 fəslini "Avesta"nın

ən qədim hissəsi olan "Qat"lar (Avesta dilində "dini nəğmə", "təntənəli nəğmə" anlamına gəlir) təşkil edir. "Yasna"ya Zərdüştün xeyir tanrısına müraciəti və duaları daxildir ki, bunlar zərdüştilərin dini ayin və mərasimləri zamanı oxunur;

2. *"Vendidad"* və ya "Videvdat" (Avesta dilində "devlər əleyhinə qanun" mənasına gəlir- Red.). "Avesta"nın bu hissəsi 22 fəsildən ibarətdir. "Vendidad"ın birinci və ikinci fəsillərində kainatın yaradılması və əfsanəvi Cəmşid (Cümşüd) hökmdar haqqında hekayələr yer alıb. 19-cu fəsildə şər tanrısı Anqra-Manyunun Zərdüştü yolundan azdırmağa çalışması, lakin peyğəmbərin ona aldanmayaraq Ahura Mazdaya tabe olmasından danışılır. "Vendidad"ın digər fəsillərində əsasən dini hökmlər əks olunub. Bu fəsillərdə paklanma və yas saxlama qaydaları, qadağan olunmuş əməllər, xeyriyyəçiliyin fəziləti, axirətdəki mükafat, Zərdüştilikdə müqəddəs sayılan təbiət ünsürləri barədə bəhs olunur, eləcə də bəzi heyvanlara (öküz, it, susamuru, xoruz) xüsusi qayğının göstərilməsi, əkinçiliyin faydaları və digər mövzulara toxunulur;

3. *"Vispered"* (Avesta dilində "bütün fəsillər" deməkdir- Red.). "Yasna" kitabına əlavədir. 24 fəsildən ibarət olan "Avesta"nın bu hissəsinə "ratu"lara edilən dua və müraciətlər daxildir. Burada "ratu" (Avesta dilində "nümunə", "örnək" mənasına gəlir) dedikdə, ilk növbədə, hər hansı qrup və ya növün başçısı, himayəçisi nəzərdə tutulur. Məsələn, Zərdüşt insanların, buğda dənli bitkilərin "ratu"su sayılır;

4. *"Yaşt"* (Avesta dilində "ehtiram göstərmək", "pərəstiş etmək" deməkdir – Red.) –Ahura Mazda və xeyir qüvvələrinə həsr olunmuş 22 himndən ibarətdir;

5. *"Xorda Avesta"* (fars dilində hərfi mənada "Kiçik Avesta" deməkdir – Red.) – gündəlik dualar məcmuəsidir. Bu duaların bir çoxu "Avesta"nın digər hissələrindən götürülmüşdür.

## 4.1.1.4. Dini ayin və mərasimlər

Zərdüştiliyin ayin və mərasimləri "atar" kultu (kult - fövqəltəbii qüvvələrə inamla bağlı keçirilən ayin, mərasim və rituallar. – Red.) ilə sıx bağlıdır. "Atar" Avesta dilində "od" deməkdir. "Avesta"ya görə, müqəddəs od Ahura Mazdanı təcəssüm etdirir, onun təzahürü və rəmzi sayılır. "Yasna"da müqəddəs odun ünvanına təriflər söylənərək onun faydalarından bəhs olunur. Zərdüştilikdə

oda pərəstiş geniş yayıldığı üçün bu din başqaları tərəfindən atəşpərəstlik də adlandırılır. Lakin zərdüştilər atəşpərəstlik məfhumunu özlərinə təhqir sayaraq bildirirlər ki, onlar oda sitayiş etmir, Ahura Mazdanın təcəssümü olduğu üçün bu təbiət ünsürünə sadəcə ehtiram göstərirlər.

Qeyd etmək lazımdır ki, Zərdüştilikdə təkcə od deyil, ümumiyyətlə, işıq mənbəyi Ahura Mazdanın fiziki dünyada təcəssümü hesab edilir. Bu anlamda Zərdüştilikdə günəş işığına od qədər ehtiram göstərilir. Ona görə də zərdüştilər dini ayinlərini icra edərkən üzlərini günəş işığına və ya oda tərəf çevirirlər.

Həmçinin Zərdüştilikdə od paklığın rəmzi sayılır. Oda ehtiram göstərən zərdüştilər onun ətrafında dini ayinlərini yerinə yetirməklə kifayətlənmirlər. Onlar müqəddəs alovun xüsusi məbədlərdə (od məbədləri) qorunaraq saxlanılmasına, onun pak qalmasına böyük diqqət yetirirlər. Bu məbədlər fars dilində hərfi mənada “odun evi” anlamına gələn “atəşgədə”lər adlanır. Zərdüştilər atəşgədələrə daxil olarkən müəyyən qaydalara riayət edirlər. Belə ki, bu məbədlərə gələnlər, ilk növbədə, su ilə paklanmalıdırlar. Odur ki, od məbədləri təmiz su qaynağının olduğu yerlərdə ucaldılır. Od məbədlərinə daxil olan dindarlar ağ paltar geyinməli, kişilər başlarına xüsusi ağ papaq qoymalı, qadınlar başlarını örtməlidir. Zərdüştilər hesab edirlər ki, insan nəfəsi müqəddəs alovun paklığına ziyan vura bilər. Nəticədə isə onların ibadəti pozula bilər. Müqəddəs odu murdarlamamaq üçün onlar ağız və burunlarını bağlayırlar. Bu səbəbdən başqa dinlərin mənsubları zərdüştilərin məbədlərinə və ya dini ayinlərinə buraxılmır.

Zərdüştilər dini ayinlərini od məbədləri ilə yanaşı, evlərdə də yerinə yetirirlər. Onlar istər evdə, istər məbədlərdə olsun, gündə beş dəfə “gah”lar (fars dilində “gah” sözü “vaxt” deməkdir – Red.) adlı dualar oxumalıdırlar. Həmin dualar həm fərdi, həm də kollektiv şəkildə edilə bilər. Bununla yanaşı, Zərdüştilikdə “yasna” adlı dini ayinə böyük əhəmiyyət verilir. Bu ayin ən azı iki ruhani tərəfindən sübh tezdən günəş çıxan vaxtı xüsusi məkanda icra olunur. Müqəddəs odun ətrafında həyata keçirilən “yasna” ayini vaxtı acılıqotunun (efedra) şirəsi, süd və suyun qarışığından xüsusi içki hazırlanır. “Parahaoma” və ya “parahom” adlanan bu içkinin yarısı müqəddəs odun üzərinə tökülür, yarısı isə dini ayinin iştirakçılarına içmək üçün verilir. Zərdüştilikdə parahaoma ölümsüzlüyü təcəssüm etdirir. Bu dinin mənsubları inanırlar ki, Saoşyant (zərdüştiliyə görə, dünyanın sonuna yaxın xeyrin şər üzərində qələbə qazanması

məqsədilə yer üzünə gələcək xilaskar. – Red.) axirətdə əməli-salehlərə parahaomanı içirdəcək, beləliklə onlar ölümsüzlüyü əldə edəcəklər.

"Sedre-puşi" (farsca hərfi mənada "köynək geyinmək" deməkdir) ayini də zərdüştiliyin mühüm dini mərasimlərindən biridir. Bu ayin zərdüştiliyə qəbul olunmağı təcəssüm etdirir və mobed tərəfindən yerinə yetirilir. Adətən zərdüştiliyə 15 yaşına çatmış şəxslər qəbul olunur. Ayin zamanı onlar "müqəddəs" köynək ("sedre") geyinir, "koşti" (fars dilində "gəmi" deməkdir – Red.) adlanan kəmər taxır, Ahura Mazdanın yoluna və Zərdüştün qanunlarına sadiq qalacaqları ilə bağlı and içirlər.

Gördüyümüz kimi, Zərdüştilikdə dini ayin və mərasimlərə olduqca böyük önəm verilir. Bu dinin dəfn mərasimi xüsusən diqqət çəkir, çünki Zərdüştilikdə ölüləri torpağa tapşırmaq doğru sayılmır. Zərdüştilərin inancına görə, od, torpaq və su kimi təbiət ünsürləri pak və müqəddəs olduqları üçün onları meyitlə murdarlamaq günahdır. Buna görə də zərdüştilər cəsədləri uca qayaların başına və ya "daxma" (fars dilində "sərdabə" deməkdir – Red.) adlanan xüsusi qüllələrin üstünə qoyurlar ki, qurd-quşa yem olsun.

Zərdüştilərin ayin və mərasimlərdən bəhs edərkən, onların dini bayramlarını da qeyd etmək lazımdır. Zərdüştilikdə dini bayramlar böyük və kiçik olmaqla iki hissəyə ayrılır. Böyük bayramlar "gahanbar"lar (fars dilində "saxlanma vaxtı" deməkdir – Red.) adlanır. "Gahanbar"lara altı əsas bayram daxildir. Bu bayramlar əsasən müxtəlif fəsillərdəki məhsul yığımına həsr olunmuşdur. Onların içində isə ən əsası Novruz bayramı sayılır. Zərdüştilər bu bayramı "Gahanbar Fərvərdin" də adlandırırlar. Onlar Novruzu yaz gecə-gündüzün bərabərliyi günündə əfsanəvi Cəmşid hökmdarın və müqəddəs odun şərəfinə keçirirlər. Həmçinin Zərdüştilikdə Novruz bayramı xeyrin şər üzərində qələbəsini, yenidən dirilməni təcəssüm etdirir.

Zərdüştilikdə altı böyük bayramla yanaşı, "caşn"lar adlı çoxsaylı kiçik dini bayramlar da vardır. "Caşn" sözü Avesta dilində "pərəstiş" mənasına gələn "yasna" kəlməsindən törəmişdir. Bu bayramlar mahiyyətcə böyük bayramların davamı sayılır.

## 4.1.1.5. Azərbaycanda Zərdüştilik

Bir sıra müasir alimlər Zərdüşt peyğəmbərin Cənubi Azərbaycanda dünyaya gəldiyini bildirirlər. Qədim mənbələrə istinad edən orta əsr müsəlman müəllifləri də bunu öz əsərlərində qeyd etmişlər. Məsələn, ibn Xordadbeh (820-912), əl-Bələzuri (806-892), İbn əl-Fəqih əl-Həmədani (IX əsr), əl-Məsudi (896-956), Yaqut əl-Həməvi kimi bir çox görkəmli müsəlman alimi Zərdüştün Cənubi Azərbaycanın Urmiya ərazisində doğulduğunu vurğulamışlar.

Həmçinin tarixi reallıq ondan ibarətdir ki, Azərbaycan ərazisi zərdüştiliyin ilk yayıldığı yerlərdən biri olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, Atropatenada Zərdüştilik hakim mövqeyə yüksəlmişdir. Həmçinin bu dövlətin paytaxtı Qazaka şəhərində zərdüştilərin üç ən müqəddəs ziyarətgahından biri – Adurquşnasp yerləşirdi.

Tarixi mənbələr sübuta yetirir ki, Zərdüştilik təkcə Cənubi Azərbaycanda deyil, həm də Şimali Azərbaycan ərazisində geniş yayılmışdı. Qafqaz Albaniyasında 313-cü ildə xristianlığı dövlət dini səviyyəsinə qaldıran Alban hökmdarı Urnayrın Zərdüştiliklə apardığı mübarizə ondan xəbər verir ki, erkən orta əsrlərdə Şimali Azərbaycan ərazisində Zərdüştün təliminə etiqad bəsləyənlərin sayı az deyildi. Zərdüştilik əleyhinə siyasət digər Alban hökmdarları tərəfindən davam etdirilsə də, Qafqaz Albaniyası ərazisində zərdüştilərin dini icmaları varlığını qoruya bilmişdir.

VII əsrdə İslamın gəlişindən sonra Azərbaycanda xristianlıq kimi, zərdüştiliyin də nüfuzu get-gedə zəiflədi və Zərdüştün dini tədricən əhəmiyyətini itirərək aradan qalxdı. İslamın hakim mövqeyə yüksəldiyi dövrlərdə belə Şimali Azərbaycanda zərdüşti icmalar mövcud idi. Məsələn, ərəb coğrafiyaçısı və səyyahı Əbu İshaq İbrahim ibn Məhəmməd əl-İstəxri (850-934) “Məmləkətlərin yolları kitabı”nda yazmışdır ki, Bakı yaxınlığında zərdüştilərin yaşadığı kəndlər mövcuddur. Məşhur coğrafiyaçı və tarixçi Əbül-Fida İsmail Həməvi (1273-1331) Muğan vilayətində atəşpərəstlərin yaşadığı kəndlərdən bəhs edir.

Qeyd edək ki, Abşeron yarımadasında təbii yanar qazların çıxdığı yerlər hər zaman zərdüştiləri cəlb etmişdir. Şimali Azərbaycanın bir sıra yerlərində olmuş alman səyyahı Engelbert Kempfer (1651-1716) bu haqda maraqlı məlumatlar verir. O, Abşeron yarımadasında, Bakı şəhərindən 30 km aralıda Suraxanı kəndi yaxınlığında vaxtilə yeddi müqəddəs alovun yandığını qeyd

etmişdir: *"...qədim fars tayfası nəslindən olan iki gəlmə atəşpərəst hindlilər tikdikləri divarın ətrafında hərəkətsiz halda oturaraq, əbədi tanrıya dua oxuyur, yerdən çıxan alova baxaraq ona səcdə edirdilər... əvvəllər buradan beş yüz metr kənarda aralarında bir vaxtlar bu alovun yandığı yan-yana yeddi oyuq görünürdü. Həmin alov sönəndən sonra od mənim təsvir etdiyim yerdən üzə çıxmışdır".*



*Suraxanı atəşgahı.*

Gördüyümüz kimi, alman səyyahı öz xatirələrində hələ XVII əsrdə Suraxanı ərazisində od məbədinin mövcud olduğunu bildirir. Əslində, onun tarixi daha qədim dövrlərə gedib çıxır. Tarixi mənbələrdən məlum olur ki, Suraxanıdakı od məbədindən hinduizm, siqhizm və Zərdüştilik dinlərinin mənsubları ortaq şəkildə istifadə edirdilər. O da məlumdur ki, XVII-XVIII əsrlərdə bu "Atəşgah"da (fars dilində "alov yeri" mənasına gəlir – Red.) gebrlər , XIX əsrin əvvəllərində isə parsilər ibadət etmişlər.

Zaman keçdikcə Suraxanıdakı "Atəşgah" böyük bir dini kompleksə çevrildi. Kompleksin inşa tarixi 1713-cü ilə aid edilir. Hazırda bu kompleks

"Atəşgah məbədi" tarix-memarlıq abidəsi kimi Azərbaycan dövləti tərəfindən qorunur. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin 19 dekabr 2007-ci ildə Suraxanıdakı Atəşgah ərazisinin "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu elan edilməsi ilə bağlı imzaladığı Sərəncam böyük əhəmiyyət kəsb edir. Sərəncama əsasən, kompleks ətrafında açıq səma altında muzey yaradılmışdır. Eyni zamanda, dövlətimizin səyi nəticəsində "Atəşgah məbədi"nə 30 sentyabr 1998-ci ildən mədəni irs nümunəsi kimi "gücləndirilmiş mühafizə" statusu verilmiş və abidə UNESKO-nun Təcili Qorunmaya Ehtiyacı olan Maddi-Mədəni İrsin İlkin siyahısına daxil edilmişdir.

Beləliklə, göstərilən faktlar bir daha təsdiqləyir ki, Zərdüştilik Azərbaycanın tarixində özünəməxsus rol oynamışdır. Zərdüştilik dini Azərbaycanda tamamilə əhəmiyyətini itirib ortadan qalxsa da, xalqımızın mədəniyyəti və adət-ənənələrində öz varlığını qoruyur. Hər il ölkəmizdə təntənəli şəkildə qeyd olunan Novruz bayramı bunun bariz nümunəsidir. Novruz bayramı ərəfəsində tonqalların qalanması, şamların yandırılması, həmçinin ölkəmizin bir sıra bölgələrində ocağa su tökməyin günah sayılması və digər bu kimi adət-ənənələr göstərir ki, min illər keçməsinə baxmayaraq, zərdüştiliyin əlamətləri bu gün də xalqımızın həyat tərzində özünü büruzə verməkdədir.

## 4.1.2.Yəhudilik

Yəhudilik (digər adları: iudaizm, musəvilik, yəhudi dini) dünyanın ən qədim monoteist dinlərindən sayılır. İbrahimi (yaxud səmavi) dinlər qrupunda yer alan iudaizm, eyni zamanda yəhudi xalqının dini-etnik kimliyini ifadə edir.

Hazırda dünyada iudaizmin mənsubları hesab olunan yəhudilərin sayı 14 milyondan yuxarıdır.

### 4.1.2.1. Tarixi

*İbrahimdən Musaya qədər olan dövr*
*(Əcdadlar dövrü)*

Yəhudiliyin ilk dövrü ilə bağlı yeganə mənbə “Tövrat”dır. Bu müqəddəs kitaba əsasən, yəhudiliyin kökləri İbrahim peyğəmbərə gedib çıxır. Belə ki, Mesopotamiyanın Ur şəhərində yaşayan İbrahim Tanrının istəyi ilə Kənan diyarına (hazırda Fələstin və İsrailin yerləşdiyi torpaqlar. –Red.) köçmüşdür. “Tövrat”dakı rəvayətə görə, ilahi vədin təzahürü olaraq İbrahimin yaşlı vaxtında cariyəsi Həcərdən İsmayıl, sonra isə həyat yoldaşı Saradan İshaq adlı iki oğlu doğulmuşdur. Lakin Tanrı İshaqın oğlu Yaqubun soyundan gələnləri seçilmiş nəsil kimi tanıdığını bəyan etmiş və bu nəslin Kənan torpaqlarına sahib olacağına dair vəd vermiş, beləcə “İsrail övladları” adlanan nəsil meydana gəlmişdir. İbrahim peyğəmbərin digər oğlu İsmayıldan isə “İsmail oğulları” adlı nəsil törəmişdir. Bununla yanaşı, “Tövrat”ın “Yaradılış” kitabında İsrail övladlarının on iki qəbiləyə bölünməsindən bəhs olunmuşdur.

Qeyd edək ki, tədqiqatçılar tərəfindən yəhudilərin əcdadlar dövründəki dini inancları ilə bağlı fərqli fikirlər irəli sürülmüşdür. Bəzi araşdırmaçılara görə, yəhudilər arasında əcdadlar dövründə animist inanclar geniş yayılmış və çoxallahlılıq hökm sürmüşdür. Digər nəzəriyyəyə görə isə, hələ əcdadlar dövründə yəhudilər arasında monoteizm mövcud olmuşdur.

## *Musadan Birinci məbədin dağıdılmasına qədər olan dövr*

“Tövrat”ın “Yaradılış” kitabına görə, yəhudilərin Misirdəki tarixi Yaqub peyğəmbər və onun oğullarının bu ölkəyə köçməsi ilə başlayır. On iki qəbiləyə bölünən yəhudi xalqı Misirdə bir müddət firavan yaşamış, lakin sonradan qula çevrilmişlər.

“Tövrat”a əsasən, Misirdə yəhudiləri köləlikdən Musa peyğəmbər xilas etmişdir. Rəvayətə görə, Horeb dağında Tanrı Musaya səslənmiş və ona İsrail övladlarını Misirdəki əsarətdən xilas etmək tapşırığını vermişdir. Bu hadisə Musanın peyğəmbərliyinin başlanğıcı hesab olunur. Rəbbin əmrini insanlara çatdıran Musa peyğəmbər bu işdə qardaşı Harunu özünə köməkçi götürmüşdür.

Musanın rəhbərliyi altında yəhudilərin Misirdən çıxardılması, onların möcüzəvi şəkildə fironun zülmündən xilas olmaları, Sina dağında Tanrı ilə əhd bağlamaları İsrail övladlarının tarixində ikinci dönüş nöqtəsi sayılır. “Sina əhdi” adlanan bu razılıq zamanı Yahova (“Tövrat”a görə, Tanrının adı) tərəfindən Musaya “Tövrat” verilmişdir. Həmçinin Yahova yəhudilərə vəd etmişdir ki, İsrail övladları onun əmrinə uyğun şəkildə yaşayacaqları təqdirdə, onlar Tanrının seçilmiş milləti olacaq və Kənan torpaqlarını əldə edəcəklər.

Buna baxmayaraq İsrail övladları vəd edilən Kənan torpaqlarına daxil ola bilməmişlər. Belə ki, Tanrının “On əmri”ni almaq üçün Musa peyğəmbər Sina dağına qalxır və orada qırx gün qalır. Bu zaman yəhudilər qızıldan buzov bütü düzəldərək ona ibadət etməyə başlayır və Musaya üsyan qaldırırlar. Bu xəyanətə görə, Tanrı onları qırx il səhrada yaşamağa məcbur edir və vəd olunmuş torpaqları onlara vermir.

Rəvayətə görə, Musa 120 yaşında Moav ölkəsində (Qərbi İordaniya) vəfat etmişdir. Onun ölümündən sonra Yeşu peyğəmbərin başçılığı ilə Kənan torpaqları yəhudilər tərəfindən ələ keçirilmiş və on iki yəhudi qəbiləsi arasında bölüşdürülmüşdür. Yeşu peyğəmbərin ölümündən sonra bir müddət lidersiz qalan yəhudilər “Şoftim” adlanan hakimlər tərəfindən idarə olunmuşlar. Sonra isə onlara Samuel adlı peyğəmbər göndərilmişdir. Samuel İsrail övladlarına Saulu (Talut) kral təyin etmişdir. Saulun ölümündən sonra fələstinlilərlə döyüşdə böyük uğur qazanan Davudu Yəhuda qəbiləsi kral seçmişdir. Davud Yerusəlim (Qüds) şəhərini azad edərək birləşmiş İsrail krallığının paytaxtı elan

etmişdir. Onun dövründə yəhudilər tərəfindən bütün Kənan diyarının fəthi yekunlaşmışdır.

Davud yəhudi tarixinin ən mühüm şəxsiyyətlərindən biridir və peyğəmbər hesab olunur. Onun ölümündən sonra yerinə keçən oğlu Süleyman müdrik hökmdar kimi tanınmış və ona da peyğəmbərlik verilmişdir. Süleyman həmçinin Qüds şəhərində Moria təpəsində böyük məbəd inşa etdirmişdir. Rəvayətə görə, həmin məbəddə "Əhd sandığı" yerləşdirilmişdi. Bu sandıqda Sina dağında Tanrı tərəfindən Musaya verilən və üzərində on ilahi əmr həkk olunmuş daş lövhələr saxlanılırdı.

O zamanlar Süleyman Məbədi yəhudilərin yeganə məbədi idi. Dini mərkəz rolunu oynayan həmin ibadətgahda dini məsələlər həll olunurdu. Buna görə də yəhudi tarixində sözügedən dövr "Birinci Məbəd dövrü" adlandırılır.

Süleyman peyğəmbərin vəfatından sonra İsrail krallığı iki hissəyə parçalanmışdır. Belə ki, Yəhuda tayfası və Binyamin qəbiləsinin yarısı Süleymanın oğlu Rovoamı öz hökmdarı kimi tanımışdır. Bununla da paytaxtı Qüds şəhəri olan və Davudun nəsli tərəfindən idarə olunan Yəhuda krallığı meydana gəlmişdir. Digər on yəhudi qəbiləsi isə Rovoamın hakimiyyətini qəbul etməyərək I İyerovoamı öz hökmdarı kimi tanımış, nəticədə Şimali İsrail krallığı yaranmışdır. Müxtəlif hökmdar nəsilləri tərəfindən idarə olunan bu krallığın paytaxtı əvvəlcə Şxem (indiki Nablus), sonra isə Tirsa şəhərləri olmuşdur.

Tövrata görə, I İyerovoam Yəhuda krallığı ilə əlaqəni tamamilə kəsmək üçün Qüdsdəki Süleyman Məbədinə alternativ olaraq Dan və Beytel şəhərlərində iki ibadət yeri tikdirmişdir. Habelə Süleyman Məbədinə gedişin qarşısını almaq üçün bayram günlərinin tarixini dəyişdirmişdir. Yəhudilər belə davranışı Tanrıya üsyan kimi qəbul etmişlər. Əhdi-Ətiqdə qeyd olunur ki, I İyerovoam və sonrakı krallar peyğəmbərlərin xəbərdarlıqlarına baxmayaraq, doğru yoldan azaraq bütpərəst olmuşlar. Odur ki, Tanrı Şimali İsrail krallığını cəzalandırmış, bu yəhudi dövləti Assuriya imperiyası tərəfindən işğal olunmuş və burada məskunlaşmış on yəhudi qəbiləsi sürgünə məruz qalmışdır.

Tarixi mənbələrdə assurlular tərəfindən əsir alınan on qəbilənin aqibəti haqqında dəqiq məlumatlara rast gəlinmir. Həmin tayfaların sürgün edildikləri yerlərdə assimilyasiyaya məruz qaldıqları ilə bağlı nəzəriyyələr mövcuddur. Əksər yəhudilər on qəbilənin Məsih (gəlişi gözlənilən qurtarıcı.- Red.) dövründə vəd edilən torpaqlara qayıdacağına inanırlar.

Şimali İsrail krallığının süqutundan sonra Yəhuda krallığı da e.ə. 586-cı ildə Babil kralı II Navuxodonosor tərəfindən işğal edilmişdir. Bu zaman Qüds şəhəri məhv edilmiş, 364 il mövcud olan Süleyman Məbədi dağıdılmış, Yəhuda krallığının əhalisinin xeyli hissəsi Babilə sürgünə göndərilmişdir. Beləliklə, yəhudi dövlətçiliyinə son qoyulmuşdur.

Əlli ildən yuxarı davam etmiş Babil sürgünü və ya Babil əsarəti yəhudilərin dini həyatlarına təsir göstərmişdir. Vətəndən kənarda qapalı icma halında yaşamağa məcbur qalan yəhudilər üçün Tövrat birləşdirici rol oynamışdır. Babil əsarəti vaxtı yəhudilər Tövratı öyrənmək və birlikdə ibadət etmək üçün evlərdə toplaşmağa başlamışlar. Daha sonra ibadət etmək üçün onlar xüsusi binalar – sinaqoqlar (yunancadan tərcümədə "yığıncaq" mənasını verir. İvrit dilində "beyt knesset" – yəni "yığıncaq evi") tikmişlər. Beləliklə, günümüzdə yəhudilərin dini həyatında böyük rol oynayan sinaqoqlar məhz Babil əsarəti dövründə yaranmışdır. Həmçinin məhz Babil əsarəti dövründə başqa xalqların nümayəndələri onları yəhudi adlandırmışdır. Çünki onlar əslən Yəhuda krallığından olmuşlar.

## *İkinci Məbəd dövrü*

Yəhudilərin Babil əsarətinə Əhəməni imperiyasının banisi II Kir son qoydu. O, e.ə. 539-cu ildə Babilistanı tutaraq öz imperiyasının tərkibinə qatdı. Elə həmin il yəhudilərin öz vətənlərinə qayıtmalarına icazə verildi. Lakin yəhudilərin əksər hissəsi Babilistanda qalmağa üstünlük verdi. Həmçinin II Kir Süleyman Məbədinin bərpa olunmasını əmr etdi və bu ibadət yerinin inşası e.ə. 516-cı ildə başa çatdı. Beləliklə, yəhudi tarixində "İkinci Məbəd dövrü" başladı. 585 il davam edən İkinci Məbəd dövrü ərzində yəhudilər farsların, makedoniyalıların, yunanların hakimiyyəti altında yaşamışlar. Yalnız e.ə. 152-ci ildə onlar yəhudi dövlətini bərpa etməyə nail olmuşlar. Eramizdan əvvəl 37-ci ilədək mövcud olan bu yəhudi dövləti sonda qədim Roma imperiyasının vassalına çevrilmişdir. İşğal zülmündən əziyyət çəkən yəhudilər qədim Roma imperiyasına qarşı silahlı üsyan qaldırdılar. Bizim eranın 70-ci ilində bu üsyan amansızlıqla yatırıldı. Buna baxmayaraq, 132-135-ci illərdə yenidən üsyan qopdu. Bu üsyanların yatırılması nəticəsində Qüds şəhəri romalılar tərəfindən tamamilə dağıdıldı, İkinci Məbəd məhv edildi, yəhudi dövləti birdəfəlik Roma imperiyasının tərkibinə qatıldı. Beləliklə, İkinci Məbəd dövrü başa çatdı. Bu

dövrdən etibarən yəhudilər bir daha dövlət qura bilmədilər. Belə vəziyyət 15 may 1948-ci ildə İsrail dövlətinin qurulmasınadək davam etdi.

Qeyd edək ki, İkinci Məbədin yalnız qərb divarı günümüzədək gəlib çıxmışdır. “Ağlama divarı” adlanan bu tikili yəhudilər üçün müqəddəs sayılır. Onu da qeyd etmək lazımdır ki, İkinci Məbəd dövründə yəhudilərin dini dünyagörüşündə mühüm dəyişikliklər baş verdi. Bəzi alimlər hesab edirlər ki, İkinci Məbəd dövründə müxtəlif xalqların mədəniyyətləri ilə yaxından təmasda olan yəhudilər digər dini inancların təsiri altına düşmüşlər. Məsələn, bir sıra tədqiqatçıların fikrincə, İblis, mələk, öldükdən sonra cismən dirilmə və sorğu-suala çəkilmə, qiyamət günü, cənnət və cəhənnəm haqqında inanclar yəhudi ənənəsinə zərdüştilikdən keçmişdir.



*Qüds şəhərindəki “Ağlama divarı”.*

Həmçinin İkinci Məbəd dövründə “Tora” (“Tövrat” və ya Musanın beş kitabı) yəhudilərin dini və dünyəvi həyatlarında əsas rol oynamağa başladı. Odur ki, İkinci Məbəd dövründə yəhudilər bu müqəddəs kitabın öyrənilməsi və şərhinə böyük əhəmiyyət vermişlər. Bu isə yəhudilikdə ***fariseylər*** adlanan dini-ictimai cərəyanın yaranmasına səbəb olmuşdur. Fariseylər cərəyanı yəhudi cəmiyyətinin müxtəlif təbəqələrinə məxsus olan azad düşüncəli şəxslərdən ibarət idi. Özlərini “Tora”nın öyrənilməsinə həsr edən fariseylər dini hökmləri gündəlik həyata uyğunlaşdırmağa çalışırdılar.

İkinci Məbəd dövründə yəhudilər arasında fariseylərlə yanaşı, ***sadukkeylər*** və ***yesseylər*** adlı daha iki dini cərəyan təşəkkül tapmışdır. Sadukkeylər cərəyanı əsasən ruhanilərdən və varlı tacirlərdən ibarət olmuşdur. Fariseylərdən fərqli olaraq, sadukkeylər mühafizəkarlıqları ilə seçilir və dini hökmlərə hərfən riayət etməyə səy göstərirdilər. Zərdüştilikdən təsirlənən yesseylər cərəyanının mənsubları isə qapalı icma halında yaşayır, tərki-dünya həyat tərzi sürür, ruhaniləri riyakər sayır, qiyamətə hazırlaşaraq Xilaskarın (Məsihin) gəlişini gözləyirdilər.

### *Ravvin ənənəsi*

Yəhudi dövlətinin varlığına son qoyan romalılar yəhudiləri doğma torpaqlarından sürgün etdilər. Nəticədə yəhudilər dünyanın müxtəlif yerlərinə səpələndilər. Bu isə öz növbəsində yəhudilikdə ***ravvin*** (ibranicə "dahi", "ustad", "mənim müəllimim" deməkdir. -Red.) ənənəsinin meydana gəlməsinə səbəb olmuşdur.

İkinci Məbəd dövründən sonra ravvinlər yəhudi icmasının dini həyatında böyük rol oynamağa başladılar. Onlar dini hökmlərin verilməsində və yəhudilikdə dini ayinlərin formalaşmasında əhəmiyyətli rol oynamışlar. Əslində ravvinlər farisey ənənəsinin varisləri sayılırdılar. Onlar da fariseylər kimi "Tora"nı dərindən öyrənir, müqəddəs kitabın şərhi ilə məşğul olaraq dini təlimi və hökmləri günün tələblərinə uyğunlaşdırmağa çalışırdılar.

İudaizmdə ravvinlərin "Tora"nı öyrənmə və təfsir etmə prosesi "midraş" (ibranicə "öyrənmə", "şərh etmə" deməkdir. –Red.) adlanır. Bu "midraş" prosesi nəticəsində müxtəlif ravvin məktəbləri yaranmış, çoxsaylı təfsir ədəbiyyatı meydana gəlmişdir. Yəhudi dini ənənəsinə görə, "midraş" bitməmiş proses sayılır, çünki "Tora"nın hər dövrə uyğun özünəməxsus şərhi tələb olunur.

## 4.1.2.2. Dini təlimin əsasları

İudaizm - monoteist dindir. Bu dinin mənsubları tək, vahid, əbədi, əzəli, qüdrətli, hakimi-mütləq, hər şeyi bilən və idarə edən Tanrının varlığına inanırlar. "Tövrat"a görə, tək Tanrının adı "Yahve" və ya "Yahova"dır. Əhdi-Ətiqdə bu ada 7 mindən yuxarı yerdə rast gəlinir. Müqəddəs Kitabda Tanrını təsvir və

vəsf edən başqa ad və epitetlərdən (məs.: “Adonay” (“Bizim Rəbb”), “Elohim” (“Tanrı”) və s.) də istifadə olunur.

Yəhudiliyə görə, kainatın yaradıcısı və idarəçisi olan Tanrı insanı öz surətində yaratmışdır. O, salehləri mükafatlandırır, günahkarları isə cəzalandırır. Burada onu vurğulamaq lazımdır ki, yəhudilikdə tanrı anlayışı vaxtilə milli səciyyə daşımışdır. Yəni keçmişdə tanrı Yahova sırf yəhudilərə məxsus sayılırdı. Lakin dini inancın çoxəsrli təkamülü nəticəsində yəhudiliyin tanrısı Yahova kainatın yaradıcısına və ümumbəşəri tanrıya çevrilmişdir.

Yəhudi dininə görə, Tanrı öz istək və buyruqlarını insanlara çatdırmaq, onları gələcək barədə xəbərdar etmək məqsədilə xüsusi seçilmiş insanları, yəni peyğəmbərləri göndərmişdir. İudaizmdə bu çoxsaylı ilahi elçilər arasında Musa, Davud və Süleymana daha böyük ehtiram göstərilir.

İudaizmin ardıcılları inanırlar ki, Tanrı qiyamət günü ölüləri dirildəcək və axirətdə insanlar haqq-hesaba çəkiləcəklər. Tövratda axirəti təsvir etmək üçün “ölülər diyarı” mənasına gələn “Şeol” sözü, cəhənnəm anlamında isə “Ge Hinnom” (Hinnom vadisi) ifadəsi işlədilir.

Yəhudilikdə xilaskar inancı da mövcuddur. Yəhudilər bu xilaskarı “Məsih” adlandırırlar. Məsih barədə inanc İkinci Məbəd dövründə meydana gəlmişdir. Xüsusən yəhudilər qədim Roma imperiyasının zülmü altında yaşayan vaxtı Məsih inancı yəhudi cəmiyyətində geniş yayılmışdır. Belə ki, bizim eranın I əsrində yəhudilər tezliklə xilaskarın gələcəyini gözləyirdilər. Onlar inanırdılar ki, axır zamanda yer üzünə gələcək və Davudun peyğəmbərin soyundan olacaq Məsih Tanrının seçilmiş xalqını, yəni İsrail övladlarını zülmdən xilas edəcək, vəd edilən Kənan torpaqlarında yəhudi xalqının siyasi müstəqilliyini bərpa edəcəkdir. Nəticədə bütün xalqlar İsrailin tanrısını bütün kainatın tanrısı kimi qəbul edəcəklər. xilaskar tərəfindən əsirlikdən qurtarılaraq Fələstin torpaqlarında dini və siyasi azadlıq qazanması nəticəsində əvvəlki ehtişam və qüdrətlərinə qovuşmalarına dair inanc və doktrinanı ifadə edir.

## 4.1.2.3. Dini mətnlər

### *Tanah*

Yəhudilikdə Müqəddəs Kitab ümumilikdə “Tanah” adlanır. Tanah üç hissədən ibarətdir: 1. İbrani dilində “təlim”, “qanun” mənasına gələn “Tora” (Musanın Beş Kitabı); 2. “Neviim” (Peyğəmbərlər); 3. “Ktuvim” (Yazılar).

İyirmi dörd kitabdan ibarət olan "Tanah"ın ilk bölməsində, yəni "Tora"da kainatın və ilk insanın yaradılışından, Adəm peyğəmbərdən, onun övladları Habil və Qabildən, Nuh tufanından, Yusif peyğəmbərin həyatından, Musanın fironla mübarizəsindən və onun yəhudiləri Misirdən çıxarmasından, yəhudilərin Tanrı ilə əhd bağlamasından, ilahi hökmlərdən, dini ehkamlardan və digər məsələlərdən bəhs olunur.

"Tanah"ın ikinci bölməsi olan "Neviim" on kitabdan ibarətdir. Bu kitablarda Musanın vəfat etməsindən sonra yəhudilərin Tanrı tərəfindən vəd edilmiş torpaqlarda məskunlaşmaları, İsrail krallığının yaranması, yəhudilərin bütpərəst xalqlarla mübarizəsi, Süleyman Məbədinin tikintisi və məhvi, peyğəmbərlərin bütpərəstlərlə mübarizələri və onların bu yolda çəkdikləri əziyyətlər haqqında danışılır. Həmçinin "Neviim"də peyğəmbərlərin nəsihətləri yer almışdır.

"Tanah"ın son bölməsi olan "Ktuvim" doqquz kitabdan ibarətdir. "Ktuvim" istər məzmun, istərsə də tərkib cəhətdən çox zəngin və rəngarəngdir. Bu bölmədə Davuda peyğəmbərə aid Məzmurlar (Tanrıya oxunan həmd və dualardan ibarət "Zəbur" kitabı.- Red.), Süleyman peyğəmbərin kəlamları, İsrail krallığının dağılmasına həsr olunmuş Yeremyanın mərsiyəsi yer almışdır. Bundan başqa, burada Əyyub peyğəmbərin ibrətamiz həyatı, onun Tanrının iradəsinə təslim olması haqda danışılır, Süleymanın Məbədinin babillilər tərəfindən dağıdılmasından, yəhudilərin Babilistana sürgün edilməsindən və əsarətdən azad olmalarından bəhs olunur. Həmçinin "Ktuvim"in Daniel kitabında insanın ölümdən sonra dirilməsi, Tanrı qarşısında hesab verməsi barədə danışılaraq axirət həyatı təsvir olunur.

## *Talmud*

I-II əsrlərdə yəhudilər gündəlik məsələlərə cavab tapmaq üçün "tannai" (ibrani dilində "öyrətmək" deməkdir. –Red.) adlanan din alimlərinə müraciət edirdilər. Dini hökmləri, ehkamları öyrədən bu müəllimlər "Tanah"ı təfsir edərək sual doğuran gündəlik məsələlərlə bağlı hökm çıxarırdılar. Həmin hökmlər, qaydalar, təfsirlər əzbərlənərək nəsildən-nəsilə ötürülürdü. Bu şifahi dini ənənə "Şifahi Tora" adlandırıldı.

Zaman keçdikcə "Şifahi Tora"nın qorunması zərurəti yarandı. Bunu nəzərə

alan yəhudi din alimləri nəsildən-nəsilə ötürülən bu şifahi ənənəni qələmə aldılar və beləliklə “Talmud” adlanan çoxcildli təfsir külliyatı meydana gəldi.

“Talmud” ibranicə “təlim” deməkdir. Bu təfsir külliyatının müasir variantı on doqquz cilddən ibarətdir. Yəhudilər “Talmud”a “Tövrat” qədər hörmət edirlər. “Talmud” ibrani və arami dillərində yazılmışdır. O, üç hissədən ibarətdir: 1. Mişna; 2. Qüds Gemarası; 3. Babilistan Gemarası.

“Mişna” ibranicə “təkrar” deməkdir və “Talmud”un əsas mətnini təşkil edir. “Mişna”da yəhudi dininin dini-əxlaqi qayda və qanunları izah edilir. Bizim eranın 190-220-ci illər arasında ravvin Yəhuda ha-Nasi tərəfindən qələmə alınmışdır.

“Mişna” altı bölmədən ibarətdir: “Zeraim” (təsərrüfatla bağlı hökmlər); “Moed” (bayramlarla bağlı hökmlər); “Nashim” (qadınlarla bağlı hökmlər); “Nezikin” (cəza və mülki hüquqla bağlı hökmlər); “Kodashim” (müqəddəs əşyalarla bağlı hökmlər); “Teharoth” (təmizliklə bağlı hökmlər).

“Talmud”un Gemara bölümü Mişnanın şərhi mahiyyətindədir. Gemara “təlim, tədqiq edilən” mənasını verir. Gemarada ravvinlərin Mişna ilə bağlı mübahisələri, əxlaqi, huquqi, fəlsəfi və sosioloji mövzular geniş yer almışdır. Burada yəhudi din alimlərinin əxlaqi təlimləri müxtəlif misallarla izah edilir.

Gemara iki müxtəlif varianta: Qüds və Babilistan Gemarasına bölünür. “Babilistan Gemarası”nın toplanması IV əsrə, “Qüds Gemarası”nın yazılması isə VII əsrə təsadüf edir. “Babilistan Gemarası” şərq arami ləhcəsində, “Qüds Gemarası” isə qərb arami ləhcəsindədir. Babilistan Gemarasının mətni daha uzun, kamil və müfəssəldir.

Eyni zamanda, “Talmud” məzmuna görə “Qalaxa” və “Aqqada” adlı iki hissəyə  bölünür. “Qalaxa” ibranicə “məfhum, anlayış, həyat tərzi” deməkdir. Burada “Tövrat”ın mətninin hüquqi təfsirinə əsaslanan və məcburi qanunlar şəklini alan hüquqçuların mülahizələri toplanmışdır.

“Aqqada” ibranicə “hekayə, rəvayət” deməkdir. Bu hissə müxtəlif ibrətamiz hekayələr, əxlaqi rəvayətlər və dini nəzəriyyələrdən ibarətdir. “Aqqada” “Talmud”un ən az nüfüza malik olan hissəsidir. Çünki bu bölmədə daha az dini bilgilərə yer verilib. Burada istənilən mövzu ilə bağlı məlumatlara rast gəlmək mümkündür. Tarix, folklor, tibb, biologiya, bioqrafiya, etika, astronomiya, məntiq, qədim müəllimlər haqda xatirələr, həmçinin xeyli sayda əfsanələr bu bölmənin tərkib hissəsidir.

## 4.1.2.4. Dini ayin və mərasimlər

İudaizmdə dini ayinlər olduqca sadədir. İbadət zamanı yəhudilər "Tövrat" oxuyur və dua edirlər. Yəhudilər kollektiv ibadətləri sinaqoqda yerinə yetirirlər. Kollektiv ibadətin keçərli olması üçün ən azı on nəfərin iştirak etməsi şərtdir. Bu dini tələb yəhudilikdə "minyan" (ibrani dilində "say, hesablama, hesab" deməkdir. –Red.) adlanır. Yəhudi dinin mənsubları ibadət edərkən kişilər başlarına "kipa" yaxud "yarmolke" adlanan baş geyimi qoyurlar. Ənənəvi yəhudiliyin hökmlərinə görə, qadınların kollektiv dini ayinlərdə iştirak etmək ixtiyarı yoxdur. Onlar yalnız sinaqoqda ibadəti izləyə bilərlər.

Yəhudilikdə dini ayinlər əksər hallarda ibrani dilində, bəzən isə arami dilində yerinə yetirilir. Həftəlik şənbə günü ibadəti iudaizmdə ən əsas dini ayinlərdən sayılır. Belə ki, şabat (ibrani dilində "şənbə" deməkdir. –Red.) yəhudilikdə müqəddəs gün sayılır. Yəhudilər inanırlar ki, Tanrı yeri, göyü və bütün məxluqatı yaratdıqdan sonra yeddinci gün, yəni şənbə günü istirahət etmişdir. Odur ki, yəhudilikdə şənbə günü hər hansı dünya işi görmək qadağandır. Şabat vaxtı yalnız dua edib ibadətlə məşğul olurlar. Bu dini ayinlər həm evdə, həm də sinaqoqda həyata keçirilir.

İudaizmin dini ayinləri haqqında bəhs edərkən, mütləq yəhudi bayramlarına da toxunmaq lazımdır. Çünki həmin bayramlar xüsusi dini ayinlərin yerinə yetirilməsi ilə qeyd edilir. Yəhudilikdə aşağıdakı bayramlar mövcuddur:

**1.** *Roş ha-Şana.* Yəhudilərin yeni il bayramıdır. Bu bayram tişrey ayının (yəhudi təqviminin yeddinci ayı. –Red.) ilk günündə qeyd olunur. İudaizmə görə, Roş ha-Şana – mənəvi yenilənmə vaxtıdır. Bu bayram vaxtı sinaqoqlarda səhər ibadəti vaxtı Şofar (qoç buynuzundan düzəldilmiş nəfəs musiqi aləti. –Red.) çalınır. Bunun məqsədi insanları tövbəyə çağırmaq və məhşər gününü xatırlatmaqdır;

**2.** *Yom-Kippur.* İudaizmin ən mühüm bayramlarından biridir. Tişrey ayının (yəhudi təqvimində ayın adı. –Red.) 10-cu günündə qeyd olunan Yom-Kippur günahların Tanrı tərəfindən bağışlanmasını və tövbəni təcəssüm etdirir. Bu gün yəhudilər özlərini ibadətə həsr edir, oruc tutur, günahlarının bağışlanmasını Tanrıdan diləyirlər;

**3.** *Sukkot.* Yəhudilərin qədim Misirdən çıxdıqdan sonra Sina çölündə

qırx il dolaşmalarına həsr olunub. Bu hadisəni yad etmək məqsədilə dindar yəhudilər evlərinin həyətində sadə çadır qururlar;

**4.** *Pesax***.** Yəhudilər Pasxa bayramında Misir köləliyindən azad olmalarını qeyd edirlər. Bayram yaz fəslində keçirilir;

**5.** Şavuot. Bu bayram Sina dağında yəhudilərə "Tora"nın verilməsinə həsr olunub;

**6.** *Hanuka***.** Eramızdan əvvəl II əsrdə təyin olunan bu bayram Qüds Məbədinin paklanması, həmin ibadət yerinin qurbangahının təqdis edilməsi və Makkavey yəhudi sülaləsi tərəfindən sözügedən ibadətgahda qurban gətirmə mərasiminin bərpa olunması münasibətilə keçirilir.

***7.*** *Purim.* "Tövrat"dakı rəvayətə görə, Əhəməni hökmdarı I Artakserksin yüksək saray əyanı Aman yəhudi olan dalandar Mardoheyə qəzəbləndiyinə görə bütün yəhudiləri məhv etmək istəyir. O, bu niyyətini həyata keçirmək üçün müxtəlif hiylələrə əl atır və Əhəməni I Artakserksin razılığını alır. Lakin Əhəməni hökmdarının arvadı, yəhudi olan Ester (Yesfir) Amanın hiylələrini ifşa edərək öz xalqını qırğından qurtarır. Purim bayramı yəhudilərin bu qırğından xilas olmalarına həsr olunub.

## 4.1.2.5.Azərbaycanda Yəhudilik

Tarixən etnik-dini zənginliyi, tolerant və multikultural dəyərləri ilə seçilən Azərbaycanda mövcud olan ənənəvi dinlərdən biri yəhudilikdir. Yəhudilər ölkəmizdə üç subetnik qrupla (yaxud icma) təmsil olunmuşdur: *dağ yəhudiləri, aşkenazilər (Avropa yəhudiləri) və gürcü yəhudiləri.*

Dağ yəhudiləri Azərbaycanda ilk məskunlaşan yəhudi subetnik qrupudur. Eyni zamanda, onlar saylarına görə ölkəmizdə yaşayan digər yəhudi qrupları üstələyirlər.

Dağ yəhudiləri özlərini *"cuhur"* adlandırırlar. Geniş yayılmış fikrə görə, XIX əsrin birinci yarısında Qafqazı istila edən ruslar onları "dağ yəhudiləri" adlandırmışlar. Belə ki, rus qoşunlarının əsgərləri Qafqazın dağlıq ərazilərində at belində və yapıncı geyinmiş yəhudiləri görəndə böyük təəccüb keçirmiş və onlara "dağ yəhudiləri" adını vermişlər.

Ehtimal olunur ki, dağ yəhudilərinin əcdadları V-VI əsrlərdə Sasanilər imperiyası dövründə İran və İkiçayarasından (Mesopotamiya) köçərək Şərqi

Qafqazda, o cümlədən Şimali Azərbaycan torpaqlarında məskunlaşmışlar.

Dağ yəhudiləri subetnik qrupun formalaşması bununla bitməmişdir. Tədqiqatçılara görə, bu tarixi proses XIII əsrin ortalarınadək davam etmişdir. Hətta Bizans imperiyasından gələn yəhudilər də dağ yəhudiləri icmasının formalaşmasında rol oynamışlar.

Ölkəmizdəki dağ yəhudilərinin tarixindən danışarkən mütləq Quba rayonundakı *Qırmızı Qəsəbəni* qeyd etmək lazımdır. Çünki bu qəsəbə postsovet məkanda dağ yəhudilərinin kompakt halda yaşadığı yer hesab olunur. Qudyalçayın sol sahilində yerləşən Qırmızı Qəsəbə XVIII əsrdə Quba xanlığı dövründə salınmışdır. Əvvəllər "Yəhudi Qəsəbəsi" adlanan sözügedən yaşayış məntəqəsi hətta bir vaxtlar "Qafqazın Yerusəlimi" kimi də məşhurlaşmışdı.

Dağ yəhudilərindən sonra Azərbaycan ərazisində məskunlaşan ən qədim yəhudi icması gürcü yəhudiləridir. Özlərini *"ebraeli*" və ya *"israeli"* adlandıran gürcü yəhudiləri qədim zamanlardan Gürcüstan ərazisində yerləşmiş, gürcü dilində danışan yəhudi subetnik qrupun nümayəndələridir.

Gürcü yəhudiləri Azərbaycana ilk dəfə XVIII əsrdə gəlməyə başlamışlar. Sonrakı illərdə gürcü yəhudilərinin Azərbaycana axını intensivləşmiş və bu proses Birinci Dünya müharibəsinədək davam etmişdir. Hazırda ölkəmizdə gürcü yəhudiləri sayca ən kiçik yəhudi subetnik qrup sayılır. Onlar əsasən Bakı şəhərində yaşayırlar.

Azərbaycanda yaşayan digər yəhudi icmasının nümayəndələri, yəni aşkenazilər barədə danışarkən, ilk növbədə qeyd etmək lazımdır ki, bu subetnik qrup Erkən Orta əsrlərdə Mərkəzi Avropada formalaşmışdır. Orta əsr yəhudi ədəbiyyatında "aşkenazi" adı altında Reyn çayının sahilində, daha sonra isə alman torpaqlarında yaşayan yəhudilər nəzərdə tutulurdu.

Bu termin orta əsrlərdə yəhudilərin Almaniyaya verdikləri addan törəmişdir. Yəhudi ənənəsinə görə, Yasəfin (Nuh peyğəmbərin oğlu) nəvəsi, əfsanəvi Aşkenazanın nəsli Almaniya torpaqlarında məskunlaşmışlar. Ona görə də yəhudilər həmin ölkəyə bu adı vermişlər. Zaman keçdikcə bu termin subetnik anlayış kimi təkcə Almaniyadakı yəhudilərə deyil, onların nəslindən olan və digər Avropa ölkələrinə köçən yəhudilərə də şamil edilmişdir.

Aşkenazilərin ana dili *idişdir.* Bu dil X-XIV əsrlərdə Mərkəzi və Şərqi Avropada alman dilinin orta əsrlərdə yayılmış ləhcələri, eləcə də ibrani, arami, roman, slavyan dilləri əsasında yaranmışdır.

Qeyd edək ki, aşkenazilərin Azərbaycanda məskunlaşması çar Rusiyası dövrünə təsadüf edir. Belə ki, ilk aşkenazilər 1832-ci ildə Bakıda məskunlaşmışlar. XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakıda yaşanan neft bumu səbəbilə şəhərdəki yəhudi əhalisinin, o cümlədən aşkenazilərin sayı sürətlə artmışdır. 1897-ci ildə Bakıda iki mindən yuxarı yəhudi vardı ki, onların da əksər hissəsini aşkenazilər təşkil edirdi.

Bununla yanaşı, 1903-cü ildə Kişinyovda, 1905-ci ildə Odessada, 1906-cı ildə Belostokda, habelə Rusiya imperiyasının digər məntəqələrində baş vermiş yəhudi qırğınları nəticəsində bir çox aşkenazi Azərbaycana pənah gətirmiş, əsasən, Bakıda məskunlaşmışdır. Qırğınlardan xilas olmaq üçün ölkəmizə üz tutmuş aşkenazilər burada özlərinə ikinci vətən tapmışlar.



*Bakı şəhərində Dağ yəhudilərinin sinaqoqu.*

Müasir Azərbaycandakı yəhudilərin vəziyyətinə gəlincə, qeyd etmək lazımdır ki, onlar, əsasən, Bakı, Gəncə, Sumqayıt şəhərlərində, həmçinin Quba və Oğuz rayonlarında yaşayırlar. Hazırda ölkəmizdə mövcud olan yəhudi icmaları Azərbaycan dövlətinin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Bunun bariz nümunəsi dövlət başçısı cənab İlham Əliyevin təşəbbüsü və dəstəyi sayəsində

Bakı şəhəri Dağ Yəhudiləri dini icması üçün yeni sinaqoqun tikilməsidir. 2010-cu ildə təməli qoyulan həmin sinaqoq 2011-ci ilin aprel ayında dindarların istifadəsinə verilmişdir.

Eyni zamanda, hər il yəhudi xalqının yeni ili – *"Roş ha-Şana"* bayramı münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti ölkəmizdəki yəhudi icmasına təbrik ünvanlayır.

Burada Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusən qeyd edilməlidir. Belə ki, Bakıda yaşayan yəhudi uşaqlar üçün "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində Heydər Əliyev Fondu və "Or-Avner" Beynəlxalq Fondu tərəfindən "Xabad-Or-Avner" Təhsil Mərkəzi inşa olunmuşdur. 2007-ci il mayın 31-də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın iştirakı ilə həmin mərkəzin təməlqoyma mərasimi keçirilmişdir. Təhsil Mərkəzinin tikintisi 2010-cu ildə başa çatmışdır. 2010-cu il oktyabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, eləcə də MDB Yəhudi İcmaları Federasiyasının və "Or-Avner" Beynəlxalq Fondunun prezidenti Lev Levayev Təhsil Mərkəzinin açılışında iştirak etmişlər.

Bundan başqa, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində, habelə Ağabəy Novruzbəyli adına 46 nömrəli tam orta məktəbdə rus bölməsinin nəzdində yəhudi mənşəli uşaqlardan ibarət olan siniflərdə ibri dili tədris olunur.

Onu da qeyd edək ki, bu gün Azərbaycanda yəhudi icmaları ictimai həyatda fəal iştirak edirlər. Respublikada Azərbaycan-İsrail Dostluğu Cəmiyyəti, "Soxnut" yəhudi agentliyi, "Coynt", "Vaad-L-Xatzola" kimi iri yəhudi xeyriyyə təşkilatları, Azərbaycan Yəhudi Qadınlarının Humanitar Assosiasiyası, yəhudi dini məktəbləri (iyeşivalar), "Azərbaycan-İsrail" Mədəni Əlaqələr Cəmiyyəti, "Xava" adlı qadın cəmiyyəti və digər yəhudi qeyri-hökumət təşkilatları fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi saytında verilən məlumata əsasən, respublika ərazisində yeddi sinaqoq və səkkiz yəhudi dini icması fəaliyyət göstərir.

Beləliklə, müasir dövrdə Azərbaycanda yəhudilər antisemitizmdən uzaq, tolerant mühitdə yaşayırlar. Bu isə təsadüfi deyildir. Çünki bütün tarixi dövrlərdə yəhudilər ölkəmizdə özlərini böyük bir ailənin bərabərhüquqlu üzvü kimi hiss etmiş, dünyada antisemitizmin tüğyan etdiyi dövrlərdə belə Azərbaycan xalqı onlara yad münasibət göstərməmiş, əksinə, yəhudi mənşəli həmvətənlərimiz dostluq, həmrəylik, qarşılıqlı anlaşma şəraitində yaşamışlar.

## 4.2. Uzaq Şərq

### 4.2.1.Konfutsiçilik

Konfutsiçilik Çin sivilizasiyasının mənəvi-mədəni imicini formalaşdıran iki əsas ənənəvi təlimdən biridir (digəri daosizmdir. –Red.). Uzun əsrlər boyu bu təlim Çin dövlətinin ideoloji əsaslarını təşkil etmişdir. 1911-ci ildə monarxiyanın devrilməsinə və Çin Xalq Respublikasının yaranmasına qədər Konfutsiçilik "Səma altının" dövlət ideologiyası və rəsmi dini olmuşdur. Çinlə yanaşı, Koreya, Yaponiya kimi bir sıra ölkələrin dini inanc sisteminə daxil olmuşdur.

Mənəvi-mədəni fenomen olaraq Konfutsiçiliyin təbiətinə dair elm adamları arasında iki fikir mövcuddur. Bir sıra tədqiqatçılar Konfutsiçiliyi din statusunda görmürlər, əsasən etik-siyasi doktrina kimi nəzərdən keçirirlər. Ancaq bütün sinoloq-tədqiqatçılar Çin dinini "üç təlim" kimi təqdim edirlər: Konfutsiçilik, Daosizm və Buddizm.

Ənənəvi olaraq, dinşünaslığa aid dərsliklər də bu prinsipə əməl edərək Konfutsiçiliyi din sahəsinə daxil edirlər. Belə ki, dünyəvi görünən xarakterinə baxmayaraq, Konfutsiçilik dini doktrinanın əsas meyarlarına tam uyğundur. Məzmun etibarilə o, insanın mənəvi fəaliyyət sahəsinə aiddir, insan həyatının daxili məzmununu harmonikləşdirən mistik təcrübəni nəzərdə tutur, Səma və əcdadlar qrupu şəklində mənəvi dünyanın varlığını təsdiqləyir, ritualların həyata keçirilməsinin, xüsusilə də, qurban vermənin zəruriliyini tanıyır.

Konfutsiçilik termini Avropa mənşəlidir və təlimi formalaşmasına təsir göstərən şəxsin adından yaranmışdır. Çinin özündə isə bu təlim *"ju tzya"* kimi tanınır. Mənası "mütəfəkkirlərin, müdriklərin təlimi", yaxud "alimlər məktəbi" deməkdir.

Konfutsi Çin mütəfəkkiri və filosofu Kon Fu Dzının latınlaşdırılmış adıdır. O, e.ə. 551-479-cu illərdə yaşamışdır. Filosofun yaşadığı dövr böyük sosial və siyasi sarsıntılar dövrü idi – Çjou xənadanının hökmdarı Xan öz qüdrətini itirmişdi, patriarxal ənənəvi normalar sıradan çıxırdı, ümumiyyətlə, dövlət institutu dağılmaqda idi. Belə bir şəraitdə zadəganların bəzi nümayəndələri əvvəlki nüfüzunu itirərək ənənəvi Çin mətnlərini öyrətməklə, özəl dərslər vasitəsilə dolanmağa çalışırdı. Bu müəllimlərdən biri də Konfutsi olmuşdur.

Mənbələrə əsasən, Konfutsi 19 yaşında evlənmiş, ancaq ailə həyatında xoşbəxtlik tapmamışdır. Onun xanımının adı bilinmir, ancaq onların bir qızı və bir oğlu olmuşdur. Konfutsinin nəslinin nümayəndələri bu gün də Tayvan ərazisində yaşayır və böyük ehtiram görürlər.




*Konfutsinin portreti. Çin rəssamı Vu Daodzı. VIII əsr.*

Ümumiyyətlə, Konfutsi özü ailə ocağını və ev rahatlığını əsl mütəfəkkirə və "alicənab ərə" layiq görmürdü. Nəticədə o, öz təlimini reallaşdırmaq imkanı axtarışında tez-tez yer dəyişərək səyyah həyatı yaşamışdır.

Evlilik həyatına qədər Konfutsi o dövrdə hər bir təhsilli adamdan tələb olunan "Altı sənət"i, yaxud "Altı qanun"u *("lyu-i")* mükəmməl şəkildə mənimsəmişdi. Bu qabiliyyətlər kompleksinə ritualların izahı, musiqi savadı, ox atmaq və araba çəkmək bacarığı, yazmaq və saymaq daxil idi.

Tarixçi Sima Qian bildirir ki, Konfutsi mahnı, adət-ənənə, ritual və musiqi öyrədirdi. Onun təxminən üç min şagirdi vardı, onlardan yetmiş ikisi altı sənətin hamısını tamamilə mənimsəmişdi, onun təlimini öyrənənlərin sayı isə həddən çox idi. Öz dərslərini söhbətlər şəklində təşkil edən Konfutsi tələbələrindən bunun qarşılığında çox cüzi məbləğ – "üç quru ət paketi" alırdı. Ancaq bunu verməyə gücü yetməyənlər də öyrətməkdən imtina etmirdi. Buna görə də onun şagirdləri arasında yalnız varlı ailələrin nümayəndələri deyil, həm də sadə insanlar olmuşdur. Bununla Konfutsi öz ideyasını təsdiqləyirdi: "alicənab ər" adı nəsil vasitəsilə qazanılmamalıdır, bu, insanın daxili vəziyyətinin nəticəsidir.

Konfutsi öz təlimində ibtidai inanclara - əcdadlar kultu, torpaq kultu, qədim çinlilərin ali tanrısı və əfsanəvi atası sayılan Şan-diyə ehtirama əsaslanmışdır. Nəticədə o, yer üzündə bütün canlıların taleyini müəyyənləşdirən ən yüksək ilahi güc olaraq Səma ilə əlaqələndirilməyə başlanılmışdır. Bu müdriklik və güc

mənbəyi ilə genetik əlaqə ölkənin adında “Səma altı” və XX əsrə qədər onun hökmdarının titulunda “Səmanın oğlu” şəklində kodlaşdırılmışdır.

Müəllimliklə yanaşı, Konfutsi arxeoqrafiya və qədim mətnlərin redaktəsi ilə də məşğul olmuşdur. Xüsusilə, o, aşağıdakı mətnlər üzərində böyük səylə çalışmışdır: “İ Tzin” (Dəyişikliklər kitabı), “Şu Tzin” (Sənədlər kitabı), “Şi Tzin” (Mahnılar kitabı), “Li Tzi” (Ritual haqqında qeydlər), “Yue Tzi” (Musiqi haqqında qeydlər). Çin mədəniyyətinin əsas, ana mətnləri sayılan bu mətnlər “Səma altı” sakinlərinin dünyagörüşünün və milli xarakterinin formalaşmasına, dolayısı ilə də Uzaq Şərqin digər xalqlarının mədəniyyətinə mühüm təsir göstərmişdir.

Konfutsi yazıçılıqla da məşğul olmuş, “Baharlar və payızlar” adlı kitab yazmışdır. Kitab Lu hökmranlığının e. ə. 722-479-cu illəri əhatə edən xronikasından ibarətdir. Dahi Çin mütəfəkkirinin siyasi və etik görüşləri isə şagirdləri tərəfindən tərtib edilmiş “Lun yuy” (“Söhbətlər və mülahizələr”) adlı kitabda ifadə edilmişdir. Bu mətn filosofun həyat və fəaliyyəti haqqında əsas məlumat mənbəyidir.

Konfutsi qurbanlar vasitəsilə səmaya (“Tyan”) pərəstişin vacibliyini vurğulayır və onun iradəsini (“min”) öyrənməyə çağırırdı. Hələ qədim zamanlardan məlum olan “min” termini Konfutsinin əsərlərində daha da inkişaf etdirilmişdir. Çox vaxt o, “tale”, “səmanın iradəsi” kimi tərcümə olunur. Konfutsiyə görə, insan səmanın iradəsini dəyişmək iqtidarında deyil. Ancaq o, səmanın ondan nə istədiyini bilməlidir. Digər tərəfdən, bu, müəyyən bir insanın şəxsiyyətinə deyil, onun sosial-siyasi statusuna aiddir. Sadə dillə desək, səma cəmiyyətinin hər üzvü, dövlətin hər vətəndaşının öz öhdəsinə düşən vəzifələrə uyğun hərəkət etməsini istəyir.

Konfutsi “Tyan min”i (Səmanın iradəsini) bilməyi mükəmməlliyə can atan hər kəs üçün vacib sayırdı və söyləyirdi: “(Səmanın) iradəsini bilmədən, “alicanəb ər” olmaq mümkün deyil”. “Min”i bilmək insana mühüm üstünlük qazandırır - tez-tez ona əziyyət verən daimi tərəddüd və şübhələrdən azad edir. Çünki “Min”i bilən şəxs itirmək qorxusu olmadan hərəkət edir. Onun hərəkəti yekun, praktiki, faydalı nəticələrlə deyil, şəxsi vəzifəsinə uyğun olaraq qiymətləndirilir. Bu həm də insanı qazanmaq ehtirasından və fəlakətə sürükləyən məğlubiyyət qorxusundan azad edir. O, necə davranmalı olduğunu bildiyindən daxili hüzur əldə edir. Bu yanaşmanın nəticəsi olaraq, konfutsiçilikdə “məqsədsiz fəaliyyət” konsepsiyası formalaşmışdır. Konfutsinin bütün həyatı demək olar

ki, bu prinsipin həyata keçirilməsinə yönəlmişdi. Uzun illər səsinin eşidilib-eşidilməyəcəyinin qayğısına qalmadan, siyasi xaos dövrünə baxmayaraq, öz təlimini yaymaq üçün neçə şəhər, neçə ölkə dəyişdirmişdir. O, öz xidməti haqqında bunları deyirdi: *"Əgər mənim təlimim həyata keçsə, bu, Səmanın iradəsidir, həyata keçməsə, yenə də Səmanın iradəsidir"*.

Bəs "alicənab ər" Konfutsiçilikdə kimdir? Çin dilində *"tzyun tszı"* şəklində ifadə olunan bu sözün hərfi mənası "hökmdarın oğlu" deməkdir. *"Tzyun tszı"* Konfutsinin öz ardıcıllarına mənəvi bələdçi kimi təqdim etdiyi nümunəvi şəxsiyyətdir. Filosof özünü heç vaxt birbaşa *"tzyun tszı"* adlandırmasa da, bu idealı həyatında gerçəkləşdirməyə çalışmışdır.

"Alicənab ər" təliminin əsasında şəxsin əxlaqi özünüinkişaf ilə ictimai-dövlət fəaliyyətinin əlaqələndirilməsi ideyası durur. Belə bir şəxsin fəaliyyətinin əsas məqsədi qədim imperatorlar Yao və Şunun dövründəki ideal dövləti yaratmaqdır. Konfutsi iddia edirdi ki, yalnız yüksək mənəviyyata sahib, mükəmməl insan hökumət idarəçiliyində iştirak edə bilər.

*"Tzyun tszı"*n ziddi *"syao jen"*dir ("rəzil adam, balaca insan" kimi tərcümə olunur. Red.). *"Sjao jen"* bütün mənfi xüsusiyyətlərin, necə etmək lazım olmadığının nümunəsidir. O, Səmanın iradəsini yerinə yetirmək istəməyən, yalnız öz mənfəətini güdərək çətin vəziyyətlərdə ləyaqətini qorumayan insandır. Maraqlısı budur ki, Konfutsiçiliyin milli şüura təsiri nəticəsində Çində tacirlər iyerarxiyaya görə kəndlilərdən aşağı pillədə yerləşirdi.

Konfutsinin ardıcılları öz müəllimlərinin təlimini sistemləşdirərək "alicənab ərin" beş məziyyətini müəyyənləşdirmişlər. "Beş dəyişməzlik" adı verilən konsepsiya bunları əhatə edir: "jen" – insanpərvərlik, "i" - ədalət, "li" – ritual, "çji" – şüurluluq və "sin" - səmimiyyət.

Ənənəvi Çin təsəvvürlərinə əsasən, yerdəki həyatla səmavi dünya arasında əhəmiyyətli fərq yoxdur, hətta o, səmavi dünyanın yerdəki inikasıdır. Bu, hökmdarın hakimiyyətinin müqəddəsləşdirilməsinə və bürokratiyanın inzibati vəzifələrinin ruhani funksiyaları ilə birləşməsinə səbəb olmuşdur. Hətta dövlət səviyyəsində ayinlərin düzgünlüyünə və vaxtında yerinə yetirilməsinə nəzarət edən xüsusi bir şöbə - Mərasimlər departamenti var idi. O, imperatorluğun altı ən yüksək idarəetmə orqanlarından biri idi. Qeyd olunur ki, fəxri adların tanrılarına məvacib verilməsi təcrübəsi belə olmuşdur.

Ritual Səma reallığının dünyaya daxil olma aktı sayılırdı. Eyni zamanda,

o, insanların yaşayış tərzini səmavi, ilahi qaydalara uyğunlaşdırırdı. Ritualın yoxluğu isə Səma ilə əlaqənin kəsilməsi demək idi. Bu isə insan cəmiyyətinin deqradasiyası, anarxiya sayılırdı. Dövlət mərasimlərinin əsas məqsədi cəmiyyətin rifahını təmin etmək idi. Onun üzvləri daxilən düzgün yetişmədən buna nail olmaq qeyri-mümkün idi. Rituallar tanrı ilə əlaqə yaratmaqla yanaşı, onda iştirak edən hər kəsə münasibətdə harmonikləşdirmə rolunu oynayırdılar. Onlar insan hərəkətlərinə yön verir və cəmiyyətdəki yerlərini göstərirdilər. Təsadüfi deyil ki, Çində rəsmi şəxslər ritualları yerinə yetirməməkdə ittiham olunduqda ağır cəzaya məruz qalırdılar.

Ritualların əsas elementi isə müxtəlif şəkillərdə yerinə yetirilən qurban vermə ayinləri idi. Qurban obyekti olaraq yemək və ya digər əşyalar istifadə olunurdu. Qurbanın yandırılması isə onun yeni varlıq səviyyəsinə keçməsini nəzərdə tuturdu. Bir qayda olaraq, bütün mərasimlər musiqi ilə müşayiət olunurdu. Bu məqsədlə məbədlərdə zəruri hallarda orkestr tərəfindən ifa olunan xüsusi musiqi alətləri saxlanılırdı.

## 4.2.2.Daosizm

"Daosizm" özündə dini və fəlsəfi elementləri birləşdirən ənənəvi Çin təlimidir. Bu termin Çin dilində "yol haqqında təlim" mənasına gələn "dao-jiao" sözündən törəmişdir. Tədqiqatçılara görə, daosizm ənənəsi eramızdan əvvəl V-III əsrlərdə formalaşmışdır. İlk daosist dini təşkilat isə bizim eranın II əsrində meydana gəlmişdir. Belə ki, həmin dövrdə dağlarda tərki-dünya həyatı yaşayan Çjan Daolin "Səmavi Ustadların Yolu" adlı dini məktəb yaratmış, bununla da ilk daosist icmanın banisi kimi tarixə düşmüşdür.

Daosizmin banisi eramızdan əvvəl VI-V əsrlərdə yaşadığı iddia olunan çinli mütəfəkkir Lao-Tzu və ya Lao-Tsı (çin dilində "yaşlı körpə", "müdrik qoca" mənasına gəlir) sayılır. Onun həyatı haqqında çox az məlumat vardır. Məşhur çin tarixçisi Sım-Tsənin "Tarixi rəvayətlər" adlı əsərində verdiyi məlumata görə, Lao-Tzu Çinin cənubunda yerləşən Çu çarlığının Xu qəzasındakı Tsüycen kəndində dünyaya gəlmişdir. O, Çjou sülaləsi dövründə dövlət kitabxanasının kitabxanaçısı və imperator arxivinin mühafizi vəzifəsində işləmişdir. Bu isə onun yüksək təhsilə malik olmasından xəbər verir. Rəvayətlərə görə, Lao-Tzu Konfutsi ilə görüşmüşdür. Bundan sonra

Konfutsi şagirdlərinə belə demişdir: *"Mən bilirəm ki, quş uça, balıq üzə, vəhşi heyvan isə qaça bilir. Qaçanı tələyə, üzəni tora salmaq, uçanı isə oxla vurmaq olar. Əjdahaya gəldikdə isə, mən bilmirəm, necə olur ki, o, küləyi yəhərləyib, buludları dələrək, səmaya doğru irəliləyir. Mən bu gün Lao-Tzu ilə görüşdüm, o, əjdaha kimidir!"*.

Əfsanəyə görə, insanları sadə və tərki-dünya həyat tərzi sürməyə dəvət edən Lao-Tzu ahıl yaşında doğma yurdunu tərk edərək qərbə tərəf getmişdir. O, Çinin son sərhəd məntəqəsinə çatdıqda sərhəd rəisi ondan öz təlimi haqqında danışmağı xahiş etmişdir. Sərhəd rəisinin xahişini yerinə yetirən Lao-Tzu "Dao de tszin" adlı kitab qələmə almişdıır. Daha sonra isə dünya həyatından tamamilə uzaqlaşaraq naməlum yerlərə getmişdir. Ona görə də Lao-Tzunun vəfat tarixi və yeri məlum deyildir.

"Dao de tszin" kitabının müəllifi Lao-Tzu hesab olunsa da, bu dini-fəlsəfi əsər onun yaşadığı dövrdən sonra yazılmışdır. Tədqiqatçılar bu kitabın yazılma tarixini e.ə. III əsrə aid edirlər. Hətta bir çox araşdırmaçılar tarixdə Lao-Tzu adlı şəxsiyyətin mövcud olmadığını bildirirlər.

Qeyd edək ki, daosizmin dini ənənəsinin inkişafında Yan Çju (e.ə. 440/414-380/360 illər) adlı şəxs böyük rol oynamışdır. O, Yan Tzi və ya Yan Şen adı ilə də tanınır. Onun dünyagörüşünü bu şəkildə xülasə etmək mümkündür: "Hər kəs özü üçündür" və "Hər şeyə nifrət etmək, həyatı yüksək qiymətləndirmək".

Daosizmin inanc prinsipləri üç kitaba əsaslanır: *"Dao de tszin", "Çjuan tszı" və "Le tszı"*. Daha əvvəl bəhs etdiyimiz "Dao de tszin" daosizmin ən əsas kitabı sayılır. Bu kitab 81 kiçik fəslə bölünmüşdür və 5000 heroqlifdən ibarətdir. Məzmun baxımından olduqca sirli mətndir. Buna görə də hər bölüm bir neçə variantda şərh edilmişdir. Traktatda Dao apofatik (bütün mümkün təriflərin inkarı yolu ilə Tanrının mahiyyətinin izah olunması. Məs.: Tanrı – günahsızdır, ölümsüzdür, sonsuzdur. – Red.) tərzdə təsvir edilmiş, ona ilahi atributlar verilmiş, bütün varlığın başlanğıcı kimi təqdim olunmuşdur. Həmçinin fiziki dünyada Daonun təzahürü olan De xeyir gücündən də bəhs edilmişdir.

Daosizmin ikinci əsas kitabı olan "Çjuan tszı" adını müəllifi sayılan filosof Çjuan Tszıdan götürmüşdür. Konfutsiçiliyə qarşı polemik fikirlərin yer aldığı bu traktatda ayinlərin mənəvi və praktiki dəyəri ideyası inkar edilir. Burada obrazların köməyi ilə insan biliklərinin nisbiliyi, ümumiyyətlə, mövcud olan hər şeyin nisbiliyi ideyası irəli sürülür.

“Le-tszı” adlı üçüncü kitab da öz müəllifi Le Yuy-konun şərəfinə belə adlandırılmışdır. Bu əsərdə daoistlərin təbiət və ətraf dünya ilə bağlı fəlsəfi prinsipləri izah olunur. Burada həmçinin insanın şəxsi rifahının onun ictimai mənfəətindən üstün olduğu ideyasına yer verilir.

Daosizmdə əsas kateqoriya “Dao”dur. Onun ifadə olunduğu heroqlif aşağıdakı mənalara gəlir: qanunauyğunluq, prinsip, yol, danışmaq və s. Daosizmin dini-fəlsəfi sistemində Dao - hər şeyin başlanğıcı, eyni zamanda bütün aləmin və varlıqların yaranma və var olma səbəbini izah edən kainatın təməl qanunudur.

Daosizmin ikinci təməl kateqoriyası sayılan De isə xeyir qüvvə, məziyyət kimi tərcümə olunur. “Dao de tszin”in 51-ci fəslində deyilir: *“Dao (şeyləri) yaradır, de (onları) yedizdirir, böyüdür, tərbiyə edir, təkmilləşdirir, kamil edir, (onların) qayğısına qalır, (onlara) dəstək olur. Vücuda gətirmək və mənimsəməmək, yaratmaq və öyünməmək, böyük olmaq və hökm verməmək – bütün bunlar ən dərin “de” sayılır”.*

Daoya ehtiram ilk baxışda daosizmin monoteist din olduğu fikrini formalaşdıra bilər. Ancaq daoist panteonuna müxtəlif xalq inanclarından, həmçinin digər dini ənənələrdən (məs.: buddizm) götürülmüş çoxsaylı tanrılar daxildir.

Daosizmə əsasən, şərti olaraq tanrılar iki qrupa bölünür: *“səmadan öncəkilər”* – görünən dünya yaranmadan öncə mövcud olanlar və *“səmadan sonrakılar”* – yer üzündə yaşayan və ölümsüzlük əldə edənlər. Sonunculara həm də kiçik ilahi personajlar aid edilir. Daodan sonrakı mərtəbəni “Üç pak” adlanan tanrılar tutur: İlk səma hökmdarı, Səmanın hörmətli mənəvi cəvahiratları, Ali hökmdar Lao, yaxud Ən qədim ali hökmdar (Lao-Tzunun təcəssümlərindən biri sayılır). “Səmadan sonrakılar” arasında isə ölümsüzlük və möcüzə göstərmək qabiliyyəti əldə etmiş 8 personaja xüsusi ehtiram göstərilir.

Daoistlər dünyanın yaranmasını faciə kimi qəbul edir. Çünki dünya Daodan ayrılma nəticəsində meydana çıxmışdır. Bu isə hər şeyin, hər məxluqun öz mənşəyindən qopması deməkdir. Odur ki, varlıq faciəsinin qarşısını almaqdan ötrü əsas kateqoriyaları “boşluq” və “sadəlik” olan Daoya bənzəmək lazımdır. Bu baxımdan xaosun özü nizam-intizamdan daha üstün sayılır, çünki o, ümumi başlanğıcdan daha az uzaqlaşmışdır.

Daoistlər Daodan ayrı düşdüyünə görə dünyanın mövcudluğu kimi, insanın

var olmasını da faciə sayırlar. Daosizm Çin mədəni ənənələrində məşhur olan prinsipi insan mövcudluğunun əsas məqsədi elan etmişdir: "Ölmədən uzun müddət yaşamaq". Məhz ölümün öhdəsindən gəlmək, iztirab və xaosa tabe olmayan xüsusi vəziyyətə çatmaq daoistlər tərəfindən son məqsəd olaraq elan edilmişdir.

Daoist ibadətinin klassik, ilk növbədə, ictimai normaları haqqında ümumi təsəvvürləri Tayvanda bu günə qədər mövcud olan daoist icmalarının müasir ibadət təcrübəsindən əldə edə bilərik. Dini mərasimlər ikipilləli iyerarxiya şəklində təmsil olunan ruhani sinfinin nümayəndələri tərəfindən həyata keçirilir. Ən yüksək pillədə "Dao-şi" (hərfi mənada "yol rəhbəri, müəllim") durur. O, kosmik bərpa ritualı sayılan daoist ibadətini yerinə yetirmək hüququna sahibdir. Bu ibadəti hər ayın birinci və on beşinci günü yerinə yetirirlər. İbadət qədim Çin ədəbi dilində keçirilir. Onu yalnız ən təhsilli çinlilər anlaya bilərlər. Zəruri hallarda Dao-şi, adətən, aşağı pillədəki ruhanilər tərəfindən həyata keçirilən ayinləri də yerinə yetirə bilər.

Aşağı pillədə isə "Fa-şi" (hərfi mənada "qanunu öyrədənlər") durur. Onlar danışıq dilində aşağı ilahlara həsr olunmuş ayinləri, o cümlədən xüsusi mərasimləri (məsələn, şeytanın qovulması kimi ayinləri) yerinə yetirirlər.

## 4.2.3. Sintoizm

Yaponların milli dini olan Sintoizmin tarixi qədim dövrlərə gedib çıxır. Çoxtanrılı din olan Sintoizm bir növ arxaik şaman kultlarının varisidir. Xalqın ruhunun təzahürü kimi ortaya çıxan bu ənənəvi yapon dini onun mentalitetinə, tarixinə, mədəniyyətinə, ölkənin siyasi və ictimai həyatına təsir göstərmişdir.

Uzun əsrlər boyu yaponlar özlərinin ənənəvi inanclarını təyin etməyə ehtiyac duymamışlar. Bu ehtiyac xarici inanclar, ilk növbədə, buddizm, daosizm və konfutsiçilik kimi təlimlər Yaponiya adalarına ayaq açdıqdan sonra yaranmışdır. Məhz buddizmlə müxalifətdə *"kami-no-miti"* (hərfi mənada "tanrıların yolu".- Red.) termini ortaya çıxmışdır. Bu terminin Çin dilində eyni mənaya gələn analoqu "Şen Dao" adını almışdır ki, bu da Avropa dillərinə "sinto" şəklində keçmişdir.

Adətən, dinşünaslığa aid dərsliklərdə qeyd edilir ki, bu mənəvi ənənə özündə ibtidai xalqlara xas olan bütün inanc və ibadət növlərini – totemizm, animizm, sehr, əcdadlar kultu və s. birləşdirir. Qədim yaponlar onları əhatə

edən təbii hadisələri, bitki və heyvanları, ölmüş əcdadlarını ilahiləşdirir, ruhlar aləmi ilə vasitəçi rolunu oynayan sehrbazlara, maqlara, şamanlara hörmətlə yanaşırdılar.

Xalq inancı yapon dilində "kami-no-miti" söz birləşməsi ilə ifadə olunur. Kami kultun obyekti sayılır: ümumi ibadətlərdə, o cümlədən ev ibadətlərində ona sitayiş edilir. Bu terminin adekvat tərcüməsini tapmaq olduqca çətindir. Tədqiqatçılar arasında sözün etimologiyasına dair vahid fikir mövcud deyil. Avropa dillərinə əsasən "tanrı" və ya "ruh" şəklində tərcümə olunur.

Sintoizmə görə, insanlar, heyvanlar və daşlar kimi cansız obyektlər ruha sahibdirlər, buna görə də böyüyə bilirlər (ancaq olduqca asta). Bununla yanaşı, onlar həm də ilahi təbiətə malikdirlər, çünki dünya nizamını idarə edən və zərurət yarandıqda tarixin gedişinə müdaxilə edən Kami ilə əlaqəlidirlər.

Kultun mənşəyi və buna müvafiq olaraq da, panteona daxil olma üsulu baxımından bütün kamiləri dörd kateqoriyada ümumiləşdirmək mümkündür:

1. *Xalq arasında məşhur olanlar.* Bir qayda olaraq, Kami yatmış əcdadların yerlərinin və ya ruhlarının qoruyucusudur (məs.: dağların kamisi, çayların kamisi, təbiət hadisələrinin kamisi, ölmüş əcdadların kamisi.- Red.). Çox vaxt onların şəxsi adları, ikonoqrafik təsvirləri, hətta daimi səcdəgahları olmur;

2. *Mənşə baxımından xarici ilahi personajlar.* Onların şəxsi adları və fərdi şəkilləri var, çox vaxt şərəflərinə səcdəgahlar qurulur. Belə personajların klassik nümunəsini yeddi xoşbəxtlik tanrısı ("Daykoku", "Ebisu" və s.) təşkil edir.

3. *Tarixi personajlar, yaxud xüsusi şeylərin qoruyucusu qismində ehtiram bəslənənlər.* Onların adı mifoloji mənbələrdə qeyd edilmir, müqəddəs təsvirləri yoxdur, lakin çox məşhurdurlar. Bu kaminin adına ölkənin müxtəlif yerlərinə səpələnmiş bir çox məbəd və səcdəgahlar vardır. Bunun klassik nümunəsini elm və poeziyanın himayədarı Tendzin təşkil edir. O, real tarixi şəxsiyyət – IX əsr şairi Suqavara-no-Mitidzanenin ilahiləşdirilmiş formasıdır.

4. *Qədim mifoloji toplularda adları çəkilən əfsanəvi tanrılar və onların nəsilləri (imperator ailəsinin dünyasını dəyişmiş üzvləri).* Bu tanrılar dövlət səviyyəsində olduğundan onlara hər yerdə hörmət bəsləyirdilər. Vaxtilə onlara dövlət hesabına çoxlu məbədlər tikilmişdi. Ancaq bu tanrılar xalq arasında o qədər populyar deyil və tarixi kami qədər sevilmirlər. Bunlara misal kimi, panteonun baş tanrısı Amaterası göstərmək olar. O, hökmdar ailənin və birbaşa imperatorun özünün himayədarı sayılırdı.

Kamiyə bir neçə *"tama"* ("mənəvi qüvvə", "ruh".- Red.) verilirdi. Funksional mənada kami aşağıdakı tamaya sahib ola bilərdi:

*"arami-tama"* – dünyanı idarə edən və kaminin proseslərin təbii gedişatına müdaxiləsinə imkan verən;

*"nihimi-tama"* – yaddaş və harmoniya ilə əlaqədardır;

*"kusimi-tama"* – möcüzələr və dəyişikliklər etməyə qadirdir;

*"sakimi-tama"* – zövq, xoşbəxtlik verən.

Bunlarla yanaşı, Yaponiyada pis ruhlara da inanırdılar. Güman edilirdi ki, bunlar arzuolunmaz şəraitdə, faciəvi şəkildə ölən insanların və ya düşmənlərin ruhudur. Həmçinin inanılırdı ki, heyvanlar öldükdən sonra cinlərə (mono və ya mononoke) çevrilə və insanlara zərər verə bilərlər.

Sintoizmin əsas fərqləndirici xüsusiyyəti bu dinin heç bir kanonik mətnə sahib olmamasıdır. Bununla belə, yaradılış haqqında sintoist ruh və məzmunda olan miflər toplusu, qədim əfsanələr mövcuddur. Bunlardan ən məşhuru "Kodziki" ("Qədim işlər haqqında qeydlər") və "Nihongi"dir ("Yapon xronikaları"). VII əsrin sonunda imperator Temmanın fərmanına əsasən tərtib olunmuş və 712-ci ildə tamamlanmış "Kodziki" zamanın başlanğıc hadisələrinə dair bir sıra qeydlərdən ibarətdir. Burada tanrıların, dünya və insanların yaranmasından, həmçinin kral hakimiyyətinin meydana gəlməsindən bəhs edən miflər toplanmışdır. Həmçinin o, qədim əfsanəvi dövlət başçılarının və 628-ci ilədək real tarixi hökmdarların təsvirini ehtiva edir. 720-ci ildə Çin dilində tərtib olunmuş "Nihongi"də tanrılar dövrü və dünyanın yaranması haqqında əfsanələr yer almışdır, eləcə də keçmişdəki qəhrəmanların zəfərləri və imperatorların şəcərələrindən bəhs olunur.

VI əsrdən başlayaraq Yaponiya hökuməti buddizmi dövlət ideologiyası kimi qəbul etdikdən sonra Sintoizm ikinci plana keçmişdir. O, tamamilə aradan qalxmasa da, yeni gələn din ilə daim rəqabət halında olmuşdur. Digər tərəfdən, buddizmlə yanaşı, yaponların həyatında daosizmin və konfutsiçiliyin təsirləri də özünü büruzə verirdi. Buddizmi inzibatçı üsullarla dəstəkləyən dövlət, eyni zamanda Sintoizmi tənzimləyərək öz məqsədləri üçün istifadə etməyə çalışırdı. Bu vəziyyət 1868-ci ilə - qarşıdurma və iğtişaşlar dövründən sonra imperator Meydzinin (1852-1912) öz hakimiyyətini bərpa etməsinə qədər davam etmişdir. Bütün sahələrdə genişmiqyaslı islahatlar aparmağa başlayan imperator Sintoizmə də hakim din statusunu qaytarmış və ona milli dirçəliş ideologiyasının daşıyıcısı rolunu vermişdir.

XX əsrin 30-cu illərində Yaponiya artıq militarizmin və millətçi şovinist ideyaların təsiri altında yaşayırdı. Xüsusilə, Birinci Dünya müharibəsi illərində hərbi əməliyyatlar zamanı yapon əsgərlərinin cəsarəti və özlərini qurban etməyə hazır olmaları hər kəsi heyrətə gətirirdi. Xüsusi intihar qrupları – kamekadze dəstələri yaradılırdı.

Həmin dövrdə belə bir dini konsepsiya mövcud idi ki, baş tanrı Amateras pilotlara Yaponiyanı qorumaq üçün xüsusi missiya tapşırmışdır. Döyüşdə ölənlər qəhrəman adı qazanır, kami elan olunurdu. Onların adına məbədlər tikilir, ailələri isə həmvətənləri tərəfindən hörmətlə qarşılanırdı. Ölkəsi və imperator üçün canını verməyə hazır olan gənclərin sayı bunun üçün nəzərdə tutulmuş təyyarələrin sayından qat-qat çox idi. Ancaq 1945-ci ilin avqust ayında Hirosima və Naqasakiyə atılan atom bombaları, həmçinin Rusiyanın Yaponiyaya qarşı müharibəyə başlaması vəziyyəti dəyişdi. Bu hadisələr nəticəsində 2 sentyabr 1945-ci ildə Yaponiyanın qeyd-şərtsiz təslim olması barədə akt imzalandı.

1945-ci ilin dekabrında dini qurumlara etiqad azadlığı verən sərəncam qəbul olundu. Sintoizm milli din və ideologiya statusundan məhrum edildi. 1946-cı ilin fevralında özündə 100 min məbəddən 80 minini birləşdirən Sinto Məbədləri Assosiasiyası yaradıldı. 1947-ci ildə isə Yaponiya yeni sekulyar konstitusiya qəbul etdi.



*İtsukusima məbədinin "torii" darvazaları. Yaponiyanın Hiroşima prefekturası. 1875-ci il.*

Bu gün yaponların əksəriyyəti praktikada az dindar olsalar da, özlərini eyni anda həm sintoist, həm də buddist sayırlar. Yaponiya ərazisinin müxtəlif bölgələrində fərqli ölçüyə və ehtiram dərəcəsinə malik 100 min məbəd vardır. Ənənəvi olaraq, sinto məbədi "cinca" (yapon dilindən tərcümədə "müqəddəs yer, ibadətgah" deməkdir.- Red.) adlandırılır. Onu vizual olaraq buddist məbədindən fərqləndirən özünəməxsus cəhət

"torii" adlanan darvazalardır. Bu darvazalar məbədin müqəddəs ərazisini ətraf yerlərdən ayırır.

Bir çox dindar yaponların evində kiçik ev səcdəgahları – "kamidana"lar (hərfi mənada "kami üçün rəf") olur. Bunlar xüsusi ehtiram bəslənilən əcdadların, yaxud ailə üçün əhəmiyyətli olan ruhların şərəfinə tikilir.

Xalq mərasimləri ruhanilər, "kannusi" adlanan kahinlər tərəfindən həyata keçirilir. Qədim dövrlərdə hesab olunurdu ki, məbəd ayinləri zamanı kaminin ruhu kahinin bədəninə keçir. Başqa sözlə, kannusi şaman rolunu oynayırdı.

Burada sinto ibadətinin əsas struktur nöqtələrini vurğulamaq yerinə düşərdi. Məbəd yolunda ilk addım yuyunma ayini – "misoqi"dən başlayır. Bunun ardınca təmizlənmə ("harae") ayini gəlir. Bu zaman xüsusi təmizləyici dualar oxunur, sonra isə ucuna ağ kağız parçaları yapışdırılmış ritual çubuğu ilə dua edənlərə xeyir-dua verilir. İştirakçılar həsirin üstündə əyləşirlər və kaminin çağırılması, yaxud enməsi ayini keçirilir. Bu zaman çox vaxt xüsusi mahnı ifa olunur. Kannusi pərəstişkarlarının hüzuruna "enmiş" kamiyə yemək təqdim edir və onu tərifləyən dualar oxuyur. Ardınca inananlar fərdi olaraq tanrıya bəxşiş – ucuna ağ kağız parçaları yapışdırılmış müqəddəs ağacın budağını təqdim edirlər. Bu, ruha ünvanlanan istəklərin simvoludur. Növbə qurban edilmiş qidaların götürülməsinə çatır: kannusi kaminin təqdis etdiyi qurbanı götürür. Çox vaxt müqəddəs sake (düyüdən hazırlanan spirtli içki –red.) ilə birlikdə həmin qidalar yeyilir. Ayin ruhun simvolik olaraq yola salınması, yaxud "qalxması" ilə başa çatır.

## 4.3. Cənubi Asiya dinləri

### 4.3.1.Hinduizm

Hinduizm dünyanın ən qədim dinlərindən hesab olunur. Ehtimala görə, bu dinin meydana gəlmə tarixi e.ə. II minilliyə qədər gedib çıxır. Hinduizmin mənsubları (hinduistlər) öz dinlərini *"Sanatana dharma"* adlandırırlar. Bu kəlmə sanskrit dilində "əbədi din", "əzəli qanun" və "əbədi yol" mənalarına gəlir.

Hindistan əhalisinin 80 faizi bu dinə sitayiş edir. Dünyanın digər regionlarında yaşayan hinduistlərin sayı 45 milyon təşkil edir. Onların 18 milyonu

Hinduizmi dövlət dini elan etmiş yeganə ölkə Nepalda yaşayırlar. Bütövlükdə dünya əhalisinin təxminən 12 faizi bu dinə mənsubdur.

Hinduizm əsasən Brahmanizm, Buddizm, Çaynizm və Hindistanın digər yerli inanclarının sintezi nəticəsində meydana gəlmişdir. Tədqiqatçılar Hinduizmin formalaşma prosesini beş yerə bölürlər.

1.Vedalar dövrü (e.ə. II minillik);
2.Upanişadlar dövrü (e.ə. VIII-V əsrlər);
3.Klassik dövr (e.ə. V – b.e. V əsri);
4.Orta çağdakı ilahiyyat və fəlsəfənin tərəqqisi dövrü (Vedanta);
5.Müasir dövr.

## *Hinduizmdə tanrı anlayışı*

Hinduizmin inanc sistemində üç ali tanrı mərkəzi yeri tutur. Bunlar Brahma, Şiva və Vişnu tanrılarıdır. Mifologiyaya əsasən, Brahma yaradıcı, Vişnu qoruyucu, Şiva isə məhv edən, dağıdıcı tanrıdır. Onu da qeyd edək ki, Hinduizmin cərəyanlarında bu tanrılara münasibət fərqlidir. Belə ki, bəzi hinduist cərəyanlar bu tanrıları bərabər səviyyəyə qoysalar da, bəziləri yaradıcı tanrı Brahmanı daha üstün-sayırlar. Bununla yanaşı Hinduizmin ən böyük qollarından olan Şivaizmdə Şivu, Vişnuizmdə isə Vişnu yeganə ali tanrı hesab olunur.




*“Hinduizmin üç tanrısı: Brahma, Vişnu, Şiva”. İngilis rəssamı Endrü Tomun qravyurası. 1840-cı il.*

Hinduizmdə həmçinin Brahma, Vişnu və Şiva tanrıları Brahman adlı Mütləq Varlığın təzahürləri hesab olunurlar. Bu dinin mənsubları inanırlar ki, bütün mövcudatın mütləq başlanğıcı sayılan Brahman sonsuzdur, dəyişməzdir, hərəkətsizdir, dünyanın ruhudur və hər hansı xüsusiyyətə malik deyildir.

Hinduistlərin anlayışında Mütləq Varlıq saysız-hesabsız formalarda şəkillərdə təzahür edir və ona müxtəlif üsulda sitayiş etmək müm-

kündür. Odur ki, Hinduizmin mənsubları çoxsaylı tanrı və tanrıçalara sitayiş edərək bu Mütləq Varlığa yaxınlaşmağa çalışırlar. Bəzi hinduist cərəyanların ardıcılları Tanrıda kişi və qadın başlanğıcının (formalarının) olduğuna inanırlar. Elə hinduist cərəyanları var ki, onların etiqadında Tanrının qadın başlanğıcına üstünlük verilir. Məsələn, Hinduizmin Şaktizm adlı cərəyanının mənsubları hind əfsanələrinə görə, tanrı Şivanın həyat yoldaşı olan Şakti adlı tanrıçaya sitayiş edirlər.

Gördüyümüz kimi, Hinduizmdə tanrı anlayışı olduqca ziddiyyətli və mürəkkəb səciyyə daşıyaraq özündə müxtəlif inanc sistemlərini birləşdirir. Bununla yanaşı, Hinduizmdə Kaylasa, Himalay dağları, Qanq-Yamuha çayları müqəddəs sayılır.

## *Müqəddəs kitablar*

Hinduizmin müqəddəs kitabları qədim dillərdən sayılan sanskritcə tərtib olunub və iki əsas qrupa bölünür: “Şruti” (vəhyə əsaslananlar) və “Smriti” (dastan şəklində olanlar). Hinduistlər “Şruti” mətnlərinin “rişi” adlanan rahiblərə vəhy yolu ilə nazil olduğuna inanırlar. “Şruti” külliyyatına bunlar daxildir:

1. “Veda”lar – “İlahi bilgi” mənasına gələn “Veda”lar Hinduizmin ən qədim müqəddəs mətnləridir;

2. Brahmanlar – dini ayinləri izah etmək məqsədi ilə “Veda”lara yazılan şərhlərdir;

3. “Upanişad”lar – dini-fəlsəfi səciyyə daşıyan qədim hind mətnləridir. Bu kitablarda əsasən meditasiya və tanrının mahiyyəti kimi mövzular müzakirə olunur;

4. “Aranyaki”lər – əsasən müxtəlif təhlükəli dini təcrübələrdən bəhs edən qədim dini kitablardır.

“Şruti” külliyatından bəhs edərkən, “Veda”lar barədə ətraflı məlumat vermək lazımdır. Çünki hinduistlər üçün “Veda”lar böyük sakral (müdəddəs) mahiyyətə malikdir. Qeyd edək ki, “Veda”lar dörd dini kitabdan ibarətdir: “Riqveda”, “Yadjurveda”, “Samaveda” və “Atharvaveda”.

“Veda”ların ilk kitabı olan “Riqveda” dünyanın ən qədim dini mətnlərindən sayılır. Ehtimal olunur ki, “Riqveda” e.ə. 1700-1100-cü illərdə tərtib olunmuşdur. Bu dini mətn “mandala”lar adlanan on kitaba ayrılır və tanrıları mədh edən 1028 qısa nəğmədən ibarətdir.

Əksər tarixçilərin fikrincə, “Veda”ların bir hissəsi olan “Yadjurveda” e.ə. X əsrdə təşəkkül tapmışdır. “Yadjurveda” iki hissəyə bölünür: “Şukla” (“Ağ”) və “Krişna” (“Qara”). Bəzi hissələri nəsr şəklində, bəziləri isə nəzm şəklində olan “Yadjurveda” qurban gətirmə ayinlərini təsvir edən mətnlərdən və bu ayinlər zamanı təkrarlanaraq oxunan nəğmələrdən - “mantra”lardan, onların fəlsəfi izahından ibarətdir.

“Veda”lar içində müqəddəsliyinə və əhəmiyyətinə görə “Riqveda”dan sonra “Samaveda” gəlir. Sanskrit dilində “dini nəğmələr” mənasını verən “Samaveda”-kitabında əsasən mühüm qurban ayinləri vaxtı kahinlər tərəfindən oxunan ilahi mahnılar (“udqatar”) daxildir.

“Atharvaveda”da isə cadu və ovsun dualarından ibarətdir. Digər “Veda”lardan fərqli olaraq, burada təkcə tanrılar və əfsanələr haqqında deyil, bəşər övladından, onun fərdi və ictimai həyatından, qorxu və xəstəliklərindən, eləcə də insan həyatının digər tərəflərindən bəhs olunur. “Atharvaveda”da həmçinin tibb və nücum elmi ilə bağlı məlumatlara da yer verilib.

Hinduizmin müqəddəs kitablarının ikinci qrupunu təşkil edən “Smriti” (sanskrit dilində “yadda saxlanılan” deməkdir) mətnlərinə gəlincə, hinduistlər inanırlar ki, bu külliyyat vəhy vasitəsi ilə deyil, rəvayət yolu ilə formalaşmışdır. “Smriti” külliyyatına bu kitablar daxildir:

1. “Vedanqa” – özündə qrammatika, nücum kimi elmlərlə bağlı məlumatları ehtiva edən, həmçinin dini ayinlərin yerinə yetirilmə qaydasını açıqlayan kitablar toplusu;
2. “Dharmaşastra”lar və ya qanunlar;
3. Puranalar və ya qədim əhvalatlar;
4. “İtixas”lar və ya dastanlar;
5. “Aqama”lar və ya ehkamlar.

Qeyd edək ki, “Mahabharata” və “Ramayana” kimi məşhur hind dastanları, eləcə də “Mahabharata”nın bir hissəsi olan “Bhaqavat-Gita” Hinduizmin müqəddəs kitablarının “Smriti” qrupuna daxildir.

## *Kasta sistemi*

Hinduizmə görə, cəmiyyət müxtəlif siniflərə ayrılır. Buna kasta sistemi deyilir. Kasta - eyni işlə məşğul olan, atadan miras qalan hüquq, vəzifə və adətləri

ilə bir-birinə sıx bağlı olan şəxslər qrupudur. Kasta seçilmir və ya dəyişdirilmir. Yəni valideyn hansı kastaya mənsubdursa, övlad da həmin kastaya məxsus olur. Bu sistemə görə, yalnız eyni kastaya mənsub olanlar evlənə və bir süfrə arxasında oturub yemək yeyə bilərlər. Hər kastanın özünəməxsus adət-ənənələri vardır. Kasta sisteminin qaydalarını pozanlar öldürülmə təhlükəsi ilə qarşılaşırlar.

Kasta sistemi dörd əsas sosial qrupa bölünür:

1. Brahmanlar (kahinlər);
2. Kşatriyalar (hökmdarlar və döyüşçülər);
3. Vayşiyalar (tacirlər, əkinçilər, sənətkarlar);
4. Şudra (nökərlər).

Gördüyümüz kimi, brahmanlar ən ali kasta sayılırlar. Daha sonra nüfuza görə, kşatriyalar, onlardan sonra isə vayşiyalar gəlir. Onu da qeyd edək ki, bu dörd kastanın hər biri çoxsaylı altkastalara ayrılır. Həmçinin Hindistan cəmiyyətində, ümumiyyətlə, hər hansı kastaya qəbul edilməyən insanlar da mövcuddur. Onlar "toxunulmazlar" adlanır. Cəmiyyətdən tamamilə təcrid olunan "toxunulmazlar" ən ağır, dözülməz həyat şərtlərinə məhkum edilirlər. Hindistan dövləti uzun illər kasta sisteminin neqativ təzahürləri ilə mübarizə aparmağa çalışsa da, əsrlərdən bəri cəmiyyətin təhtəlşüurunda dərin kök salmış bu qədim ənənə hələ də varlığını qoruyur.

### *Karma*

Hinduizmdə karma inancı mərkəzi yer tutur. Bu inanca görə, insan keçmişdə necə həyat tərzi sürmüşsə, gələcəkdə də onun nəticəsini görəcəkdir. Yəni insan nə əkərsə, onu da biçəcəkdir. Əgər saleh əməl işləmişsə xeyr görəcək, əgər pislik etmişsə şərlə qarşılaşacaqdır. Karma bir səbəb-nəticə qanunu, bir kainat nizamıdır. Bu qanuna təkcə insanlar deyil, bütün varlıqlar tabedir.

### *Reinkarnasiya*

Karma qanununa əsaslanan reinkarnasiya ruhun bir bədəndən başqa bir bədənə köçməsi deməkdir. Hinduizmdə bu ruh köçünə *"samsara"* yaxud *"sansara"* deyilir. Hinduistlər inanırlar ki, insan əvvəlki həyatında etdiyi əməllərin nəticəsinə görə yenidən dünyaya gəlir. Əgər insan keçmişdə saleh həyat tərzi sürübsə, növbəti dəfə dünyaya gələndə daha yaxşı məqama yüksələcək, hətta

daha yuxarı kasta sinfinə keçə biləcəkdir. Yox əgər günahkar həyat yaşayıbsa, onda hər hansı bitki və ya heyvan şəklində yenidən dünyaya qayıdacaqdır.

### *Yoqa*

"*Yoqa"* kəlməsi "vəhdət", "əlaqə", "harmoniya", "təmrin", "birləşmə" mənasına gələn *"yodj", "yudj"* sanskrit sözlərindən yaranmışdır. Hinduizmdə yoqa - fərdin yüksək mənəvi və psixoloji məqama yüksəlməsi məqsədini güdən müəyyən fiziki hərəkətlər və təmrinlərə verilən ümumi addır. Yoqa ilə məşğul olan şəxsə "yoqi" deyilir. Yoqi fikrini bir nöqtədə cəmləşdirərək fövqaltəbii qüvvələrlə rabitə qurmağa çalışır. Yoqa vasitəsilə hinduistlər insan orqanizminin psixoloji və fizioloji funksiyalarını idarə etməyə səy göstərirlər. Yəni yoqa müxtəlif mənəvi, psixoloji və fiziki təcrübələr deməkdir. Bir növ iradə tərbiyəsi və özünü kamilləşdirmə metodudur.

### *İbadət şəkilləri*

Hindistanda hinduistlərə məxsus çoxsaylı məbədlər var. Buna baxmayaraq, Hinduizmə görə, insan hər yerdə ibadət edə bilər. Eyni zamanda, bu dində ibadətin müəyyən forması və şəkli yoxdur. Hinduistlər birlikdə ibadət etmirlər, dini ayinləri fərdi surətdə yerinə yetirirlər. Bu mənada hinduistlər üçün ibadətin yeri, zamanı və şəkli böyük əhəmiyyət daşımır.

Bu dinin mənsubları çoxsaylı bütlərə sitayiş edir, dini ayinləri icra edərkən ortaq ibadət rəmzi olan "Om" sözündən istifadə edirlər. Onlara görə, bu kəlmə özündə böyük hikmətlər ehtiva edən müqəddəs sözdür.

## 4.3.2.Caynizm

Caynizm e.ə. X (IX) -VI əsrlərdə Hindistanda yaranmış milli dindir. Bu dinin mənsubları *"caynlar"* adlanır. Onların sayı təqribən 5-6 milyon nəfər təşkil edir. Caynizm əsasən Hindistanın qərb və cənub regionlarında yayılmışdır. Bununla yanaşı, Qərbi Avropa, Şimali Amerika, Avstraliya və dünyanın digər bölgələrində mühacir caynların cəmiyyətlərinə rast gəlmək mümkündür.

Bu dinin qurucusu Cina Mahavira (“mahavira” sanskrit dilində “qalib, böyük qəhrəman” deməkdir.- Red.) və ya Vardhamana sayılır. Mahavira e.ə. 599-cu ildə Vayşali şəhərinin yaxınlığında yerləşən Kundapurda radja (knyaz) ailəsində dünyaya gəlmiş və e.ə. 527-ci ildə Pavapuridə vəfat etmişdir. Əfsanəyə görə, kşatriya kastasından olan Mahavira reinkarnasiya zəncirindən xilas olmaq üçün otuz yaşında ailəsini tərk edərək tərki-dünya həyat tərzi sürməyə başlamış, 72 yaşında isə həqiqəti dərk etmişdir.

Caynizmə görə, hər canlı fərdi və əbədi ruhdur. Bu ruh *“reinkarnasiya”* və ya *“sansara”* deyilən sonsuz doğulma zəncirindən, doğum-ölüm dövranından tamamilə xilas olduqda hər şeyi bilmək və idrak dərk etmək məqamına yüksələrək ilahi şüura çatır. Lakin bu ali məqama çatmaq üçün mütləq zahid olmaq lazımdır. Dünyəvi həyat tərzi sürməklə buna nail olmaq mümkün deyildir. Odur ki, Caynizmdə zahidliyə böyük önəm verilir.



*Caynist rahibələr (“Şvetambara”lar).*

Bu dində sansaradan xilas olmuş və həqiqi biliyə *(“dharma”)* çatmış mürşidlər ən yüksək ada layiq görülürlər. Belə ki, caynlar onları “cina”, yəni “qalib” adlandırırlar. Bu cinalar içində *“tirthankara”* (“keçid yolunu yaradanlar”, “xilas yolunu tapan və göstərən kəslər”) adlandırılan 24 mürşidə xüsusən böyük ehtiram göstərilir. Bu mürşidlərin təlimlərinə riayət edən Caynizmin mənsubları inanırlar ki, həmin iyirmi dörd tirthankara həqiqi biliyi kəşf edərək ali məqama yüksəlib. Caynlar inanırlar ki, Caynizmin yaradıcısı Mahavira sonuncu, iyirmi dördüncü *“tirthankara”* olub.

Caynizmdə ali yaradıcı tanrı, xilaskar və ya dünyanı məhv edəcək Mütləq Varlıq anlayışı yoxdur. Bu dinin etiqadi əsaslarına görə, kainat sonsuzdur, onun nə əvvəli, nə axırı var. Kainat özü-özünü nizamlayır və hər ruh öz gücü sayəsində ilahi şüura *(“siddxa”)* çata bilər. O, hər hansı tanrı tərəfindən yaradılmayıb. Buna baxmayaraq, Caynizmin ardıcılları müxtəlif tanrılara sitayiş edirlər. Bu

dində əsas tanrılar bunlardır: *cinalar, arixantalar və tirtxankaralar.* Onlar öz nəfsi istəklərinə *qalib gələrək ilahi, pak şüur əldə edən şəxslərdir.* Bununla yanaşı, Caynizmdə *"yakşi"* (kişi cinsindən olan tanrı) və *"yakşini"* (qadın cinsindən olan tanrı) adlı tanrıların varlığı qəbul olunur. *"Vyantara"* ("gəzib-dolaşan") qrupuna daxil olan bu tanrılar ölçü və formanı dəyişdirmək kimi bir sıra fövqəlqüvvəyə malikdirlər. Lakin *"yakşi"* və *"yakşini"* tanrıları da digər adi ruhlar kimi, reinkarnasiya qanununa tabedirlər. Gördüyümüz kimi, Caynizmdə tanrılar fövqəltəbii xarakter daşımırlar, onlar da adi insanlar kimi doğulur və ölürlər.

## *Etik prinsiplər*

Caynizmin məqsədi sonsuz doğulma zəncirindən xilas olma yolunu göstərmək, eyni zamanda ruhu yanlış davranış, düşüncə və sözlərdən dolayı yaranmış mənfi təsirlərdən qorumaqdır. Buna nail olmaq üçün "üç cavahirat" *("triratna")* adlanan bu etik prinsiplərə riayət etmək lazımdır:

1. Mahaviraya inam;
2. Təlimin mahiyyətini dərk etmək;
3. Doğru davranış, saleh əməl.

Üçüncü etik prinsip Caynizmin ardıcıllarının rahiblərə və dünyəvilərə bölünməsinə səbəb olmuşdur. Belə ki, dünyəvilər yalnız əxlaqi normalara riayət etmək öhdəliyi daşıdıqları halda, rahiblər sərt zahid həyat tərzi sürürlər. Qeyd etmək lazımdır ki, Caynizmdə rahiblər olduqca ağır qaydalara riayət edirlər. Məsələn, rahiblər saç saxlamamalı, onları kökündən qoparmalıdırlar.

Bu dində canlılara zərər vermək *("ximsa")* olduqca böyük günah sayılır. Günaha batmamağa görə rahiblər suda ola biləcək canlı varlıqlara zərər verməmək üçün onu süzgəcdən keçirir, həşəratları əzməmək üçün qabaqlarını xüsusi süpürgə ilə süpürür, canlı orqanizmləri udmamaq üçün ağızlarını parça ilə bağlayırlar. Caynizmin mənsublarına gecə vaxtı hərəkət etmək və hər hansı iş görmək qəti qadağandır. Çünki qaranlıqda özündən asılı olmadan canlı varlığa zərər yetirmək mümkündür.

Caynizmin tələblərinə görə, rahib eyni yerdə uzun müddət yaşaya bilməz. Bu dinin *"diqambara"*lar (sanskrit dilində "səma geyinən".- Red.) adlı əsas dini cərəyanına görə, rahiblər paltar geyinməkdən belə imtina etməlidirlər.

Adıçəkilən çərəyanın bəzi rahibləri sansaradan xilas olmaq üçün könüllü şəkildə ac qalaraq ölməyə üstünlük verirlər. *"Şvetambara"*lar (sanskritcə "ağ paltarlara bürünənlər" deməkdir.- Red.) adlı Caynizmin digər qolunun tələblərinə əsasən, rahiblər yalnız ağ paltar geyinməlidirlər.

Qatı vegetarian olan caynlar həyatlarında beş əsas əxlaqi qaydaya riayət etməyə çalışırlar:

1. *Ahimsa* - canlılara zərər verməmək;
2. *Satya* – səmimi və düz danışan olmaq;
3. *Asteya* - oğurluq etməmək;
4. *Brahmaçarya* – zina etməmək;
5. *Apariqraha* – var-dövlət, dünya malı dalınca qaçmamaq.

## *Dini mətnlər*

Caynizmin dini mətnlər toplusu uzun əsrlər boyu şifahi şəkildə nəsildən-nəsilə ötürülmüş, e.ə. III əsrdə onların sistemə salınması istiqamətində təşəbbüs göstərilmişdir. Belə ki, həmin dövrdə Pataliputre şəhərində Caynizmin ardıcılları dini təlimlərinin sistemləşdirilməsi, qorunması və gələcək nəsillərə ötürülməsi məqsədilə ilk dini məclislərini keçirmişlər. Məclisdə şifahi surətdə ötürülən Caynizm təliminin yazıya alınması və qaydaya salınması məqsədilə addımlar atılmış, Mahaviraya aid edilən *"Purva"* ("Erkən təlim") adlı dini mətnlər toplusunun məzmunu müəyyənləşdirilməyə çalışılmışdır.

Bizim eranın I-II əsrlərində Caynizmin görkəmli xadimlərindən olan *Umasvati "Tattvarthadhiqama-sutra"* (sanskritcə "kateqoriyaların mənasını anlamaq sutrası". –Red.) adlı əsərdə Caynizmin dini-fəlsəfi irsini bir yerə toplayaraq sistemləşdirmişdir. Bizim eranın V əsrində Valabhi şəhərində şvetambaralar, yəni ağ paltara bürünən rahib-caynlar dini məclis çağıraraq Caynizmin dini mətnlərini sonuncu dəfə nəzərdən keçirib sistemləşdirdilər. Bu məclisdə 45-dən 50-dək dini mətn Mahavira və onun şagirdlərinin təlimlərini ehtiva edən nüfuzlu qaynaq kimi qəbul olundu. Caynizmin digər cərəyanının mənsubları, yəni paltar geyinməkdən imtina edən diqambaralar isə Valabhidə keçirilmiş şvetambaraların məclisinin qərarını və dini mətnlərini tanımayaraq, özlərinə məxsus dini kitablar tərtib etdilər.

Qeyd edək ki, şvetambaraların dini mətnlər toplusu *"aqama"* və ya

*"siddhanta"* adlandırılır. Prakrit dilində yazılmış həmin külliyyat aşağıdakı dini əsərlərdən ibarətdir:

1."*Purv"lar.* On dörd hissədən ibarət olan "Purv"lara Mahaviranın məktubları daxildir;

2. *"Anq"lar ("Üzvlər").* Caynizmin ən qədim dini mətnləri hesab olunur. On iki hissədən ibarət olan "Anq"larda Mahaviranın həyatı təsvir edilir, Caynizmin etiqad prinsipləri və təlimin əsasları yer alır. Bu mətndə həmçinin rahib və rahibələr üçün qaydalar göstərilir, müqəddəslər haqqında danışılır və başqa dini inancların əsassızlığı sübuta yetirilməyə çalışılır;

3. *"Upanq"lar ("Kiçik üzvlər").* On iki dini əsərdən ibarət olan "Upanq"larda kainatın, o cümlədən yerin və göy cisimlərinin quruluşu, habelə müqəddəslərin həyatları haqqında bəhs olunur;

4. *"Prakirn"lar ("Qarışıq dini kitablar").* On hissədən ibarət olan "Prakirn"larda müxtəlif mövzulara dair nəsihətlər yer alıb;

5. "Çxeda-sutra"lar ("Natamam sutralar"). Yeddi hissədən ibarət olan "Çxeda-sutra"larda rahib və rahibələr üçün qaydalardan bəhs olunur;

6. *"Mula-sutra"lar ("Başlıca sutralar").* Dörd dini əsərdən ibarət olan "Mula-sutra"lar zahidlər üçün masaüstü kitab mahiyyətindədir;

7. *"Nandi-sutra" ("Kömək edən sutralar")* - rahiblər üçün yazılmış ensiklopedik dini bilikləri və şərhləri ehtiva edir;

8. *"Anuyoqa-dvara-sutra" ("Axtarışçı sutranın darvazası")* – bu dini mətndə biliyin mahiyyəti müzakirə olunur.

Caynizmin digər qolunun ardıcıllarının, yəni diqambaraçılararın dini əsərlərinə gəlincə, ilk növbədə qeyd etmək lazımdır ki, onların kitabları prakrit və sanskrit dillərində qələmə alınmışdır. Diqambaraçılar bu dörd dini kitabı qəbul edirlər:

1. *"Pratxama - anuyoqa"* – bu dini əsərlər toplusuna "dünya tarixi" barədə bəhs edən mətnlər daxildir;

2.*"Karana-anuyoqa"* - burada kainatın quruluşu haqda bəhs edən dini əsərlər toplanılıb;

3.*"Dravya-anuyoqa"* – dini-fəlsəfi əsərlərdən ibarətdir;

4. *"Çarana-anuyoqa"* – etika və dini ayinlər üzrə mətnlərdən ibarətdir.

# 4.3.3. Siqhizm

Hazırda *Siqhizmin* (pəncab dilində “siqh” kəlməsi “şagird”, “ardıcıl” mənasına gəlir.- Red.) dünyada 25 milyondan çox mənsubu vardır. Siqhlərin əksər hissəsi Hindistanda yaşayır. Burada onlar əsasən Pəncab ştatında məskunlaşıblar. Bundan başqa, ABŞ-da, Kanadada, Böyük Britaniyada, Tailandda və digər ölkələrdə siqhlərin icmaları mövcuddur.

Siqhizm XV əsrdə Hindistan yarımqitəsinin şimal-qərb hissəsində Pəncab bölgəsində meydana gəlmişdir. Bu sinkretik dinin (fərqli dinlərin sintezindən yaranmış din.- Red.) banisi Quru Nanak Dev (1469-1539) sayılır. O, Hinduizmdəki çoxallahlılığa, kasta sisteminə qarşı çıxmış, kahinlər (brahmanlar) kastasına tanınan imtiyazları kəskin tənqid atəşinə tutmuşdur. İslamın saf təkallahlılıq ideyasından təsirlənən Quru Nanak Devin əsas məqsədi Hinduizmdə islahat aparmaq olmuşdur. Beləliklə, İslam və Hinduizmin sintezindən yeni din – Siqhizm yaranmışdır.

Siqh ənənəsi yeni dinin yaranmasını bu hadisə ilə əlaqələndirir: bir dəfə Quru Nanak Dev sübh tezdən çimmək üçün Kali Beyn çayına gedir, lakin geri qayıtmır. Hər kəs onun çayda batdığını düşünməyə başlayır. Üç gündən sonra o, peyda olur və başına gələnləri ondan soruşanlara eyni cavabı verir: *“Orada nə hinduist var, nə də müsəlman”*.

1496-cı ildə baş vermiş bu hadisə Siqhizmin meydana gəlmə tarixi sayılır. Bu ildən etibarən Quru Nanak Dev uzun müddətli səyahətə çıxmış, Hindistan yarımqitəsinin müxtəlif yerlərinə baş çəkmiş, Tibetdə, İraqda, Ərəbistan yarımadasında, o cümlədən Məkkədə olmuşdur. Təqribən otuz il çəkən bu səyahətlər nəticəsində Quru Nanak Devin dini təlimi formalaşmışdır. Ömrünün son on ilini o, Pəncabdakı Kartarpur kəndində keçirmiş, burada öz dini ideyalarını təbliğ edərək xeyli sayda tərəfdar qazanmış, nəticədə Kartarpur kəndində siqh icması yaranmışdır. Quru Nanak Devin özü isə burada 70 yaşında vəfat etmişdir.

Siqhizmin təlimi və müqəddəs kitabı təkcə Quru Nanak Devin sayəsində deyil, həm də ondan sonra siqh icmasına ardıcıllıq yolu ilə rəhbərlik edən doqquz *qurunun* (mürşid) fəaliyyəti nəticəsində formalaşmışdır. Reinkarnasiyaya inanan siqhlərə görə, Nanakın ruhu sıra ilə ondan sonra gələn quruların bədənlərinə köçmüşdür. Ona görə də, bu qurular Nanakın təzahürü sayılmışlar. Beləliklə, tarixi dövr ərzində siqhlərə Nanak daxil olmaqla, aşağıda adları sadalanan 10

quru ardıcıl şəkildə rəhbərlik etmişdir: 1. Nanak Dev; 2. Anqad (1504-1552); 3. Amar Das (1479-1574); 4. Ram Das (1534-1581); 5. Arcan (1563-1606); 6. Harqobind (1595-1644); 7. Har Ray (1630-1661); 8. Har Krişan (1656-1664); 9. Teqh Bahadur (1621-1675); 10. Qobind Sinqh (1666-1708).

Bu qurular silsiləsi onuncu quru Qobind Sinqhin ölümü ilə sona yetmişdir. Belə ki, onuncu quru vəfatından öncə elan etmişdir ki, ondan sonra siqhlərin müqəddəs kitabı *"Adi Qranth"* son və əbədi quru olacaqdır.

Qobind Sinqh haqqında danışarkən qeyd etmək lazımdır ki, bu onuncu quru siqh icmasının hərbi cəhətdən güclənməsi işində böyük rol oynamışdır. O, 13 aprel 1699-cu ildə siqhlərin "Xalsa" ("Pakların təriqəti") adlı hərbi təşkilatını qurmuşdur. İndiyədək mövcud olan bu hərbi qardaşlığa daxil olmaq üçün siqhlər *"amrit sançar"* ("nektarın qəbulu") adlanan xüsusi mərasimdən keçməlidirlər. Bu mərasim bitdikdə siqh ömrünün sonunadək özündə beş əlamət daşımağa başlayır: 1. Qırxılmamış saçlar; 2. Taxta daraq; 3. Polad və ya dəmir qolbaq; 4. Xəncər və ya qılınc; 5. "Kaççera" adlanan xüsusi alt paltarı.

Bununla yanaşı, "Xalsa" qardaşlığının üzvləri üç prinsipi yerinə yetirməlidirlər (daim Tanrını xatırlamalı, insanlığa xidmət göstərərək ümumi bərabərlik prinsipinə riayət etməlidirlər). Eyni zamanda, bu təşkilatın üzvləri dörd əhd-peymana əməl etməlidirlər: saç və saqqallarını qırxmamalı, müsəlmanlar tərəfindən kəsilmiş əti yeməməli, zinadan uzaq durmalı və tütündən istifadə etməməlidirlər.

Siqhizmin tarixindən danışarkən bir məqama da toxunmaq lazımdır. Belə ki, 1716-1849-cu illərdə siqhlərin öz dövləti olmuşdur. Mərkəzi Amritsar və Lahor şəhərlərində yerləşən siqh dövlətinin varlığına britaniyalı müstəmləkəçilər son qoymuşdur.

## *Dini mətn*

Siqhlərin müqəddəs kitabının adı *"Adi Qranth"* (pəncab dilində "İlk kitab" mənasına gəlir.- Red.) və ya *"Quru Qranth Sahib"*dir. Bu kitab "sadhbhaşa" dilində yazılmışdır. "Sadhbhaşa" - Hind və pəncab dillərinin, eləcə də Hindistanın bəzi yerli dialektlərinin sintezindən yaranmışdır.

"Adi Qranth" 1469-1708-ci illərdə yazılmışdır. Siqhlərin inancına görə, onların müqəddəs kitabı Siqhizmin on qurunun canlı

mücəssəməsidir. Bu müqəddəs kitaba yeddi qurunun - Nanak, Anqad, Amar Das, Ram Das, Arcan, Teqh Bahadur və Qobind Sinqhin əsərləri, eləcə də sufi şeyxi Fəriduddinin, həmçinin bxakti hərəkatının ardıcılları olan bəzi hinduist şairlərin şerləri daxildir. "Adi Qranth" özündə 6 mindən yuxarı şer ehtiva edir.

## *İnanc əsasları*

Siqhizm – monoteist dindir. Siqhlər qüdrətli, hər şeyi bilən və görən, hər yerdə mövcud olan, əzəli və əbədi tək Tanrıya iman bəsləyirlər. O, mərhəmət və məhəbbət yağdırır, nifrət və hər cür qərəzli münasibətdən tamamilə uzaqdır. Siqhlər inanırlar ki, Tanrı xüsusi ada malik deyildir, çünki heç bir söz və isim onun həqiqi mahiyyətini ifadə edə bilməz. Lakin onlar ibadət edərkən Tanrıya *"Satnam"* və ya *"Sat Naam"* ("Həqiqi Ad") deyə müraciət edirlər. Siqhlərin inancına görə, Tanrının iki aspekti mövcuddur: *Nirqun* (sifət və xüsusiyyətləri olmayan) və *Sarqun* (sifət və xüsusiyyətləri olan). Nirqun - Tanrının külli-aləm xəlq edilməmişdən öncə öz-özlüyündə mövcud olan Mütləq Varlıq olması mənasına gəlir. Sarqun isə Tanrının xilqətdən sonra kainatın hər zərrəsində, o cümlədən hər insanın daxilində məhəbbət və mərhəmət şəklində mövcud olması deməkdir.

Ruhun bir bədəndən digərinə köçməsinə inanan siqhlər hesab edirlər ki, insan bu təkrarlanan ölüm və doğulma zəncirindən xilas ola bilər. Buna nail olmaq üçün bəşər övladı öz eqoizmindən əl çəkməli, bütün fikrini Tanrı üzərində cəmləməli, siqd ürəklə Yaradanı sevməlidir. Məhz Tanrıya məhəbbət Siqhizmdə ən fəzilətli əməl sayılır. Siqhlərin inancına görə, yalnız Tanrıya məhəbbət sayəsində insanın ruhu ölümdən sonra sonsuz reinkarnasiya zəncirindən xilas olacaq və Xaliqə qovuşacaqdır. Burada qeyd etmək lazımdır ki, siqhlər cənnətə, cəhənnəmə, insanın axirətdə günahlarına görə cəza almasına, Hinduizmin inanc əsaslarında mərkəzi yer tutan karmaya inanmırlar. Onlara görə, bu tip inanclar insanlarla manipulyasiya etmək üçün uydurulmuşdur.

Siqhizmin etiqad prinsiplərinə əsasən, bütün insanlar azad iradəyə sahibdir və Tanrı qarşısında bərabərdir. Eyni zamanda, siqhlər zahidlik və rahiblik həyatını tənqid atəşinə tutur, Tanrı ilə insan arasında heç kəsin və heç nəyin vasitəçi ola bilməyəcəyini ifadə edir, ruhani institutu qəbul etmirlər.

## *Dini ayinlər*

Siqhizmə görə, insan yalnız tək Tanrıya üz tutmalıdır. Bu dində başqa tanrılara, ruhlara və digər fövqəltəbii qüvvələrə sitayiş etmək qadağandır. Əslində, Siqhizmdə dini ayin və mərasimlər heç bir əhəmiyyət daşımır. Quru Nanak Dev qeyd edirdi ki, zəvvarlıq, orucluq, su ilə paklanmaq və özünü intizama salmaq - ayinlər, dini mərasimlər və ya boş ibadətlər kimi faydasızdır.

Siqhizmdə Tanrı ilə ünsiyyətdə dini ayin və mərasimlər əhəmiyyətsiz sayılsa da, zaman keçdikcə bu dində də müəyyən rituallar formalaşdır. Siqhlər hesab edirlər ki, dini şəkilçiliklə, zahiri ibadətlərlə Tanrının razılığını qazanmaq mümkün deyildir. Mütləq Varlığa yalnız meditasiya, yəni fikrini cəmləşdirərək daim Tanrı haqqında düşünmək, ürəyində davamlı onun adını zikr etmək yolu ilə qovuşmaq mümkündür. Bu gündəlik meditasiya "nam-smrana" və "nam-capan" adlanır.

Siqhlər ayin və mərasimlərin dini cəhətdən əhəmiyyətini inkar etsələr də, onları sosial baxımdan, yəni insanlar arasında həmrəyliyin yaradılması nöqteyi-nəzərindən faydalı sayırlar.



*"Qızıl Məbəd" ("Harimandir").*

Qeyd etmək lazımdır ki, siqhlərdə dini və ictimai həyatın mərkəzləri "*qurdvara*" adlanır. Bu məbədlər adətən siqhlər üçün müqəddəs sayılan

yerlərdə, on qurunun həyat və fəaliyyətləri ilə bağlı məkanlarda ucaldılıb. Hər *"qurdvara"*da siqhlərin müqəddəs kitabı "Adi Qranth" yerləşdirilir. Siqhlər onun ətrafında toplaşaraq meditasiya edirlər. Həmçinin siqhlər Hinduizmin ardıcılları kimi ölülərini yandırırlar.

"Qızıl Məbəd" ("Harimandir") və ya "Darbar Sahib" ("Tanrının Evi") siqhlərin baş məbədi sayılır. 1588-ci ildə Quru Arcun tərəfindən tikilən bu məbəd Hindistanın Pəncab ştatının Amritsar şəhərində yerləşir.

## 4.4. Qədim türk inancları

Göy Tanrı və ya Tenqriyə ("Tenqri") inanc yalnız qədim türklərdə rast gəlinirdi. Əski türk dilində *"Tenqri"* sözü sifət kimi işlədilərək "səmavi, ilahi" mənasına gəlirdi. Göy Tanrı dedikdə isə, göyün də bir yaradanı olduğu nəzərdə tutulurdu.



*Qədim türk əlifbası (Orxon-Yenisey əlifbası) ilə yazılmış "Tenqri" sözü.*

Qədim türklər inanırdılar ki, canlı və cansız aləmi yaradan Göy Tanrı kainatın müqəddəratını müəyyənləşdirir. O, hakimi-mütləqdir, xaqanları, yəni hökmdarları təyin edir, türkləri qoruyur. Odur ki, onlar döyüşlərdəki qələbələrini, yaxud məğlubiyyətlərini birbaşa bu uca tanrının hökmü ilə bağlayırdılar. Bununla yanaşı, qədim türklər Göy Tanrının təsvir olunmasına qarşı çıxırdılar.

Əski türk inancına görə, kainat Göy Tanrı tərəfindən yaradıldığı üçün onun bütün elementləri (günəş, ay, ulduz, dağ, təpə, dəniz, çay, bulaq, mağara, meşə və s.) ruha malikdir. Beləcə ətraf aləmin ünsürlərini müqəddəsləşdirən türklər "Yer-Su" adlandırdıqları təbiət ruhlarına da inanırdılar. Onların inancına görə, bu təbiət ruhları Göy Tanrıdan asılıdır. Ona görə onlara hörmət göstərmək vacib sayılırdı.

Yer-Su ruhları müxtəlif qruplara bölünürdü. Məsələn, dağ ruhları, meşə ruhları, su ruhları və s. Qədim türklər meşəyə daxil olduqda sakitliyə riayət etməyə və ona zərər vurmamağa çalışır, yalnız Yer-Su ruhlarının "razılığını aldıqdan" sonra təbiətin bəxş etdiyi nemətlərdən istifadə edirdilər.

Qədim türklərin təbiətlə bağlı dini təsəvvürlərindən danışarkən, "Ötügən"ə

dair inancı da qeyd etmək lazımdır. Belə ki, türklər ana təbiətə "Ötügən" (Ana Torpaq) adı vermişdilər. Həmçinin "Ötügən" əski türklərin müqəddəs saydıqları meşələrlə örtülü bir dağın adı idi. Türklər inanırdılar ki, Torpaq Ananın insanlara münasibəti ağacların vəziyyəti ilə müəyyən olunur. Əgər ağaclar sağlam, güclü yetişir və bol meyvə verirlərsə, deməli Torpaq Ana insanlardan razıdır. Bu səbəbdən qədim türklər güclü və böyük bir ağaca tərəf duraraq Torpaq Anaya dua edirdilər.

Həmçinin qədim türklər arasında *totemizm* geniş yayılmışdı. Məsələn, türk mifologiyasında boz qurd müqəddəs heyvan sayılırdı. Türklərdəki boz qurd totemi mübarizliyi, çevikliyi, vüqarlı olmağı və azadlığı təmsil edirdi. Bununla yanaşı, türk dastanlarında türklərin əcdadlarının boz qurddan törəndikləri barədə bəhs olunur.

Qədim türklərdə at da müqəddəs sayılırdı. At çapmaqda məharətləri ilə seçilən türklər bu heyvana sədaqətinə görə ehtiram göstərirdilər. Həmçinin qədim türk dastanlarında qəhrəmanların adı atları ilə birlikdə çəkilərdi. Məsələn, Tulpar adı ilə tanınan qanadlı atdan tez-tez bəhs edilir. Təsadüfi deyildir ki, qədim türklərdə döyüşçünün öz atı ilə birgə dəfn olunması adəti geniş yayılmışdı.

Qədim türklərin inanc sistemində "atalar" kultu əhəmiyyətli yer tuturdu. "Atalar" kultu ailənin vəfat etmiş üzvünə ehtiram və təzim göstərməyi ifadə edir. Bu ehtiram yaşlılara, xüsusən ata və babalara qarşı göstərilir. Qədim türklər əcdadların ruhlarına qurban gətirərək dualar edərdilər. Hətta onların şərəfinə xüsusi mərasim və bayramlar təşkil edilərdi. Həmçinin "atalar" qədim türklərdə qayda-qanunların yaradıcıları, adət-ənənələrin qoruyucuları olaraq qəbul edilirdi.

Bəzi tarixi qaynaqlarda qədim türklərdə təbiətin "od" ünsürünün də müqəddəs sayıldığı qeyd olunur. Qədim türklər inanırdılar ki, evin və ailənin ruhunu özündə ehtiva edən "od" ünsürü təmizləyici qüvvəyə sahibdir.

Qədim türklərin dini inancları barədə danışarkən qeyd etmək lazımdır ki, onlar arasında şamanizm geniş yayılmışdı. Əksər türk xalqları İslam dinini qəbul etdikdən sonra türk dünyasında şamanizm tədricən əhəmiyyətini itirmişdir. Lakin müasir dövrdə Ural və Altay dağları arasında yaşayan türk xalqlarının dini təsəvvürlərində şamanizm hələ də mühüm yer tutur.

Beləliklə, qədim dövrlərdə müxtəlif türk xalqları arasında fərqli dini təsəvvürlərə rast gəlinsə də, sırf onlara məxsus, ortaq bir Göy Tanrı inancı mövcud olmuşdur.

## Fəslə aid suallar

1. Zərdüştilik nə vaxt və harada meydana gəlmişdir?
2. Zərdüştün dini təlimi haqqında məlumat verin.
3. Zərdüştiliyin əsas inancları və ayinləri hansılardır?
4. Ölümdən sonrakı həyat bu dini təlimdə necə təsvir olunur?
5. "Avesta"nın hansı hissələri dövrümüzədək gəlib çatmışdır?
6. Ölkəmizdə Zərdüştiliklə bağlı hansı abidəni tanıyırsınız?
7. "Tövrat"a görə, İbrahim peyğəmbərin oğulları İsmail və İshaqdan hansı soylar meydana gəlmişdir?
8. Birinci Məbəd dövrü nə ilə səciyyələnir?
9. İkinci Məbəd dövrü hansı illəri əhatə edir və həmin dövrdə nə baş vbermişdir?
10. İlk sinaqoqlar nə vaxt yaranmışdır?
11. Yəhudilikdə farisey, sadukkey və yessey dini-ictimai cərəyanlarınn xüsusiyyətləri nədən ibarətdir?
12. Ravvinlər kimdir?
13. "Şifahi Tora" dedikdə hansı yəhudi təfsir külliyyatı nəzərdə tutulur?
14. Yəhudilikdə kollektiv ibadətin keçərli olması üçün ən azı neçə nəfərin iştirakı şərtdir?
15. Şabat nədir?
16. Yəhudilərin əsas bayramları hansılardır?
17. Purim bayramının mahiyyəti nədən ibarətdir?
18. Azərbaycanda hansı yəhudi subetnik qrupları mövcuddur?
19. Ölkəmizdə say etibarı ilə hansı yəhudi subetnik qrupu üstünlük təşkil edir?
20. Gürcü yəhudilərinin Azərbaycanda məskunkaşma tarixi hansı dövrə təsadüf edir?
21. Dağ yəhudiləri özlərini necə adlandırır və hansı dildə danışırlar?
22. Quba rayonundakı Qırmızı Qəsəbə nə vaxt salınmışdır?
23. Gürcü yəhudiləri özlərini necə adlandırırlar?
24. Gürcü yəhudilərinin Azərbaycana köçməyə başlaması hansı əsrə təsadüf edir?
25. Aşkenazilərin ölkəmizə köçmə səbəbləri hansılardır? Bu haqda məlumat verin.

26. Aşkenazilərin danışıq dili hansıdır?
27. Azərbaycan dövləti tərəfindən ölkəmizdə yaşayan yəhudi mənşəli vətəndaşlarımıza göstərilən diqqət və qayğı ilə bağlı nümunələr gətirin?
28. Respublikamızda yaşayan yəhudilər, əsasən, hansı şəhər və rayonlarda məskunlaşıblar?
29. Konfutsiçilikdə "məqsədiz fəaliyyət" konsepsiyasını necə izah edərsiniz?
30. "Alicənab ər" kimdir və ona xas olan məziyyətlər hansılardır?
31. Lao-Tzunun görüşdüyü mütəfəkkir kim olmuşdur?
32. Daosizmin əsas kateqoriyaları hansılardır?
33. Sintoizmin əsas fərqləndirici xüsusiyyəti hansıdır?
34. Sintoist mifologiyasında dünyanın yaranması necə təsvir olunur?
35. "Şruti" və "Smriti" kitab külliyatları arasındakı fərq nədir?
36. Hinduizmin Tanrı anlayışını izah edin.
37. Kasta sistemi haqqında məlumat verin.
38. Caynlar hansı beş əsas əxlaqi qaydaya riayət etməyə çalışırlar?
39. "Tirthankara"ların sayı nə qədərdir?
40. Caynizmdə neçə əsas dini cərəyan mövcuddur və onların fərqi nədir?
41. Siqhizmin yaradıcısı kim hesab olunur?
42. Siqhizm hansı dinlərin sintezindən meydana gəlmişdir?
43. Siqhizmin müqəddəs kitabı hansıdır? Bu haqda qısa məlumat verin.
44. Siqhlərin dövləti neçənci illərdə mövcud olmuşdur?
45. "Tenqri" sözü hansı mənaya gəlir?
46. Qədim türk inancına görə, Göy Tanrı hansı xüsusiyyətlərə malikdir?
47. Qədim türklər nələri müqəddəs sayırdılar?
48. Qədim türklərdə Yer-Su ruhlarına inancın mahiyyəti nədən ibarət idi?
49. "Ötügən" sözünün izahını verin.

# Ədəbiyyat

1. Azərbaycan Milli Ensiklopediyası, "Azərbaycan" xüsusi cildi. Bakı: "Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi", 2007. s. 881.
2. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. (AMEA-nın həqiqi üzvü K.M.Abdullayevin və prof. E.Ə.Nəcəfovun redaktəsi ilə), Bakı, 2017, s. 244-248.
3. Azərbaycanda tolerantlıq ənənəsi. Bakı: «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015. s. 97-101.
4. Bünyadov Z. Dinlər, Məzhəblər, Təriqətlər. Bakı: Şərq-Qərb, 2007.
5. Əliyev-Ayvazalı B. Hindistan Etnoqrafiyası (Mənəvi mədəniyyət). Bakı: "Elm və təhsil", 2017.
6. Heyət C. Türklərin tarix və mədəniyyətinə bir baxış (İslamdan əvvəl və islam dövrü). Başlanğıcdan XVI əsrə qədər. Bakı: "Aspoliqraf", 2009. s. 56- 59.
7. İsmayılov G. Tolerantliq:bildiklərimiz və bilmədiklərimiz. Bakı: «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014. s. 209-210.
8. Qurbanlı Mübariz. "Azərbaycanda dövlət-din münasibətləri: tarixi baxış və müasirlik". Bakı: 2017. s. 218.
9. Quliyev N., Qaramanlı N.. Azərbaycan qədim və orta əsrlərdə. Görkəmli şəxsiyyətlər. Bakı: 2012. s. 448. http://www.nkpi.az/?page=addread&id=6695
10. Беккер М. Евреи в Азербайджане: история и перспективы // Азербайджан и азербайджанцы в мире. Культурологический журнал, №1, июнь 2007. с. 34-35.
11. Борунков Ю.Ф., Яблоков И.Н., Новиков М.П., и др. Основы религиоведения. Учебник. Под редакцией И.Н. Яблокова. М.: Высш. шк., 1994. с. 368
12. Митрополит И. (Алфеев), Корытко О., Васечко В. История религий М.: Общецерковная аспирантура и докторантура им. святых равноапостольных Кирилла и Мефодия, 2016. с. 776.
13. Aydın F. Yahudilik. İstanbul, 2004
14. Cahit C. Zerdüştçülük, Zerdüşt ve hukuk ("Avesta") //Ankara Universiteti Hüquq fakültəsi jurnalı // 1968. cilt: 25, № 1, s. 273-288.

15. Challaye F. Dinler tarihi (çevirən: Samih Tiryakioğlu). İstanbul: Kurtiş, s. 215
16. Chandra S. Encyclopaedia of Hindu gods and gonnesses. New Delhi: Sarup& Sons, 2001.
17. Demirci K. Hinduizmin Kutsal Metinleri. Ankara: İşaret Yayınları.
18. Demirci K. Hinduzim//TDV İslam Ansiklopedisi, cild 18, s. 112-116.
19. Eliada M. Dinsel inançlar ve düşünceler tarihi. – İstanbul: Kabalcı Yayınevi.
20. Gündüz Ş. Zerdüşt kimdir, ne demektir? Bir din olarak Zerdüştlük neleri içirir. https://www.kenandabirkuyu.com/zerdust-kimdir-ne-demektir-bir-din-olarak-zerdustluk-neleri-icerir
21. İnan A. Eski Türk Dini Tarihi, Ankara, 1976.
22. Kafesoğlu İ. Türk Milli Kültürü, İstanbul: "Ötüken", 1998. s. 302-309.
23. Küçük A. Sihizm //A.Ü. İlahiyat Fakültesi Dergisi. XXVIII/2. Ankara: 1986.
24. Mehmet A. Dinler tarihine giriş. Konya: Din Bilimleri Yayınları 2008. s. 67-71; 105-134; 308
25. Robert S. Ellwood and Gregory D. Alles. The Encyclopedia of World Religions. New York: 2007.
26. Sayım H. Sih dini //TDV İslam Ansiklopedisi, cild 37, s. 166-168.
27. Shodiev K. Zerdüştizm/Zerdüştlük. Erciyes Universiteti. Kayseri: 2016. s. 9
28. Schimmel A. Dinler tarihine giriş. Bahar Ofset, 1999.
29. Schimmel A. Dinler tarihine giriş. İstanbul: 1999. s. 327
30. Tümer G., Küçük A., Dinler tarihi. II basqı. Ankara: 1993. s. 492
31. Tümer G., Küçük A. Dinler Tarihi. Ankara, 1997. s. 204 -256.
32. Tümer G., Küçük A., Küçük M.A. Dinler tarihi. Berikan Yayınevi, 2017.
33. Yahudilik// TDV İslam Ansiklopedisi, 43-cü cild. İstanbul, 2013.
34. Yıldırım Nimet // Zerdüşt'ün kutsal kitabı Avesta // İstanbul Üniversitesi Şarkiyat Mecmuası. 2011, № 18, s. 147-170.

# V FƏSİL

# MÜASİR DÖVRDƏ DİN

## 5.1.Müasir dünyada dinin yeri və roluna dair nəzəriyyələr

Bəşəriyyət tarixini dinsiz təsəvvür etmək mümkün deyildir. Minilliklər boyu dini inanc və təsəvvürlər insanlığın taleyində mühüm rol oynamış, tarixin gedişatına təsir göstərmiş, qədim və orta əsrlərdə dini təşkilatlar ictimai həyatın bütün sahələri ilə sıx bağlı olmuşdur. Məsələn, orta əsrlərdə Qərb dünyasında sosial institutlar Roma Katolik Kilsəsinin nəzarəti altında fəaliyyət göstərmişdir. Lakin elmi-texnoloji tərəqqinin baş verməsi ilə dini institutlar cəmiyyətdəki hakim mövqeyini itirmiş, insanlar getdikcə dindən uzaqlaşmağa başlamışdı. Bütün bunları görən alman filosofu Fridrix Nitsşe (1844-1900) "Tanrı ölmüşdür" deməklə bəşəriyyətin dinsiz eraya, o cümlədən dini-əxlaqi, mənəvi dəyərlərin əhəmiyyətini itirdiyi dövrə qədəm qoyduğunu bəyan etmişdir. Lakin F.Nitsşe ilə razılaşmayan mütəfəkkirlər də az olmamışdır. Cəmiyyətdə gedən müasirləşmə və modernləşmə proseslərinin təsiri altında dini necə gələcək gözlədiyi ilə bağlı elm dünyasında qızğın müzakirələrin nəticəsində bir neçə nəzəriyyə irəli sürülmüşdür. Onlardan geniş yayılmışlarını nəzərdən keçirək.

### *1. Sekulyarlaşma nəzəriyyəsi*

"Sekulyarlaşma" termini latın dilində "dünyəvi" mənasına gələn "saecularis" sözündən yaranmışdır. Tarixdə ilk dəfə "sekulyarlaşma" termini XVII əsrdə istifadə olunmuşdur. İlk vaxtlar, bu termin kilsənin torpaq mülkiyyətinin dünyəvi hakimiyyətin idarəçiliyi altına keçməsi anlamında işlədilirdi. Zamanla sekulyarlaşma anlayışı daha geniş mənalar qazandı.

Sosiologiya elmində sekulyarlaşma dedikdə, cəmiyyət və fərdlərin dinin təsirində azad olunması nəzərdə tutulur. Sekulyarlaşma nəzəriyyəsinə görə, elm və texnologiyanın inkişafı, bəşəriyyətin tərəqqisi nəticəsində yer üzündə dünyəviləşmə prosesləri get-gedə güclənəcək, nəticədə din bir dünyagörüşü kimi tamamilə yoxa çıxacaqdır. Hələ *Ogüst Kont (1798-1857), Karl Marks (1818-*

*1883), Ziqmund Freyd (1856-1939), Emil Dürkheym (1858-1917), Maks Veber (1864-1920)* kimi məşhur Qərb mütəfəkkirləri iddia edirdilər ki, cəmiyyətin müasirləşməsi dindarlıq səviyyəsinin aşağı düşməsinə səbəb olacaqdır.

XX əsrdə bu nəzəriyyə *Tolkott Parsons (1902-1979), Brayan Ronald Vilson (1926-2004), Tomas Lukman (1927-2016)* kimi Qərb sosioloqları tərəfindən inkişaf etdirilmişdir. Onlardan *Brayan Ronald Vilson* sekulyarizasiyanı *"dini düşüncələr, praktikalar və dini institutların əhəmiyyətini itirməsi"* kimi tərif edir. Onun fikrincə, cəmiyyətlər sənayeləşərkən daha rasional, elmi və ixtisaslaşmış cəmiyyət halına gəlir. Buna görə də ənənəvi dəyərlər və praktikalar zəifləyir. Nəticədə həm dini həyatda zəifləmə olur, həm də dini müəssisələrin yerinə yetirdiyi vəzifə və rollar (təhsil, siyasət, ictimai asayiş və s.) başqa ixtisaslaşmış ictimai-siyasi institutlara həvalə edilir.

Sosioloqların fikrincə, sekulyarlaşma üç səviyyədə baş vermişdir:

*1. Makro səviyyə.* Bu tarixi mərhələdə cəmiyyətin siyasi həyatı dini təşkilatların və ideyaların təsirindən azad olunmuş, yəni dövlət ilə din bir-birindən ayrılmış, dini etiqad və vicdan azadlığı elan olunmuşdur. Dini idealların yerini demokratik prinsiplər və ümumbəşəri dəyərlər tutmuşdur;

*2. Orta səviyyədə*. İctimai həyatın mədəni, intellektual və iqtisadi sahələri dinin təsirindən azad olunaraq müstəqillik qazanmışdır;

*3. Mikro səviyyə*. Dünyəviləşmə fərdi səviyyədə baş vermişdir. Din vətəndaşların şəxsi işinə, yəni hər kəsin fərdi seçim məsələsinə çevrilmişdir.

Bəşəriyyətin inkişaf tarixinə nəzər yetirdikdə sekulyarlaşma nəzəriyyəsini dəstəkləyən bir çox dəlillərin olduğunu görürük. Belə ki, Avropada XVI-XVII əsrlərdə yaşanan elmi inqilab, XVII-XVIII əsrlərdə maarifçilik hərəkatının geniş vüsət alması ilə orta əsrlərdə Qərb dünyasında hakim mövqedə dayanan və insanların şüuruna güclü təsir göstərən Roma Katolik Kilsəsinin dayaqları sarsıldı. Bütün bunlar isə nəticə etibarilə dinin ictimai həyatdan sıxışdırılaraq çıxardılmasına, Qərb dünyasında sekulyar ideyaların qələbə qazanmasına səbəb oldu. XVI-XVII əsrlərdə katolik kilsəsində islahatların aparılmasını tələb edən Reformasiya hərəkatı da dünyəviləşmə proseslərini sürətləndirdi. Qərb aləmindən dünyanın digər bölgələrinə sirayət edən dünyəvi dəyərlər az qala yer üzünün bütün regionlarında zəfər çaldı. Təsadüfi deyildir ki, müasir dövrdə dünyadakı ölkələrin mütləq əksəriyyəti dünyəvi dövlət quruluşuna malikdir.

Bununla yanaşı, "Pew Research Center" (Pyu Tədqiqat Mərkəzi)

kimi nüfuzlu sosioloji araşdırma mərkəzlərinin apardığı sorğular və təhlillər də onu göstərir ki, Qərb ölkələrində özünü ateist və ya aqnostik kimi xarakterizə edənlərin sayında artım baş verir. Həmçinin Avropada ibadətə gələnlərin sayında kəskin azalma müşahidə olunduğu üçün kilsələrin bir çoxu bağlanır.

Sekulyarlaşma nəzəriyyəsinin tərəfdarlarına görə, sadalanan faktlar onu deməyə əsas verir ki, din və müasirlik arasında dərin uçurum mövcuddur, bəşəriyyətin elmi-texnoloji cəhətdən tərəqqisi isə dinin bir sosial institut kimi tarix səhnəsindən birdəfəlik silinməsinə, yaxud ən azı cəmiyyətdəki rolunun zəifləməsinə gətirib çıxardacaqdır.

### *2. Dinin transformasiyası nəzəriyyəsi*

XX əsrin sonlarında irəli sürülən bu nəzəriyyənin tərəfdarları bildirirlər ki, cəmiyyətin dünyəviləşməsi nəticəsində dinin tamamilə yox olacağını düşünmək yanlışdır. Onların fikrincə, sekulyarlaşma və müasirləşmə proseslərinin təsiri altında ənənəvi dini qurumların cəmiyyətdəki mövqeyi əhəmiyyətli dərəcədə zəifləsə də, dinin özü və ya dini təfəkkür tərzi yox olmayacaq. Yəni, müasir dövrdə din keçmişdəki kimi cəmiyyətin inkişafına təsir etmir, lakin cəmiyyətin dünyəviləşməsi və tərəqqisi səbəbilə öz şəklini dəyişir, yeni məzmun və forma qazanır. Bu konsepsiyanı müdafiə edənlərdən biri müasir kanadalı filosof Çarlz Teylor sayılır.

Dinin transformasiyası nəzəriyyəsinə əsasən, sosial rifah səviyyəsinin yüksək olduğu, fərdi mənafeyin kollektiv maraqlardan üstün tutulduğu modern cəmiyyətlərdə mənəvi boşluq və həyatın mənasızlığı problemi mövcuddur. Dünyəvi və modern ideyalar bu boşluğu doldurmaq iqtidarında deyildir. Həyatın mənası axtarışında olan müasir insan bu suallara cavab tapmaq üçün şəxsi dini təcrübəsinə önəm verir. O, ənənəvi dini inancları özünəməxsus tərzdə şərh edərək onları fərqli şəkildə anlayır, yaxud həyatın mənasını mövcud ənənəvi dini qurumlardan kənarda axtarır. Nəticədə fərqli dini inancların sintezindən ibarət olan və daha çox fərdin daxili aləminə yönəldilmiş alternativ, yeni dini təcrübə və etiqadlar meydana gəlir. Bu nəzəriyyəni müdafiə edən alimlər mülahizələrini əsaslandırmaq üçün Qərb dünyasında meydana gələn çoxsaylı yeni dini cərəyanları misal göstərir, eləcə də müxtəlif dini-mistik təlimlərə, İslam, Buddizm və Hinduizm kimi dinlərə marağın artdığını qeyd edirlər.

## *3. Dinin fərdi müstəvidə əhəmiyyətini qoruması nəzəriyyəsi*

Bu nəzəriyyəyə görə, dini təşkilatların cəmiyyətdə güc və əhəmiyyətini itirməsi fərdlərin özlərinin də dindən uzaqlaşması anlamına gəlmir. Qərb ölkələrində müasirləşmə və dünyəviləşmə proseslərinin təsiri altında kilsəyə üzv olanların, habelə dini ayinlərdə iştirak edənlərin sayında kəskin azalma müşahidə olunsa da, bir çox avropalılar Tanrıya və ölümdən sonrakı həyatın varlığına inanırlar. Buna nümunə kimi İslandiyanı göstərmək olar. İslandiyanın əhalisinin yalnız çox az qismi müntəzəm olaraq kilsələrə gedir. Lakin keçirilən sosioloji sorğular onu göstərir ki, islandiyalıların 88 faizi axirətə, 40 faizi reinkarnasiyaya inanır. Habelə islandiyalıların 82 faizi gündəlik həyatlarında Tanrıdan yardım diləyir. İslandiyanın nümunəsində görmək mümkündür ki, kilsələrə getməyən və dini ayinləri yerinə yetirməyən bir çox avropalı üçün dini dünyagörüşü tərzi hələ də özünü dərk etmək və həyatın mənasını izah etmək baxımından əhəmiyyətini qoruyur. Müasir ingilis sosioloqu *Qreys Devi* bu fenomeni *"mənsubiyyətsiz iman"* ("believing without belonging"), yəni hər hansı dini təşkilata aid olmadan inanc bəsləmək kimi səciyyələndirmişdir. Beləliklə, avropalıların ibadətlərə biganə yanaşması onların dinsiz olması anlamına gəlmir.

Müasir Avstriya sosioloqu *Piter Berger "Sekulyarizmin tənəzzülü"* adlı məqaləsində dinin fərdi müstəvidə əhəmiyyətini qoruduğunu belə ifadə etmişdir: *"Modernləşmənin bəzi cəhətlərdən dünyəviləşməyə səbəb olduğu, hətta bəzi ərazilərdə bunun daha da çox hiss edildiyi bir həqiqətdir. Amma modernləşmənin dünyəviləşməyə qarşı bir çox güclü hərəkatlar ortaya çıxartdığı görünür. Bundan əlavə, ictimai müstəvidəki dünyəviləşmənin mütləq fərdi müstəvidə də gerçəkləşməsi kimi məcburiyyət yoxdur. Bir çox cəmiyyətdə bəzi dini təşkilatlar güclərini və nüfuzlarını itiriblər, amma həm qədim, həm də yeni dini inanc və ibadət şəkilləri, bəzən yeni institusional şəkillərə, bəzən də ifrat dini ifadələrə çevrilərək fərdlərin həyatında yerlərini qorumuşdur..."*.

## *4."Sekulyarlaşmanın əfsanə olması" nəzəriyyəsi*

Bu nəzəriyyəyə görə, dünyəviləşmə konsepsiyasını təsdiqləyən heç bir ciddi elmi dəlil yoxdur və bu mülahizə daha çox ideoloji səbəblərlə irəli

sürülmüşdür. *Xose Kazanova, Rodni Uilyam Stark, Barri Qlasner* kimi bəzi sosioloqlar dünyəviləşmə nəzəriyyəsini "əfsanə" adlandırmışlar. Müasir amerikalı sosioloq *Rodni Uilyam Stark* isə daha dərinə gedərək *"sekulyarlaşmanı təsdiqlənməmiş nəzəriyyələr məzarlığına atmağı"* təklif etmişdir.

Dünyəviləşmə nəzəriyyəsinin bir uydurma olduğunu bildirən alimlər vurğulayırlar ki, müasir dünyada həm gündəlik, həm də ictimai-siyasi həyatda dinin rolu getdikcə artır. Günümüzdə dini təşkilatlar sosial həyatla bağlı məsələlərin müzakirəsində aktiv iştirak edir, ictimai rəyin formalaşdırılması istiqamətində fəaliyyət göstərir. X.Kazanova *"Müasir dünyada ictimai dinlər"* adlı kitabında dünyada cərəyan edən ictimai-siyasi proseslərdə dinin fəal rol oynadığını sübuta yetirmək üçün aşağıdakı 4 arqumenti gətirir:

1. 1979-cu ildə şah Məhəmməd Rza Pəhləvinin devrilməsi ilə nəticələn İran İslam inqilabı;

2. 1980-1981-ci illərdə geniş vüsət alan Polşa "Həmrəyliyi" hərəkatında Katolikliyin böyük rol oynaması;

3. 1979-cu ildə Nikaraquada Antastasio Somosanın siyasi rejiminin devrilməsi ilə nəticələnən Sandinista inqilabında katolikliyin əhəmiyyətli rol oynaması;

4. ABŞ-da bir siyasi güc kimi protestant fundamentalizminin nüfuzunun artması.

Əvvəllər sekulyarlaşma nəzəriyyəsinin məşhur müdafiəçilərindən olan avstriyalı sosioloq *P.Berger* də sonradan *"Dünyanın desakralizasiyası"* və *"Sekulyarizmin çöküşü"* adlı əsərlərində dünyəviləşmə tezisinin əsaslandığı dəlillərin dünyanın əksər regionlarında özünü doğrultmadığını, əksinə, din amilinin getdikçə gücləndiyini etiraf etmişdir. O, qeyd edir ki, dünyəviləşmə qlobal bir fenomeni kimi görünsə də, hər cəmiyyətdə fərqli şəkildə təzahür etmişdir. Berger öz mülahizəsini əsaslandırmaq üçün müsəlman dünyasını misal göstərir. Onun fikrincə, əksər müsəlman ölkələrində təhsil, səhiyyə, sosial müdafiə kimi sahələrdə dövlət təminatı aşağı səviyyədədir. Odur ki, həmin sahələrdə əhalinin tələbatını əsasən İslam təmayüllü dini təşkilatlar ödəməyə çalışır. Bu isə İslam dinin ictimai-siyasi həyatda nüfuzunun artmasına səbəb olur.

Dünyanın fərqli regionlarında dünyəviləşmə proseslərinin eyni səviyyədə cərəyan etmədiyinə dair başqa nümunə göstərmək mümkündür. Avropa dövlətlərindən fərqli olaraq, ABŞ-da dinin nüfuzu istər fərdi, istər isə ictimai-

siyasi müstəvidə xeyli güclüdür.

Ateizmin sərt buxovlarından qurtulan keçmiş sovet respublikalarında baş verən dinə qayıdış prosesi, bir sıra müsəlman ölkələrində yaşanan islami oyanış, həmçinin dünyanın müxtəlif regionlarında din və məzhəb zəminində münaqişələrin artması onu göstərir ki, bəşəriyyətin elmi-texnoloji tərəqqisi fonunda din amili əhəmiyyətini itirməyib.

Gördüyümüz kimi, dinin müasir cəmiyyətdə yeri və rolu ilə bağlı irəli sürülən nəzəriyyələrin hər birinin güclü və zəif tərəfləri var. Onların əsaslandığı dəlilləri nəzərdən keçirdikdən sonra belə nəticəyə gəlmək mümkündür ki, elmi-texnoloji tərəqqiyə və dünyada geniş vüsət almış sekulyarlaşma proseslərinə baxmayaraq, din bir dünyagörüşü tərzi kimi hər zaman varlığını qoruyacaqdır. Doğrudur, orta əsrlərdə dinin nəzarət etdiyi bir çox ictimai institutlar dünyəviləşmişdir. Dövlət idarəçiliyi, təhsil, ailə və başqa ictimai institutlar dindən ayrılaraq müstəqillik qazanmışdır. Buna baxmayaraq, “Mən nə üçün varam?”, “Həyatımın mənası nədir?”, “Ölümdən sonra həyat varmı” kimi suallar bəşər övladını daim narahat edəcəkdir. Din isə həyatın mənası ilə bağlı əbədi suallara qəti cavab verməyə çalışan inanclar sistemidir. Bu isə o deməkdir ki, fərdi müstəvidə dini dünyagörüşü tərzi daim əhəmiyyətini saxlayacaqdır.

## 5.2. Yeni dini hərəkatlar

Bu gün dünyada qədim tarixə malik olan ənənəvi dinlərin mənsubları ilə yanaşı, XIX əsrdə və sonrakı dövrdə meydana gəlmiş dini təşkilatların, cərəyanların, qrupların ardıcılları da yaşayırlar. Ənənəvi din və konfessiyalardan ayrılaraq yaranmış bu dini fenomenlər dinşünaslıqda *yeni dini hərəkatlar* adlanır. Tədqiqatçıların hesablamalarına görə, hazırda yer üzündə yüzlərlə yeni dini hərəkat mövcuddur. Bunlardan bəzilərinin mənsublarının sayı milyonlarla ölçüldüyü halda, əksəriyyətində bu rəqəm yüzü belə keçmir.

Müasir dünyada geniş yayılmış yeni dini hərəkatlardan bəzilərinə nəzər yetirək.

### *"Yehovanın Şahidləri" dini təşkilatı*

Hazırda dünyanın 240-dan çox ölkəsində 8 milyondan yuxarı mənsubu olan "Yehovanın Şahidləri" dini təşkilatının əsası XIX əsrin 70-ci illərində ABŞ-ın Pittsburq şəhərində amerikalı tacir Çarlz Teyz Rassel (1852-1916) tərəfindən qoyulmuşdur. O, 1879-cu ildən *"Sion Keşikçi qülləsi və İsa Məsihin müjdəçisi"* adlı jurnal (hazırda *"Keşikçi Qülləsi"* kimi tanınır.- Red.) buraxmış, "*Keşikçi Qülləsi, İncillər və Traktatlar Cəmiyyəti"ni* təsis etmiş, onun ilk prezidenti seçilmişdir. Cəmiyyət üzvləri Bibliyanı öyrəndikləri üçün "*Müqəddəs Kitabı tədqiq edənlər"* kimi məşhurlaşmışlar.

Bununla yanaşı, Ç.T.Rassel iddia etmişdir ki, 1914-cü ildə İsa Məsihin ikinci gəlişi baş verəcək, qiyamət qopacaq, əksər insanlar, o cümlədən "yalançı xristianlar" məhv olacaq, təkcə həqiqi möminlər nicat tapacaq və yer üzündə qurulacaq Səmavi Səltənətdə əbədi həyat sürəcəklər. Lakin onun 1914-cü il haqqında xəbəri gerçəkləşməmiş, bundan sonra o, yeni iddia ilə çıxış etmişdir. Onun iddiasına görə, 1914-cü ildə səmada İsa Məsih taxta çıxmış və bununla da İlahi Padşahlıq qurulmuşdur. Səmadan yer üzünü idarə etməyə başlayan İsa Məsih taxta çıxan kimi İblisi və onun cinlərini göydən yerə atmışdır. Bundan bərk qəzəblənən şeytan bütün dünyanı zülmə qərq etmişdir. O vaxtdan bəri bəşəriyyətin dərd-bəlası günü-gündən artmış, müharibələr, qıtlıqlar, epidemiyalar, zəlzələlər baş alıb getmişdir. Bütün bunlar isə tezliklə yer üzündə İlahi Padşahlığın qurulacağından xəbər verirdi. Ç.T.Rassel hesab edirdi ki,

*Armageddon* (İsa Məsih və İblis arasında müharibə.- Red.) müharibəsində qələbə qazanacaq İsa Məsih yer üzünü 144 000 seçilmiş insan ilə birgə göylərdən idarə edəcəkdir.

Ç.Rasselin vəfatından sonra Keşikçi Qülləsi, İncillər və Traktatlar Cəmiyyətinə onun yaxın silahdaşı Cozef Franklin Ruterford rəhbərlik etmişdir. Lakin onun vaxtında cəmiyyət daxilində parçalanma baş vermişdir. Bu səbəbdən C.F.Ruterford öz tərəfdarları ilə birgə başqa təşkilat qurmuşdur. O, 1931-ci ildə rəhbərlik etdiyi təşkilatı *"Yehovanın Şahidləri"* adlandırmışdır.

C.F.Ruterforddan sonra "Yehovanın Şahidləri" təşkilatına *Natan Norr (1942-1977), Frederik Uilyams Frens (1977-1992), Milton Corc Henşel (1992-1999), Don Adams (1999-2014), Robert Siranko (2014)* rəhbərlik etmişlər.

Xristianlığın antitrinitarizm cərəyanına daxil olan "Yehovanın Şahidləri" bütün xristian dünyasının yekdilliklə qəbul etdiyi bir sıra ehkamları, məsələn, Müqəddəs Üçlüyü, yəni Tanrının üç ilahi sifətdən ibarət olmasını (Ata, Oğul və Müqəddəs Ruh.- Red.) inkar edirlər. Digər xristianlardan fərqli olaraq, onlar xaç çevirmir, ibadətlərində surət, rəsm, təsbeh, ikona kimi əşyalardan istifadə etmirlər. Yehovaçılar inanırlar ki, ənənəvi xristian kilsələri Müqəddəs Üçlük, ölümdən sonra ruhun dirilməsi, cəhənnəm əzabı barədə ehkamları qəbul etməklə İsa Məsihin həqiqi təlimini təhrif etmişlər. Onların fikrincə, İsa Məsih möcüzəvi şəkildə dünyaya gəldiyi üçün Tanrının oğludur, amma onun bərabəri deyildir. O, Rəbbin seçilmiş qulu və elçisidir. Tanrı İsa Məsihi bütün bəşəriyyət üzərinə hökmdar təyin edib. İnsanlar məhz İsa Məsih vasitəsilə xilas olacaqlar.

Yehovaçılar əbədi əzaba və ruhun ölümsüzlüyünə inanmırlar. Onların etiqadına görə, Armageddonda İsa Məsih Tanrının ordusuna başçılıq edərək insanlar tərəfindən qurulan hökumətlərlə müharibə aparacaq, onları məğlub edərək insanın yer üzündəki hökmranlığına son qoyacaqdır. Bununla da xeyir şər üzərində, ilahi hakimiyyət dünyəvi hakimiyyət üzərində qələbə qazanacaqdır.

"Yehovanın Şahidləri" dini təşkilatında sərt nizam-intizam hökm sürür. Təşkilata iyerarxik idarə üsulu xasdır. Yehovaçılar bunu "teokratik idarə" adlandırırlar. Çünki öz təşkilatlarını Tanrı tərəfindən seçilmiş sayırlar. Yehovaçılar vətən və millət anlayışını qəbul etmir, dünyəvi dövlətin atributlarına ehtiram göstərmir, milli adət-ənənələrə ikrah hissi ilə yanaşırlar. Həmçinin ali təhsil almağı, hərbi xidmət çəkməyi, seçkilərdə iştirak etməyi, ad gününü, dövlət

bayramlarını və milli şənlikləri qeyd etməyi, əyləncələrə qatılmağı haram hesab edirlər. Bununla yanaşı, "Yehovanın Şahidləri" qanköçürmədən və qan tərkibli qidaların qəbulundan imtina edirlər.

Qeyd edək ki, "Yehovanın Şahidləri" dini təşkilatı Azərbaycanda ötən əsrin 90-cı illərin əvvəllərindən fəaliyyət göstərməyə başlamışdır.

### *Bəhailik*

Bəhailik XIX əsrin ikinci yarısında İranda yaranmışdır. Bu dinin formalaşmasında Babilik dini hərəkatının təlimi mühüm rol oynamışdır. Hərəkatın banisi *Seyyid Əli Məhəmməd* (1819-1850) sayılır. O, ilk dəfə təbliğatına 1844-cü ildə Şiraz şəhərində başlamışdır. Seyyid Əli Məhəmməd iddia edirdi ki, onun özü İslamın şiə ənənəsinə görə qeybə çəkilmiş İmam Mehdiyə açılan bir *"Bab"*dır (ərəbcə "qapı" deməkdir.- Red.). İran cəmiyyətinin aşağı və orta təbəqələrində özünə xeyli sayda tərəfdar toplaya bilən Babın ardıcılları *babilər* adlandırılmışlar. Bab iddialarında daha da irəli gedərək özünü Mehdi elan etmiş və *"Bəyan"* adlı kitab qələmə almışdır.

Qeyd edək ki, babilərin uğur qazanmasından narahat olan İranın hakim dairələri XIX əsrin 40-cı illərinin sonunda sözügedən dini hərəkatın yatırılması istiqamətində qətiyyətli tədbirlərə əl atmışdır. Babilər hərəkatının 20 min nəfərədək tərəfdarı qətlə yetirildi, sağ qalan babilər isə qonşu ölkələrə qaçmaq məcburiyyətində qaldılar. Babın özü isə 1850-ci ildə edam edildi.

Babilər hərəkatının yatırdılmasına baxmayaraq, Babın qatı tərəfdarlarından olan *Mirzə Hüseyn Əli* (1817-1892) öz dini rəhbərinin işini davam etdirmiş, apardığı təbliğat sayəsində yeni dinin – *bəhailiyin* əsasını qoymuşdur. Belə ki, o, 1863-cu ildə Bağdadda sürgündə ikən Bab tərəfindən gəlişi əvvəlcədən xəbər verilən Məsih olduğunu iddia etmişdir. Bundan sonra Babın tərəfdarlarının böyük hissəsi *"Bəhaullah"* ("Allahın Cəlalı") kimi məşhurlaşan Mirzə Hüseyn Əlinin ardınca getmişlər.

Dəfələrlə həbs olunan, həyatının 40 ilini sürgünlərdə keçirən, təqiblərə məruz qalan Bəhaullah 1892-ci ildə 75 yaşında Osmanlı imperiyasının ucqar bölgəsi olan Akko şəhərində (hazırda İsrail ərazisində yerləşir.- Red.) dünyasını dəyişmişdir. Onun yolunu oğlu Əbdülbəha, daha sonra isə nəticəsi Şövqi Əfəndi davam etdirmişdir.

Bəhaullah yüzə yaxın kitabın müəllifidir. Bəhailər inanırlar ki, bu əsərlər Allah tərəfindən vəhy ilə nazil olmuşdur. Həmin əsərlərdən ən məşhurları bunlardır: *"Kitabi-Əqdəs" ("Ən müqəddəs kitab"), "Kitabi-İqan" ("Yəqinlik kitabı"), "Kəlimət-i-Məknunə" ("Gizli kəlamlar").*

Bəhailiyin etiqad əsaslarına gəlincə, ilk növbədə qeyd etmək lazımdır ki, bu din bütün bəşəriyyətin birliyi prinsipini vurğulayan monoteist dindir. Belə ki, Bəhai dininin əsas prinsipləri aşağıdakılardır:

1. Allah birdir.
2. Bütün dinlər birdir.
3. Bəşəriyyət birdir. Cəmiyyətin müxtəlif təbəqələrinə aid olan bütün irqlər, millətlər, dinlər və silklər Allah qarşısında birdir.
4. İnsanlar müqəddəs ruha möhtacdırlar.
5. Hər bir insan haqqı müstəqil olaraq axtarmalıdır.
6. Elm və din harmonik olaraq bir-birini tamamlamalıdır. Hər hansı bir din elmə ziddirsə, doğru deyil. Elm dinsiz olduqda mövhumatdır.
7. İnsanlar hər cür mövhumatdan imtina etməlidirlər.
8. Kişilər və qadınlar quşun qanadı kimi bərabərdirlər.
9. Hər bir uşaq möhkəm əsası olan təhsil hüququna malikdir.
10. İqtisadi problemlərin mənəvi həlli vardır.
11. Bəşəriyyətə beynəlxalq köməkçi dil lazımdır.
12. Bəşəriyyət dünya dövlətləri tərəfindən dəstəklənən ümumbəşəri sülhü yaratmalıdır.

Bəhailikdə İslamda olduğu kimi namaz, oruc, zəkat və həcc ibadətləri mövcuddur. Lakin bu dini ayinlərin yerinə yetirilmə şəkli tamamilə fərqlidir. Bəhailərə görə, namaz səmimi-qəlbdən Allahı zikr etmək deməkdir. Bu dində böyük, orta və kiçik namaz olmaqla üç fərqli namaz forması vardır. Onlardan birini qılmaq kifayətdir. İsrailin Akko şəhərində yerləşən Bəhaullahın məzarı bəhailərin qibləsi sayılır.

Bəhailikdə oruc 19 gün (mart ayının 2-dən 20-dək) tutulur. Bu zaman səhər gün çıxandan axşam gün batanadək yemək və içmək tam qadağandır.

Həcc ibadəti yalnız kişilərə və maddi imkanı çatanlara vacib sayılır. Bəhailərdə həcc mərasimi Babın Şiraz şəhərindəki evini və ya Bəhaullahın Bağdadda qaldığı evi ziyarət etməklə yerinə yetirilir.

Hazırda dünyanın bir sıra ölkələrində bəhailərin icmaları mövcuddur. Dünyada Bəhai dininin mənsublarının sayı 6 milyondan yuxarıdır. Bəhai dininin

ali ruhani və inzibati orqanı olan Ümumdünya Ədalət Evinin qərərgahı İsrailin Hayfa şəhərində yerləşir. Ümumdünya Ədalət Evinin üzvləri hər beş ildən bir keçirilən qurultayda bütün Milli Ruhani Məhfilin (regional idarəetmə orqanı.- Red.) üzvləri tərəfindən kişilər arasından seçilirlər.

Yerli bəhai icmalarının fəaliyyəti isə ildə bir dəfə seçilən və doqquz üzvdən ibarət olan Yerli Ruhani Məhfillər tərəfindən tənzimlənir. Hal-hazırda dünyanın müxtəlif ölkələrində 30 mindən çox Yerli Ruhani Məhfil və 179 Milli Ruhani Məhfil fəaliyyət göstərir.

Qeyd edək ki, Bəhai dininin Azərbaycandakı tarixi kökləri XIX əsrə gedib çıxır. Çar Rusiyası dövründə Bakıda, xüsusilə Balaxanıda, həmçinin Gəncə, Ordubad, Bərdə və digər yerlərdə bəhai dini icmaları mövcud idi. 28 aprel 1920-ci ildə bolşeviklər Azərbaycanda zorla hakimiyyətiə ələ keçirdikdən sonra bəhai icmalarının fəaliyyətinə son qoydular.

Hazırda respublikamızda bəhailərin əsas fəaliyyət dairəsi Bakı və Sumqayıt şəhərlərini əhatə edir.

### *Munçuluq*

Rəsmi adı *Dünya Xristianlığının Vəhdəti uğrunda Müqəddəs Ruh Cəmiyyəti,* yaxud *Vəhdət Kilsəsi* olan munçuluq XX əsrin ortalarında Cənubi Koreyada yaranmışdır. Cərəyanın banisi *Mun Son Myon* (digər adı: Son Myonq Mun) 1920-ci ildə Şimali Koreyada kəndli ailəsində dünyaya gəlmişdir. Munçular inanırlar ki, guya 1935-ci ildə Pasxa günündə İsa Məsih Mun Son Myonun gözünə görünərək ondan xahiş etmişdir ki, bəşəriyyətin xilası naminə yerinə yetirə bilmədiyi missiyasını tamamlasın. Guya o, uzun təfəkkür və duadan sonra İsa Məsihin yarımçıq qalmış missiyasını öz üzərinə götürməyə razılaşmışdır. Beləliklə, Mun Son Myon özünü Məsih elan etmişdir.

İkinci Dünya müharibəsi bitdikdən sonra Mun Son Myon Koreyada öz dini təlimini təbliğ etməyə başlayır. O, İsa Məsihi təqlid edir, onun kimi məhəllədə yaşayan yoxsulların evinə gedir, onlara maddi köməklik göstərirdi. 1946-cı ildə Mun Son Myon "Geniş dənizin kilsəsi" adlı dini təşkilat təsis etmiş və öz dini ideyalarını yaymaq üçün Şimali Koreyaya getmişdir. Burada dini təbliğatla məşğul olduğuna görə iki dəfə həbs olunmuşdur. 1950-ci ildə həbsdən azad olunduqdan sonra o, yenidən dini fəaliyyətini davam etdirmişdir.

Zaman keçdikcə onun tərəfdarlarının sayı artmağa başlamış, nüfuzu Koreya sərhədlərini aşmışdır. 1954-cü ilin mayında Mun Son Myon Cənubi Koreyanın paytaxtı Seul şəhərində Vəhdət Kilsəsini yaratmışdır. 1958-ci ildə Yaponiyaya, 1959-cu ildə isə Amerika Birləşmiş Ştatlarına ilk munçu missionerlər göndərilmişdir.

1992-ci ildə Mun özünü yeni bəşəriyyətin *"Həqiqi Atası"* adlandırmış, bir ildən sonra isə "Əhdi-Cədid erası"nın dəyişərək *"Əhdin yekunlaşma erası"* olduğunu bildirmişdir. Munçuların inancına görə, o vaxtdan artıq dünya üçün Mun dövrü başlamış, son və tam həqiqət onların "Həqiqi Ata"sı vasitəsi ilə aşkarlanmışdır. Qeyd edək ki, Mun 2012-ci ildə Cənubi Koreyada 92 yaşında vəfat etmişdir.

Göründüyü kimi, Mun Son Myonun şəxsiyyəti Vəhdət Kilsəsinin təlimində mərkəzi yeri tutur. Munçular inanırlar ki, Munun təlimi vəhy yolu ilə nazil olmuşdur. Onun dini təliminin əsasları munçuların müqəddəs kitabı sayılan *"İlahi prinsiplər"*də əks olunmuşdur.

Munçular xristian terminologiyasını öz dini təlimlərinə uyğunlaşdırıblar. Məsələn, onlar xristian dininin əsasını təşkil edən Müqəddəs Üçlük (Ata, Oğul və Müqəddəs Ruh.- Red.) ehkamını fərqli izah edirlər. Vəhdət Kilsəsinin dini təliminə əsasən, Müqəddəs Üçlük deyəndə, Tanrı, Mun Son Myonun özü və onun həyat yoldaşı Han Hakça başa düşülməlidir.

İztirab çəkən Tanrıya inanc Vəhdət Kilsəsinin dini təlimində mərkəzi yer tutur. Bu tanrı dualist (ikilik.- Red.) mahiyyətə sahibdir. O, kişi və qadın başlanğıcını təcəssüm etdirir. Munçulara görə, Tanrının yer üzündə tamhüquqlu yeganə vasitəçisi Mun Son Myondur. Odur ki, Tanrının məhəbbətini qazanmaq üçün Mun Son Myonu bəşəriyyətin xilaskarı kimi qəbul etmək lazımdır.

Eyni zamanda, munçuluğun təliminin əsasında "ideal ailə kultu" dayanır. Mun Son Myon arcıllarına öyrədirdi ki, kamillik zirvəsinə çataraq Tanrının həqiqi oğlu və qızı olmaq Vəhdət Kilsəsinin hər üzvünün amalı olmalıdır. Munçular inanırlar ki, Mun Son Myon və onun ailəsi bu məqsədə çatdıqlarına görə hər kəs üçün nümunədirlər. Odur ki, munçular Mun Son Myonu və onun həyat yoldaşını öz həqiqi valideynləri sayırlar. Bu inanc isə Vəhdət Kilsəsində kütləvi evləndirmə mərasimlərinin əsasını qoymuşdur. Belə ki, gənc munçular "həqiqi ata" hesab etdikləri Mun Son Myonun seçimi ilə ailə həyatı qurmağa başlamışlar. O da öz növbəsində, onlar üçün kütləvi evləndirmə mərasimləri

təşkil etmişdir. Məsələn, 1997-ci ildə keçirilmiş belə bir mərasimdə 30 min cütlük iştirak etmişdir.

Vəhdət Kilsəsi dünyanın bir çox ölkələrində güclü biznes şəbəkəsinə, müxtəlif istehsal və xidmət sahələri üzrə böyük korporasiyalara malikdir. Munçular öz dini ideyalarını yaymaq məqsədilə elm, təhsil və mədəniyyət sahəsində bir sıra layihələr həyata keçirirlər.

Munçular kütləvi informasiya vasitələri sahəsində də fəaliyyət göstərərək əvvəlcə Tokio, Nyu-York, daha sonra isə Vaşinqtonda qəzet və jurnal nəşr etdirmişlər. *“New York City Tribune”, “The Washington Times”, “Middle East Times”* kimi qəzetlər onlar tərəfindən yaradılmışdır. Bununla yanaşı, Vəhdət Kilsəsinə məxsus olan *“Free Press International”* xəbər agentliyinin maddi dəstəyi ilə *“Insight on the News”, “The World and I”, “Free Press International”* və digər jurnallar təsis olunmuşdur.

Qeyd edək ki, Vəhdət Kilsəsinin üzvlərinin (munçular) sayı dəqiq bilinmir. Dünyada munçuların sayının cəmi 7-8 min nəfər təşkil etdiyini deyənlər olduğu kimi, onların sayının 8 milyona çatdığını bildirən tədqiqatçılar da vardır.

Sovet İttifaqı dağıldıqdan sonra munçular postsovet məkanda, o cümlədən Azərbaycanda da fəaliyyət göstərməyə başlamışlar. Onlar QİÇS-lə mübarizə, ekologiyanın qorunması, sağlam ailənin qurulması adı altında seminarlar təşkil edərək gənclər arasında öz dini ideyalarını yaymağa çalışmışlar. Fəal təbliğatlarına baxmayaraq, munçular Azərbaycanda çoxlu tərəfdar qazana bilməmişlər.

## *Beynəlxalq Krişna Şüuru Cəmiyyəti*

*Beynəlxalq Krişna Şüuru Cəmiyyəti* – 13 iyul 1966-cı ildə Nyu-Yorkda (ABŞ) benqallı rahib *A.Ç.Bhaktivedanta Svami Prabhupada* (1896-1977) tərəfindən yaradılmış beynəlxalq dini təşkilatdır. *“Hare Krişna”* hərəkatı kimi də məşhur olan bu təşkilatın mənzil-qərargahı Hindistanın Qərbi Benqaliya ştatının Mayapur qəsəbəsində yerləşir. Təşkilatın ali idarə orqanı Rəhbərlik Şurasıdır. Hazırda şuranın üzvlərinin sayı 36 nəfərdir. Sözügedən cəmiyyətə 500-dək dini mərkəz, məbəd və ekoqəsəbələr, 100-dək vegetarian restoran, minlərlə yerli icma və kiçik dini qruplar daxildir. Həmçinin onun nəzdində Bhaktivedanta institutu və Bhaktivedanta kolleci fəaliyyət göstərir.

Beynəlxalq Krişna Şüuru Cəmiyyəti etiqad baxımından Hinduizm dininin Vayşnavizm (vişnuizm) cərəyanının Qaudiya-vayşnavizm istiqamətinə aiddir. Qaudiya-vayşnavizmin banisi Çaytanya Mahaprabhu (1486-1534) sayılır. Bu hinduist cərəyanın mənsubları vayşnavlar və ya krişnaçılar adlandırılırlar. Onlar Krişnaya pərəstiş göstərərək onu Tanrının ali sifəti kimi qəbul edirlər. Krişnaçıların inancına görə, Hinduizmdə ali tanrı hesab olunan Vişnu tanrı Krişanın mücəssəməsidir. Lakin Vayşnavizmin digər cərəyanlarının mənsubları Vişnunun özünü ali tanrı sayırlar. Məhz Beynəlxalq Krişna Şüuru Cəmiyyətinin təbliğatı nəticəsində Qaudiya-vayşnavizm Hindistanın hüdudlarını aşaraq dünyanın digər ölkələrində yayılmışdır.

Sözügedən cəmiyyətin dini-fəlsəfi təlimi *“Bhaqavat-gita”, “Bhaqavata-purana” və “Çaytanya-çaritamrita”* kimi Hinduizmin müqəddəs kitablarına əsaslanır. 1960-1970-ci illərdə A.Ç.Bhaktivedanta Svami Prabhupada bu dini mətnləri sanskrit və benqal dilindən ingilis dilinə tərcümə edərək onlara şərhlər yazmışdır. Xüsusən “Bhaqavat-gita olduğu kimi” adlı kitab Beynəlxalq Krişna Şüuru Cəmiyyətinin üzvləri arasında böyük nüfuza malikdir. “Bhaqavat-gita”nın tərcüməsi olan həmin əsər, eyni zamanda özündə A.Ç.Bhaktivedanta Svami Prabhupadanın Qaudiya-vayşnavizm ənənəsinə uyğun olan şərhlərini ehtiva edir. “Bhaqavat-gita olduğu kimi” kitabının çapını “Bhaktivedanta Buk Trast” nəşriyyatı həyata keçirir. Bu nəşriyyatın məlumatına görə, 80-dən çox dilə tərcümə olunmuş “Bhaqavat-gita olduğu kimi” kitabı yüz milyondan yuxarı tirajla buraxılmışdır.

Vegetarian həyat tərzi sürən krişnaçılar bu qidalanma sisteminin dünyada təbliğinə böyük önəm verirlər. Təsadüfi deyildir ki, Beynəlxalq Krişna Şüuru Cəmiyyətinin nəzdində vegetarian qidanın dünyada yayılması üzrə ən böyük humanitar missiyalardan biri olan “Hare Krişna – həyatın qidası” təşkilatı fəaliyyət göstərir.

Yoqa və meditasiya krişnaçıların dini həyatlarında mühüm yer tutur. Onlar yoqanın dörd növündən biri olan bhakti-yoqanı tətbiq edirlər. Bhakti-yoqa təliminə görə, hər canlının həyatının əsas məqsədi Tanrıya, yaxud rəbb Krişnaya sədaqət və məhəbbətlə xidmət göstərməkdir.

Hər gün yoqa ilə məşğul olan krişnaçılar müxtəlif *mantraları* təkrarlamaqla dini ayinlərini yerinə yetirirlər. *Mantra* - sanskrit dilində “təfəkkür aləti” mənasına gəlir; meditasiya məqsədilə təkrarlanan sanskritcə səslər, hecalar,

sözlərdir. Hinduizmin ardıcıllarına görə, mantralar böyük psixoloji və mənəvi təsirə malikdir. Beynəlxalq Krişna Şüuru Cəmiyyətinin ardıcılları kollektiv şəkildə meditasiya edərkən daha çox "Hare Krişna" mantrasını oxuyurlar. Həmin mantra sanskritcə belə səslənir: *Hare Krişna, Hare Krişna, Krişna Krişna, Hare Hare; Hare Rama Hare Rama, Rama Rama, Hare Hare*. Krişnaçılar bu mantranı təkcə ibadətgahlarda deyil, həm də ictimai yerlərdə musiqi sədaları altında oxuyur, beləliklə həm ianə yığır, həm də etiqadlarını təbliğ edirlər. Bununla yanaşı, Beynəlxalq Krişna Şüuru Cəmiyyətinin üzvləri festivallar və yoqa üzrə seminarlar keçirmək, dekorativ-tətbiqi sənətlərini nümayiş etdirmək, eləcə də ucuz qiymətə öz dini ədəbiyyatlarını satmaq yolu ilə inanclarını yaymağa çalışırlar.

Krişnaçı rahiblər zəfəran və ya narıncı rəngli paltarlar geyinir, qadınlarla ünsiyyətdən tamamilə qaçır, mal-mülkdən imtina edir, sədəqə hesabına yaşayır, başlarının arxasında "şikxa" adlanan bir dəstə tük saxlamaqla saçlarını təmiz qırxır, bir sözlə zahidanə həyat sürməyə çalışırlar.

Qeyd etmək lazımdır ki, krişnaçılar Azərbaycanda ötən əsrin 90-cı illərinin əvvəllərində fəaliyyət göstərməyə başlamışlar. Təbliğatlarında uğur qazanmaq üçün onlar "Bhaqavat-gita olduğu kimi" və digər krişnaçı ədəbiyyatı Azərbaycan dilinə tərcümə etmişlər. Respublikamızda krişnaçıların əsas fəaliyyət dairəsi Bakı və Sumqayıt şəhərlərini əhatə edir. Eyni zamanda, Bakı şəhərində onların bir ibadətgahı mövcuddur.

### *Yeddinci günün adventistləri*

*Adventizm* XIX əsrin əvvəllərində ABŞ-da yaranmışdır. Onun banisi Hampton şəhərinin (Nyu-York ştatı) baptist icmasının moizəçisi *Vilyam Miller* (1782-1849) hesab olunur.

İki il Bibliyanı tədqiq edən V.Miller 1818-ci ildə "Əhdi-Ətiq"in Daniel Peyğəmbərinin Kitabına istinad edərək belə qənaətə gəldi ki, təqribən 1843-cü ildə İsa Məsihin ikinci gəlişi baş verməlidir. Bundan sonra o, cəmiyyətdə tezliklə qiyamətin qopacağı ilə bağlı təbliğat aparmağa başladı. V.Miller öz dini ideyalarını çoxsaylı konfranslar, seminarlar vasitəsi ilə yayırdı. Onun təbliğatı nəticəsində *milleritlər*, yaxud *adventistlər* (latınca "adventus" – zühur etmək. –Red.) adlanan yeni protestant hərəkatın əsası qoyuldu. Zaman keçdikcə

bu hərəkata on minlərlə insan qoşulmağa başladı. Bunun əsas səbəbi o idi ki, XIX əsrin əvvəllərində ABŞ-da yaşanan sənaye inqilabına görə milyonlarla adam, xüsusən xırda ticarətçilər, kiçik fermer və sənətkarlar iflasa uğramışdı. Kasıblaşmış əhali V.Millerin axır zamanla bağlı xəbərini böyük sevinclə qarşılamışdı. Məzlum camaat ümid edirdi ki, İsa Məsih tezliklə zühur edəcək, öz İlahi Padşahlığını quracaq və beləliklə də kasıb və səfillər dünyanın əzab-əziyyətindən xilas olacaqlar.

Eyni zamanda, o, *"Məruzə icmallarında izah edilmiş İsa Məsihin 1843-cü ildə ikinci dəfə zühur edəcəyinə dair Müqəddəs Kitabdan və tarixdən dəlillər"* adlı kitab yazaraq İsa Məsihin 21 mart 1843 – 21 mart 1844-cü il tarixləri arasında yenidən zühür edəcəyini bildirdi.

V.Millerin axır zamanla bağlı xəbərlərinin təsiri altında on minlərlə ABŞ sakini 21 mart 1843-cü ildə ağ libaslara bürünərək İsa Məsihi qarşılamaq üçün dağlara qalxdılar. Ancaq onların gözləntiləri boşa çıxdı. Onda Millerin tərəfdarları İsa Məsihin ikinci gəlişinin 21 mart 1844-cü ilədək baş verəcəyinə ümid etdilər. Lakin yenə də verilən müjdə həyata keçmədi. Bundan sonra 1844-cü ilin may ayında Bostonda adventistlərin illik konfransında V.Miller açıq-aşkar səhv etdiyini bildirərək zühur tarixini müəyyənləşdirmək cəhdindən əl çəkdiyini vurğuladı. Buna baxmayaraq, onun tərəfdarlarından biri – Semuel Snou İsa Məsihin 22 oktyabr 1844-cü ildə gələcəyini iddia etdi.

Adventistlər bu xəbəri böyük sevinclə qarşıladılar. Onlar öz təsərrüfatlarını, iş-güclərini atıb gedir, evlərini, mal-mülklərini satır, səhərdən axşamadək tövbə və dualar edirdilər. Amma 22 oktyabr 1844-cü ildə də gözlənilən hadisə baş vermədi və adventistlər böyük məyusluq yaşadılar. Həmin gün adventizm tarixinə *"Böyük Məyusluq Günü"* kimi düşdü. Bundan sonra bir çoxları adventizm hərəkatından üz döndərdi. Hərəkata sadiq qalanlar isə müxtəlif qruplara parçalandılar, nəticədə "*Yevangelist adventislər", "Allah kilsəsi", "İkinci günün adventisləri"* kimi kilsələr yarandı.

Milleritlər hərəkatı daxilində Əhdi-Ətiqin şənbə günü ilə bağlı hökmünə riayət edən kiçik bir qrup da vardı. Digər xristianlardan fərqli olaraq, bu qrupun üzvləri bazar gününü deyil, şənbəni müqəddəs sayırdılar. Onlar həmin gün işləmir və özlərini tamamilə ibadətə həsr edirdilər.

Şənbəyə riayət edən adventistlər digər milleritlərdən 1844-cü ildə ayrıldılar. Onlar 1860-cı ildə Batl-Krik şəhərində (Miçiqan ştatı) qurultay

keçirərək özlərini *"Yeddinci günün adventistləri"* adlandırdılar. 20 may 1863-cü ildə yenə Batl-Krik şəhərində onların ilk Baş konfransı keçirildi. Baş konfransda Yeddinci Günün Adventistləri Kilsəsinin təşkilati strukturu müəyyənləşdirildi və nizamnaməsi hazırlandı.

Yeddinci Günün Adventistləri Kilsəsinin təşəkkülündə qızlıq soyadı Harmon olan *Ellen (Yelena) Quld Uayt* (1827–1915) adlı qadın mühüm rol oynamışdır. O, Tanrıdan vəhy aldığını iddia etmişdir. E.Uaytı peyğəmbər olaraq qəbul edən Yeddinci günün adventistləri inanırlar ki, onun çoxaylı əsərləri vəyhin təsiri altında qələmə alınmışdır.

E.Uayt Yeddinci Günün Adventistləri Kilsəsinin etiqadi prinsiplərini formalaşdırmış, "Əhdi-Ətiq"də yeyilməsi haram sayılan heyvanların ətini (donuz, pulcuqsuz balıq və s.) öz tərəfdarlarına qadağan etmiş, eləcə də onlara öz qida rasionlarından ət məhsullarını, alkoqollu və kofein tərkibli içkiləri (çay, qəhvə və s.), ədviyyatları çıxarmağı tövsiyyə etmişdir. Həmçinin onun təşəbbüsü ilə adventistlər dünyanın müxtəlif ölkələrində iri təhsil və tibb müəssisələri açmış, missioner fəaliyyətə başlamışlar. Nəticədə Yeddinci Günün Adventistləri Kilsəsi say etibarilə ən böyük adventist cərəyanına çevrilmişdir.

Müasir dövrdə dünyada Yeddinci Günün Adventistləri Kilsəsinin üzvlərinin sayı 20 milyon nəfərdən yuxarıdır. 1894-cü ildən Azərbaycanda fəaliyyət göstərən Yeddinci günün adventistlərinin ölkəmizdəki sayı isə hazırda 500 nəfərdən çoxdur. Respublikamızın Bakı və Gəncə şəhərində Yeddinci Günün Adventistləri Kilsəsinin iki rəsmi icması fəaliyyət göstərir.

## 5.3.Dini radikalizm və onunla mübarizə yolları

"Radikalizm" termini latın dilindəki *"radix"* (*radiks*) sözündən götürülüb, mənası əsas, köklü deməkdir. XVIII əsrin sonlarında İngiltərədə yaranan, sonra isə XIX əsrdə Avropa qitəsində yayılan bu termin ictimai-siyasi, iqtisadi və mədəni islahatlara, eləcə də müvafiq islahat təcrübəsinə əsaslanan fəaliyyət mənasında işlədilmişdir. Bu gün isə daha çox siyasi münasibətlərin, eləcə də siyasi sistemin əsas institutlarının qətiyyətli, köklü dəyişdirilməsinə yönəldilmiş ifratçı siyasi ideyaları və fəaliyyəti ifadə edir.

Əvvəlcə siyasi mahiyyətdə işlədilən "radikalizm" müasir dövrdə həm də müxtəlif sahələrdə, o cümlədən dində köklü dəyişikliklər etməyə cəhd göstərən qruplara şamil olunur. Bu mənada *"dini radikalizm" və ya "radikal dini qruplar"* tez-tez rast gəldiyimiz ifadələrdir. *Dini radikalizm hansısa dinin üstünlüyünü, xüsusi imtiyaza malik olduğunu təbliğ etməklə digər etiqadların mənsublarına qarşı dözümsüz münasibət göstərən ifratçı sosial-dini fenomendir.* Dini radikallar isə bu cür ideyaların təsirinə məruz qalmış, din adı altında gizlənən fərdlər və ya qruplardır. Əslində, dini radikalizm termin kimi yeni olsa da, ictimai hadisə kimi yeni deyil. Tarix boyu din və məzhəb zəminində qanlı münaqişələr baş verib, günahsız insanların qanı axıdılıb.

Ümumiyyətlə, tarixən istənilən dinin mənsubları arasında radikallar olub. Məsələn, Yəhudilikdə I əsrdə meydana çıxmış zelotları, Xristianlıqda tampliyerləri, İslamda həşşaşiləri və digərlərini göstərmək mümkündür. Halbuki, ibrahimi dinlərin prinsiplərinin təməlində sevgi, sülh, qardaşlıq və ədalət kimi ümumbəşəri, ülvi niyyətlər dayanır. Heç bir müqəddəs kitab başqa dinin nümayəndəsini öldürməyə, insanların dinini zorla dəyişdirməyə çağırmır. Həm "Tövrat", həm "İncil", həm də "Qurani-Kərim"də digər dinlərin mənsubları ilə, ümumiyyətlə, insanlarla xoş rəftar etmək və zorakılıqdan uzaq durmaq tövsiyə edilir. "Qurani-Kərim"in *"Maidə"* surəsinin 32-ci ayəsində deyilir: *"Hər kəs bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kimsə belə bir kimsəni diriltsə (ölümdən qurtarsa) o, bütün insanları diriltmiş olur"*. Eyni mahiyyətli fikirlərə Yəhudiliyin müqəddəs kitabında da rast gəlmək mümkündür: *"Bir insanı öldürənin bütün dünyanı öldürmüş sayılacağını sənə öyrətmək üçün tək yaradıldın; Bir insanın canını qurtaran, bütün dünyanı xilas etmiş sayılcaq..."* ("Mişna", "Sanedrin" 4:5).

Digər ibrahimi dinlər kimi, Xristianlıqda da humanizm prinsipləri önə çəkilir: *"Bir-birinizi sevməkdən başqa heç nədə heç kimə borclu qalmayın; çünki başqasını sevən Qanunu yerinə yetirmiş olur..."* (Əhdi-Cədid, Pavelin romalılara məktubu, 13:8-10).

Bütün bunlardan sonra haqlı bir sual yaranır: dinlər sülhü, rifahı və əmin-amanlığı təbliğ etdikləri halda, dini radikalizm necə yaranır və nədən qaynaqlanır?! Radikalizmə aparan yol *fanatizmdən* başlayır. Fanatik dindarlıq isə cahillikdən doğur. Bu cür dindarlar Tanrını dərk etmədən Onu "razı salmağa" çalışır, savadlı dindar isə Tanrını razı salmağa Onu tanıyıb öyrənməklə başlayır. Çünki inanc təkcə qəlb işi deyil, həm də ağıl işidir. Axı Yaradanı dərk etmədən Onun bizdən nə istədiyini, bizi necə görmək istədiyini anlaya bilmərik.

Fanatizm hər hansı bir inanca və ya baxışa ifrat dərəcədə bağlılıq, digər düşüncə tərzlərinə qarşı dözümsüzlük deməkdir. Dini fanatizm dini ideyalara hansısa tənqidi yanaşmanı istisna edən kor-koranə, həddindən artıq bağlılığı və real həyatda onlara şərtsiz riayət etməyi nəzərdə tutur.

*Savadsızlıq,* xüsusilə *dini savadsızlıq,* bir sözlə, cəhalət, xurafat olan yerdə dini radikalizmin yayılması qaçınılmazdır. Bu cür mühitin yaranmaması üçün elm, təhsil mütləqdir. Ancaq təəssüf ki, bu gün bəzi müsəlman cəmiyyətləri getdikcə elmdən, təhsildən, araşdırmadan uzaqlaşırlar. Ona görə də mövhumat və cahillikdən doğan radikalizm dünyada meydan sulayır. İslam dininin təməl prinsiplərindən xəbərsiz, zəif iradəli insanların dini savadsızlığı burada öz sözünü deyir. Dini təhsilin istənilən səviyyədə olmaması və ya bu yöndə təhsil almış kadrların düzgün istiqamətləndirilməməsi dini düzgün anlamamağa və anlatmamağa gətirib çıxarır.

*Psixoloji problemlər* də bu məsələdə önəmli rol oynayır. Ailədə, məktəbdə, universitetdə, yaxud iş yerində *laqeydlik və diqqətsizliklə* üzləşən, *təzyiqlərə* məruz qalan insanlar, xüsusilə psixoloji cəhətdən hələ tam formalaşmamış gənclər getdikcə özlərinə qapanır, cəmiyyətə yadlaşırlar. Bu yadlaşma onlarda mənəvi yoxsulluq doğurur, *empatiya*, yəni başqalarını öz yerinə qoyma duyğusunu məhv edir. Həmçinin, problemlərin həll edilə bilməməsi insanlarda natamamlıq kompleksi yaradır və belə bir psixoloji durumda onlar asanlıqla radikalların təbliğatının qurbanına çevrilirlər. Çünki radikallar qarşılarındakını ələ keçirmək üçün ilk növbədə ona özünəinam hissi aşılayırlar.

Dünyaya inteqrasiya proseslərində zəif iştirak radikalizm üçün münbit

şərait yaradır. Müsəlmanların çoxluq təşkil etdiyi regionlarda əhali ənənəvi-patriarxal həyat tərzi sürür. Bu faktor radikal cərəyanlar üçün çox əlverişlidir, çünki onların irəli sürdüyü dini konsepsiyalar konservatizm üzərində qurulub.

*Sosial ədalətsizlik* də dini radikalizmin inkişafı üçün zəmin formalaşdırır. Cəmiyyətdə baş verən mənfi hadisələr narazılıqlara gətirib çıxarır, bu isə müxtəlif radikal qruplar tərəfindən bacarıqla istifadə edilərək ictimai-siyasi hadisələrin axarına öz təsirini göstərir.

İşsizlik və yoxsulluqdan radikal qrupların təbliğatında geniş istifadə olunur. Onlar formalaşmamış, həyat təcrübəsi və dini bilikləri az olan, emosional, sosial statusundan narazı bəzi gəncləri mövcud sosial problemlərə qarşı dini etiraz aləti kimi istifadə edə bilirlər. *Cihad, "şəhid olmaq" və ya "əbədi qurtuluş"*a çatmaq kimi ekstremist ideyalar bu zaman onlar üçün dünyəvi məhrumiyyətləri kompensasiya edən rolunu oynayır.

Radikal qrupların təşkilati struktur formaları, eləcə də məqsədyönlü təbliğat və maliyyələşdirmə metodları da dini radikalizmin yayılmasında əhəmiyyətli rola malikdir.

Günümüzdə *"radikalizm" və "ekstremizm"* sözləri sinonim kimi işlədilsə də, onlar arasında terminoloji cəhətdən fərqlər mövcuddur. Ekstremizmin radikalizmdən ən böyük fərqi ifrat ideyaların zorakı metodlarla həyata keçirilməsidir. Başqa sözlə desək, hər ekstremist radikaldır, lakin hər radikal ekstremist deyildir.

*Dini ekstremizm* fərqli dinlərin nümayəndələrinə qarşı dözümsüzlükdə, yaxud konfessiyalararası sərt qarşıdurmada özünü göstərir. Dini ekstremizm "özgə" həmişə açıq və potensial düşməndir, ancaq "özününkünə" güvənə bilərsən prinsipinə əsaslanır. Dini ekstremist təşkilat isə dini ekstremist fəaliyyətin həyata keçirilməsi məqsədilə yaradılan və ya məqsədlərinə nail olmaq üçün belə fəaliyyəti həyata keçirən təsisatdır.

Müasir dövrdə ekstremist və radikal qruplaşmaların əsas təbliğat məkanı sosial şəbəkələrdir. Onlar əsasən sosial şəbəkələr vasitəsilə öz ideyalarını qlobal miqyasda yayır, habelə onlardan öz sıralarına yeni davamçılar cəlb etmək məqsədilə istifadə edirlər. Belə qruplar milli-dini dəyərlərin gözdən salınmasına çalışır, birbaşa, yaxud dolayı yolla zorakılığa çağırırlar. Bu cür təbliğatın təsiri altında formalaşmış gənclər ümumi dəyərlərdən imtina edir, təhsil və özünü təkmilləşdirmədən uzaqlaşırlar.

Dini radikalizm və ekstremizmin son mərhələsi, təbii ki, *terrorizm* sayıla bilər. *Terrorizm* siyasi məqsədlərin və məkrli niyyətlərin həyata keçirilməsi üçün ideoloji motivli təxribat, qətlə yetirmə, girov götürmə və ya başqa ictimai təhlükə yaradan zorakı, qəddar metodlardan (terror aktı) istifadə edilməsidir.

*Terrorçu* – hər hansı bir formada terror aktının həyata keçirilməsində iştirak edən şəxs; *terror qrupu* – terror fəaliyyətinin həyata keçirilməsi məqsədilə iki və daha artıq şəxsin birləşməsi; *terror təşkilatı* – terror aktının həyata keçirilməsi məqsədilə yaradılan və ya öz fəaliyyətində terrorçuluqdan istifadəni mümkün sayan təşkilat deməkdir.

Bu gün dini radikalizm və ekstremizmdən, o cümədən terrorizmdən heç bir ölkə və heç kəs sığortalanmayıb. Deməli, onlarla mübarizə hər bir dövlətin və hər kəsin ümdə vəzifələrindən biri olmalıdır. Bəs necə və hansı mübarizə metodlarından istifadə edilməlidir?

Şübhəsiz ki, birinci metod *maariflənmədir.* Savadsız insanı idarə etmək, istənilən tərəfə yönləndirmək asan olur. Bu baxımdan insanları radikalların təsirindən qorumağın ilkin metodu maarifləndirmə işinin aparılmasıdır.

İnsanın özünə, ailəsinə, yaşadığı cəmiyyətə və bütün dünyaya faydalı ola bilməsi üçün ən gərəkli şey elmdir. Elmə gedən yol isə təhsildən keçir. Təhsil fərdin, cəmiyyətin bütün sahələrdə yüksəlişini təmin edir, zəruri məlumatları verərək şəxslərə bacarıq və istedad qazandırır, yüksək mənəvi dəyərlər aşılayır, pis vərdişlərdən, davranışlardan qoruyur, yaxşı keyfiyyətlərə yiyələndirir. Bu səbəblə dində elmə, oxumağa, öyrənməyə böyük dəyər verilmişdir. Təsadüfi deyil ki, insanların doğru yola yönəlməsi üçün göndərilmiş "Qurani-Kərim"in ilk əmri *"oxu"* olmuşdur *("Ələq surəsi", 1-ci ayə*).

Təhsilsiz insan dünyaya hansı istiqamətdən baxacağını müəyyən edə bilməz. Radikalizmin qurbanı da əksər hallarda bu şəxslər olur. Bu cür insanlar bir növ oyuncağa çevrilir və özləri də bilmədən zamanla topluma zərər verirlər.

Radikalizmlə mübarizədə preventiv metod radikalların apardığı təbliğatdan bir addım öndə olmaq prinsipinə əsaslanır. Belə ki, onlar öz radikal fikirlərini dini mənbələrə istinad edərək yayırlarsa, dini maarifləndirmə işini həyata keçirənlər onlardan bir addım öndə olub, elə həmin mənbələrə müraciət edərək belə fikirlərin yanlışlığını, dinin radikallığa, ifratçılığa qarşı olduğunu insanlara çatdırmalıdırlar. Üstəlik, bu zaman etibarlı, əsaslandırılmış mənbələrə istinad edilməlidir ki, qarşı tərəfdə hər hansı şübhə yeri qalmasın.

Digər metod *profilaktik metoddur* ki, bu da radikal cərəyanların təsiri altına düşmək təhlükəsi ilə üzləşən insanlarla izahat işinin aparılmasıdır. Xüsusilə gənclər və yeniyetmələr radikal, ifratçı ünsürlərin təsirinə yenicə düşmüşsə, bununla bağlı dərhal fəaliyyətə keçmək lazımdır. Profilaktik metodu tətbiq edənlər həm insanların psixologiyasını, həm də dini dərindən bilməli, eyni zamanda el arasında yüksək nüfuza sahib olmalı, əxlaqlı və nümunəvi şəxsiyyət kimi tanınmalıdırlar.

Dini radikalizmə qarşı ən sonuncu mübarizə üsulu kimi *inzibati metoddan* istifadə olunur. Lakin bu metod son anda tətbiq oluna bilər. Belə ki, əgər radikal qüvvələrin fəaliyyətində cinayət tərkibi olarsa, bu zaman onlara qarşı mübarizəni hüquq mühafizə orqanları həyata keçirir.

Dini radikalizm digər sahələrdə gördüyümüz radikal münasibətdən daha şiddətli və daha dağıdıcıdır. Çünki din radikallaşdığı zaman birləşdirici olmaqdan daha çox, parçalayıcı xarakterə bürünür. Buna görə də dünyanın, demək olar ki, bütün ölkələrin tolerantlıq və birgəyaşayış mədəniyyətini, o cümlədən multikultural dəyərləri yaşatmaq və daha da inkişaf etdirmək məsələsi öz aktuallığını qoruyub saxlayır. Bəşəriyyətin gələcək rifahı yalnız bundadır. Harada olmağından və kimliyindən asılı olmayaraq hər kəs bəşəriyyət üçün böyük təhlükə sayılan zorakılığı, radikalizmi, terroru qınamalı, zorakılığın meyvəsinin şiddət olduğunu unutmayaraq ailədən cəmiyyətədək bütün sosial mühitlərdə hər şeyin qarşılıqlı anlayış və sülh çərçivəsində həll edildiyi mühitin formalaşmasına səy göstərməlidir.

## 5.4.Müasir Azərbaycanda dövlət–din münasibətləri

Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin müasir inkişaf mərhələsi xalqımızın 18 oktyabr 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdiyi dövrdən başlayır. Belə ki, ateizmi dövlət ideologiyası səviyyəsinə qaldıran Sovet İttifaqının süqutu ilə imperiya buxovlarından yenicə qurtulmuş ölkəmizdə din sahəsində tətbiq edilən qadağalara son qoyuldu, vətəndaşların dini etiqad və vicdan azadlığı təmin olundu.

Müstəqilliyin ilk illərində dövlət-din münasibətləri sahəsində baş verən müsbət dəyişikliklərlə yanaşı, qanunvericilikdə mövcud olan boşluqlardan öz məkrli məqsədləri üçün istifadə etməyə çalışan destruktiv qruplar da meydana çıxdı. Xaricdəki bəzi dairələr tərəfindən idarə olunan həmin qruplar ənənəvi milli-mənəvi dəyərlərimizə qarşı çıxaraq ifrat dini ideyaları və dözümsüzlüyü təbliğ edir, bununla da cəmiyyətdə dini zəmində ayrı-seçkilik və ədavət salmağa, dini şüarlar altında ictimai-siyasi sabitliyi pozmağa səy göstərirdilər.

Bütün bu neqativ amillər isə qanunvericilikdə mövcud olan boşluqların aradan qaldırılması istiqamətində müvafiq addımların atılmasını zəruri edirdi. Odur ki, 20 avqust 1992-ci ildə *“Dini etiqad azadlığı haqqında”* Azərbaycan Respublikasının Qanunu qəbul olunaraq dini qurumların statusu, hüquq və vəzifələri müəyyənləşdirildi.

Lakin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində əsl irəliləyiş ulu öndər Heydər Əliyevin 15 iyun 1993-cü ildə siyasi hakimiyyətə ikinci dəfə gəlişi ilə baş verdi. Ümummilli lider hakimiyyətə yenidən qayıtdıqdan sonra dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə problemlərin həlli və sabitliyə nail olunması, eləcə də milli-mənəvi dəyərlərimizin hifz edilməsi, tarixən ölkəmizdə mövcud olan tolerant və multikultural ənənələrin qorunaraq inkişaf etdirilməsi istiqamətində coxşaxəli, mühüm tədbirlər həyata keçirdi. Eyni zamanda, ölkəmizi dini zəmində parçalamaq, mənəvi cəhətdən zəifl ətmək, məzhəb ayrı-seçkiliyi salmaq istəyən qüvvələrin niyyətlərini puç etdi, etnik-dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızı Azərbaycançılıq məfkurəsi ətrafında birləşdirdi.

Heydər Əliyev tərəfindən dövlət-din münasibətləri sahəsində ən mühüm addım 1995-ci ildə atıldı. Həmin il noyabrın 12-də ümummilli liderin rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikasının Konstitusiyası ümumxalq səsverməsi

yolu ilə qəbul edildi. Məhz ulu öndərin müəllifi olduğu ilk milli Konstitusiyamızda dövlət-din münasibətlərinin əsas prinsipləri müəyyənləşdirildi.

Azərbaycan Respublikasının Konstitusiyasında dövlət və din münasibətlərini şərh edən müddəalara nəzər yetirək. Konstitusiyanın *7-ci maddəsində* Azərbaycan dövlətinin *demokratik, hüquqi, dünyəvi, unitar* respublika olduğu göstərilir. Həmçinin Konstitusiyanın *18-ci maddəsində* Azərbaycan Respublikasında dinin dövlətdən ayrı olduğu bildirilərək dövlətimizin dünyəvi quruluşa malik olduğu bir daha vurğulanır. Həmin maddədə bütün dini etiqadların qanun qarşısında bərabər olduğu, dövlət təhsil sisteminin dünyəvi xarakter daşıdığı bəyan edilərək respublikamızda insan ləyaqətini alçaldan, insanpərvərlik prinsiplərinə zidd olan dinlərin və dini cərəyanların təbliğinə qadağa qoyulduğu qeyd olunur.

Konstitusiyanın 18-ci maddəsində bütün dini etiqadların qanun qarşısında bərabər olması barədə yer alan müddəa açıq-aydın onu göstərir ki, Azərbaycanda rəsmi və ya dövlət dini mövcud deyildir. Bu baxımdan Azərbaycan digər bir çox dünyəvi dövlətlərdən fərqlənir. Məsələn, özlərini dünyəvi dövlət elan edən İngiltərədə Anglikan Kilsəsi, Danimarkada isə lüteran məzhəbi, yaxud daha dəqiq desək, Danimarka Xalq Kilsəsi rəsmi din statusundadırlar ki, bu da həmin dini institutları digər din və konfessiyalardan daha üstün məqama qaldırır.  Eyni mənzərəni bir sıra postsovet ölkələrdə də müşahidə etmək mümkündür. Belə ki, Ermənistan dünyəvi dövlət quruluşuna malik olsa da, Erməni Qriqoryan Kilsəsinə əlavə hüquq və imtiyazlar tanınıb. Bu isə faktiki olaraq dövlət tərəfindən dini qurumlar arasında ayrı-seçkiliyə yol verildiyi mənasına gəlir. Halbuki Azərbaycanda başqa mənzərəni görürük. Ölkəmizdə əhalinin təqribən 96 faizi özünü İslam dininin mənsubu sayır. Buna baxmayaraq, ölkə qanunvericiliyində hər hansı müsəlman dini təşkilatına və ya islam məzhəbinə qanunla əlavə imtiyazlar verilməyib. Yəni din sahəsində tam bərabərlik təmin olunub. Odur ki, Azərbaycanın dünyəvi modeli bir çox sekulyar dövlətlərlə, o cümlədən qonşu ölkələrlə müqayisədə daha mütərəqqi və ədalətli səciyyə daşıyır.

Başqa sözlə, ölkəmizdə ənənəvi dini quruma əlavə imtiyazlar verilib ayrı-seçkilik edilmir. Bu mənada Azərbaycanın dünyəviliyi bir çox sekulyar dövlətlərlə, o cümlədən qonşu ölkələrlə müqayisədə daha mütərəqqi və ədalətli səciyyə daşıyır.



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdəki dini konfessiyaların rəhbərləri ilə birgə ənənəvi iftar mərasimində.*

Azərbaycan Respublikası Konstitusiyasının *48-ci maddəsində* də vicdan azadlığı ilə bağlı olduqca demokratik və mütərəqqi prinsiplər yer alıb. Həmin maddədə vicdan azadlığı aşağıdakı kimi təsbit olunub:

*I. Hər kəsin vicdan azadlığı vardır.*

*II. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır.*

*III. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə sərbəstdir.*

*IV. Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır.*

Ulu öndər Heydər Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində həyata keçirdiyi ən mühüm tədbirlərdən biri də 21 iyun 2001-ci ildə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) yaradılmasıdır. Belə ki, DQİDK - dini fəaliyyət sahəsində dövlət siyasətini həyata

keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Bu orqanın vəzifələri sırasına dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin tənzimlənməsi və inkişafının təmin edilməsi, dini etiqad sahəsində maarifləndirmə işinin aparılması, dini qurumların dövlət qeydiyyatının həyata keçirilməsi, müvafiq icra hakimiyyəti orqanlarının dini qurumlarla bağlı fəaliyyətinin əlaqələndirilməsi, öz səlahiyyətləri daxilində dini təhsil ilə bağlı məsələlərin tənzimlənməsi, həmçinin qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlər daxildir.

Onu da qeyd edək ki, milli-mənəvi dəyərlərin və dini-tarixi abidələrin qorunması, ziyarətgah, məscid, kilsə və sinaqoqların bərpası, yaxud yeni ibadət yerlərinin tikilməsi, etnik-dini azlıqların dini tələbatlarının daim diqqət mərkəzində saxlanılması, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri ilə mütəmadi görüşlərin keçirilməsi, dini bayram və əlamətdar günlər münasibəti ilə ölkəmizdə yaşayan müsəlman, xristian və yəhudilərə təbriklərin ünvanlanması Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi uğurlu din siyasətinin tərkib hissəsini təşkil edirdi.

Göstərilən faktlar sübut edir ki, məhz ümummilli liderin din sahəsində həyata keçirmiş olduğu uzaqgörən siyasət nəticəsində Azərbaycanda nümunəvi dövlət-din münasibətləri modeli formalaşmışdır. Bu gün həmin siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu, ilk növbədə, milli-mənəvi dəyərlərimizin hifz edilməsi, ölkədə mövcud olan multikultural və tolerant ənənələrin qorunaraq dünya miqyasına çatdırılması, ibadətgahların əsaslı şəkildə bərpa olunması, yaxud yeni ibadət yerlərinin tikilərək dindarların istifadəsinə verilməsi, dini icmaların fəaliyyətlərinə dövlət tərəfindən hər cür dəstəyin göstərilməsi, dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasında təzahür edir.

Təkcə onu qeyd etmək kifayətdir ki, dövlət başçısı İlham Əliyevin tapşırığı və müvafiq sərəncamları ilə xalqımız üçün çox böyük dəyər kəsb edən Bakıdakı Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində, Şamaxıdakı Cümə məscidində, Gəncə şəhərindəki İmamzadə kompleksi və Naxçıvan Muxtar Respublikasındakı Əshabi-Kəhf ziyarətgahında əsaslı tikinti və yenidənqurma işləri həyata keçirilmişdir. Həmçinin Prezident İlham Əliyevin Sərəncamına əsasən Bakı şəhərində Heydər məscidi inşa olunmuşdur. 26 dekabr 2014-cü ildə istifadəyə verilən bu məscid kompleksi Qafqazın ən böyük məscidi sayılır.

Azərbaycanda fəaliyyət göstərən qeyri-müsəlman dini icmaları da dövlət başçısının diqqət və qayğısı ilə əhatə olunmuşdur. Buna nümunə kimi Prezident İlham Əliyevin göstərişi əsasında Bakı şəhərində tikilmiş dağ yəhudilərinin sinaqoqunu və ya Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzini göstərmək olar.

Ölkə ərazisində yerləşən ibadət yerlərinə - məscidlərə, kilsələrə, sinaqoqlara müəyyən edilmiş limit daxilində pulsuz təbii qazın verilməsi, müsəlman, yəhudi və xristian dini qurumlarına dövlət tərəfindən maliyyə yardımının ayrılması da Azərbaycan dövlətinin həyata keçirdiyi tolerant və multikultural siyasətin bariz nümunəsidir. Təsadüfi deyildir ki, Azərbaycan bu gün dünyada multikulturalizmin mərkəzlərindən hesab edilir.

Burada Azərbaycanın birinci xanımı və Birinci vitse-prezidenti, UNESKO-nun və ISESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusən qeyd edilməlidir. Bu fond dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına, dünyada dinlərarası və konfessiyalararası münasibətlərin inkişafına böyük töhfə verir. Məsələn, Heydər Əliyev Fondunun dəstəyi ilə *"Tolerantlığın ünvanı - Azərbaycan"* layihəsi çərçivəsində nəhəng işlərə imza atılmış, ölkə daxilində və xaricində müxtəlif dini konfessiyalara mənsub ibadət ocaqları inşa və ya bərpa olunmuş, xalqımızın tolerantlıq ənənələrinin beynəlxalq aləmdə təbliği məqsədilə foto-sərgilər təşkil edilmişdir.

Azərbaycan dövlətinin həyata keçirdiyi din siyasəti haqqında danışarkən dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi və təkmilləşdirilməsi, habelə ölkəmizdə mövcud olan tolerant və multikultural durumun daha da möhkəmləndirilməsi məqsədilə təsis edilmiş müxtəlif qurumlar barədə də bəhs etmək lazımdır. Bu baxımdan Azərbaycan Respublikası Prezidenti Administrasiyası Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin, eləcə də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması xüsusi qeyd edilməlidir.

Dövlət başçısı İlham Əliyevin 10 oktyabr 2017-ci il tarixli Fərmanı ilə Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması da müasir Azərbaycanda dövlət-din münasibətlərinin inkişaf tarixində baş vermiş mühüm hadisələrdən sayılır. Ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin

qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə təsis edilən və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Fond mənəvi dəyərlərin qorunması və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyi göstərən qeyri-kommersiya hüquqi şəxsdir.

Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan İlahiyyat İnstitutunun yaradılması da ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində baş vermiş digər mühüm hadisələrdən biridir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən həmin institutun təsis edilməsində əsas məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub saxlanılması və inkişaf etdirilməsi, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasını təmin etməkdir. İnstitutda təhsil iki istiqamətdə, İslamşünaslıq və Dinşünaslıq ixtisasları üzrə həyata keçirilir. Habelə institutda bir fakültə (İlahiyyat), üç kafedra (İslamşünaslıq, Dinşünaslıq, Dillər və ictimai fənlər) mövcuddur.

Beləliklə, yuxarıda göstərilən faktlar bir daha təsdiqləyir ki, ölkəmizdə özünəməxsus dövlət-din münasibətləri modeli formalaşmışdır. Bu model Azərbaycan xalqının zəngin milli-mənəvi dəyərlərinə, tarixən ölkəmizdə mövcud olan tolerant və multikultural ənənələrə, həmçinin mütərəqqi, ümumbəşəri, demokratik və dünyəvi prinsiplərə, beynəlxalq hüquq normalarına uyğun olan qanunvericilik bazasına əsaslanır.

## Fəslə aid suallar

1. Sekulyarlaşma nəzəriyyəsinin əsas müddəaları nədən ibarətdir?
2. Sekulyarlaşmanın üç səviyyəsi haqqında məlumat verin.
3. Dinin transformasiyası nəzəriyyəsini izah edin.
4. Müasir ingilis sosioloqu Qreys Devinin "mənsubiyyətsiz iman" ("believing without belonging") ifadəsini açıqlayın.
5. Xose Kazanova dünyada cərəyan edən ictimai-siyasi proseslərdə dinin fəal rol oynadığını sübuta yetirmək üçün hansı arqumentləri gətirir?
6. "Sekulyarlaşmanın əfsanə olması" nəzəriyyəsini irəli sürən alimlər mülahizələrini hansı dəlillərlə əsaslandırırlar?
7. Sizcə elmi-texnoloji tərəqqi, dünyada geniş vüsət alan modernləşmə və müasirləşmə prosesləri dinin bir dünyagörüşü tərzi kimi yoxa çıxmasına səbəb olacaqmı? Cavabınızı əsaslandırın.
8. "Yehovanın Şahidləri" dini təşkilatı harada və nə vaxt yaranıb?
9. Yehovaçıların dövlət atributlarına, Vətən anlayışına, hərbi xidmətə münasibəti necədir? Onlar hansı tibbi müdaxiləyə qarşı çıxırlar?
10. "Yehovanın Şahidləri" təşkilatının daxilində mövcud olan idarəetmə sistemi necə adlanır? Bu idarəetmə sistemi haqqında məlumat verin.
11. Vəhdət Kilsəsi harada yaranmışdır və bu dini təşkilatın banisi kimdir?
12. Munçuların müqəddəs kitabı necə adlanır?
13. Munçular kimləri "həqiqi valideyn" hesab edirlər?
14. Bəhailik hansı dini hərəkatın zəminində təşəkkül tapmışdır? Bu haqda qısaca məlumat verin.
15. Bəhai dininin əsas etiqadi prinsipləri hansılardır?
16. Bəhailiyin mərkəzi harada yerləşir?
17. Azərbaycanda bəhailiyin tarixi kökləri hansı əsrə gedib çıxır?
18. Beynəlxalq Krişna Şüuru Cəmiyyətinin ardıcılları necə adlanırlar?
19. Qaudiya-vayşnavizm dini cərəyanının mənsubları nəyə inanırlar? Bu cərəyanın əsas özəlliyi nədir?
20. Milleritlər kimin ardıcılları olublar?
21. Yeddinci Günün Adventistləri Kilsəsi hansı dini hərəkatın zəminində təşəkkül tapıb?
22. Yeddinci günün adventistləri hansı günü müqəddəs sayırlar və digər

xristianlardan hansı cəhətlərinə görə fərqlənirlər?

23. Radikalizmin mahiyyəti nədir?
24. Dini radikalizmə hansı amillər əlverişli zəmin yaradır?
25. Səmavi dinlərin dini radikalizmə və zorakılığa münasibəti necədir?
26. Dini radikalizmlə dini ekstremizmin fərqi nədir?
27. Dini radikalizmlə hansı metodlarla mübarizə aparmaq olar?
28. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu hansı tarixdə qəbul olunmuşdur?
29. Azərbaycan Respublikasında dini qurumların statusunu, hüquq və vəzifələrini hansı Qanun müəyyənləşdirir?
30. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi ilə ölkəmizdə dövlət və din münasibətləri sahəsində hansı irəliləyişlər və mühüm dəyişikliklər baş verdi?
31. Vicdan azadlığı prinsipi Azərbaycan Respublikası Konstitusiyasının hansı maddəsində bəyan olunur?
32. Azərbaycan Respublikasında dinin dövlətdən ayrı olduğu Konstitusiyanın hansı maddəsində bildirilir?
33. Azərbaycanın dünyəviliyi bir çox sekulyar dövlətlərlə, o cümlədən qonşu ölkələrlə müqayisədə nə üçün daha mütərəqqi və ədalətlidir?
34. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə ölkədə hansı müsəlman və qeyri-müsəlman ibadət yerləri və mərkəzləri tikilmiş və ya təmir olunmuşdur?

# Ədəbiyyat


1. Azərbaycan Respublikasında dövlət-din münasibətlərini tənzimləyən rəsmi sənədlər. Bakı: “Elm və Təhsil”, 2015.
2. Aydın M. Dinler tarihine giriş. Konya: Din bilimleri yayınları. s. 203-204; 211-215.
3. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. (AMEA-nın həqiqi üzvü K.M.Abdullayevin və prof. E.Ə.Nəcəfovun redaktəsi ilə), Bakı, 2017. s. 258-269.
4. Əlizadə A. Azərbaycanda xristianlıq keçmişdən bu günə. Bakı: “Elm və təhsil”, 2018. s.270-282.
5. İsmayılov G. Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər. İdeoloji, milli, ictimai təhlükəsizlik müstəvisində. Bakı: “Nəşriyyat XXI” MMC, 2016. s. 58-65; 273-274.
6. Qənbərov A. Dini qruplar: onların tipləri, strukturu və xüsusiyyətləri// Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin elmi məcmuəsi. Bakı: 2018. №29. iyun 2018. – s. 349-364.
7. Məmmədli N. Dövlət, din, cəmiyyət. Dövlət-din münasibətlərinin müqayisəli təhlili. Bakı: “Şans Mətbəə LTD” MMC, 2017. s. 104-112.
8. Белов А.В. Секты, сектанство, сектанты. – Москва: Наука. s. 34-38
9. История религии. В 2 т. Т 2: учебник для бакалавров/под ред. И.Н.Яблокова. 4-е изд., перераб. и доп. – М.: Издательство Юрайт, 2014. s. 724-727.
10. Казьмина О.Е., Пучков П.И. Религиозные организации современного мира: Учебное пособие. Москва: Издательство Московского университета, 2010. s. 129; 249-250.
11. Новая Философская Энциклопедия, «Мысль», Москва, 2010 г., т.3, с. 395.
12. Официальные заявления, рекомендации и другие документы Церкви Адвентистов Седьмого Дня. Заокский: Источник жизни, 2010. s. 309.
13. Тушкова Ю.В. Отличия и сходства в понятиях «радикализм» и «экстремизм» в законодательстве и социально-политических науках Великобритании // журнал «Молодой ученый» – 2014. №5. с. 435.
14. Философский Энциклопедический Словарь, с. 559-560.

15. Günay Ü. Din sosyolojisi, İstanbul, İnsan yayınları 1988.
16. Köse A. Sekülerizm Sorqulanıyor, Ufuk Kitapları, İstanbul, 2002.
17. Mataragnon R.H. "Modernization and Religon: Must They Move in Different Direction?", The Many Faces of Religion and Society, (ed) M. Darrol Bryant/Rita H. Mataragnon, A New Era Book, 1985.
18. Mcguire B.M., Spickard V.J. tərcümə edən: Filiz Orhan, Dinbilimleri Akademik Araştırma Dergisi, cild.17. say.1, 2017. s. 233-292
19. Nortborn C.U. Modern Dünyada Din, İstanbul, İnsan Yayınlarlı, 1998.
20. Özay M. Sekülerleşme ve Din, İstanbul, İz Yayıncılık, 2007.
21. Arslan M. Seküler Toplumlarda Kutsal Arayışları: Geç Modern Dönemde Büyü-10. Din İlişkisinin Sosyolojik Analizi, İ.Ü. İlahiyat Fakültesi Dergisi, 2010/1(1), s. 195-2010

# III BÖLMƏ

# ETNİK MÜXTƏLİFLİK

# VI FƏSİL

# ETNİK MÜXTƏLİFLİK VƏ MİLLİ İDEYA

## 6.1. Etnik birliklər və onların təkamülü

Dərsliyin I fəslində biz qeyd etmişdik ki, müasir dövrdə, xüsusilə də qloballaşma şəraitində, bütün ölkələrdə etnik, irqi, dini və ya mədəni müxtəlifliklər mövcuddur. Cəmiyyətdə mövcud olan müxtəlifliklər sistemində etnik müxtəliflikliyin tərkib hissəsi olan xalq və millətin formalaşması prosesi irqi, dini və dil müxtəlifliklərinə münasibətdə tarixin sonrakı mərhələlərində baş vermişdir. Etnik birliyin təkamülünün yüksək forması olan millətin formalaşması isə Yeni Dövrə təsadüf edir. Etnik birliyin hər bir forması tarixin müvafiq mərhələsində mühüm rol oynamışdır.

*Etnik birlik və ya etnos - öz ərazisinə, adına, dilinə, mədəniyyətinə, özünüdərkə mənsub olan tayfa, xalq və millət kimi insan birlikləridir.* Ailə, klan və qəbilə isə protoetnos qrupuna daxildir. Onlar etnoslarla müqayisədə daha kiçik birlik qruplarıdır. Protoetnoslar tayfa, sonralar isə xalq, millət kimi etnosların tərkibinə daxil olmuşdur. Protoetnosların müstəqil mədəniyyəti yoxdur. Etnoslarla onları yaxınlaşdıran amillərdən ümumi ərazini, birgə iqtisadi fəaliyyəti, ümumi tarixi göstərmək olar.

Tarix boyu hər bir etnos müəyyən amillərin təsiri altında müvafiq dəyişikliklərə məruz qalır. Etnosun ilkin forması *genişlənmiş ailədir.* Tədricən bir neçə genişlənmiş ailə qan qohumluğuna əsaslanan *qəbilə və tayfalarda* birləşir. Qəbilə və tayfa sinfi cəmiyyətdən əvvəl, ibtidai icma quruluşu dövründə mövcud olmuşdur.

*Qəbilə* ortaq dilə, adət-ənənələrə, əraziyə, mənşəyə mənsub olan qan qohumlarını özündə birləşdirirdi. Qəbilə üzvləri öz qan qohumluqlarını dərk edərək ümumi adla öz birliklərini nümayiş etdirirdilər. Hər bir qəbilə 40-50 nəfərdən ibarət idi. Qəbilənin iqtisadi əsasını icma mülkiyyəti təşkil edirdi. İcma mülkiyyətinə insanların yaşadıqları və özlərinə gündəlik ərzaq topladıqları ərazi daxil idi.

*Tayfa* qəbiləyə münasibətdə ibtidai icma quruluşu çərçivəsində insanların daha yüksək birlik forması idi. Onun əsas fərqləndirici cəhəti eyni kökdən çıxmış, lakin sonradan bir-birindən ayrılmış qəbilələrin birləşməsi idi. Buna görə də tayfa qəbilədən sayca daha böyük insan qrupunu özündə birləşdirirdi. Bununla belə qeyd etmək lazımdır ki, tayfanın da əsasını qan qohumluğu təşkil edir. Buna görə də tayfa da qəbilə kimi etnik kateqoriya olaraq qalırdı. Eyni zamanda tayfanın meydana gəlməsi cəmiyyətdə qərarlaşmış çoxfunksiyalılığın parçalanmasına gətirdi. Bu, onunla izah olunurdu ki, qəbilə hələ də cəmiyyətin təsərrüfat hüceyrəsi olmaqda davam edirdi. Tayfa isə ictimai funksiyaların yalnız bir hissəsini həyata keçirirdi. Belə olan bir şəraitdə etnik birliyin təsərrüfat funksiyalarından ayrılması prosesi başladı.

*Xalq* insanların birlik forması kimi tarixin daha yüksək inkişaf mərhələsində formalaşır. O, qəbilə və tayfadan fərqli olaraq əsas birləşdirici amil kimi qan qohumluğunu yox, ümumi ərazi, təsərrüfat fəaliyyəti, ortaq dil, mədəniyyət, adət-ənənə, psixi davranış tərzini ehtiva edir. Xalqın formalaşması ilk dövlətlərin meydana gəlməsindən sonra baş verir. Xalqın bu xüsusiyyətləri onun müxtəlif insan qrupları arasında ərazi, təsərrüfat və qonşuluq əlaqələrinə əsaslandığını göstərir. Bu isə öz növbəsində xalqın qəbilə və tayfadan fərqli olaraq mahiyyətinə görə sırf etnik deyil, sosial-etnik birlik forması olduğunu göstərir. Əgər tayfa iki daha çox qəbilənin birləşməsindən yaranan insanların birlik formasıdırsa, xalqı tayfaların sırf mexaniki birliyi, cəmi kimi təqdim etmək düzgün deyil. Çünki xalqın meydana gəlməsi etnik birliyin inkişafındakı keyfiyyətcə yeni mərhələdir. Xalqın formalaşması ilə insanların birliyinin təmin olunmasında qan qohumluğu amilinin rolu arxa plana keçir. Xalqın formalaşması ilə etnik birliyin əldə olunmasında ortaq dil, mədəniyyət, birgə təsərrüfat fəaliyyəti, iqtisadi əlaqələrin hüceyrələrinin yaranması kimi sosial faktorların əhəmiyyəti artır. Beləliklə, *xalq ümumi əraziyə, təsərrüfat fəaliyyətinə, ortaq dilə, mədəniyyətə, adət-ənənələrə, psixi davranış tərzinə mənsub olan insanların birlik formasıdır.*

Qeyd etdiyimiz kimi, ilk dövlətlərin meydana gəlməsi insanların yeni tarixi birlik forması olan xalqın formalaşması üçün zəruri şərait yaradır. İbtidai icma quruluşunun quldarlıq və ya feodal cəmiyyəti dövrü ilə əvəz olunması insanların birlik formasının möhkəmlənməsində sosial amillərin əhəmiyyətini artırır. Onu da qeyd etmək lazımdır ki, sinfi cəmiyyətin ilk mərhələlərində tayfa

insanların birliyinin təmin edilməsində öz rolunu saxlayır. Bu dövrdə tayfa ilə xalq birgə mövcud olur. Yalnız feodalizm cəmiyyəti dövründə xalq insanların birlik forması kimi tam şəkildə bərqərar olur.

Artıq qeyd etdiyimiz kimi, insanların tarixi birliklərinin təkamülünün yüksək forması *millətdir.* Lakin milləti sadəcə daha geniş, daha böyük etnik birlik kimi təsəvvür etmək düzgün olmazdı. Etnos tarixin ilkin insan birliklərini-qəbilə, tayfa, tayfa ittifaqlarını, xalqı əhatə edir və təbii-tarixi proses kimi kiminsə iradəsindən asılı olmayaraq yaranır. Millət isə milli hərəkatların gedişində çoxsaylı insanların, bəzi hallarda hətta onların bir neçə nəslinin müəyyən məqsədlərə, ilk növbədə isə siyasi məqsədlərə nail olmaq uğrunda apardığı uzun müddətli mübarizənin nəticəsində yaranır. Bu zaman etnik əlaqələr, etnik əlamətlər millətin müəyyənedici amili kimi yox, ilkin müqəddəm şərti rolunda çıxış edir. Millət eyni bir ərazidə yaşayan, hər hansı bir etnosun və ya etnoslar qrupunun birgə səyləri ilə yaranan və mahiyyət etibarilə etnik səciyyədən daha çox sosial, iqtisadi, siyasi, ideoloji səciyyə daşıyan bir təsisatdır. O, kapitalist münasibətlərinin meydana gəlməsi ilə bağlıdır və onun təbiətini də həmin mərhələdə baş verən köklü sosial, iqtisadi, siyasi, mənəvi-əxlaqi transformasiyalar müəyyənləşdirmişdir. Kapitalizm cəmiyyətinin millətin meydana gəlməsində rolunu yüksək qiymətləndirərkən qeyd etmək lazımdır ki, cəmiyyətin kapitalizm dövrünə qədərki siyasi, iqtisadi, mədəni-mənəvi inkişafı millətin tarixi arenaya çıxması üçün ümumi ərazi, ortaq dil, adət-ənənələr, psixi davranış tərzi, ilkin əmək bölgüsü kimi müəyyən maddi və mənəvi zəmin yaratmışdır. Bütün bunlar kapitalizmə qədərki cəmiyyətdə mövcud olsa da, onlar iqtisadi həyatın ümumiliyini təmin edə bilməmişdir. İlk baxışda iqtisadi həyatın ümumiliyi dedikdə belə təsəvvür yaranır ki, söhbət istehsalçılar tərəfindən eyni məhsulun istehsal olunmasından gedir. Lakin bu, belə deyil. İqtisadi həyatın ümumiliyi ölkənin müxtəlif rayonlarının müəyyən məhsulun istehsalı üzrə ixtisaslaşmalarını və bunun sayəsində onlar arasında ticarət-mübadilə əlaqələrinin möhkəmlənməsini nəzərdə tutur. Bu, istehsalçılar arasında əmək bölgüsünü yaradaraq əməyin səmərəliliyinin artmasına müsbət təsir göstərir. İqtisadi həyatın ümumiliyinin təmin edilməsi məhz kapitalizmin meydana gəlməsi və inkişafı ilə bağlıdır. Belə ki, kapitalizm bazar münasibətlərini inkişaf etdirərək ölkədə müxtəlif istehsalçılar arasında iqtisadi əlaqələri yaratdı. Bazar münasibətlərinə xas olan qanunlar bu əlaqələri əsaslı şəkildə inkişaf etdirdi.

Kapitalizm cəmiyyətinin məhsulu olan millət insanların birlik formalarının təkamülündə keyfiyyətcə yeni bir mərhələ idi. Millətin insanların digər birlik formalarından fərqi aşağıdakı əsas cəhətlərdə öz əksini tapmışdır:

1. Ərazi ümumiliyi. Ərazinin ümumiliyi millətin formalaşmasını təmin edən ilkin və mühüm şərtlərdən biridir. Müəyyən bir ərazidə yaşadıqda ortaq dil, adət-ənənələr, psixi davranış tərzi, iqtisadi həyatın ümumiliyi və milləti xarakterizə edən digər bu kimi əlamətlər yaranır. Və eləcə də əksinə, ümumi ərazinin olmaması qeyd olunan əlamətlərin formalaşmasının, mövcud olduqda isə inkişafının qarşısını alır. Bununla belə qeyd etmək lazımdır ki, sadəcə eyni ərazidə birlikdə yaşamaqla millət formalaşmır. Başqa sözlə desək, ərazinin ümumiliyi millətin formalaşması üçün zəruri olsa da kifayət deyil.
2. *Ortaq dil.* Millətin formalaşmasında ortaq dil mühüm əhəmiyyət kəsb edir. Ünsiyyət vasitəsi kimi ortaq dil milli dil statusuna yüksəlir. Milli dil millətin hər bir üzvünün danışdığı dil olaraq tədricən ədəbi dilin formalaşmasına səbəb olur. Ədəbi dilin formalaşması isə öz növbəsində cəmiyyətdə siyasi, iqtisadi və mədəni inteqrasiya proseslərini sürətləndirir. Ortaq dil millətin adət-ənənələrinin, psixiki davranış tərzinin, mentalitetinin, mədəniyyətinin inkişafına müsbət təsir göstərir. Lakin millətin digər əlamətləri kimi ortaq dilin də millətin formalaşmasında rolunu mütləqləşdirmək düzgün deyil. Belə ki, eyni dil bir neçə millətin milli dili ola bilər (məsələn, ingilis dili ingilislərin, şimali amerikalıların, avstraliyalıların, yeni zellandiyalıların; alman dili almanların, avstriyalıların, bəzi isveçrəlilərin; ispan dili ispanların, meksikanların, bir çox cənubi Amerika xalqlarının; potuqal dili portuqallıların, braziliyalıların milli dilidir). Buna görə də milli dil yalnız ərazinin ümumiliyi və digər əlamətlərlə birlikdə götürüldükdə, milləti formalaşdıran əlamət hesab oluna bilər;
3. İqtisadi həyatın ümumiliyi. İqtisadi həyatın ümumiliyi milləti formalaşdıran əsas amillərdən biridir. İqtisadi həyatın ümumiliyinin əhəmiyyəti millət tərəfindən eyni məhsulun istehsalında deyil, ölkə daxilində təsərrüfat ixtisaslaşmasının yaranmasındadır. Başqa sözlə desək, iqtisadi həyatın ümumiliyi ölkə daxilində istehsalçılar arasında əmək bölgüsü yaradaraq onlar arasında mübadilə əlaqələrinin inkişafına səbəb olur. Bu isə öz növbəsində ölkənin iqtisadi həyatının birliyinin yaranmasına səbəb

olur. İstehsalçıların bir-birindən artan asılılığı eyni zamanda millətin möhkəmlənməsinə, onun konsolidasiyasına səbəb olur.

4. *Psixi davranış tərzi*. Millətin formalaşma prosesində mühüm rol oynayan ərazinin ümumiliyi, ortaq dil və iqtisadi həyatın ümumiliyi kimi amillərin əsasında bu prosesə təsir edəcək daha bir əlamət yaranır. Bu, xalqın mədəniyyətində möhkəmlənən psixi davranış tərzidir. Millətin psixi davranış tərzi onun iqtisadi və siyasi inkişafının xüsusiyyətlərini, digər xalqlarla qarşılıqlı münasibətlərini, eləcə də yaşadığı konkret coğrafi şəraiti əks edir. Millətin psixi davranış tərzi onun adət-ənənələrində, folklorunda, bədii ədəbiyyatında, incəsənətində, ümumiyyətlə, onun etnik-mədəni dəyərlərində özünü büruzə verir.

5. *Dövlət birliyi*. Sovet rəsmi ədəbiyyatı millətlərin formalaşması və inkişafının olduqca mühüm bir amilini bilərəkdən nəzərə almırdı, çünki bu hakim siyasi, ideoloji baxışlara uyğun gəlmirdi. Söhbət bu proseslərdə misilsiz rol oynamış bir amildən-milli dövlətlərin meydana gəlməsindən gedir.

Dövlətin tarixi çox qədim dövrlərə gedib çıxsa da, milli dövlətlərin meydana gəlməsi sivilizasiya inkişafının bəlli bir mərhələsi ilə-Yeni dövr adlandırılan dövrlə bağlıdır.

Bu elə bir dövrdür ki, möhtəşəm Roma imperiyasından miras qalan Vatikan və Qərbi Avropanın bütün ərazilərini vahid dövlət kimi saxlamağa çalışan Müqəddəs Roma imperiyası öz hakim mövqelərini itirir. Ərazilərdə imperator hakimiyyətinin təmsilçiləri olan krallıqlar daha imperatora tabe olmaq istəmir və özləri güclü ərazi dövlətləri yaradır. Beləliklə də kilsə və imperiya Avropada dominant siyasi qüvvə kimi sıradan çıxır. Onların yaratdıqları ictimai münasibətləri tədricən yeni münasibətlər əvəz edir. Buna uyğun olaraq öz etnosundan ayrı düşub Qərbi Avropa elitası kimi formalaşmış zadəganlıq zümrəsi tənəzzülə uğrayır. Ticarətin, sənətkarlığın, daha sonralar isə sənaye istehsalının inkişafı ilə tarix səhnəsinə yeni bir zümrə - öz işgüzarlığı, insanlara rifah gətirməsi ilə tarixi təşəbbüsü ələ alan burjua zümrəsi gəlir. Onun azad insan, azad yaradıcılıq, azad mübadiləyə nail olmaq səyləri cəmiyyətdə rəğbətlə qarşılanır. Universitetlərdə yaranan elmi biliklər tədricən kilsənin ehkamlarını üstələməyə başlayır. Humanizm, insan haqları, vətəndaş cəmiyyəti kimi yeni ideallar, onları dəstəkləyən böyük mütəfəkkirlərin baxışları, intibah ədəbiyyatı, incəsənəti tədricən mənəvi həyata nüfuz edir.

Baş verən bu köklü sosial transformasiyalar insanların yeni tarixi birliyinin meydana gəlməsinə münbit zəmin yaradırdı. Tarixin yeni səhifəsi yazılırdı. Hüquqi dövlətin simasında artıq yalnız etnik cəhətdən deyil, həm də hüquqi cəhətdən təşkil olunmuş yeni tipli tarixi birlik-millət meydana gəlirdi.

Zaman bunun üçün bir növ sınaq meydanı kimi İtaliyanı seçdi. XIV-XVI əsrlərdə Şimali və Mərkəzi İtaliyada tarixdə ilk dəfə olaraq kapitalist münasibətləri formalaşır. Bu isə tək iqtisadi deyil, həm də mədəni yüksəliş üçün yeni imkanlar açır və möhtəşəm İntibah mədəniyyəti meydana gəlir. Avropanın digər ölkələri ilə müqayisədə iqtisadi və mədəni üstünlük İtaliyada siyasi proseslərin də inkişafına təkan verir. Siyasi cəhətdən İspaniyadan, Fransadan, Habsburqlardan asılı vəziyyətdə olan ayrı-ayrı italyan şəhər-dövlətləri birləşərək mərkəzləşmiş müstəqil dövlət yaradır və bu məkanda tarixin həm ilk milli dövləti, həm də ilk milləti meydana gəlir. Sonralar isə bu proses özünəməxsus formada Fransa, Hollandiya, Almaniya, İngiltərədə cərəyan edir. O vaxtadək Avropa xalqları yalnız şəhər dövləti və polietnik (çoxetnoslu) imperiya dövlətləri, bu imperiyalara tabe olan krallıqlar və kral hakimiyyətinə tabe olan feodal idarəçiliyini tanıyırdı. İndi isə Avropa bu dövlətlərdən imtina edir, hökmdar dövlətindən konkret bir ərazi, yeni bir istehsal üsulu və sosial prioritetlərlə bağlı olan yeni tipli dövlətə - hüquqi dövlətə, ərazi dövlətinə keçirdi. 30 illik müharibəyə və bununla da Orta əsrlər nizamına son qoymuş və eyni zamanda faktiki olaraq bu günədək davam edən yeni dünya nizamına start vermiş Vestfal sülhü və 1789-cu il Fransa burjua inqilabi bu prosesə güclü təkan vermişdir.

Vestfal sülh müqaviləsi dini identiklik (katolik və protestant dini mənsubluğu) əsasında konkret ərazi ilə bağlı olan əhalinin və onun siyasi hakimiyyət iddiasında olan qüvvələrinin müstəqil dövlət yaratmaq hüququnu təsbit etdi. Təbii ki, bu ərazilərdə yaşayan insanlar feodal qapalılığına baxmayaraq etnik cəhətdən eyni və ya yaxın insanlar idi və bu da fransızların "Etat-Nation", ingilislərin "State-nation" adlandırdıqları milli dövlət meydana gəlməsini asanlaşdırırdı.

Kapitalizmin inkişafı sonralar bu tarixi meyli tədricən dünyanın bütün guşələrinə daşımış və son imperiyaların çökməsi, xüsusilə də II dünya müharibəsindən sonra müstəmləkə sisteminin dağılması ilə çoxsaylı milli dövlətlər, eləcə də millətlər meydana gəlmiş və beləliklə də dünyanın yeni etnosiyasi mənzərəsi yaranmışdır.

Hələ vaxtilə rus mənşəli məşhur amerikalı sosioloq Pitirim Corokin yazırdı ki, milli əlaqələr üçün vahid sosial sxem irəli sürmək mümkün deyildir. Həqiqətən də bu, belədir. Haqqında bəhs etdiyimiz ölkələrdə milli əlaqələrin yaranması bir-birindən çox fərqli formalarda baş tutmuşdur. Amma həmin müxtəlifliyin özünün araşdırılması belə bir hökmü verməyə tam əsas verir ki, millət etnosa məxsus bəzi keyfiyyətlərə malik olsa da, daha etnik birlik sayıla bitməz. Çünki artıq onun mahiyyətini müəyyən edən tək etnik əlamətlər deyil, həm də və daha çox Yeni dövrün iqtisadi, siyasi, hüquqi, elmi, etik, estetik dəyərləridir. Belə ki, əgər qəbilə, tayfa tarixi birlik forması olaraq xalqın yaranmasında bir növ "xammal" rolunu oynayırsa, onun içərisində əriyirsə, millətin yaranması üçün onun tərkibinə daxil olan etnik birliklərin öz xüsusiyyətlərini, etnik dəyərlərini, dilini, adət-ənənələrini itirərək millətin tərkibində əriməsi zərurət deyildir.

Məlum olduğu kimi, tarixi ərazilər zaman-zaman bir xalqın əlindən çıxıb digərlərinin ixtiyarına keçmiş, həmin ərazilərdə yaşayan xalqlar bir-birini əvəz etmiş və beləliklə də, eyni ərazidə bir çox tayfa, xalqa məxsus insanlar məskunlaşmişdır. Nəticədə demək olar ki, bütün ölkələrin ərazisində çoxsaylı etnik qruplar kompakt və ya pərakəndə halda yaşamış və bu gün də yaşamaqdadır. Ona görə də müasir dövrdə, xüsusilə də inkişaf etmiş ölkələrdə millətlərin etnik hüdudları ilə dövlət sərhədlərinin tam üst-üstə düşməsi faktı ilə rastlaşmaq qeyri-mümkündür və bu vəziyyət millətin öz tarixi missiyasını yerinə yetirməsi qarşısında keçilməz sədd yaratmır. Çünki millət üçün həlledici olan əsla onun etnik homogenliyi deyildir. Millət monoetnik də ola bilər, polietnik də. Məsələn, fransızların uzun illər, əsrlər ərzində millət kimi formalaşdığına heç kim şübhə etmir. Hələ müasir miqrasiya prosesləri başlanandan xeyli əvvəl - keçən əsrin sonlarında Fransa Prezidenti Fransua Mitteran Sarbonnadakı çıxışında "fransızlar kimdir?" sualına cavab olaraq deyirdi ki, fransızlar bir az qallar, bir az germanlar, iberiyalılar, italyanlar, yəhudilər və hətta ərəblərdir.

Yaxud cəmi bir neçə il əvvəl amerikan mənbələri göstərirdi ki, ABŞ əhalisinin təxminən üçdə biri, 5 yaşa qədərki uşaqların isə təxminən yarısı etnik və dini azlıqların nümayəndələridir. Amma bu, əsla amerikan milli birliyinin mövcudluğunu şübhə altına almır. Amerikan dövlətinə, vətəninə, vətəndaşlığına, amerikan dəyərlərinə, mədəniyyətinə mənsubluq, amerikan düşüncəsi və həyat tərzi bu dərəcədə etnik rəngarəngliyə malik olan əhalini birləşdirir və onu vahid bir millətə çevirir.

Hətta tarixən ən ilki olan və etnik cəhətdən daha homogen millət sayılan italyan millətinin tərkibində həmişə digər etnik elementlər - fransızlar, almanlar, sloveniyalılar, sardlar və başqaları yaşamışlar. Bu gün planetimizdə 5 minə yaxın etnik vahid cəmi 200-dən bir qədər çox dövlətin tərkibində yaşayır. Təbii olaraq dünyanın, eləcə də ayrı-ayrı ölkələrin belə mürəkkəb etnik struktura malik olması özündə böyük münaqişə potensialı daşıyır. Lakin bu potensial o halda reallaşır ki, ölkənin çoxsaylı etnosu özü üçün xüsusi imtiyazlar əldə etməyə yönələn milli ayrı-seçkilik siyasəti həyata keçirir və digər etnoslarda inciklik, yadlaşma, uzaqlaşma meylləri meydana gəlir. Digər bir təhdidsə xaricdən gələ bilər. Dünyanın müxtəlif bölgələrində bəzi dövlətlər öz rəqiblərini zəif salmaq məqsədilə həmin ölkələrin azsaylı etnoslarının nümayəndələrindən "beşinci kolon" kimi istifadə etməyə çalışır, oradakı separatizm meyllərini dəstəkləyir, belə meyllər olmayan yerlərdə isə onun toxumlarını səpməyə səy göstərirlər. Hələ bu azmış kimi, dünyanı get-gedə daha artıq dərəcədə öz toruna salan qloballaşma prosesinin bəzi subyektləri nəinki azsaylı etnik birlikləri, hətta irili-xırdalı formalaşmış millətləri, bütöv sivilizasiyaları milli-etnik və sivilizasiya qovğalarına qoşmağa çalışır. Lakin dünya birliyi heç də etnik azlıqların tərkibində yaşadıqları dövlətdən ayrılaraq millət kimi təşkil olunmasını dəstəkləmir. Əksinə, son iki əsrdə, xüsusilə də II dünya müharibəsindən sonrakı dövrdə milli dövlətlər planetin intəhasız ərazilərində yaşayan milyardlarla əhalinin məskunlaşmasının, xalqların siyasi cəhətdən təşkil olunmasının ən etibarlı və təhlükəsiz formasına, ən optimal geosiyasi struktur vahidinə çevrilmişdir və buna görə də həmin dövlətlərin ərazi bütövlüyünün pozulmazlığı, onların daxili işlərinə kənardan müdaxilə edilməsinə yol verilməməsi müasir dünya nizamının başlıca norması olaraq qalmaqdadır. Bununla yanaşı dünya birliyi dövlətlərin ərazilərində millətlərin ayrılmaz tərkib hissəsi olan etnik azlıqların nümayəndələrinin siyasi, iqtisadi, mədəni hüquqlarının təmin edilməsini, habelə onların etnik dillərinin, adət-ənənələrinin, bütünlükdə mədəni müxtəlifliyin qorunub saxlanılmasını dəstəkləyir. Bu məqsədə BMT-nin müqavilə əsaslı qurumları sistemində, digər beynəlxalq və regional təşkilatlar çərçivəsində xüsusi mexanizmlər yaradılmışdır və onlar uğurla fəaliyyət göstərməkdədir.

Millətin etnik birlik kimi anlaşılması siyasi praktikada istər milli miqyasda, istərsə də beynəlxalq münasibətlərdə saysız-hesabsız problemlər yarada bilər və yaradır da. Buna görə də Qərb ölkələrinin siyasi-hüquqi leksikonunda "millət"

anlayışı dövlət ilə, ərazi ilə, vətəndaşlıqla bağlı anlayış kimi işlədilir. Amma bu yanaşma elmi ictimaiyyət, bütünlükdə cəmiyyət tərəfindən çətinliklə qəbul olunsa da, son zamanlar postsovet məkanda, o cümlədən də Azərbaycanda tədricən özünə yol açmaqdadır.

Beləliklə, dövlət və ərazi ümumiliyi, ortaq dil, iqtisadi həyatın ümumiliyi və psixi davranış tərzi millətin mahiyyətini, onun insan birliklərinin digər formalarından fərqləndirici xüsusiyyətlərini göstərən əlamətlər sistemini təşkil edir. Həm də bu əlamətlərin hər biri ayrı-ayrılıqda deyil, yalnız birlikdə, sistem şəklində götürüldükdə millətin mahiyyətini açıqlayır.

## 6.2 Etnik kimlik və milli müəyyənlik problemi

Bəşəriyyətin inkişafının müasir mərhələsində dünyada baş verənlər kontekstində milli müəyyənlik məsələsi fərddən tutmuş müxtəlif səviyyəli toplumlara qədər hamı üçün aktuallıq kəsb etməkdədir.

Yaranmışların ən alisi olan insan özünü anlamağa başladığı ilk anlardan hansı mənşəyə, hansı xalqa, hansı nəslə aid olduğunu müəyyənləşdirməyə çalışır. İnsanın kimlik axtarışı onu bütün həyatı boyu müşayiət edir. Bu axtarış zamanı insan daim özünün hansı sosial qrupa, milli topluma, professional, dil, siyasi, iqtisadi, dini, irqi və digər başqa xarakterli birliklərə mənsubiyyətini müəyyən etməyə çalışır. Lakin bir çox hallarda insan öz kimliyini və hansı irqi, milli-mədəni və əxlaqi-dini sferaya mənsubiyyətini dəqiq təyin edə bilmir. Belə vəziyyət bir sıra obyektiv və subyektiv səbəblərin - təbii amillərin, yaxud məqsədli və süni yaradılmış situasiyaların nəticəsi kimi ortaya çıxa bilər. Məsələn, qarışıq nikahların nəticəsində yaranan, etnik mənsubiyyət baxımından tərəddüd edən və unikal etnik cizgiləri olan fərdlər, əqidə yoxsulluğu səbəbiylə dinsizliyə və etnik naməlumluğa düçar olmuş insanlar buna misal ola bilər. Qeyd etmək lazımdır ki, *“eqo kimlik”* terminini elmi dövriyyəyə məşhur alman alimi, psixoanalitik Erik Homburger Erikson (1902-1994) daxil etmişdir. O, bu terminin məzmununa ətraf mühitdə və insanın ideoloji durumunda baş verən dəyişikliklərə - inkişafa, sıçrayışa, fövqəladə tərəqqiyə, yaxud tənəzzülə baxmayaraq, şəxsiyyətin bütövlüyünü, qürurunu, insan “mən”inin şəxsi mahiyyətinə tam uyğunluğunu və davamlılığını daxil edirdi.

Bu sahədəki tədqiqatçıların fikirlərini ümumiləşdirsək, kimliklərin bütün məcmusunu iki istiqamətə ayıra bilərik:

*1. Davamlı şəkildə yenidən yaradılması üçün təşkilati dəstəyin tələb olunmadığı təbii kimliklər;*

*2. Daim təşkilati dəstək tələb edən süni kimliklər.*

Təbii kimliklərin sırasına, bir qayda olaraq, etnik, irqi, ərazi (landşaft - dağlı, aranlı, kəndli, şəhərli və s.), ümumdünya (Şərqli, Qərbli, kosmopolit və s.) və sosial kimliyi (qadın, kişi, körpə, gənc, yaşlı, qoca) aiddir. Süni kimliklərin sırasına isə, əsas etibarı ilə milli, professional, konfessional (iudaist, buddist, hindi, xristian, müsəlman), zodiakal (yun. *zodiakos* - "heyvanlar dövrəsi", bürclər), zümrə (zadəgan, ziyalı) və s. kimliklər aiddir. Elə kimliklər var ki, onlar özündə həm süni, həm də təbii əlamətləri ifadə edir (məsələn, insanın bu və ya digər cinsin nümayəndəsi olaraq, daxili mənsubiyyət hissini ifadə edən gender kimliyi).

Yuxarıda bəhs olunan əsas kimliklər içərisində *etnik, milli və dini kimliklər* etnik-siyasi birliklərin təşəkkülü işində və davamlı inkişafında müstəsna rol oynayırlar.

*Etnos–mədəni irsin daşıyıcısı və yayılma arealından asılı olmayaraq eyni etnik mənsubiyyətli (dil, mədəniyyət, əxlaq və s.) insanların birliyidir.* Etnoslar hər hansı coğrafi mühitdə və müəyyən tarixi dövr ərzində formalaşır. Yeni yaranan etnoslarla birlikdə yeni ideologiyalar və fərqli dünyagörüşü də formalaşır. Dünya əhalisi irqinə, dininə, maddi və mənəvi dəyərlərinə, mədəni irsinə, mental xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Buna səbəb onların müxtəlif ərazilərdə məskunlaşması və həmin mühitə uyğunlaşmasıdır.

*Dünyada 4-5 min etnos, milli azlıq vardır. Sayı 100 milyondan çox olan böyük etnoslara* çinliləri, hindliləri, benqalları, rusları, yaponları və s. göstərmək olar. *Kiçik etnoslara,* məsələn, Şri-lankada veddi, Braziliyada botokudu, ölkəmizdə xınalıq, buduq və s. aid etmək olar. Etnosların formalaşmasına bir çox amillər təsir edir ki, onlardan da ən mühümü landşaftdır.

Tarixçi, etnoqraf alim L.N.Qumilyov *"Etnogenez və Yerin biosferi"* adlı əsərində etnosun yaranmasını onu əhatə edən landşaftla əsaslandırmağa cəhd etmişdir. Onun fikrincə, yeni etnoslar əsasən müxtəlif landşafların sərhədlərində bir-birindən asılı olmayaraq yaranır. Eynicinsli landşaflarda məskunalaşan xalqlar etnik və sosial baxımdan daha dayanıqlı olurlar. Dağlıq ərazidə formalaşan

etnoslar dəyişkən və azsaylı olurlar. Etnosun formalaşmasında cöğrafi mühit faktoru mühüm rol oynayır. Ərazinin xüsusiyyəti, relyefi, iqlimi və landşaftı orada yaşayan xalqların adət-ənənəsinə, dünyagörüşünə, məşğuliyyətinə, hətta geyim tərzinə öz təsirini göstərir.

Etnik kimlik - özünütəşkil prinsipi kimi təzahür edən bir fenomendir. O, ilk növbədə hər hansı etnosa mənsubiyyətlə və tarixən onun mədəni dəyərlərinə xas olan davranış dəstləri - nitq, jestikulyasiya (lat. gesticulatio - bədən hərəkəti.- Red.), spesifik temperamentin müxtəlif halətləri və s. ilə ifadə olunur. Şəxsiyyətin bu xassələri onun sosiallaşması prosesinin erkən mərhələsində ortaya çıxır. *Etnik kimlik* şəxsiyyətin sosial kimliyinin əsas tərkib hissəsi kimi təzahür edir. O, psixoloji kateqoriya qismində insanların konkret etnik birliyə mənsubiyyətlərinin dərk olunması kimi qiymətləndirilir.

Müasir dövrdə isə etnosların formalaşmasına təbii mühitlə yanaşı sosial, iqtisadi, siyasi və digər amillər də təsir edir. Hazırda etnosların yaranma imkanları ilə bərabər onların sıradan çıxma səbəbləri də çoxdur. Geniş ərazidə yayılma nəticəsində bir-birindən uzaq düşmə, hərbi müdaxilə, ekololi fəlakətlər, iqtisadi gerilik bu səbəblər sırasındadır.

Etnoslar sıradan çıxma ərəfəsində özlərini bərpa edib yenidən inkişafa da nail ola bilərlər. Qumilyovun fikrincə, etnosun özünübərpası passionarlıqla əlaqəlidir. Passionarlıq etnosun ətraf mühitdən daha çox enerji qəbul edərək onu fəaliyyət üçün istifadəsinə deyilir. Bu fəaliyyət isə adətən güclü, enerjili şəxsiyyətlərin-*passionarların* vasitəsi ilə həyata keçirilir. Passionarlar elm, siyasət, din, incəsənət, təhsil və s. sahədə fəaliyyət göstərə bilərlər. Məsələn tarixi şəxsiyyətlər olan Atilla, Makedoniyalı İsgəndər, Çingizxan, Napoleon, Atatürk, Heydər Əliyev, elm sahəsində Eynşteyn, Nyuton və b. passionarlardır.

Etnik kimliklərin daha təkmil forması “milli kimlik” hesab olunur. Milli kimlik (ing. *national identity),* yaxud milli özünüdərk insan kimliyinin əsas elementi qismində, onun konkret etnosa, yaxud millətə mənsubiyyət hissini ifadə edir. Milli kimlik fenomeninə milliyyət və vətəndaşlıq kimi elementlər ciddi təsir göstərsə də, onlar mütləq şəkildə eynilik təşkil etmir.

*Milli müəyyənlik,* bir qayda olaraq, tarixi, sosial-iqtisadi inkişafla, siyasi mənsubiyyətlə, etnik mədəniyyətlə, vətəndaşlıqla, vətənpərvərliklə və s. elementlərlə bağlı olan dəyərlər sistemidir. O, cəmiyyətin bütövlüyü və dövlətin suverenliyi problemlərilə bilavasitə əlaqəlidir. Belə ki, cəmiyyətin bütövlüyü

insanların ümumi ərazi, ümumi əcdadlar, ümumi tarix, mədəniyyət normaları və qanunlar haqqında olan təsəvvürlərindən asılıdır. Bu təsəvvürlər isə son nəticədə cəmiyyətin, dövlətin və millətin ümumi və vacib rəmzlərinin yaranmasına və möhkəmlənməsinə səbəb olur. Məsələn, dünya xalqlarının çoxlu sayda rəmzləri mövcuddur ki, onlar da insanlara öz mədəniyyətlərini dərk etməyə və kimliklərini təyin etməkdə yardımçı olur. Lakin kimliyi mütləq şəkildə təyin etmək üçün bu kifayət deyil. Milli kimliklərin təmsil olunduğu dövlətin ərazi baxımdan böyük, yaxud kiçik olmasından asılı olmayaraq, onun vətəndaşlarının əksəriyyəti üçün (məşhur, görkəmli şəxsiyyətlər nəzərə alınmadan) biri-biriləri haqqında nəyi isə bilmək az əhəmiyyətlidir. Lakin onların hər birinin təxəyyülündə, zəkasında daim dövlətin simvollarının, ölkənin sərhədlərinin, şəhər və kəndlərinin, yollarının, digər əsas infrastrukturlarının, tarixi və müqəddəs məkanlarının ümumi obrazı yaşayır. Beləliklə, etnik, yaxud milli fərd özünü, yuxarıda sadalanan külliyyatın ayrılmaz hissəsi kimi təsdiq edir. Bu ideya onun təfəkküründə çox dərin kök salır. Sözügedən ideya sistemli şəkil alanda milli maraqlar kimi təzahür edir. Bu isə vahid millətin yaranması üçün ən başlıca tarixi şərt hesab olunur. Çoxmillətli ölkələrdə bu proses fərqli şəkildə cərəyan edir və çoxlu sayda müxtəlif kimliklərin vahid siyasi məfkurə əsasında birləşməsini nəzərdə tutur.

Milli müəyyənlik anlamının məzmununda *milli ideya və dini kimlik* məsələsi müstəsna əhəmiyyətə malikdir. Məsələn, uzun müddət Azərbaycan xalqı öz kimliyini daha çox dini əsasda müəyyən edirdi. Çünki onun etnik türk kimliyi təzyiqlər altında idi. Milli kimliyimizin qəbul olunması və tanınması Əlibəy Hüseynzadə, Əhməd Ağaoğlu, Əlimərdan Topçubaşov, Məmmədəmin Rəsulzadə və digər istiqlal mücahidlərimizin məqsədyönlü fəaliyyətinin nəticəsi idi. Onlar panislamizmi türk etnik kimliyimizin tanınmasında ən ciddi maneə hesab edirdilər.

Bu barədə Məmmədəmin Rəsulzadə yazırdı ki, *pan-islamizm müsəlman xalqlarının müstəqilliyinə əngəl yaradır. Milli müstəqilliyə, sosial tərəqqiyə nail olmaq üçün milli şüuru inkişaf etdirmək, milli kimliyi müəyyənləşdirmək lazımdır.*

Milli kimlik müxtəlif hədlərdə, çeşidli tərkiblərdə təzahür edir. Bu baxımdan Azərbaycan Respublikasında yaşayan azsaylı xalqların ikihədli etnik-milli kimliyi unikal hadisə kimi qiymətləndirilə bilər. Bir məqamı da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında təmsil olunan bütün azsaylı

xalqların, etnik qrupların, həmçinin dövlətyaradan millətin lokal milli kimliyi və *"Azərbaycançılıq"* məfkurəsi ilə sıx bağlılığı Cənubi Qafqazda *"Azərbaycan"* adlanan etnik-siyasi birliyin davamlılığı üçün başlıca şərt hesab olunur.

Hər hansı etnik birliyin hansı tarixlə və mədəniyyətlə assosiasiya olunması, Şərqə, yaxud Qərbə, dünyəviliyə, yaxud dindarlığa, Avropaya, yaxud Asiyaya mənsubiyyətinin təyin edilməsi işi son dərəcə vacibdir. Lakin dünyada elə etnik-milli kimliklər var ki, tarixən sivilizasiyaların qovşağında yerləşməsi ilə əlaqədar onlara qoşa, hətta bir neçə müxtəlif mahiyyət məxsusdur. Bu baxımdan da Azərbaycan kimliyini nümunə göstərmək olar. Beləliklə, Azərbaycan kimliyinin gücü və qüdrəti məhz onun müxtəlif cəhətli olmasındadır.

Bu və ya digər millətlərin tərkibində yaşayan azsaylı xalqların milli kimlikləri özlərində həm regional etnik-mədəni mənsubiyyəti, həm də sıx bağlı olduqları dövlət və dövlətyaradan millətlə əlaqədar olan mənsubiyyəti ifadə edir.

Bəşıriyyətin etnik tərkibi müxtəlif irqlərin və etnosların nümayəndələrinin davamlı yerdəyişməsinin - miqrasiyasının nəticəsidir. Etnosların təsnifləşdirilməsi isə müxtəlif əlamətlərə görə aparılır (dərinin rəngi, saçların forması, kəllə sümüyünün strukturu, xarakterik mentalitet, düşüncə tərzi, sifətin cizgiləri və s.). Onların içərisində say və dil faktoru daha mühüm əhəmiyyət kəsb edir. Sayına görə dünya xalqları müxtəlifdir. Belə ki, onların böyük bir hissəsi azsaylı xalqlardır.

Yer kürəsində yaşayan bütün xalqların cəmi 310-nun sayı 1 milyon nəfərdən artıqdır. Onlar dünya əhalisinin 96%-ni təşkil edir. Say etibarı ilə ən böyük xalqlar isə aşağıdakılardır: 1. Çinlilər. 2. Hindistanlılar. 3. Amerikalılar. 4. Benqallar. 5. Rusiyalılar. 6. Braziliyalılar. 7. Yaponlar.

Dünya xalqları bu və ya digər formada cəmi 20 dil ailəsində təmsil olunur ki, onların da ən böyükləri aşağıdakılardır:

1. Hind-Avropa dil ailəsi (Bu dillərdə 150 xalq, 2,5 milyard əhali danışır);

2. Çin-Tibet dil ailəsi (bu dillərdə Çinin, Nepalın və Butanın ümumilikdə 1 milyarddan artıq əhalisi danışır);

3. Ural-Altay dil ailəsi (bu dillərdə isə 500 milyondan artıq insan danışır-əsasən türk xalqları).

Müasir statistik təhlillərin nəticəsindən çıxış etsək, dünya ölkələrinin beşdə dörd hissəsi bu və ya digər səviyyədə birmillətlidir. Bu, dövlət sərhədləri ilə etnik sərhədləri əsasən üst-üstə düşən ölkələrdir. Burada əsas dövlətyaradan millətin

ümumi sayı əhalinin 90%-dən çoxunu təşkil edir. Belə ölkələrin böyük hissəsi Avropada, Latın Amerikasında və Yaxın Şərqdə yerləşir. Çoxetnoslu ölkələrin sərhədləri çərçivəsində isə bir neçə etnos yaşayır. Belə ölkələri 4 qrupa bölmək olar:

1. Bir millətin mütləq say üstünlüyü şəraitində az və ya çox sayda milli azlıqların yaşadığı ölkələr (Azərbaycan, Böyük Britaniya, Fransa, İspaniya, İtaliya, Gürcüstan, Monqolustan, Yaponiya, Türkiyə, Əlcəzair, Mərakeş, ABŞ, Avstraliya, Çin və s.).

2. İki etnosun əsas etnik dominant olduğu ölkələr (Kanada, Belçika).

3. Mürəkkəb, lakin etnik cəhətdən eyni tipli etnik tərkibi olan ölkələr (İran, Əfqanıstan, Pakistan, Laos və s.).

4. Etnik anlamda mürəkkəb və polietnik milli tərkibi olan ölkələr (Rusiya, Hindistan, İsveçrə, İndoneziya və s.).

Qeyd edik ki, 7.7 milyarda yaxın əhali, 4-5 min xalq, millət, etnik qrup olan yer kürəsində cəmi 200-dən bir az çox müstəqil dövlət (onlardan 193-ü BMT-də təmsil olunur) vardır. Onlardan da biri 60-dan çox xalq və etnik qrupun qarşılıqlı hörmət və ehtiram şəraitində yaşadığı, BMT-nin tam hüquqlu üzvü - müstəqil Azərbaycan Respublikasıdır.

Bu gün Azərbaycan kimliyi öz gücünü şanlı tariximizdən, mənəvi zənginliyimizdən, vətənpərvərlikdən və fərqli etnik birliklər arasındakı qarşılıqlı hörmət və ehtiramdan alır. Bu əlaqə daha düşünülmüş və məqsədyönlü olduqca, dövlət siyasəti səviyyəsinə qaldırılmış multikulturalizm cəmiyyətimizin həyat tərzinə çevrildikcə, şüurlardakı qeyri-müəyyənliklər tədricən aradan qalxır, mütərəqqi ideoloji konstruksiyanın formalaşdırılması isə daim daha xoşbəxt gələcəyə can atan müasir mədəni Azərbaycan anlamı yaradır. Onun da başlıca əlamətləri dünyəvilik, maarifçilik, humanizm, tolerantlıq, mərhəmət, şəfqət və mərifətdir ki, onlar da milli mentalitetimizin tarixi laylarından qaynaqlanır.

## 6.3 Etnik dəyərlər və milli mentalitet

*Mentalitet* termini ilk dəfə 1856-cı ildə ABŞ alimi R.Emerson tərəfindən elmə gətirilmişdir. O zamandan xeyli vaxt keçsə də, bugünədək politoloqlar, mədəniyyətşünaslar və sosial psixoloqlar arasında bu məfhum haqqında fikir müxtəlifliyi qalmaqdadır. XX əsrdə isə mentallıq problemi əsasən SSRİ-dən mühacirət etmiş filosoflar - N.Berdyaev, S.Frank, S.Bulqakov, S.Trubetskoy

və b., xaricdə isə C.Letevir, Levi-Bpyul, R.Mandey, E.Labruss və b. tərəfindən işlənmişdir.

Sovet cəmiyyətşünaslığında bu problemin tədqiqinə qəsdən imkan verilmirdi. Çünki o, dinin, şüursuzluq affektlərinin və başqa bu kimi "keçmişin qalıqlarının" güclü təsiri altında olan Freyd və Nitsşe nəzəriyyələrinin cərəyanlarına aid edilirdi. XX əsrin 90-cı illərinin əvvəllərindən mentallıq əsasən fəlsəfə, mədəniyyətşünaslıq və psixologiya çərçivəsində öyrənilir. Siyasi nəşrlərdə də ciddi məqalələr meydana çıxmağa başlayır. Ümumiyyətlə isə mentalitet anlamının mahiyyətinin araşdırılmasının milli-etnik münasibətlər baxımından böyük əhəmiyyəti vardır.

L.İ.Karoçvinin mentalitetin *genetik* cəhətdən əvvəldən müəyyənliyi haqda fikirləri maraq doğurur. Həqiqətən də, dinin və mədəniyyətin eyni olmaması, etnik mədəniyyətlərin müxtəlifliyinin dinin müxtəlifliyinə gətirib çıxarmaması faktorunu nəzərə alsaq, qanunauyğun olaraq belə bir sual meydana çıxır: milli mentalitetdə *genetik xarakterli* bəzi cəhətlər yoxdurmu? Düzdür, mentallıq fenomeninin məzmununun dərk edilməsi o qədər də asan məsələ deyildir. Həm rus, həm də yunan mədəniyyətinin (mentallığının) daşıyıcısı olan F.X.Kessidi yazır ki, mentallıq anlayışı həddən artıq çox işlənsə də, məsələnin mahiyyəti nəinki izah edilmir, əksinə çox hallarda bu mahiyyətin üzərinə kölgə salınır. Bu anlayış *etnosun psixi bazasını* (qəlbini, mənəvi durumunu), yəni onun temperamentini, emosional vəziyyətini və ümumilikdə, "*dərk olunmamış elementlər"*ini özündə ehtiva edən xarakterini həmin etnosun düşüncə tipi ilə eyniləşdirir, demək kifayətdir. Bununla birlikdə bəllidir ki, düşüncə tipinin və temperamentin bütün tipləri, emosional reaksiyanın hər bir forması, intuisiyanın inkişafı və psixi "dərk olunmamış elementlər"in təsiri hər bir etnosda vardır. Bütün bunlar müxtəlif ahəngdarlıqda, kombinasiyalarda və nisbətlərdə təzahür edir. Xüsusilə qeyd etmək lazımdır ki, etnosun xarakteri və dəyər yönümləri onun tarixi taleyində çox vaxt düşüncə tipinə nisbətən daha əhəmiyyətli rol oynayır.

Linqvokulturologiya sahəsi üzrə mütəxəssis A.K.Mixalskaya *"mentalitet", "mentallıq" və "xalqın ruhu"* anlayışlarını bir-birinin sinonimi kimi qəbul edərək bildirir ki, onların mahiyyəti şəxsiyyətin və ya ictimai qrupun düşüncə tərzində, ağıl durumunda və dünyagörüşündədir.

*Mentalitet – mürəkkəb, çoxtəbəqəli və müxtəlif keyfiyyətli təzahürdür,*

*strukturca o, müxtəlif xüsusiyyətlərin elementləri ilə təmsil olunmuşdur.*

Xalqın, millətin mentaliteti daha konkret subyektivliyə malik olmaqla onların tarixi keçmişi və bu günü, həmçinin cəmiyyətin sosial-sinfi strukturu (stratifikasiyası), onun etnik, cins-yas, konfessional və s. keyfiyyətlərinin xüsusiyyətləri ilə müəyyən olunur. Mentalitet xalqın özünəməxsus sosial yaddaşıdır. Lakin onun hər bir törəməsi və tərkib hissələri şüurun və davranışın müəyyən stereotiplərinə bağlıdir. Son nəticədə bunlar xalqın mentaliteti adlana bilən toplusunu - məlumatlar məcmusunu təşkil ebir.

Mentalitetin subyektivliyində cəmiyyətin kütlə və elita kimi iri təbəqələrini ayırmaq lazımdır. Məlum olduğu kimi, sonuncunun bir sıra sahələrdə - dövlət idarəçiliyi və ictimai fəaliyyətdə, elmdə, mədəniyyətdə, özünün ideal və dəyər komponentləri ilə birlikdə dünyagörüşündə rolu həmişə böyük olmuşdur. Xalq gözəlliklərin ilkin yaradıcısı kimi öz içərisindən alimləri, yazıçıları, şairləri, rəssamları, müsiqiçiləri yetişdirib ortaya çıxarır, onlar da öz sahələrində qiymətli mədəniyyət incilərini yaradırlar. Bunlarsa xalqın özünəməxsus yaradıcılığı, dastanlar, ənənələr, miflər, folklorla birlikdə elə bir mənəvi mental mühit formalaşdırır ki, o da yüz illərlə insanların sosial-psixoloji durumunu və əxlaqi-etik meyarlarını, obrazlarını, təsəvvürlərini, dəyərləndirmələrini, həyat tərzlərini və meyllərini müəyyənləşdirməyə qabildir. Qeyd olunanları isə nəsillər bir-birinə "irsən" ötürürlər.

Öz tarixi inkişafında millətlər (xalqlar), siniflər, qruplar, digər sosial təbəqələr, cəmiyyətin bütün mövcud sosial-iqtisadi və siyasi-dövlət strukturu sanki həyatın mental formasının əsası üzərinə qoyulur. Onlar da sosial proseslərin, münasibətlərin və əlaqələrin vəziyyətinə və dinamikasına davamlı və uzunmüddətli təsir göstərir.

Bu məsələyə milli identiklik prinsipləri baxımından qəbuledilməz olan başqa yanaşmalar da mövcuddur. Söhbət ayrı-ayrı dövlət, ictimai, xüsusilə şəxsi, kommersiya strukturları tərəfindən mətbuatda, televiziyada, radioda, reklam vasitəsilə, vətəndaşların sosiallaşması institutlarında (ailə, məktəb, ali məktəb, əmək kollektivləri) xalqa, onun mentalitetinə yad olan, başqa mədəniyyətlərdən formal şəkildə götürülən normaların və şüur stereotiplərinin, sosial idealların və istiqamətlərin, psixoloji durumların kortəbii şəkildə yayılmasından gedir.

Bu halı qərbləşdirmə, bəzən isə amerikanlaşdırma adlandırırlar. Postsovet ölkələrində milli mentalitetin "qərbləşdirilməsi" və "şərqləşdirilməsi"

(Türkiyənin, İranın, Çinin və Şərqin digər ölkələrinin təsiri) probleminin bir sıra aspektləri vardır. Onların ən ümumilərindən biri Şərq və Qərb arasında mənəvi sahədə qarşılıqlı münasibətlərdir.

Hamıya bəllidir ki, Şərq və Qərb mədəniyyəti, əxlaqi-psixoloji mentallığı, sivilizasiyaları bir-birindən fərqlidir. Qərb mentaliteti üçün fəallıq, dinamizm, zirəklik, işgüzarlıq, fərdiyyətçilik və eqosentrizm, praqmatizm, liberal dəyərlərə, şəxsi azadlıq və müstəqillik prinsiplərinə meyllilik, təbiətlə "sərbəst" münasibətlər kimi xüsusiyyətlər xarakterikdir. Şərqə isə daha çox ənənəçilik, dövlətə, rəhbərlərə, özündən böyüklərə hörmətlə yanaşmaq, dindarlıq, kollektiv (icma) münasibətləri və əlaqələrə meyl, həyat müdrikliyi və qonaqpərvərlik, ətraf mühitə adaptiv, təbiətə isə xəyalpərəst münasibət, müəyyən dərəcədə passivlik, demokratiya, şəxsiyyətin hüquq və azadlığı sahəsində tarixi ənənələrin zəifliyi xasdır. Şərq və Qərb mentalitet tiplərinin metafizik şəkildə bəzi mübahisəli stereotipləri formalaşdırılmışdır. Reallıqda isə mentallıq həm Qərbdə, həm də Şərqdə tarixi planda asta-asta, XX əsrdən isə artan sürətlə dəyişməkdədir. Struktur baxımından isə mentallığın bəzi elementləri maksimal stabilliyi, digərləri isə az və ya çox dərəcədə dəyişkənliyi ilə fərqlənir. "Qərb", "Şərq" toplum anlayışlarıdır və çoxsaylı etnosların mentallığı kontinental-geosiyasi birliklər daxilində milli, mədəni və psixoloji xüsusiyyətlər kəsb edərək dəyişir.

Mövcud reallıqlar baxımından xalqımızın milli mentalitetini dəyərləndirməyə çalışsaq görərik ki, tariximizin keşməkeşli, torpağımızın isə ta qədimdən bir sərvət mənbəyi kimi yaxın və uzaq dövlətlərin, fatehlərin maraq obyekti olması bu sahədə də öz dərin izlərini buraxmışdır. Mentalitetimizə zərdüştilik, ərəb-fars işğalı, monqol əsarəti, xanlıqlara parçalanma, ara müharibələri və s. öz təsirlərini göstərmişdir. Nəticədə həyat tərzimizdə, məişətimizdə həm Avestadan gəlmə xüsusiyyətlər (hər şeydən əvvəl xeyirxahlıq), həm islami dəyərlər, həm də ümumtürk ünsürləri özünü göstərməkdədir. Bu proses səfəvilər, qacarlar, xanlıqlar, rus işğalı və sovet hakimiyyəti dövrlərində davam etsə də, ümumtürk mentalitetinin xüsusiyyətləri, çətinliklə olsa belə, öz varlığını qoruyub saxlamışdır. Türk-islam mentalitetinə isə daha çox bir tərəfdən fatehlik, özgə işğalına dözümsüzlük, digər tərəfdən isə özündən zəiflərə mərhəmət göstərmək, unutqanlıq xüsusiyyətləri xasdır. Məsələn, Avropa cəngavərlərini və hökmdarlarını məğlub edən Sultan Bəyazid isə onları azadlığa buraxaraq deyirdi: *"Gedin, qoşun yığıb yenidən gəlin, sizi məğlub etməkdən çox*

*məmnun oluram".*

Milli mentalitetin formalaşmasında təbii faktorların da rolu danılmazdır. Bu baxımdan İbn Xaldunun (1332-1406) "Müqəddimə" əsərində aşağıdakı müddəalar maraq doğurur: *"a. Adamların irəli sürdükləri ictimai ideyalar, onların həyat tərzi ilə bilavasitə əlaqədardır; b. Köçəri həyat sürənlər oturaq əhaliyə nisbətən daha sağlam olurlar (həm fiziki, həm də mənəvi cəhətdən); c. Köçəri xalqların təbii həyatı onları fateh etmişdir, oturaq həyata keçəndə özləri əsarətə düşürlər".*

Xalqımızın da milli mentalitetinin və milli xarakterinin formalaşmasında ölkəmizin əsrarəngiz təbiətinin rolu danılmazdır. "Azərbaycanlı" Qarabağın, Milin, Muğanın, Şirvanın ab-havasını götürmüş, Kürün, Arazın coşqunluğundan, Şahdağın, Kəpəzin məğrurluğundan vüqarlanmış, özünəməxsus təsərrüfat qurmuş, qonşularla müvafiq münasibətlərə girmiş, nağıllar, dastanlar yaradaraq dünyanı dərk etmək istəyini ifadə etmişdir. Dağlar, təbii qalalar milli xarakterin formalaşmasına, azadlıq, mübarizlik, qəhrəmanlıq əhvalı-ruhiyyəsinin möhkəmlənməsinə öz töhfəsini vermişdir. Lakin qədim və orta əsrlərdə əsas sərvət hesab olunan münbit və suvarıla bilən torpaqlar, sonrakı dövrlərdə isə neft və digər yeraltı və yerüstü sərvətlərimiz Azərbaycan xalqına şan-şöhrətlə yanaşı problemlər də gətirmişdir. Ölkəmiz tez-tez yadellilərin hücumlarına məruz qalmışdır. Bütün bunlar isə mənəvi genefondumuza, milli psixologiyamıza və milli xarakterimizə öz təsirini göstərmişdir. Azərbaycan mentalitetinin formalaşmısını əngəlləyən məsələlərdən biri də 200 ilə yaxın bir müddət ərzində ölkəmizin və xalqımızın ikiyə bölünməsi və təbii ki, bu böyük zaman kəsiyində bir sıra fərqli xüsusiyyətlər kəsb etməsidir.

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan cəmiyyətəinin yuxarı təbəqələrinin məhdud bir hissəsində avropalaşma meyli artsa da, əksəriyyətdə asiyalılıq tam şəkildə öz varlığını qoruyub saxlayırdı. Bu zamanlarda Avropanın özündə də Şərqə, onun füsunkarlığına maraq xeyli artmışdı. XIX əsrin məşhur Fransız yazıçısı Aleksandr Dümanın ölkəmizdə olarkən xalqımızı necə xarakterizə etməsi milli mentalitet baxımından da çox önəmlidir: *"O ki qaldı azərbaycanlılara... Bu xalq vaxtı ilə müzəffər olmuş, indinin özündə də ruhən döyüşkən olaraq qalır. Azərbaycanlılar… azad yaşamağı üstün tuturlar… Azərbaycanlı ilə bir şey barədə sövdələşəndə ondan imzalanmış sənəd tələb etməyə ehtiyac yoxdur. Söz verdi, qurtardı".*

Amerikalı Sulla Benetin fikirləri də Dümanın fikirləri ilə eyni səslənir. O, "*Necə yaşayasan–yüzü haqlayasan*" əsərində yazır: *"Azərbaycanlılarda söz vermək, zamin olmaq, şifahi razılıq ciddi məsələdir. Söz verdin gərək onu yerinə yetirəsən, dildən kağız verməyə, onu imzalamağa, sənədləşdirməyə ehtiyac yoxdur".*

Rus səyyahı və etnoqrafı V.L.Veliçko yazırdı ki, *".. Azərbaycanlıların damarlarında nəciblik qanı axır, onlar təbiətən xeyirxah, mərd, genişqəlbli və alicənabdırlar".*

Hələ vaxtilə isveçrəli psixoloq Karl Yunq qədim sivilizasiyaların mifologiyasını və bədii ədəbiyyatını öyrənmiş, onlara əsaslanan *arxetipik rəmzləri* açıqlamışdır. Arxetip K.Yunqun işləyib hazırladığı "Analitik psixologiya"nın mərkəzi anlayışıdır. Fərdlər səviyyəsində "şüuraltı"nı (təhtəlşüuru) tədqiq edən psixoanalizdən fərqli olaraq analitik psixologiya kollektiv səviyyəsində "şüuraltı"nı - bəşəri yaddaşı, millətlərə, irqlərə, nəsillərə, hətta qruplara məxsus olan kollektiv "şüuraltı" yaddaşı öyrənir. Arxetip fərdin mənsub olduğu kollektivin "şüuraltı" yaddaşında "mürgüləyən" və müvafiq məqamlarda inanclar, əsatirlər, rəmzlər, bədii obrazlar, kütləvi davranış standartlarıdır ki, fərd onu daxil olduğu mühitdən hazır şəkildə əxz edir. O, ayrı-ayrı fərdlərin, insan qruplarının, bütöv xalqların əhval-ruhiyyəsini, mədəniyyətini, davranış "kod"larını öyrənmək üçün istifadə olunan bir dərketmə alətidir. K.Yunq Azərbaycan mədəniyyətini öyrənməsə də, Şərq mədəniyyəti haqqında önəmli mülahizələr söyləmişdir. Onun fikrincə, Şərqin simvollar nəzəriyyəsi hələ də möcüzələrlə zəngindir.

Milli mentalitetimizin arxetiplər kontekstində araşdırılması da mühüm önəm kəsb edir. Bu məsələləri araşdıran *H.Quluyevin* fikrincə, *arxetiplər bizim hər birimizin qəlbimizdədir, həyat tərzimizə nüfuz edir, davranışımıza nəzarət edir. Uzaq keçmişdə əcdadlarımızın davranışına ağsaqqallar, miflər, sehirli-ovsunlu rituallar, tabular necə sərt ölçülərlə nəzarət edirdilərsə, arxetiplər də bizim davranışımıza elə nəzarət edirlər. Onlar bizim üçün sosial-mədəni "ənənə genləri" - mentalitetimizin kodları kimi fitridirlər.*

Nəsildən-nəsilə ötürülən ənənələrin və davranış formalarının ali dərəcədə mürəkkəb rabitəsi olan arxetiplər universal xassəli olmaqla insanların şüur və davranışında bilavasitə əks olunurlar. Milli mentalitetimizdə özünə möhkəm yer tutmuş və onun xarakterizə edilməsində müstəsna əhəmiyyətə malik olan,

cəmiyyətimizin müasirləşməsi tempinə yüksək dərəcədə təsir göstərən aşağıdakı arxetipləri fərqləndirmək olar:

***"Böyük-kiçik arxetipi".*** Azərbaycan mədəniyyətində nəsillərin varisliyi əsasən *"böyük kiçik"* arxetipinə söykənir desək yanılmarıq. Bu bənzərsiz arxetip Azərbaycan mentalitetinin mənəvi tərəfinin təməl daşlarından biridir və əxlaqi imperativlərlə seçilir. Ailədə münasibətlər *"böyük-kiçik ölçüləri ilə"* tənzim olunanda davranış tərzləri rituallaşır, nəsillərin varisliyi üçün əlverişli şərait yaranır.

***"Ağsaqqallıq arxetipi"*** nəinki "kiçiklərin münasibəti kodeksini", həm də böyüklərin münasibəti kodeksini müəyyən etmişdir. Ailə və cəmiyyətdəki patriarxal münasibətlərin kökləri ilk növbədə qədim dövrlərdə Azərbaycan mədəniyyətində *"ata kultunun"* əmələ gəlməsi ilə bağlı olmuşdur. Qarşılıqlı münasibətlər ierarxiyasında tədricən formalaşan ağsaqqal arxetipi cəmiyətin mənəvi həyatına görünməz tellərlə nüfuz etmişdir. Əvvəllər yaşlı kişi anlamı verən ağsaqqallıq, sonralar tədricən müdriklik, elin, obanın hörmətini qazanan, gənclərə yol göstərən, sözü, məsləhəti əksəriyyət tərəfindən qəbul edilən, həmçinin təmsil etdiyi sosiumun məsuliyyətini daşıyan məzmunla yüklənir. Onların bəziləri özlərinin qeyri-adi nüfuzu ilə xüsusi status kəsb edir: ailənin, nəslin, tayfanın, kəndin (elin, obanın), müəyyən bölgənin ağsaqqalları statusu əmələ gəlir.

***Ata-ana arxetipi.*** Azərbaycan mentalitetində "ata" və "ana" anlamının qeyri-adi etnopsixoloji yozumu vardır. Ata-babalarımız hələ qədim zamanlardan ər-arvad münasibətlərini ülviləşdirmiş, onu sadəcə iki fərd arasındakı münasibətlər kimi deyil, mahiyyətcə "ata" və "ana" münasibətləri kimi səciyyələndirmişlər.

*"Bilqamış"* dastanında *ata"oğulun tanrısı"* kimi vəsf olunur. *"Kitabi-Dədə Qorqud"* ölçüləri ilə ata ailənin bacarıqlı başçısı, böyük qayğıkeşidir. Burla xatın Salur qazanı *"başımın tacı"* adlandırır. Oğuzlarda qadın ərini *"başımın tacı, evimin taxtı! Xan atamın kürəkəni, xan anamın verdiyi, göz açaraq gördüyüm, könül verib sevdiyim"*, kişilər isə qadınlarını "*qadınım, dayağım, döl verənim"* deyə əzizləyirdilər. Görünür ki, Azərbaycan mentalitetində böyük-kiçik ölçüləri də məhz ata imici kökündən əmələ gəlmişdir.

Yuxarıda qeyd olunanlarla yanaşı milli mentalitetimizdə *"ata ocağı", "ana südü", "övlad borcu", "qonağa hörmət",* və s. arxetiplər də önəmli rol oynamışdır. Qloballaşma bu arxetiplərin bəzilərinin təməl daşlarını sökməkdə

olsa da, digərləri öz mövqelərini daha da möhkəmlətmişdir.

Beləliklə, modernləşmə, demokratik əsasların genişlənməsi xətti tutmuş xalqımızın milli mentalitetindəki aşağıdakı xüsusiyyətləri qeyd etmək olar:

-Vətənə, torpağa, kökə, ailəyə bağlılıq, böyüyə hörmət, kiçiyə qayğı;

-Nəsillər arasında anlaşma, çörəyə hörmət, oğuzlardan gələn qonaqpərvərlik, qadına hörmət;

-Azadlıqsevərlik, mərdlik, ədalətlilik, kin və məkrdən uzaqlıq;

-Başqa xalqlara və millətlərə yüksək dərəcədə hörmət;

-Sadəlik, istiqanlılıq, xeyirxahlıq, bağışlamaq, qeyrət hissinin güclülüyü;

-Başqa mədəniyyətlərə və təsirlərə qarşı açıq olmaq;

-Konservatizm və köhnə qaydalara müəyyəm dərəcədə bağlılıq, milli mənəvi dəyərlərə hörmət.

## 6.4. Milli şüur və milli ideyanın formalaşmasında etnik dəyərlərin rolu

Dövləti və dövlətçilik ənənələri olan, ətrafında müxtəlif xalqları, etnik qrupları, dinləri və müxtəlif dini qurumları birləşdirən hər bir millətin *milli ideologiyaya, milli məfkurəyə* böyük ehtiyacı vardır.

Məsələnin mahiyyətini düzgün dərk etmək üçün *ideya, ideologiya, milli şüur, milli ideya və milli ideologiya* anlayışlarının mahiyyətinə nəzər yetirmək məqsədəuyğundur. Qeyd olunan anlayışlar haqqında müxtəlif fikirlər, araşdırmalar mövcud olsa da, təhlillərin və ümumiləşdirmələrin nəticəsi kimi aşağıdakı mülahizələri təqdim etmək olar:

İdeya fəlsəfi ədəbiyyatda elmi idrak formalarından biri kimi təqdim olunur və məntiqi idrakın anlayış formasına yaxındır. İdeyanın anlayışdan fərqi ondadır ki, hər bir ideya anlayış olduğu halda, heç də hər bir anlayış ideya deyildir. Anlayış o halda ideya kimi qəbul edilir ki, özündə yeni bilikləri, fəaliyyət üçün stimul verən yeni fikirləri sintez etmiş olsun. Nəzəri biliyin məzmunu mahiyyəti əks etdirən ideyalarda ifadə olunduğundan, hər bir ideya məntiqi cəhətdən biliklərin sistemləşdirilməsi və nəzəriyyənin qurulması prosesini xarakterizə edir. İdeya nəzəriyyənin elementi, onun əsası, nəzəriyyə isə artıq inkişaf etmiş ideyadır.

Həmçinin ideya nəzəriyyənin əsasını təşkil edən ən mühüm qanunauyğunluğu ifadə edir.

İdeo*logiya ictimai şüurun yüksək səviyy*əsi olub müəyyən sin*fin, millətin, partiyanın, siyasi cərəyanların, ictimai hərəkatların dünyaqörüşünü, idealını və hədəflərini əks etdirən siyasi, sosial, hüquqi, fəlsəfi, dini, etik, estetik ideya və baxışlar sistemidir.*

Görkəmli alman sosioloqu O.Lemberqə görə, ideologiya insan cəmiyyətinin hərəkətəgətirilmə və idarəolunma sistemidir. Onun fikrincə, ideoloji sistemlər insan fəaliyyətini canlandırır və onu idarə edir. İnstinktlərin təsirindən azad olan müasir insan ideologiya sferasında istinad nöqtəsi axtarmağa məcburdur.

*Milli şüur* hər şeydən öncə dil, mədəniyyət və qan-nəsil birliyi (etnos) ilə bağlıdır. Hər bir insan danışdığı dilin milli varlığıdır. Deməli, milli şüur formalaşdırılarkən dil amili birinci yerdə dayanır. Burada genetik amilin, yəni eyni qanı daşıyan nəsillərin etnos birliyinin-milliyyətin də xüsusi rolunu qeyd etmək lazımdır. Genetik amil (qan birliyi) milli özünüdərkin daxili posesidir. Bu proses insanda şüuraltının (təhtəlşüurun) oyanışına, onu öz etnikliyini tanımasına sövq edir. Milli şüurun formalaşmasında milli mentalitetin də rolu böyükdür.

XIX əsrin ortalarından başlayaraq çar Rusiyasının işğalı altında olan Şimali Azərbaycan ərazisindəki müxtəlif türk boyları ilk növbədə qan-nəsil (etnos), dil və mədəniyyət birliyindən çıxış edərək milli varlıqlarını ifadə etməyə çalışmışlar. O dövrün Azərbaycan ziyalıları tayfa və xanlıq şüurundan əl çəkərək çağdaş dövrün tələblərinə uğyun millət olmanın əhəmiyyətini anlamışlar. Artıq Bakıxanov, Axundzadə, Zərdabi kimi Azərbaycan mütəfəkkirləri hər hansı milli və dini məsələyə bir tayfa, yaxud bir bölgənin miqyasında deyil, Qafqaz-Azərbaycan türklərinin səviyyəsində yanaşmışdırlar.

*Milli ideologiya* anlayışının nisbətən dəqiq təhlilini vermək üçün isə daha bir mübahisəli məqama – milli ideya və milli ideologiyanın fərqinə aydınlıq gətirmək zərurəti yaranır. Məlum olduğu kimi, *milli ideya və milli ideologiya* anlayışlarına müasir fəlsəfədə və politologiyada müxtəlif yanaşmalar mövcuddur. Belə ki, bəzi alimlər bu anlayışların tamamilə fərqli, digərləri isə eyni məzmun kəsb etdiyini bildirirlər. Birinci qrup yanaşmanın tərəfdarları milli ideya və milli ideologiyanı bir-birindən ayırmayaraq, bu anlayışları sadəcə sinonim kimi işlədirlər. Bəzi siyasi nəzəriyyələrdə milli ideya etnosun, xalqın, millətin tarixi təcrübə və digər xalqların təcrübəsinə

əsaslanan indiki və gələcək məqsədlərini ifadə edir. Lakin başqa bir tərifə görə, milli ideya bugünkü və gələcək mövcudluğu, inkişafı və tərəqqini ehtiva edən mövcudluq strategiyası olub, xalqı fərdi inanclardan, ayrı-ayrı partiya və hərəkatların irəli sürdüyü ideologiyalardan asılı etməyən və böyük əksəriyyətin iradəsini ifadə edən birlik formulu kimi nəzərdən keçirilir. Milli ideya cəmiyyətdə yaşayan insanları birləşdirən ortaq bir dəyər, məqsəd kimi də qiymətləndirilir.

Problemə dair əsərlər içərisində *akademik R.Mehdiyevin* Azərbaycanın milli ideyasının fəlsəfi dərkinə həsr olunan *"Milli ideyanın formalaşmasında tarixin dərk edilməsinin faydası"* və *"Qlobal transformasiyalar dövründə Azərbaycan milli ideyası"* kimi fundamental tədqiqatlarını xüsusi qeyd etmək lazımdır. Bu kitablar bir-birlərini mövzu və məzmun baxımından tamamlayırlar. Akademik R.Mehdiyev milli ideya və tarixi yaddaşı milli identikliyin təşəkkülündə əsas amil kimi götürərək bildirir ki**,** *"milli ideyanı sosial operator, identifikasiya üsulu, başlıca dəyər kimi başa düşmək olar"* o, *"inkişaf strategiyasını müəyyənləşdirir, siyasi marginallıqdan uzaqlaşdırır və millətin hansı məqsədə can atmasının mahiyyətini aydınlaşdırır"*. Bu fikirlərdən aydın olur ki, milli ideya cəmiyyətin mövcudluğu və inkişafı üçün fundamental funksiya yerinə yetirir. Dövlətin və cəmiyyətin tarixi inkişafın bütün sınaqlarından uğurla çıxması üçün həlledici rol oynayır. Bu səbəbdəndir ki, *milli ideyanın* tarixi dönəmlərdə necə yeniləşməsi də millətin taleyi baxımından prinsipial əhəmiyyət daşıyır. Akademik Ramiz Mehdiyev məsələnin bu aspektinə xüsusi önəm verərək vurğulayır ki, qloballaşma dövründə milli ideyanın məzmununun müəyyənləşməsi dövlətçilik kontekstində strateji özəlliyə malikdir. Bu məqam iki səviyyədə aktualdır.

Birincisi, dövlətin və cəmiyyətin daxili inkişaf maraqları aspektində milli ideya aparıcı funksiya yerinə yetirməlidir. Çünki məhz milli ideya özünütəşkili təmin edən nizamlama parametri rolunu oynayır.

İkincisi, milli ideya konkret sosium üçün xarici mühitin təsirlərini daxili tələbatın ödənilməsinə yönəltmək qüdrətində olmalıdır. Bir qədər fəlsəfi ifadə etsək, milli ideyanı (həm də milli ideologiyanı) cəmiyyətlə xarici mühit arasında uyğunlaşmanı təmin edən mexanizm kimi də təsəvvür etmək olar.

Həmçinin Akademik Ramiz Mehdiyev qeyd edir ki, *milli ideyanı strategiya kimi səciyyələndirmək olar, ideologiya isə ideyanın reallaşdırılmasına kömək*

*edən taktikadır. İdeologiya milli ideyanın cəmiyyətdə yayılması metodları və vasitələridir.*

Digər qrup tədqiqatçılar hesab edirlər ki, *milli ideya* daha çox mənəvi-əxlaqi, fəlsəfi səciyyə daşıyır. Milli ideya xalqın ideoloji təfəkküründə uzun müddət dominant rol oynayan, onun ideoloji özünəməxsusluğunun mümkün qədər böyük zaman çərçivəsində qorunub saxlanılmasına və gələcək nəsillərin öz ideologiyasını seçmək hüququnun qorunmasına əsaslanan etik-mənəvi dəyərlər kompleksidir.

Milli ideologiya isə daha çox siyasi mənada, milli dövlətçilik anlamında işlədilir və siyasi şüur hadisəsidir. O, milli ideyanın nəzərdə tutduğu dəyərləri də özündə birləşdirir.

*Milli ideologiya konkret bir dövlətin ərazisində yaşayan və ya hər hansı ölkənin vətəndaşı olan, lakin özünü eyni millətin nümayəndəsi hesab edən bütün insanların, sosial qrupların, etnik azlıqların, siyasi təbəqələrin mənafelərini özündə ifadə edən milli inkişaf konsepsiyasıdır.*

Cəmiyyətin bütövlüyü, həmrəyliyi məhz milli ideologiyanın müxtəlif sosial və siyasi təbəqələrin, milli azlıqların və etnik qrupların, dini icmaların maraqlarını nə dərəcədə düzgün ifadə etmək qabiliyyətindən asılıdır. Onun məzmununa aşağıdakılar daxildir:

*- Milli ideologiya cəmiyyətin həyatında mühüm rol oynayan ictimai-siyasi fenomendir.*

- *Milli ideologiya cəmiyyətin konsolidasiyasına, vahid məqsəd ətrafında səfərbər edilməsinə, ictimai münasibətlərin tənzimlənməsinə, dövlətin sosial-iqtisadi əsaslarının möhkəmləndirilməsinə xidmət edir.*

- *Milli ideologiya dövlət-cəmiyyət münasibətlərinin milli maraqlar sisteminə uyğunlaşdırılmasını təmin etməklə, siyasi sistemin təkmilləşməsinə təsir edən mühüm amillərdən biri kimi çıxış edir.*

- *Milli ideologiyalar dövlətin iqtisadi imkanlarını və ölkənin ümumi intellektual potensialını, xalqın siyasi şüur səviyyəsini və digər amilləri də özündə ehtiva edir.*

Milli ideologiyanın əhəmiyyətini Azərbaycan xalqının milli ideologiyası olan Azərbaycançılığın əsasında göstərək. Professor Etibar Nəcəfovun qeyd etdiyi kimi, *Azərbaycançılıq ideyası* - Azərbaycan xalqının siyasi, iqtisadi, sosial və mədəni yüksəlişinə yönələn bir ideyadır. Bu ideyanın əsasında

Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi dayanır. Bu proses XIX əsrin ikinci yarısında başlamışdır. O zaman Azərbaycan Çar Rusiyasının əsarəti altında idi. Çar Rusiyasının millətlərarası münasibətlər siyasəti isə ruslaşdırma, diskriminasiya və istismara əsaslanırdı.

Professor E.Ə.Nəcəfov tanınmış türk sosioloqu Ziya Göyalpın və Qərb politoloqu Royd Cavanın "Şərq xalqlarının milli azadlıq hərəkatı ardıcıl olaraq mədəni, siyasi və iqtisadi mərhələlərdən keçir" fikrinə əsaslanaraq, Azərbaycançılıq ideyasının, Azərbaycan xalqının milli azadlıq mübarizəsinin özünü ilkin olaraq mədəni hərəkat kimi göstərdiyini qeyd edir. Onun fikrincə, mədəni hərəkatın nümayəndələri M.F.Axundzadənin başladığı ənənələri davam etdirərək dini fanatizmi, köhnə adət-ənənələri tənqid edərək xalqı təhsilə, elmə yiyələnməyə çağırırdılar. Ciddi səylər nəticəsində yeni tədris metodları tətbiq edən (Üsul-i Cədid) milli məktəblər açıldı, ədəbi Azərbaycan dili və yeni əlifba uğrunda mübarizə genişləndi, milli kitabxanalar, oxu zalları fəaliyyət göstərməyə başladı, milli qəzet və jurnallar təsis olundu. *Mədəni Azərbaycançılıq* hərəkatının görkəmli nümayəndələrinin fəaliyyəti nəticəsində Azərbaycan xalqının milli şüuru formalaşmağa başladı. Bütün bunlar xalqın öz mədəni və etnik birliyini dərk etməsində mühüm rol oynadı.

Professor E.Ə.Nəcəfov Azərbaycançılıq ideyasının mədəni sahədən siyasi sahəyə keçməsini Əlibəy Hüseynzadə, Əhməd Ağaoğlu, Əlimərdan Topçubaşov, Məmmədəmin Rəsulzadə kimi görkəmli şəxsiyyətlərin nəzəri və siyasi fəaliyyətləri ilə bağlayır. Onun fikrincə, siyasi Azərbaycançılığın nümayəndələri xalqımızın siyasi hüquqlarının müdafiəsini, perspektivdə isə müstəqil dövlət qurulmasını əsas hədəf kimi götürərək bu məqsədi həyata keçirmək üçün bütün mümkün vasitələrdən istifadə edirdilər. Onlar yüksək rütbəli hökumət nümayəndələri ilə görüşür, çara petisiyalar yazır, dövlət dumasının işində fəal iştirak edir, rusiya müsəlmanlarının qurultayını keçirirdilər.

*Siyasi Azərbaycançılığın* nümayəndələrinin Rusiya Dövlət Dumasında fəaliyyətlərini xüsusi qeyd etmək lazımdır. 1905-ci ilin aprel ayında Dumanın Azərbaycan deputatları Ə.Topçubaşovun tərtib etdiyi *"Rusiyanın müsəlman əhalisinin nümayəndələrindən"* adlı petisiyanı Dumaya təqdim etdilər. Petisiyada Rusiya müsəlmanlarının siyasi, iqtisadi və mədəni hüquqlarının qorunması, feodal qalıqlarının aradan qaldırılması tələb olunurdu.

Professor E.Ə.Nəcəfov *siyasi Azərbaycançılıq* ideyasının nümayən-

dələrinin fəaliyyətlərinin ilkin mərhələsində öz ideyalarını tam məzmunda və açıq şəkildə təbliğ edə bilmədiklərini göstərir. Onun fikrincə, bu, o vaxt Azərbaycan xalqının öz kimliyini daha çox dini əsasda müəyyən etməsi ilə bağlı idi. Onların etnik türk kimlikləri qəbul edilmirdi. Siyasi Azərbaycançılıq ideyasının nümayəndələri panislamizmi Azərbaycan xalqının qarçısında duran ən böyük maneə hesab edirdilər. Bu haqda Məmmədəmin Rəsulzadə yazırdı: "*Tarixi təcrübə göstərir ki, panislamizm bir tərəfdən, teokratik və klerikal-mürtəce hərakatın formalaşmasına səbəb olmaqla, digər tərəfdən isə müsəlman dünyasında milli ideologiyanın formalaşmasına mane olmaqla, müsəlman xalqlarının müstəqilliyinə əngəl yaradır*".

O zamankı Azərbaycançılıq ideyasının nəzəri əsasını Əlibəy Hüseynzadə tərəfindən 1905-ci ildə "Həyat" jurnalında irəli sürülən – "Türkləşmək, islamlaşmaq, müasirləşmək" fikri təşkil edirdi. Sonradan bu ideya Azərbaycan Demokratik Cümhuriyyətinin rəsmi doktirinasına çevrildi və öz əksini onun üçrəngli bayrağında tapdı.

Professor E.Ə.Nəcəfov siyasi Azərbaycançılığın tərəfdarlarının 1918-ci ilin əvvəllərinə qədər federalizm mövqeyində dayandıqlarını və Rusiya ilə Azərbaycan arasında münasibətlərin federalizm pirinsipləri əsasında qurulmasına çalışdıqlarını göstərir. Lakin 1918-ci ilin mart hadisələrindən sonra onlar federalizm mövqeyindən imtina edərək Azərbaycançılıq ideyasını Azərbaycanın siyasi müstəqilliyinə yönəltdilər. 1918-1920-ci ilərdə - cəmi 23 ay mövcud olmuş Azərbaycan Demokratik Cümhuriyyəti Azərbaycançılıq ideyasının inkişafında keyfiyyətcə yeni bir məhələ oldu.

Azərbaycan Demokratik Cümhuriyyəti türkçülük, islamçılıq və müasirliyi əsas istiqamət kimi müəyyən etmişdi. Sonrakı yetmiş il ərzində sovet rejimi müstəqillik anlamını hətta düşüncələrdən belə silməyə çalışsa da, XX əsrin 90-cı illərinin xalq hərəkatı göstərdi ki, xalqın azadlıq ruhu nəinki ölməmiş, əksinə daha böyük enerji ilə püskürmək üçün münasib məqam gözləmişdir. Yenidən müstəqilliyimizin əldə edilməsi də məhz bu ruhdan qaynaqlanan iradənin ortaya qoyulmasının nəticəsi idi. Müstəqilliyimizin əbədi olması, taleyin bizə qismət etdiyi coğrafi məkan, strateji mövqe isə ərazimizdə yaşayanların hamısı üçün qəbul oluna biləcək mənəvi-siyasi yönümün müəyyənləşdirilməsini zəruri etdi. *Bu taleyüklü missiyanı yerinə yetirən isə Azərbaycan xalqının görkəmli oğlu, Ümummilli lider Heydər Əliyev oldu. O, milli ideologiyanın komponentlərini*

*özündə sintez edən Azərbaycançılıq məfkurəsini irəli sürdü.* Bu xətt, bir tərəfdən, Azərbaycanda vahid milli-dövlətçilik hissiyyatının formalaşmasını, milli-mənəvi dəyərləri, etnik-milli yetkinləşmə və bütövləşməni özündə əks etdirirsə, digər tərəfdən, milli kimliyindən, dini mənsubiyyətindən və dilindən asılı olmayaraq ölkəmizin hər bir vətəndaşının hüquq və azadlıqlarının təmin olunmasını, onların öz mənəvi-mədəni dəyərlərini qoruyub saxlaması və inkişaf etdirməsi üçün lazımi şəraitin yaradılmasını nəzərdə tutur.

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin məcmusunu, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində Azəbaycan dövlətinin qarşısında duran vəzifələri, onların Azərbaycan Respublikasına münasibətdə üzərinə düşən öhdəlikləri, azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiya kimi nəzərdə tutulur. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, *"Suverenliyimizi daim yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq bu gün hər bir azərbaycanlıdan müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur".*

Torpağımız ta qədimdən ən müxtəlif xalqların və mədəniyyətlərin vətəni olmuşdur. Azərbaycan dövlətinə, dövlətçiliyinə, ərazi bütovlüyünə və tarixinə onların sadiqliyi bütün dünya üçün açıq olan mənəvi-mədəni dəyərlərimizin mahiyyətindən irəli gəlır. Azərbaycanın və *"Azərbaycançılığın"* əzəməti bu müqəddəs diyarı öz vətəni hesab edən və onun adı ilə adlanmaqdan qürur duyan bütün insanların maddi və mənəvi gücündə, qüdrətindədir. Bu səbəbdən də "Azərbaycançılığ"ın ortaq dəyər və sərvətlərə dayaqlanaraq doğuracağı potensialın təsir və miqyasını az-çox təsəvvür edəndə, yalnız xoş məram və niyyətlə sevinənlər deyil, narahatlıq hissi keçirənlər də həmişə olmuşdur.

12 iyul 2008-ci ildə Bibiheybət ziyarətgah kompleksinin təmirdən sonrakı açılışında Prezident İlham Əliyev bu məsələyə öz münasibətini aşağıdakı kimi bildirmişdir: *«...çox şadam ki, Azərbaycan cəmiyyətində ümummilli ideya ətrafında bütün cəmiyyət səfərbər olunub, cəmiyyət Azərbaycançılıq ideyası uğrunda, dövlətçilik ideyası uğrunda, müstəqillik ideyası uğrunda və müstəqil həyat ideyası uğrunda birləşibdir».*

Yalnız ərazimizdə yaşayan müxtəlif etnik və dini mənsubiyyətli insanlara ünvanlanmaqla kifayətlənməyib, coğrafi sərhəd və məkanların ayırdığı dünyanın

müxtəlif ölkələrində yaşayan soydaşlarımızı da bizimlə bir ideya-fəlsəfi, mədəni məkanda bütövləşdirən qüvvə də məhz "Azərbaycançılıq" ideologiyasıdır. "Azərbaycançılıq" cəmiyyətimizin sosial-mədəni və siyasi nizamlanmasının, insanların mənəvi səfərbərliyi və vəhdətinin başlıca amilidir.

Qloballaşmanın müasir mərhələsində yuxarıda qeyd etdiklərimizin məntiqi davamı kimi, Azərbaycançılıq məfkurəsi ölkəmizdə tarixən bərqərar olmuş multikulturalizmi nəinki inkar etmir, əksinə onu öz daxili məzmununun, bu məzmunun elementlərinin tərkib hissəsi kimi götürür. Bu baxımdan Azərbaycan multikulturalizmi Azərbaycançılıq məfkurəsinin təməl daşları olan dövlətçilik, milli-mənəvi dəyərlər, müasirlik və milli mentalitetimizə hopmuşdur.

## Fəslə aid suallar

1. Etnik birlik nədir?
2. Protoetnoslar deyəndə nə başa düşülür?
3. Qəbilə  və tayfanı fərqləndirən cəhətlər hansılardır?
4. Millət anlayışını insanların digər birlik formalarından fərqləndirən cəhətlər hansılardır?
5. Kimliklər haqqında araşdırmaların hansı istiqamətləri vardır?
6. Böyük etnos, kiçik etnos anlayışlarının məzmununu açın.
7. Tarixçi, etnoqraf alim L.N.Qumilyov etnosları necə xarakterizə edirdi?
8. Etnik kimlik, milli kimlik və milli müəyyənlik anlayışlarının məzmununa nələr daxildir?
9. Milli kimliyimizin qəbul olunması və tanınması hansı görkəmli xadimlərimizin adı ilə bağlıdır?
10. Azərbaycan Respublikasında yaşayan azsaylı xalqların ikihədli etnik-milli kimliyi deyəndə nə başa düşülür?
11. Etnosların təsnifləşdirilməsi hansı əlamətlərə görə aparılır?
12. Mentalitet anlamına hansı yanaşmalar vardır?
13. Mentalitet nədir?
14. Milli-etnik dəyərlər deyəndə nə başa düşülür?
15. Şərq və Qərb mentalitetinin səciyyəvi xüsusiyyətləri hansılardır?
16. Azərbaycan xalqının mentalitetinin səciyyəvi xüsusiyyətləri hansılardır?
17. Milli mentalitetin formalaşmasına təsir edən əsas amillər hansılardır?
18. Əcnəbi mütəfəkkirlər azərbaycanlıların xarakterik xüsusiyyətləri haqqında nə demişlər?
19. Arxetip nədir?
20. Azərbaycan xalqının milli mentalitetinə hansı arxetiplər xarakterikdir?
21. İdeya, ideologiya, milli şüur anlayışlarının mahiyyətini açın.
22. Milli ideya və milli ideologiya anlayışlarının məzmununa nələr daxildir?
23. Akademik R.Mehdiyevin əsərlərində milli ideya və milli ideologiya problemi necə izah edilir?
24. Milli ideologiya nədir?
25. Ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülən Azərbaycançılıq idelogiyasının məzmununa nələr daxildir?
25. Azərbaycançılıq ideologiyasının formalaşmasının hansı mərhələləri vardır?

# Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1995, http://www.e-qanun.az/framework/897
2. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: «Azərbaycan Universiteti» nəşriyyatı, 1997. s.136
3. BMT-nin sivilizasiyalar alyansının 7-ci qlobal Bakı forumunda İlham Əliyevin nitqi. Respublika Qəzeti 27 aprel 2016-cı il.
4. Bibiheybət ziyarətgah kompleksinin açılış mərasimində İlham Əliyevin nitqi. http://www.anl.az/down/medeniyyet2008/iyul/medeniyyet2008_iyul_122.htm
5. Mehriban Əliyevanın Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun ikinci plenar iclasında çıxışı. Respublika Qəzeti 28 aprel 2016.
6. Mehriban Əliyevanın aprelin 8-də Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda **çıxışı.** Xalq qezeti, 11 Aprel, 2011
7. Azərbaycan tarixinin alman səhifələri. http://news.milli.az/society/376732.html
8. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. (AMEA-nın həqiqi üzvü K.M.Abdullayevin və prof. E.Ə.Nəcəfovun redaktəsi ilə), Bakı, 2017, ss.40-47.
9. İsmayılov D. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial demokratiya. Bakı, «Adiloğlu», 2005. s. 344
10. Mehdiyev R. Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsidir, «Azərbaycan» qəz., Bakı, 9 noyabr 2007, №252.
11. Mehdiyev R. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi, «Azərbaycan» qəz., Bakı, 12 may 2011.
12. Nəcəfov E.Ə. Multikulturalizmin mahiyyətinə dair. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N3 (51), 2015, s.103-112
13. Абушенко В.Л. Идентичность. Социология: Энциклопедия. Сост. А.А. Грицанов, В.Л. Абушенко, Г.М. Евелькин, Г.Н. Соколова, О.В. Терещенко. Минск, Книжный дом, 2003. с. 344-349. 1312 с.
14. Аттали Ж. Карл Маркс. Мировой дух. Москва, 2008. С. 192

15. Барбашин М.Ю. Институты и этногенез: институциональное воспроизводство этнической идентичности в новых локальных сообществах. Монография. Москв, ИПОПИ ЮФУ. - 2013. - С. 356
16. Белова О. Народы. Славянские древности: Энциклопедический словарь: в 5 томах. Под общ.ред. Н. И. Толстого; Институт славяноведения РАН. - Москва, Международные отношения, 2004. - Т. 3:, с. 367-370
17. Герасимов О.В. Феномен исторической памяти. Вестник УРАО. 2013. № 5 (68). с. 133-137
18. Гиндер (Данилова) В.Е. Проблема определения понятий «этнос» и «нация» в зарубежной и отечественной литературе. Проблемы социальной и административной консолидации Байкальской Сибири. Мат. Всероссийской научно-теоретической конференции. Часть I. Иркутск: Оттиск, 2008. с. 228-235; 380
19. Гринин Л.Е. Глобализация и национальный суверенитет. Историяи современность. № 1. Москва, - 2005. С. 6-31
20. Гумилев Л. Большая российская энциклопедия. Т. 8. Москва, 2007. с. 155
21. Исмаилов А. Не «национальная идеология», а национальная идея (электронный ресурс) // http://www.lnews.az/analytics.
22. Ковалева А.И. Новый взгляд на явление идентичности // Знание. Понимание. Умение. Москва, 2013. № 3. с. 322
23. Кон И.С. Этноцентризм. Философский энциклопедический словарь. Гл. ред: Л.Ф. Ильичев, П.Н. Федосеев, С.М. Ковалев, В.Г. Панов. Москва, Советская энциклопедия, 1983. с. 812. 840 с.
24. Коротаев А.В. «Апология трайбализма»: Племя как начальная форма социально-политических организаций в сложных непервобытных обществах. Социологический журнал. Москва, 1995. № 4. С. 68-86.
25. Крылов А.Н. Религиозная идентичность. Личное и ндвидуальное и коллективное самосознание в новом постиндустриальном пространстве. 3-е издание дополн. и перераб. – М:, Издательство ИКАР, 2014. С. 223, 273-274.-356 с.
26. Мехтиев Р.Э. Национальная идея Азербайджана в эпоху глобальных трансформаций. В 2 кн. Книга II. – М.: Политическая энциклопедия, 2017, 365 с.

27. Мехтиев Р.Э. О пользе познания истории в формировании национальной идеи. В 2 кн. Книга I. – М.: Столица, 2017, 684 с.
28. Наджафов Э.А. Соотношение культуры и цивилизации в общественном развитии, Баку, 2000
29. Нусупов Ч. Национальная идеология, государство и гражданское общество, Бишкек: 2001, 122 с. (элект. ресурс) http://www.centrasia.ru
30. Русская идея. Сб.: Русская идея. Москва, Республика. 1992. С.187
31. Тавадов Г.Т. Этнология. Современный словарь-справочник. Москва, 2011, с. 150
32. Филюшкина С. Национальный стереотип в массовом сознании и литературе. Логос. - 2005. - № 4 (49) с. 142
33. Фишман Роман. Лингвистический гомункул.популяарная механика.- Москва, 2017. - № 5.- с. 78-82
34. Хантингтон С. Кто мы? Новые вызовы современной американской национальной идентичности. Москва: АСИ, 2004. С. 558
35. Herlihy D.The Economy of Traditional Europe. The Journal of Economic History, 1971, Vol 31, No.1, p. 169
36. Khodker, Habibul Haque/ 2004. Glocalization as Globalization: Evolution of a Sociological Concept, Bangladesh e-Journal of Sosiology 1 (2): p. 12-20
37. Najafov E.A. The national liberation movement in the contemporary Azerbaijan: essence, causes and peculiarities. Sosial bilgilər, 2000, №2, с. 84-91
38. The Cambridge Economic History of Europe, Cambridge, 1989, Vol. VIII, pp 1, 90-91
39. Wallerstein I. The Modern World-System. Capitalist Agriculture and the Origins of the European World-Economy in the Sixteenth Century. New York, 1974, p. 18-80

# IV BÖLMƏ

# MULTİKULTURALİZM

# VII FƏSİL

# MULTİKULTURALİZM ETNİK-MƏDƏNİ MÜXTƏLİFLİYİN TƏNZİMLƏNMƏSİNİN SƏMƏRƏLİ SİYASƏT MODELİ KİMİ

## 7.1. Etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə münasibətdə mümkün siyasət modelləri: assimilyasiya, izolyasiya, aparteid və multikulturalizm

Dərslyin I fəslində qeyd olunduğu kimi, tarixi, coğrafi, siyasi, sosial-iqtisadi, hərbi və digər faktorların təsiri altında formalaşan etnik, irqi, dini və mədəni müxtəlifliklər xalqların etnik-mədəni dəyərlərini, ümumiyyətlə mədəniyyətlərini xarakterizə etməklə, onların dünyagörüşünün və fəaliyyətlərinin əsasını təşkil etməklə həyatlarında müsbət rol oynayır. Lakin bu müxtəlifliklər dövlət tərəfindən düzgün tənzimlənməlidir, əks halda cəmiyyətin inkişafının müxtəlif sahələrində ciddi problemlər, hətta münaqişələr yaranır.

Biz həmçinin qeyd etdik ki, multikulturalizm bir siyasət modeli kimi cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərə münasibətdə dövlətin apardığı konkret siyasəti xarakterizə edir. Bu siyasətin əsasında isə cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması durur. Bir siyasət modeli kimi multikulturalizm ötən əsrin 60-cı illərində Kanadada meydana gəlmişdir. Multikulturalizm siyasətinin meydana gəlməsindən əvvəl etnik, irqi, dini və mədəni müxtəlifliklərlə üzləşən dövlətlər bu müxtəliflikləri əsasən iki siyasət modeli vasitəsilə tənzimləməyə çalışırdılar: assimilyasiya və izolyasiya.

*Assimilyasiya siyasəti* milli azlıqların etnik-mədəni dəyərlərini titul (əsas) etnosun mədəniyyətinə qatmaqla cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin ləğv edilməsini nəzərdə tutur. İzolyasiya siyasəti isə milli azlıqların etnik-mədəni dəyərlərinin titul etnosun etnik-mədəni dəyərləri ilə hər hansı bir əlaqəsinin qarşısını almaqla milli azlıqların cəmiyyətə inteqrasiya olmalarına imkan vermir.

*İzolyasiya* siyasəti 2 formada özünü büruzə verir:

a. O, milli azlıqların ölkəyə daxil olub orada məskunlaşmasına mane olur;

b. Cəmiyyətdə artıq məskunlaşmış müəyyən qrup adamların assimilyasına mane olmaq məqsədilə onları təcrid edir.

İkinci halda bu siyasət *aparteid* adlanır.

*Aparteid* (afrikaans dilindən tərcümədə "ayrılıq", "ayrılıqda yaşamaq" mənasını verir) Cənubi Afrika Respublikasında 1948-1994-ci illərdə tətbiq olunan siyasətdir. Aparteid siyasəti qeyd olunan dövr ərzində hakimiyyətdə olan Milli partiya tərəfindən aparılırdı. Bu siyasətin əsasını irqi ayrı-seçkilik təşkil edirdi. Aparteid siyasəti ölkə əhalisini 4 irqi qrupa bölürdü: "qaralar", "ağlar", "rənglilər" və "hindlilər" . 1960-1983-cü illər ərzində 3,5 milyon qeyri-ağ əhali yaşadıqları yerlərdən xüsusi zonalara (rezervasiyalara) köçürüldü. 1970-ci ildə ölkənin qeyri-ağ əhalisi siyasi təmsilçilikdən məhrum olundu. Onların vətəndaş hüquqları xeyli məhdudlaşdırıldı. Hakimiyyətdə olan irqçilər ayrı-seçkiliyi həyatın bütün sahələrində tətbiq edirdilər. Qeyri-ağ əhali üçün təhsil, səhiyyə, digər xidmət sahələri ayrılıqda fəaliyyət göstərirdi. Məlum olduğu kimi, Cənubi Afrika Respublikasında aparteid sistemi bu ölkənin ilk qaradərili prezidenti, Nobel Sülh mükafatı laureatı Nelson Mandelanın rəhbərliyi altında 1994-cü ildə demokratik qüvvələrin ümumi seçkilərdə qələbəsindən sonra ləğv edildi.




*Ağ əhali üçün taksi. Aparteid siyasəti. Cənubi Afrika Respublikası.*

Tarixi hadisələrin sonrakı gedişatı etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə yönələn bu iki siyasət modelinin səmərəsizliyini göstərdi. Belə ki, xalqların dünyagörüşünün və fəaliyyətlərinin əsasını təşkil etməklə həyatlarında müsbət rol oynayan etnik-mədəni dəyərlərin rolunun artdığı bir dövrdə assimilyasiya siyasətinin düzgün olmadığı kimi, qloballaşma, mədəniyyətlərin qovuşduğu bir şəraitdə izolyasiya siyasətinin də yanlış olduğu müəyyən olundu. Etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönəlmiş assimilyasiya və izolyasiya siyasətlərinin iflasa uğraması ötən əsrin 60-70-ci illərində əvvəlcə Kanadada, sonra isə Avropanın bir sıra çoxmədəniyyətli ölkələrində multikulturalizm siyasətinin meydana gəlməsinin başlıca səbəblərindən biri olmuşdur.

Artıq qeyd olunduğu kimi, multikulturalizm siyasətinin əsasında cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması durur. Multikulturalizm etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönələn bir siyasət kimi assimilyasiya siyasətindən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərlərinin ləğv edilməsinin qarşısını almaqla, bu dəyərləri qorumaqla yanaşı, izolyasiya siyasətindən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərləri ilə titul etnosun etnik-mədəni dəyərlərinin bir-birinə qarşılıqlı təsir etmələri üçün lazımi şərait yaradır və milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiya olmaları üçün əlverişli imkan təklif edir.

## *Multikulturalizmin zəif və güclü formaları*

Cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunmasına istiqamətlənən multikulturalizm siyasəti müxtəlif formalarda həyata keçirilə bilər. Bununla bağlı bu siyasətin 2 əsas formasını göstərmək lazımdır: zəif və güclü forma*larını*. Multikulturalizmin bu formaları arasında mühüm fərqli cəhətlər vardır.

Multikulturalizmin *zəif forması* etnik-milli azlıqlara öz etnik-mədəni dəyərlərini qorumaq üçün imkan yaradır. Lakin azlıqlar öz imkanları ilə etnik-mədəni dəyərlərini qorumaq iqtidarında olmadıqlarına görə yaranmış situasiyada cəmiyyətdəki hakim etnik-mədəni dəyərlərin qəbul edilməsini ən optimal çıxış yolu kimi dəyərləndirirlər. Başqa sözlə desək, onlar elə bir vəziyyətə düşürlər ki, onlara xarici təzyiq olmadan, öz istəkləri ilə titul xalqın etnik-mədəni dəyərlərini

qəbul etmək sərf edir. Öz mədəni kimliyini, etnik-mədəni dəyərlərini qorumaq isə çətin olur. Mövcud vəziyyətdə azlıqların başqa çıxış yolu olmadığına görə, onlar könüllü şəkildə etnik-mədəni dəyərlərini qorumaq fikrindən tamamilə də olmasa müəyyən dərəcədə əl çəkirlər və bununla da yaşadıqları cəmiyyətə *inteqrasiya* olunmağı praktiki cəhətdən daha əlverişli hesab edirlər. Məsələn, multikulturalizmin zəif forması çoxmillətli Sovet İttifaqında müşahidə olunurdu. SSRİ-nin tərkibində olan bütün qeyri-rus ittifaq respublikalarının ərazilərində öz dillərini, ədəbiyyatlarını, mədəniyyətlərini qorumağa və inkişaf etdirməyə geniş imkanları olsa da, onlar daha çox rus xalqının etnik-mədəni dəyərlərini, tarixini öyrənməyə, rus dilində təhsil almağa üstünlük verirdilər. Çünki bu, onlara şəxsi karyeralarını qurmaqda, yaşadıqları cəmiyyətin bütün sahələrində nailiyyətlər əldə etməkdə kömək edirdi.

Müasir dövrdə təxminən oxşar vəziyyət bir çox Qərb ölkələrində (ABŞ, Kanada, Niderland, Böyük Britaniya, Avstriya və b.) müşahidə olunur. Bu ölkələrdə yaşayan milli azlıqların nümayəndələrinə onların etnik-mədəni dəyərlərinə münasibətdə tolerantlıq nümayiş etdirilir. Belə bir münasibətin nəticəsində milli azlıqların nümayəndələrinə yaşadıqları Qərb dövlətlərində öz adət-ənənələrini qorumaq, ana dillərində qəzet və jurnal çıxarmaq, hətta ana dilində məktəb açmaq hüquqları verilmişdir. Professor Çandran Kukatasın qeyd etdiyi kimi, bu dövlətlərdə liberalizmə yaxud liberal dəyərlərə hətta uyğun gəlməyən müxtəlif mədəniyyətlərin yaxud adət-ənənələrin olmasına dözümlülük nümayiş etdirilir. Onun fikrincə, klassik liberal cəmiyyət qeyri-liberal elementləri ehtiva edə bilər. Liberal cəmiyyətlərin milli azlıqların nümayəndələrinə nümayiş etdirdiyi tolerantlıq azlıqların etnik-mədəni dəyərlərini nə assimilyasiya edir, nə də ki, onu təcrid edir. Lakin Qərb dövlətlərində milli azlıqların nümayəndələrinə və onların etnik-mədəni dəyərlərinə münasibətdə bu cür dözümlüyün nümayiş etdirilməsinə baxmayaraq, onlar yaşadıqları cəmiyyətdəki mövcud imkanlardan bəhrələnmək üçün titul etnosun etnik-mədəni dəyərlərini öyrənməklə, onun dilini, müəyyən adət-ənənələrini mənimsəməklə həmin cəmiyyətə inteqrasiya olunmağı daha vacib hesab edirlər. Çünki bu yolla onlar yaşadıqları cəmiyyətin bütün sahələrində fəal iştirak etmək imkanı əldə edirlər. Buna görə də milli azlıqların nümayəndələri bir sıra Qərb dövlətlərində mövcud olan multikulturalizmin zəif formasının yaratdığı imkanlardan könüllü şəkildə imtina edirlər.

Multikulturalizmin zəif formasından fərqli olaraq onun *güclü forması* milli

azlıqlara öz etnik-mədəni dəyərlərini qorumaq üçün azadlıq verməklə yanaşı onların yaşadıqları cəmiyyətin bütün sahələrində fəal iştirak etmələri üçün hər cür şəraitin yaradılmasını tələb edir. Multikulturalizmin güclü forması cəmiyyətdəki etnik-mədəni müxtəlifliyə münasibətdə dözümlülüyün nümayiş etdirilməsi ilə kifayətlənmir. O, bu müxtəlifliyin dövlət tərəfindən qorunmasını və inkişaf etdirilməsini, onun maddi, hüquqi və mənəvi cəhətdən dəstəklənməsini vacib hesab edir. Bununla əlaqədar multikulturalizmin tanınmış tədqiqatçılarından olan kanadalı professor Vil Kimlika göstərir ki, dövlət onun ərazisində yaşayan bütün etnik, dini və irqi qrupların hüquqlarını tanımalı və onların mədəniyyətlərinin qorunması istiqamətində xüsusi proqramlar təklif etməlidir. Onun fikrincə, dövlətin bu müdaxiləsi azlıqların mədəni müstəqilliklərinin saxlanılmasına kömək edəcəkdir. Bununla belə Kimlika hesab edir ki, milli azlıqlar yaşadıqları cəmiyyətin qanunlarına hörmətlə yanaşmalıdırlar.

Beləliklə, müəyyən tarixi dövrlərdə, həmçinin müasir dövrdə də tətbiq olunan assimilyasiya, izolyasiya və izolyasiyanın variantı olan aparteid siyasət modellərindən fərqli olaraq multikulturalizm siyasəti etnik-mədəni müxtəlifliyin və onların əsasını təşkil edən dəyərlərin qorunmasına yönəlmişdir. Bu, multikulturalizm siyasət modelinin digər siyasət modellərindən başlıca üstünlüyüdür. Belə ki, multikulturalizm milli azlıqların etnik-mədəni dəyərlərini nə assimilyasiyaya uğradır, nə də ki, onların bu dəyərlərinin inkişafını cəmiyyətin inkişafından təcrid edir. Multikulturalizm titul etnos ilə milli azlıqların etnik-mədəni dəyərlərinin inkişafına eyni şərait yaratmaqla onların mədəniyyətlərinin qarşılıqlı təsiri üçün zəmin yaradır.

## 7.2. Müasir dövrdə ictimai inkişafda mədəniyyətin aparıcı rolu və multikulturalizm

Əvvəlki yarımfəsildə biz belə bir nəticəyə gəldik ki, cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsində assimilyasiya, izolyasiya və izolyasiyanın variantı olan aparteid siyasət modelləri ilə müqayisədə multikulturalizm siyasəti daha səmərəlidir, çünki o, etnik-mədəni müxtəlifliyin və onun əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasına yönəlmişdir. Tarixi prosesdə

formalaşan, müsbət və obyektiv xarakter daşıyan, insanların dünyagörüşünün və fəaliyyətlərinin məzmununu müəyyən edən və istiqamətləndirən etnik-mədəni müxtəliflik və onun əsasını təşkil edən etnik-mədəni dəyərlər müasir ictimai inkişafda müəyyənedici rol oynayır. Bu isə müasir dövrdə mədəniyyətin ictimai inkişafda aparıcı rol oynamasından irəli gəlir.

Müasir dövrdə mədəniyyətin ictimai inkişafda aparıcı rol oynaması ideyası ictimai inkişafın, xüsusilə də onun səbəb və istiqamətinin, o cümlədən xalqların ölkə daxilində və beynəlxalq münasibətlər sistemində davranışının tədqiq olunmasının ən mühüm metodoloji prinsiplərindən biridir.

Mədəniyyətin ictimai inkişafda aparıcı rol oynaması ideyasını əsaslı şəkildə ilk sübut edənlərdən biri tanınmış alman sosiologu Maks Veber olmuşdur. O, mədəniyyətin dəyərlərini cəmiyyətin sosial-iqtisadi inkişafının mühüm səbəblərindən biri kimi qələmə verirdi. Konkret tarixi faktlara əsaslanaraq, Veber mədəniyyətin dəyərlərinin, xüsusilə müəyyən dinlərdə olan etik dəyərlərinin sosial-iqtisadi inkişafa səbəb olmasını göstərmişdir.

Mədəniyyətin ictimai inkişafda aparıcı rolunun artması müasir ictimai inkişafın xüsusiyyətlərindən irəli gəlir. Bu xüsusiyyətlər isə dünya kommunist sisteminin dağılması və beynəlxalq münasibətlərin yeni sisteminin formalaşması ilə bağlıdır. Məlum olduğu kimi, soyuq müharibə illəri dövründə ideoloji, siyasi, iqtisadi və hərbi sahələrdə bir-birinə düşmən olan iki siyasi sistem – keçmiş Sovet İttifaqının başçılıq etdiyi kommunist sistemi və ABŞ-ın ətrafında birləşən Qərb dünyası – qarşı-qarşıya duranda onların xalqlarını, həmçinin bu sistemlərdən birinə mənsub olan "üçüncü dünya" ölkələrinin xalqlarını ilk növbədə qarşı tərəfdən gələ bilən təhlükə narahat edirdi. Belə olan şəraitdə bu xalqlar arasında əsas fərqli cəhətlər ideoloji, siyasi yaxud iqtisadi xarakter daşıyırdı. Dünya kommunist sisteminin dağılması eyni zamanda bir-birinə zidd olan iki sosial-siyasi sistemdən birinin tarix arenasından getməsinə gətirdi. Nəticədə dünya xalqları öz mədəni köklərinə, daha konkret desək, etnik-mədəni dəyərlərinə müraciət etmək imkanını əldə etdilər. Başqa sözlə desək, dünya kommunist sisteminin dağılması soyuq müharibəyə son qoymaqla bir-birinə zidd olan iki sosial-siyasi sistemin siyasi, hərbi, iqtisadi və ideoloji qarşıdurmasını aradan qaldırdı. Bunun nəticəsində dünya xalqları öz etnik-mədəni dəyərlərinə müraciət etmək imkanını əldə etdilər. Post-kommunist dövrdə tarixinə, dininə, dilinə, ümumiyyətlə etnik- mədəni dəyərlərinə müraciət edən xalqlar öz kimliyini

müəyyən edirlər. Bu dəyərlər xalqlar arasında olan əsas fərqləri təşkil edir. Bununla əlaqədar Samuil Hantinqton "Sivilizasiyaların toqquşması və dünya düzəninin yenidən qurulması" adlı kitabında qeyd edir: *"Yeni dünyada xalqlar arasında əsas fərqlər ideoloji, siyasi, iqtisadi deyil, mədəni xarakter daşıyır"*. Müasir dövrdə xalqlar öz tarixlərinə, dinlərinə, etnik-mədəni dəyərlərinə müraciət edərək kimlikləri müəyyən edirlər.

Müasir Qərb ədəbiyyatında Samuil Hantinqton, Ronald İnqleqard, Frensis Fukuyama, Zbiqnev Bjejinski, Fərid Zəkəriyyə və başqa müəlliflər ictimai inkişafda mədəniyyətin aparıcı rol oynadığını qeyd edirlər.

Samuil Hantinqton yuxarıda qeyd etdiyimiz kitabında ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması ideyasına əsaslanaraq, müxtəlif ölkələrin sosial-iqtisadi inkişafında əldə etdikləri nailiyyətləri, eləcə də üzləşdikləri çətinlikləri onların mədəniyyətlərinin xüsusiyyətləri ilə izah edir.

Həqiqətən, ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması ideyası müasir ictimai inkişafın, xüsusilə də onun səbəblərinin müəyyən edilməsinin mühüm metodoloji prinsiplərindən biridir.

Beləliklə, ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması müasir dövrdə etnik-mədəni müxtəlifliyin və onun əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasının və inkişafının vacibliyini əsaslandırır. İctimai inkişafda mədəniyyətin aparıcı rol oynaması multikulturalizm siyasətinin düzgün siyasət olduğunu sübut edir. Bunu tarixi hadisələrin gedişatı da sübut etdi. Belə ki, etnik-mədəni müxtəlifliyin dövlət tərəfindən tənzimlənməsi tarixi assimilyasiya və izolyasiya siyasət modellərinin səmərəsizliyini göstərməklə ötən əsrin 60-70-ci illərində multikulturalizm siyasətinin meydana gəlməsinin başlıca səbəblərindən biri olmuşdur.

## 7.3. Tolerantlıq, multikulturalizm və interkulturalizm

Multikulturalizm məfhumunun məzmununu daha da aydın şəkildə müəyyənləşdirmək üçün onu *tolerantlıq və interkulturalizm* məfhumları ilə müqayisə etmək məqsədəuyğundur.

Multikulturalizm məfhumu öz məzmununa görə *tolerantlıq* məfhumuna yaxındır. Daha konkret desək, tolerantlıq multikulturalizm siyasətinin

əsasını təşkil edir. Yuxarıda qeyd etdik ki, müasir dövrdə dünya dövlətlərinin əksəriyyətində etnik, irqi, dini və mədəni müxtəliflikər mövcuddur. Bu müxtəlifliklər etnik-mədəni dəyərlərdə öz əksini tapır. Etnik-mədəni dəyərlərin müəyyən qismi etnik və dini azlıqlara məxsusdur. Multikulturalizm bir siyasət kimi bu azlıqlara və onlara məxsus olan etnik-mədəni dəyərlərə münasibətdə titul xalq tərəfindən dözümlülüyün, yəni tolerantlığın nümayiş etdirilməsini nəzərdə tutur. Lakin multikulturalizm məfhumunun həcmi tolerantlıq məfhumunun həcmi ilə məhdudlaşmır. Onun həcmi daha genişdir. *Eyler dairəsi* vasitəsilə bu iki məfhumun münasibəti aşağıdakı şəkildə təsvir olunmuşdur.

A-multikulturalizm
B- tolerantlıq




Multikulturalizm etnik və dini azlıqlara münasibətdə tolerantlıqla yanaşı onlara və onların etnik-mədəni dəyərlərinə *hörmətlə* yanaşmanı da ehtiva edir. Bunanla əlaqədar tanınmış britaniyalı tədqiqatçı Bhixu Parex qeyd edir ki, multikulturalizm şəraitində etnik və dini azlıqların tanınması tələbi tolerantlığı aşaraq cəmiyyətdə mövcud olan müxtəlifliklləri qəbul etməyi, onlara *hörmətlə* yanaşmanı və hətta onları təsdiq etməyi nəzərdə tutur.

*Multikulturalizm və interkulturalizm* məfhumlarına gəldikdə isə qeyd etmək lazımdır ki, bəzən ədəbiyyatda bu məfhumları bir-biri ilə qarışdırırlar, hətta onları səhvən eyniləşdirirlər. Lakin bu, düzgün deyil. Çünki multikulturalizm və interkulturalizm məfhumları arasında müəyyən fərqli cəhətlər vardır.

Etnik-mədəni müxtəlifliyin daşıyıcılarının birgəyaşayışını, onlar arasında tolerantlığın, hətta qarşılıqlı hörmətin inkişaf etdirilməsini nəzərdə tutan multikulturalizm siyasəti bu müxtəlifliyi bəzən qabartmaqla, mütləqləşdirməklə cəmiyyətdə sosial fraqmentasiya, dezinteqrasiya hallarının yaranmasına səbəb olur. Belə hallar xüsusilə müasir liberal demokratiya ölkələrində baş verir.

Məlum olduğu kimi, multikulturalizm siyasətinin həyata keçirilməsində, onun prinsiplərinə riayət olunmasında bütün ölkələrdə dövlət aparıcı rol

oynayır. Multikulturalizm siyasətindən imtina etmiş bir neçə liberal demokratiya ölkələrinin təcrübəsi göstərir ki, cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklər müasir liberalizmin prinsiplərinə əsasən tənzimləndikdə, yəni dövlət milli azlıqların etnik-mədəni dəyərlərinin qorunmasına və inkişaf etdirilməsinə münasibətdə həddindən artıq səy göstərdikdə, bu işdə onlara tam azadlıq verdikdə, digər tərəfdən isə onların yaşadıqları cəmiyyətə inteqrasiyası olunmaları istiqamətində lazımi tədbirlər görmədikdə, milli azlıqlar cəmiyyətdə titul xalqın geniş yayılmış etnik-mədəni dəyərlərindən, müəyyən olunmuş etik-davranış normalarından təcrid olunaraq, hətta bəzən bu dəyərlərə və normalara qarşı müqavimət göstərərək öz etnik-mədəni dəyərlərinə sığınırlar. Belə olan şəraitdə cəmiyyətdə dezinteqrasiya prosesləri baş verir. Cəmiyyət müxtəlif etnik, dini icmalara bölünür. Bu icmalar arasında dialoq və əməkdaşlıq əlaqələri zəif olur.

Liberal demokratiya ölkələri üçün xarakterik olan bu problemi həmin ölkələrin bir neçə dövlət başçısı (Böyük Britaniyanın sabiq Baş naziri Devid Kameron, Fransanın sabiq Prezidenti Nikola Sarkozi, Almaniyanın kansleri Anqela Merkel) qeyd edərək multikulturalizm siyasətinin müasir dövrdə səmərəsiz olması səbəbindən iflasa uğradığını rəsmi olaraq artıq bəyan etmişlər. Onlar bu siyasətin səmərəsizliyini ölkələrində məskunlaşmış etnik və dini azlıqların cəmiyyətə inteqrasiya olunmaq istəmədikləri ilə əsaslandırırdılar. Bu dövlətlərin ümumi mövqeyini 5 fevral 2011-ci ildə 47-ci Münxen Təhlükəsizlik Konfransdakı çıxışında Böyük Britaniyanın sabiq Baş naziri Devid Kameron belə ifadə etmişdir: *“Dövlət multikulturalizmi”* doktrinası müxtəlif mədəniyyətləri öz adət-ənənələri ilə yaşamalarına dəstək verməklə cəmiyyətdə inteqrasiya proseslərinin qarşısını alır. Bunun nəticəsində müxtəlif icmalar, xüsusilə də, müsəlman icması cəmiyyətdəki liberal dəyərləri inkar edərək demokratik cəmiyyətimizin dəyərlərinə zidd olan dəyərləri təbliğ edirlər. *Bu* isə dini ekstremizmin baş qaldırması üçün şərait yaradır”.

Həqiqətən, Qərb ölkələrində “Dövlət multikulturalizmi” doktrinasının aparılması cəmiyyətdə bəzi icmaların, xüsusən müsəlman icmasının özünə qapanması üçün şərait yaradır. Nəticədə müsəlman icmasının nümayəndələri öz adət-ənənələrinə, etnik-mədəni dəyərlərinə sığınaraq yaşadıqları cəmiyyətə inteqrasiya olmurlar, buradakı liberal dəyərlərə müqavimət göstərirlər. Hətta onlardan bəziləri dövlət dilini belə öyrənmirlər. Kameron baş nazir olduğu dövrdə ingilis dilinin miqrantlar tərəfindən məcburi öyrənilməsi ilə bağlı kəskin

şəkildə bir tələb qoyaraq bunları söyləmişdir: "Britaniyada yaşadığı iki il yarım ərzində ingilis dilini öyrənməyən miqrant ölkədən deportasiya olunacaqdır".

Qərb ölkələrində müşahidə olunan dezinteqrasiya proseslərinin səbəbləri multikulturalizmlə əlaqələndirilərək bu siyasətin səmərəsizliyi haqqında fikir yayıldı. Əslində isə bu ölkələrdə müşahidə olunan dezinteqrasiya proseslərinin səbəbləri multikulturalizm siyasəti ilə yox, bu siyasəti liberal demokratiya prinsipləri əsasında aparan dövlətlər ilə bağlı idi. Multikulturalizmi cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin bir siyasət modeli kimi uğurla həyata keçirən dövlətlərin, o cümlədən Azərbaycan Respublikasının təcrübəsi göstərir ki, bu siyasəti həyata keçirərkən dövlət ilk növbədə ölkənin milli maraqlarını əsas götürməli, onu ölkənin suverenliyinin, ərazi bütövlüyünün qorunmasına, demokratik inkişaf yoluna və milli təhlükəsizliyinin təmin edilməsinə yönəltməlidir.

Multikulturalizm siyasətinin düzgün aparılmaması nəticəsində cəmiyyətdə yaranan sosial fraqmentasiya, dezinteqrasiya hallarının qarşısını almaq üçün etnik, irqi, dini və mədəni qrupların nümayəndələri arasında dialoq və əməkdaşlıq münasibətləri inkişaf etdirilməlidir. Bu isə interkulturalizmlə bağlıdır.

İnterkulturalizm termini iki sözün birləşməsindən əmələ gəlmişdir- "inter" və "kultura" *(latın dilindən tərcümədə "mədəniyyətlərarası" deməkdir)*. Bu terminin etimologiyasına uyğun olaraq, interkulturalizm daha çox icmalararası, qruplararası dialoqa və əməkdaşlığa əsaslanan münasibətlərin inkişaf etdirilməsini qarşısında məqsəd kimi qoyur.

Əgər multikulturalizm etnik-mədəni müxtəlifliyin tanınmasına və qorunmasına yönəlmişdirsə, interkulturalizm bu müxtəlifliyi tanımaqla və qorumaqla yanaşı onlar arasında dialoq və əməkdaşlığın inkişafına böyük önəm verir. Qruplar arasında yaradılan dialoq və əməkdaşlıq münasibətlərinin effektivliyinin əsas şərtlərindən biri bu münasibətlərin bərabərhüquqlu olmasıdır. İnterkulturalizm etnik-mədəni müxtəlifliyi tanımaqla və qorumaqla onun mütləqləşdirilməsinə imkan vermir. O, bu müxtəlifliyin daşıyıcıları arasında dialoq və əməkdaşlıq münasibətlərini yaradır və inkişaf etdirir. Qruplararası dialoq və əməkdaşlığın yaradılmasının əsas nəticələrindən biri titul xalq və milli azlıqların etnik-mədəni dəyərlərinin qovuşması əsasında ümumi dəyərlərin, ümumi mədəniyyətin formalaşmasıdır. Bu isə öz növbəsində çoxmədəniyyətli cəmiyyətdə inteqrasiya proseslərini gücləndirir.

Bununla belə titul xalq və milli azlıqların etnik-mədəni dəyərlərinin birləşməsindən formalaşan ümumi dəyərlər, ümumi mədəniyyət cəmiyyətdəki etnik-mədəni müxtəlifliyi ləğv etmir. İnterkulturalizm multikulturalizmə əsaslandığı səbəbindən etnik-mədəni müxtəliflik, azlıqların etnik-mədəni dəyərləri qorunub saxlanılır. Bundan başqa bu müxtəliflik və dəyərlər arasında dialoq vasitəsilə birlik yaranır. Yaranmış vəziyyəti "müxtəliflikdə birlik" adlandırmaq olar.

Məlum olduğu kimi, müxtəliflikdə birlik konsepsiyası həm eyniliksiz, oxşarlıqsız birlik, həm də parçalanma olmayan müxtəliflik deməkdir. Müxtəliflikdə birliyi təcəssüm edən cəmiyyət və ya interkultural cəmiyyət etnik-mədəni müxtəlifliyə münasibətdə nümayiş olunan dözümsüzlüklə, bu müxtəlifliyi tanımaqla və qorumaqla məhdudlaşmır. O, etnik-mədəni müxtəlifliyin qorunmasına inkişafın mühüm səbəblərindən biri kimi yanaşaraq onların bir-birilə qovuşmasına, birləşməsinə şərait yaradır. Müxtəlifliklərin birləşməsi isə öz növbəsində onlar arasında qarşıdurma təhlükəsini aradan qaldırır və ümumilikdə cəmiyyətin zənginləşməsinə səbəb olur.

Böyük Britaniya və digər liberal demokratiya ölkələrində etnik və dini azlıqlar üçün dövlət tərəfindən yaradılan şərait onların özünə qapanmasına, cəmiyyətdən təcrid olmalarına, ona inteqrasiya olmaq istəməmələrinə gətirir. Belə şərait həm hakim dairələrin, həm də azlıqların nümayəndələrinin maraqlarına ziddir. Belə ki, cəmiyyətdə inteqrasiya proseslərinin olmaması orada parçalanma proseslərini inkişaf etdirir və mədəniyyətlərarası, dinlərarası qarşıdurmaya səbəb olur.

Etnik-mədəni müxtəlifliklər, etnik-mədəni dəyərlər bir-birilə qovuşduqda, yaxınlaşdıqda, dialoqa girdikdə mədəniyyətlərarası, dinlərarası dialoqun, əməkdaşlığın, ümumiyyətlə cəmiyyətin inkişafına səbəb olur. Əks halda, yəni bu müxtəlifliklər, dəyərlər mütləqləşdirildikdə, bir-birinə qarşı qoyulduqda qarşıdurmaya, münaqişəyə səbəb olur. İnterkulturalizmin əsas müsbət cəhətlərindən biri odur ki, o, etnik-mədəni müxtəlifliyin pozitiv potensialını üzə çıxarır, neqatıv potensialının isə reallaşmasına imkan vermir. İnterkulturalizmin qeyd olunan müsbət cəhətinin reallaşdırılmasının əsas şərti onun multikulturalizmə əsaslanmasıdır. Cəmiyyətdəki etnik-mədəni müxtəliflik tanınmadıqda, qorunmadıqda onlar arasında dialoq və əməkdaşlıq münasibətlərinin yaradılması mümkün olmur. Bu isə öz növbəsində istər ölkədaxili müstəvidə, istərsə də

beynəlxalq müstəvidə dinlərarası, mədəniyyətlərarası dialoqun və əməkdaşlığın inkişafının qarşısını alaraq etnik və dini zəmində qarşıdurmaya səbəb olur.

Beləliklə, öz həcminə görə interkulturalizm məfhumu multikulturalizm məfhumundan genişdir. Tolerantlıq multikulturalizmin əsasını təşkil etdiyi kimi, multikulturalizm də interkulturalizmin əsasını təşkil edir. Eyler dairəsi ilə tolerantlıq, multikulturalizm və interkulturalizm məfhumlarının bir-birilə münasibətləri aşağıdakı şəkildə təsvir olunmuşdur.

A- multikulturalizm
B- tolerantlıq
C-interkulturalizm.



## Fəslə aid suallar

1. Etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə münasibətdə assimilyasiya siyasəti nədir?
2. Etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə münasibətdə izolyasiya siyasəti nədir?
3. Etnik-mədəni müxtəlifliyin tənzimlənməsində izolyasiya siyasəti ilə aparteid siyasətinin oxşar və fərqli cəhətləri nədir?
4. Multikulturalizmin zəif və güclü formaları nədir?
5. Multikulturalizmin etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin digər siyasət modellərindən başlıca üstünlüyü nədən ibarətdir?
6. Müasir dövrdə mədəniyyətin ictimai inkişafda aparıcı rol oynaması nə ilə izah olunur?
7. Hansı halda multikulturalizm siyasəti cəmiyyətdə dezinteqrasiya proseslərinin yaranmasına səbəb olur?
8. Müasir dövrdə bəzi Qərb ölkələrinin dövlət başçıları multikulturalizm siyasətini niyə səmərəsiz hesab edirlər?
9. Qərb ölkələrindəki etnik, dini icmaların aralarında müşahidə olunan dezinteqrasiya proseslərinin səbəblərini multikulturalizmlə əlaqələndirmək düzgündür? Niyə?
10. İnterkulturalizm nədir?
11. Niyə tolerantlıq multikulturalizmin əsasını təşkil edir?
12. Niyə multikulturalizm interkulturalizmin əsasını təşkil edir?
13. Multikulturalizm və interkulturalizmin oxşar və fərqli cəhətləri hansılardır?
14. “Müxtəliflikdə birlik” nədir?
15. Cəmiyyətdəki etnik-mədəni müxtəliflik tanınmadıqda, qorunmadıqda xalqlar arasında dialoq və əməkdaşlıq münasibətlərinin yaradılması mümkündür? Niyə?

# Ədəbiyyat


1. İlham Əliyev, Prezident İlham Əliyev noyabrın 28-də Ümumrusiya Dövlət Teleradio Verilişləri Yayım Şirkətinin "Rossiya-24" informasiya telekanalına müsahibə verib. https://president.az/articles/13559
2. İlham Əliyev. Prezident İlham Əliyev IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışında iştirak edib. 5 may 2017-ci il. http://azertag.az/xeber/1057274
3. Cameron D., My war on multiculturalism // The Independent. February 5, 2011
4. Dupont, Alan. "Is There An 'Asian Way'?". *Survival, The IISS Quarterly.* Vol. 38/ No. 2, Summer 1996, pp. 13-33
5. Huntington, Samuel. The clash of civilizations and the remaking of world order. New York, Simon and Schuster, 1996
6. Huntington, Samuel. 'After 20 Years: The Future of the Third Wave', *Journal of Democracy*, Vol 7, No 2, 1996, p.9
7. Kukathas C. Theoretical Foundations of Multiculturalism http://econfaculty. gmu. edu/pboettke/workshop/fall04/theoretical_foundations.pdf
8. Kymlicka W., Multiculturalism as Fairness, Journal of Political Philosophy 5 (4) 1997, pp.406-427
9. Nəcəfov E.Ə. Azərbaycan Respublikasının multikulturalizm siyasətinin onun xarici siyasətinə təsiri. Strateji təhlil. Azərbaycan Respublikasının daxili və xarici siyasətinə, beynəlxalq münasibətlərə dair analitik jurnal. Say 1-2 (15-16), 2016, ss.35-43
10. Nəcəfov E.Ə. Multikulturalizmin mahiyyətinə dair. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N3 (51), 2015, s.103-112
11. Nəcəfov E.Ə. İctimai inkişafda mədəniyyətin aparıcı rolu və multikulturalizm siyasəti. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N4 (56), 2016, s.88-93
12. Parekh B. Rethinking Multiculturalism: Cultural Diversity and Political Theory (London: Macmillan, 2000), pp.142-178
13. Weber, Max. The Protestant Ethic and the Spirit of Capitalism, New York, Charles Scribner's sons, 1958, 324 p.
14. Zakaria, Fareed. "Culture is Destiny – A Conversation with Lee Kuan Yew". *Foreign Affairs* (Mar/Apr 1994), Vol. 73, Iss. 2, pp. 113-117
15. Наджафов Э.А. К вопросу об определяющей роли культуры в общественном развитии. Elmi Əsərlər. İctimai- siyasi elmlər seriyası, Bakı Slavyan Universiteti, N1-2, 2006, с. 63-68

# VIII FƏSİL

# MULTİKULTURALİZMİN CƏMİYYƏTİN SİYASİ, İQTİSADİ, SOSİAL VƏ MƏDƏNİ İNKİŞAFINA TƏSİRİ

## 8.1.Multikulturalizm daxili və xarici siyasətin tərkib hissəsi kimi

Əvvəlki fəsildə assimilyasiya, izolyasiya, aparteid və multikulturalizm siyasət modellərini təhlil edərək belə bir qənaətə gəldik ki, cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə yönələn bu siyasət modelləri sırasında müasir dövrdə ən səmərəlisi multikulturalizmdir. Çünki, bu siyasət modeli etnik-mədəni müxtəlifliyin və onun əsasını təşkil edən dəyərlərin qorunmasına yönəlmişdir. Bu isə mədəniyyətin ictimai inkişafda aparıcı rol oynadığı bir dövrdə olduqca vacibdir.

Multikulturalizm bir siyasət modeli kimi ilk növbədə dövlətin daxili siyasətinin tərkib hissəsi, mühüm bir istiqaməti kimi çıxış edir. Çünki, o, ölkə daxilində olan etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə yönəlmişdir. Daha konkret desək, multikulturalizm daxili siyasətinin mühüm bir komponenti kimi cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasına istiqamətləndirilmişdir.

Multikulturalizmin daxili siyasətin tərkib hissəsi olmasının 2 əsas göstəricisi vardır:

1. Milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması;
2. Ölkə daxilində dövlət-din münasibətlərinin yüksək səviyyədə olması.

Milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması dedikdə, titul xalqla bir cəmiyyətdə yaşayan 3 əsas azlıq qrupunun vəziyyəti nəzərdə tutulur:

1. Azlıqda olan yerli xalqlar (avtoxton xalqlar);
2. Tarixin müxtəlif mərhələlərində ölkəyə gəlib burada məskunlaşmış milli azlıqlar (alloxton xalqlar);
3. Müasir dövdə siyasi, hərbi, iqtisadi, sosial və digər səbəblərdən ölkəyə pənah gətirmiş miqrantlar.

Milli azlıqların etnik-mədəni dəyərləri dedikdə isə ilk növbədə onların milli-mənəvi dəyərləri, dinləri və dilləri nəzərdə tutulur. Multikulturalizm siyasəti şəraitində milli azlıqların nümayəndələri etnik, dini, irqi mənsubiyyətlərinə, etnik-mədəni dəyərlərinə görə təqib olunmurlar. Heç bir sahədə ayrıseçkiliyə məruz qalmırlar. Onlar titul xalqla eyni hüquqlara malikdirlər. Bir qayda olaraq, multikultural cəmiyyətdə milli azlıqların hüquq və azadlıqları ölkə Konstitusiyası və digər normativ hüquqi aktlarla qorunur. Bundan başqa multikulturalizm siyasətini aparan dövlət milli azlıqların hüquq və azadlıqlarının qorunması sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq etməlidir. Onların bu məsələ ilə bağlı qəbul etdikləri sənədlərə öz münasibətini bildirməlidir. Qeyd etmək lazımdır ki, BMT, Avropa Şurası, UNESKO kimi beynəlxalq təşkilatlar tərəfindən milli azlıqların hüquq və azadlıqlarının qorunmasına dair mühüm sənədlər qəbul olunmuşdur. Belə sənədlərdən aşağıdakıları göstərmək olar:

1. “İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə” (BMT-nın Baş Assambleyası tərəfindən 10 dekabr 1948-ci ildə qəbul olunmuşdur);

2. “İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Konvensiyası” (Avropa Şurası tərəfindən 4 noyabr 1950-ci ildə qəbul olunmuşdur);

3. “İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya” (BMT-nın Baş Assambleyası tərəfindən 21 dekabr 1965-ci ildə qəbul olunmuşdur);

4. “Dinə, yaxud əqidəyə görə dözümsüzlük və ayrı-seçkiliyin bütün formalarinin ləğv edilməsi haqqında Bəyannamə» (BMT-nın Baş Assambleyası tərəfindən 25 noyabr 1981-ci ildə qəbul olunmuşdur);

5. “Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyası” (Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən 5 noyabr 1992-ci ildə qəbul olunmuşdur);

6. “Milli yaxud etnik, dini və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında Bəyannamə” (BMT-nın Baş Assambleyası tərəfindən 18 dekabr 1992-ci ildə qəbul olunmuşdur);

7. “Dini dözümsüzlüyün bütün formalarının ləğv edilməsi haqqında Qətnamə” (BMT-nin Baş Assambleyası tərəfindən 20 dekabr 1993-cü ildə qəbul olunmuşdur);

8. “Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası” (Avropa Şurası tərəfindən 1 fevral 1995-ci ildə qəbul olunmuşdur);

9. “Tolerantlıq prinsipləri haqqında Bəyannamə” (UNESKO tərəfindən 16 noyabr 1995-ci ildə qəbul olunmuşdur);

10. “Mədəni müxtəliflik haqqında ümumdünya Bəyannaməsi” (UNESKO tərəfindən 2 noyabr 2001-ci ildə qəbul olunmuşdur)

11. “Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında” Konvensiyası (UNESKO tərəfindən 20 oktyabr 2005-ci ildə qəbul olunmuşdur).

Sadalanan bu sənədlər milli azlıqların hüquq və azadlıqlarının qorunması üçün böyük əhəmiyyət dasıyır. Lakin onların bəziləri bu və ya digər ölkənin tarixi, geosiyasi, iqtisadi və/ və ya etnik-mədəni xüsusiyyətlərini nəzərə almır. Buna görə də milli azlıqların hüquq və azadlıqlarının qorunmasına dair beynəlxalq sənədlərə münasibət bildirən hər hansı bir ölkə bu sənədlərdəki müddəaların onun milli maraqlarına zidd olmadığını, suverenliyini və ərazi bütövlüyünü pozmadığını nəzərə almalıdır. Məlum məsələdir ki, ölkənin qeyd olunan xüsusiyyətlərini nəzərə almayan sənədin qəbul olunması həmin ölkənin milli təhlükəsizliyi, siyasi, sosial-iqtisadi inkişafı üçün problem yarada bilər. Belə olan halda həmin ölkənin bu cür sənədi qəbul etməməyə əsası vardır. Məsələn, yuxarıda sadaladığımız sənədlərdən biri olan *“Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyası”*nı Avropa Şurasının bir neçə ölkəsi indiyədək ratifikasiya etməmişdir. Həmin ölkələrin sırasında hətta Belçika, Fransa, İrlandiya, Portuqaliya, Yunanıstan, Bolqarıstan, Estoniya, Litva və Latviya kimi Avropa İttifaqının üzvləri də vardır.

“Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyası”nın bəzi ölkələr tərəfindən ratifikasiya edilməməsi bu sənəddə olan bir sıra müddəalarının həmin ölkələrin milli maraqlarına, xüsusilə ictimai–siyasi, iqtisadi sabitliklərinə, ərazi bütövlüklərinə ciddi təhlükə törədə biləcəyi ilə əsaslandırılır. Daha konkret desək, bu sənəddə elə tələblər əks olunmuşdur ki, onların həyata keçirilməsi ölkədə milli zəmində separatçılıq hərəkatının baş qaldırmasına, ölkə ərazisinin parçalanmasına gətirib çıxara bilər. Məsələn, sözügedən sənədin III hissəsinin *“İnzibati orqanlar və dövlət qulluğu”* adlı 10-cu maddəsində yer alan bəzi məqamlar cəmiyyətdə dezinteqrasiya meylərinin yayılması, etnik separatizmin yaranması təhlükəsini özündə saxlayır. Sözügedən maddənin tələbinə əsasən, milli azlıqların çoxluq təşkil etdiyi dövlətin inzibati ərazi dairələrində dövlət müəssisələri, yerli icra hakimiyyəti və özünüidarəetmə orqanları vətəndaşlarla iş apararkən azsaylı xalqların dillərindən istifadə etməli, habelə yazılı ərizələr,

inzibati və kargüzarlıqla bağlı digər rəsmi xarakterli sənədlər etnik azlıqların dillərində tərtib olunmalıdır.

Bundan başqa "Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyası"nda elə müddəalar var ki, onların icra olunması dövlətin böyük həcmdə lüzumsuz maliyyə xərclərinə səbəb ola bilər. Məsələn, Xartiyanın *"İqtisadi və ictimai həyat"* adlı 13-cü maddəsində iqtisadi və ictimai həyatda regional dillərin geniş istifadəsinə şəraitin yaradılması, o cümlədən maliyyə və bank sənədlərinin, şirkətlər və özəl müəssisələr tərəfindən bağlanılan müqavilələrin, şirkətdaxili sənədləşmə işinin, qiymətli kağızların, ödəmə çeklərinin və digər bu kimi sənədlərin, habelə məhsulların istifadəsi və mexanizmlərin istismarı üzrə təlimatların etnik azlıqların dillərində tərtibinə və hazırlanmasına icazənin verilməsi tələbi irəli sürülür.

Milli azlıqların hüquq və azadlıqlarının təmin olunmasının mühüm göstəricilərindən biri onların dillərində qəzet və jurnalların nəşr olunması, televiziya və radio verilişlərinin aparılması, orta və ali məktəblərdə tədrisin təşkil olunmasıdır. Bütün bunlar cəmiyyət daxilində inteqrasiya proseslərini möhkəmləndirir. Bu isə öz növbəsində ümumilikdə ölkənin sosial-iqtisadi inkişafına, əhalinin həyat səviyyəsinin qalxmasına səbəb olur.

Yuxarıda qeyd etdiyimiz kimi, multikulturalizmin daxili siyasətin tərkib hissəsi olmasının ikincisi göstəricisi ölkə daxilində dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasıdır.

Ölkədə dövlət-din münasibətlərinin yüksək səviyyədə olması dedikdə nə nəzərdə tutulur?

Dövlət-din münasibətlərinin yüksək səviyyədə olması ilk növbədə ölkə daxilində dini etiqad azadlığının təmin edilməsi deməkdir. Məlum olduğu kimi, dini etiqad azadlığı insan hüquqlarının tərkib hissəsidir. Buna görə də dini etiqad azadlığının təmin olunması hər bir demokratik inkişaf yolu seçmiş dövlətin daxili siyasətinin prioritet istiqamətlərindən biridir.

Dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulmasının digər mühüm göstəricisi ölkə ərazisində mövcud olan dinlərin və dini məzhəblərin qanun qarşısında bərabər olmasıdır.

Dünya ölkələrinin praktikası göstərir ki, dini etiqad azadlığını təmin edən hər bir ölkə dinlərin və dini məzhəblərin qanun qarşısında bərabərliyinə zəmanət vermir. Bunu hətta aparıcı Qərb ölkələrinin təcrübəsi də təsdiq edir.

ABŞ, Kanada və Qərbi Avropa ölkələrində dinlər və dini məzhəblər arasında bərabərlikdən danışmaq mümkün deyil. Bu ölkələrdə dini etiqad azadlığı olsa da, orada hakim dinə, yəni titul xalqın mənsub olduğu dinə münasibətdə digər dinlər və dini məzhəblər, xüsusilə də İslam dini de-fakto aşağı mövqedədir. Dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasının mühüm göstəricilərindən olan dinlərin və dini məzhəblərin qanun qarşısında bərabər olmasını təmin edən ölkə azdır. Məsələn, Azərbaycan Respublikası belə ölkələrdən biridir. Azərbaycanın əhalisinin 96 faizini müsəlman olmasına baxmayaraq, dövlət dinlər arasında heç bir ayrı-seçkiliyə yol vermir. Ölkə Konstitusiyasının 18-ci maddəsinin 1-ci bəndində göstərilir ki, Azərbaycanda *"bütün dini etiqadlar qanun qar*şısında bərabərdir".

Dövlət-din münasibətlərinin yüksək səviyyədə qurulmasından danışdıqda dövlət tərəfindən bütün dini qurumlara maddi-maliyyə köməyinin göstərilməsini də qeyd etmək lazımdır. Belə köməyin göstərilməsi ilk növbədə milli azlıqlara mənsub olan və fəaliyyətlərində maliyyə çətinlikləri ilə üzləşən dini qurumlar üçün əhəmiyyətlidir. Bu yardımın əhəmiyyətli hissəsi dini ibadət obyektlərinin tikintisinə, təmirinə, eləcə də dini qurumların fəaliyyətlərinin təmin olunmasına yönəldilir.

Bir sıra ölkələrin təcrübəsi göstərir ki, dini azadlıqların təmin edilməsi, bütün dinlərin və dini məzhəblərin qanun qarşısında bərabər olması, dövlət tərəfindən dini icmalara maddi dəstəyin göstərilməsi ölkə daxilində dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasına səbəb olur. Ölkə daxilində fəaliyyət göstərən müxtəlif dinlər və dini məzhəblər arasında münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulması isə öz növbəsində, dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasının əsas indikatorlarından biri kimi qəbul oluna bilər. Çünki dünya ölkələrinin təcrübəsi göstərir ki, ölkə daxilində müxtəlif dinlər və dini məzhəblər arasında dözümlülük, qarşılıqlı hörmət və əməkdaşlıq münasibətləri dövlət tərəfindən məqsədyönlü şəkildə aparılan multikulturalizm siyasəti həyata keçirildikdə formalaşır.

Beləliklə, ölkədə yaşayan milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması, eləcə də ölkə daxilində dövlət-din münasibətlərinin yüksək səviyyədə olması multikulturalizmin daxili siyasətin tərkib hissəsi olmasını göstərir.

Cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə yönələn, səmərəli siyasət modeli olan multikulturalizm dövlətin daxili siyasəti ilə yanaşı

onun xarici siyasətinin də tərkib hissəsi, mühüm bir istiqaməti kimi çıxış edir. Multikulturalizm daxili siyasətin tərkib hissəsi kimi ölkə daxilindəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən dəyərlərin qorunmasına səbəb olursa, ölkələrarası münasibətlərdə o, müxtəlif mədəniyyətlərə və sivilizasiyalara mənsub olan ölkələrlə qarşılıqlı əhəmiyyət daşıyan əlaqələrin inkişafını nəzərdə tutur. Lakin qeyd etmək lazımdır ki, multikulturalizm daxili siyasətin tərkib hissəsi olmadan ölkənin xarici siyasətində özünü büruzə verə bilməz. Bu, daxili və xarici siyasət arasında olan münasibətdən irəli gəlir. Bu münasibətdə daxili siyasət xarici siyasətə münasibətdə müəyyənedici rol oynayır. Ölkədaxili sabitlik dövlətin xarici siyasətinin sülhyönümlü və beynəlxalq hüququn prinsiplərinə uyğun olması üçün zəmin yaradır. Və əksinə ölkədaxili vəziyyətin qeyri-sabit, böhranlı olması dövlətin xarici siyasətinin təcavüzkar olmasına, onun beynəlxalq hüquq normalarına məhəl qoymamasına şərait yaradan əsas səbəblərdən biridir. Daxili siyasətin xarici siyasətə münasibətdə müəyyənedici rol oynamasını əsas götürərək deyə bilərik ki, əgər ölkə daxilində etnik, dini zəmində heç bir qarşıdurma yoxdursa, müxtəlif xalqların, dinlərin arasında dözümlülük, dialoq və əməkdaşlıq münasibətləri mövcuddursa, bu dövlətin xarici siyasəti sülhyönümlü olaraq dünyada dinlər və mədəniyyətlərarası dialoqa və əməkdaşlığa yönələcəkdir. Dinlər və mədəniyyətlərarası dialoqa və əməkdaşlığa yönələn dövlətin xarici siyasəti isə öz növbəsində onun beynəlxalq aləmdə multikulturalizm siyasətini təbliğ edən dövlət kimi nüfuzunu qaldıraraq daxili siyasətində multikulturalizm istiqamətini daha da gücləndirəcəkdir. Bu, xarici siyasətin daxili siyasətə əks təsirini nümayiş etdirməklə daxili və xarici siyasət arasındakı münasibəti qar*şı*lıqlı xarakter daşıdığını göstərir.

Beləliklə, multikulturalizmin ölkənin daxili və xarici siyasətin tərkib hissəsi, mühüm istiqaməti kimi çıxış edir. Multikulturalizmin daxili siyasətin tərkib hissəsi olması onun xarici siyasətin istiqaməti olmasını müəyyən edir. Lakin multikulturalizmin ölkənin xarici siyasətində də özünü büruzə verməsi onun daxili siyasətdə daha da möhkəmlənməsi üçün əlverişli şərait yaradır.

## 8.2. Multikultural təhlükəsizlik

Son zamanlar "multikultural təhlükəsizlik" məfhumu multikulturalizmin dövlət siyasətinə dair istiqamətində yer alır və ölkənin milli təhlükəsizliyi kontekstində mühüm rol oynayır. Məlum olduğu kimi, milli təhlükəsizlik sisteminin bir çox komponentləri vardır. İqtisadi təhlükəsizlik, nəqliyyat təhlükəsizliyi, enerji təhlükəsizliyi, qida təhlükəsizliyi və s. hər biri ayrılıqda və bütövlükdə dövlətin yaşaması üçün vacib komponentlərdir. Bu sistemin içərisinə mənəvi, ideoloji həyatın ayrılmaz hissəsi olan multikultural dəyərləri də bir bütöv təhlükəsizlik komponenti kimi daxil etmək vacibdir. Hər bir çoxmədəniyyətli ölkə öz enerji, iqtisadi, milli təhlükəsizliyini qoruduğu kimi multikultural təhlükəsizliyini də təmin etməlidir.

Multikultural təhlükəsizliyin ümumi mahiyyəti etnik, dini, irqi, mədəni mənsubiyyətindən asılı olmayaraq bütün xalqların etnik-mədəni dəyərlərinin qorunması deməkdir. Əvvəlki fəsildə qeyd olunduğu kimi, ictimai inkişafda mədəniyyətin aparıcı rol oynadığı bir dövrdə xalqların etnik-mədəni dəyərlərin qorunması təmin olunmadıqda cəmiyyətin inkişafında etnik-dini zəmində ciddi problemlər, hətta münaqişələr yaranır.

Cəmiyyətin multikultural təhlükəsizliyinin təmin olunması qarşısında yaranan problemlər inkişaf edərsə, bu, etnik, dini, irqi zəmində qarşıdurmalara, münaqişələrə səbəb olar. Son dövrdə Avropanın bir sıra ölkələrində etnik və dini radikalizm, ksenofobiya, antisemitizm, islamofobiya meyllərinin artması qeyd olunanların bariz nümunəsidir.

Beləliklə, multikultural təhlükəsizlik anlayışı da multikulturalizmin dövlət siyasətinə dair istiqamətində yer alır və ölkənin milli təhlükəsizliyi kontekstində mühüm rol oynayır.

Bununla belə qeyd etmək lazımdır ki, hazırda multikulturalizm ilə təhlükəsizlik ideyası arasındakı münasibətlərin dəyərləndirilməsinə dair müxtəlif mövqelər vardır. Xüsusən Qərbdə siyasətçilərin və tədqiqatçıların bu mövzuda debatları səngimək bilmir. 2001-ci il 11 sentyabrda ABŞ-da baş vermiş məlum terror hadisələrindən sonra bir çox Qərb siyasətçiləri, o cümlədən bəzi tədqiqatçılar multikulturalzmi liberal ənənələri olan ölkələrin milli təhlükəsizliyinə təhdid kimi görməyə başladılar. Nəticədə Avropa və Şimali Amerikada yerli müsəlman icmalarına qarşı dövlət maraqları adına fövqəladə

hallar üçün nəzərdə tutulan tədbirlər həyata keçirilməyə başladı. Terrorçuluqda şübhəli bilinən müsəlman inanclı şəxslərin qeyri-müəyyən müddətə həbsdə saxlanılması, istintaq zamanı onlara qarşı işgəncələrə yol verilməsi, yerli müsəlmanların telefon danışıqlarının qeyri-qanuni dinlənilməsi və bu kimi başqa əməliyyatların həyata keçirilməsini hüquq müdafiəçiləri tənqid etdi. Hüquq müdafiəçiləri bu əməliyyatları qərb cəmiyyətlərinin demokratik dəyərlərinə zərbə kimi qələmə verməyə çalışır və bu cəmiyyətlərdə milliyyətçiliyin siyasi mühitdə dəyərə çevrilməsi perspektivini vurğulayaraq multikulturalzmdən rəsmi bir diskurs kimi imtina təmayüllərindən narahatlıqlarını bildirdilər. Bu təmayüllərin əsasən mühacirlərə, “etnik anklavlar”a və, ümumiyyətlə isə, mədəni müxtəlifliyə qarşı siyasətçilərdə gəlişən irqçi və ksenofobik münasibətlərdən və dövlət maraqları ilə assosiasiya olunan etnik-mədəni kimliyin xələldar ola biləcəyi əndişəsindən qaynaqlandığını da diqqətə çəkirlər. Əlbəttə, bu müşahidələrlə razılaşmamaq olmur. Həm də ona görə ki, qərb toplumlarında ortaya çıxan terror problemlərinin kökünü multikulturalizmdə görənlərin siyasi məntiqi ilə bağlı qənaətlər artıq ayrı-ayrı müəlliflərin təhlillərindən xeyli kənara çıxaraq ara-sıra dünya mediasında da səsləndirilir.

Multikulturalizmin dövlətin siyasi potensialının güclənməsində oynadığı müsbət rolu diqqət çəkənlər isə bunun örnəklərini Kanada, Avstraliya, İsveçrə və Azərbaycan kimi ölkələrin timsalında təqdim edirlər. Bu barədə xüsusi təhlilə varmadan öncə qeyd edək ki, multukulturalizmlə bağlı bütün fərqli dəyərləndirmələrin fonunda multikultural təhlükəsizlik məsələsi yeni bir paradiqma kimi artıq özünü təsdiq etməkdədir.

Multikultural təhlükəsizlik milli təhlükəsizlyin vacib komponenti kimi anlaşılır və ona görə də aydındır ki, bu yeni paradiqma ölkə daxilində multikulturalizm situasiyasını siyasi dayanıqlığın təminatçısı qismində nəzərdə tutur. Başqa sözlə desək, dövlət çoxmədəniyyətlilik mühitinin özündə maraqlı olduğu üçün bu mühitə qarşı yarana biləcək potensial təhdidləri milli təhlükəsizlik əleyhinə yönəlik bir məzmunda qəbul edir. Bu səbəbdən də multikultural təhlükəsizliyi ilkin olaraq şərtləndirən prinsip vahid dövlətdə yaşayan müxtəlif etnik, dini, sosial, siyasi, iqtisadi, nəsillərarası təbəqələşmələrin yaratdığı multikultural durumun qorunub saxlanması və inkişaf etdirilməsidir. Əlbəttə, bu situasiyanın əsas qaynağı etnik və dini müxtəliflik amili olduğundan diqqət başlıca olaraq ayrı-ayrı etnik və dini icmaların birgəyaşayış maraqlarının təmin

edilməsinə yönəldilir və söhbət ilk növbədə bu maraqların vahid dövlət maraqları ilə uzlaşdırılmasından gedir. Multikultural təhlükəsizliyin qeyd olunan prinsipi kontekstində başlıca olaraq bir dövlət ərazisində tarixən məskunlaşmış müxtəlif etnik icmaların hər birinin milli adət-ənənələrinin, dilinin, ümumiyyətlə, milli kimliyinin qorunmasından danışmaq lazım gəlir. Yəni, multikultural təhlükəsizlik paradiqması say tərkibindən asılı olmayaraq bütün etnik, irqi, dini qruplara aid mədəniyyətlərin, necə deyərlər, təhlükəsizliyini təmin edir.

Multikultural təhlükəsizliyin başqa bir prinsipi ölkədə mövcud olan milli müxtəlifliyin qorunmasına yönəlmiş dövlət qayğısının formalaşdırılması ilə müəyyən edilir. Bu prinsipin həyata keçirilməsini Azərbaycanın timsalında təqdim etmək mümkündür.

Azərbaycan müxtəlif xalqların dinc, dostluq, qardaşlıq şəraitində yaşadığı, sevinci və kədəri birgə bölüşdüyü məkandır. Bu məkanı qədim Qafqaz albanlarının bugünkü varisləri olan udilər, inqloylar, buduqlar, xınalıqlılar, qrızlar, habelə yəhudilər, talışlar, ruslar, avarlar, ləzgilər, gürcülər, kürdlər, yaxın keçmişdə almanlar və digər xalqlar və etnik qruplar öz ortaq vətənlərinə çevirə biliblər. Bu gün Azərbaycana əsassız torpaq iddiası ilə çıxış edən separatçılarla eyni millətdən olan, ancaq bu separatçıların əsassız iddialarını qəbul etməyən Azərbaycan erməniləri də buranı öz vətənləri sayırlar. Bir kənd qədər sakini olan, dili və etnik kimliyi bu kənddən başqa heç bir yerdə təmsil olunmayan xınalıqlılar və ceklilər də Azərbaycana məxsusdur. Azərbaycanda yaşayan bütün xalqların və etnik qrupların nümayəndələrini bu gün müstəqil Azərbaycanın hər bir sahəsində – siyasətdə, iqtisadi sferada, təhsildə, mədəni-mənəvi müstəvidə, bir sözlə, bütün sahələrdə görmək mümkündür. Ölkədə məskunlaşmış bütün xalqların və etnik qrupların nümayəndələrinə dövlət tərəfindən bərabər, eyni münasibətin göstərilməsi bu prinsipin əsasını təşkil edir.

Multikultural təhlükəsizliyin bir vacib prinsipi də ölkədə mövcud olan etnik-mədəni müxtəlifliyin qorunmasına və inkişafına cəmiyyət tərəfindən dəstək verilməsinin təmin edilməsindən formalaşır. Etnik-mədəni müxtəlifliyin qorunmasına və inkişafına cəmiyyət tərəfindən göstərilən dəstəyin məzmununa gəldikdə, ilk növbədə ölkədə yaşayan milli azlıqların ölkə daxilində özlərini yaşadıqları cəmiyyətin tam hüquqlu üzvü hesab etmələri, burada bütün sahələrdə fəal iştirak etmələridir.

Beləliklə, ictimai inkişafda mədəniyyətin aparıcı rol oynadığı bir dövrdə

multikultural təhlükəsizliyin təmin edilməsi çoxmədəniyyətli ölkə üçün böyük praktiki əhəmiyyət kəsb edən bir məsələdir. Multikultural təhlükəsizliyin təmin edilməsi həm titul xalqın, həm də milli azlıqların maraqlarına cavab verir.

## 8.3. Davamlı və inklüziv inkişafın əldə olunmasında multikulturalizm siyasətinin rolu

Multikulturalizmin tədqiq olunmasının mühüm nəzəri məsələlərindən biri də onun davamlı və inkluziv inkişafa təsiri məsələsidir. Müasir dövrdə bu məsələ olduqca aktualdır. Müasir dövrdə etnik-mədəni müxtəlifliyin tənzimlənməsində multikulturalizm siyasət modeli digər siyasət modellərindən üstün olduğu kimi, inkişafın davamlı və inkluziv modellərinin də digər inkişaf modellərinə münasibətdə üstün olduqları bəllidir. Buna görə də **d**avamlı və inklüziv inkişafa nail olmaqda multikulturalizm siyasətinin əhəmiyyətini müəyyən etmək vacibdir.

Əvvəlcə "davamlı inkişaf" və "inkluziv inkişaf" məfhumlarının məzmununu müəyyən edək.

Davamlı inkişaf elə bir inkişaf modelidir ki, o, indiki nəsillərin maddi tələbatlarını ödəməklə yanaşı gələcək nəsillərin də tələbatlarının ödənilməsi üçün lazımi şərait yaradır. Gələcək nəsillərin tələbatlarının ödənilməsi üçün inkişaf tək iqtisadi artımın təmin edilməsinə deyil, ətraf mühitin və təbii ehtiyatların qorunmasına, cəmiyyətdəki sosial problemlərin həll edilməsinə də yönəldilməlidir. Məlum olduğu kimi, əgər iqtisadi artım ətraf mühitin və təbii ehtiyatların qorunmasını təmin etmirsə, bu, gələcəkdə iqtisadi artıma, ümumiyyətlə, inkişafa nail olmağı çətinləşdirir.

Bununla yanaşı qeyd etmək lazımdır ki, dövlətin həyata keçirdiyi iqtisadi artım, inkişaf proqramı cəmiyyətdəki sosial vəziyyətin gərginləşməsinin qarşısını almalıdır. Buna nail olmaqda isə cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin multikulturalizm siyasəti vasitəsilə təmzimlənməsinin böyük əhəmiyyəti vardır. Əvvəlki fəsildə qeyd olunduğu kimi, cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunmasına yönələn multikulturalizm siyasəti digər mümkün siyasət modellərindən fərqli olaraq, bir tərəfdən, milli azlıqların etnik-mədəni dəyərlərinin ləğv edilməsinin qarşısını alır, digər tərəfdən isə milli azlıqların etnik-mədəni dəyərləri ilə titul etnosun etnik-mədəni dəyərlərinin bir-birinə

qarşılıqlı təsir etmələri üçün lazımi şərait yaradır və bununla da milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiya olmaları üçün əlverişli imkan təklif edir.

Multikulturalizm daxili siyasətinin tərkib hissəsi kimi cəmiyyətdəki etnik-mədəni müxtəlifliyi tənzimləyərək inteqrasiya proseslərinin dərinləşməsinə səbəb olur. Dərinləşən inteqrasiya prosesləri isə öz növbəsində etnik və dini zəmində baş verə biləcək münaqişələrin qarşısını alır. Bütün bunlar nəticə etibarı ilə inkişafın davamlı olmasına səbəb olur. Bundan başqa multikulturalizm siyasətinin nəticəsində əldə olunan inteqrasiya prosesləri inkişafın inkluzivliyini də təmin edir.

Məlum olduğu kimi, inkluziv inkişaf cinsindən, fiziki vəziyyətindən, siyasi baxışlarından, iqtisadi durumundan, yaşadığı ərazidən, etnik, dini, mədəni və digər mənsubiyyətindən asılı olmayaraq cəmiyyətin hər bir üzvünün inkişaf prosesinə qoşulmasına yönəlmişdir. İnkluziv inkişaf özü-özlüyündə məqsəd deyil. O, inkluziv cəmiyyətin qurulması üçün mühüm bir vasitədir. İnkluziv cəmiyyət isə şəxsin cinsi, fiziki, siyasi, iqtisadi, etnik, dini, mədəni və digər müxtəlifliklərindən asılı olmayaraq onun hüquq və azadlıqlarının tam şəkildə təmin edildiyi, heç bir ayrıseçkiliyin olmadığı bir cəmiyyətdir. Cəmiyyətin inkluziv olması inkişafın davamlı olması üçün əlverişli şərait yaradır.

Multikulturalizm siyasətinin inkluziv inkişafa təsirinə gəldikdə, bir sıra ölkələrin təcrübəsi bu təsirin müsbət xarakter daşıdığını göstərir. Multikulturalizm siyasətinin inkluziv inkişafa müsbət təsirinin bariz nümunəsi kimi Dünya İqtisadi Forumunun vacib indeksi sayılan “İnklüziv İnkişaf İndeksi” üzrə 2018-ci ildə Azərbaycan Respublikasının inkişaf etməkdə olan ölkələr (emerging economies) arasında 3-cü, MDB ölkələri arasında isə 1-ci yerdə olmasını göstərmək olar. İnklüziv inkişaf hesabatında Azərbaycan Avropa İttifaqına daxil olan Litva və Macarıstan istisna olmaqla digər bütün inkişaf etməkdə olan ölkələri geridə qoyub.

İnklüziv İnkişaf İndeksi (İİİ) Ümumdaxili məhsul (ÜDM) ilə yanaşı, daha dəqiq desək, ona əlavə olaraq ölkələrin iqtisadi inkişafını ölçmək üçün istifadə edilir. İİİ-nin üç əsas göstəricisi vardır:

1. “Artım və inkişaf”,
2. “İnklüzivlik”,
3. “Nəsillərarası bərabərlik və dayanıqlılıq”.

Bu göstəricilər əsasında ölkələrin iqtisadi inkişaf səviyyəsi müəyyən edilir. Qeyd etmək lazımdır ki, ÜDM-u ilə müqayisədə İİİ ölkələrin iqtisadi inkişaf

səviyyəsi daha dəqiq göstərir. Belə ki, ölkənin iqtisadi inkişafının göstəricisi kimi ÜDM-un adambaşına düşən payı əsasında ölçülməsi ölkədaxili sosial bərabərsizlikdən, əhalinin təhsili, sosial rifahı, sağlamlığı, həyat səviyyəsindən xəbər vermir. ÜDM-un həcmi dövlətin daxili siyasətinin sosial yönümlüyü olub –olmamasını göstərmir. Ümumiyyətlə, ÜDM inkişafda həlledici rol oynayan insandan, onun inkişafına səbəb olan faktorlardan məlumat vermir. İİİ yuxarıda qeyd etdiyimiz "Artım və inkişaf", "İnklüzivlik", "Nəsillərarası bərabərlik və dayanıqlılıq" kimi əsas göstəricilərlə yanaşı sağlam həyat gözləntiləri, məşğulluq, əmək məhsuldarlığı, CİNİ əmsalı, yoxsulluq dərəcəsi, xalis yığımların tənzimlənməsi və digər göstəriciləri də ehtiva edir. İİİ-nin bütün bu göstəriciləri isə ölkənin iqtisadi inkişafı ilə yanaşı insanın sosial rifahından, həyat səviyyəsindən ətraflı məlumat verir. ÜDM ilə İİİ-i arasındakı fərqi bir misal kimi Ekvatorial Qvineya ilə Rumıniya arasında göstərmək olar. BMT-nin İnkişaf Proqramının 2015-ci il İnsan İnkişafı Hesabatına əsasən, Ekvatorial Qvineyada ÜDM-un adambaşına düşən payı 21056 ABŞ dolları, Rumıniyada isə 18108 ABŞ dolları təşkil etməsinə baxmayaraq, Ekvatorial Qvineyada vətəndaşların orta ömür müddəti 57,6 il, Rumıniyada isə 74 il təşkil edir. Bu misal ÜDM-un səviyyəsinin bir indikator kimi ölkə əhalisinin həyat səviyyəsinin yüksək olmasında kifayət olmadığını göstərir. Buna görə də, heç təsadüfi deyil ki, BMT-nin İnkişaf Proqramının 2015-ci il İnsan İnkişafı Hesabatında Rumıniya 52-ci, Ekvatorial Qvineya isə 138-ci yerdədir.

İnklüziv İnkişaf İndeksi üzrə Azərbaycanın inkişaf etməkdə olan ölkələr arasında 3-cü, MDB ölkələri arasında isə 1-ci yerdə olması Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu sosial-iqtisadi siyasətlə yanaşı inkluzliv cəmiyyətin qurulmasının əsas səbəblərindən biri olan, etnik-mədəni müxtəlifliyin və onun əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasına səbəb olan multikulturalizm siyasətinin nəticəsidir.

Beləliklə, cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin və onun əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasına yönələn multikulturalizm siyasəti davamlı və inklüziv inkişafın əldə olunmasında mühüm əhəmiyyətə malikdir. Bu siyasət cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin düzgün tənzimlənməsinin səmərəli siyasət modeli kimi etnik, dini və mədəni zəmində yarana biləcək münaqişələrin qarşısını alaraq indiki, eləcə də gələcək nəsillərin maddi tələbatlarının ödənilməsi üçün şərait yaradır. İctimai inkişafda mədəniyyətin

aparıcı rol oynadığı bir dövrdə multikulturalizm siyasəti obyektiv xarakter daşıyan, xalqların etnik-dini dəyərlərini, mədəniyyətlərini xarakterizə edən, eləcə də onların dünyagörüşü və fəaliyyətlərinin əsasını təşkil edən etnik-mədəni müxtəlifliyin qorunmasına yönəlməklə cəmiyyətdəki inkişaf prosesinə dinindən, irqindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün təbəqələrinin qoşulmasını təmin edir. Multikulturalizm siyasətinin bu funksiyası inkişafın inkluzivliyini təmin edən mühüm amillərdən biridir.

## 8.4. Multikulturalizm və gender

Gender (latınca - *genus* «cins») - bir insanın cəmiyyətdə davranışını müəyyən edən və bu davranışın necə qəbul edildiyinı göstərən bir məfhumdur. Bu elə bir davranış formasıdır ki, bir insanın digərləri ilə (dostlar, həmkarları, sinif yoldaşları, valideynlər, təsadüfi insanlar və s.) münasibətini müəyyən edir. Psixologiya və seksologiyada «gender» geniş mənada istifadə edilir və kişilərə (*maskulinizm*) və qadınlara (*feminizm*) aid xüsusiyyətlərin fərqini nəzərdə tutur. İctimai elmlərdə və xüsusilə feminizmdə «gender» daha dar mənada istifadə edilir və kişilərlə qadınların sosial təyinatlı rolunu, fəaliyyət sahəsini ifadə etməyi cinsi fərqlərdə deyil, cəmiyyətin ictimai quruluşunda görür.

Gender tədqiqatlarında əsas yeri kişi və qadınların sosial bərabərsizliyi problemi tutur. Müasir ictimai elm *cins* və *gender* anlayışlarını fərqləndirir. Cins (yəni, bioloji xüsusiyyətlər) qadın və kişilər arasında psixoloji və sosial fərqlərin təməli və əsas səbəbi hesab edilir. İnsanlar arasında bioloji fərqlərlə yanaşı sosial rol, fəaliyyət formaları, davranış və emosional xüsusiyyətləri olmaqla digər fərqlər də var. Antropoloqlar, etnoqraflar və tarixçilər «tipik kişi» və ya «tipik qadın» anlayışlarının nisbiliyiini coxdan müəyyən etmişlər: bir cəmiyyətdə ancaq kişiyə aid olan davranış və ya xüsusiyyət başqa birində qadına aid edilə bilər. Dünyada qadınların və kişilərin sosial xüsusiyyətlərinin müxtəlifliyi onu göstərir ki, cinsi (bioloji) fərq müxtəlif cəmiyyətlərdə mövcud olan sosial rollardakı fərqlərin izahı ola bilməz. Beləliklə, cəmiyyətin bioliji cinsindən asılı olaraq insanlara aid etdiyi ictimai və mədəni normalar toplusunu özündə əks etdirən “gender” anlayışı yarandı.

Qadın və kişilərin psixoloji xüsusiyyətləri, davranış nümunələri, fəaliyyət növləri, peşələrini bioloji cins deyil, sosial-mədəni normalar müəyyən edir. Bir

insanın kişi və ya qadın olması onun bu və ya digər anatomik xüsusiyyətlərə malik olması yox, cəmiyyətin müəyyənləşdirdiyi bu və ya digər gender rolunu yerinə yetirməsidir. Gender cəmiyyətdə qadın və kişinin sosial modeli kimi yaradılıb. Gender cəmiyyətdə və onun institutlarında (ailə, siyasi quruluş, iqtisadiyyat, mədəniyyət, təhsil və s.) qadınların və kişilərin mövqeyini və rolunu müəyyənləşdirir. Gender sistemləri fərqli cəmiyyətlərdə fərqlidir, lakin hər bir cəmiyyətdə bu sistemlər assimmetrikdir və kişilər və bütün kişilərə aid olunanlar (xarakter əlamətləri, davranışlar, peşələr və s.) əsas və dominant, qadınlar və bütün qadına aid edilənlər isə ikinci dərəcəli və sosial cəhətdən tabe olunan sayılır.

Genderın mahiyyətını qütbləşmək və müxalifət təşkil edir. Gender sistemi insanların cinsindən asılı olaraq onlara aid edilən qeyri-bərabər mədəni qiymətləndirmələri və gözləntiləri əks etdirir. Sosial normalar zamanla dəyişir, amma gender bərabərsizliyi qalır. Beləliklə, gender sisteminın gender bərabərsizliyi əsasında qurulmuş sosial bir sistem olduğunu söyləmək olar.

Gender sisteminin inkişafında və saxlanmasında insanların şüuru mühüm rol oynayır. İnsanlarda gender şüurunun formalaşması ictimai və mədəni stereotiplərin, normaların və qaydaların qorunması və yayılması hesabına baş verir. Bu normaların pozulmasına görə cəmiyyət insanları cəzalandırır. Məsələn, «kişi kimi qadın» və ya «kişidır, ancaq qadın kimi davranır» yarlıkları insanlar tərəfindən çox ağrılı qəbul edilir və yalnız stressə deyil, həm də müxtəlif növ ruhi xəstəliklərə gətirib çıxara bilir.

İnsan doğulduğu andan gender sisteminin təsir obyektinə çevrilir: ənənəvi cəmiyyətlərdə körpənin cinsinə uyğun olaraq simvolik doğuş ritualları həyata keçirilir. Bir çox cəmiyyətlərdə müxtəlif doğum adətləri (paltarın və uşaq arabasının rəngi, oyuncaqların növü) də uşağın çinsinə görə müəyyənləşdirilir. Araşdırmalar göstərir ki, yeni doğulmuş oğlanları daha çox yedizdirir, lakin qızlara daha çox danışırlar. Tərbiyə prosesində ailə (valideynlər və qohumlar), təhsil sistemi (uşaq baxçaları, məktəb və universitetlər), ümumilikdə mədəniyyət (kitablar və KİV) gender normalarını uşaqların zehinlərinə daxil edir, müəyyən davranış qaydalarını formalaşdırır. Eyni zamanda "Əsı kişi kimdir?" və " Əsl qadın necə olmalıdır" haqqında təsəvvür yaradırlar. Sonradan bu formalaşmış gender normaları müxtəlif ictimai və mədəniyyət mexanizmləri vasitəsilə dəstəklənir .

Genderin sosial quruluş nəzəriyyəsi iki postulata əsaslanır:

1. Gender sosiallaşmaq, əmək bölgüsü, gender rolları, ailə və media vasitəsilə qurulur;

2. Gender fərdi şəxslər tərəfindən qurulur: Onların şüuru səviyyəsində (gender identifikasiyası), cəmiyyət tərəfindən müəyyən edilmiş normaların və rolların qəbul edilməsi və onlara uyğunlaşmaq (geyim, görünüş, davranış və s.).

Bu nəzəriyyə gender bərabərliyi, gender ideologiyası, gender fərqliliyi və gender rolu anlayışlarından geniş istifadə edir. Gender eyniliyi bir şəxsin öz mədəniyyətlərində mövcud olan kişilik və qadınlıq təriflərini qəbul etdiyini bildirir. Gender ideologiyası gender fərqləri və gender təbəqələşməsinə sosial bəraət verən ideyalar sistemidir. Gender differensiasiyası kişilərlə qadınlar arasındakı bioloji fərqlərin sosial dəyər verən və sosial təsnifat vasitəsi olaraq istifadə edilən bir prosesdir.

Gender rolu müəyyən sosial təlimatların yerinə yetirilməsi, yəni nitq, davranış, geyim tərzi, jestlər və s. şəklində cinsə uyğun davranış kimi başa düşülür. Müasir gender nəzəriyyəsi qadınlarla kişilər arasında bu və ya digər bioloji, sosial və psixoloji fərqlərin olmasını inkar etmir. O, sadəcə olaraq, bu fərqlərin özünün deyil,onların sosiokultural qiymətləndirmə və interpretasiya təfsiri kimi əhəmiyyət daşıdığını və bu fərqlərə əsaslanan bir güc sisteminin qurulmasını təsdiq edir. Gender tədqiqatlarının əsasını yalnız kişilərin və qadınların statusu, rolları və həyatlarınının bu və ya digər aspektləri arasındakı fərqı göstərmək deyil deyil, həm də cəmiyyətdə gender rolları və münasibətlər vasitəsilə təsdiqlənmiş güc və dominantlığın təhlili təşkil edir.

Gender konsepsiyası sosiologiya elmində XX əsrin 70-ci illərində Amerikada, 90-cı illərin əvvəllərindən isə Rusiyada tədqiqatçıların diqqətini çəkməyə başlamışdır. Gender konsepsiyası Amerika sosiologiyasında tədricən inkişaf etmiş və müxtəlif dövrlərdə aşağıdakı aspektlər sosioloqların diqqət mərkəzində olmşdur:

- gender kişi və qadınların sosial rolu kimi;
- gender kişilərin və qadınların davranışlarına nəzarət sistemi kimi;
- gender xüsusi bir ictimai qurum ( sosial institut) kimi.

Bundan əlavə, amerikalı sosioloqların əksəriyyəti kişilərin və qadınların sosial vəziyyətlərini, onların sosial rollarını iki planqada - şaquli: güc, nüfuz,

gəlir, sərvət və üfüqi: əmək bölgüsü və institusional təhlil (ailə, iqtisadiyyat, siyasət, təhsil) funksiyaları konteksində dəyərləndirirlər.

Bu gün gender məsələləri yalnız sosioloqların deyil, psixoloqların, antropologların və tarixçilərin də diqqətini cəlb edən fənlərarası tədqiqat sahəsidir.

«Multikulturalizm» məfhumu XX əsrin 40-cı illərində ədəbiyyata daxil olsa da yalnız 60-cı illərdə aktual olmuşdur. Lakin onun əsas təhlili XX əsrin 90-cı illərinə aiddir. Bu illər multikulturalizm siyasətinin nikbinliyə köklənən illəridir. Həmin dövrdə multikulturalizm siyasətinin demokratik çoxmədəniyyətli cəmiyyətlərdə uğurla həyata keçirilə biləcəyi heç bir şübhə yaratmırdı. Geniş mənada, həm də ideoloji səviyyədə multikulturalizm mədəniyyətlərin müxtəlifliyini və eynihüquqluluğunu tanıyan bir anlayışdır. Bəzən bu anlayışla hər hansı bir cəmiyyətin çoxmədəniyyətliliyini ifadə edirlər. Eyni zamanda multikulturalizm həm də siyasi bir doktrina və ondan irəli gələn konkret fəaliyyət siyasətdir. Bu siyasət isə mədəni müxtəlifliyin və cəmiyyətin konkret qruplarının mənafelərinin qorunmasna yönələn siyasət vasitələrini nəzərdə tutur. Məşhur Kanada filosofu Çarlz Teylor multikulturalizmi «tanınma və ya qəbul etmə siyasəti» adlandırdı. Multikulturalizmi həm də assimiliyaya qarşı yönəlmiş və cəmiyyətin müxtəlifliyinin saxlanılmasını təqdir edən bir siyasət kimi dəyərləndirmək olar. Lakin multikulturalizmin müvəffəqiyyəti cəmiyyətdə iğtişaşların olmaması ilə təsdiqlənsə belə, iqtisadi cəhətdən əhəmiyyətli maliyyə investisiyaları tələb etdiyinə görə saxlanılması bahalı bir zövqdir . Bu isə multikulturalizmin tənqidçilərinin arqumentlərindən biridir. Xüsusilə 2010-cu ildə Almaniya kansleri Angela Merkel, sonra isə İngiltərənin o vaxtkı baş naziri Devid Kamerun rəhbərlik etdikləri dövlətlərdə multikulturalizm siyasətinin uğursuzluğa düçar olduğunu qəbul etdikdən sonra. Kinorejissor Teo van Goghun öldürülməsindən sonra Hollandiyada bir neçə il multikulturalizmin gələcəyi haqqında çox mürəkkəb və pessimist müzakirələr gedirdi. Onu 2 noyabr 2004-cü ildə Niderland və Morokko vətəndaşı olan və uzun müddət ailəsi ilə Hollandiyada yaşayan bir şəxs küçədə öldürmüşdü. Bir il sonra isə immiqrantların kütləvi iğtişaşları Fransada baş verdi.

Multikulturalizm siyasəti ilk dəfə əhalinisinin əksəriyyəti Avropa mənşəli olan immiqrasiya ölkələri (Kanada, ABŞ, Avstraliya, Yeni Zelandiya) tərəfindən qəbul edilmişdir. 1971-ci ildən Kanadanın, 1973-cü ildən isə

Avstraliyanın rəsmi dövlət siyasətidır. Multikulturalizm siyasəti qəbul olunanda bu ölkələrdəki mədəni qrupların əksəriyyəti mono-etnik və mono-dini idi. Çünki əhalinin əksəriyyəti avropalı və xristian idi. Bu isə o demək idi ki, immiqrasiya ölkələrinin multikulturalizm modeli yalnız bir etnik və bir dini mənşəli qruplara aid idi. Əhalisinin əksəriyyətini Avropa xristianları təşkil edən müasir Avropa dövlətlərində isə immiqrantlarının əksəriyyəti qeyri-avropalı və qeyri-xristian mənşəlidirlər. Buna görə də multikulturalizmin Avropa modeli əsasən müxtəlif etnik və dini mənsubiyyət qruplarına aiddir. Görüldüyü kimi, immiqrasiya ölkələrində və Avropa ölkələrində multikulturalizm siyasətlərinin qəbulu müxtəlif şəraitlərdə baş vermişdir. Nəticə olaraq, multikulturalizm Avropanın liberal dövlətlərində immiqrasiya ölkələrində olduğu kimi deyildir.

Mədəniyyətlər arasında mədəni müxtəliflik və bərabərlik yaratmaq əvəzinə, multikulturalizmin Avropa modeli yeni problemlərin yaranmasına gətirib çıxardı. Bu problemlər, əsasən, immiqrantlarla avropalıların mədəniyyətləri arasında olan əhəmiyyətli fərqlərdən yaranırdı. Xüsusilə kəskin problemlər ən az qorunan mədəni azlıqların (migrant qadınlar, uşaqlar və s.) hüquqlqrının qorunmasında yaşanırdı. Qadınların hüquqları həm onların daxil olduğu mədəni qruplar, həm də bu azlıqlara sahib olan liberal dövlətlər daxilində pozulurdu. Nəticədə multikulturalizm siyasətinin Avropa modeli xüsusilə feminizm (S.Oukin) tərəfindən kəskin tənqid edilir.

«Feminizm» dedikdə, bir tərəfdən , cəmiyyətdə mövcud olan və cins prinsipinə əsaslanan «irqi, sinfi və cinsi hökmranlığın» ləğvinə, digər tərəfdən, qadınların hüquqlarının (siyasi, sosial və intellektual sahədə öz müqəddəratını təyin etmək) qorunmasına yönələn nəzəriyyə və siyasət nəzərdə tutulur. Avropa ölkələrində həyata keçirilən multikulturalizm siyasətinin tənqidi feminizm tərəfdarları tərəfindən bu siyasətin bir sıra nəzəri əsaslarının qəbul edilməməsindən irəli gəlirdi. Multikulturalizm nəzəriyyəçilərinə görə (U. Kimlika), mədəni azlıqların (yerli əhali və ya immiqrantlar olsun) özlərinin sosial, dini, iqtisadi və s. sahələrdə xüsusi həyat normalarına malik olan «sosial mədəniyyətləri» var. Eyni zamanda mədəniyyət tərəfindən müəyyən edilmiş normalar həyatın həm ictimai, həm də özəl sahələrini əhatə edir. U. Kimlikinin sözlərinə görə, mədəniyyətə aid olmaq, ilk növbədə, özünə hörmətin, öz müqəddəratını inkişaf etdirmənin əsas amilidir. Mədəniyyətin itməsi, özünə hörmət və seçki azadlığının itirilməsi deməkdir. Buna görə, multikulturalizm

tərəfdarları mədəni azlıqlara xüsusi qrup hüquqları və ya imtiyazlar verməyi zəruri hesab edirlər. Bu tədbir, bir tərəfdən, bu azlıqların təhlükə altına düşmüş mədəniyyətlərinin qorunmasına kömək edəcək, digər tərəfdən, mədəni azlıqlar və dominant mədəni əksəriyyət arasında bərabərliyi təmin edəcəkdir.

Feminizm baxımından, qeyd olunan nəzəriyyə, gender bərabərsizliyi problemini, eləcə də mədəni azlıq qruplarına aid olan qadınların fərdi hüquqlarının problemini tamamilə görmür və ya görməzdən gəlir. Gender bərabərsizliyi bütün patriarxal mədəniyyətlərdə mövcuddur (bütün mədəniyyətlər bu və ya digər dərəcədə patriarxaldır). Yəni qadınlar tabe olan mövqeyə malikdirlər. Bəzi mədəniyyətlərdə bu tendensiya özünü daha çox, digərlərində isə daha az biruzə verir. Bu daha çox patriarxal həyat tərzinin güclü olduğu mədəniyyətlərdə (məsələn, islam mədəniyyətlərində) və qadınların ərindən və ya ailəsindən asılı olduğu immigrant qruplarnda izlənilir. Qadınlar yalnız dar çərçivədə özlərinin ailəsi ilə ünsiyyətdə olur və cəmiyyətdən təcrid olurlar. Bu, onların özəl həyat sahəsinə sıxışdırılmasına və nəticədə, şəxsi mövqeyindən və ictimai məkanda öz müqəddəratını təyin etmək hüququndan məhrum edilməsinə gətirib çıxarır. Nəticədə, qadınlar yalnız mədəni şəxsiyyət və icmanın simvolik daşıyıcıları yəni, «mədəniyyətin çoğaltıcıları replikatorları» hesab olunur. Müvafiq olaraq, qadınların tabe olması və onlara nəzarət həm şəxsi, həm də kollektiv səviyyədə mədəni şəxsiyyətin qorunub saxlanması və yayılmasını təmin edir. Yalnız bir mədəniyyət nümayəndəliyinin daşıyıcısı hesab edilən belə bir vəziyyətdə olan qadın öz siyasi, sosial və intellektual müqəddəratını təyin etmək hüququndan məhrumdur.

Multikulturalizm nəzəriyyələrinin bu gender laqeydliyi (gender bərabərsizliyi və qadınların öz müqəddəratını təyin etmək hüququ problemi) Avropanın liberal dövlətlərində multikulturalizmin siyasət kimi həyata keçirilməsində çətinliklərə gətirib çıxardı. Bəzi hallarda mədəni icmaların qrup hüquqlarının tanınması bu qrupun daxilindəki qadınların fərdi hüquqlarının pozulmasını nəzərdə tutur. Belə hallar qrupa verilən hüquqların qadınları açıq-aşkar ayrı-seçkiliyinə (erkən nigah, qadın sünnəti, poliygamiya - islam qrupları daxilində Fransada rəsmən icazə verilmiş) gətirib çıxaran mədəni tətbiqlərlə bağlı olduqda baş verir. Eyni zamanda, bir tərəfdən, Avropanın liberal dövlətləri gender bərabərliyi və insan hüquqlarını əsas dəyərlər kimi təmsil edir, digər tərəfdən etnik azlıqlarda qadınlara qarşı olan ayrı-seçkiliyi mədəni praktikalar

hesab edirlər. Bununla da onlar dövlət səviyyəsində gender bərabərsizliyini dəstəkləyirlər.

Feminizm mövqeyindən danışan S.M. Oukin Avropa ölkələrindəki mövcud vəziyyətdə aşağıdakı həll yollarını görür. Birincisi, yalnız immiqrant qrupları və dominant icma arasında mövcud olan mədəni fərqlərə deyil, eyni zamanda «mədəni qruplar çərçivəsində mövcud gender bərabərsizliyinə» də diqqət yetirilməlidir. İkincisi, bu və ya digər mədəni təcrübələrin tanınmasına qrup hüquqlarının müzakirəsində mədəni cəmiyyətin bütün üzvlərinin «bərabər təmsilçilik» imkanını təmin etmək lazımdır. Əks təqdirdə cəmiyyətdə ən çox ayrı-seçkiliyə məruz qalan qadınların hüquqlarının pozulması davam edəcək.

Beləliklə, Avropa milli dövlətləri kontekstində immiqrasiya ölkələrindən alınmış multikulturalizm siyasəti mədəni qruplar daxılında qadın hüquqları problemini kəskinləşdirirək dövlət səviyyəsində gender bərabərsizliyi problemini daha da gücləndirir. Multikulturalizm tərəfdarları mədəniyyətlərin qorunmasına yardım edən və bununla da mədəni azlıqların mənafelərini qoruyan xüsusi qrup hüquqlarını tanımaq zərurəti barədə danışırlar. Feminizm mövqeyindən mədəni birliklərin qrup hüquqları bu birliklərin daxilində qadınların fərdi hüquqlarını pozur. Buna görə, multikulturalizm siyasətini qəbul edən Avropa liberal dövlətləri qrupların hüdudları arasında mədəniyyətlərin qorunması ilə bu qruplar daxilində qadınların fərdi hüquqları arasında münaqişəyə gətirib çıxaran çətin vəziyyətdə qalırlar. Bu münaqişəni yalnız mədəni qrupların rəsmi rəhbərlərinə deyil, bütün üzvlərinə səs vermək hüququ verməklə həll etmək olar.

Qrup hüquqlarını müzakirə edərkən ən az qorunan mədəni qrupların üzvləri- gənc qadınların fikirləri nəzərə alınmalıdır. S.M.Oukinın fikrincə, yalnız bu şəkildə liberal dövlətlər gender bərabərliyi və multikulturalizm siyasəti arasında meydana çıxan ziddiyyətlərdən qaça bilər.

Multikulturalizm və onunla əlaqəli siyasi alətlər daha çox etnik və dini müxtəlifliyə aiddir. Son illərdə bəzi nəzəriyyəçilər təkcə hüquqlar baxımından deyil, həm də digər əsaslarla uzun müddət ayrı-seçkiliyə məruz qalan qrupların qorunmasını təmin edən nümayəndəlik kimi bir modelindən danışmaqla multikulturalizmi genişləndirməyə çalışırlar. Burada söhbət irq və cinslə bağlı müxtəliflikdən gedir. Hətta demək olar ki, bütün inkişaf etmiş ölkələrdə ayrı-seçkiliyə qarşı siyasət kifayət qədər inkişaf etsə də, həqiqətən də bir çox yerlərdə qadınlar və qara dərili insanlar daha az mükafatlandırılır,

aşağı təhsil və az gəlir əldə edirlər, daha çox işsizliyə və daha çox şiddətə məruz qalırlar. Onların fikirləri az dinlənilir və hələ də bəzi yerlərdə qeyri-kamil və dəyərsiz sayılırlar. Bu tendensiya multikulturalizmin ayrı-seçkilik əleyhinə siyasətin bir hissəsi olub-olmadığınına dair siyasi və akademik müzakirələrə səbəb olur.

Son illərdə multikulturalizm və gender mövzusunun yenidən aktuallaşması miqrasiya böhranı ilə birbaşa bağlıdır. Müxtəlif mədəniyyətlərə mənsub insanların Avropaya gəlməsinin nəticəsi nə olacaq? Müvəffəqiyyətli multikulturalizm modeli mümkündürmü? Multikulturalizm siyasətinin həyata keçirilməsinə nə təsir edə bilər və onun uğursuzluğuna səbəb nə idi? Burada nəzəriyyəçilər və analitiklər bir sıra mühüm şərtləri müəyyənləşdirirlər. Bu şərtlərdən birincisi dövlət sərhədlərinin vəziyyəti və onların qorunmasıdır. Əgər əhali xaricdən təhlükə hiss etmirsə cəmiyyətin inteqrasiyası dövlətin daxili işidir. Bu halda inteqrasiyadan həqiqətən də cəmiyyətin birləşməsi kimi danışmaq olar. Qonşuluqda hərbi cəhətdən güclü bir dövlət varsa və bu dövlət əhəmiyyətli bir azlıq təşkil edən soydaşlarını qorumaq istəyirsə, onda tamamilə fərqli vəziyyət yaranır. Bundan başqa əgər sərhədi keçmək asandırsa və bu sərhədin o üzündə başqa bir seçim olmadığı təqdirdə, onu poza biləcək çox sayda insan varsa, vəziyyət yenə fərqlidir .

Multikulturalizm siyasəti mədəniyyətlərin çox olduğu yerlərdə daha yaxşı işləyir. İkiicmalı dövlətlərdə, bütün miqrantların dünyanın yalnız bir bölgəsindən gəldiyi ölkələrdə multikulturalizm işləmir. Bu, demək olar ki, həmişə cəmiyyətin qütbləşməsinə və maraqların qarşıdurmasına gətirib çıxarır. Bu halda vəziyyəti düzəldən faktor mədəniyyətlərin əsl müxtəlifliyidir. Bundan başqa çoxmədəniyyətli cəmiyyətlərdəki ən böyük risklərdən biri mədəniyyətlərə qoyulan məhdudiyyətdir. Bura həm coğrafi (məsələn, mühacirlərin Avropanın böyük şəhərlərində anklavlarda yaşaması), həm də dil, KİV və təhsil üçün yer olmaması kimi məhduduyyətlər aiddir. Aydındır ki, belə halların aradan qaldırılması həm səy, həm də xərc tələb edir.

Cəmiyyətin bütün üzvləri üçün məcburi olan insan hüquqlarının məcmusu haqqında razılaşma da multikulturalizm siyasətini əsasını təşkil edən amillərdəndir. Bu, həssas bir məsələdir, çünki ənənəvi mədəniyyətlərdə fərdin dəyərləri və hüquqlarına dair müxtəlif fikirlər var və onlar tez və asanlıqla dəyişdirilə bilməzlər. Ancaq əgər bir cəmiyyətdə oyunun qaydalarının hər

kəs üçün eyni olduğuna dair güclü bir inam yoxdursa, orada birliyin ən vacib şərtlərdən olan qarşılıqlı güvənlik prinsipi işləməyəcəkdir.

Bu sadalananlar multikulturalizmin Avropada uğurlu siyasətə çevrilə bilməməsini izah edir. Lakın bu, heç də o demək deyil ki, multikulturalizmi inkar etmək lazımdır. Bunu etmək asan deyil, çünki multikulturalizm həm müsbət, həm də mənfi elementləri ilə hələ də mövcuddur. Avropanın dünyanın başqa dövlətlərinin bu sahədəki səhvlərini təkrarlamamaq üçün hələ də fürsəti var.

## 8.5. Multikulturalizm və media

Media ətrafda baş verənləri cəmiyyətə çatdıran, yeri gəldikdə izah edən, ictimai rəyi formalaşdıran, dövlətin beynəlxalq münasibətlərdəki yerini və rolunu əks etdirən bir vasitədir. Bu günkü şəraitdə mediaya həm də multikulturalizmin öyrənilməsi üçün bir mənbə kimi müraciət edilə bilər. Ona görə də media-multikulturalizm münasibətləri ilkin mərhələdə sadəcə informasiya mübadiləsi, yaxud bir-biri üçün ötürücü vasitə xarakteri daşıyır. Amma sonrakı mərhələdə bunun xaosa çevrilməsi də mümkündür. Buna görə də, media-multikulturalizm münasibətləri elə nizamlanmalıdır ki, mövzu cəmiyyətə düzgün təqdim olunsun. Çünki multikulturalizm elə bir mövzudur ki, onu təqdim edən media nümayəndəsi öz işində həmin məsələyə sistemli yanaşmırsa, adekvat münasibət göstərmirsə, xaotik vəziyyət yaranır. Belə vəziyyət isə sağlam düşüncəyə zərər vurur. Nəticədə, media mövzu ilə bağlı sağlam düşüncəni çatdırmağa çətinlik çəkir. Məlumatla tanış olan auditoriya isə konkret məqamda nəyin doğru olub olmadığını, nəyin subyektiv fikri ifadə etdiyini, nəyinsə həqiqəti əks etdirdiyini müəyyənləşdirə bilmir. Bu mənada jurnalistlərin özlərinin də multikulturalizm və tolerantlıq kimi mövzularda maariflənməsinə ehtiyac var.

Müasir informasiyalı cəmiyyətlərdə hələ tədqiq olunmayan mühüm bir sual mövcuddur. Media çox mədəniyyətliliyi, dini müxtəliflikləri öyrənmək üçün bir mənbə, yoxsa vasitədir? Media bu mövzuya necə yanaşır: onun üçün bu mövzu sadəcə özünüreklamdır, yoxsa media bu mövzunu bir baxış, bir dəyər kimi təqdim edə bilir? Bu suallar akademik şəkildə cavablandırılmalıdır. Mövzu ilə bağlı sadəcə Azərbaycan təcrübəsi üzərində ümumiləşdirilmiş fikir yürütmək doğru deyil. Dünya təcrübəsiylə paralel şəkildə müqayisələr aparmaq və analiz etmək daha məqsədəuyğundur. Araşdırmalar göstərir ki, media multikulturalizm

və tolerantlıq mövzularında ikili münasibət nümayiş etdirir. Bəzən o, məsələni mediatikləşdirir. Bu zaman mövzunun mahiyyətindən əsər-əlamət qalmır. Bəzən isə medianın özünü təqdimatı prosesində istifadə etdiyi mənbə həqiqi dəyərlərə əsaslanır. Bu zaman dini müxtəlifliklər, çox mədəniyyətlilik mövzuları da düzgün təqdim olunur. Əks halda vəziyyət acınacaqlı xarakter ala bilər. Populyarlıq naminə mənbə düzgün seçilməzsə, mövzu qarışıq və anlaşılmaz tərzdə təqdim olunacaq. Nəticədə isə informasiya istehlakçısı da bu münasibətlərdə nəyin doğru, nəyin yanlış olduğunu anlamayacaq. Bu proses xüsusi düşünülmüş konsepsiya əsasında aparıla, yaxud, xaotik tərzdə də təqdim oluna bilər. Burada nə müşahidə etmək mümkündür? Multikulturalizm və tolerantlıq kimi mövzular çox vaxt ayrı-ayrı məqsədə xidmət edən qrupların, yaxud ictimai fəal fərdlərin öz şəxsi maraqları üzərindən media vasitəsilə cəmiyyətə təqdim olunur. Bu mənada multikulturalizm-media münasibətləri mövzusunda mürəkkəb məqamlar mövcuddur. Bütün belə məqamlar araşdırılmalı və öyrənilməlidir.

Bununla əlaqədar olaraq müxtəlif mədəniyyətlilik, tolerantlıq - dözümsüzlük nisbətini müəyyən etmək üçün media vasitələrinin qurduğu informasiya məkanının öyrənilməsinə ehtiyac yaranır. Bu problem xüsusilə 2000-ci illərin əvvəllərində daha fəal araşdırılmışdır. Son zamanlarda «Cəmiyyətdə tolerant münasibətlərin formalaşmasında medianın iştirakı” mövzusuna ictimaiyyətin marağı 2000-ci illə müqayisədə ciddi şəkildə azalmışdır. KİV rəhbərləri və bəzi jurnalistlərlə tolerantlıq və multikulturalizm mövzusunda söhbət açarkən əvvəlki coşğu əvəzinə, gizli qıcıq hissi ortaya çıxır. Bu gün bir çox hallarda tanınmış müəllifləri olan xeyli nəşr var ki, qeyd olunan mövzulara istehza ilə yanaşır.

Tolerantlığın formalaşması üçün ən vacib şərt subyektlər (fərdlər, qruplar, sosial institutlar və dövlətlər) arasındakı qarşılıqlı münasibətlərdə onların bir-birinə olan qarşılıqlı etimadıdır. Öz növbəsində, bu etimad subyektlərin kifayət qədər qarşılıqlı məlumatlandırılmasına və informasiya açıqlığının prezumpsiyasına (hələ əksinin sübut olunmadığı, etibarlı hesab edilən ehtimal) əsaslanır. Sonuncu isə subyektlərin istənilən vaxt bir-birinin plan və fəaliyyəti barədə lazımi məlumatları əldə etməsinə imkan yaradır. Bütün bunlar bizə aşağıdakı konseptual zənciri qurmağa yardım edir: informasiya açıqlığı – etibar – multikultural və tolerant mühit - sosial tərəfdaşlıq - qüvvələrin birləşməsi – problemin effektiv həlli - davamlı inkişafı. Beləliklə, ictimai-sosial əhəmiyyət

daşıyan məlumatlara açıq və maneəsiz giriş yalnız ədalətli idarəetmə və azad bir cəmiyyətin zəmanəti deyil, həm də multikulturalizmin və tolerantlıq münasibətlərinin formalaşması üçün ən mühüm şərtlərindəndir. Bu, öz növbəsində, sosial tərəfdaşlıq mühitinin yaradılmasına və cəmiyyətin davamlı inkişafı üçün müxtəlif subyektlərin səylərini birləşdirməyə kömək edir. Dövlətin real informasiya açıqlığı özünü universal bir alət kimi göstərə bilir. Bütün bunlar ictimai fikrin inkişafı, açıq cəmiyyət, siyasi və kommunikasiya mədəniyyəti dəyərlərinin formalaşdırılması məsələlərini gündəmə gətirir.

Son illərdə mediada şiddətin kütləvi şəkildə əks olunması problemi ilə bağlı aparılan tədqiqatlar göstərdi ki, KİV-də şiddətin səviyyəsi ilə cəmiyyətdə şiddət səviyyəsi arasında bir əlaqə mövcuddur. Media vasitələri zorakılıq aktları iştirakçılarının bir-birinə qarşı göstərdiyi qəddarlığı detallarına qədər təsvir edir. Bu isə kütləvi şüurun zorakılıqla mübarizəyə meylini azaldır, nəticədə, onu həyatın təbii elementi olaraq qəbul etməyə, hətta şiddətə və təcavüzkarlara heyranlıq da nümayiş etdirməyə başlayır. Müasir media müxtəlif təsir metodlarından geniş istifadə edərək, mif, stereotip və əsassız məlumatlar vasitəsilə tamaşaçıların hadisələrə münasibətini formalaşdırır. Bu isə yönəldilmiş məzmunun müəyyən bir obrazla formalaşmasına gətirib çıxarır. Qeyd olunan məzmun da öz növbəsində reallığın qeyri-adekvat obrazlarını - media obrazlarını yaradır. Nəticədə, auditoriya ətraf mühitlə əlaqələrini daha çox həqiqətin özü əsasında deyil, media vasitəsilə təqdim olunan şərh əsasında qurur. Bu zaman əksər hallarda məhz medianın səyi hesabına əsl reallığın KİV-in təqdim etdiyi reallıqla əvəzlənməsini kimsə anlamır.

Müasir dövrdə multikulturalizm və tolerantlıq münasibətlərin formalaşmasında medianın rolu məsələsinə bir neçə yanaşma mövcuddur.

Birinci yanaşma: media məlumatlandıran, maarifləndirən və təbliğ edən fəaliyyətin aktual subyektidir. Bəzi jurnalistlər və kütləvi informasiya vasitələri auditoriyanın şüurunun və davranışın idarə olunmasına yönələn təbliğat-təşviqat kampaniyalarında fəal iştirak edirlər. Bu yanaşma bir-birinə bağlı iki versiyada həyata keçirilir. Birinci versiyanın tərəfdarları mətbuatın cəmiyyəti idarə edən bir qurum olduğuna səmimi şəkildə inanırlar. Onlar medianı gərəksiz məqamlara diqqət ayırmaqda, daha önəmli olan idarəetmə rolunu zəif yerinə yetirməkdə günahlandırırlar. İdarəetmə yanaşmasının digər fərqli versiyasının tərəfdarları isə mediadan ona görə narazıdırlar ki, onlar bəzi daxili və ya

xarici düşmənlərinin mənfi iradəsinə tabe olaraq, milli mədəniyyəti, milli ruhu və mənəviyyatı bilərəkdən məhv etməyə calışırlar. Nəticədə isə bütövlükdə, cəmiyyət laqeydləşir və ruhsuzlaşır.

İkinci yanaşmaya görə, mətbuat həyatda baş verənləri əks etdirən bir aynadır: bəzən çox yüksək keyfiyyətli, bəzən çirkli olsa da. Həyat isə necə varsa, elədir. Nəticə etibarilə, mətbuatı yalnız 2 məqama görə günahlandırmaq olar:

1. Bütün baş verənləri əks etdirməyə zamanın yetməməsi ilə. Bu əsasən, kanalların gücü və maddi problemlərə bağlıdır;

2. Baş verənlərin keyfiyyətsiz əks olunması ilə. Bu isə jurnalistlərin peşəkarlıq səviyyəsi ilə əlaqədardır. (amma son nəticə, yenə də maddi məsələlərə gedib çıxır.)

Üçüncü yanaşma: redaksiyaların dəhlizlərində üstünlük təşkil edən bu yanaşmaya əsasən, müasir dövrdə mediaya adi bir biznes sahəsi kimi baxılır. Onlar istehlakçıların görmək istədikləri məhsulu hazırlayıb təqdim edirlər. Bu məhsullar tamaşaçılara "satılır", tamaşaçı audioriyası isə, nə qədər kobud səslənsə də, reklam verənə. Bu yanaşmada reallığın əks olunmasının təsiri və ya adekvatlığı məsələsi artıq öz əhəmiyyətini itirir.

Dördüncü yanaşma bəzi alimlər tərəfindən hazırlanaraq təklif olunur. Bu yanaşmaya əsasən, mətbuatın əsas vəzifəsi müxtəlif sosial qüvvələr arasında dialoqun təşkil olunmasıdır. Ancaq media yalnız münasibətlərə aydınlıq gətirmək istəyən müxtəlif sosial qrup və elita nümayəndələrinin görüşdüyü bir meydan, yaxud platforma deyildir. KİV müzakirələr təşkil edən, hər hansı bir səbəbdən (məsələn, anadangəlmə, dillə bağlı) düşüncələrini yetərincə düzgün çatdıra bilməyənlərə öz fikirlərini dəqiq ifadə etməyə kömək edən peşəkar moderatordur. Media danışıq aparan tərəflərin ortaq razılığa gəlməsinə kömək etməyə çalışmalıdır. Bu yanaşmanın tərəfdarları hesab edirlər ki, mətbuatın, hər şeydən əvvəl, təbliğat, maarifləndirmə, mənəvi dəyərləri formalaşdıran vasitə olduğu dövrlər artıq geridə qalıb. Zövqlər və ağıllar üçün vahid standartların mövcud olduğu dövr artıq bitib. Dövr də, tələblər də, vəzifələr də dəyişib. Hər kəs öz baxışlarını ifadə etmək, dəstəkləmək və dialoqlara qatılmaq hüququna malikdir.

Bir maarifləndirici təbliğat funksiyası kimi multikulturalizmin və tolerantlığın təbliğində KİV-in rolu danılmazdır. Lakin bu zaman əhalinin müxtəlif qrupları ilə aktiv dialoqu nəzərə almaq lazımdır. Bu dialoq multikultural

və tolerant mühitin yaradılmasına imkan verir; cəmiyyət daxilində, eləcə də digər qütb cəbhələrdən yönəlmiş əks-düşüncələri, habelə hərəkətləri stimullaşdırmalıdır.

Cəmiyyətdə multikulturalizm və tolerantlıq ənənələrinin geniş yayılması, eləcə də qorunub saxlanılmasında medianın nüfuzlu bir qaynaq rolunu oynaması üçün ictimai institutlar sistemində onun yeri yenidən nəzərdən keçirilməlidir. Çünki bu gün media daha çox informasiya və ünsiyyət qaynağı, ya da hakimiyyətlə əhali arasında vasitəçı rolunda çıxış edir. Nəzərə almaq lazımdır ki, KİV vətəndaşların özünüidarəetmə və özünüinkişaf proseslərinin zəruri bir elementinə, vətəndaş cəmiyyətinin sıx bir şəbəkəsinə çevrildikdən sonra onun həm təsir dairəsi, həm də səviyyəsi bir neçə dəfə artır.

Əslində, vətəndaş cəmiyyətində multikulturalizmin, tolerantlığın, eləcə də bir çox mənəvi dəyərlərin, prinsiplərin, norma və davranış nümunələrinin qoruyucusu kimi media deyil, müxtəlif icmalar və qurumlar çıxış edir. Eləcə də ayrı-ayrı qrupların bu məsələyə təsiri danılmazdır. Buna görə müasir dövrdə kommunikasiya kanallarını multikulturalizm və tolerantlıq mövzusu ilə əlaqədar kifayət qədər yüksək keyfiyyətli məlumatlarla yükləyən zaman, həmin qrupların da fəal olmasına və internet istifadəçilərinin sayının artması ilə cəmiyyət həyatına böyük təsiri göz qabağında olan sosial şəbəkələrə xüsusi diqqət yetirilməlidir.

Multikulturalizmin, tolerantlıq ənənələrinin formalaşması və yayılması üçün kütləvi informasiya vasitələrinin səmərəliliyinə təsir göstərən əsas amillərdən biri də, onların bütün dövlət qurumları tərəfindən tanınan, auditoriya tərəfindən qəbul edilən müstəqilliyi, yəni hökumətdən və maliyyə sektorundan asılılığıdır. Bu zaman onu da bilmək lazımdır ki, medianın azadlığı sadəcə öz mövqeyini seçmək azadlığı ilə məhdudlaşır. Ənənəvi olaraq, medianın müstəqilliyi isə paradoksal səslənsə də, onun bir çox fərqli faktorlardan asılılığı, eləcə də, müxtəlif siyasi amillərlə bağlılığıdır. Məhz təsir edən qüvvələrin sayca çox və müxtəlif istiqamətli olması, eləcə də ümumi mənzərənin çox ekranlı, mozaik quruluşu, habelə daxili uyğunsuzluğu bütövlükdə onun obyektivliyini müəyyən edir.

Müstəqilliyə can atan jurnalistlər müasir cəmiyyətin mövcud durumu və gələcəyi üçün daşıdıqları məsuliyyətin ölçüsünü dərk etməli, düzgün müəyyənləşdirməlidirlər. Tamaşaçıları manipulyasiya obyekti və ya informasiya məhsulunun toplu istehlakçı qrupu kimi dəyərləndirmək düzgün deyil. Artıq

oxucu, tamaşaçı və dinləyicilərə media materiallarına öz imkan və bacarıqlarını genişləndirməyə əsas verəcək yüksək dəyərlər, insani keyfiyyətlər, uğurlu nümunələr tapmaq məqsədlə müraciət edən müstəqil şəxsiyyət kimi yanaşmaq lazımdır. Media öz auditoriyası qarşısında duran problemləri həll etməli, eyni zamanda, şəxsi özünüinkişaf metodları, multikulturalizm və tolerantlıq ənənələrinin mənimsənilməsi yollarını göstərən zəruri metod və üsulların mənbəyi olmalıdır.

Multikulturalizmin, eləcə də tolerantlığın təbliğinə səmərəli və fəal şəkildə qoşulmaq üçün media özü də ictimai-sosial proseslərin bütün iştirakçıları arasında kütləvi dialoqun təşkilini təmin edəcək yeni və əsaslı peşəkar vasitələrə sahib olmalıdır. Bu mövzunun mediada işlənməsi zamanı əsas istiqamət təxminən aşağıdakı fikirlə ifadə oluna bilər: «Dialoq və anlaşma multikulturalizmin, tolerantlığın açarıdır».

Söhbətin hansısa tələbə yataqxanası, yaxud bütövlükdə bəşəriyyət haqda getməsindən asılı olmayaraq, dialoq ideyası istənilən qrup daxilində müxtəlif mövqeli nümayəndələrin bir yerdə sülhsevər şəkildə yaşaya bilməsi anlamına gəlir. «Başqa» biri ilə görüşdükdə, biz istər-istəməz dilemma qarşısında qalırıq: öz mövqeyimizi və fikirlərimizi doğru, həmin "başqa"sının fikirlərini isə yanlış hesab etməli; yoxsa hər iki eyni hüquqa malik olan yanaşı mövqenin fikirklərini qismən doğru saymalıyıq. İlk yolun seçilməsi monoloji təşkilata, müxaliflərə qarşı mübarizəyə; ikincinin seçimi isə - dialoqa, lakin müəyyən bir çərçivədə, zəruri olduqda konkret qanun çərçivəsində məhdudlaşan, tərəfdaşlığa, yaxud rəqabətə gətirib çıxarır.

Həm xarici, həm də yerli təcrübə göstərir ki, dialoq və mədəniyyətlərarası dialoq düzgün tətbiq edilmədikdə, yaxud anlaşılmadıqda multikulturalizm və tolerantlıq anlayışlarının özündə daşıdığı bənzərsiz siyasi dürüstlük əks prosesə, yəni monoloqa və azlıqların diktəsinə çevrilə bilər. Bu zaman insanlar öz əsl müqəddəratlarını təyin etmək qabiliyyətini itirirlər. Onlar özlərini yalnız qrup mənsubiyyətinə görə müəyyənləşdirirlər. Bununla da yenidən «bizim» və «bizim deyil» fikirləri ortaya çıxır, mədəni dəyərlərin iyerarxiyası yayılır və s. Bu genişmiqyaslı problemlərin qarşısını almaq üçün multikulturalizmin və tolerantlığın qanuni çərçivə ilə müəyyənləşdirilmiş özünəməxsus məhdudiyyət şərtlərinə sahib olması zəruridir.

Demokratik cəmiyyətlərdə qanun qarşısında bütün vətəndaşlar

bərabərhüquqludurlar. Qanun çərçivəsində, kimsə bir-biri ilə düşmən ola bilməz, yalnız rəqib ola bilərlər. Dialoq çərçivəsi bütün insanların, bütün millətlərin fərqli olduğu fikrini qəbul etmək deməkdir. Hər kəsin öz yanaşma tərzi və subyektiv fikri ola bilər. Lakin kimsə bunun yeganə müsbət və doğru fikir olduğunu bəyan edə bilməz, cünki belə bir haqqı yoxdur. Belə əsassız iddialardan imtina etməklə, biz sülh şəraitində birgə yaşayış imkanını, eləcə də müxtəlif yanaşmaların, maraqların, baxışların, münasibətlərin və mədəniyyətlərin qarşılıqlı əlaqədə inkişafının ən vacib resursunu qazana bilərik. Belə bir yanaşma jurnalistlərə, eləcə də media, hökumət və cəmiyyət arasındakı münasibətlər sisteminə kifayət qədər yüksək tələblər qoyur. Jurnalistlərin, onların öz şəxsi qənaətlərinə görə də, aşağıdakı tədbirləri görmələri zəruridir:

1. peşə etikası qaydalarına riayət etmək;
2. xüsusi seminarlar, konfranslar, müzakirələr, təlimlər vasitəsilə öz fəaliyyətlərində multikulturalizm ideyalarını və tolerantlıq ruhunu həyata keçirmək;
3. jurnalistlərin hərəkətlərini tənzimləyən qanunvericilik bazasını gücləndirmək;
4. Mübahisəli nəşrlərin peşəkar ekspert qiymətləndirməsini həyata keçirəcək müxtəlif strukturların yaradılması.

Həyata keçirildiyi təqdirdə multikultural və tolerant düşüncənin formalaşması, eləcə də möhkəmlənməsinə daha güclü təsir edəcək pozitiv bir fəaliyyət proqramı hazırlamaqla, jurnalistlər iş prosesində aşağıdakı istiqamətlərini müəyyənləşdirirlər:

- oxucularda, tamaşaçılarda, dinləyicilərdə mövcud mədəni müxtəlifliklərə hörmət hissini yaratmaq və qorumaq;
- fərqli insanların sahib olduğu ideya və dəyərlərin müxtəlifliyinə pozitiv yanaşma;
- ekstremizmin antisosial təbiətinin bütün təzahürlərində nümayiş etdirilməsi;
- müxtəlif sosial qrupların qarşılıqlı fəaliyyətinə, ictimai dialoqun və sosial tərəfdaşlığın təşkilinə yardım;
- Multikultural və tolerant davranış normaları standartlarının təşviqi (inkişafını stimullaşdımaq)

Jurnalistlərin multikultural və tolerant bir cəmiyyətin formalaşdırılması

probleminin həlli istiqamətində səylərindən əlavə bu sahədə mütəxəssis mövqeyi, onun bağlı olduğu icmaların rəyi də çox vacibdir. Aşağıdakı kimi bir sıra vacib məsələlər məhz onlardan asılıdır:

- interaktiv, sosial məsuliyyətli jurnalistika modelinin inkişaf etdirilməsi və media ideologiyasının ictimai kompromis axtarışını təmin edən kütləvi moderator kimi formalaşdırılması;
- jurnalistika fakültələrində, habelə media işçilərinin ixtisas artırılması və təkmilləşdirilməsi təlimlərində müvafiq tədris proqramlarının hazırlanması və həyata keçirilməsi;
- ixtisaslı media tənqidi qurumunun formalaşdırılması;
- təcavüzkarlıq və ekstremizm problemləri ilə bağlı geniş dialoq üçün ictimai müzakirələr, təhsil və maarifləndirmə tədbirlərinin keçirilməsi;
- etnik, irqi və dini məsələləri əhatə edən jurnalistika sahəsində peşəkar standartların, etik normaların və özünü tənzimləmə mexanizmlərinin inkişaf etdirilməsi.

Medianın ekstremizm və ksenofobiyaya qarşı mübarizə vəzifəsini təyin edərkən, söz və mətbuat azadlığı ilə bağlı məhdudiyyətlər tətbiq etməkdən qaçmaq çox önəmlidir. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, tolerantlıq və multikulturalizmin səthi təbliği müsbət nəticə verməyəcək. Ölkədə ümumi atmosferi sadəcə əks münasibətin tənqidi və tolerant davranış, eləcə də multikultural ənənə nümunələrinin nümayişi ilə dəyişmək mümkün deyil. Bunu etmək üçün bütün sosial inkişaf subyektləri: öz maraqlarını təmsil edən vətəndaşlar və qurumlar, dövlət orqanları, biznes strukturları, eləcə də media bir çox dəyişməz görünən təsəvvürləri və mədəni düşüncələri yenidən nəzərdən keçirməli, uzun və çətin bir yol qət etməlidir.

## Fəslə aid suallar

1. Multikulturalizmin daxili siyasətin tərkib hissəsi olması özünü nədə büruzə verir?
2. Niyə multikulturalizm siyasətini aparan dövlət milli azlıqların hüquq və azadlıqlarının qorunması sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq etməli və bu təşkilatların sözügedən sahə ilə bağlı qəbul etdikləri sənədlərə öz münasibətini bildirməlidir?
3. BMT tərəfindən milli azlıqların hüquq və azadlıqlarının qorunmasına dair hansı sənədlər qəbul olunmuşdur?
4. Avropa Şurası tərəfindən milli azlıqların hüquq və azadlıqlarının qorunmasına dair hansı sənədlər qəbul olunmuşdur?
5. UNESKO tərəfindən milli azlıqların hüquq və azadlıqlarının qorunmasına dair hansı sənədlər qəbul olunmuşdur?
6. BMT, Avropa Şurası, UNESKO kimi beynəlxalq təşkilatlar tərəfindən milli azlıqların hüquq və azadlıqlarının qorunmasına dair qəbul olunmuş sənədlərin əhəmiyyəti nədən ibarətdir?
7. Nəyə görə milli azlıqların hüquq və azadlıqlarının qorunmasına dair beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş sənədlərə münasibət bildirən hər bir ölkə bu sənədlərdəki müddəalara ehtiyatla yanaşmalıdır?
8. Ölkədə dövlət-din münasibətlərinin yüksək səviyyədə olması dedikdə nə nəzərdə tutulur?
9. Multikulturalizmin dövlətin xarici siyasətinin tərkib hissəsi, mühüm bir istiqaməti kimi çıxış etməsi özünü nədə büruzə verir?
10. Multikulturalizm daxili siyasətin tərkib hissəsi olmadan ölkənin xarici siyasətində özünü büruzə verə bilərmi? Niyə?
11. Multikultural təhlükəsizliyin milli təhlükəsizliyin tərkib hissəsi olması nə ilə izah olunur?
12. Milli təhlükəsizlik nədir?
13. Davamlı inkişaf nədir?
14. İnkluziv inkişaf nədir?
15. Multikulturalizm siyasətinin davamlı inkişafa təsiri özünü nədə büruzə verir?
16. Multikulturalizm siyasətinin hansı funksiyası inkişafın inkluzivliyini təmin edir?

17. Multikulturalizm ilə təhlükəsizlik arasındakı əlaqəni təkzib edən qərb siyasətçiləri və tədqiqatçıları öz fikirlərini hansı arqumetlərlə əsaslandırırlar?
18. Gender nədir?
19. Maskulinizm və feminizm nədir?
20. Gender stereotipləri nədir? Onlar necə formalaşır?
21. Genderin sosial quruluş nəzəriyyəsinin əsas müddəaları hansılardır?
22. Gender bərabərliyi və gender fərqliliyi nədir?
23. Gender ideologiyası nədir?
24. Gender rolu dedikdə nə başa düşülür?
25. Multikulturalizm və gender arasında münasibət nədən ibarətdir?
26. Multikulturalizm siyasətinin Avropa modelini feministlər niyə tənqid edirdilər?
27. Feministlər gender bərabərsizliyini aradan qaldlrılması yollarını nədə görürlər?
28. Müasir dövrdə multikulturalizm və tolerantlıq münasibətlərinin formalaşmasında medianın rolu məsələsinə hansı yanaşmalar mövcuddur?
29. Media çoxmədəniyyətliliyi, dini müxtəlifliyi öyrənmək üçün mənbə, yoxsa vasitədir?
30. Tolerantlığı qəbul etməyən cəmiyyətlər bunu nə ilə əlaqələndirirlər?
31. Multikulturalizm və tolerantlığın təbliği istiqamətində hansı addmlar atılmalıdır?
32. Medianın demokratik cəmiyyətdəki rolunu necə görürsünüz?

# Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1995, http://www.e-qanun.az/framework/897
2. "Milli və yaxud etnik, dini və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında" Bəyannamə. 18 dekabr 1992. https://www.ohchr.org/en/professionalinterest/pages/minorities.aspx
3. "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya. 21 dekabr 1965. https://www.ohchr.org/en/professionalinterest/pages/cerd.aspx
4. "Milli azlıqların hüquqlarının müdafiəsi haqqında" Çərçivə Konvensiyası. 1 fevral 1995. http://www.e-qanun.az/alpidata/framework/data/0/f_759.htm
5. "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə dair" Konvensiya. Noyabr 2001. http://www.e-qanun.az/framework/19041
6. "Dözümlülük prinsipi haqqında" Bəyannamə. 16 noyabr 1995. https://unesdoc.UNESKO.org/ark:/48223/pf0000151830
7. "Mədəni Müxtəliflik haqqında Ümumi Bəyənnamə" 2 noyabr 2001. https://www.ohchr.org/Documents/ProfessionalInterest/diversity.pdf
8. ECRİ-nin Azərbaycan üzrə hesabatı (dördüncü monitorinq dövrü). 23 mart 2011.https://www.refworld.org/cgi-in/texis/vtx/rwmain/opendocpdf.pdf?reldoc=y&docid=584e86934
9. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu, https://president.az/articles/7392
10. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. http://edu.gov.az/az/page/72/302
11. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. https://azertag.az/xeber/Azerbaycan_Respublikasi_regionlarinin_2019_2023_cu_illerde_sosial_iqtisadi_inkisafi_Dovlet_Proqraminin_tesdiq_edilmesi_haqqinda__Azerbaycan_Respublikasi_Prezidentinin_Fermani-1239504
12. Azərbaycan Respublikasında Ümumdünya Mədəniyyətlərarası Dialoq

Forumunun təşkili barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. http://president.az/articles/2316

13. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı http://www.president.az/articles/11740
14. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi http://multikulturalizm.gov.az/page/baki-beynelxalq-multikulturalizm-merkezinin-nizamnamesi.html
15. Heydər Əliyev. Müstəqillik yolu, Bakı 1997.
16. İlham Əliyev. İlham Əliyev BMT Baş Məclisinin 65-ci sessiyasında çıxış etmişdir. http://president.az/articles/762?locale=az
17. İlham Əliyev. Bakıda Heydər məscidinin açılışında İlham Əliyevin nitqi. http://www.president.az/articles/13981
18. İlham Əliyev. Prezident İlham Əliyev Gəncədə "İmamzadə" dini kompleksində yaradılan şəraitlə tanış olub. Azərbaycan qəzeti 17 fevral 2016.
19. İlham Əliyev. İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_sedrliyi_ile_Nazirler_Kabinetinin_2018_ci_ilin_sosial_iqtisadi_inkisafinin_yekunlarina_ve_qarsida_duran_vezifelere_hesr_olunan_iclasi_kechirilib_YENILANIB_3_VIDEO-1232332
20. İlham Əliyev. Prezident İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışında iştirak edib. 2 may 2019. https://president.az/articles/33027
21. Mehriban Əliyeva. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda çıxışı. https://azertag.az/xeber/Bakida_IV_Umumdunya_Medeniyyetlerarasi_Dialoq_Forumunun_resmi_achilisi_olubAzerbaycan_Prezidenti_Ilham_Aliyev_achilisda_istirak_edib__YENILANIB_3_VIDEO-1057274
22. Abdullayev K.M. Azərbaycanın müstəqilliyi illərində multikulturalizm və tolerantlıq. Müstəqillik yollarında. Bakı, 2016, s. 504-517.
23. Azərbaycan multikulturalizmi. (Ali məktəblər üçün dərslik). (AMEA-nın

həqiqi üzvü K.M.Abdullayevin və prof. E.Ə.Nəcəfovun redaktəsi ilə), Bakı, 2017, s. 37-40.
24. Ələkbərov U. İnsan inkişafının əsasları. (Ali məktəblər üçün dərslik). Bakı, 2016.
25. İsmayılov G. Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər ideoloji, milli, ictimai təhlükəsizlik müstəvisində, Bakı, "Nəşriyyat XXI" MMC, 2016.
26. Qurbanlı M., Azərbaycanın nümunəvi din siyasəti: uğurlarımız və perspektivlər Dövlət və Din – № 12 (41), dekabr 2015.
27. Mehdiyev R. Avropa strukturlarının deqradasiyasının mənbələri haqqında və ya Azərbaycana münasibətdə ikili standartlar siyasəti. http://az.trend.az/azerbaijan/politics/2449678.html
28. Məmmədli N. Multikulturalizm və gender məsələsi. Multikulturalizm Panaseya yoxsa Alternativ. Bakı, 2016, s. 144-154.
29. Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası. I Virtual Dəyirmi Masa. Bakı Beynalxalq Multukulturalizm Mərkəzi, 2014.
30. Nəcəfov E.Ə. İctimai inkişafda mədəniyyətin aparıcı rolu və multikulturalizm siyasəti. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N4 (56), 2016, s. 88-93.
31. Nəcəfov E.Ə.Multikulturalizmin mahiyyətinə dair. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N3 (51), 2015, s.103-112.
32. Nəcəfov E.Ə. Multikulturalizmin mahiyyətinə dair. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N3 (51), 2015, s.109.
33. Paşazadə A. Qafqazda İslam, Bakı, Azərnəşr, 1991.
34. Seyidbəyli Məryəm "Azərbaycan diasporu: tarix və müasirlik", Bakı 2016.
35. Дзялошинский И.М. Толерантность и мультикультурализм – ценностные ориентиры СМИ//"Толерантность в современном мире" национальный психологический журнал. – 2011. – №2(6).
36. Серль Д. Политика и гуманитарное образование // Отечественные записки. – 2002. – №1.
37. Тлостанова М. "Мультикультурный проект и СМИ". http://www.dzyalosh.ru/01-comm/statii/tlostanova-01/proect.html

38. Human Development Report 2015. Work for Human Development http://hdr.undp.org/sites/default/files/2015_human_development_report.pdf
39. Kymlicka W. Multicultural citizenship: A liberal theory of minority rights. Oxford: Clarendon Press.
40. The Inclusive Development Index 2018 Summary and Data Highlights, http://www3.weforum.org/docs/WEF_Forum_IncGrwth_2018.pdf
41. Taylor Ch., Multiculturalism and "The Politics of Recognition" Princeton University Press.
42. Huntington S. The clash of civilizations and the remaking of world order. New York, Simon and Schuster, 1996.

# IX FƏSİL

# ETNİK-MƏDƏNİ MÜXTƏLİFLİYİN QORUNMASI VƏ MULTİKULTURALİZM SİYASƏTİNİN ÖLÇÜLMƏSİ.

# MİQRANT İNTEQRASİYA SİYASƏTİ İNDEKSİ (MİPEX)

Birinci fəslin əvvəlində qeyd olunduğu kimi, multikulturalizm siyasəti cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərə münasibətdə dövlətin apardığı konkret siyasəti xarakterizə edir. Bu siyasətin əsasında isə cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunması durur. Bu baxımdan bu və ya digər dövlətin multikulturalizm siyasəti sahəsindəki uğurlu fəaliyyətinin əsas göstəricisi cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin qorunmasıdır. Bəs etnik-mədəni müxtəlifliyin qorunmasının, ümumiyyətlə multikulturalizm siyasətinin səmərəliliyi özünü hansı göstəricilərdə, indikatorlarda büruzə verir? Multikulturalizm siyasətinin səmərəliliyini necə ölçmək olar? Məsələn, məlum olduğu kimi, dünya ölkələrinin iqtisadi inkişaf səviyyəsi ənənəvi olaraq ümumdaxili məhsulun (ÜDM) ümumi həcmi və onun adambaşına düşən payı ilə ölçülür. Bu göstəricilərin əsasında Dünya Bankı bütün ölkələri iqtisadi inkişaflarına görə 4 qrupa bölür: yüksək, yuxarı-orta, aşağı-orta və aşağı gəlirli ölkələr. Ölkələrin iqtisadi inkişaf səviyyəsinin ölçülməsinə bənzər ölkədəki etnik-mədəni müxtəlifliyin qorunmasının səviyyəsinin, multikulturalizm siyasətinin səmərəliliyinin ölçülməsinin yolu varmı? Burada hansı indikatorlardan istifadə olunur? Bu indikatorlar necə ölçülür?

Ölkədə etnik-mədəni müxtəlifliyin qorunmasının və multikulturalizm siyasətinin səmərəliliyi dedikdə, burada titul xalqla bir cəmiyyətdə yaşayan 3 əsas azlıq qrupunun vəziyyəti nəzərdə tutulur:

1. Azlıqda olan yerli xalqlar (avtoxton xalqlar);

2. Tarixin müxtəlif mərhələlərində ölkəyə gəlib burada məskunlaşmış milli azlıqlar (alloxton xalqlar);

3. Müasir dövdə siyasi, hərbi, iqtisadi, sosial və digər səbəblərdən ölkəyə pənah gətirmiş miqrantlar.

Qeyd olunan azlıq qruplarının cəmiyyətdəki vəziyyəti dedikdə, onların hər biri üçün ayrıca yaşadıqları cəmiyyətə inteqrasiya olmalarına kömək edəcək şərtlərin dövlət tərəfindən həll edilməsi nəzərdə tutulur. Azlıq qruplarının yaşadıqları cəmiyyətə inteqrasiya olmasının şərtlərinin ödənilməsi eyni zamanda ölkədə etnik-mədəni müxtəlifliyin qorunmasının və multikulturalizm siyasətinin səmərəliliyinin indikatorlarıdır.

Əlbəttə, hər bir azlıq qrupunun bu və ya digər ölkədə olma və ya ölkəyə gəlmə tarixləri, onların siyasi, iqtisadi, sosial, mədəni tələbatları bir-birindən fərqli olduğuna görə onların yaşadıqları cəmiyyətə inteqrasiya olma məsələləri, şərtləri bir-birindən fərqlənir. Başqa sözlə desək, sözügedən 3 azlıq qrupunun hər birinin yaşadığı cəmiyyətə inteqrasiya olmasının şərtləri arasında müəyyən fərqlər vardır. Buna görə də hər bir azlıq qrupuna münasibətdə multikulturalizm siyasətinin səmərəliliyini göstərən indikatorlar müəyyən edilmişdir. Onları nəzərdən keçirək.

## 9.1. Azlıqda olan yerli xalqlar üzrə multikulturalizm siyasəti indeksi

Kanadanın Kvins universitetinin tədqiqatçıları *azlıqda olan yerli xalqlar* (avtoxton azlıqlar) üzrə multikulturalizm siyasətinin səmərəliliyini müəyyən etmək məqsədilə 9 indikator tərtib etmişlər:

*1. Torpaq hüququnun tanınması;*

Bu indikator adından göründüyü kimi, yerli xalqların ən mühüm hüquqlarından biri olan torpaq hüququnun tanınmasını nəzərdə tutur. Torpaq hüququ yerli xalqlar üçün mühüm əhəmiyyət kəsb edir. Çünki o, yerli xalqların bilavasitə statusunu, yəni onların müəyyən ölkədə avtoxton xalq olduqlarını təsdiq edir.

2. Özünüidarəetmə hüququnun tanınması;

Ölkə qanunvericiliyində yerli xalqların özünüidarəetmə hüququnun tanınması da onların statusunu təsdiqləyən bir göstəricidir. Hökumət tərəfindən yerli xalqlara aid məsələlərin həll olunmasında (məsələn, yerli xalqların

dillərinin, etnik-mədəni dəyərlərinin qorunması) onların təkliflərinin nəzərə alınması multikulturalizm siyasətinin səmərəliliyini göstərən bir faktdır.

*3. Dövlətin vaxtilə yerli xalqlarla bağladığı müqavilələri tanıması və/ və ya yeni müqavilələr imzalaması;*

Böyük Britaniya, Fransa, İspaniya və digər Avropa ölkələrindən olan kolonistlər Amerikada, Afrikada, Avstraliyada, Asiyada torpaqları zəbt edərkən həmin torpaqlarda yaşayan yerli tayfalarla müqavilələr bağlayaraq onları öz tərəflərinə çəkmiş və torpaqlarında öz dövlətlərini yaratmağa müvəffəq olmuşlar. İmzalanan müqavilələrdə yaşadıqları torpaqların bir hissəsini kolonistlərə verdiklərinin müqabilində bu tayfaların təhlükəsizliklərinə təminat verilir, suverenliklərinə hörmətlə yanaşılır, tayfalar üçün ayrılmış ərazilərdə onların dinc yaşamaları üçün şəraitin yaradılmasına dair kolonistlər tərəfindən öhdəliklər götürülürdü. Məsələn, 1871-ci ilədək ABŞ höküməti hind tayfaları ilə 400-dək bu məzmunlu müqavilə imzalamışdır. İlk müqaviləni ABŞ hökuməti Delavare hind tayfası ilə imzalamışdır. Lakin kolonistlərin yaratdıqları yeni dövlətlər möhkəmləndikcə belə müqavilələrin bağlanması dayandırılmış, bağlanan müqavilələrin əksəriyyəti isə hökumət tərəfindən pozulurdu.

Beləliklə, bu indikator yerli xalqların yaşadıqları cəmiyyətə inteqrasiya olmalarının mühüm bir şərti kimi onların maraqlarını özündə əks etdirən keçmişdə imzalanmış müqavilələrin tanınmasını və / və ya eyni məzmunlu yeni müqavilələrin imzalanmasının vacibliyini göstərir.

*4. Dil, ovçuluq/balıqçılıq, din sahəsində mədəni hüquqların tanınması;*

Qeyd olunan indikator yerli xalqların etnik-mədəni dəyərlərinin qorunmasına aiddir. Dərsliyin VII fəsilin II yarımfəsilində biz belə bir nəticəyə gəldik ki, ictimai inkişafda mədəniyyətin aparıcı rol oynaması müasir dövrdə etnik-mədəni müxtəlifliyin və onun əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasının vacibliyini göstərir. Buna görə də yerli xalqların etnik-mədəni dəyərlərinin qorunması hər bir dövlətin multikulturalizm siyasətinin səmərəli olmasının mühüm bir göstəricisidir.

*5. Adət hüququnun tanınması;*

Söhbət yerli xalqların adət-ənənələrinin dövlət tərəfindən tanınmasından gedir. Yuxarıda qeyd etdiyimiz kimi, etnik-mədəni dəyərlərin qorunması multikulturalizm siyasətinin mühüm bir göstəricisidir.

*6. Yerli xalqların mərkəzi hakimiyyətdə təmsil olunmaları;*

Demokratik ölkələrin qanunvericiliyi yerli xalqların mərkəzi hakimiyyətdə təmsil olunmalarını təmin etməlidir. Bundan başqa hakimiyyət dairələri yerli xalqlara aid məsələlərdə, xususilə onların etnik-mədəni dəyərlərinin qorunması ilə bağlı olan məsələlərdə, onlarla məsləhətləşməlidir.

*7. Konstitusional və ya qanunvericilik səviyyəsində yerli xalqların fərqli statusunun tanınması;*

Bu indikatora əsasən, ölkə Konstitusiyası yaxud qanunvericiliyi yerli xalqların fərqli statusunu təsdiq etməlidir.

*8. Yerli xalqlara dair mövcud beynəlxalq sənədlərin müdafiə olunması və ratifikasiyası;*

Yerli xalqların hüquqlarının müdafiəsinə loyal münasibət bəsləyən hər bir ölkə onların müdafiəsi ilə bağlı olan beynəlxalq sənədləri müdafiə edir. Bu sənədlərdən ən vacibi kimi BMT-nin ixtisaslaşmış qurumu olan Beynəlxalq Əmək Təşkilatı tərəfindən 1989-cu ildə qəbul olunmuş "Yerli və köçəri xalqların Konvensiya" hesab olunur.

*9. Təsdiqedici akt;*

Bəzi Qərb ölkələrində yerli xalqların müxtəlif sahələrdə (təhsil, məşğulluq) təmsilçiliklərini təmin etmək məqsədilə dövlət tərəfindən onlara bəzi imtiyazlar təqdim olunur. Məsələn, işə qəbul olunduqda, ali məktəblərə götürüldükdə yerli xalqların nümayəndələrinə üstünlük verilir. Hökumətin bu aktı *pozitiv diskriminasiya* adlanır. Bu cür imtiyazlar yerli xalqların maddi vəziyyətinin yaxşılaşmasına, onların cəmiyyətə inteqrasiya olmalarına kömək edir.

Kanadanın Kvins universitetinin tədqiqatçıları tərtib etdikləri bu 9 indikator vasitəsilə 1980-ci, 2000-ci və 2010-cu illərdə Avstraliya, Kanada, Danimarka, Finlandiya, Yaponiya, Yeni Zellandiya, Norveç, İsveç və ABŞ-da multikulturalizm siyasətinin səmərəliliyini bu demokratik inkişaf etmiş ölkələrdə yaşayan və azlıqda olan yerli xalqlarının timsalında ölçmüşlər. Bu ölkələrdə yaşayan və azlıqda olan yerli xalqlar üzrə multikulturalizm siyasətinin səmərəliliyi aşağıdakı 3 rəqəm vasitəsilə göstərilmişdir:

1-indikatorun yüksək səviyyədə olması,

0,5 -indikatorun orta səviyyədə olması,

0 - indikatorun aşağı səviyyədə olması və ya yoxluğu.

Aparılan tədqiqatın nəticələri *Cədvəl 1-də* əks olunmuşdur.

**_Cədvəl 1._ Azlıqda olan yerli xalqlar üzrə multikulturalizm siyasəti indeksi (hər bir indikator üçün ballar, 1980-ci, 2000-ci, 2010-cu illər)[1]**

| | Torpaq hüququ | | | Özünü idarəetmə hüququ | | | Müqavilələr | | | Mədəni hüquqlar | | | Adət hüququ | | | Mərkəzi hakimiyyətdə təmsilçilik | | | Fərqli status | | | Beynəlxalq sənədlər | | | Təsdiqedici akt | | | Ümumi bal | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 |
| Avstraliya | 0 | 1 | 1 | 0.5 | 0.5 | 0.5 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 1 | 0 | 0.5 | 0.5 | 0 | 1 | 1 | 0 | 0 | 0.5 | 0 | 0 | 0.5 | 0 | 1 | 1 | 1 | 4.5 | 6 |
| Kanada | 1 | 1 | 1 | 0.5 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 0 | 1 | 1 | 1 | 1 | 0 | 0 | 0.5 | 0 | 1 | 1 | 5.5 | 7 | 8.5 |
| Danimarka | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 1 | 1 | 0 | 0 | 0 | 6 | 7 | 7 |
| Finlandiya | 0 | 0 | 0 | 0.5 | 0.5 | 0.5 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 3.5 | 3.5 | 4 |
| Yaponiya | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 0 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 0 | 0 | 1 | 0 | 0 | 0.5 | 0 | 0 | 0.5 | 3.5 | 3.5 | 4 |
| Yeni Zellandiya | 0.5 | 1 | 1 | 0.5 | 0.5 | 0.5 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 0 | 0.5 | 0 | 0.5 | 0.5 | 6 | 7 | 7.5 |
| Norveç | 0 | 0 | 0.5 | 0 | 0.5 | 0.5 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 0 | 0 | 0 | 0 | 0.5 | 1 | 0.5 | 1 | 1 | 0 | 1 | 1 | 0 | 0 | 0 | 0.5 | 4 | 5 |
| İsveç | 0 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 1 | 0 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 1 | 2 | 3 |
| Amerika Birləşmiş Ştatları | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0.5 | 0.5 | 1 | 1 | 1 | 1 | 1 | 0.5 | 0.5 | 1 | 1 | 1 | 1 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 7.5 | 7.5 | 8 |

*Cədvəl 1-dən* göründüyü kimi, yuxarıda qeyd olunan 9 indikator üzrə 1980-ci, 2000-ci və 2010-cu illərdə Avstraliya, Kanada, Danimarka, Finlandiya, Yaponiya, Yeni Zellandiya, Norveç, İsveç və ABŞ-da yerli xalqlar üzrə ən səmərəli multikulturalizm siyasəti Kanada, ABŞ, Yeni Zellandiya və Danimarkada aparılırdı. İsveç, Finlandiya və Yaponiyada isə bu siyasət nisbətən zəif həyata keçirilirdi.

1 Multiculturalism Policies in Contemporary democracies. Multiculturalism Policies for Indigenous Peoples-Scores for Each Indicator from 1980, 2000, 2010. https://www.queensu.ca/mcp/indigenous-peoples/results

## 9.2. Alloxton azlıqlar üzrə multikulturalizm siyasəti indeksi

Kanadanın Kvins universitetinin tədqiqatçıları *tarixin müxtəlif mərhələlərində ölkəyə köçüb burada məskunlaşmış milli azlıqlar (alloxton azlıqlar)* üzrə multikulturalizm siyasətinin səmərəliliyini müəyyən etmək məqsədilə aşağıdakı 6 indikatoru tərtib etmişlər:

*1. Federal və ya federala bənzər ərazi muxtariyyəti;*

Bu indikator ölkə daxilində milli azlıqlara muxtariyyətin verilməsini nəzərdə tutur. Milli azlıqların kompakt yaşadıqları ərazidə mərkəzi hakimiyyətin subyekti olan muxtariyyət yaranır.

*2. Bölgə və ya bütün ölkə miqyasında rəsmi dil statusu;*

Qeyd olunan indikator milli azlıqların dillərinə bölgə və ya bütün ölkə miqyasında rəsmi dil statusunun verilməsini göstərir.

*3. Milli azlıqların mərkəzi hakimiyyətdə və ya konstitusiya məhkəmələrində təmsilçiliyin təmin edilməsi;*

Bu indikator milli azlıqların mərkəzi hakimiyyətdə və ya konstitusiya məhkəmələrində təmsilçiliklərinin təmin edilməsini nəzərdə tutur. Qeyd olunan təmsilçilik qanunvericilikdə nəzərdə tutulmalıdır. Bu məqsədlə, məsələn, milli azlığın bir neçə nümayəndəsi üçün yer ayrıla bilər, və yaxud seçki məntəqələri elə formalaşdırıla bilər ki, orada milli azlıqların nümayəndələri çoxlu səs toplaya bilsinlər.

*4. Milli azlıqlarının dillərində təhsilin və medianın dövlət tərəfindən maliyyələşdirilməsi;*

Qeyd olunan indikator, adından göründüyü kimi, dövlətin milli azlıqların dillərində olan təhsilə və mediaya maliyyə yardımının edilməsi ilə bağlıdır. Milli azlıqların dillərində təhsilin, televiziya-radio verilişlərinin təşkil olunması, qəzet və jurnalların dərc olunması onların mədəniyyətinin tərkib hissəsi olan ana dillərinin qorunmasına kömək edir. Buna görə də bu məsələnin həll olunması multikulturalizm siyasətinin səmərəliliyini göstərən mühüm bir indikatordur.

*5. Konstitusiya və ya parlament səviyyəsində "çoxmillətliliyin" təsdiq olunması;*

Bu indikator vasitəsilə ölkənin Konstitusiyasında və və ya onun

parlamenti tərəfindən qəbul olunmuş digər normativ-hüquqi sənədlərdə ölkənin çoxmədəniyyətliliyi, yəni onun ərazisində iki və ya daha çox millətin olduğu təsdiqlənir.

*6. Milli azlıqların beynəlxalq arenaya çıxmaları;*

Bu indikator milli azlıqların müvafiq beynəlxalq təşkilatlarda təmsil olunmalarını, onların icmalarının adından beynəlxalq tədbirlərdə iştirak etmələrini, danışıqlar aparmalarını, festivallarda, idman yarışlarında iştirak etmələrini nəzərdə tutur.

Kvins universitetinin tədqiqatçıları tərtib etdikləri bu 6 indikator vasitəsilə 1980-ci, 2000-ci və 2010-cu illər üçün Belçika, Kanada, Finlandiya, Fransa, Yunanıstan, İtaliya, Yaponiya, İspaniya, İsveçrə, Böyük Britaniya və ABŞ-da multikulturalizm siyasətinin səmərəliliyini tarixin müxtəlif mərhələlərində bu demokratik inkişaf etmiş ölkələrə köçərək burada məskunlaşmış milli azlıqların (alloxton azlıqlar) timsalında ölçmüşlər. Əvvəlki tədqiqatda olduğu kimi, milli azlıqlar (alloxton azlıqlar) üzrə sözügedən ölkələrin multikulturalizm siyasətinin səmərəliliyi 3 rəqəm vasitəsilə göstərilmişdir:

1- indikatorun yüksək səviyyədə olması,

0,5 -indikatorun orta səviyyədə olması,

0 - indikatorun aşağı səviyyədə olması və ya yoxluğu.

Aparılan tədqiqatın nəticələri *Cədvəl 2-də* əks olunmuşdur.

***Cədvəl 2. Milli azlıqlar (alloxton azlıqlar) üzrə multikulturalizm siyasəti indeksi (hər bir indikator üçün ballar, 1980-ci, 2000-ci, 2010-cu illər)[2]***

| | **Ərazi muxtariyyatı** | | | **Rəsmi dil statusu** | | | **Zəmanətli təmsilçilik** | | | **Dövlət maliyyələşdirilməsi** | | | **Çoxmillətliyin təsdiq olunması** | | | **Beynəlxalq şəxs** | | | **Ümimi bal** | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **1980** | **2000** | **2010** | **1980** | **2000** | **2010** | **1980** | **2000** | **2010** | **1980** | **2000** | **2010** | **1980** | **2000** | **2010** | **1980** | **2000** | **2010** | **1980** | **2000** | **2010** |
| **Belçika** | 0.5 | 1 | 1 | 1 | 1 | 1 | 0.5 | 1 | 1 | 1 | 1 | 1 | 0.5 | 0.5 | 0.5 | 0 | 1 | 1 | 3.5 | 5.5 | 5.5 |
| **Kanada** | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 0.5 | 1 | 0.5 | 0.5 | 1 | 4.5 | 5 | 6 |
| **Finlandiya** | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0.5 | 1 | 1 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 0.5 | 4 | 4.5 | 4.5 |
| **Fransa** | 0 | 0.5 | 0.5 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 0 | 0 | 0 | 0 | 0 | 0.5 | 0 | 1 | 2 |
| **Yunanıstan** | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| **İtaliya** | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0.5 | 0.5 | 1 | 1 | 1 | 1 | 0 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 3.5 | 4 | 4.5 |
| **Yaponiya** | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| **İspaniya** | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0.5 | 0.5 | 1 | 1 | 1 | 1 | 0.5 | 0.5 | 1 | 0 | 0.5 | 1 | 4 | 4.5 | 6 |
| **İsveçrə** | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0.5 | 0.5 | 0.5 | 1 | 1 | 1 | 0.5 | 0.5 | 0.5 | 0 | 0 | 0 | 4 | 4 | 4 |
| **Böyük Britaniya** | 0 | 1 | 1 | 0 | 1 | 1 | 0.5 | 1 | 1 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 0 | 1 | 1.5 | 5 | 6 |
| **Amerika Birləşmiş** | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 0.5 | 3.5 | 3.5 | 3.5 |

*Cədvəl 2-dən* göründüyü kimi, kimi, yuxarıda qeyd olunan 6 indikator üzrə 1980-ci, 2000-ci və 2010-cu illərdə Belçika, Kanada, Finlandiya, Fransa, Yunanıstan, İtaliya, Yaponiya, İspaniya, İsveçrə və Böyük Britaniyada milli azlıqlar (alloxton azlıqlar) üzrə ən səmərəli multikulturalizm siyasəti Kanada, Belçika və İspaniyada aparılırdı. Yunanıstanda isə, cədvəldən göründüyü kimi, milli azlıqlar üzrə multikulturalizm siyasəti sıfr səviyyəsindədir. Düzdür, bu göstərici üzrə Yaponiyanın da balları Yunanıstanın balları ilə eynidir. Lakin onu nəzərə almaq lazımdır ki, Yaponiya Yunanıstandan və cədvəldə təqdim olunan digər ölkələrdən fərqli olaraq tarixən monoetnik ölkə olmuşdur. Hazırda bu ölkənin əhalisinin 98 faizini yaponlar təşkil edirlər.

2 Multiculturalism Policies in Contemporary democracies. Multiculturalism Policies for National Minorities -Scores for Each Indicator from 1980, 2000, 2010. https://www.queensu.ca/mcp/national-minorities/results

## 9.3. İmmiqrant azlıqlar üzrə multikulturalizm siyasəti indeksi

Kanadalı politoloq Erin Tolley *"Multikulturalizm siyasəti indeksi: İmmiqrant azlıqlar siyasəti"* adlı tədqiqat işində *müasir dövdə siyasi, hərbi, iqtisadi, sosial və digər səbəblərdən ölkəyə pənah gətirmiş miqrantlar* (*immiqrant azlıqlar*) üzrə multikulturalizm siyasətinin səmərəliliyini müəyyən etmək məqsədilə aşağıdakı 8 indikatoru tərtib etmişdir. Yuxarıda nəzərdən keçirdiyimiz digər kanadalı tədqiqatçıların təhlili kimi Tolleyin də elmi işi 1980-ci, 2000-ci və 2010-cu illəri əhatə edir. Lakin Tolley tədqiqatını dünyanın 21 inkişaf etmiş ölkəsinin əsasında aparır. Daha konkret desək, o, 21 inkişaf etmiş ölkə üzrə *immiqrant azlıqlar* üçün multikulturalizm siyasətinin vəziyyətini tədqiq edərək hər bir ölkə üçün bu siyasətin indeksini müəyyən etmişdir. Tolleyin tədqiqatında multikulturalizm siyasətinin vəziyyəti *Cədvəl 3-də* əks olunan 8 indikator vasitəsilə müəyyən edilir.

*Birinci indikator mərkəzi və/ və ya regional və bələdiyyə səviyyələrində multikulturalizm siyasətinin konstitusiya, qanunverici orqan və ya parlament tərəfindən təsdiq olunmasını, həmçinin bu siyasətin icra olunmasını etnik icmalarla məşvərət yolu ilə həyata keçirən nazirliyin, katibliyin və ya məşvərətçi şuranın olmasını göstərir.*

Tolleyə görə, qeyd olunan dövrdə, yəni 1980-ci, 2000-ci və 2010-cu illərdə 21 ölkədən yalnız Avstraliya, Kanada və İsvecdə multikulturalizmə dövlət siyasəti səviyyəsində yanaşılmışdır. Yeri gəlmişkən qeyd edək ki, sözügedən 21 inkişaf etmiş ölkənin əksəriyyətindən fərqli olaraq Azərbaycan Respublikasında multikulturalizm dövlət siyasətidir. Bu siyasətin həyata keçirilməsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi mühüm rol oynayır.

*Cədvəldəki ikinci indikator multikulturalizmin məktəb tədris proqramına daxıl edilməsini qeyd edir.*

Söhbət məktəblərdə multikulturalizmin ayrıca bir fənn kimi, yaxud müəyyən bir fənnin tərkib hissəsi kimi tədris olunmasından gedir. Cədvəldən göründüyü kimi, bu göstərici üzrə Avstraliya, Kanada, İsvec və Yeni Zellandiya öndədir. Bununla belə qeyd etmək lazımdır ki, 2010-cu ildə 21 ölkədən bir neçəsi (Finlandiya, Belçika, Norveç, Portuqaliya, Böyük Britaniya və ABŞ)

***Cədvəl 3. İmmiqrant azlıqlar üzrə multikulturalizm siyasəti indeksi (hər bir indikator üçün ballar, 1980-ci, 2000-ci, 2010-cu illər)[1]***

| | Multikulturalizm siyasətinin təsdiq olunması | | | Tədris proqramı | | | Media | | | Geyim formalarından azad olmalar | | | İkili vətəndaşlıq | | | Etnik qrupların maliyyələşdirilməsi | | | Bilinqual təhsil | | | İmmiqrantlara ünvanlanmış güzəştlər | | | Ümumi bal | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 | 1980 | 2000 | 2010 |
| Avstraliya | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 1 | 1 | 0.5 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0.5 | 1 | 1 | 0 | 1 | 1 | 5 | 8 | 8 |
| Avstriya | 0 | 0 | 0 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 1 | 0 | 0 | 0 | 0 | 1 | 1.5 |
| Belçika | 0 | 1 | 1 | 0 | 0 | 0.5 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 0 | 0.5 | 1 | 0 | 0.5 | 0.5 | 0 | 0 | 1 | 1 | 3 | 5.5 |
| Kanada | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 1 | 1 | 0.5 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0.5 | 0.5 | 0.5 | 0 | 1 | 1 | 5 | 7.5 | 7.5 |
| Danimarka | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 0 | 0 | 0.5 | 0 |
| Finlandiya | 0 | 0 | 1 | 0 | 0 | 1 | 0 | 0.5 | 1 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 0 | 0 | 1 | 0 | 1 | 1 | 0 | 0 | 0 | 0 | 1.5 | 6 |
| Fransa | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 0 | 1 | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 2 | 2 |
| Almaniya | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0.5 | 0 | 0.5 | 0 | 0 | 1 | 1 | 0 | 0.5 | 0.5 | 0 | 0 | 0 | 0 | 2 | 2.5 |
| Yunanıstan | 0 | 0 | 0 | 0 | 0 | 0.5 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 2.5 |
| İrlandiya | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0.5 | 0 | 0 | 0.5 | 1 | 1 | 1 | 0 | 0.5 | 0.5 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 1 | 1.5 | 3 |
| İtaliya | 0 | 0 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1.5 | 1 |
| Yaponiya | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| Hollandiya | 1 | 1 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 0.5 | 0 | 0 | 0.5 | 1 | 1 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0 | 1 | 0 | 0 | 1 | 0 | 2.5 | 5.5 | 2 |
| Yeni Zellandiya | 0.5 | 0.5 | 0.5 | 0.5 | 1 | 1 | 0 | 1 | 1 | 0.5 | 0.5 | 0.5 | 1 | 1 | 1 | 0 | 1 | 0.5 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 2.5 | 5 | 5.5 |
| Norveç | 0 | 0 | 0 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0.5 | 0 | 0 | 3.5 |
| Portuqaliya | 0 | 0.5 | 0.5 | 0 | 0.5 | 0.5 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 1 | 1 | 1 | 0 | 0 | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 2 | 3.5 |
| İspaniya | 0 | 0 | 0.5 | 0 | 0 | 0.5 | 0 | 0 | 0.5 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0.5 | 0 | 1 | 1 | 0 | 0 | 0.5 | 0 | 1 | 3.5 |
| İsveç | 1 | 1 | 1 | 0 | 1 | 1 | 0 | 1 | 1 | 0 | 0 | 1 | 0 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 0 | 0 | 3 | 5 | 7 |
| Isveçrə | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 1 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 1 |
| Böyük Britaniya | 0 | 0 | 0 | 0 | 1 | 0.5 | 0 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 0 | 1 | 1 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 1 | 2.5 | 5.5 | 5.5 |
| Amerika Birləşmiş Ştatları | 0 | 0 | 0 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 0 | 0 | 0 | 0.5 | 0.5 | 0.5 | 1 | 1 | 1 | 3 | 3 | 3 |

1 Tolley Erin “Multiculturalism Policy İndex: İmmigrant Minority Policies”, 2011 School of Policy Studies, Queen’s University at Kingston, Canada, https://www.queensu.ca/mcp/sites/webpublish.queensu.ca.mcpwww/files/files/immigrantminorities/evidence/ImmigrantMinoritiesApr12.pdf

qismən də olsa multikulturalizmlə bağlı olan mövzuları məktəb proqramlarına daxil etmişdir. Fransa, Danimarka, Almaniya, İrlandiya, Yaponiya, Hollandiya isə bu sahədə heç bir iş görməmişdir.

Bu sahədə də ölkəmizin böyük nailiyyətlərinin olduğunu qeyd etmək olduqca vacibdir. Belə ki, hazırda ölkəmizin ali məktəblərində "Multikulturalizmə giriş" (bakalavr səviyyəsi üçün) və "Azərbaycan multikulturalizmi" (magistr səviyyəsi üçün) tədris olunur.

Üçüncü indikator etnik təmsilçiliyin/həssaslığın dövlət mediasının və ya medianın lisenziyalaşdırmasının mandatına daxil edilməsinə aiddir.

Bu indikatora uyğun olaraq, kütləvi informasiya vasitələrinin (KİV) qarşısında bir öhdəlik kimi ölkədə milli azlıqların təmsilçiliyini təmin etmək vəzifəsi durur. Bu vəzifənin tələblərinə uyğun olaraq KİV-lər milli azlıqların etnik-mədəni dəyərlərinin qorunması istiqamətində müəyyən məlumat yayır, verilişlər hazırlayır, onların dillərində qəzet və jurnal nəşr edir. KİV-də etnik məsələnin həssaslığının nəzərə alınmasına xüsusi fikir verilir. Erin Tolleyin təqdim etdiyi cədvəldən göründüyü kimi, 21 ölkə arasında Avstraliya, Kanada, İsvec, Yeni Zellandiya və Böyük Britaniya öndədir. Digər dövlətlərin KİV-lərinin lisenziyalaşdırmasının şərti kimi etnik təmsilçiliyin təmin olunması tələb olunmur.

*Dördüncü indikator qanunla və ya məhkəmənin qərarı ilə qəbul olunmuş geyim formalarından azadolmaların tətbiq edilməsini göstərir*.

Bu tələbə uyğun olaraq, miqrantlar təhsil aldıqları, xidmət çəkdikləri və işlədikləri yerlərdə qəbul olunmuş geyim formasının əvəzinə rəhbərliyin icazəsi ilə öz dini adət-ənənələrinə uyğun paltar geyinə bilərlər. Tolleyin tədqiqatına əsasən, 21 ölkədən yalnız Avstraliya, Kanada və Böyük Britaniya miqrantların geyimlərinə loyal münasibət bəsləyir. Məsələn, Böyük Britaniyada siqxlərə tikinti meydançalarında, motosikl sürdükdə qoruyucu şlem əvəzinə onların ənənəvi papaqları olan türban (çalma) qoymağa icazə verilir. Əksər ölkələrdə isə, xüsusilə son dövrdə, bu məsələ ilə bağlı hökumət tərəfindən heç bir loyallıq göstərilmir.

*Beşinci indikator ikili vətəndaşlığa icazə verilməsi ilə bağlıdır.*

Məlum olduğu kimi, ikili vətəndaşlıq əcnəbilərə köçdükləri ölkədə hətta vətəndaşlıq statusu aldıqdan sonra da əvvəlki vətəndaşlıqlarının saxlanılmasına icazə verir.

Tolleyin tədqiqatında əvvəlki indikatorlarla müqayisədə ikili vətəndaşlığa icazə verilməsi indikatoru üzrə ölkələrin sayı bir qədər çoxdur. Cədvəldən göründüyü kimi, bu ölkələrin sırasında Avstraliya, Kanada, Belçika, Fransa, İrlandiya, İtaliya, Portuqaliya, Hollandiya və Böyük Britaniya vardır. Bununla yanaşı qeyd etmək lazımdır ki, Avstiya, Danimarka, Yaponiya, Norveç və İspaniyada ikili vətəndaşlığa icazə verilmir.

*Altıncı indikator immiqrantlardan ibarət olan etnik qrupların təşkilatlarının və ya fəaliyyətlərinin dövlət tərəfindən maliyyələşdirilməsini göstərir.*

İmmiqrantlardan ibarət olan etnik qrupların nümayəndələrinin yaşadıqları cəmiyyətə inteqrasiya olmalarına kömək etmək məqsədilə onların bu istiqamətdəki fəaliyyətləri dövlət tərəfindən maliyyələşdirilir. Maliyyəşmə əsasən immiqrantlardan ibarət olan etnik azlıqların təşkilatları tərəfindən irəli sürülmüş layihələr vasitəsilə həyata keçirilir. Layihələr immiqrantlardan ibarət olan etnik azlıqların cəmiyyətin müxtəlif sahələrində fəal iştirak etmələrinə, onların etnik-mədəni dəyərlərinin qorunmasına yönəlmişdir.

Tolleyin tədqiqatına əsasən, 1980-ci, 2000-ci və 2010-cu illərdə dövlət tərəfindən maliyyə yardımı ən çox Avstraliya, Kanada və İsveçdə yaşayan immiqrantlardan ibarət olan etnik azlıqların nümayəndələrinə ayrılmışdır. Maliyyələşmənin qismən aparıldığı ölkələr sırasında Tolley Belçika, Fransa, Yeni Zellandiya, Almaniya və Norveçi göstərir. Avstiya, Danimarka, Yunanıstan, İtaliya, Yaponiya və İsveçrədə immiqrantlardan ibarət olan etnik azlıqların nümayəndələrinə dövlət tərəfindən heç bir maliyyə yardımı ayrılmamışdır.

Etnik qrupların təşkilatlarının və ya fəaliyyətlərinin dövlət tərəfindən maliyyələşdirilməsi məsələsi Azərbaycanda da yaxşı təşkil olunmuşdur. Hazırda ölkədə milli azlıqların məsələləri ilə məşğul olan 50-dək QHT, milli mədəniyyət mərkəzləri, ictimai birliklər və cəmiyyətlər fəaliyyət göstərir. Bu qurumlar 2007-ci ildən fəaliyyət göstərən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına müvafiq qrant layihələri ilə müraciət edərək maliyyə yardımı alırlar. Şuraya təqdim olunan layihələr nəticə etibarı ilə etnik azlıqların cəmiyyətə inteqrasiyasına səbəb olur.

*Yeddinci indikator bilinqual və ya ana dilində təhsilin dövlət tərəfindən maliyyələşdirilməsi ilə bağlıdır.*

Bu indikator ölkədə titul xalqla yanaşı etnik azlıqların dillərində də təhsilin dövlət tərəfindən maliyyələşdirilməsini nəzərdə tutur.

Tolleyin təqdim etdiyi cədvəldən göründüyü kimi, 1980-ci, 2000-ci və 2010-cu illərdə bu məsələnin həyata keçirilməsi ilə bağlı ən ideal vəziyyət İsveç və Avstraliyada idi. Qənaətbəxş vəziyyət Avstriya, İspaniya, Belçika və Finlandiyada müşahidə olunurdu. Qeyd olunan illər ərzində Fransa, Danimarka, Yunanıstan, İtaliya, Yaponiya, Böyük Britaniya və İsveçrədə isə bilinqual və ya ana dilində təhsilin maliyyələşdirilməsinə dövlət heç bir köməklik göstərmirdi.

Qeyd edək ki, Azərbaycanda dövlət tərəfindən etnik azlıqların dillərində tədrisin təşkil olunması sahəsində mühüm işlər görülür. Hazırda Azərbaycanda tədris rus dilində olan 300-dən çox, gürcü dilində 10 ümumtəhsil məktəbi vardır. Bundan başqa, Azərbaycanın bir neçə ümumtəhsil məktəblərində ləzgi, talış, ivrit, avar, saxur, udi, kürd, xınalıq dilləri tədris olunur. Təsdiq olunmuş tədris planına görə, bu dillərin hər birinin tədrisinə həftədə ən azı 2 saat vaxt ayrılır. Ləzgi dili I-IX, ivrit dili I-XI, digər dillər isə I-IV siniflərdə tədris olunur. Ümumilikdə ölkə üzrə 382 ümumtəhsil məktəbində milli azlıqlara mənsub 37123 şagird öz ana dilini öyrənir. Bütün xərclər dövlət tərəfindən ödənilir.

*Tolleyin cədvəlində sonuncu indikator kimi əlverişsiz vəziyyətdə olan immiqrantlara dövlət tərəfindən ünvanlanmış güzəştlərin olması göstərilir.*

Söhbət çətin maddi durumda olan immiqrantlara müxtəlif sahələrdə güzəştlərin edilməsindən gedir. Hökumət ölkəyə gəlmiş miqrantların maddi vəziyyətini yaxşılaşdırmaq üçün onları işlə təmin edir, işsizlərə müavinat təyin edir, onlar üçün pulsuz dil kursları təşkil edir, onları təhsil haqqından azad edir və digər imtiyazlı sosial proqramlar həyata keçirir. Hökumətin immiqrantlara ünvanlanmış imtiyazları öz mahiyyətinə görə yuxarıda qeyd etdiyimiz *pozitiv diskriminasiyanın* bir təzahürüdür. Bu imtiyazlar immiqrantların cəmiyyətə inteqrasiya olmalarında olduqca müsbət rol oynayır.

Tolleyin tədqiqatının nəticələrinə görə, immiqrantlara bu cür güzəştlərin edilməsi ən çox ABŞ-da, sonra isə Avstraliya və Kanadada müşahidə olunur. Bir neçə ölkədə isə bu sahədə az miqdarda müəyyən işlər görülür. Lakin 21 ölkənin əksəriyyətində hökumət tərəfindən immiqrantlara onların durumunun yaxşılaşdırılması məqsədilə imtiyaz təklif olunmur.

Cədvəl 3-dən göründüyü kimi, Erin Tolleyin tədqiqatının nəticələrinə əsasən, 2010-cu ildə dünyanın 21 inkişaf etmiş ölkəsində immiqrant azlıqlar üçün multikulturalizm siyasəti Avstraliya, Kanada və İsveçdə daha səmərəli şəkildə həyata keçirilirdi. Belə ki, bu ölkələr 2010-cu ildə immiqrant azlıqlar

üçün multikulturalizm siyasəti yuxarıda qeyd olunan 8 indikator üzrə 8 mümkün baldan Avstraliya 8, Kanada 7.5, İsveç isə 7 bal əldə etmişdir. 21 inkişaf etmiş ölkələr sırasında multikulturalizm siyasəti Yaponiyada və Danimarkada (8/0) yox dərəcəsində idi. İsveçrə və İtaliyada da bu siyasət aşağı səviyyədə idi: 8 mümkün baldan cəmi 1 bal.

* * *

Beləliklə, yerli (avtoxton) və gəlmə (alloxton) xalqlardan ibarət milli azlıqların, eləcə də immiqrantların bu və ya digər ölkədəki vəziyyəti etnik-mədəni müxtəlifliyin qorunmasının və multikulturalizm siyasətinin səmərəliliyinin əsas göstəricisidir. Dövlətin multikulturalizm siyasətinin səmərəliliyi bu üç qrupa daxil olan insanların sosial və iqtisadi tələbatlarının ödənilməsi, etnik-mədəni dəyərlərinin qorunması ilə ölçülür. Bu isə öz növbəsində yuxarıda təhlil etdiyimiz hər bir azlıq qrupuna daxil olan indikatorlar vasitəsilə müəyyən edilir.

Azlıq qruplarının cəmiyyətdəki vəziyyətini göstərən indikatorlar nəticə etibarı ilə multikulturalizm siyasətinin səmərəliliyini göstərir. Hər bir azlıq qrupunun bu və ya digər ölkədə olma və ya ölkəyə gəlmə tarixləri, onların siyasi, iqtisadi, sosial və mədəni tələbatları bir-birindən fərqli olduğuna görə onların yaşadıqları cəmiyyətə inteqrasiya olma məsələləri, şərtləri bir-birindən fərqlənir. Başqa sözlə desək, sözügedən 3 azlıq qrupunun hər birinin yaşadığı cəmiyyətə inteqrasiya olmasının şərtləri arasında müəyyən fərqlər vardır. Bu fərqlər indikatorlar arasındakı müxtəlifliklərdə öz əksini tapır.

Bununla belə qeyd olunan indikatorlar arasında oxşarlar da var. Məsələn, azlıqda olan yerli xalqlara aid *"Təsdiqedici akt"* indikatoru ilə immiqrant azlıqlara aid *"Dövlət tərəfindən əlverişsiz vəziyyətdə olan immiqrantlara ünvanlanmış güzəştlər"* indikatoru hər iki qrupa daxil olan azlıqların nümayəndələrinə dövlət tərəfindən müəyyən güzəşt və imtiyazların verilməsini əks etdirir. Hökumət tərəfindən azlıq qruplarına edilən güzəşt və imtiyazlar *pozitiv diskriminasiyanın* bir təzahürüdür. Bundan başqa azlıqda olan yerli xalqlara aid *"Yerli xalqların mərkəzi hakimiyyətdə təmsil olunmaları"* indikatoru ilə milli azlıqlara aid "*Milli azlıqların mərkəzi hakimiyyətdə və ya konstitusiya məhkəmələrində təmsilçiliyin təmin edilməsi*" arasında da oxşarlıq vardır. Belə ki, hər iki indikator qeyd olunan azlıq qruplarının hökumətdə təmsilçiliklərinin artırılmasını göstərir.

Dövlətin multikulturalizm siyasətinin səmərəliliyinin ölçülməsində kanadalı tədqiqatçılar tərəfindən tərtib olunmuş indikatorların mühüm əhəmiyyət kəsb etdiyini göstərməklə yanaşı yaddan çıxarmaq lazım deyil ki, bu indikatorların hər birini mexaniki şəkildə dünyanın istənilən ölkəsinə tətbiq etmək düzgün deyil. Belə ki, ölkələrin tarixi inkişafı, onların siyasi, sosial-iqtisadi və mədəni inkişaflarındakı müxtəliflik ölkələrin multikulturalizm siyasətinin səmərəliliyinin ölçülməsində sözügedən indikatorların hər birinin tətbiq olunmasının düzgün olmadığını, hətta zərərli olduğunu göstərir.

Yuxarıda qeyd etdiyimiz kimi, kanadalı tədqiqatçılar multikulturalizm siyasətinin səmərəliliyinin indikatorlarını Avropa İttifaqının bir neçə üzv dövlətləri, Yaponiya, Avstraliya, Yeni Zellandiya, ABŞ, Kanada, Norveç və İsveçrəyə tətbiq etmişlər. Məlum olduğu kimi, bu ölkələrin hamısı uzun illər demokratik inkişaf yolu keçmiş, iqtisadi cəhətdən zəngin olmaqla yanaşı xeyli vaxtdır ki, müstəqil dövlətlərdir. Ölkələr arasındakı müxtəliflikləri nəzərə almadan multikulturalizm siyasətinin səmərəliliyini ölçən indikatorları hər bir ölkəyə tətbiq edərkən yanlış nəticə əldə oluna bilər. Buna görə də qeyd olunan indikatorları tətbiq edərkən ölkələrin tarixi inkişaf xüsusiyyətlərini nəzərə almaq vacibdir. Deyilənləri əyani şəkildə bir misalda göstərək. Məsələn, götürək milli azlıqlara aid *"B*ölgə və ya bütün ölkə miqyasında rəsmi dil statusunu". Qeyd etdiyimiz kimi, bu indikator milli azlıqların dillərinə bölgə və ya bütün ölkə miqyasında rəsmi dil statusunun verilməsini göstərir. Lakin bu indikatordan irəli gələn tələb bir çox ölkələrin, xüsusilə müstəqilliklərini yenicə əldə etmiş ölkələrin ərazi bütövlüklərinə, müstəqilliklərinə ciddi təhdiddir. Belə ki, milli azlıqların dillərinə rəsmi dil statusunun verilməsi son nəticə etibarı ilə separatçılığın baş qaldırmasına səbəb olacaqdır. Bununla belə nəzərə alsaq ki, multikulturalizm siyasətinin əsas məqsədlərindən biri milli azlıqların etnik-mədəni dəyərlərinin, o cümlədən dillərinin qorunmasıdır, hökumət tərəfindən milli azlıqların dillərinin qorunması istiqamətində sistemli şəkildə müəyyən işlər həyata keçirilməlidir. Belə işlərdən milli azlıqların dillərində KİV-in olmasını, ana dilinin tədrisinin təşkil olunmasını göstərmək olar. Buna görə də qeyd olunan indikatoru bir qədər dəyişdirib milli azlıqların dillərində KİV-in olması və onların ana dillərinin tədrisinin təşkil olunması kimi təqdim etmək məqsədəuyğundur.

## 9.4. Miqrant inteqrasiya siyasəti indeksi (MİPEX)

2018-ci ilin statistikasına əsasən, Avropada yaşayan 512.4 milyon əhalinin 22.3 milyonu (4.4%) miqrantların payına düşür. Bu məqamda əsas sual Avropanın miqrasiyanı qəbul edib-etməməsi yox, miqrantların Avropa cəmiyyətlərinə inteqrasiya olmalarını idarə etməkdir. Dövlətlərin multikulturalizm siyasətinin miqrantlarla bağlı istiqamətini ölçmək üçün Miqrant İnteqrasiya Siyasəti İndeksi əsas alətlərdən biridir.

Miqrant İnteqrasiya Siyasəti İndeksi - MIPEX (The Migrant Integration Policy Index) 2004-cü ildə ilk dəfə Avropa Sivil Vətəndaşlıq və İnklüziv İndeksi kimi dərc edilib. MİPEX vasitəsilə ilk dəfə olaraq Avropa İttifaqının (Aİ) 15 ölkəsində (Avstriya, Belçika, Danimarka, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, İrlandiya, İtaliya, Lüksemburq, Hollandiya, Portuqaliya, İspaniya, İsveç, Böyük Britaniya) immiqrantlara dair siyasətin qısa, şəffaf və müqayisə oluna bilən formatda təqdim edilmişdir. 2004-cü il İndeksi hədəf auditoriya tərəfindən - QHT-lər, hökumətlər, alimlər, mətbuat və Avropa Komissiyası və Avropa Parlamenti kimi Avropa institutları tərəfindən müsbət qəbul olundu. Daha sonra 2007, 2011 və 2015-ci illərdə MİPEX nəşr edildi. Ötən müddət ərzində ölkələrin sayı artaraq 38-ə çatdı. Hal-hazırda MİPEX Aİ-nın bütün üzv ölkələri, Avstraliya, Kanada, İslandiya, Yaponiya, Şimali Koreya, Yeni Zelandiya, Norveç, İsveçrə, Türkiyə və ABŞ-da miqrantların inteqrasiyasına istiqamətlənən siyasətləri ölçən etibarlı vasitədir. Siyasətçilər, QHT-lər, tədqiqatçılar, Avropa təşkilatları və bir sıra beynəlxalq təşkilatlar milli inteqrasiyanı anlamaq və müqayisə etmək üçün bu indeksin məlumatlarından istifadə edirlər. MİPEX miqrantların cəmiyyətə qatılma imkanlarının dəyərləndirə bilmək üçün 8 istiqamət üzrə 167 göstəricini əsas götürür. 2004-cü ildən bəri ölkələrin miqrasiya və inteqrasiya siyasətləri haqqında məlumatları toplayan bu indeks analiz edilən ölkələrdə miqrantların inteqrasiyasını təşviq etmək üçün hökumətlərin nə etdiklərini dəyərləndirmək və müqayisə etmək üçün lazımlı bir vasitədir.

Miqrant İnteqrasiya Siyasəti İndeksi ölkələrdə inteqrasiya siyasətini bu istiqamətlər üzrə təhlil edir.

1. Əmək bazarının mobilliyi;
2. Ailə birləşməsi;

*Cədvəl 4. İndikatorların siyahısı*[1]

| *Siyasətin istiqamətləri* | *Siyasi istiqamət üzrə təhlilin məqsədi* | *Ölçülər* |
|---|---|---|
| 1. Əmək bazarının Mobilliyi | Miqrantların işlə təmin olunması və bacarıqlarının artırılması üçün bərabər hüqular və imkanlar varmı? | 1. Əmək bazarına əlçatarlıq<br>2. Ümumi yardıma əlçatarlıq<br>3. Ünvanlı yardım<br>4. İşçilərin hüquqları |
| 2.Ailə birləşməsi | Miqrantlar vətənlərində qalmış ailələrini yaşadıqları ölkəyə gətirə bilirlərmi? | 1. Uyğunluq<br>2. Şərtlər<br>3. Statusun təhlükəsizliyi<br>4. Əlaqəli hüquqlar |
| 3.Təhsil | Təhsil sistemi miqrantların övladlarının ehtiyaclarına cavab verirmi? | 1. Əlçatarlıq<br>2. Ehtiyaclara hədəflənmə<br>3. Yeni imkanlar<br>4. Mədəniyyətlərarası təhsil |
| 4.Səhiyyə | Səhiyyə sistemi miqrantların ehtiyaclarına həssasdırmı? | 1. Faydalana bilmək hüququ<br>2. Əlçatarlıq siyasəti<br>3. Xidmətlər<br>4. Dəyişmə mexanizmləri |
| 5.Siyasi İştirakçılıq | Miqrantların ölkənin siyasi həyatında iştirak etmək hüquqları və imkanları varmı? | 1. Seçki hüquqları<br>2. Siyasi azadlıqlar<br>3. Məşvərətçi orqanlar<br>4. Tətbiq siyasəti |
| 6.Daimi məskunlaşma | Miqrantlar daimi yaşama icazəsini asanlıqla ala bilirlərmi? | 1. Uyğunluq<br>2. Şərtlər<br>3. Statusun təhlükəsizliyi<br>4. Əlaqəli hüquqlar |
| 7.Vətəndaşlığa qəbul | Miqrantlar asanlıqla vətəndaşlıq əldə edə bilirlərmi? | 1. Uyğunluq<br>2. Şərtlər<br>3. Statusun təhlükəsizliyi<br>4. İkili vətəndaşlıq |
| 8.Anti-Diskriminasiya | Hamı bütün sahələrdə irqi, etnik, dini və milli ayrı-seçkilikdən effektiv şəkildə müdafiə olunurmu? | 1. Anlayışın sərhədlərinin müəyyənləşdirilməsi<br>2. Tətbiq sahələri<br>3. İcra mexanizmləri<br>4. Bərabərlik siyasəti |

1 Migrant İntegration Policy İndex 2015 . Səh 33. http://www.mipex.eu/sites/default/files/downloads/pdf/files/custom/a4/2019.04.12-15.05.01-mipex-2015-custom-book-a4.pdf

3. Təhsil;
4. Səhiyyə;
5. Siyasi iştirakçılıq;
6. Daimi məskunlaşma;
7. Vətəndaşlığa qəbul;
8. Anti-diskriminasiya.

Hər siyasət istiqaməti üzrə isə 4 ölçü əsas götürülür. Göstəricilərlə *Cədvəl 4-də* tanış olmaq olar.

Dövlətlərin inteqrasiya siyasətlərinin mövcud ehtiyaclara cavab verib-vermədiyini müəyyənləşdirmək üçün MİPEX-in 2014-cü il üçün nəticələrinə nəzər salmaq lazımdır. Müəyyən olunmuşdur ki, Aİ-da təxminən 20 milyon sakin (və ya əhalinin 4%) qeyri-Aİ vətəndaşıdır. 2014-cü ildə qeyri-Aİ vətəndaşların məşğulluq səviyyəsi orta hesabla 6 bal azalaraq 56,5%-ə çatdığı halda, onların yoxsulluq və sosial təcrid olunma riskləri 4 bal artaraq 49%-ə çatıb ki, bu da Aİ vətəndaşlarının səviyyəsindən iki dəfə çoxdur. Qeyri-Aİ immiqrantlarının (18-64 yaşlı) 37%-i aşağı təhsillidirlər.

Miqrasiya haqqında ictimai rəy Aİ-da ölkədən-ölkəyə fərqlənir. 2012-ci ildə Kipr, Macarasıtan, Litvada əhalinin 30-40%-i, Skandinaviya ölkələri, Niderland, Portuqaliya və İspaniyada əhalinin 80-90%-ə qədəri miqrantların bərabər hüquqlara malik olduğunu düşünürdü. 2014-cü ilin tədqiqat nəticələrinə əsasən, Aİ sakinlərinin 57%-i miqrasiyaya "mənfi münasibət" bəsləyir. (xüsusilə Baltik, Mərkəzi və Cənub-Şərqi Avropa ölkələrində).

Miqrantların az olduğu və anti-miqrant əhval-ruhiyyənin yüksək olduğu ölkələrdə (Estoniya, Latviya, Litva, Yaponiya, Mərkəzi və Cənub-Şərqi Avropa - MIPEX-dəki orta balları 41/100) miqrantlar daha çox maneələrlə üzləşirlər. Zəngin, çoxmədəniyyətli və demokratik ənənələrə sahib olan ölkələr isə miqrantlar üçün bərabər hüquqlar və imkanlar təmin edir. Nümunə kimi Qərbi Avropa (MİPEX orta balı 60/100) və ənənəvi miqrasiya ölkələrini (Avstraliya, Kanada, Yeni Zelandiya, ABŞ - orta balı 67/100) göstərə bilərik. Amma siyasi iradə bir ölkənin miqrasiya ənənəsindən daha çox əhəmiyyət kəsb edə bilər. Hərtərəfli inteqrasiya siyasəti miqrantların daimi məskunlaşmasını və ictimaiyyətin onlara daha çox güvənməsini təmin edə bilər.

*Cədvəl 5-də* göstərildiyi kimi, 2014-cü ilin nəticələrinə əsasən, MİPEX üzrə miqrant siyasətinin ən uğurlu dövlətləri İsveç, Portuqaliya, Yeni Zelandiya,

Finlandiya olduğu halda, ən sərt miqrasiya siyasəti həyata keçirən ölkələr Türkiyə, Latviya, Kipr, Litva və Slovakiyadır.

*Cədvəl 5. MİPEX üzrə ölkələrin reytinqi* [3]

| *Reytinq 2014* | *Qiymət* | *2010-cu ildən etibarən dəyiş klik** | *Reytinq 2014* | *Qiymət* | *2010-cu ildən etibarən dəyişiklik** |
|---|---|---|---|---|---|
| 1. İsveç | 78 | - 0 | 20. Avstriya | 50 | ↑3 |
| 2. Portuqaliya | 75 | ↑1 | 21. İsveçrə | 49 | ↑1 |
| 3. Yeni Zelandiya | 70 | - 0 | 22. Estoniya | 46 | ↑1 |
| 4. Finlandiya | 69 | ↑ 2 | 23.Macarıstan | 45 | ↑1 |
| 4. Norveç | 69 | ↓1 | 23. İslandiya | 45 | |
| 6. Kanada | 68 | ↓1 | 23. Çexiya | 45 | ↑3 |
| 7. Belçika | 67 | ↑2 | 23. Rumınya | 45 | ↑1 |
| 8. Avstraliya | 66 | -0 | 27. Sloveniya | 44 | - 0 |
| 9. ABŞ | 63 | ↑1 | 27. Yunanıstan | 44 | ↓2 |
| 10. Almaniya | 61 | ↑3 | 27.Yaponiya | 44 | ↑1 |
| 11. Niderland | 60 | ↓8 | 30. Xorvatiya | 43 | |
| 11. İspaniya | 60 | - 0 | 31. Bolqarıstan | 42 | ↑3 |
| 13. İtaliya | 59 | ↑1 | 32. Polşa | 41 | ↑5 |
| 13. Danimarka | 59 | ↑10 | 33. Malta | 40 | ↑2 |
| 15. Lüksemburq | 57 | ↑2 | 34. Slovakiya | 37 | - 0 |
| 15. Böyük Britaniya | 57 | ↓6 | 34. Litva | 37 | ↑1 |
| 17. Fransa | 54 | ↑1 | 36. Kipr | 35 | - 0 |
| 18. Cənubi Koreya | 53 | ↓1 | 37. Latviya | 31 | ↑2 |
| 19. İrlandiya | 52 | ↑1 | 38. Türkiyə | 25 | ↑1 |

Siyasət göstəricilərindəki dəyişikliyi müəyyənləşdirmək üçün cədvələ daha yaxından nəzər salaq. Cədvəldən göründüyü kimi, 2010-cu ildən etibarən 13 ölkə mövcud proqramları gücləndirərək və prosedurları təkmilləşdirərək ortalama +1 xal irəliləyiş əldə edib. 10 ölkədə daha böyük islahatlar həyata keçirilmişdir (Danimarkada 2-ci nəsil miqrantlar üçün ikili vətəndaşlıq, Çexiya və Polşada anti-diskriminasiya qanunları və daxili vətəndaşlıq islahatları, Bolqarıstanda Aİ qanunlarının tətbiqi və s.). 7 ölkə isə məhdudiyyətlər tətbiq etdiyi üçün -1 xal (və ya daha çox – Yunanıstan (-2), Niderland (-8), Böyük Britaniya (-6) itirib. Bu məhdudiyyətlər Vətəndaşlıq və səsvermə hüquqları, Ailə birləşməsi kimi sahələrdə tətbiq olunub. Demək olar ki, bütün sahələrdə

3 International Key Findings/Policy indicators: Key Findings/http://www.mipex.eu/key-findings

məhdudiyyətlər tətbiq edildiyi üçün ən çox azalma Niderland (-8) və Böyük Britaniyada (-6) müşahidə olunub. 6 ölkədə cüzi inkişaf (İsveç), məhdudiyyətlər (Yeni Zelandiya, Sloveniya, İspaniya) olduğu üçün və ya sabit qaldıqları üçün rəqəmlər dəyişməmişdir (Kipr, Slovakiya).

İndi isə siyasət istiqamətləri üzrə ayrı-ayrılıqda tanış olaq.

Ölkələrin *məşğulluq siyasəti* miqrantların əksəriyyətinə iş tapmaq üçün kömək edir. Lakin onlara əksər hallarda 10 ildən sonra iş tapmağa kömək edilir və bu işlər, adətən, ixtisas səviyyələrindən aşağı və az maaşlı işlər olur. Ümumilikdə, Avropa ölkələrində əmək qabiliyyətli qeyri-Aİ vətəndaşlarının 1/3 hissəsi məşğulluq, təhsil və təlimdən kənarda qalır. Məşğulluq, təhsil və ya təlimdən yararlana bilməyən qeyri-Aİ vətəndaşlarının sayının ən yüksək olduğu ölkələr Belçika, Fransa, Yunanıstan və İspaniya, ən aşağı (20-25%) olan ölkələr isə Skandinaviya ölkələri, Kipr, Çexiya, Portuqaliya, Niderland, İsveçrə və Böyük Britaniyadır. Yüksək təhsilli kişilər arasında işsizlik (1/4) aşağı təhsilli qadınlardan (40%) daha azdır. Miqrantlar ənənəvi miqrasiya ölkələri (Avstraliya, Kanada, Yeni Zelandiya), Qərbi Avropa ölkələri, Yaponiya və Cənubi Koreyada əmək bazarına daha yaxşı çıxış və ünvanlı dəstəkdən yararlandıqları halda, Kipr, İrlandiya, Türkiyə və Mərkəzi Avropa ölkələrində ən zəif hüquq və imkanlara malikdirlər. Skandinaviya ölkələrində, Avstriya, Almaniya, Niderland, İsveç, Avstraliya, Kanada, Yeni Zelandiya, ABŞ, Yaponiyada yüksək məşğulluq səviyyəsi (≥70%) olduğu halda, Xorvatiya, Yunanıstan, İtaliya, İspaniya, Türkiyədə aşağı səviyyə (≤60%) müşahidə olunur. Əmək bazarının mobilliyi istiqaməti üzrə ən yüksək göstəricilər İsveç (98/100), Portuqaliya (91/100), Norveç (90/100), Almaniya (86/100), Kanadada (81/100), ən aşağı nəticələr isə Türkiyə (15/100), Slovakiya (21/100) və Kiprdə (34/100) qeydə alınmışdır.

İnteqrasiya siyasətlərinin nəticələrinə əsasən, məlum olmuşdur ki, qeyri-Aİ vətəndaşlarının 5-7%-i həyat yoldaşları və ya ailəsi ilə yaşamır. Ailələri yanında olmayan miqrantlar Skandinaviya ölkələri, İspaniya və Portuqaliya kimi ailə birləşməsi siyasətləri daha uğurlu olan ölkələrdə birləşməyə ümid edir. Ancaq bir çox ölkələr populist partiyaların təsirini nəzərə alaraq, bu imkanları məhdudlaşdırırlar. Ailə birləşməsi getdikcə siyasiləşdirilir, bu siyasət seçki vədlərinə əsasən dəyişir. Siyasətlər, əsasən, ərizələrin sayı barədə statistikaya əsaslanaraq məhdudlaşdırılır. Ailə birləşməsi siyasəti üzrə ən yüksək göstəricilər İspaniya (90/100), Portuqaliya (88/100), Sloveniya (80/100), Kanada (79/100),

ən aşağı nəticələr Böyük Britaniya (33/100), Kipr (39/100), İrlandiyada (40/100) qeydə alınmışdır.

Ölkələrdə müxtəliflik artdıqca, məktəblər və səhiyyə miqrantların xüsusi ehtiyaclarını ödəməyə çətinlik çəkir. Xaricdə doğulmuş uşaqlar Avstraliya, Kanada və Yeni Zelandiyada bütün şagirdlərin 10-17% -ni, İtaliyada və Şimali Avropanın əksər ölkələrində 5-7%-ni təşkil edir. Rəqəmlər Lüksemburq (17%), İrlandiya, İspaniyada (təxminən 8.5%) daha yüksək, Danimarka, Almaniya, Niderlandda (3%) daha aşağıdır. Avstraliya, Kanada, Yeni Zelandiya kimi ənənəvi miqrasiya ölkələrində həm birinci, həm də ikinci nəsil şagirdlərin sayı olduqca çoxdur, bu da bütün şagirdlərin 20-30%-ni təşkil edir. Şimal-Şərqi Avropa ölkələrində birinci nəsil şagirdlərin sayı nisbətən az, ikinci nəsil şagirdləri sayı isə daha çoxdur (bütün şagirdlərin 6-10%-i). İsveç (17,5%) və Lüksemburqda (29%) isə bu rəqəmlər daha yüksəkdir. Ümumiyyətlə, miqrant keçmişə malik şagirdlərin çox olduğu ölkələr təhsil siyasətinə daha çox əhəmiyyət verir. Skandinaviya ölkələri bütün şagirdlər üçün fərdi ehtiyaclara yönələn yanaşmanı əsas götürür. Avstraliya, Kanada, Yeni Zelandiya multikulturalizm vasitəsilə güclü təhsil siyasətini inkişaf etdirir, ABŞ isə həssas irqi və sosial qruplara diqqət yetirir. Əksinə almandilli ölkələr, Fransa, Lüksemburqda təhsil sistemi miqrant şagirdlərin ehtiyaclarına daha az cavab verir. Təhsil siyasətin sahəsində ən yüksək nəticələr İsveç (77/100), Avstraliya (76/100), Yeni Zelandiya (66/100), Norveç (65/100) və Kanadada (65/100), ən aşağı nəticələr isə Bolqarıstan (3/100), Türkiyə (5/100), Macarıstan və Xorvatiyadadır (15/100).

Ünvanlı *səhiyyə siyasətləri* varlı, daha çox miqrant və vergi bazasına sahib olan ölkələrdə güclüdür və miqrantların ehtiyaclarına daha çox cavab verir. Məsələn, bu sahədə ən həssas siyasətə sahib olan 9 ölkənin (ABŞ istisna olmaqla) 8-i (Avstraliya, Danimarka, Norveç, Birləşmiş Krallıq, Yeni Zelandiya və s.) bu dəyişikliyə nail olmaq üçün milli sağlamlıq sistemlərinə malikdir. Bəzi ölkələr (Yaponiya, Fransa, Estoniya və Cənub-Şərqi Avropa ölkələrinin əksəriyyəti) miqrantlara sağlamlıqları üçün qanuni hüquqlar təqdim edirlər, lakin xidmətləri onların ehtiyaclarına uyğunlaşdırmaq üçün az səy göstərirlər. Səhiyyə siyasətinin uğurlu olduğu ölkələr Yeni Zelandiya (75/100), İsveçrə (70/100), ABŞ (69/100), Avstraliya və Norveç (67/100), ən uğursuz olduğu ölkələr isə Latviya (17/100), Sloveniya (18/100), Xorvatiyadır (20/100).

Miqrantları *siyasi iştirakçılığa* təşviq etmək ölkənin inteqrasiya

siyasətinin vacib halqasıdır. 2014-cü ilin məlumatlarına əsasən, Aİ-nın 13 ölkəsində 10 milyon qeyri-Aİ mənşəli vətəndaş məhdudlaşdırıcı siyasətlər nəticəsində səsvermə hüququndan məhrum edilmişdir. Bunlardan 3.5 milyon Almaniyada (yetkin əhalinin təxmini 5%-i), 2.7 milyon İtaliyada (5,4%), 2.2 milyon Fransada (4%), 500 min Yunanıstanda (5.6%), 450 min Avstriyada (6,4%), 275 min Latviyada (17%), 225 min Çexiyada (2,6%), həmçinin minlərlə nəfər Kipr (6,3%), Bolqarıstan Xorvatiya, Malta, Polşa və Ruminayada qeydə alınmışdır. Eyni vəziyyət Kanada, Yaponiya, Türkiyə və ABŞ-da da yaşanmışdır. Beləliklə, siyasi iştirak ölkələr arasında inteqrasiya siyasətinin zəif halqasıdır. Miqrantların siyasi imkanları ölkədən-ölkəyə, xüsusilə də Qərbi və Orta Avropa müqayisə edildikdə fərqlidir. Qərbi Avropada miqrantların siyasi iştirakçılığa çıxış imkanları Orta Avropa ilə müqayisədə daha çoxdur.

MİPEX-ə əsasən, siyasi iştirakın yüksək olduğu ölkələr Norveç (82/100), Lüksemburq (81/100), Finlandiya (79/100), Portuqaliya (74/100) və Yeni Zelandiyadır (74/100). Ən aşağı nəticələr isə Ruminiya (0/100), Polşa (6/100) və Türkiyədə (11/100) qeydə alınmışdır.

Miqrantların daimi yaşama icazəsi almaları, seçici və bərabər hüquqlu vətəndaşa çevrilmələri ölkənin *daimi məskunlaşma və vətəndaşlığa qəbul siyasətindən* asılı olaraq dəyişir. Bəzi ölkələrdə (Avstriya, Kipr, Yunanıstan) daimi məskunlaşmanın və vətəndaşlığın məhdudlaşdırılması çox sayda «daimi müvəqqəti» əcnəbilərə yol açır və onların sosial təcridini sürətləndirir. Danimarka, İtaliya, İsveçrə, Estoniya, Latviya kimi ölkələr isə daimi yaşayışa icazənin verilməsini asanlaşdırır, lakin vətəndaşlığı məhdudlaşdırır. Nəticədə miqrantlara milli siyasətdə və bir çox başqa sahələrdə «ikinci sinif vətəndaşlar» kimi davranılır. Müəyyən milli və ya etnik qrupların başqaları üzərində üstünlük təşkil etdiyi ölkələrdə (Macarıstan, Yaponiya, Cənubi Koreya və İspaniya) bərabər hüquqlara zəmanət verilmir. Əksinə, Yeni Zelandiya, İsveç, Norveç, Belçika və Portuqaliya kimi immiqrant ölkələrində miqrantların əksəriyyəti bir çox sahələrdə inteqrasiyanı artıran bərabər və təhlükəsiz hüquqlara malikdirlər. Avropa ölkələrinin əksəriyyətində 5 il ölkədə yaşayan sakinlərin çoxu daimi status və bərabər hüquqlar üçün müraciət edə bilərlər, lakin bu o insanlara şamil olunur ki, dövlət dəstəyi olmadan cəmiyyətdə öz yerlərini tuta biliblər. Yardıma ehtiyacı olanlar və ya yüksək ödənişi ödəmək iqtidarında olmayanlar müvəqqəti vəziyyətdə saxlanılır. Daimi məskunlaşma Belçika, Skandinaviya, Cənub-Qərbi

Avropa, bir neçə Mərkəzi Avropa (Bolqarıstan, Estoniya, Macarıstan, Polşa) ölkələrində inteqrasiya prosesinin normal hissəsidir.

2013-cü ildən 12 milyon qeyri-Aİ mənşəli vətəndaş Avropda daimi məskunlaşma hüququ alıblar. Onların çoxu Almaniyada (2.4 milyon), İtalyada (2.2 milyon), Fransada (1.8 milyon), İspaniyada (1.8 milyon) və Böyük Britaniyada (1.6 milyon) məskunlaşmışdır. Daimi məskunlaşma siyasəti üzrə ən yüksək göstəricilərə Belçika (86/100), İsveç (79/100), İspaniya və Danimarka (74/100), ən aşağı göstəricilərə isə Türkiyə (27/100), Kipr (37/100) və Fransa (48/100) malikdir.

*Vətəndaşlıq siyasəti* əksər Avropa ölkələrində, xüsusilə Avstriya, Malta, Baltikyanı və Cənub-Şərqi Avropa ölkələrində zəif həyata keçirilir. Vətəndaşlığa qəbul üçün miqrantlar ortalama 5-7 il həmin ölkədə yaşamalı, dövlət dilini A2, bəzən B1 səviyyəsində bilməli, inteqrasiya testlərindən keçməlidirlər. Demək olar ki, Avropa ölkərinin yarısından çoxunda vətəndaşlığa qəbul üçün şərtlərdən biri də miqrantın işə-gəlirə sahib olmasıdır (Ənənəvi miqrasiya ölkələrində bu şərt tələb olunmur). İkili vətəndaşlıq qanunla (28 ölkədə) və ya ən azından istisna kimi (Bolqarıstan, Almaniya, Latviya, Litva) qəbul olunmuşdur. Vətəndaşlığa qəbul istiqaməti üzrə ən yüksək nəticələr Portuqaliya (86/100), İsveç (73/100), Almaniya (72/100), Yeni Zelandiyada (71/100), ən zəif nəticələr isə Latviya (17/100), Estoniya (18/100), Bolqarıstandadır (21/100).

Nəticələrə əsasən, diskriminasiyaya məruz qalmış insanların 27%-i etnik azlıq, 13%-i isə dini azlıq nümayəndəsidir. Avropa İttifaqı Avropa daxilində güclü *anti-diskriminasiya qanunlarının* yayılmasına rəvac versə də, bu nisbətən yeni və maliyyə resursları az olduğu üçün lazımi nəticə vermir. Potensial zərər çəkmiş şəxslər zəif dəstəklənir, çünki bərabərlik siyasətinin, orqanların və QHT-lərin gücü azdır. Ayrı-seçkiliyin qurbanları ənənəvi miqrasiya ölkələrində daha çox qorunur və dəstəklənirlər (Kanada və ABŞ Avstraliya və Yeni Zelandiyadan daha yaxşı nəticə göstəriblər). Demək olar ki, MİPEX-də təmsil olunan bütün ölkələr etnik, irqi və dini diskriminasiyanı qanunla qadağan edilmişdir. Anti-diskriminasiya siyasəti üzrə ən uğurlu nəticələr Kanada (92/100), ABŞ (90/100), Bolqarıstan (89/100), Portuqaliyada (88/100), ən aşağı nəticələr isə İslandiya (5/100), Yaponiya (22/100), Türkiyədə (26/100) qeydə alınmışdır.

İndi isə *Cədvəl 6-də* təqdim olunmuş məlumat vasitəsilə MİPEX üzrə 1-ci yer tutmuş İsveçə daha yaxından nəzər salaq.

*Cədvəl 6. MİPEX üzrə İsveçin reytinqi* [4]

| İsveç 2014<br>(1 / 38)<br>MİPEX xalı 78 | |
|---|---|
| ƏMƏK BAZARININ MOBİLLİYİ | 98 |
| AİLƏ BİRLƏŞMƏSİ | 78 |
| TƏHSİL | 77 |
| SƏHİYYƏ | 62 |
| SİYASİ İŞTİRAKÇILIQ | 71 |
| DAİMİ MƏSKUNLAŞMA | 79 |
| VƏTƏNDAŞLIĞA QƏBUL | 73 |
| ANTİ-DİSKRİMİNASİYA | 85 |

1950-ci illərdən etibarən miqrasiya ölkəsi olan İsveç əhalisinin təxminən 15%-i xaricdə doğulmuşdur. İsveçdə ailə miqrantlarının (50% uşaq) və humanitar miqrantların (Suriyadan 2013-cü ildə təxminən 50% -i), 2008-ci ildən etibarən az miqdarda miqrant işçilərin sayının artması (1/4 yüksək ixtisaslı, 1/4 mövsümi, 1/2 ümumi işçi), lakin 2011-ci ildən etibarən beynəlxalq tələbə sayının 50% azalması müşahidə olunmuşdur.

İsveçdə məşğulluq səviyyəsi 80%-dir (böhran az təsir etmişdir) və bu dünyada ən yüksək göstəricilərdən biridir.

Ölkə əhalisi digər Skandinaviya ölkələri və ənənəvi miqrasiya ölkələri kimi miqrantlara qarşı müsbət münasibət bəsləyir. İsveçlilərin 80%-i hesab edir ki, İsveç miqrantlara öz vətəndaşları kimi bərabər hüquqları vermək, mədəni və iqtisadi cəhətdən zənginləşdirməklə doğru iş görür və miqrantların yaşaması üçün yaxşı ölkədir.

Digər Avropa ölkələri ilə müqayisədə, İsveçin siyasəti daha çox miqrantı əhatə edə bilir. Miqrantlar və onların uşaqları öz bacarıqlarını Avropanın başqa yerlərindən daha çox bu ölkədə inkişaf etdirə bilirlər. Qeyri-Aİ mənşəli miqrantların demək olar ki, hamısı bütün sahələrdə - iqtisadi, sosial, ailə və demokratik həyatda İsveç vətəndaşları ilə eyni hüquqlarla təmin olunur.

2011/12-ci il məlumatlarına əsasən, İsveçdə Avropa ölkələrindən məşğulluq, təhsil və təlimdən kənarda qalan əmək qabiliyyətli miqrantların sayı əksər Avropa ölkələri ilə müqayisədə daha azdır. İsveç, Norveç, Danimarka,

4 Migrant integration policy index. Sweden. http://www.mipex.eu/sweden

Böyük Britaniyada miqrantların yalnız 1/4 məşğulluq, təhsil və ya təlimlərdən kənarda qalır ki, bu da Qərbi Avropada ən yaxşı nəticədir. Halbuki, ümumilikdə Avropa ölkələrində qeyri-Aİ mənşəli miqrantların 1/3-i məşğulluq, təhsil və ya təlimlərdən kənarda qalır. Belçika və Fransa kimi ölkələrdə bu rəqəm daha yüksəkdir. Kişilər-qadınlar və yüksək-aşağı təhsilli miqrantların məşğulluq səviyyəsi İsveç də daxil olmaqla bütün Avropada oxşar nəticələrə malikdir. İşsizliyin səviyyəsi aşağı təhsilli qadınlar arasında daha yüksək (İsveçdə təxminən 1/3), kişilər - xüsusilə də universitet təhsilli olanlar arasında (yalnız 13,5%) daha azdır.

Beləliklə, hərtərəfli inteqrasiya siyasəti miqrantlara güvənməyə kömək edir və miqrantın cəmiyyət üçün faydalarını müəyyən edir, diskriminisiya, məhdudlaşdırıcı siyasət isə ictimaiyyət arasında etibarsızlığı və ksenofobik davranışları artırır. Bir ölkənin MİPEX hesabında azalma anti-immiqrant davranışların və radikal sağ partiyalarının müvəffəqiyyətinin artmasına səbəb olur. İnteqrasiya siyasəti və nəticələr arasındakı əlaqələr həmişə aydın deyil. Bəzi ölkələr problemləri aradan qaldırmaq üçün siyasətlərini aktiv şəkildə inkişaf etdirir, bəziləri isə onları görməzdən gəlirlər. MİPEX-dən istifadə edən tədqiqatçılar hesab edirlər ki, inklüziv inteqrasiya siyasəti olan ölkələr miqrantlar və hər kəsin yaşaması üçün daha inkişaf etmiş, xoşbəxt ölkələrdir.

## Fəslə aid suallar

1. Ölkənin multikulturalizm siyasəti əhalinin hansı qrupuna şamil olunur?
2. Etnik-mədəni müxtəlifliyin qorunmasının və multikulturalizm siyasətinin səmərəliliyinin indikatorlarının yüksək olmasının əhəmiyyəti nədən ibarətdir?
3. Deyə bilərikmi ki, immiqrantların, yerli (avtoxton) və gəlmə (alloxton) xalqlardan ibarət olan milli azlıqların cəmiyyətdəki vəziyyətini göstərən indikatorlar eyni zamanda multikulturalizm siyasətinin səmərəliliyini göstərir? Cavabınızı əsaslandırın.
4. İmmiqrantların, yerli (avtoxton) və gəlmə (alloxton) xalqlardan ibarət olan milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiya olma məsələləri və şərtləri arasındakı fərqlərin səbəbi nədir?
5. Pozitiv diskriminasiya nədir?
6. 1980-ci, 2000-ci və 2010-cu illərdə Kanada, ABŞ, Yeni Zellandiya və Danimarkada yerli xalqlar üzrə multikulturalizm siyasətinin yüksək səviyyədə aparılması nə ilə bağlıdır?
7. Yaponiyada milli azlıqlar (alloxton azlıqlar) üzrə multikulturalizm siyasətinin sıfr səviyyədə olmasının səbəbi nədir?
8. Multikulturalizm siyasətinin səmərəliliyini ölçən indikatorları hər bir ölkəyə tətbiq etmək olar? Cavabınızı əsaslandırın.
9. MİPEX nədir?
10. MİPEX-də hansı siyasət istiqamətləri ölçülür?
11. MİPEX-in siyasət istiqamətləri üzrə ölçüləri hansılardır?
12. Miqrant siyasəti uğurlu olan ölkələrin ortaq cəhətləri hansılardır?
13. Sərt miqrasiya siyasəti həyata keçirən ölkələrin ortaq cəhətləri hansılardır?
14. Avropa ölkələrində vətəndaşlığa qəbul üçün əsas şərtlər hansılardır?
15. MİPEX üzrə İsveç hansı siyasət istiqamətləri üzrə ilk sıradadır?

# Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1995, http://www.e-qanun.az/?internal=view&docid=897&doctype=0
2. Heydər Əliyev, "Müstəqillik yolu", Seçilmiş fikirlər. Bakı, 1997, file:///C:/Users/User-PC/Downloads/Musteqillik_yolu_sechilmish_fikirler.pdf
3. İlham Əliyev. İlham Əliyev Respublika Günü münasibətilə rəsmi qəbulda iştirak edib. https://president.az/articles/33266
4. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2018.
5. Məmmədli N. "Multikulturalizm – Panaseya yoxsa alternativ". Bakı 2016.
6. Access Nationality/Dimensions. http://www.mipex.eu/access-nationality
7. Access Nationality/Key Findings. http://www.mipex.eu/access-nationality
8. Access Nationality/Policy Indicators. http://www.mipex.eu/access-nationality
9. Anti-discrimination/Key Findings. http://www.mipex.eu/anti-discrimination
10. Anti-discrimination/Policy Indicators. http://www.mipex.eu/anti-discrimination
11. Banting, Keith and Will Kymlicka (2013). "Is There Really a Retreat From Multiculturalism Policies? New Evidence from the Multiculturalism Policy Index", *Comparative European Politics* 11(5): 577-598.
12. Education/ Key Findings. http://www.mipex.eu/education
13. Education/Policy Indicators. http://www.mipex.eu/education
14. Education/Potential Beneficiaries. http://www.mipex.eu/education
15. Family Reunion/Key findings. http://www.mipex.eu/family-reunion
16. Health/Key Findings. http://www.mipex.eu/health
17. Health/Policy Indicators. http://www.mipex.eu/health
18. İnternationa Findings/Policy indicators: Key Findings. http://www.mipex.eu/key-findings
19. International findings/Beneficiaries: who could benefit from integration policies? http://www.mipex.eu/key-findings

20. İnternational Findings/Policy indicators: Changes. http://www.mipex.eu/key-findings
21. International Findings/Policy indicators: Key Findings. http://www.mipex.eu/key-findings
22. Keith Banting (2014). "Transatlantic Convergence? The Archaeology of Immigrant Integration in Canada and Europe", *International Journal,* vol. 69(1): 66-84.
23. Keith Banting and Edward Donin. 2017. "Just visiting? The Weakening of Social Protection in a Mobile World" in Anna Triandafyllidou ed. *Multicultural Governance in a Mobile World*. (Edinburgh University Press), pp. 108-135.)
24. Keith Banting and Will Kymlicka. 2017. Eds. *The Strains of Commitment: The Political Sources of Solidarity in Diverse Societies*. (Oxford University Press, 2017), xiv, 452pp. Including: "Introduction: The Political Sources of Solidarity in Diverse Societies". pp. 1-58.
25. Key Findings/Sweden, 2014/Changes In Context. http://www.mipex.eu/sweden
26. Key Findings/Sweden, 2014/Potential Beneficiaries. http://www.mipex.eu/sweden
27. Labour Market Mobility/Contextual Factors. http://www.mipex.eu/labour-market-mobility
28. Labour Market Mobility/Key Findings. http://www.mipex.eu/labour-market-mobility
29. Labour Market Mobility/Policy Indicators. http://www.mipex.eu/labour-market-mobility
30. Labour Market Mobility/Potential Beneficiaries. http://www.mipex.eu/labour-market-mobility
31. Migrant İntegration Policy İndex 2015. http://www.mipex.eu/sites/default/files/downloads/pdf/files/custom/a4/2019.04.12-15.05.01-mipex-2015-custom-book-a4.pdf
32. Migrant Integration Policy Index. http://www.mipex.eu/what-is-mipex
33. Migration and migrant population statistics. https://ec.europa.eu/eurostat/statisticsexplained/index.php/Migration_and_migrant_population_statistic

34. Nicat Məmmədli. "Multikulturalizm – Panaseya yoxsa alternativ". Bakı 2016.
35. Permanent Residence/Key Findings. http://www.mipex.eu/permanent-residence
36. Permanent Residence/Real Beneficiaries. http://www.mipex.eu/permanent-residence
37. Political Participation/Key Findings. http://www.mipex.eu/political-participation
38. Political Participation/Potential Beneficiaries. http://www.mipex.eu/political-participation
39. Stuart Soroka, Matt Wright, Richard Johnston, Jack Citrin, Keith Banting and Will Kymlicka. 2017. "Ethnoreligious Identity, Immigration and Redistribution", *Journal of Experimental Political Science*. Vol 4 (3): 173-182.
40. Stuart Soroka, Richard Johnston, Anthony Kevins, Keith Banting and Will Kymlicka (2015). "Migration and welfare state spending" *European Political Science Review*, vol. 8(2): 173-194.

# X FƏSİL

# MÜASİR DÖVRDƏ QƏRB ÖLKƏLƏRİNDƏ ETNİK-MƏDƏNİ MÜXTƏLİFLİK VƏ ONUN TƏNZİMLƏNMƏSİ

## 10.1.Müasir dövrdə Qərb ölkələrində multikulturalizmin vəziyyəti

Harvard Universitetinin *professoru Natan Qleyzer* 1997-ci ildə nəşr etdirdiyi *"İndi biz hamımız multikulturalistik"* adlı kitabında multikulturalizmin ABŞ-da ictimai həyatın və dövlət siyasətinin bütün sahələrində hakim ideya olacağını iddia edirdi. Üstündən on beş il keçməmiş avropalı siyasətçilər tamamilə başqa qənaətə gəldilər. VII fəslin 3-cü yarımfəslində qeyd olunduğu kimi, müasir dövrdə bir sıra Avropa ölkələrinin başçıları multikulturalizm siyasətinin səmərəsiz olması səbəbindən iflasa uğradığını rəsmi olaraq bəyan etmişlər.

Qeyd etmək lazımdır ki, müasir dövrdə Qərb ölkələrində multikulturalizmə qarşı artan sərt reaksiyanın əsas səbəblərindən biri cəmiyyətin immiqrantlara qarşı mənfi rəyi dayanır. Bu, xüsusən Avropa üçün aktualdır. Alman politoloqu *Kristian Yopke "Liberal dövlətlərdə multikulturalizmin geriləməsi"* adlı məqaləsində göstərir ki, Kanada və ya Avstraliyada multikulturalizm bütün cəmiyyət üçün kimlik seçimi olduğu halda, Avropada multikulturalizm yalnız immiqrantlara yönəlib. Avropa ictimaiyyəti belə hesab edir ki, mühacirlər onların mədəniyyətinə uyğunlaşmaq əvəzinə, Qərbin əsrlər boyu formalaşmış mədəni, sosial və siyasi sisteminə ziyan vururlar. Burada immiqrant deyərkən əsasən müsəlmanlar nəzərdə tutulur. Yuxarıda adları sadalanan Avropa ölkələrinin başçıları da multikulturalizmin iflasını bəyan edərkən müsəlmanların cəmiyyətə inteqrasiya olunması istiqamətində uğursuzluğa düçar olduqlarına diqqət çəkirlər. Son dövrdə Avropa ölkələrini bürümüş miqrant böhranı multikulturalizmə qarşı əhval-ruhiyyənin artmasını sürətləndirir.

Almaniya Federal Bankının idarə heyətinin sabiq üzvü *Tilo Sarrassin* 1,5 milyon nüsxə ilə satılan *"Almaniya özünü ləğv edir"* adlı kitabında miqrasiya

siyasətini sərtləşdirməyə çağıraraq, bunu türk və ərəblərin cəmiyyətə inteqrasiya ola bilmədikləri ilə əlaqələndirir. O, yazır: *"Avropada heç bir başqa din İslam qədər tələb irəli sürmür. Cinayətkarlıqla bağlı olan və sosial rifahı riskə ata bilən başqa heç bir immiqrant qrupu müsəlmanlar qədər güclü deyil. Başqa heç bir qrup öz fərqliliyini cəmiyyətə (xüsusilə də qadınların geyimi vasitəsilə) sırımır. Başqa heç bir dində zorakılığa, diktaturaya və terrorizmə keçid bu qədər rahat deyil"*.

Ümumiyyətlə, Qərbdə multikulturalizm əleyhinə debatların əsas mövzusu məhz müsəlman mühacirlər, habelə bu kontekstdə İslam dini ilə bağlıdır. Avropa ictimai fikrində anti-müsəlman əhval-ruhiyyəsinin yüksək səviyyədə olduğunu keçirilmiş rəy sorğuları təsdiq edir. Amerika Birləşmiş Ştatlarının nüfuzlu *"The Pew Research Center"* tədqiqat mərkəzinin keçirdiyi sorğulara görə, 2004-2005-ci illərlə müqayisədə 2008-ci ildə avropalılar arasında müsəlmanlara "nisbətən mənfi" və "mənfi" yanaşanların sayı xeyli artmış, bəzən hətta 50 faizə çatmışdı. Həmin beyin mərkəzinin 2016-cı ilin yazında keçirdiyi sorğuya əsasən, müsəlmanlara mənfi münasibət Avropada ortalama 43%, o cümlədən Macarıstanda 72%, İtaliyada 69% təşkil edir.

Avropa Şurasının 2010-cu ildə miqrant siyasətinə dair hazırladığı təlimatda immiqrantlarla bağlı Qərb ölkələrində aşağıdakı fikirlərin geniş yayıldığı qeyd olunur:

- İmmiqrantlar cinayətkarlığın artmasına səbəb olur. Bu fikir media və bəzi təhlükəsizlik üzrə ekspertlər tərəfindən təkrar olunur və cəmiyyət tərəfindən sorğu-sualsız qəbul edilir. Onların fikrincə, mühacirlər, xüsusən qeyri-leqal miqrantlar cinayətkardır, onlar qanunlara yerli vətəndaşlarla müqayisədə az tabe olur, eləcə də ictimai asayişə təhlükə törədirlər;

- İmmiqrantlar xəstəlikləri ölkəyə gətirir və ya *Avropada onillər öncə məhv edilmiş xəstəliklərin qayıtmasında günahkardırlar*. Bu arqumentin müdafiəçiləri iddia edirlər ki, qeyri-leqal miqrantlar və onların övladları yerlilərlə müqayisədə sağlamlıq cəhətdən daha zəifdirlər və onlar arasında infeksiya xəstəlikləri daha çox yayılmışdır;

- İmmiqrant işçilər yerlilərin işlərini əllərindən alır. Bu fikir, xüsusilə Avropada fəhlə təbəqəsi arasında populyardır. Onlar yalnız yeni gələn mühacirləri deyil, həmçinin sonrakı nəsil miqrantları günahlandıraraq bildirirlər ki, onlar fiziki görünüşlərinə, mədəni dəyərlərinə və ailə bağlarına görə sığınacaq tapdıqları ölkənin bir parçası deyillər;

- İmmiqrant işçilər yerlilərin əmək haqlarının aşağı düşməsinə səbəb olurlar. Bu fikir həmkarlar ittifaqlarında xüsusən populyardır;

- İmmiqrantlar sosial rifah siyasətindən sui-istifadə edirlər. İddia edilir ki, miqrantlar və onların ailələri sosial rifah siyasətindən iki əsas yolla sui-istifadə edirlər. Birincisi, onlar dövlət xidmətləri və yardımlarından geniş şəkildə və ədalətsizcəsinə faydalanırlar. Bu zaman sıravi vətəndaşlardan fərqli olaraq, mühacirlərə daha dözümlü yanaşılır. İkincisi, onlar haqları çatmayan, yerlilər üçün nəzərdə tutulmuş xidmətlərdən qanunsuz yararlanırlar.

- İmmiqrantlar özlərini elə aparırlar ki, sanki bu yerlər onlara məxsusdur. Bu iddia ilə çıxış edənlər hesab edirlər ki, mühacirlər onların həyat tərzinə, adət-ənənələrinə, inanclarına hörmət göstərmir və öz mədəniyyətlərini daha üstün sayır, bunun nəticəsi kimi ictimai yerlərdə özlərini istədikləri kimi aparırlar;

- İmmiqrantlar paralel cəmiyyətlər qurur. Miqrantlar adətən yerli cəmiyyətlərə yad sosial və siyasi qrup kimi təqdim edilir. Bu zaman qapalı və avtonom (öz daxilinə yönəlmiş) mühacir icmaları qabardılır, açıq və yerlilərlə dostluq münasibəti qurmağa çalışan immiqrant icmalar isə arxa plana keçirilir. Bununla bağlı səsləndirilən iddialar içərisində "onlar inteqrasiya etmək istəmirlər", "onlar bizim dilimizdə danışa bilmirlər", "onlar vəzifəsiz hüquq istəyirlər" kimi fikirlər yer alır;

- İmmiqrantların uşaqları məktəblərin standartlarını aşağı salır. İddia edilir ki, mühacir valideynlər kifayət qədər savada malik olmadıqları üçün öz övladlarını lazımi səviyyədə yetişdirə və onların dünyagörüşünü formalaşdıra bilmir, nəticədə immiqrantların uşaqları məktəbdə uğursuzluq nümayiş etdirirlər;.

- *İmmiqrant qadınlar azlıqlar kimi yaşayırlar.* Adətən avropalı olmayan immiqrantlar müasirlikdən geridə qalmış sayılır və qadın hüquqlarının pozulmasında günahlandırılırlar. Bu mühakimə hal-hazırda müsəlmanlara qarşı yönəlib;

Avropa ictimai rəyində geniş yayılmış belə stereotiplərin hədəfi multikulturalizm ideyasının iflasa uğraması ilə bağlı fikri cəmiyyətə aşılamaqdır. Multikulturalizmə qarşı mənfi reaksiyalar ekstremist siyasi partiyaların proqramlarında, bu partiyaların liderlərinin çıxışlarında əks olunmaqla yanaşı, akademik müzakirələrdə də özünü büruzə verir.

Avropada multikulturalizmi tənqid edənlər bildirirlər ki, mültikulturalizm

siyasəti söz və fikir azadlığını nəzarət altına alınması üçün əlverişli şərait yaradır, etnik separatizmə və müstəsnalığa rəvac verir, etnik azlıqların keçmişdən qalma mənfi adət-ənənələri dəstəkləyir (zorla evləndirmək, şərəf naminə öldürmək, qadın sünnəti), ekstremist ideyaların yayılması üçün şərait yaradır.

Multikulturalizmə qarşı ictimai diskursda ortaya çıxmış bu cür tənqidlər bütün Avropada multikulturalizm siyasətinin geriləməsinə səbəb olmuşdur. Alman politoloqu Kristian Yopkeyə görə, bunun 3 əsas səbəbi vardır:

1. Rəsmi multikulturalizm siyasətinə ictimai dəstəyin olmaması;

2. Miqrantların və onların övladlarının sosial iqtisadi marginallaşması ilə nəticələnən multikulturalizm siyasətinin mahiyyətindən irəli gələn çatışmazlıqlar;

3. Cəmiyyətdəki parçalanmanın qarşısını almaq üçün liberal dövlət tərəfindən minimum liberal standartların tətbiq edilməsi.

Vessendorf və Vertovec hesab edirlər ki, siyasətçilərin qəzet səhifələrində, tok-şoularda multikulturalizmə sərt reaksiyalarını şişirtmək lazım deyil. Əksinə, bu tənqidlər nə qədər çox olsa da, multikulturalizm barədə ictimai rəyi düzgün əks etdirmir. Məsələn, BBC telekanalının 2005-ci ildə Böyük Britaniyada keçirdiyi rəy sorğusuna əsasən, respondentlərin 62%-i hesab edirdi ki, multikulturalizm Britaniyanı yaşamaq üçün daha yaxşı yerə çevirir. Yalnız 32% multikulturalizmin Britaniya həyat tərzinə təhlükə olduğunu düşünürdü. Eyni zamanda respondentlərin 58%-in fikrincə, Britaniyaya gələnlər buranın dəyərlərini və ənənələrini qəbul etməlidirlər. 35% isə hesab edirdi ki, Britaniyaya yaşamağa gələnlərə öz dəyərlərinə uyğun yaşamağa icazə verilməlidir.

Bəzi mütəxəssislər hesab edirlər ki, multikulturalizmə qarşı qısqanc yanaşmalar olsa da, müxtəlifliyin idarə olunmasına yönəlmiş siyasi proqramlar davam etdirilməlidir. Bununla əlaqədar *Derek Mak Cii* yazır: *"Biz refleksiv multikulturalizm mərhələsinə daxil olmuşuq. Bu, o deməkdir ki, multikulturalizm anlayışı yeraltına çəkilib, lakin multikulturalizmlə bağlı strategiyalar yerli səviyyədə siyasətə və praktikaya təsirini davam etdirməkdədir"*. Eyni zamanda azlıqların mədəni adət və ənənələrinin tanınması barədə icitimaiyyətdə biliyin və informasiyanın az olması multikulturalizmə qarşı ictimai diskursda mənfi münasibəti gücləndirir.

2002-2007-ci illərdə Kvebekdə bununla bağlı baş vermiş hadisələr belə yanaşmanın nümunəsidir. Belə ki, həmin vaxt Kvebekdə azlıqların bəzi

tələbləri mediada intensiv şəkildə işıqlandırılmış və geniş ictimai narazılıq yaratmışdı. Məsələn, qadınlar üçün təşkil olunmuş doğuşqabağı dərslərə gələn müsəlman qadınlar digər qadınların ərlərinin həmin dərslərdə iştirakının əleyhinə çıxmışdı. Ortodoksal yəhudilər sürücülük imtahanı verərkən tələb etmişdilər ki, imtahanı götürən sürücü-instruktor qadın öz yerini kişi instruktora versin. Rəqs zalına gələn adamlardan tələb edilmişdi ki, müsəlmanların namaz qılmalarına şərait yaratmaq üçün zalı tərk etsinlər. Yenə ortodoksal yəhudilər tələb edirdilər ki, yemək sektoru koşer yeməklərə daha çox yer versinlər və ya gimnastika zallarından tələb edilmişdi ki, zalların pəncərələrini elə düzəltsinlər ki, məşq edən qadınları hasidlər (mühavizəkarlığı ilə seçilən yəhudi məzhəbinin nümayəndələri. Red.) görməsin. Mediada bu cür halların geniş işıqlandırılması bəzi siyasətçilərə ictimai rəyi qızışdırmasına imkan vermişdir.

Fleras multikulturalizm əleyhdarlarını üç cəbhəyə bölür:

1. Anti-multikulturalizm anti-immiqrasiya kimi;
2. Anti-multikulturalizm anti-müsəlmanlar kimi;
3. Anti-multikulturalizm anti-multikultural idarəetmə kimi.

Flerasın fikrincə, multikulturalizmin bu günümüzü müəyyənləşdirən irsi sübut edir ki, multikulturalizm uğurlu olub və bu da davam etməkdədir. O, bunu aşağıdakı arqumentlərlə əsaslandırır: a). keçmişlə müqayisədə “başqalarına” qarşı tolerantlıq və qəbul etmə hissi müəyyən limit daxilində artıb; b). ağların avrosentrik hegemonluq ideyası rədd edilib; c). irqçilik artıq sosial və hüquqi cəhətdən qeyri-məqbuldur; d). miqrantlar əsas təsisatlara və orta sinfə ciddi şəkildə daxil ola bilib.

Nəhayət, mütəxəssislər iddia edirlər ki, multikulturalizm nə ölüb, nə də ölmək üzrədir. Meydanı tərk edən isə multikulturalizmin aşağıdakı köhnəlmiş formalarıdır:

1. Birləşməni deyil, parçalanmanı təşviq edən multikulturalizm;
2. Birgəyaşayışın modeli olaraq inklüzivliyə deyil, fərqliliyə üstünlük verən multikulturalizm;
3. Etnik icmaları idarəetmənin əsası kimi qəbul və təşviq edən multikulturalizm;
4. Əsas mədəni dəyərlərlə ziddiyət təşkil edən etno-mədəni dəyərlərə və praktikalara qarşı dözümlülük nümayiş etdirən multikulturalizm;

5. Azlıqları və hökumətlərin azlıq siyasətini tənqid etməyə qorxan multikulturalizm;

6. Daimi prinsipləri ortaya qoyan yox, özünün xüsusi təlimatlarını əks etdirən multikulturalizm;

7. Multikultural idarəetməni cəmiyyət quruculuğundan ayıran multikulturalizm.

Multikulturalizmin ölmədiyini sübut edən ən mühüm məqamlardan biri də onun yeni demokratiyalarda intişar tapmasıdır. Qeyd olunduğu kimi, bu gün Azərbaycanda multikulturalizm dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi, "Multikulturalizm Azərbaycanın dövlət siyasətidir və xalqımızın həyat tərzidir".

## 10.2.Qərb ölkələrində etnik–mədəni müxtəlifliyə immiqrasiya prosesinin təsiri

Qida axtarmaq, münbit ərazilər zəbt etmək, təbii fəlakətlərin yaratdığı çətinliklərdən yaxa qurtarmaq, müharibələr və s. kimi səbəblərdən baş verən miqrasiya axınları tarixin bütün dövrlərində müşahidə olunur. Təbii ki, insanlar getdiyi məmləkətlərdə siyasi və iqtisadi proseslərə, mədəni mühitə təsir göstərir, etnik-mədəni müxtəlifliyin formalaşmasında mühüm rol oynayırlar.

Bu gün miqrasiya proseslərini sürətləndirən əsas səbəblər müharibə və münaqişələr, siyasi rejimlər, mövcud sosial-iqtisadi vəziyyət, təbii fəlakətlərdir. XIX əsrin ən böyük miqrasiya axınları Qərbin hegemon və imperialist dövlətlərinin müstəmləkəçilik siyasəti nəticəsində baş vermişdir. Bu gün Qərbdə yayılan antimiqrant əhval-ruhiyyəsi göstərir ki, xüsusilə II Dünya müharibəsindən sonrakı dövrdə Qərbə axın edən miqrantların özləri ilə birlikdə gətirdikləri ideologiya, etnik-mədəni dəyərlər, ümumiyyətlə mədəniyyət pənah gətirdikləri ölkələrdə əsasən qəbul edilmir. Buna görə də bir sıra Qərb dövlətləri assimilyasiya siyasətini yürüdür.-

2017-ci ilin statistikasına görə, Avropa İttifaqına (Aİ) üzv dövlətlərdə ümumilikdə 22 milyon qeyri-üzv dövlətlərin vətəndaşları məskunlaşıb. Ən çox immiqrant qəbul edən ölkələr Almaniya (9,2 mln), Böyük Britaniya (6,1 mln),

İtaliya (5 mln), Fransa (4,6 mln) və İspaniyadır (4,4 mln). İmmiqrantlar daha çox Hindistan, Pakistan, Türkiyə, Mərakeş, Əlcəzair, Tunis, Çin və s. ölkələrdəndir.

"Avrobarometr" adlı təşkilatın apardığı rəy sorğusuna əsasən, Avropada ən çox mənsubu olan din 72 faizlə Xristianlıqdır. Onlardan 45 faizi katolik, 11 faizi protestant, 10 faizi pravoslav və 6 faizi digər dinlərdir. Avropada yaşayan 24 faiz əhali isə heç bir dinə sitayiş etmir.

Üzv ölkələrin dilləri ilə yanaşı, Avropada yaşayan bəzi avtoxton olan milli azlıqların (basqlar, katalonlar və b.) dilləri rəsmi status daşıyır. Əlbəttə Aİ-nin milli azlıqların hüquqlarının qorunması ilə bağlı müvafiq hüquqi bazaları mövcuddur. İmmiqrantların dilləri də avroməkanın dil zənginliyinə öz töhfəsini verir. Onlar arasında ən çox danışılan dillər rus, türk, ərəb, kürd, hind/urdu, Çin dilidir.

Müasir dövrdə Avropada etnik-mədəni müxtəlifliyin idarə edilməsini şərtləndirən əsas amil immiqrantlardır. Belə ki, bir sıra Avropa ölkələri immiqrantlarla bağlı sərt assimilyasiya siyasəti həyata keçirir. Buna ən bariz nümunə kimi, Fransanı göstərə bilərik. 2019-cu ilin statistikasına görə, Qərbi Avropada daha çox immiqrant qəbul edən bu ölkənin əhalisi 65 milyondan çoxdur. Qeyd olunmalıdır ki, Fransa Konstitusiyası etnik mənsubiyyətlə bağlı sorğu və statistikanın aparılmasını qadağan edir. Buna səbəb sözügedən ölkədə sərt assimilyasiya siyasətinin aparılmasıdır. Aparılan hesablamalara əsasən, bu ölkəyə immiqrantların böyük əksəriyyətini keçmişdə Fransanın müstəmləkəsi olan ölkələrdən gələnlər təşkil edir. 2012-ci ilin statistikasına görə, bu ölkədə yaşayan immiqrantların faiz nisbəti ilə bölgüsü belə idi: avropalı immiqrantlar (əsasən, İspaniya, Portuqaliya, İtaliya) 46 faiz; Şimali Afrikadan (əsasən, Əlcəzair, Mərakeş və Tunis) gələn immiqrantlar təxminən 30 faiz; Asiya ölkələrindən (əsasən, Çin və Türkiyə) 14 faiz; Amerika və Braziliyadan gəlmələr isə 10 faiz. Mənzərəyə baxdıqda məlum olur ki, Fransa dil, din, irq, adət-ənənə və etnik-mədəni müxtəliflik baxımından zəngin ölkədir. Aparılan assimilyasiya siyasəti nəticəsində bu müxtəliflik tədricən əriməyə başlayıb. İmmiqrantlara qarşı münasibətdə Fransa siyasəti özünü iki istiqamətdə göstərdi. Fransız hökumətinin sərt miqrasiya siyasətindən (assimilyasiya) biri də ondan ibarət idi ki, ölkəyə gələn bütün miqrantlar Fransa vətəndaşlığını qəbul etməlidir. Yəni, ikili vətəndaşlığa icazə verilmir. Bundan əlavə, işlə təmin olunmaq, sosial xidmətlərdən istifadə etmək, bir sözlə, onlara yaxşı şəraitin qurulması üçün digər

məhdudiyyət isə fransız dili tələbinin qoyulması idi. Adətən belə hesab olunur ki, liberal dövlətlərdə, xüsusilə Fransa nümunəsində etiqad azadlığı dil seçimi azadlığı kimi sərt reaksiya ilə qarşılanmır.

Bir çox immiqrant qəbul edən liberal ölkələr dini müxtəlifliklə bağlı məsələdə orta mövqe tutmağa üstünlük verir. Bunun iki səbəbi var: birincisi, dünyəvi dövlət nöqteyi-nəzərindən yanaşdıqda dövlət dinin işinə qarışmır və bu məsələdə neytral mövqe tutur; ikinci səbəb isə ondan ibarətdir ki, kiməsə dil ilə bağlı tələb qoymaq mümkündür. Yəni insan bir neçə dildə danışa bilər. Ancaq dini baxımdan bu mümkün deyil. Bir sözlə, immiqrant qəbul edən Qərb dövlətləri dini plüralizmlə bağlı daha yumşaq siyasət aparmağa üstünlük verir.

Qərbi Avropada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi sahəsində nümunəvi siyasət yürüdən ölkələrə misal kimi isə İsveç və Hollandiyanı göstərmək olar. Məsələn, İsveç 1975-ci ildə multikulturalizm siyasətinin rəsmi olaraq dövlət siyasəti elan etdi. İsveç multikulturalizminin üç sütun təməli var: “Bərabərlik”, “Seçim azadlığı” və “Əməkdaşlıq”. Bu siyasətin ana özəyi olan “Seçim azadlığı” sözügedən ölkə tərəfindən aparılan “İmmiqrant və Azlıq Siyasəti” ilə bağlı qəbul etdiyi qərarlar nəticəsində İsveç Konstitusiyasında öz əksini tapıb. İsveç Konstitusiyasına görə, dövlət etnik, dil və dini azlıqların hüququnu qoruyur və onların mədəni kimliyinin güclənməsi üçün inteqrasiyanı dəstəkləyir. Sayı 1000 nəfərdən çox olan miqrant qruplar “etnik azlıq” statusuna malikdir. Onlar üçün doğma dillərində təhsil almaq, TV və radio stansiyaları təsis etmək üçün hər cür şərait yaradılır, öz dillərində müxtəlif qəzet və jurnalların nəşrinə dövlət tərəfindən dəstək göstərilir.

Etnik-mədəni müxtəlifliyin tənzimlənməsində aparılan uğurlu siyasət nümunələrindən bir də Hollandiyadır. İsveçdən təxminən 10 il sonra Hollandiya etnik və mədəni müxtəlifliyin idarə olunması ilə bağlı dövlət siyasətini elan etdi. Multikulturalizm siyasəti çərçivəsində aparılan etnik azlıqlarla bağlı siyasət ölkədə yaşayan immiqrant azlıqların hüquqlarının tam təmin olunması, onların cəmiyyətə inteqrasiyası və s. kimi sahələri əhatə edir. Bu siyasətə görə ölkədə rəsmi şəkildə 8 müxtəlif etnik qrup müəyyən olunub. Onlar əsasən Türkiyə, Mərakeş, Tunis, Surinamdan gələn miqrantlar, qaçqınlar və qaraçılardır. Qrupa Çin və Pakistanın adı salınmayıb. Hollandiya hökuməti qrupda təmsil olunan etnik azlıqlarla bağlı qeyd edir ki, holland cəmiyyətində qeyri-bərabər sosial iştirakçılığı olanlar bu qrupda yer alıb. Etnik azlıq kimi təsnifləndirilən immiqrant-

ların dini təhsil müəssisələri və onların mətbu orqanları dövlət tərəfindən maaliyyələşdirilir. Əlbəttə, etnik azlıqlarla bağlı qrupun müəyyənləşdirilməsi siyasi sığınacaq axtaran insanlar üçün yuxarıda qeyd olunan imtiyazlardan yararlanmağı məhdudlaşdırır. Holland multikulturalizminin İsveçdə aparılan multikulturalizm siyasətindən fərqi ondan ibarətdir ki, Hollandiya məcburi inteqrasiya siyasəti həyata keçirir. Belə olan halda multikulturalizm siyasət kimi yox, sosial fakt kimi görünməyə başlayır. Yəni, multikulturalizm milli kimlik seçimi olur. Holland hökumətinin 1998-ci ildə qəbul etdiyi "Gəlmələrin Mədəni İnteqrasiyası haqqında" Qanun təkcə immiqrantların deyil, eyni zamanda əlverişsiz vəziyyətdə olan insanların da cəmiyyətin sosial-iqtisadi fəaliyyətində iştirakını təmin edir. Həmçinin həmin qanun qeyri-üzv ölkələrdən gələn miqrantlar üçün 600 saatlıq dil tədrisi siniflərinin təşkil olunmasının təmin edilməsini tənzimləyir.

Etnik-mədəni müxtəlifliyin idarəedilməsində fərqli siyasətin aparılması nəticəsində gəlmələrin həmin ölkələrə münasibəti də eyni deyil. Fransada aparılan sərt assimilyasiya siyasəti immiqrantları özlərini yadelli kimi hiss etməyə, onlarda yerli mədəniyyətə qarşı immunitetini gücləndirməyə, eyni zamanda ksenofobiya, islamofobiya, irqi və dini ayrı-seçkilik meyillərinin güclənməsinə rəvac verir. Lakin İsveç və Hollandiyada immiqrantların hüquqlarının tam təmin edilməsi və cəmiyyətə inteqrasiya olunmaları nəticəsində onların ümumi sosial, iqtisadi və siyasi inkişafa öz töhfələrinin verilməsi üçün əlverişli şərait yaradır.

## 10.3. Qərb ölkələrində dözümsüzlüyün, ksenofobiyanın və ayrıseçkiliyin geniş yayılmış formaları

### 10.3.1.İslamofobiya

Müasir dövrdə etnik–mədəni müxtəlifliyin tənzimlənməsi sahəsində Qərb ölkələrinin üzləşdiyi əsas problemlərdən biri islamofobiyanın bu ölkələrdə baş qaldırmasıdır. İslamofobiya dözümsüzlüyün, ksenofobiyanın və ayrıseçkiliyin geniş yayılmış formalarından biridir. Qərb ölkələrində islamofobiyanın yayılması orada multikulturalizmin iflasa uğramasının əsas göstəricilərindən biridir.

İslamofobiya məfhumu iki sözün birləşməsindən formalaşmışdır- İslam və fobiya (qorxu). Bu məfhumun etimologiyasına uyğun olaraq islamofobiya İslam dininə, müsəlmanlara, müsəlman dövlətlərinə və ümumiyyətlə bu dinlə bağlı olan hər bir sosial hadisəyə münasibətdə qorxuya və qorxudan irəli gələn, onun məntiqi nəticəsi olan nifrətə, o cümlədən ayrı-seçkiliyə, təqibə əsaslanır. Kembric lüğətində islamofobiyaya verilən tərifdə İslama və müsəlmanlara münasibətdə olan nifrət və ya qorxu haqlı olaraq əsassız hesab olunur, Meriam Vebster lüğətində isə - irrasional. Doğrudan da islamofobiyanın İslam dininə və müsəlmanlara münasibətdə təqdim etdiyi qorxu və nifrət əsassız, məntiqsiz, həmçinin ədalətsizdir. Buna görə də, yuxarıda qeyd etdiyimiz kimi, islamofobiya dözümsüzlüyün, ksenofobiyanın və ayrıseçkiliyin geniş yayılmış formalarından biridir. O, müsəlmanlara qarşı dözümsüzlüyü və ayrı-seçkiliyi təbliğ edir. Hətta bəzi tədqiqatçılar haqlı olaraq islamofobiyanı irqçiliyin konkret bir forması hesab edirlər. Məsələn, britaniyalı sosioloq Tariq Modud *"7/7-dən sonra multikulturalizmin bərpa edilməsi"* adlı məqaləsində bununla bağlı yazır: "İrqçiliyin bir neçə forması vardır. Onun mədəni formaları xəyali yaxud real mədəni cəhətlərə əsaslanır. Müasir dövrdə mədəni irqçiliyin ən mühüm forması bəzən islamofobiya adlandırılan anti-müsəlman irqçiliyidir".

İslamofobiya məfhumu ədəbiyyata 1970-ci illərdə daxil olsa da, yalnız 80-ci və xüsusilə də 90-cı illərdə bu termin geniş şəkildə istifadə edilməyə başladı. 1997-ci ildə Britaniyada fəaliyyət göstərən "Runnymede Trust" tədqiqat mərkəzinin *"İslamofobiya: hamımız üçün problem"* adlı hesabatının nəşr edilməsi bu terminin mənasını geniş ictimaiyyətin nəzərinə çatdırdı. Sözügedən hesabatda islamofobiya müsəlmanlara münasibətdə əsassız qorxu və nifrətlə səciyyələnən və onlara qarşı ayrı-seçkiliyi təbliğ edən baxış və ya dünyagörüşü kimi təqdim olunurdu. "Əl-Qaidə" terror təşkilatının üzvləri tərəfindən 11 sentyabr 2001-ci il tarixində ABŞ-da törədilən terror aktlarından sonra islamofobiya termini Qərb ölkələrində daha çox işlədilməyə başladı. Radikal İslamın fəaliyyətinin genişlənməsi, ondan irəli gələn təhlükələrin artması islamofobiya termininin istər elmi-populyar ədəbiyyatda, istər siyasətçilərin çıxışlarında geniş istifadə edilməsinə səbəb oldu.

İslamofobiyanın əsasını təşkil edən İslam dininə və müsəlmanlara qarşı qorxu və nifrət özü-özlüyündə mənfi reaksiyalardır. Çünki bu qorxu və nifrət, yuxarıda qeyd olunduğu kimi, əsassız və ədalətsizdir. Bu reaksiyalar isə subyektiv

və qərəzli xarakter daşıyaraq həqiqəti əks etmir. Bu reaksiyaların hər birinin özünəməxsus təzahür formaları vardır. Məsələn, İslam dininə münasibətdə qorxu bu dinin inkişafa, yeniliyə qarşı olan, digər dinlərə münasibətdə dözümsüzlüyü təbliğ edən, elmə, təhsilə, incəsənətə qarşı olan bir dini sistem kimi təqdim olunmasında özünü büruzə verir. Müsəlmanlara münasibətdə isə qorxu onların yaşadıqları cəmiyyətə inteqrasiya olunmaq istəməyən, qeyri-müsəlmanlara münasibətdə aqqressiv, terrorçuluğa meyli bir icma kimi təqdim olunmasında özünü göstərir.

Yuxarıda qeyd olunduğu kimi, islamofobiya bir məfhum kimi ədəbiyyata ötən əsrin 70-ci- illərində daxil olmuşdur. Lakin İslam dininə, müsəlmanlara münasibətdə qorxu və nifrəti ifadə edən bir sosial hadisə kimi islamofobiyanın meydana gəlməsinin tarixi daha qədim dövrlərə gedib çıxır. Başqa sözlə desək, islamofobiya məfhumunun yaranmasının dərin və qədim tarixi və ideoloji kökləri vardır.

İslamofobiya İslam dininin yüksək mənəvi dəyərlərə malik olan bir din kimi dünyada geniş yayılmasından, müsəlmanların sayının sürətlə atrmasından narahat olan müəyyən qrup insanlar tərəfindən süni şəkildə irəli sürülmüşdür. Orta əsrlər dövründə müşahidə olunan səlib yürüşləri islamofobiyanın ilk təzahür formalarından idi. Məlum olduğu kimi, orta əsrlər dövründə müsəlman aləmi elm, texnologiya, iqtisadiyyat, mədəniyyət və cəmiyyətin inkişafının bütün sahələrində böyük nailiyyətlər əldə edərək xristian aləmini geridə qoymuşdur. Xristian ölkələrinin dövlət və dini başçıları müsəlman aləminin bu nailiyyətlərini qısqanclıqla və özlərinə münasibətdə təhlükə kimi qəbul edərək onlara qarşı səlib yürüşləri təşkil etmişlər. İslamın xristian dininə qarşı, müsəlmanların isə xristianların düşmənləri olması fikrini yaymaqla Avropa kilsə rəhbərləri yerli əhalini müsəlmanlara qarşı səlib yürüşlərinə çağırırdılar.

İslamofobiyanın tarixinin növbəti mərhələsi İntibah dövründən sonra, xüsusilə Yeni dövrdə özünü büruzə verdi. Bu mərhələdə əvvəlki mərhələdən fərqli olaraq islamofobiyanın yayılması müsəlman ölkələrinin dünyada mövqelərinin zəifləməsi şəraitində baş verirdi. Avropa dövlətlərinin elmi-texnoloji, təhsil, iqtisadi və hərbi sahələrdə irəliləməsi, müsəlman aləmində isə bu sahələrdə geriliyin artması İslama qarşı yeni hücumların başlanması üçün əlverişli şərait yaratdı. Uzun dövr ərzində yüksək inkişaf mərhələsinə çatmış, elmin inkişafında böyük nailiyyətlər əldə etmiş müsəlman aləmi tədricən

tənəzzülə uğrayırdı. Bəzi Avropa yazıçıları, elm xadimləri müsəlman aləminin bu geriliyini İslamla əlaqələndirərək İslamı tənqid edirdi. Məsələn, XIX əsrdə yaşamış fransız şərqşünası *Ernest Renan (1823-1892) "İslam və elm"* adlı əsərində qeyd edirdi ki, ərəb təfəkkürünün məhsulu olan ortodoksal İslam elmə, fəlsəfəyə və ümumiyyətlə ictimai tərəqqiyə ziddir. Renanın bu cür islamofob fikirlərini görkəmli türk şairi və ictimai xadimi *Namiq Kamal (1840-1888)* və görkəmli Azərbaycan mütəfəkkiri, dinşünas, maarifçi *Cəmaləddin Əfqani (1836-1897)* tənqid etmişlər.

Namik Kamal öz tənqidində müsəlman aləminin inkişafının ilk mərhələlərinə müraciət edərək və burada elm, fəlsəfə sahəsində əldə olunan böyük nailiyyətləri misal olaraq gətirərək qeyd edirdi ki, *xristian Qərbi öz elmi inkişafı ilə müsəlman Şərqinə borcludur.* Cəmaləddin Əfqani isə *"Renana cavab"* adlı məqaləsində Renanın İslamla bağlı yuxarıda qeyd olunan fikirlərini təkzib edərək göstərirdi ki, İslam yarandıqdan sonra müsəlman aləmi xristian aləmini elm və incəsənət sahəsində geridə qoymuşdur. Təxminən 775-ci ildən XIII əsrin ortalarınadək, yəni təxminən 500 il ərzində, qədim yunanların elmi nailiyyətlərini qəbul edərək ərəblər bu nailiyyətləri inkişaf etdirmiş sonra isə Avropaya yaymışdılar.

Qeyd etmək lazımdır ki, Avropada, Rusiyada geniş yayılan islamofob fikirlərə qarşı türkçülüyün görkəmli nümayəndələri İsmayıl Qaspralı (1841-1914) və Əlibəy Hüseynzadə (1864-1940) də çıxış etmişlər.

Tanınmış maarifçı, ictimai xadim İsmayıl Qaspralı 1883-cü ildən ömrünün sonunadək nəşr etdirdiyi *"Tərcüman"* qəzeti vasitəsilə Avropa və Rusiyada müsəlman xalqlarının geriliyinin İslamla bağlı olması fikrini rədd edərək İslamın elmə və təhsilə böyük önəm verdiyini təbliğ edirdi. Əlibəy Hüseynzadə isə İslamın mütərəqqi din olaraq xalqları birləşdirərək ölkənin sosial-iqtisadi inkişafına əlverişli şərait yaratmaq gücünə malik olduğunu qeyd edirdi. O, haqlı olaraq müsəlmanların şiə və sünni məzhəblərinə bölünməsini İslam dünyasının geriliyinin əsas səbəblərindən biri hesab edirdi. Əlibəy Hüseynzadə İslam ilə elm arasında heç bir qarşıdurmanın olmadığını deyirdi. O, İslam dininin böyük potensiala malik olduğunu qeyd edərək bu potensialın reallaşması üçün avam və fanatik din xadimlərinə qarşı mübarizə aparmağın vacib olduğunu söyləyirdi.

İslamofobiyanın tarixi inkişafının müasir dövrünün başlanğıcı XX əsrin 80-ci illərinin sonlarına 90-cı illərinin əvvəllərinə təsadüf edir. Məlum olduğu kimi, sözügedən dövr dünya kommunist sisteminin dağılması ilə soyuq müharibə

illəri başa çatır. Qeyd olunan hadisənin ən əsas nəticələrindən biri mədəniyyətin ictimai inkişafda aparıcı rolunun artmasıdır. Əvvəlki fəsildə qeyd etdiyimiz kimi, mədəniyyətin ictimai inkişafda aparıcı rolunun artması müasir ictimai inkişafın xüsusiyyətlərindən irəli gəlir.

Mədəniyyətin ictimai inkişafda rolunu mütləşləşdirməklə, mədəniyyətin mahiyyətcə sabit, dəyişməz və konservativ bir sosial hadisə olmasını qeyd edən Samuil Hantinqton “sivilizasiyaların toqquşması” haqqında hipotezi irəli sürür. Bu hipotez müasir dövrdə islamofobiyanın nəzəri-ideoloji əsasını təşkil edir. Çünki Hantinqton Qərb sivilizasiyasının ideoloqu kimi, müsəlman sivilizasiyasını ölkənin sosial-iqtisadi və demokratik inkişafına mane olmaqda suçlayır. O, *“Sivilizasiyaların toqquşması və dünya düzəninin yenidən qurulması”* adlı əsərində keçmiş sovet respublikaların sosial-iqtisadi və siyasi inkişaflarını proqnozlaşdırarkən qeyd edir ki, *Qərbi xristian mədəni irsinə malik olan ölkələr iqtisadi inkişaf və demokratik siyasət istiqamətində irəliləyəcəklər. Ortodoks xristian mədəni irsinə malik olan ölkələrin iqtisadi inkişaf və demokratik siyasət istiqamətində perspektivləri qeyri-müəyyəndir. Müsəlman respublikalarında isə bu perspektivlər qaranlıqdır.* Bu əsərdə Hantinqton müsəlman respublikalarında demokratiyanın inkişaf perspektivlərini də ayrıca olaraq qaranlıq hesab edir.

Hantinqtonun İslam sivilizasiyasına, onun əsasını təşkil edən İslam dininə münasibəti mahiyyət etibarı ilə qərəzlidir. Hantinqton İslam sivilizasiyasını, onun dəyərlərini və tarixi nailiyyətlərini dərindən dərk etmədən İslamı demokratiyaya zidd olan, sosial-iqtisadi geriləməyə səbəb olan, miqrant böhranına şərait yaradan din kimi, müsəlmanları isə münaqişəyə, terrorizmə meylli insanlar kimi təqdim edir. Sözsüz ki, Hantinqtonun anti-islam, islamofob baxışları ideoloji xarakter daşıyır. Bu baxışlar Qərb ölkələrinin siyasi və dini dairələrinin müəyyən nümayəndələrinin maraqlarını əks etdirir.

Tarixi hadisələrin sonrakı gedişatı, daha konkret desək, 11 sentyabr 2001-ci il hadisələri, radikal islamçılar tərəfindən dünyanın bir sıra ölkələrində törədilən terror aktları, son dövrdə isə Yaxın Şərq və Afrika ölkələrində baş verən hərbi münaqişələr nəticəsində bu ölkələrdən Avropa İttifaqı ölkələrinə qaçqınların kütləvi şəkildə gəlmələri Hantinqtonun anti-islam, islamofob baxışlarının geniş yayılması üçün əlverişli şərait yaratmış, Qərb ölkələrində islamofobiya meyllərini daha da gücləndirmişdir.

Müasir dövrdə Qərb ölkələrində islamofobiya meyllərinin güclənməsini

təsdiqləyən bir neçə fakta baxaq. Baş qərargahı İsveçrədə yerləşən, frankofon ölkələrdə islamofobiyaya və irqçiliyə qarşı mübarizə aparan "Racism İslamophobia Watch" təşkilatı apardığı müşahidələrin əsasında 2013-cü ilin oktyabr ayından bəri hər ay üçün hesabat hazırlayır. Hesabatda Fransa, Belçika və İsveçrədə islamofobiyanın yayılmasına dair faktlar ictimaiyyətin diqqətinə təqdim olunur. Belə faktlar sırasında gecə vaxtı məscidlərin divarlarına yazılmış müsəlmanları təhqir edən şüarlar və irqçi svastikalar, sosial şəbəkələrdə müsəlmanların əleyhinə yayılan nifrət dolu nitqlər, məscidlərin ətrafına qoyulmuş kəsilmiş donuz başları, hicablı qadınların təhqirə məruz qalmaları, məscidlərə ekstremist qruplar tərəfindən edilən hücumlar və s. vardır.

*"Racism İslamophobia Watch"* təşkilatının yaydığı məlumata görə, Fransa və İsveçrə kimi ölkələrdə müsəlmanlar öz ibadətlərini icra etmələrində müəyyən qadağalarla üzləşirlər. Hicablı qadınlar təqibə məruz qalırlar. Müsəlmanlar ibadət etmək üçün münasib yer tapa bilmirlər. Onlar hətta öz vəsaitləri hesabına məscid tikdirə bilmirlər. "Racism İslamophobia Watch" təşkilatının hesabatında Səudiyyə Ərəbistanından olan bir iş adamına ona məxsus olan binada ibadət mərkəzinin açılmasına Nitsa şəhərinin merinin icazə vermədiyi haqqında məlumat verilir. Bu təşkilatın başqa bir məlumatında isə Mantes-la-Ville şəhərinin yeni təyin olunmuş meri bu şəhərdə Cənubi Mantes Müsəlman Assosiasiyasına ibadət evini tikdirməyə icazə vermir. Bu Assosiasiyanın başçısı öz islamofob baxışları ilə tanınan Marin Le Penin rəhbərlik etdiyi "Milli cəbhə" siyasi partiyasının üzvü olan merin bu hərəkətini müsəlmanlara qarşı ayrı-seçkilik kimi qiymətləndirmişdir. Ultra sağçı partiya olan "Milli cəbhə" partiyası bütün Avropada öz islamofob təbliğatı və fəaliyyəti ilə seçilir. Məsələn, bu partiyanın nümayəndəsi 15 oktyabr 2014-cü il tarixində Ramazan bayramı zamanı İslamın ünvanına təhqiredici sözlər işlətmişdir.

Son dövrdə Avropa İttifaqı ölkələrində islamofobiya dözümsüzlüyün, ksenofobiyanın və ayrı-seçkiliyin digər formaları kimi təkcə radikal sağçı qrupların arasında deyil, adi insanlar arasında da yayılmaqdadır. Bunun əsas göstəricilərindən biri bu ölkələrdə ultra sağçı partiyalara verilən səslərin artmasıdır. Nəticədə bu partiyaların Avropa İttifaqı ölkələrinin siyasi sistemində mövqeləri möhkəmlənir. Məsələn, 2014-cü ildə keçirilən Avropa Parlamentinə seçkilər zamanı Fransa tarixində ilk dəfə olaraq Marin Le Penin rəhbərlik etdiyi "Milli cəbhə" partiyası ən çox səs toplayan partiya oldu. Avropa Parlamentinə




*Almaniyada müsəlmanlar əleyhinə mitinq.*

əvvəlki, yəni 2009-cü il seçkiləri ilə müqayisədə 2014-cü ildə bu partiyaya 4 dəfə çox seçici səs vermişdir. Nəticədə Fransadan Avropa Parlamentinə seçilmiş 74 deputatın təxminən üçdə biri "Milli cəbhə" partiyasının üzvü idi. "Milli cəbhə" partiyasının Fransa cəmiyyətində artan populyarlığının məntiqi nəticəsi kimi onun lideri *Marin Le Penin* 2012-ci il Prezident seçkilərində namizədlər arasında üçüncü (seçicilərin 17,90%), 2017-ci il Prezident seçkilərində isə ikinci (seçicilərin 21,4%) yer tutması olmuşdur.

Müasir dövrdə Avropada islamofobiyanı məqsədyönlü şəkildə yayan təşkilatlardan biri 9 noyabr 2017-ci ildə Fransada təsis olunan Avropa Müqavimətinin Milli Şurası (frans. "Conseil national de la résistance européenne") adlı siyasi təşkilatdır. Bu təşkilatı öz antisemit və islamofob baxışları ilə tanınan fransalı yazıçı Renaud Kamyus və Fransada Əlcəzair əsilli müsəlman ailəsində doğulmuş, katolikliyi qəbul etmiş, 2017-ci il Prezident seçkilərində Marin Le Peni dəstəkləyən hüquqşünas Kərim Oçik təsis etmişlər. Avropa Müqavimətinin Milli Şurasına Fransadan, eləcə də bir sıra digər Avropa ölkələrindən olan, əsasən ultra sağçı mövqedə duran tanınmış siyasi xadimlər (məsələn, Çexiyanın

keçmiş prezidenti Vatslav Klaus.- Red.) üzvdürlər. Şuranın üzvləri həyəcan hissi ilə bəyan edirlər ki, Yaxın Şərq, Şimali Afrika və digər region ölkələrindən olan miqrantların, xüsusilə müsəlmanların Avropaya köçmələri nəticəsində Avropanın xristian əhalisinin sayı azalır, müsəlmanların isə sayı çoxalır. Nəticədə fransız mədəniyyəti, ümumilikdə isə Avropa sivilizasiyası böyük təhlükə ilə üzləşir.

Avropada islamofobiyanı təbliğ edən bəzi qruplar tərəfindən müsəlmanların Avropa İttifaqı ölkələrinə kütləvi axınının nəticələrinin proqnozlaşdırılmasına dair *"Avrabia"* (Eurabia- iki sözün - Avropa və Ərəbistan- birləşməsi. –Red.) adlı yeni bir termin siyasi leksikona daxil edilmişdir. Bu termini ilk dəfə 2000-ci illərin əvvəlində *Bat Yeor* işlətmişdir. Onun 2005-ci ildə nəşr etdirdiyi kitabın adında bu termin əks olunmuşdur - "Avrabia: Avro- ərəb oxu". Sonralar Avrabia termini intensiv şəkildə istifadə olunaraq konspirativ nəzəriyyə formasını almışdır.

Avrabia nəzəriyyəsi Avropanın gələcək inkişaf ssenarisini təqdim edir. Bu nəzəriyyəyə əsasən, Avropa yaxın gələcəkdə islamlaşacaqdır. Avropaya müsəlmanların axını və onlar arasında doğum səviyyəsinin yüksək olması XXI əsrin sonlarında burada müsəlmanların çoxluq təşkil etmələri ilə nəticələnəcəkdir. Müsəlmanlar Avropada hökmranlıq edəcəklər. İslamlaşan Avropa tədricən öz mədəni dəyərlərini itirəcəkdir. Onun ABŞ və İsraillə mövcud əlaqələrini zəifləyəcəkdir.

Konspirativ nəzəriyyə olan Avrabia nəzəriyyəsi Avropanın islamlaşması prosesini Avropa İttifaqı təşkilatı tərəfindən planlaşdırıldığını və həyata keçirildiyini iddia edir. Buna görə də bu nəzəriyyə islamofobiya ilə yanaşı avroskeptisizmə də əsaslanır. Heç təsadüfi deyil ki, Avropada fəaliyyət göstərən ultra sağçı qüvvələr, populist siyasətçilər irqçiliyi, ayrı-seçkiliyi təbliğ edən Avrabia nəzəriyyəsini müdafiə və təbliğ edirlər. Göründüyü kimi, bu nəzəriyyə öz mahiyyətinə görə irqçiliyi, islamofobiyanı, müsəlmanlara münasibətdə nifrəti təbliğ edir. Onun əsas məqsədi müsəlmanların Avropaya gəlmələrinin qarşısını almaqdır

Beləliklə, islamofobiya müasir dövrdə Qərb ölkələrinin üzləşdiyi əsas problemlərdən biridir. İslamofobiya dözümsüzlüyün, ayrı-seçkiliyin bir forması kimi Qərb ölkələrinin təbliğ və müdafiə etdikləri demokratik dəyərlərə, insanın hüquq və azadlıqlarına ziddir. İslamofobiya cəmiyyətdə inteqrasiya proseslərinə qarşı yönəlmişdir. İslamofobiyanın cəmiyyətdə yayılması etnik-dini zəmində baş verən münaqişələrə səbəb olur. Bu isə öz növbəsində ölkənin sosial-iqtisadi

inkişafına ciddi şəkildə mane olur. Bundan başqa islamofobiya nifrət əsasında törədilən cinayətlərin digər növləri kimi adi cinayətlərlə müqayisədə cəmiyyətə daha çox ziyan gətirir. Çünki islamofobiya əsasında törədilən cinayətdən bilavasitə zərər çəkən şəxslə yanaşı bu qrupa daxil olanlar, yəni müsəlmanlar dolayısı yolla olsa da zərər çəkirlər. Başqa sözlə desək, müəyyən ölkədə islamofobiya zəminində nəticəsində törədilən cinayət ən azı həmin ölkədə yaşayan bütün müsəlmanlara toxunaraq cəmiyyətdə qarşıdurma yaradır. Bəzən islamofobiyanın əks sədası hətta ölkənin hüdudlarından kənara da yayılır. Belə olan halda müsəlman ölkələri bu və ya digər ölkədə baş verən islamofobiya aktına öz etirazlarını bildirir. Bu isə artıq qarşıdurmanın ölkədaxili müstəvidən beynəlxalq müstəviyə çıxması deməkdir. Bütün bu qarşıdurmalara yol verməmək üçün dünya ictimaiyyəti islamofobiyanın, eləcə də dözümsüzlüyün, ksenofobiyanın və ayrı-seçkiliyin bütün formalarının qarşısını almalıdır.

## 10.3.2. Antisemitizm

Yəhudi xalqının nümayəndələrinə qarşı nifrəti bildirmək üçün "antisemitizm" ifadəsi ilk dəfə 1879-cu ildə istifadə olunmuşdur. Toraya görə (Musa peyğəmbərin beş kitabından ibarət olan yəhudiliyin müqəddəs kitabı. Tora haqqında bu dərsliyin IV fəslinin 4.1.2.-ci bəndinin "Dini mətnlər" adlı altbəndində ətraflı məlumat verilir.- Red.), yəhudilər Nuhun üç oğlundan biri olan Simin birbaşa nəslindən gəlirlər. Həmçinin Sim bütün semit xalqların (ərəblər, babilistanlılar, assuriyalılar, finikiyalılar, aramilər, maltalılar və s.) əcdadı sayılır. Lakin avropalılar az qala bütün Avropa ölkələrində yaşayan yəhudilərlə daha çox qarşılaşdıqları üçün bu termin yalnız onlara aid edilməyə başladı. Ehtimal olunur ki, "antisemitizm" anlayışını ilk dəfə irqçi, fanatik jurnalist Vilhelm Marr işlətmişdir.

Əksər alimlərin fikrincə, yəhudilərə qarşı kütləvi qırğın tarixdə ilk dəfə e.ə. III əsrdə Ptolomeylər sülaləsi dövründə Misirin paytaxtı olan İsgəndəriyyə şəhərində törədilmişdir. O zamanlar İsgəndəriyyə dünyanın ticarət və elm mərkəzi sayılırdı. İsgəndəriyyənin beş məhəlləsindən ikisində yəhudilər yaşayırdı. Şəhərdə yəhudilərə qarşı ilk talan e.ə. 38-ci ildə törədilmişdir. Yəhudi və yunan tacirləri, sənətkarları arasında artan rəqabət həmin talanın baş verməsinə səbəb olmuşdur.

Qədim Roma imperiyası dövründə də yəhudilərə qarşı nifrət geniş yayılmışdı. Romalıların bu yəhudi düşmənçiliyi daha çox hər iki xalq arasında dini baxışlarda mövcud olan fərqliliklərdən qaynaqlanırdı.

Bizim eranın başlanğıcında xristianlığın meydana gəlməsi də sonrakı dövrlərdə Avropada yəhudi düşmənçiliyin rəvac tapmasına gətirib çıxardı. Belə ki, xristianlıq yəhudi cəmiyyətində yarandığı üçün bu dinin ilk ardıcılları milliyətcə yəhudi olublar. İlk yəhudi-xristianlar iudaizmin qaydalarına riayət edir və özlərini yəhudi dinindən ayrı tutmurdular. Hətta Fələstindəki yəhudi-xristianlara rəhbərlik edən İsa Məsihin qardaşı Yaqub başqa xalqların xristianlığa dəvət olunmasına qarşı çıxırdı. O, bu məsələdə həvari Pavel ilə fikir ayrılığına düşmüşdü. Həvari Pavel də yəhudi idi. Lakin o, xristianlığa yeni tərəfdarlar qazanmaq üçün yəhudi dininin vacib hökmlərini ləğv etməyə səsləyirdi. Pavel və onun şagirdləri qədim Roma imperiyasının şəhərlərində yəhudilərlə yanaşı, bütpərəst olan başqa xalqların nümayəndələrini də yeni dinə dəvət etməyə başladılar. Nəticədə xristianlıq daha çox başqa xalqlar arasında yayıldı.

Xristianlar özlərini iudaizmin mənsublarından fərqləndirmək üçün yəhudiləri İsa Məsihin qətlində günahlandırdılar. Bununla yanaşı, xristian ilahiyyatında antisemit məqamlar yer almağa və inkişaf etməyə başladı. Bir çox xristian din xadimləri və ilahiyyatçılarının ritorikasında daim yəhudilərin ünvanına kəskin ifadələr səslənirdi. Yəhudi xalqına mənfi münasibət protestantlığın əsas istiqamətlərindən biri olan lüteranlığın banisi, məşhur din islahatçısı Martin Lüterin (1483-1546) *“Yəhudilər və onların yalanları haqqında”* adlı kitabında pik həddə çatdı. O, kitabında yəhudi dini mətnlərini yandırmağa və sinaqoqları uçurtmağa səsləyirdi. Dörd əsr sonra isə milyonlarla yəhudinin ölümünə bais olan Adolf Hitler *“Mənim mübarizəm”* adlı kitabında Lüterin ideyalarını həyata keçirdiyini bildirdi.

Təbii ki, orta əsrlər Avropasında bir çox xristian din xadimlərinin yəhudilər əleyhinə çağırışları təsirsiz ötüşə bilməzdi. Çünki o vaxtlar əhalinin əksəriyyəti ruhanilərin təsiri altında idi. Baxmayaraq ki, kilsə hər kəsə məhəbbət duymağı təbliğ edirdi, reallıqda orta əsr idealları sülhpərvərlik və humanizmdən çox uzaq idi. Ardı-arası kəsilməyən müharibələr vaxtı şəxsi mülkiyyət və şəxsi toxunulmazlıq hüququndan söhbət belə gedə bilməzdi. Belə bir vəziyyətdə başqa xalqların nümayəndələrinə, xüsusən digər dinlərin mənsublarına münasibət birmənalı olaraq mənfi idi.

Həmçinin illər boyu haqsızlıq və yoxsulluqdan, feodal zülmündən əziyyət çəkmiş məzlum sadə camaat daim nifrətini bildirməyə ehtiyac duyurdu. Şəhərlərdə ac və qəzəbli qara camaat soyğunçuluq və qarət hesabına varlanmaq fürsəti axtarırdı. Odur ki, mütləq köməksiz düşmən göstərmək lazım idi. Yəhudilər hamıdan daha çox bu obraza uyğun gəlirdilər. Qara camaat sələmçiliklə məşğul olan yəhudilərə nifrət bəsləyir, borc verənə borcu qaytarmaq yerinə, onu öldürməyə üstünlük verirdi. Yəhudi tacirləri və sənətkarları isə rəqabət səbəbi ilə təqibə məruz qalırdılar.

Yəhudiləri talan və qarət edənlər öz əməllərinə dini və nəcib qəhrəmanlıq donu geydirirdilər. Səlib yürüşləri bunun əyani sübutudur. Belə ki, İsa Məsihin Qüdsdəki məzarını azad etməyə gedən "nəcib" cəngavərlər və zadəganlar yol xərclərini ödəmək üçün varlı yəhudiləri talan edirdilər Səlib yürüşlərinə qatılan səfil və kasıb soydaşları isə yəhudiləri öldürərək qurbanlarının hesabına varlanmağa çalışırdılar. Bu səbəbdən 1096-cı ildə Birinci səlib yürüşü vaxtı Almaniyanın bəzi şəhərlərində yəhudilər qətlə yetirilmişdi. İkinci xaçlı səfərində səlibçilərdən Fransadakı yəhudilər zərər çəkmişdi. XIII əsrin sonlarında üçüncü səlib yürüşünə hazırlıq isə İngiltərədəki yəhudilər üçün faciəli oldu.

Orta əsrlər Avropasında antisemitizm konkret xristian ölkəsində yerli əhalidən heç də pis yaşamayan, bəzən isə daha yaxşı yaşamağa cəsarətləri çatan köməksiz yadlara qarşı insan nifrətinin ifadəsi idi. XIII əsrdə IV Lateran məclisinin qərarına əsasən, Roma Katolik Kilsəsi yəhudilərdən xüsusi tanıtma nişanı olan paltarlar geyinməyə tələb etdi. XVI əsrdən başlayaraq bir çox Avropa dövlətlərində gettolar (italyan dilində "yeni tökmə emalatxanası" mənasına gəlir.- Red.), yəni bütün yəhudilərin məcburi şəkildə məskunlaşdırıldığı xüsusi məhəllələr yaradıldı. Bu məhəllələr əsl təcridetmə zonası idi.

Belə bir şəraitdə Reç Pospolita (Polşa Krallığı Taxt-tacı və Böyük Litva Knyazlığı arasında 1569-cu ilin iyul ayında imzalanmış razılığa əsasən yaradılmış federativ dövlət.- Red.) Avropada yəhudilərə tolerant münasibət göstərən yeganə dövlət olaraq qalırdı. Burada ən iri və sürətlə inkişaf edən yəhudi icması mövcud idi. XVII əsrdən Reç Pospolitada məskunlaşan yəhudilər əsasən icarədarlıq, kənd təsərrüfatı məhsullarının satışı, müxtəlif vergi və rüsumların iltizamı, şərabçəkmə, potaş basma ilə məşğul olmağa başladılar. Bu zaman yəhudilər arasında sələmçilərin, xüsusən sənətkarların sayı əhəmiyyətli dərəcədə azaldı.

Polyak maqnatların və şlyaxtiçlərin (keçmişdə Polşada xırda zadəgan.- Red.) öz iri mülkləri ilə məşğul olmağa həvəsləri yox idi. Ona görə də onlar bu mülkləri yəhudilərə icarəyə verirdilər. İcarə müqaviləsinin qüvvədə olduğu müddət ərzində yəhudilər malikanəni və onun sakinlərini idarə etmək, istədiyi vaxt isə təhkimli kəndliləri cəzalandırmaq hüququna malik idilər. 1616-ci ilin astanasında polyak taxt-tacına aid olan Ukrayna torpaqlarının yarıdan çoxu yəhudilər tərəfindən icarəyə götürülmüşdü. Bu səbəbdən təhkimli kəndlilər mülkədara nifrət etdikləri kimi, icarədara da kin bəsləyirdilər. Məhz buna görə 1648-ci ildə Boqdan Xmelnitskinin rəhbərliyi altında kazakların qorxunc üsyanı baş verdikdə polyaklarla yanaşı yəhudilər də qiyamın qurbanına çevrildilər.

XVIII əsrin sonlarınadək yəhudilər Rusiya imperiyasının cüzi hissəsini təşkil edirdilər. Reç Pospolitanın parçalanması və yüz minlərlə yəhudinin yaşadığı ərazilərin Rusiya imperiyasının tərkibinə qatılması ilə vəziyyət kəskin şəkildə dəyişdi.

1791-ci ildə II Yekaterinanın fərmanı ilə “oturaqlıq hüdudları” adlanan yəhudi yaşayış məntəqələri yaradıldı. “Oturaqlıq hüdudları” yəhudilərə məskunlaşmaq üçün icazə verilən əraziləri müəyyən etdi. “Oturaqlıq hüdudları”ndan kənarda yalnız bu təbəqəyə məxsus yəhudilərə yaşamağa icazə verilirdi: xidmətini başa vurmuş əsgərlər, birinci dərəcəli tacirlər, ali təhsilli şəxslər, sənətkarlar və s.

Nə qədər qəribə səslənsə də, Rusiya imperiyasında yəhudilərə qarşı törədilmiş ilk qırğınların ümumiyyətlə rus antisemitləri ilə əlaqəsi yox idi. Belə ki, 1821-ci ildə Odessa şəhərində yəhudilərə qarşı həyata keçirilmiş talanların təşəbbüskarları yunanlar oldu. Onlar İstanbuldakı yunan pravoslav patriarxı Qriqorinin qətlində yəhudiləri ittiham edirdilər. Məhz yunanlar çar Rusiyasının ərazisində 1859, 1862 və 1871-ci illərdə yəhudilərə qarşı qırğın törətdilər. Əslində isə bu talanların əsas səbəbi dini ədavət deyil, ticari rəqabət olmuşdur.

Rus çarı III Aleksandrın taxta çıxması ilə yəhudilərə qarşı siyasət daha da sərtləşdi. Belə ki, narodovolçuların (Rusiyada XIX əsrin 80-cı illərində “Narodnaya volya” adlı gizli xalqçı təşkilatın üzvləri.- Red.) törətdiyi sui-qəsd nəticəsində islahatçı çar II Aleksandr öldürüldü. “Narodnaya volya” üzvlərinin müəyyən hissəsini yəhudilər təşkil etdiyi üçün II Aleksandrın qətlində yəhudiləri günahkar bildilər. Onlara qarşı qırğınlar törədildi. Həmçinin 1891-ci ilin may

ayında III Aleksandr fərmanlar verməklə yəhudilərin hüquqlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırdı.

Bu siyasəti rus çarı II Nikolay da davam etdirirdi. Onun dövründə antisemitizm daxili siyasətin tənzimlənmə alətinə çevrildi. Çar müstəbid rejimə yəhudilərə qarşı törədilən talanlara sosial gərginliyi azaltmaq, xalqı inqilabdan yayındırmaq metodu kimi baxırdı. Sonuncu rus çarı dövründə yəhudilərə qarşı ilk iri talan 1903-cu ilin aprel ayında Kişinyovda baş verdi. Dubossarı şəhərində Mixail Rıbaçenko adlı 14 yaşlı yeniyetmənin həlak olması bu talanın törədilməsinə bəhanə oldu. Kişinyovda çıxan və məşhur çernosotenets (çernosotenetslər – çar Rusiyasında ifrat mürtəce-şovinist, antisemit, talançı monarxist təşkilatın üzvləri) Pavel Kruşevan tərəfindən buraxılan “Bessarabets” adlı qəzetdə təxribat xarakterli silsilə materiallar dərc olundu. Həmin materiallarda iddia olunurdu ki, M.Rıbaçenko yəhudilər tərəfindən dini ayin zamanı qətlə yetirilmişdir. Aparılan istintaq nəticəsində məlum oldu ki, əslində yeniyetmə öz qohumu tərəfindən mirasa görə öldürülmüşdür.

Lakin yeniyetmənin yəhudi dini ayinlər zamanı qətlə yetirilməsi ilə bağlı şayiələr geniş yayılmışdı. Belə bir şayiə də yayıldı ki, güya rus çarı “Pasxadan sonra üç gün ərzində yəhudiləri öldürməyə və qarət etməyə icazə verib”. Bundan təşvişə düşən yəhudi icmasının nümayəndələrinin hakimiyyət orqanlarına müraciəti cavabsız qaldı. Aprelin 19-da yəhudilərin evləri daşa basıldı. Hökumət nümayəndələri baş verənlərə çox ləng reaksiya göstərirdilər. Yalnız aprelin 20-də axşama yaxın hadisələrə ordu müdaxilə etdi. Bundan sonra iğtişaş yatızdırıldı. Bessarabiyanın qubernatoru (Bessarabiya – cənubi-şərqi Avropada tarixi vilayət.- Red.) Rudolf Raaben isə vəzifəsindən azad olundu. Bir çoxları hakimiyyət orqanlarının fəaliyyətsizliyini onunla izah edirdi ki, yəhudilərə qarşı talanı imperiya əhalisinin müxtəlif təbəqələri arasında nifaq və düşmənçilik salmaqla bağlı göstəriş alan Mühafizə şöbəsinin agentləri təşkil etmişlər.

Rusiya imperiyasında 1905-ci ildə inqilabın baş verməsi çernosotenslər tərəfindən yəhudilərə qarşı törədilmiş silsilə talanlara gətirib çıxardı. Həmin ilin oktyabr ayında talanlar pik həddə çatdı. Belə ki, bu zaman Rusiya imperiyasının 102 yaşayış məntəqəsində 690-dək talan törədildi.

Həm hərbi, həm mülki, həm mərkəzi, həm də yerli hakimiyyət orqanları talanların təşkili və törədilməsində əhəmiyyətli rol oynadılar. Polis departamentində orduya və əhaliyə müraciət edərək talanlara səsləyən vərəqələr

çap olunurdu. Bu vərəqələri çap edən mətbəənin rəhbəri rotmistr M.Komissarov açıq-aşkar deyirdi: *"İstənilən talanı təşkil etmək mümkündür. İstəyirsiniz - 10 nəfərlik, istəyirsiniz – 10 min nəfərlik olsun"*.

Rus çarizmi süqut etdikdən sonra keçmiş imperiyanın ərazisində qanlı vətəndaş müharibəsi baş verdi. Sinfi və milli qarşıdurma vaxtı ən çox əziyyət çəkənlərdən biri də yəhudi əhalisi oldu. Xüsusən ağqvardiyaçılar, Ukraynadakı müxtəlif quldur dəstələri və ataman Simon Vasilyeviç Petlüranın başçılığı ilə Ukrayna mərkəzi radasının tərəfdarları yəhudilərə qarşı amansız qətliam törətdilər. Vətəndaş müharibəsi dövründə 100 mindən 200 minədək yəhudi qanlı aksiyaların qurbanı oldu. Beləliklə, antisemitizm müvəqqəti olaraq Qərbi Avropadan Şərqi Avropaya keçdi.

XIX əsrdə Avropada yeni dövlətlərin yaranması ilə əlaqədar millətçi hərəkatlar böyük rəğbət qazandı. Bu zaman yəhudilərə dini mənsubiyyətlərinə görə deyil, yalnız və yalnız yəhudi xalqına aid olduqları üçün nifrət etməyə başladılar. Məhz bu vaxt "köhnə qitə"də irqçiliyin ilk cücərtiləri meydana gəldi. Millətçi nəzəriyyələri elmi fərziyyələr vasitəsi ilə izah etmə başladılar. Bu haqda ilk dəfə fransalı diplomat qraf Artur de Qobino 1853-1855-ci illərdə işıq üzü görən "İnsan irqlərinin bərabərsizliyi haqqında" adlı kitabında bəhs etmişdir. Onun ideyasını Hyuston Çemberlen "XX əsrin əsasları" adlı əsərində inkişaf etdirmişdir. Görünür, məhz bu əsərin təsiri altında nasizmin ideoloqlarından biri olan Alfred Ernst Rozenberq "XX əsrin əfsanəsi" adlı kitabını yazmışdır. Sosial-darvinizm isə sadalanan əsərlərə "elmi" zəmin yaratdı. O zamanlar əksər qabaqcıl Avropa dövlətlərində antisemit qanunlar qəbul olunmasa da, gizli səviyyədə yəhudilərə qarşı ayrı-seçkiliyə yol verilirdi.

Lakin əsl antisemit isteriya Birinci dünya müharibəsindən sonra başladı. Bu müharibədə Almaniya məğlub olmuşdu. Onun iqtisadiyyatı çökmüşdü. Ona görə də bu ölkədə "hər şeydə" günahkar olanları axtarmağa başladılar. Bu şəraitdə radikallar rəğbət qazandılar. Hitler bu radikallardan biri idi. Məhz o, "arxadan vurulan bıçaq zərbəsi" nəzəriyyəsini inkişaf etdirdi. Yəhudilərin "satqınçılığı" və Almaniyanın məğlubiyyətində onların "günahkar" olduğu ideyası böyük rəğbət qazandı. Xüsusən əhalinin kasıb təbəqələri bu ideyanın təsiri altına düşdülər. Nasistlərin hakimiyyəti dövründə bütün bəlalarda yəhudiləri günahlandırmaq adi hala çevrildi. Talanlar törədildi, bütün yəhudilər gettolara salındı, onları yenidən "David ulduzu" şəklində olan fərqlənmə nişanını daşımağa məcbur etdilər.



*Varşava "getto"sunda yəhudilərin həbs olunaraq ölüm düşərgələrinə göndərilməsi. 1943-cü il.*

İkinci dünya müharibəsi dövründə isə yəhudiləri məqsədyönlü şəkildə məhv etməyə başladılar. Nasistlər tərəfindən işğal olunmuş ərazilərdə, xüsusən Polşada ölüm düşərgələri yaradıldı. Burada insanları güllələyir, diri-diri yandırır, qaz kameralarında siklon "B" qazı ilə boğurdular. Beləliklə, Avropada əsrlərdən bəri geniş rəvac tapan yəhudilərə nifrət sonunda Holokostun (yunanca "tamamilə yanmış", "yanıb kül olmuş" deməkdir. Nasist Almaniyası tərəfindən törədilən və təxminən 6 milyon yəhudinin sistemli şəkildə öldürülməsi ilə nəticələnən soyqırım aktı.- Red.) baş verməsinə şərait yaratdı.

Müasir dövrdə antisemitizm həm bir sıra Avropa ölkələrində, həm də Ermənistanda geniş vüsət alır. Məsələn, Ermənistanda nüfuzlu erməni politoloqu *professor İqor Muradyan* 1988-ci ildə "Ermənistanın səsi" qəzetində dərc olunan məqaləsində açıq şəkildə nasist ideologiyasının tərəfini tutur. Bu politoloqun məqaləsindən belə çıxır ki, yəhudi-erməni qarşıdurması semit və arilər arasında baş vermiş münaqişənin davamıdır. O, məqaləsində yəhudiləri qondarma erməni soyqırımında günahlandırmaq kimi standart ittihamlarla kifayətlənmir və daha dərinə gedir, cəfəng iddia ilə çıxış edərək Qarabağ münaqişəsinin arxasında yəhudi xalqı və İsrail dövlətinin dayandığını deyir.

2002-ci ildə İrəvanda erməni yazıçıların rəsmi birliyi tərəfindən buraxılan *Romen Yepiskopyanın "Milli sistem"* adlı kitabı çıxır. Müəllif bu kitabında ermənilərin başına gələn bütün "bəlalarda" yəhudi xalqını günahlandırır, eyni zamanda Holokostu inkar edir. O, nasistlər tərəfindən yəhudilərə qarşı törədilmiş bu soyqırımı "ariləri rüsvay etmək məqsədilə ortaya atılmış yəhudi uydurması" adlandırır. Təəssüflər olsun ki, Holokostu inkar etmək ideyası yeni deyildir. Bu ideya Avropanın yüksək dairələrində günü-gündən özünə daha çox tərəfdar tapır ki, bu hal da ciddi narahatçılıq doğurur.

# 10.4. Qərb ölkələrində etnik–mədəni müxtəlifliyin tənzimlənməsi təcrübəsi

## 10.4.1. Multikulturalizmin Kanada modeli

Multikulturalizm siyasətinin ilk tətbiq edildiyi ölkələrdən biri də Kanadadır. Bu dövləti ABŞ, Avstraliya və Yeni Zelandiya ilə birlikdə miqrasiya dövlətləri adlandırırlar. Bunun da səbəbi şübhəsiz ki, dövlətin miqrantlar tərəfindən formalaşdırılması idi. ABŞ ilə Kanada eyni coğrafi məkanı və oxşar tarixi taleyi paylaşsalar da, millətin formalaşmasında fərqli yol keçmişlər. ABŞ-da millətin formalaşması prosesi "əridən qazan"a (melting pot) bənzədilirdi. Burada əsas məqsəd fərqli köklərdən gələn insanların əridilərək vahid millət kimi formalaşdırmaq idi. Kanadanın "mozaika" adlanan modelində isə müxtəlif mədəniyyətdən gələn etnik qruplar milləti formalaşdırarkən öz fərqliliklərini də qoruyub saxlayırdılar. Kanada bu gün də miqrant qəbul edən və onlara ən yaxşı münasibət sərgiləyən ölkələrdən biridir. Hər il bu ölkə tələbələr, müvəqqəti işçilər, qaçqınlar istisna olmaqla 250 min miqrant qəbul edir.

37 milyon əhalisi olan Kanada üçün gəlmələr (immiqrantlar) xüsusi əhəmiyyət kəsb edir. Əhalinin 32 faizi özünü əsl kanadalı hesab etdiyi halda, əhalinin digər qruplarına18 faiz ingilis, 13.9 faiz şotland, 13.4 faiz irland, 9.6 faiz alman və 5.1 faiz çinli daxildir.

Müxtəlif mədəniyyətlərin həmrəy olduğu Kanada dini müxtəliflik baxımından da rəngarəngdir. Ölkə əhalisinin 67 faizi xristian, 3,2 faizi müsəlman, 1 faizi yəhudi, 1,1 faizi buddist, 1,5 faizi hindus, 1,4 faizi siqhlərdən ibarətdir. 24 faiz kanadalı isə heç bir dinə sitayiş etmir.

İngilis və fransız dilləri dövlət dilidir. Eyni çətir altında yaşayan müxtəlif mədəniyyətlərdən gələn miqrantların qarşılıqlı hörmət, anlaşma və dialoq şəraitində yaşamasını, iqtisadiyyata töhfə verməsini təmin etmək və bu multikultural mühiti qoruyub saxlamaq üçün müvafiq siyasi konseptin hazırlanmasını zəruri idi. Bu baxımdan Kanada hökuməti 1971-ci ildə multikulturalizmi miqrantların inteqrasiyası üçün ideoloji çərçivə olaraq qəbul etmişdir. Həmin il Kanadanın liberal Baş naziri Pyer Trudo elan etdi ki, onun hökuməti "multikulturalizmi ikidilli siyasət çərçivəsində" qəbul edir. Onun hökuməti Kanadada həmrəyliyin



*"Multikulturalizmə abidə". Heykəltəraş Fransisko Pirelli.*
*Kanada, Toronto şəhəri.*

gücləndirilməsi, orada yaşayan insanlara bərabər imkanların yaradılması və ölkənin gələcək taleyini birgə müəyyənləşdirilməsi məqsədilə multikulturalizm siyasətinin həyata keçirilməsini təmin etdi.

Bu siyasət çərçivəsində Kanada hökuməti aşağıdakı təşəbbüsləri irəli sürdü:

1. Kanadanı inkişaf etdirməyə, dəyərlərini paylaşmağa və ona töhfə verməyə hazır olan etnik-mədəni qruplara kömək etmək;

2. Kanada cəmiyyətinin bütün sahələrində iştirak etmək üçün ölkədə yaşayan bütün xalqların nümayəndələrinə mədəni baryerləri aşmaqda yardım göstərmək;

3. Milli vəhdəti təmin etmək üçün Kanadanın bütün etnik-mədəni qrupları arasında mədəni mübadiləni təşviq etmək;

4. İştirakçılığın təmin edilməsi məqsədilə Kanadanın rəsmi dillərindən birinin öyrənilməsində miqrantlara dəstək vermək.

Bu təşəbbüslərdə Kanada hökumətinin məqsədi, bir tərəfdən etnik-

mədəni stereotiplərdə kök salmış ayrı-seçkilik meyllərini aradan qaldırmaq, digər tərəfdən isə multikulturalizmi və ikidilliliyi (1969-cu ildən tətbiq edilməyə başlayıb) irəli sürməklə simvolik vəhdət yaratmaq və beləliklə də, kanadalıların ilkin konsepsiyası olan britaniyalılıq (ingilis olmaq) və ya fransalılıqdan (fransız olmaq) qurtarmaq idi. Kanadalı politoloq Auqie Fleras Kanada multikulturalizminin 1970-ci illərdən başlanan bu hissəsini etnik mənsubiyyət multikulturalizmi adlandırır.

Ötən əsrin 80-ci illərindən etibarən Kanadada bərabərlik multikulturalizmi dövrü başlayır. Multikulturalizmin bu dövrünün əsas xüsusiyyəti etnik-mədəni qrupların qorunub saxlanması, bərabərliyin təmin edilməsi, irqi ayrı-seçkiliyin və institusional maneələrin ortadan qaldırılmasına doğru dəyişməsi təşkil edir. Multikulturalizmin ölkə səviyyəsində əsas siyasət kimi təsbit edilməsinə yönəlmiş hüquqi sənədlər də elə bu zaman qəbul olunmağa başladı.

1982-ci ildə qəbul olunmuş və 1985-ci ildə qüvvəyə minmiş "Hüquqlar və Azadlıqlar haqqında" Xartiyanın (bu sənəd Konstitusiya aktı kimi qəbul edilib) 27-ci hissəsində yazılır: *"Bu Xartiya Kanadanın multikultural irsinin qorunması və yaxşılaşdırılmasına uyğun olaraq şərh edilməlidir"*.

Multikulturalizmin aliliyi 1988-ci ildə Multikulturalizm Aktının qəbul edilməsi ilə bir daha təsdiq edildi. Rəsmi adı "Kanadada multikulturalizmin qorunması və təkmilləşdirilməsi Aktı" olan bu sənəddə aşağıdakıların bundan sonra Kanada hökumətinin siyasəti olacağı açıq şəkildə ifadə edilirdi:

1. Multikulturalizm Kanadada mədəni və irqi müxtəlifliyin əks etdirilməsi və Kanada cəmiyyətinin bütün üzvlərinin özlərinin mədəni irsinin mühafizəsi, yaxşılaşdırılması və paylaşılması azadlığının tanınması kimi qəbul edilsin. Multikulturalizmin bu anlayışı təşviq edilsin;

2. Multikulturalizmin Kanadanın irsinin və kimliyinin fundamental xüsusiyyəti və ölkə gələcəyinin formalaşmasında əvəzedilməz mənbə kimi başa düşülməsi qəbul olunsun və təşviq edilsin;

3. Mənşəyindən asılı olmayaraq bütün fərdlərin və icmaların Kanada cəmiyyətinin bütün aspektlərinin formalaşmasında tam və bərabər iştirakının təmin olunması təşviq edilsin və bu cür iştiraka hər hansı maneənin aradan qaldırılmasına yardım göstərilsin;

4. Üzvləri ümumi kökləri paylaşan və Kanada cəmiyyətinə töhfələr verən icmaların mövcudluğu tanınsın və onların inkişafına yardım göstərilsin;

5. Fərdlərin fərqliliyi nəzərə alınaraq və onlara hörmət edilərək bərabər rəftar və bərabər mühafizə təmin edilsin;

6. Kanadanın sosial, mədəni, iqtisadi və siyasi təsisatları tərəfindən ölkənin multikultural xarakterinə hörmət bəsləmələri və inklüziv olmaları təşviq edilsin və onlara bu istiqamətdə yardım göstərilsin;

7. Fərqli köklərdən gələn fərdlər və icmalar arasında qarşılıqlı əlaqədən doğan anlayış tərzi və kreativlik təşviq edilsin;

8. Kanadanın mədəni müxtəlifliyinə dəyər verilməsinə və onun tanınmasına yardım edilsin, bu mədəniyyətlərin inkişafı və müxtəlif formalarda təqdimatı (ifadə edilməsi) təşviq edilsin;

9. Kanadanın rəsmi dilləri olan ingilis və fransız dillərinin statuslarının və istifadəsinin gücləndirilməsi ilə yanaşı, digər dillər də mühafizə olunsun və istifadəsi genişləndirilsin;

10. Multikulturalizm bütün ölkədə inkişaf etdirilsin.

Birgəyaşayışın ideallarını təsbit etməklə və Kanada multikulturalizminin özünəməxsus hədəflərini müəyyənləşdirməklə bu sənəd ilhamverici xarakter daşıyır. Kanada multikulturalizminin 1990-cı illərdən başlanan yeni dövrünü vətəndaş multikulturalizmi adlandırırlar. Bu mərhələdə əvvəlki fərqlilik və bərabərlik prinsiplərinin qorunması ilə yanaşı, multikulturalizm vətəndaşlıq prinsipləri ilə eyniləşdirilərək milli maraqlara xidmət xarakteri kəsb etməyə başlayır.

Yeni mərhələnin xarakterik xüsusiyyətləri 1996-cı ildə qəbul edilən "Multikulturalizm proqramı"nda öz əksini tapır. Burada etnik azlıqların aktiv iştirakçılığının təmin edilməsi, etnik münaqişə və nifrət cinayətinin azaldılması üçün icma təşəbbüslərinin dəstəklənməsi, daha inklüziv federal departament və agentliklərin yaradılması, multikulturalizmlə ictimai məlumatlılığın artırılmasından ibarət dörd əsas məqsəd qarşıya qoyulmuşdur.

2009-cu ilin iyun ayında hökumət "Multikulturalizm proqramı"na – *integral, sosial vəhdətdə olan cəmiyyətin qurulması, rəngarəng əhalinin ehtiyaclarını ödəmək üçün təsisatların həssaslığının artırılması və beynəlxalq səviyyədə multikulturalizm və müxtəliflik barədə diskussiyalarda aktiv iştirak edilməsindən* ibarət 3 yeni məqsəd daxil etmişdir. 2008-ci ilədək "Multikulturalizm proqramı"na Kanada İrsi Departamenti rəhbərlik edirdi. Bu dövrdən sonra proqramın idarə edilməsi Kanada Vətəndaşlıq və İmmiqrasiya

Departamentinə həvalə edilmişdir. 2009-2011-ci illərdə "Multikulturalizm proqramı"na 28,5 milyon Kanada dolları məbləğində vəsait xərclənmişdir.

Bundan əlavə Kanada hökuməti 2008-ci ildə "İcmaların Tarixi Tanınması" adlanan 5 illik proqram qəbul etmişdir. Bu proqramın məqsədi Kanadada immiqrasiya məhdudiyyətləri dövründə müharibə zamanı əziyyət çəkmiş icmaların tarixi ilə ölkə insanlarını tanış etmək idi. Bu proqram çərçivəsində icmalar tərəfindən təqdim olunmuş 68 layihəyə 13,5 milyon dollar məbləğində vəsait xərclənmişdir.

Kanada multikulturalizminin maraqlı cəhətlərindən biri də xalqın çoxmədəniyyətliliyinin rəsmi şəkildə qeyd edilməsidir. 1996-cı ildən Kanada parlamentinin qərarına əsasən, hər il qara kanadalıların ölkəyə töhfəsinin rəmzi olaraq "Qaralar Tarixi Ayı" (Black History Month), hər ilin may ayında isə "Asiyalılar İrsi Ayı" (Asian Heritage Month) qeyd olunur. 27 iyun tarixi bütün kanadalıların öz ölkəsinə fərqli töhfələrinin qeyd olunması günü kimi təsdiq edilməsi də məhz "Multikulturalizm proqramı"nda yer alır.

Bu gün Kanada multikulturalizmi sosial ədalət, mədəni kimlik və vətəndaş iştirakı prinsipləri üzərində qurulub. Qeyd edilməlidir ki, son dövrlərdə əksər Avropa ölkələrinin dövlət siyasətində, siyasi partiya liderlərinin çıxışlarında, mediada və ümumiyyətlə, ictimai müzakirələrdə multikulturalizmin getdikcə daha çox mənfi qarşılanmasına və neqativ çalar daşımasına baxmayaraq, Kanadada multikulturalizm hələ də cəmiyyətin birgəyaşayışının ən effektiv modeli kimi bütün səviyyələrdə müdafiə olunur və ictimai diskursda həmişə müsbət notlarla xarakterizə edilir.

## 10.4.2. Multikulturalizmin Avstraliya modeli

Müasir dövrdə uğurlu multikulturalizm siyasəti aparan ölkələrdən biri də Avstraliyadır. 2017-ci ildə Avstraliya Statistikası Bürosu tərəfindən dərc edilən "2016-cı ilin siyahıyaalmanın nəticələrinə" əsasən, sözügedən ölkədə etnik-mədəni müxtəliflik orada yaşayan insanların və valideynlərinin doğulduğu ölkə, aborigen olub-olmaması, danışılan dillər, dini etiqadları vasitəsilə müəyyənləşir. Avstraliyada yaşayan miqrantlar, əsasən, Britaniya, Yeni Zelandiya, Çin və Hindistandan köç etmişdir. Aparılan siyahıyaalınma zamanı Avstraliyada yaşayan miqrantların əcdadları ilə bağlı məlumatlar da yer

alıb. Ölkədə yaşayan insanların 36,1 faizinin əcdadının ingilis, 33,5 faizinin avstraliyalı, 11 faizinin irland, 9,3 faizinin şotland, 5,6 faizinin isə çinli olduğu müəyyənləşib. Bundan əlavə, dil müxtəlifliyi də ölkənin multikultural mühitini zənginləşdirən mədəni elementlərdən biridir. Hazırda Avstraliyada 300-dən çox müxtəlif dildə danışılır. Əhalinin təxminən 21 faizi ikidillidir (İngilis dili ilə yanaşı digər dildə də danışırlar). Nisbət etibarilə götürüldükdə isə əhalinin 72,2 faizi ingilis, 2,5 faizi Çinin mandarin və kanton ləhcəsində, 1,4 faizi ərəb, 1,2 faizi isə Vyetnam dilində danışır. 2016-cı ilin statistikasına görə, aborigen əhali 2,8 faiz təşkil edir. Qeyd edilməlidir ki, Avstraliyanın əhalisi 24,6 milyon nəfərdir. Əhalinin 52,1 faizi xristian, 8,2 faizi isə digər dinlərə (İslam, Buddizm, Hinduizm, Siqhizm, İudaizm və b.) sitayiş etdiyi halda, 30,1 faizi isə heç bir dinə inanmır.

Etnik-mədəni müxtəlifliyi formalaşdıran amillərə nəzər saldıqda görürük ki, onlar arasında həmrəyliyi, dinc birgəyaşayışı və harmoniyanı təmin etmək ciddi siyasi iradə və mexanizm tələb edir. Bu məqsədlə Avstraliyada həyata keçirilən multikulturalizm siyasəti mövcud etnik, irqi və dil baxımından etnik-mədəni müxtəlifliyin tələblərinə cavab verməli idi. Avstraliya hökuməti cəmiyyətdə mövcud olan müxtəlif qrupların ehtiyaclarının ödənilməsi, onlara bərabər imkanın verilməsi kimi istiqamətləri həm dövlət siyasətinin, həm də institusional bazanın tərkib hissəsi kimi formalaşdıra bildi.

Qeyd edilməlidir ki, Avstraliya 1970-ci illərin əvvəllərinə qədər Ağ Avstraliya siyasəti (White Australian policy) yürüdürdü. Yəni, ölkə qapılarını təkcə ağdərili, xristian və ingilis miqrantlara açmışdı. 1973-cü ildən etibarən ölkədə miqrantlarla bağlı siyasətdə radikal dəyişikliklər başladı. Belə ki, II Dünya Müharibəsindən sonra artan miqrant axınının tələblərinə cavab vermək, işçi miqrantların yerli cəmiyyətdə yaratdığı etno-mədəni müxtəlifliyi qorumaq, onlar arasında həmrəyliyi gücləndirmək üçün 1978-ci ildə F.Malkolm (Avstraliyanın Baş naziri idi) administrasiyası tərəfindən multikulturalizm siyasətinin prinsipləri elan edildi.

Multikulturalizm siyasəti konsepsiyasının prinsiplərində aşağıdakı müddəalar qeyd olunmuşdur:

1. Sosial xidmətlərdən istifadə üçün bərabər imkanların yaradılması;

2. Qrupun, yaxud fərdin öz mədəniyyətini qoruması və digərinin mədəniyyətinə hörmət etməsi;

3. Müxtəlif mədəniyyətlərin qorunması və dil ehtiyaclarının ödənilməsi üçün xüsusi xidmət növlərinin yaradılması;

4. Miqrantların yerləşdirilməsi və yaşayış yeri ilə təmin edilməsi məqsədilə könüllü xidmətlərin təsis edilməsi.

Bütün bunlar dövlətin mədəni müxtəlifliyə siyasi reaksiyası idi. Lakin 2000-ci illərin əvvəllərinə qədər sözügedən siyasəti həyata keçirən icra strukturu, yəni institusional bazası formalaşmamışdır.

Mədəniyyətlərarası münasibətlərin, qarşılıqlı anlaşmanın və dinc birgəyaşayışın gücləndirilməsi məqsədilə bir sıra dövlət proqramları qəbul olunmuşdur. Birinci proqram 1998-ci ildə qəbul edilmişdir. “Harmoniyada Yaşamaq” adlı bu proqramın əsas məqsədi Avstraliya dəyərlərini, vətəndaşlıq mövqeyini və inklüzivliyi gücləndirmək, miqrant və qaçqınları bərabər cəmiyyətdə iştirakçılığa həvəsləndirmək idi. Bu məsələdə vətəndaş cəmiyyətlərinin və icma təşkilatlarının rolunu artırmaq əsas məsələlərdən biri idi. Proqramın uğurlu icrası nəticəsində hər il 21 mart Avstraliyada “Harmoniya Günü” kimi qeyd olunmağa başladı, eləcə də vətəndaş cəmiyyətlərinin və icma təşkilatlarının bu işdə fəallığının artırılması məqsədilə müxtəlif qrantlar verildi.

2006-cı ildə İmmiqrasiya və Multikuturalizm Məsələləri üzrə Departament yaradıldı. Daha sonra həmin departament İmmiqrasiya və Sərhəd Mühafizə adlandırıldı. Bu departamentin əsas səlahiyyətlərinə yeni gələn miqrantlar üçün ingilis dili proqramlarının hazırlanması, həmin proqramların maliyyələşdirilməsi, etnik təşkilatlarla məsləhətləşmələrin aparılması, biznes mühitində mədəni müxtəlifliyin təşviq edilməsi istiqamətində proqramların hazırlanması və s. kimi işlərin yerinə yetirilməsi daxil edildi.

Departament yaradılandan sonra, daha dəqiq desək, 2016-cı ildə “Sosial Birlik, Harmoniya və Təhlükəsizlik üzrə Milli Fəaliyyət Planı” hazırlandı. Həmin planın hazırlanmasını şərtləndirən əsas faktorlardan biri ABŞ, London və Balidə baş verən terror hadisələrindən sonra yaranan dini fundamentalizmlə bağlı narahatlıq idi. Planın əsas məqsədi artan qlobal dini və siyasi terror təhlükəsinin, ekstremizmin, zorakılığın və dözümsüzlüyün ölkəyə sirayət etməməsi üçün həmrəyliyi gücləndirmək, milli təhlükəsizliklə bağlı görülən tədbirləri dəstəkləmək idi. Burada yerli icmaların iştirakını təmin etmək, problemlərin həllində onların dəstəyindən maksimum istifadə etmək önəmli idi. Plan çərçivəsində icma iştirakçılığı milli dəyərlərin təbliği ilə bağlı təhsil,

dini müxtəliflik, tolerantlıq və dindarların maarifləndirilməsi vasitəsilə təmin olundu. Sözügedən Milli planın məntiqi davamı olaraq 2010-cu ildə "Müxtəliflik və Sosial Birlik Proqramı" qəbul olundu. Bu proqramın əsas məqsədi ölkədə inklüziv cəmiyyəti gücləndirmək, mövcud həmrəyliyi qoruyub saxlamaq, sosial-iqtisadi həyatda miqrantların iştiraklarını təmin etmək idi.

Beləliklə, Avstraliyanın etnik-mədəni müxtəlifliklə bağlı milli siyasətini dəyərləndirəndə məlum olur ki, multikulturalizm cəmiyyət üçün kimlik seçimidir. Çünki Avstraliya multikulturalizminin əsasında mədəniyyətlərin qovuşması, təntənəsi və harmoniyası dayanır. Uğurlu multikulturalizm siyasətinin aparılmasında həm dövlət, həm də xalq əsas rol oynayır.

## 10.4.3. ABŞ-da multikulturalizm

2019-cu ilin statistikasına görə, Amerika Birləşmiş Ştatlarında 329 milyon əhali yaşayır. Bu rəqəm dünya əhalisinin 4,27 faizi deməkdir. ABŞ-da etnik-mədəni müxtəliflik, əsasən, gəlmələr (miqrantlar) hesabına formalaşmışdır. Aparılan sorğuların nəticəsi göstərir ki, 2016-cı ildə Amerikada 43,7 milyondan çox immiqrant yaşayıb. Yəni onlar ABŞ-da doğulan miqrant ailəsinin üzvləri deyil. Bu fakt gəlmələrin mədəni, dini və etnik tərkibinin də müxtəlif olduğunu deməyə əsas verir. Qeyd olunan faktlar bir daha sübut edir ki, bu gün ABŞ dünyanın din, dil, mədəniyyət və etnik müxtəlifliyi baxımından ən çoxmədəniyyətli ölkələrindən biridir. İlk olaraq ABŞ-da yaşayan əhalinin mədəniyyəti, dil, din və irqi müxtəlifliyi ilə bağlı bir sıra məqamlara diqqət yetirmək lazımdır. Çünki qeyd edilən faktorlar ölkədə multikulturalizm siyasətinin xüsusiyyətlərini müəyyən etmişdir.

Amerikada immiqrantların çoxluq təşkil etməsi nəticəsində bu gün yerli xalq etnik azlığa çevrilmişdir. Bu baxımdan ölkədə yaşayan əhali dörd qrupa bölünür. Birinci qrup - afroamerikanlar və ya qaradərililərdir. Vaxtilə Amerikaya gətirilmiş qullar indiki afroamerikanların əcdadlarıdır. Qaradərili amerikalılar ölkə əhalisinin təxminən 12 faizini təşkil edirlər. İkinci qrupa ispandilli xalqlar daxildir. Onlar əhalinin 13 faizini təşkil edirlər. Üçüncü qrupa Asiya ölkələrindən (Çin, Yaponiya, Koreya və s.) bura pənah gətirmiş xalqların nümayəndələri daxildir. Ölkə əhalisinin tərkibində onların payı təxminən 5 faizdir. Dördüncü qrupa yerli amerikalılar (hindular) daxildir. Onlar ölkə əhalisinin təxminən 1 faizini təşkil edirlər.

Qeyd olunan qruplara daxil olanların hər birinin fərqli coğrafiyadan, sosial və siyasi sistemdən gəldiyini nəzərə alsaq, deyə bilərik ki, qruplar arasında ümumi ortaq mədəniyyət, yaxud kimlik yaratmaq bir o qədər də asan deyil. Məsələn, ispan mənşəli əhali Meksika, Puerto-Riko, Kuba və s. Latın Amerikası ölkələrindən, Asiyadan gələn "amerikalılar" isə daha çox Çin, Yaponiya və Koreyadan köç edənlərdir. Bu faktlar Amerikanın etnik coğrafiyası qədər, dini coğrafiyasının da mürəkkəb və müxtəlif olduğunu deməyə əsas verir.

Dini müxtəliflik baxımından zəngin olan Amerika cəmiyyətində, demək olar ki, bütün dini denominasiyalar təmsil olunur. Araşdırmalar göstərir ki, əhalinin 70,6 faizi xristian dininə (protestantlar, katoliklər, mormonlar, pravoslavlar və digərləri), 5,9 faizi qeyri-xristian dinlərinə (yəhudi, müsəlman, buddist, hindu və s.) etiqad etdiyi halda, 22 faiz amerikalı heç bir dinə etiqad etmir (ateistlər, aqnostiklər). Qeyd edilən rəqəmlərə baxmayaraq, ABŞ-da rəsmi şəkildə heç bir dinə üstünlük verilmir. ABŞ Konstitusiyasına edilən birinci əlavədəki dini etiqad azadlığı ilə bağlı müddəada qeyd olunur ki, ABŞ Konstitusiyası rəsmi din elan etmir və bütün dinlərə bərabər hüquq verir. 1794-cü ildə Konqres tərəfindən Konstitusiyaya edilən birinci dəyişikliklə Amerikanın dövlət-din (kilsə-dövlət) münasibətlərində yeni eranın başlanmasına baxmayaraq, cəmiyyətdə dominant din təsiri mövcuddur. Hətta bir çox təhlilçi və siyasi analitik Amerikanı "Protestant xalq" və ya "Protestanlıq prinsipləri ilə qurulan dövlət" adlandırır. Məsələn, Nümayəndələr Palatasında xidmət edən 116-cı Konqresin 471 xristian üzvündən 293-ü protestantdır. Amerika tarixində ilk dəfə olaraq 116-cı Konqresdə iki müsəlman qadın təmsil olunur. Bütün bunlar onu deməyə əsas verir ki, ABŞ-da dövlətin dindən ayrı olmasına baxmayaraq, din faktoru hələ də siyasi qərarvermədə mühüm rol oynayır. ABŞ-da din faktoru ilə yanaşı, dil amili də multikulturalizm siyasətinin tərkib hissəsini təşkil edir.

Yeni dünya (indiki Amerika X.Kolumbun kəşfindən sonra belə adlanırdı) dil zənginliyi baxımından poliqlot insanı xatırladır. ABŞ əhalisinin təxminən 80 faizinin doğma dili ingilis dilidir. Buna baxmayaraq, 5 yaşdan yuxarı 291 milyon amerikalı evdə fərqli dildə danışır. Evdə danışılan dillər içərisində ispan, Çin, taqaloq[5], fransız, Vyetnam, alman, Koreya, rus, italyan, ərəb, portuqal və polyak dilləri üstünlük təşkil edir. Filoloqlar qeyd olunan dilləri mənşəyinə görə dörd əsas qrupa bölür:

5 Filippinin rəsmi dilidir.

1.İspan dil qrupu (ispan, ladino və ya sefard dilləri);

2.Digər Hind-Avropa dilləri (german, roman, slavyan, hind-ari və baltik dilləri);

3. Asiya və Sakit ada dillər qrupu (Çin, Koreya, yapon, tamil, taqaloq və s. dillər);

4. Digər dillər qrupu (macar, ərəb, ivrit, Afrika dilləri, doğma Şimali Amerika dilləri, mərkəzi və cənubi Amerikanın aborigen dilləri).

Bütün bunlar Amerika alimlərini və siyasi xadimlərini düşündürməyə bilməzdi. Çünki etnik, din və dil baxımından çoxmədəniyyətli cəmiyyəti idarə etmək, onlar arasında dialoq mühiti yaratmaq çətin görünürdü. Lakin Amerika XIX əsrin əvvəllərindən başlayaraq etnik-mədəni müxtəlifliyin tənzimlənməsi və onların tanınması məqsədini güdən multikulturalizm siyasəti həyata keçirməyə başlamışdır. Assimilyasiya və ya "əridən qazan" yanaşması üzərində qurulan bu siyasətin əsas məqsədi miqrantların öz dəyərlərini, milli kimliklərini, həyat tərzlərini dəyişərək ev sahibinin mədəniyyətinə tam uyğunlaşmağa məcbur etmək idi.

Aparılan multikulturalizm siyasətinin ölçülməsi məqsədilə bir sıra indekslər mövcuddur. Onlardan biri də əvvəlki fəslin 3-cü yarımfəslində təhlil olunan "İmmiqrant azlıqlar üzrə multikulturalizm siyasəti indeksi (MKS) indeksi"dir. Bu indeks ABŞ multikulturalizminin ölçülməsi üçün istifadə oluna bilər. Çünki Amerikada multikultural mühiti, əsasən, immiqrantlar formalaşdırır. Bu baxımdan sözügedən indeksin parametrləri ilə ABŞ hökumətinin apardığı multikulturalizm siyasətini dəyərləndirmək mümkündür.

"İmmiqrant azlıqlar üzrə MKS indeksi" mədəni müxtəlifliyin idarəedilməsi üzrə aşağıdakı siyasi istiqamətləri ehtiva edir:

1. *Multikulturalizmin konstitusional, qanunvericilik və ya parlament tərəfindən mərkəzi, regional və bələdiyyələr səviyyəsində tanınması və bu siyasətin milli etnik icmalarla məşvərətdə həyata keçirilməsi üçün dövlət nazirliyinin, katibliyinin və ya məşvərətçi şuranın mövcudluğu;*

**ABŞ nümunəsində:** ABŞ Ədliyyə Departamentinin İcma Əlaqələri Xidməti cəmiyyətdə irq, rəng və milliyyət fərqliliyindən yaranan münaqişə və gərginliklərin aradan qaldırılmasında "sülhyaratma" rolunu oynayır. Bu xidmət 1964-cü ildə Mülki Hüquqlar haqqında Aktın qəbulu ilə yaradılmışdı. Əsas məqsədi icma daxilində baş verən irqi və etnik gərginliklərin, ictimai asayişin

pozulmasının qarşısının alınmasına, eləcə də mədəniyyətlər arasında sabitliyə və harmoniyaya nail olmaq üçün dövlətə, yerli idarəetmə orqanlarına, özəl və dövlət təşkilatlarına kömək etmək idi. Əlbəttə, burada əsas məqsəd multikulturalizmi gücləndirmək və ya təşviq etmək olmamışdır. Sözügedən xidmətin əsas fəaliyyəti qaradərililərlə ağdərililər arasında münasibətlərin tənzimlənməsində vasitəçi rolu oynamaq idi. Daha sonra bu xidmət ağdərililərlə ərəblər, eləcə də ərəblərlə müsəlman amerikalılar arasında eyni rolu oynamışdır.

2. *Multikulturalizmin məktəb tədris proqramına daxıl edilməsi;*

**ABŞ nümunəsində:** Bu siyasət ştatlara görə dəyişir, lakin federal hökumətin bu istiqamət üzrə hər hansı siyasi mandatı və təlimatı mövcud deyil. Milli standartların hazırlanması, bu sahədə müvafiq məlumatların toplanması və təhsil müəssisələrinə maliyyə yardımlarının ayrılması ilə bağlı siyasi gündəliyin müəyyən edilməsi ABŞ Təhsil Departamenti vasitəsilə federal hökumətin səlahiyyətinə daxil olsa da, məktəb proqramlarını hazırlamaq ştatların idarəetmə səlahiyyətinə daxildir. Multikulturalizmin tədrisi bir çox ştatın məktəb proqramına, xüsusilə miqrant əhalinin çox olduğu Kaliforniya, Nyu York, Texas və Florida ştatlarının məktəb proqramlarına daxil edilmişdir. Kolleclərdə və ali təhsil müəssisələrində multikulturalizm fənni tədris edilmir, lakin həmin müəssisələrdə tədrisi həyata keçirən pedaqoqlara multikultural sinifdə dərs keçmə bilikləri öyrədilir.

3. *Etnik təmsilçiliyin/həssaslığın dövlət mediasına və ya media lisenziyalaşdırmasına daxil edilməsi;*

**ABŞ nümunəsində**: Bu tələb ABŞ-da qismən yerinə yetirilir. Belə ki, dövlətə məxsus media vasitələrində etnik təmsilçiliyə dəstək verilsə də, özəl media şirkətlərinin lisenziyalaşdırılması zamanı bu tələb gözardı edilir. Tənqidçilər hesab edir ki, Federal Kommunikasiya Komissiyası lisenziya alan özəl media şirkətlərinə belə tələb qoysa da, bu tələb sözdə qalır.

4. *Qanunla və ya məhkəmənin qərarı ilə qəbul olunmuş geyim formalarından azadolmaların tətbiq edilməsi;*

**ABŞ nümunəsində**: 1984-cü ilə qədər ABŞ ordusunda xidmət edən siqhlərə başlarına “dastar” (türban) qoymağa və saqqal saxlamağa icazə verilirdi, ancaq daha sonra bu icazə ləğv olunmuşdur. 2009-2010-cu illərdə ABŞ ordusuna təqaüd vasitəsilə işə götürülən biri həkim, digər isə stomatoloq olan iki siqhə geyim istisnasının tətbiq olunmasını nümunə kimi göstərmək olar.

*5. İkili vətəndaşlığa icazə verilməsi;*

**ABŞ nümunəsində:** İkili vətəndaşlığa qismən icazə verilir. ABŞ Dövlət Departamenti bildirir ki, ikinci vətəndaşlığı qəbul etmiş amerikalı ABŞ vətəndaşlığını itirə bilər. Hesab olunur ki, ikinci dövlət qarşısında hər hansı öhdəliyin olması ölkə üçün müəyyən problemlərə gətirib çıxarır.

6. *Etnik qrupların təşkilatlarının və ya fəaliyyətlərinin dövlət tərəfindən maliyyələşdirilməsi;*

**ABŞ nümunəsində:** ABŞ-da belə təcrübə mövcud deyil. Miqrantlar, etnik təşkilatlar və icmalarla bağlı bu kimi məsələlərdə hökumət neytral mövqe nümayiş etdirir.

7. *Bilinqual və ya ana dilində təhsilin dövlət tərəfindən maliyyələşdirilməsi;*

**ABŞ nümunəsində:** Ştatların dil siyasətindən asılı olaraq dəyişir. İkidilli təhsil sistemi ilə bağlı siyasət daha çox ispandilli ştatlarda tətbiq olunur. Multikulturalizmin əleyhdarı olan ştatlarda isə təhsil ancaq ingilis dilində aparılır.

8. Əlverişsiz vəziyyətdə olan immiqrantlara dövlət tərəfindən ünvanlanmış güzəştlərin olması;

**ABŞ nümunəsində:** Amerikada miqrantlarla bağlı belə təcrübə mövcuddur. Belə ki, işə qəbul zamanı işəgötürənlərin qarşısına qoyulan tələblərdən biri də qadınlara, əlil insanlara və ixtisaslı azlıqlara üstünlüyün verilməsidir. 1964-cü ildə qəbul edilmiş Mülki Hüquqlar Aktında işəgötürənlər tərəfindən irqinə, cinsinə, rənginə, dininə və milli mənsubiyyətinə əsasən ayrı-seçkilik qoyulursa, işəgötürən bu hərəkətinə görə məsuliyyət daşıyır. Belə hal baş verdikdə müvafiq Komissiya tərəfindən istintaq tədbiri həyata keçirilir.

Beləliklə, qeyd olunan "İmmiqrant azlıqlar üzrə MKS indeksi"nin parametrlərinə uyğun olaraq ABŞ təcrübəsinə nəzər saldıqda görürük ki, aparılan multikulturalizm siyasətinin əsas hədəfi vahid amerikalı kimliyi yaratmaq idi. Bunu istər dil sahəsində aparılan siyasət, istərsə miqrantlara münasibətin müxtəlif ştatlarda fərqli təzahür etməsini göstərə bilərik. Hesab olunur ki, bu gün Amerika siyasi arenasında səsləndirilən millətçi ritorikalar, miqrantlara qarşı məhdudiyyətlərin artması və bu kimi digər məsələlər mədəniyyətlər arasında gərginliyə əsas səbəb aparılan uğursuz assimilyasiya siyasətinin nəticəsidir.

## 10.4.4. Böyük Britaniyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi

Etnik-mədəni müxtəlifliyin qorunmasını və inkişaf etdirilməsini nəzərdə tutan multikulturalizm siyasəti, bu siyasətin mahiyyəti və müxtəlif modelləri müasir dövrdə Avropa ölkələrində əsas müzakirə mövzularından birinə çevrilmişdir. Bu siyasət bəzi Avropa ölkələrində, o cümlədən Böyük Britaniyada etnik, dini və ya mədəni müxtəlifliklərin harmoniyası və birgəyaşayışın əsas təminatçısı kimi nəzərdən keçirilir və müxtəlif siyasi modellər vasitəsilə icra edilir. Digər tərəfdən isə, əsasən sağçı millətçi siyasi partiyalar tərəfindən immiqrasiya əleyhinə səslənən fikirlər nəticəsində multikulturalizm siyasətindən müəyyən qədər uzaqlaşma meydana gəlmişdir.

Böyük Britaniyada multikulturalizm, ilk növbədə, immiqrantların hüquqlarının təminatı ilə bağlıdır. Burada immiqrantların mədəni hüqüqlarının təmin edilməsi multikulturalizm siyasətinin əsas istiqamətidir. Kontinental Avropa multikulturalizmindən fərqli olaraq, Böyük Britaniya etnik-mədəni müxtəliflyin tənzimlənməsində xüsusi bir strateqiya mənimsəmişdir. Belə ki, bu inteqrasiya strategiyasının prioritetini etnik qruplar deyil, fərdlər təşkil edir. Bu siyasət, etnik müxtəlifliklər də daxil olmaqla, əsasən fərdi azadlıqların ifadə edilməsinə yönəlmişdir. Bu baxımdan etnik qruplara mənsub olan fərdlər özünəməxsus mədəni praktikalarını fərdi müstəvidə reallaşdıra bilirlər. Xüsusilə qeyd edilməlidir ki, Britaniya mədəniyyətinin mərkəzində xalqın çoxluğunun bölüşdüyü anqlo-sakson mədəniyyəti, həyat tərzi, dəyərləri, əxlaqi normaları mühüm yer turur. Buna görə də, "başqa" mədəniyyətə mənsub olanların hakim təbəqənin dəyərlərinə inteqrasiya etməsi arzuolunan hesab edilir. Burada ikili etnik və mədəni mənsubiyyət yalnız hakim dəyərlərin mənimsənilməsi kontekstində reallaşdırıla bilər.

Məlumdur ki, Böyük Britaniya imperiyası müstəmləkə ölkələri idarə etdiyi dövrlərdə meydana gələn mədəni müxtləliflik siyasəti praktikasına malik olmuşdur. Yəni, mədəni müxtəlifliyin tənzimlənməsi Böyük Britaniya üçün yeni bir məsələ deyil. Buna baxmayraq, Böyük Britaniyanın mədəni müxtəlifliyə münasibəti Fransanın assimilyasiya siyasətindən fərqli olmuşdur. Bu imperiyanın hökmranlıq etdiyi ölkələrdə müxtəlif mədəniyyətlərin özünüidarə və mədəni kimliyini qoruma haqları təmin edilmişdir.

Böyük Britaniyada multikulturalizm istiqamətində ilk addımlar 1960-cı illərdə, müxtəlif irqlərin arasındakı münasibətləri tənzimləyən qanunların qəbul edildiyi dövrdə atılmışdır. 1976-cı ildə isə irqlər arasında tam bərabərliyin elan olunması qanunlarda öz əksini tapmışdır. Lakin bunu da qeyd etmək lazımdır ki, Böyük Britaniya pozitiv diskriminasiya mövzusunda ABŞ-dan fərqli yol keçmişdir. Belə ki, burada etnik-mədəni azlıqlara (məs., ABŞ-da Amiş icmasına verildiyi kimi[6]) xüsusi imtiyazlar verilməmişdir. Böyük Britaniyada etnik azlıqların mədəni kimliklərin ifadəsi dözümlülük prinsipinə söykənən "çoxmədəniyyətli cəmiyyət" konsepsiyası çərçivəsidə təmin edilir. Bu siyasət bir çox özünəməxsus etnik-mədəni adət-ənənələri (müsəlman qızların hicab bağlaması, Siqh dinində ənənəvi papaqların qoyulması və s.) qanunda nəzərdə tutulan xüsusi istisnalar olaraq həyata keçirilir.

Çoxetniklik haqlarının (polyethnic rights) təminatı adlanan bu siyasət immiqrantların təşkil etdiyi etnik-mədəni və dini azlıqların xüsusi kimliklərini ifadə etməkdə təzahür edir. Bu siyasətin bəzi nümunələrinə aşağıdakıları misal çəkmək olar. Böyük Britaniyada müsəlmanlar və yəhudilər üçün heyvanların kəsilməsini qadağan edən qanunlarda istisnaların nəzərdə tutulması və bu qanunların onlara şamil edilməməsi çoxetniklik haqlarına misal göstərilə bilər. Belə ki, dini və etiqad azadlığının təmin edilməsi məqsədi ilə müsəlman və yəhudilər üçün qanunda xüsusi güzəştlər tətbiq edilir və onlar dini bayramlarında qurban ayinlərini yerinə yetirə bilir. Bu nümunələr arasında, həmçinin müsəlman qadınlara dövlət qulluğunda olarkən nizamnamədə nəzərdə tutulan geyim formasında güzəşt və istisnaların tətbiq edilməsini; Siqh dininə mənsub olanlar üçün yol hərəkəti qaydalarında ənənəvi geyimlərlə bağlı müəyyən güzəştlərin tanınmasını qeyd etmək mümkündür.

Böyük Britaniyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin digər subyekti də dövlət məktəbləridir. Belə ki, istər tədris proqramının mədəni müxtəlifliyi kifayət qədər əks etdirməsi, istərsə də məktəb müəllimlərinin etnik-mədəni müxtəlifliyə həssaslığını nəzərdə tutan təhsil islahatları həyata

6 Amişlər – qatı mühafizəkarlığı ilə seçilən protestant hərəkatın ardıcıllarıdır. 1693-cü ildə Avropada meydana gələn, daha sonra isə Şimali Amerikada yayılan hərəkatın banisi Yakob Amman sayılır. Hazırda amişlərin əksər hissəsi ABŞ və Kanadada qapalı icmalar halında yaşayırlar. ABŞ-da onlar Pensilvaniya ştatının Lankaster mahalında yaşayırlar. Əsrlər keçməsinə baxmayaraq öz adət-ənənələrini və ənənəvi geyimlərini saxlamaqda davam edən amişlər zorakılığın istənilən formasını rədd edir və əski alman dilində danışırlar. Amişlər müasir texnikadan istifadə etmir. Məsələn, onlar elektrikdən istifadə etmədikləri üçün nə televiziyaya baxır, nə də radioya qulaq asırlar.

keçirilmişdir. Beləliklə, bütün bunları nəzərə alaraq söyləmək mümkündür ki, Böyük Britaniyada ictimai və siyasi müstəvidə çoxmədəniyyətli cəmiyyət konsepsiyası inkişaf etmiş və pozitiv diskriminasiya praktikaları yayılmağa başlamışdır. Bu siyasətin səciyyəvi cəhəti ondan ibarətdir ki, burada etnik-mədəni azlıqlar dövlət tərəfindən rəsmi olaraq tanınmasa da, hər bir vətəndaş fərdi müstəvidə etnik-mədəni müxtəliflikliyi, dini ənənələrini ifadə etmə hüquqlarına malikdir.

## 10.4.5. Fransada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi

Fransada etnik-mədəni müxtəlifliyin azad ifadə edilməsi və tanınması ətrafındakı müzakirələr 1980-ci illərdə başlamışdır. Həmin vaxt Avropadakı millətlərarası inteqrasiya və immiqrasiya problemlərinin həlli istiqamətində Fransa siyasi dairələrində müxtəlif nəzəriyyələrin irəli sürülməsi bu mövzularda dərin fikir ayrılıqlarının yaranmasına səbəb olmuşdur.

Fransa dövləti dini və etnik rəngarənglik baxımından diqqəti cəlb edən, Avropada ən çox immiqrant qəbul edən ölkələrdən biridir. Xüsusilə, XX əsrdə buraya Əlcəzair və Mərakeşdən böyük miqrasiya axınları baş vermişdir. Məsələn, 2003-cü ildə Fransa Daxili İşlər Nazirliyinin nəşr etdiyi hesabata əsasən, ölkədə təxminən 5-6 milyon müsəlman (ümumi əhalinin təxminən 8%-i və ya 10%-i) yaşayırdı. Miqrantların mövcud ictimai-siyasi quruluşa inteqrasiyasını nəzərdə tutan və getdikcə multikulturalizmdən uzaqlaşan fransız modeli, əsasən assimilyasiya strategiyasını icra etməyə çalışmışdır. Belə ki, bu model immiqrasiya ilə formalaşan etnik-dini birliklərin qarşılaşdığı problemləri fransız mədəniyyətinə inteqrasiya etməklə həll etməyi nəzərdə tuturdu. Başqa sözlə desək, etnik birliklərə mənsub olanları hakim mədəniyyətinə inteqrasiya etdirərək bərabərhüquqlu fransız vətəndaşına çevirmək bu siyasətin prioritet istiqamətidir.

Yuxarıda qeyd olunanlardan aydın olur ki, Fransada etnik-mədəni müxtəlifliyin tənzimlənmə modeli mədəni müxtəlifliyin birlikdə varlığını qoruyub saxlayan və bu müxtəliflikləri inkişaf etdirən multikulturalizmdən fərqlidir. Fransada respublikaçı dünyəvi ideologiyanın hələ də əhəmiyyətini qoruduğunu söyləmək mümkündür. Bu ideologiyaya görə, Fransa cəmiyyətinin hər bir üzvü etnik mənşəyindən asılı olmayaraq, bərabərhüquqlu və azad fransız

vətəndaşıdır. İctimai rəy soruğuları onu göstərmişdir ki, Fransa cəmiyyəti açıq şəkildə özünü multikultural cəmiyyət kimi görmür. Bunun da ən böyük səbəbi respublikaçı ideologiyanın reallaşdırılması və millət-dövlət siyasi quruluşudur. Fransa millət-dövlət modeli, bərabər (təktipli) fransız vətəndaşı ideyası üzərində qurulmuşdur.

Fransada etnik-mədəni müxtəlifliyin tanınması düşüncəsi respublika vətəndaşlığının universal və hürriyətçi olması, eləcə də dövlətin dünyəvilik (*laicite*) prinsipi ilə ziddiyyət təşkil edir. Dövlət və dinin ayrılığını nəzərdə tutan və respublikaçılığın əsas prinsiplərindən biri olan dünyəvilik haqqında qanun Fransada 1905-ci ildə qəbul edilmişdir. Bu qanun vətəndaşların dini etiqad azadlıqlarını təmin etməklə yanaşı, ölkədə hər hansı bir dini cərəyana rəsmi status verilməsini və ya xüsusi dini kimliklərin rəsmi olaraq tanınmasını məhdudlaşdırır. Buna baxmayaraq, 1990-cı illərdə Fransada etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin özünəməxsus modelinin yaradılması təklifləri irəli sürülmüşdür. Bu dövrdə Fransa siyasi düşüncəsində respublikaçı ideologiyanın assimilyasiya və ya milli inteqrasiya istiqamətində davam etdirilməsinin mümkünlüyü və respublikaçılığın mədəni müxtəliflik əsasında formalaşmış sosial demokratiya ilə yer dəyişdirməsinin doğru olub-olmaması kimi məsələlər ciddi müzakirə edilmişdir. Bunu da qeyd etmək lazımdır ki, Fransa dövləti üçün mədəni müxtəlifliyin tənzimlənməsi yeni bir məsələ deyildir. Belə ki, Fransa Şimali Afrikada hökmranlıq etdiyi müstəmləkələrində mədəni və irq müxtəlifliyinə söykənən siyasət təcrübəsinə malik olmuşdur.

1980-ci illərdən etibarən keçmiş müstəmləkələrdən Fransaya miqrantların axını prosesi mədəni müxtəlifliyin tənzimlənməsi üçün yeni çağırışlar yaratmışdır. Bu problemin həlli istiqamətində 1993-cü ildə Tarif və Ticarət üzrə Baş Sazişdə (GATT) Fransa tərəfindən xüsusi bir strategiya irəli sürülmüşdür. Bu siyasi strategiya mədəni müxtəlifliyin istisna təşkil etdiyi ideyasından çıxış edərək (cultural exception) etnik-mədəni müxtəlifliyin qorunmasını nəzərdə tuturdu. Lakin bu siyasət özünü doğrulda bilməmişdir. Fransada müasir dövrdə "regional pozitiv diskriminasiya" (ZUS) siyasəti müxtəlif yerlərdə zəif və az təmsil olunmuş sosial qrupların önə çəkilməsini nəzərdə tutur. Bu siyasət bir çoxları tərəfindən respublikaçılıqdan uzaqlaşma və multikulturalist siyasətə doğru atılan yeni bir addım kimi qiymətləndirilmişdir.

Başqa yanaşmalara görə isə, Fransa dövləti heç vaxt tam multikulturalizm

siyasətini həyata keçirməmişdir. Çünki respublikaçı-milli inteqrasiya modeli və dövlət təhsil müəssisələrində tətbiq olunan dünyəvilik prinsipi dövlətin rəsmi siyasətinin istiqamətini müəyyənləşdirən əsas amillər kimi çıxış edir. Bu siyasət özəl kimliklərin tanınması və ya inkişafına deyil, ictimai sferanın bərabərliyi və bitərəfliyini təmin etməyə yönəlmişdir. Məsələn, Fransada dövlət məktəblərində dini simvolların daşınmasının qadağan edilməsi və ictimai sferada xüsusi mədəni kimliklərin tanınması tələblərinin qəbul edilməməsi milli inteqrasiya modelinin və dövlətin dünyəvilik siyasətinin tərkib hissəsini təşkil edir.

Beləliklə də bir çox Avropa ölkəsində olduğu kimi, Fransada da milli və dini azlıqların, eləcə də miqrantların gündən-günə çoxaldığı bir dövrdə etnik-milli müxtəlifliyin tənzimlənməsi məsələsində mövcud tendensiya, təəssüflə qeyd edilməlidir ki, multikulturalizmdən uzaqlaşma istiqamətində inkişaf edir.

## 10.4.6.Almaniyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi

Almaniya Federativ Respublikası əhalisinin sayına və iqdisadi inkişafına görə Avropa İttifaqının lider ölkərindən biridir. Almaniya birlik ölkələri içərisində ən çox miqrant qəbul edən ölkədir. Əhalisinin təxminən 12 faizini immiqrantlar təşkil edir və onlar əsasən, Türkiyə, Rusiya, Polşa və İtalyadan köç ediblər.

Almaniyada etnik-mədəni müxtəlifliyin formalaşmasında miqrantlarla yanaşı yerli milli azlıqlar da mühüm rol oynayır. Onlardan aşağıdakıları göstərmək olar: frizlər[7], romalılar (qaraçılar. – Red.), sintiləri (qaraçıların Qərb qoluna aid olan xalq – Red.) və sorblar[8]. Əhalisinin 95 faizi xristiandır, onlardan 29,9 faizi Roma katolik və ya protestant, 1,3 faizi isə pravoslav hesab olunur. Almanların 34 faizi isə heç bir dinə etiqad etmir (ateist və aqnostiklər). “Dinsizlər” əsasən şərqi Almaniyada yaşayır. Buna səbəb vaxtilə Almanayanın şərqində kommunist rejiminin hakim olmasıdır. Xristianlıqdan sonra isə ikinci yerdə İslam dini gəlir. 2017-ci ildə “Pyu Tədqiqatlar Mərkəzi” tərəfindən aparılan rəy sorğusuna əsasən, bu ölkədə 5 milyona yaxın müsəlman yaşayır. Milli azlıqlar və immiqrantlar liqvistik müxtəlifliyin formalaşmasında aparıcı rol oynayır.

7 İngilis dilində “Frisians”, Rus dilində isə “Фризы” kimi yazılır. Bu xalqın nümayəndələri bu gün Hollandiya və Almaniyada yaşayırlar.

8 Sorblar- Şərqi Almaniyada yaşayan slavyan etnik azlıqlardır. Onlar “Vend”lər kimi də adlanırlar. Dini etiqad baxımından kaltolikdir və latın əlifbasından istifadə edirlər.

Almanyada rəsmi dil alman dilidir. Bununla yanaşı azlıqların danışdıqları dillər də məskunlaşdıqları ərazilərdə rəsmi şəkildə tanınır. Məktəblərdə xarici dil kimi daha çox ingilis dili tədris olunur. Qeyd edildiyi kimi, Almaniya həm etnik tərkib, həm din, həm də dil baxımından çoxmədəniyyətli ölkədir. Buraya miqrantların, eləcə də yerli milli azlıqların mədəniyyətləri daxil olsa da, Almaniyada multikulturalizm siyasətinin əsasında miqrant əhali dayanır. Ch. Cobke "Liberal dövlətlərdə multikulturalizmin geriləməsi" adlı məqaləsində qeyd edir ki, əgər Kanada və ya Avstraliyada multikulturalizm bütün cəmiyyət üçün kimlik seçimidirsə, Avropada multikulturalizm yalnız immiqrantlara yönəlib. Bu yanaşmanı daha çox Almaniya nümunəsinə aid etmək mümkündür. Milli azlıqlarla bağlı federal hökumət tərəfindən aparılan siyasət həm ittifaq səviyyəsində, həm də ştat səviyyəsində dəstəklənir. Daha dəqiq desək, Almaniya Avropa İttifaqına üzv dövlət kimi milli azlıqların hüquqlarının qorunması, onların müdafiə və tanınması üçün multikultural ölkə kimi öz üzərinə öhdəlik götürür. Bu baxımdan, 1 fevral 1995-ci il tarixli Avropa Şuransının Milli Azlıqların Qorunması ilə bağlı Çərçivə Konvensiyası, həmçinin, 5 noyabr 1992-ci il tarixində Avropa Şurası tərəfindən qəbul edilən Regional və ya Milli Azlıqların Dilləri ilə bağlı Avropa Xartiyası milli azlıqların hüquqlarının tanınması ilə bağlı əsas hüquqi çərçivə hesab olunur. Miqrantlarla müqayisədə milli azlıqlarla bağlı Almaniyada birmənalı münasibətin formalaşmasında onların yerli mədəniyyətlə qaynayıb qarışması mühüm rol oynayır. Daxili İşlər, İnşaat və İcma üzrə Federal Nazirlik milli azlıqların aşağıdakı xüsusiyyətlərini qeyd edir:

- Onlar almandır;
- Özlərinə məxsus dil, mədəniyyət, tarix və fərdi milli kimlikləri var;
- Milli kimliklərini qorumaq arzusundadırlar;
- Əsrlər boyu Almaniyada məskunlaşmışlar;
- Ənənəvi olaraq məşkunlaşdıqları ərazilərdə yaşayırlar.

Qeyd edilən təsnifləndirməyə nəzər saldıqda milli azlıqların həm alman cəmiyyəti, həm də hökuməti tərəfindən almaniyalı kimi qəbul olunduğunu görürük. Çünki onlar ölkəni quran icmalar hesab olunurlar.

Azlıqlarla müqayisədə immiqrantlar İkinci Dünya müharibəsindən sonra kütləvi şəkildə Almaniyada məskunlaşmağa başlayıb, yerli mədəniyyətlə paralel yaşamağa üstünlük vermişlər. İmmiqrantların multikulturalizm siyasətinin mərkəzində dayanmasının əsas səbəbi onların yerli mədəniyyətlə paralel (yəni

onların yerli mədəniyyətə inteqrasiya etməmələri) mövcudluğu oldu. Buna görə də Almanyanın kansleri Angela Merkel 2010-cu ilin 17 oktaybrında Xristian Demokratlar İttifaqı partiyasının gəncləri ilə görüşü zamanı bildirdi ki, *"Müxtəlif mədəniyyətlərdən gələn insanların bir-biri ilə xoşbəxt yanaşı yaşaması ideyası uğurlu olmadı. Almaniyada multikulturalizm tamamilə uğursuz oldu"*.

Beləliklə, ictimai rəydə müzakirə olunan fikirlər diskursiv səviyyədə dövlət siyasətinə transformasiya edildi. A.Merkel multikulturalizmin iflası ilə bağlı bəyanatında müsəlmanların cəmiyyətə inteqrasiyasının uğursuzluğunu nəzərdə tuturdu. Çünki ictimai rəydə immiqrant deyəndə əsasən müsəlmanlar nəzərdə tutulurdu. Keçirilmiş rəy sorğuları anti-müsəlman əhval ruhiyyəsinin yüksək olduğunu təsdiq edir. 2016-cı ildə "Pyu Tədqiqat Mərkəzi" tərəfindən aparılan "Almaniyada Müsəlman Əhalinin Artması" adlı sorğuda iştirak edən hər 10 nəfərdən 7-si bildirir ki, *"Suriya və İraqdan gələn qaçqınlar cəmiyyət üçün əsas təhlükədir"*. Əlbəttə, faktlar həmin ölkədə gedən siyasi prosesləri göstərir. Federativ Respublikada etnik-mədəni müxtəlifliklə bağlı siyasətin əsasını immiqrantların formalaşdırdığı mədəni mühit təşkil edir. Bu səbəbdən immiqrantlarla bağlı məsələlərin tənzimlənməsində həm hüquqi baza, həm də institusional çərçivənin burada qeyd edilməsi vacibdir.

İkinci Dünya müharibəsindən sonra immiqrantlara ucuz işçi qüvvəsi kimi baxılırdı, eyni zamanda onların özləri ilə gətirdikləri mədəniyyətin yerli mədəniyyətə təsirinə, gəlmələrlə yerli əhali arasındakı münasibətlərə önəm verilmirdi. Müharibədə məğlub olmuş, infrastrukturu, iqdisadiyyatı dağılmış Almaniya üçün qeyd olunan mədəniyyətlərarası münasibətlər arxa planda idi. Lakin bir müddət keçdikdən sonra almanların immiqrantlara münasibəti dəyişdi. İndi almanlar immiqrantlara "işlərini əlindən alan", "cinayətkarlığın artmasına səbəb olan", "maaşlarını azaldan" və "sosial rifahdan" sui-istifadə edən təbəqə kimi baxır. Cəmiyyətdə hökm sürən anti-miqrant əhval-ruhiyyəsinin azaldılması məqsədilə 2000-ci ildən sonra Almaniya federal hökuməti tərəfindən immiqrantların vəziyyətinin yaxşılaşdırılması və onların inteqrasiya prosesinin sürətləndirilməsi məqsədilə miqrasiya siyasəti haqqında islahatlar paketi hazırlandı. Misal kimi, 2005-ci ildə İmmiqrasiya, Məskunlaşma və Sığınacaq haqqında Qanunları, eləcə də məşğulluq və inteqrasiya haqqında qəbul edilmiş müvafiq sərəncamları göstərmək olar. Aparılan islahatlar nəticəsində gəlmələrin cəmiyyətə inteqrasiya edilməsinə, onlara dil kurslarının keçirilməsinin federal

hökumət tərəfindən təşkilinə və maliyyələşməsinə, immiqrantlar, xüsusilə xarici tələbələr üçün viza sisteminin təkmilləşdirilməsinə start verildi. Əlbəttə ki, bunların arxasında gəlmələrin yeni sistemə inteqrasiyasını sürətləndirmək, Almaniyanın yerli hüquqi və sosial sistemini tez bir zamanda mənimsənilməsinə nail olmaq idi. Qəbul edilən qanun və qərarların icrasına nəzarəti Daxili İşlər, İnşaat və İcma üzrə Federal Nazirlik həyata keçirir. Eyni zamanda aidiyyəti üzrə işlərin yerinə yetirilməsi üçün həmin nazirliyin müvafiq agentlikləri və idarələri mövcuddur.

Almaniyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi siyasətinin əsasında gəlmələrin assimilyasiyası dayanır. Məhz bu səbəbdən son zamanlar irqçi və millətçi şüarlar həm siyasi alman diskursunda, həm də ictimai rəyində aktuallaşmağa başlamışdır.

## 10.4.7. Hollandiyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi

Son 40 il ərzində Hollandiyanın demoqrafik mənzərəsi ciddi çəkildə dəyişmişdir. Hal-hazırda sözügedən ölkənin 17 milyondan çox əhalisi var və onların təxminən 9%-ə yaxını xaricdə dünyaya gəlib. Valideynlərindən biri və ya hər ikisi xaricdə doğulan insanların sayı isə 17%-ə çatır. Bu, o deməkdir ki, ölkədə yaşayan təxminən hər 5 nəfərdən birinin immiqrant kökləri var. Qeyri-Avropa mənşəli miqrantlar əsasən Türkiyə, Mərakeş, Tunis, Surinamdan gəlmişdir.

1980-cı ilədək Hollandiyada miqrantların bu ölkədə müvəqqəti məskunlaşması və nə vaxtsa buranı tərk edəcəkləri haqqında fikir mövcud idi. Buna görə də dövlət siyasətinin məqsədi miqrantların inteqrasiyasını həyata keçirmək deyil, onlarla layiqli rəftar və rifahın təmin edilməsindən ibarət idi. Mədəni identikliyin qorunub saxlanılması da dövlət proqramlarının hədəflərindən biri idi. Bu məqsədlə dövlət müxtəlif təsisat və təşkilatlara mədəni kimliyin ifadəsi üçün maliyyə vəsaiti ayırır, eləcə də ölkə vətəndaşlarına verilən bir sıra imtiyazlar- miqrantların işsizlik imtiyazları, səhiyyə və təhsil sistemindən yararlanmaq, miqrantlara da şamil edilirdi. Məsələn, 1974-cü ildə “İbtidai Təhsil

haqqında" qanuna edilən dəyişikliklər miqrantların ana dilində təhsil almasına və mədəni kimliklərininin qorunmasına yönəlmişdi. Lakin miqrantların uzun müddət və ya daimi bu ölkədə qala biləcəkləri perspektivinin ortaya çıxması onların Hollandiya mədəniyyətinə inteqrasiyası və cəmiyyətin həyatında iştirakı barədə suallar doğurmağa başladı.

1980-ci illərdə ölkədə sənayenin ciddi şəkildə yenidən qurulması nəticəsində peşə hazırlığı qənaətbəxş olmayan işçilərə tələb azaldı. Nəticədə miqrantlar arasında işsizliyin səviyyəsi artdı. Bu isə öz növbəsində yerlilərlə gəlmələr arasında münasibətlərin gərginləşməsi, irqçilik və ayrı-seçkilik meyllərinin artması ilə nəticələndi. Buna misal olaraq İndoneziyada Maluka bölgəsinin müstəqilliyini tələb edən gənclərin 1977-ci ildə Hollandiyada qatara hücum edərək sərnişinləri əsir götürməsini göstərmək olar. Qeyd edək ki, bu kimi hadisələr ölkədə irqçiliyik və dözümsüzlük meylərinin artmasını sürətləndirirdi.

Hollandiyanın azlıqlara dair siyasət sənədi *Minderhedennota* (Azlıqlar siyasəti) 1981-ci ildə Dövlət siyasəti üzrə Elmi Şura tərəfindən hazırlanaraq parlamentə gönədirildi və 1983-cü ildə parlament tərəfindən təsdiq edildi. Azlıqlar siyasətinin bu sənədlə müəyyən edilmiş məqsədi mədəni kimliyin qorunması şərti ilə inteqrasiyanın təmin edilməsi idi. Bu, İsveçdən sonra Qərbi Avropada ilk dəfə azlıqlarla bağlı siyasətin vətəndaşlıq prinsipləri deyil, məhz daimi yaşama hüququ üzərində tətbiq edilməsi idi. Fleras Hollandiyada multikulturalizmin bu mərhələsini "etnik azlıqlar siyasəti və ya təsadüfi multikulturalizm" mərhələsi adlandırır.

Entzinger Minderhedennotanın (Azlıqlar siyasəti) üç əsas istiqamətini göstərir:

1. Multikultural cəmiyyətdə emansipasiya[9];
2. Hüquq qarşısında bərabərlik;
3. Bərabər imkanların təşviq edilməsi.

Azlıqların emansipasiyası məqsədilə dövlət etnik azlıqlar üçün məşvərətçi şuraların yaradılmasını təşviq etmiş, həmçinin müsəlman və induist məktəblərin açılmasını dəstəkləmişdi. Sonradan qəbul edilmiş qanunlara görə, dövlətin kilsə və məscidlər üçün maliyyə yardımı etməsi qadağan edilsə də, dil kurslarının təşkil edilməsi, qadınlar üçün xüsusi kursların yaradılması dövlət hesabına təşviq edilmişdir.

9 Sosial və ya siyasi hüquq və azadlıqların verilməsi üçün hazırlıq prosesi. Bax. *Emanicipation* (Cambridge online dictionary). https://dictionary.cambridge.org/dictionary/english/emancipation

Azlıqlarla bağlı siyasət sənədinə görə, miqrantlar vətəndaşlıq əldə etməyə məcbur edilməməli və ya başqa ölkənin vətəndaşlığı onlar üçün əlverişsiz şərait yaratmamalı idi. Tədricən bu istiqamətdə çox ciddi addımlar atılmışdı. Əcnəbilərə silahlı qüvvələr və polis istisna olmaqla dövlət qulluğunun digər sferalarında çalışmağa icazə verilirdi. Həmçinin sosial siyasətin əksər istiqamətləri uzun müddət Hollandiyada yaşayan miqrantlar üçün vətəndaşlarla eyni səviyyədə tətbiq edilirdi. Bu siyasətin ən mühüm elementi isə 5 ildən çox ölkədə yaşayan əcnəbilərə yerli seçkilərdə iştirak etmək imkanının verilməsi idi. Hətta seçki hüququnun mərkəzi və Avropa seçkilərinədək artırılması da müzakirə predmetinə çevrilmişdi. Yeri gəlmişkən Hollandiyada yaşayan etnik türklər seçkilərdə ən aktiv iştirak edən qrup idi. 1980-ci illərdə ikinci nəsil immiqrantlar üçün naturalizasiya şərtləri yumşaldıldı. 1992-ci ildə ikili vətəndaşlığın tətbiq edilməsi ilə vəziyyət əhəmiyyətli dərəcədə dəyişdi. Bu qərardan sonra vətəndaşlıq alan şəxslərin (xüsusilə türklərin və mərakeşlilərin) sayı artmağa başladı. Hal-hazırda Mərakeş və Türkiyədən olan miqrantların yarısı holland passportu daşıyır.

Azlıqlara bərabər imkanların yaradılması istiqamətində görülmüş tədbirlər də ciddi nəticələr verdi. Belə ki, yaşayış yeri ilə təminat məsələsində eyni gəlirlərə malik miqrantlarla yerlilər arasında bərabərlik təmin edildi. Burada problemli məsələ miqrantların əmək bazarında yerləşdirilməsi idi. Ölkədə fəaliyyət göstərən sahibkarlar miqrantların peşə hazırlığı səviyyəsinin aşağı olmasını səbəb gətirirək onları işə götürməkdən imtina edirdi. Buna görə də gəlmələr arasında işsizliyin səviyyəsi 20-40% arasında dəyişirdi. Bu bərabərsizliyi qismən düzəltmək üçün dövlət 1993-cü ildə xüsusi qanun qəbul etdi. Qanun biznes müəssisələri üçün kvota tətbiq etməsə də, illik hesabatlarda miqrant işçilərin sayı və bu sayın genişləndirilməsi planları barədə məlumat verilməli idi.

1990-ci illərdə azlıqlarla bağlı siyasətdə bəzi dəyişikliklər baş verdi. Bu dəyişikliklərin səbəbi etnik azlıqların sayının ailələrin qovuşdurulması siyasəti nəticəsində iki dəfə artması, Berlin divarının dağılmasından sonra ölkəyə sürətlə axın edən miqrantların mənşə ölkələrinin dəyişməsi, miqrantların yerli mədəniyyətlə daha yaxından tanış olan və ya Hollandiyada təhsil almış sonrakı nəsillərinin formalaşması idi. Həmçinin, bütün səylərə baxmayaraq, miqrantların böyük hissəsinin vəziyyəti hələ də arzuolunmaz olaraq qalırdı. Vəziyyətin

qiymətləndirilməsi və yeni siyasətin hazırlanması üçün hökumət yenə Dövlət siyasəti üzrə Elmi Şuraya müraciət etdi.

Şuranın 1989-cu ildə hazırladığı Allochtenenbeleid (İmmiqrant siyasəti) adlı sənəddə göstərilirdi ki, hökumət birinci sənədin həyata keçirilməsi zamanı multikulturalizmin tətbiqinə daha çox yer vermiş, immiqrantların geniş mənada cəmiyyətdə iştirakının və sosio-iqtisadi inkişafının təmin edilməsi ilə arxa plana keçmişdir. Şuranın qənaətinə görə, azlıqlar siyasətinin davam etdirilməsi etnik azlıqları dövlətdən asılı vəziyyətə salmaqla onları daha da marginallaşdıracaq. Alternativ olaraq təklif edilirdi ki, dövlət diqqətini daha çox təhsil, məşğulluq və Holland dili kurslarının tədrisi siyasətinə yönəltsin.

Hökumət bu sənədi qəbul etməkdə maraqlı görünməsə də, sənəd ciddi elmi və siyasi müzakirələrə səbəb oldu. Elmi müzakirələrin mahiyyətində miqrantların ana dilində təhsil almalarının onların cəmiyyətə inteqrasiyasına mane olması dayanırdı. Siyasi debatları isə Hollandiyanın o dövrdəki parlament partiyalarından birinin lideri Frits Bolkesteynin İslamın Qərb dəyərləri ilə uzlaşmadığı barədə bəyanatı istiqamətləndirirdi. Bolkestein bildirirdi ki, bu uyğunsuzluğa görə də immiqrantlar hətta öz mədəni dəyərləri ilə ciddi ziddiyət təşkil edən dominant mədəniyyətə uyğunlaşmalıdırlar. Belə bəyanatlar Bolkensteinə növbəti seçkilərdə uğur qazandırdı və məlum oldu ki, ölkədə multikulturalizm əleyhdarları üstünlük təşkil edir.

Ölkədə gedən qızğın debatların nəticəsi olaraq hökumət 1994-cü ilin mayında azlıqlar siyasətini əvəz edən yeni siyasət sənədi qəbul etdi. Etnik azlıqların inteqrasiyası siyasətinin Konturları (bundan sonra Konturlar) adlanan bu sənəddə multikulturalizm deyil, inteqrasiya və vətəndaşlıq prinsipləri qabardılırdı. Tam və aktiv vətəndaşlıq inteqrasiya siyasətinin əsas məqsədinə çevrildi. Bu həm dövlətin, həm də azlıqların üzərinə hüquq və öhdəliklər qoyurdu. Hökumət imkanlar təklif etməyə, immiqrantlar isə bu təklifləri dəyərləndirməyə borclu idi. Konturlar bəyan edirdi ki,“mədəniyyət statik konsepsiya deyil və digər mədəniyyətlərlə qarşılıqlı əlaqədə inkişaf edir”.

Konturların əvvəlki sənəddən əsas fərqi onda idi ki, dövlətin siyasətinin hədəfi yalnız immiqrantlar deyil, əlverişsiz şəraitində olan hər kəs ola bilərdi. Bu isə öz növbəsində dövlətin bundan sonra immiqrantlara hədəflənmiş xüsusi proqramlar qəbul etməyəcəyinə işarə edirdi. Artıq dövlət siyasəti qruplara və ya icmalara deyil, fərdlərə yönəldilirdi. Yeni siyasətlə dövlət azlıqlara qrup olaraq

qayğı göstərməkdən əl çəkir, insanlara fərdi seçim imkanları yaradaraq onlardan sərbəst şəkildə yararlanmağa təşviq edirdi. Yəni artıq dövlətin siyasəti təkyönlü qayğı deyil, ikitərəfli qarşılıqlı fəaliyyət idi. Məhz bu ikitərəfli fəaliyyət 1998-ci ildə qəbul edilmiş "İmkanlar təklif etmək, imkanlardan yararlanmaq" adlı yeni siyasət sənədinin, adından da göründüyü kimi, fundamental əsasını təşkil edir.

Yeni sənəd miqrantların mövcudluğunun legitimliyini qətiyyən şübhə altına almır. Əksinə, sənədi qəbul edən hökumət açıq şəkildə bildirirdi ki, Hollandiya immiqrasiya ölkəsidir. Lakin burada multikulturalizmdən uzaqlaşma və onun inteqrasiya ilə əvəz edilməsi, xüsusən də inteqrasiya siyasətində əsas məsuliyyətin qəbul edən tərəfin üzərinə deyil, immiqrantların üzərinə düşməsi vurğulanır.

Yeni siyasət vətəndaşlıq məsələlərinə də ciddi dəyişikliklər gətirmişdir. Holandiyada sağ partiyalar iddia edirdilər ki, immiqrantların Hollandiya vətəndaşlığı əldə etməsi onlara Avropa İttifaqı daxilində rahat hərəkət edə bilmələri baxımından sırf praktik məna kəsb edir və bu, onların Hollandiyaya loyallığının göstəricisi və ya nəticəsi deyil. Hökumət bu debatları nəzərə alaraq 1997-ci ildə ikili vətəndaşlığı dayandırdı, lakin eyni zamanda istisnalar üçün kifayət qədər yer qoydu.

İnteqrasiyanın gücləndirilməsi sahəsində atılmış addımlardan ən mühümü 1997-ci ildə parlament tərəfindən ölkəyə yeni gələnlər üçün vətəndaş inteqrasiyası haqqında qanunun qəbul edilməsidir. Bu qanuna əsasən, Avropa İttifaqından olmayan hər bir miqrant müsahibə aparılması üçün yerli hakimiyyət orqanlarına müraciət etməlidir. Müraciət etməyənləri 2269 avroya qədər cərimə gözləyir. Bu müsahibə əsasında yerli hakimiyyət immiqrantın məcburi dil kurslarında iştirak edib-etməyəcəyinə dair qərar qəbul edir. 600 saatlıq bu kursların 500 saatı Holland dilinin öyrənilməsinə, 100 saatı isə sosial vərdişlər və əmək bazarına həsr olunur. Kurslar pulsuzdur. Hökumət kursların ilk ilində bu məqsədlə büdcədən 138 milyon avro vəsait ayırmışdır.

Hollandiyada multikulturalizm üzərində debatlar bu gün də davam etməkdədir. Miqrantların inteqrasiyası ilə bağlı problemlər əvvəlki aktuallığını qoruyub saxlayır. Zaman-zaman anti-multikulturalist fikirlər ictimai diskursda üstünlük təşkil edir. Hollandiyada multikulturalizmin keçdiyi yol həm də siyasi mübarizə ritorikasının bariz nümunəsidir.

## 10.4.8.İspaniyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi

Ispaniya əhalisinin etnik tərkibi müxtəlifdir. Tarixən bu məkanda müxtəlif dillərə və dinlərə mənsub xalqlar yaşamışdır. İspaniya romalıların, seltlərin, iberlərin, baskların, ərəblərin, qaraçıların və bir sıra başqa xalqların yaşadığı bir ölkə olmuşdur. Müasir dövrümüzdə müxtəlif mədəni qatlara malik olan İspaniya əhalisinin tərkibinə 40-a yaxın etnik qrup daxildir. Bu etnoslardan bəzilərinin öz dili, mədəniyyəti, ənənələri, hətta muxtariyyəti vardır.

Ölkədə belə bir durumun yaranmasının tarixi kökləri vardır. Belə ki, orta əsrlərdə quruluşca zəif və pərakəndə fəaliyyət göstərən xırda krallıqlar rekonkista zamanı ərəblərə qarşı mübarizədə birləşsələr də, özlərinin etnik özünəməxsusluğunu saxlamış, etnik birləşmə prosesini yaşamamışlar[10]. Məhz bu səbəbdən katalonlar, qalisiyalılar və basklar özlərini müstəqil xalqlar kimi qorumuş və tarixin müxtəlif dövrlərində siyasi müstəqilliyi əldə etməyə can atmışlar.

Rekonkista dövrü bitdikdən sonra bu krallıqlarda mövcud olan mərkəzdənqaçma meyllərinin qarşısını almaq üçün onları vahid ideya ətrafında birləşdirmək zərurəti yaranmışdı. Bu məsələnin həllində ən çətini isə etnik mənsubiyyətinə görə seçilən krallıqlar idi. Bunların sırasına Navarra və XII əsrdə Araqona birləşdirilmiş katalonların yaşadığı Barselona kondadı (kondad- “konde” statusu olan zadəganın idarəetdiyi ərazi, konde-kral tərəfindən xüsusi xidmətlərə görə verilən addır.- Red.) aid idi. Vahid millət ideyasını yaratmaq üçün onu təşkil edən əsas elementləri qurmaq lazım gəlirdi. Bunun üçün isə İspaniyada Rekonkistadan sonra müqəddəm şərtlər yaranmışdı. İspaniyanın birləşməsi katolik kralları Fernando de Araqonun və İsabella de Kastilyanın 1469-cu ildə baş tutan izdivacı ilə başlayır.

XV əsrin ortalarında İber yarımadasında yalnız 4 krallıq mövcud idi: Portuqaliya, Kastilya, Araqon və Navarra. Hər bir krallıq özünü orijinal hesab etsə də, bir-birlərinə yaxınlaşmağa üstünlük verirdilər. Aralarındakı fərqlərə baxmayaraq, bu krallıqlar vahid bir ittifaqın tərəfdarı idilər. Kastilya və Araqon

10 Rekonkista termini ispan və portuqal dillərindən tərcümədə “torpaqları müharibə vasitəsilə ələ keçirmək” mənasını verir. Rekonkista dövrü 711- 1492-ci illəri əhatə edir. Rekonkista dövrü Pireney yarımadasındakı torpaqları ispanlar, portuqallar və digər xristian xalqları müsəlmanlardan, eləcə də yəhudilərdən alaraq onları bu torpaqlardan qovdular.

ittifaqından sonra Kastilyanın İspaniyanı təşkil edən digər krallıqlar üzərindəki üstünlüyü tənqid olunmağa başlanır. Kataloniyalı tarixçilər Kastilyanı "ispan şəxsiyyəti"ni özününküləşdirməkdə ittiham etməyə başlayırlar. Belə ki, xanədanların ittifaqı zamanı ölkənin 80% əhalisini kastilyalılar və ərazinin 75% Kastilya təşkil edirdi.

İspaniyanı daim vahid şəkildə saxlamaq istəyən istər orta əsr xristian kralları, istərsə də müasir idarəçilər "vahid ispan milləti" ideyasından məharətlə istifadə etmişlər. Bu millətin əsas qoruyucu elementləri ispan dili, yəni Kastilyanın dili hesab olunan kastelyano və kilsə hesab edilirdi. X Alfonso tərəfindən kastelyano Kastilya krallığının rəsmi dili elan olunur. 1492-ci ildə katolik krallarının hökmranlığı dövründə Antonio de Nebrixanın "Kastelyan Dilinin Qrammatikası" adlı kitabının ilk nəşri işıq üzü görür. Artıq 1600-cü ildən başlayaraq bu dildən Zaraqoza, şərqi Araqon və şərqi Leonda geniş şəkildə istifadə olunur. Lakin Qalisiya, Asturias, Bask ölkəsi, Kataloniya, Baleares və Valensiyada kastelyano yalnız iki-üç əsr sonra önəmli rol oynamağa başlayır.

Məlum olduğu kimi, millət - tarixən müəyyən bir ərazidə yaşayan, iqtisadi münasibətlərə malik, bir çox hallarda eyni bir dinə tapınan, zaman-zaman soyca, dilcə, psixika ümumiliyi əsasında təşəkkül tapan və milli xarakterin, mədəniyyətin milli özünəməxsusluğunda təzahür edən sabit insan qrupu birliyidir. Bu tarixi kateqoriya İspaniyada etnogenez prosesini yaşayaraq yaransa da, ölkə özünün etnik-mədəni müxtəlifliyini də qorumuşdur. Navarra universitetinin professoru Fransisko Qonzalez İspaniyanın etnik müxtəlifliyinin modelini obrazlı şəkildə təsvir edərək göstərir ki, "İspaniya üç elementdən ibarətdir: Kastilya İspaniyası, Kastilyalaşmış İspaniya və Kastilyalaşmamış İspaniya". Onun fikrincə, köhnə və yeni Kastilya birlikdə müasir İspaniyanı təşkil edir. Araqon, Ekstremadura, Valensiya və Mursiya kastilyalaşmış İspaniyanı, Əndəlis, Baleares, Kataloniya, Qalisiya və Navarra kastilyalaşmamış İspaniyanı tərənnüm edir.

Müasir dövrümüzdə multikulturalizm dəyərlərini yaşada bilən İspaniyada Şərqi Avropa, MDB ölkələri, Cənubi Amerika və Şimali Afrikadan gəlmiş minlərlə miqrant yaşayır və bu reallıq onu etnik müxtəlifliyi ilə seçilən ölkələr sırasında saxlayır.

İspaniyanın etnik müxtəlifliyi onun multikultural dəyərlərini zənginləşdirsə də, eyni zamanda separatçı qüvvələri qidalandıran mənbə olaraq qalır. Məhz buna görə müasir dövrdə İspaniya Krallığında dövlətin vahidliyi

və ərazi bütövlüyü hələ də təhlükə altında qalmaqdadır. Mərkəzdənqaçma meylləri xüsusən Bask ölkəsində (Navarra), Kataloniyada geniş yayılmışdır və bu bölgələrdə millətçilik ideyaları güclüdür. Belə meyllərin qarşısının alınması və tənzimlənməsi ölkə Konstitusiyası vasitəsilə tənzimlənir. İlk növbədə Konstitusiya vahid millət məfhumunu əsas götürmüş və "İspan milləti" ifadəsi öz əksini 1978-ci il Konstitusyasının II maddəsində tapmışdır: *"Konstitusiya ispan millətinin qırılmaz birliyinə əsaslanır, bütün ispanların tək və bölünməz vətəni olub region və millətlərin muxtariyyət hüququnu təmin edir."*

Dövlətin Ali qanununda İspaniyada mövcud dillərin statusları göstərilmiş və Konstitusiyanın III maddəsində kastelyano dilinin dövlət dili olması ilə yanaşı digər yerli dillərə muxtar vilayət statusuna uyğun rəsmi dil kimi istifadə olunması hüququnun verilməsi da qeyd olunmuşdur. Beləliklə, dil məsələsi demokratik prinsiplər əsasında tənzimlənməklə separatçı qüvvələrin qarşısının alınması mexanizmini oynayır. Bu sırada 1978-ci il Konstitusiyasının 155-ci maddəsini xüsusilə qeyd etmək lazımdır. Bu maddə dövlətin əsas dayaqları təhlükə altında olduqda icra olunur. İlk dəfə bu maddə 2017-ci ildə Kataloniyanın özünün müstəqilliyini elan etməsindən sonra icra olunmuşdur. Belə ki, 2017-ci il oktyabrın 1-də separatçı qüvvələrin səyi nəticəsində İspaniyanın Katoloniya bölgəsində müstəqillik haqqında referendum keçirilmişdir. Seçkinin nəticələrinə görə, 90,09% seçici müstəqilliyə "hə" cavabı vermişdir. Jurnalist və siyasətçi olan Karles Puçdemont isə Katoloniyanın prezidenti seçilmişdir. Lakin bu referendumu haqlı olaraq qanunsuz sayan İspaniya hökuməti 2017-ci il oktyabrın 21-də 1978-ci ilin Konstitusiyasının 155-ci maddəsinin icrasına başlayır.

Bu maddəyə görə, mərkəzi hökumət muxtariyyatın maliyyə işlərini idarə edə, parlamenti buraxa və vəzifəli şəxsləri işdən azad edə bilər. 2017-ci il oktyabrın 27-də Kataloniya parlamenti birtərəfli qaydada öz müstəqilliyini elan edir. Bir neçə saat sonra isə İspaniya Krallığının Senatı 214 səslə 155-ci maddənin icrasının lehinə səs verir. Yalnız 47 nəfər əleyinə səs verir. Baş nazir Mariano Raxoyun bu məsələ ilə bağlı ilk tədbirləri Kataloniyanın prezidenti Karles Puçdemontu işdən azad etmək, parlementi buraxmaq və növbəti Kataloniya seçkilərini 21 dekabr tarixinə təyin etmək olur.

Dövlətin Ali qanununa daxil edilmiş 155-ci maddə separatist meyllərin qarşısını almaq mexanizmini tənzimləyir və İspaniya Krallığının dövlətçiliyi üçün yaranmış təhlükənin qarşısını alır. Kataloniya məsələsinin həlli İspaniyada

etnik-mədəni müxtəlifliyin tənzimlənməsi mexanizminin dövlətin sabitliyinin qarantı olduğunu göstərir. Bu mexanizm belə bir reallığı göstərir ki, çoxsaylı etnik qruplara muxtariyyət verən İspaniya Krallığı eyni zamanda özünün ərazi bütövlüyünü qoruyaraq,"dövlət içində dövlətin" yaranmasına imkan vermir və separatist qüvvələrin mərkəzdənqaçma meyllərinin qarşısını alaraq, yaranmış qeyri-sabit sosial-siyasi vəziyyəti qanunla tənzimləyir. Eyni zamanda etnik-mədəni müxtəlifliyin tənzimlənməsi proseində dövlət ideoloji vasitələrdən də istifadə edərək, cəmiyyətdə "vahid millət", "birlik" ideyalarını təbliğ edir və dövlətin ərazi bütövlüyünü qoruyur.

Beləliklə, İspaniyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi dövlətin Ali qanununun qəbul etdiyi qaydalara əsasən aparılır. İspaniya Krallığında kastelyan olmayan xalqlar dövlətin qəbul etdiyi etnik-mədəni müxtəlifliyin tənzimlənməsi mexanizminə uyğun olaraq idarə olunur, bu ölkədə fərqli etnik və mədəni qrupların hüquq və azadlıqları qanun tərəfindən qorunur, mərkəzdənqaçma meyllərinin qarşısı qanunla alınır və bununla da cəmiyyətdə qanunun aliliyinin vacibliyi təmin edilir.

## 10.4.9.İtaliyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi

Müasir dünya məkanında universal qloballaşma və inteqrasiya çərçivəsində, etnik-mədəni müxtəliflik problemi artıq yeni bir məna qazanmışdır. Hal-hazırda bütün dünya ölkələri bu problemin həllini tapmağa calışır. Bu məsələdə böyük dünya dövlətlərindən olan İtaliyanın təcrübəsi heç də birmənalı deyildir.

İtaliya Cənubi Avropanın ən böyük dövlətidir. İtaliya doğum səviyyəsi, əhalisinin təbii artımı ilə digər Avropa ölkələrindən nisbətən fəqlənir.

Qədim dövrdən başlayaraq İtaliya sonradan ölkənin qədim xalqlarına aid edilən müxtəlif xalqların məskunlaşdığı məkan olmuşdur. Onların arasında üstünlük təşkil edənlər italiklər idi. Bu müxtəlif xalqların heç də hamısı bir- birinə linqvistik və etnik baxımdan bağlı deyildi. Onlardan bəziləri italyan dilində danışır, digərləri yunan müstəmləkəçilərinin gəlməsi nəticəsində yunan dilində danışırdı. Digər xalqlar isə başqa Hind-Avropa qrupuna aid olan (liqur, venet, lepont, messap) və ya Hind-Avropa dillərinə aid olmayan xalqlar idi (etrussklar,

retsklar). İşğallar, fəal müstəmləkələşmə və yerli əhalinin assimilyasiya siyasəti nəticəsində romalılar Roma imperiyasının Avropa hissəsinin əsas əhalisinə çevrildilər. İtaliya əyalətinin romalı əhalisi müasir italyan millətinin formalaşmasında əsas təməl oldu.

Bu gün İtaliyada etnik qrup – köklü italyanlardır. İtaliyadakı milli azlıqlar uzun əsrlərdən bəri müəyyən ərazidə kompakt yaşayan qruplardır. Məsələn, Friuli-Venesiya-Culiya bölgəsində friullar, Trentino-Alto-Adice bölgəsində onlara dil baxımından qohum olan, elə həmin ərazidə yuxarı alman dialektlərindən birində danışan iki yüz mindən çox ladin yaşayır. Ölkənin şimal-qərbində, Pyemontda franko-provonsalların (4,5 min) məskunlaşdığı qruplar, keçmiş Yuqoslaviya ölkələri ilə sərhəddə sloveniyalılar və xorvatların yaşadığı kiçik rayonlar var. İtaliyanın cənub-şərqində, Moliza bölgəsində başqa bir kiçik xorvat qrupu (4, 5 min) da mövcuddur. Cənubi İtaliya və Sicilya adasında albanların koloniyaları yerləşir (təxminən 80 min). Cənubi İtaliyada həmçinin yunanlar (30 min), Sardiniyanın şimal-qərbində (Alqyero şəhərində) katalonlar (15 min) yaşayırlar. San –Marinonun da əhalisini italyanlar təşkil edir (15 min).

Milli azlıqlara gəldikdə, mədəniyyətlərinin, dillərinin və adət-ənənələrinin qorunması və inkişafı üçün onlara əlavə hüquqlar da verilmişdir. Konstitusiyanın əsas prinsipi belədir: *«Bütün vətəndaşlar eyni hüquqlara malikdirlər. Gender, irq, dil, din, siyasi inanclar, şəxsi və ya sosial status fərqi qoyulmadan onlar qanun qarşısında bərabərdirlər».* Məsələn, İtaliya Respublikası Konstitusiyası dil azlıqlarının hüquqlarını qoruyan az sayda Avropa dövlətlərindən biridir. Konstitusiyanın 6-cı maddəsi (*«Müvafiq normalar vasitəsilə Respublika dil azlıqlarını hüquqlarını qoruyur”*) xüsusi statuslu italyan bölgələrində tətbiq edilir. Qanun həmçinin digər dil azlıqlarının (albanlar, katalonlar, yunanlar, almanlar, slovenlər, xorvatlar, fransız dilindən istifadə edən franko-provonsallar, friullar, ladinlər, oksitanlar, sardlar) da mövcudluğunu qəbul edir.

Qanunda bu azlıqların dillərinin tədrisi üçün məktəblərdə xüsusi proqramlar da nəzərdə tutulmuşdur. Məsələn, Bolzano əyalətində alman dilinin tədrisini anadilli müəllimlər həyata keçirirlər. Ladi dilində də məktəblər vardır.

Konstitusiyada həmçinin etnokonfessial xarakterli məsələlər də öz əksini tapmışdır: *“Dövlət və Katolik kilsəsi özlərinə aid olan sahələrdə müstəqil və suverendirlər. Onların münasibətləri Lateran müqaviləsinə əsasən tənzimlənir. Bütün dini icmalar qanun qarşısında bərabərdir. Katolisizmdən fərqlənən bütün*

*dinlər İtaliya hüququna zidd olmadığı təqdirdə öz nizamnamələri əsasında təşkilat qurmaq hüququna malikdir. Onların dövlətlə münasibətləri müvafiq təşkilatlarla olan qanunla müəyyən edilmiş müqavilələr əsasında tənzimlənir".*

Bütün Avropa ölkələrinin dünyəviliyə keçməsinə baxmayaraq, bu təsir ölkədən ölkəyə dəyişir. Bu mənada İtaliya istisnadır, çünki silahsız modernləşmə ilə üzləşən digər ölkələrdən fərqli olaraq, bu vəziyyət kilsə modernləşdirmə strategiyasıdır.

İtaliyada milli dövlətinin yaranmasının və katolikliyin (əhalinin əksəriyyətinin dinidir. – Red.) birləşməsindən sonra «ölkəni birləşdirmək üçün mümkün olan sement» məhz bu idi. Yeni ölkənin dini etiqadı İtaliyanın tarixində və milli kimliyin formalaşmasında həlledici «sözsüz bir qayda» faktı rolunu oynadı.

Katolik kilsəsinin imtiyazlı mövqeyi yalnız Konstitusiya və laiqlik (dünyəvilik) prinsipi ilə deyil, eyni zamanda katoliklik yalnız bir din deyil, mədəni və milli irsin təməli olan vətəndaşların zehnində də mövcudiyyətini qoruyub saxlayır. Bu da İtaliyadakı dini və mədəni dəyərləri Konstitusiyaya görə, yəni dünyəvi baxımdan deyil, milli-dini və mədəni-katolik ənənələrinə görə qəbul edilir.

Konstitusiyadakı kilsə-dövlət münasibətlərinə əlavə olaraq, konvensiyalar xüsusi bir din və dövlət orqanları tərəfindən irəli sürülən və müəyyən bir cəmiyyətdə ən böyük dəyəri təmsil edən, başqa bir sözlə, «hökumət üstünlüyü», «ictimai bir yaxşılıq» kimi əks olunur.

Hakim kilsənin (katoliklik) çox güclü mövqeyini nəzərə alsaq, bütün qeyri-katolik olmayan din və dini qurumların sayı azdır. Katolik kilsəsi demək olar ki, bütün əhalini (80% - 90%) əhatə edir. Müxtəlif mənbələrə görə əhalinin 2% -dən 5%-ə qədər olan hissəsi dini azlıqlara mənsubdur. Yalnız 1980-ci illərin ortalarında İtaliya hökumətinin imzaladığı sazişlər az sayda dini azlıqlarla imzalanmışdır. Daha iki dini təşkilatla qərarlar qəbul edilsə də, bu öz təsdiqini tapmamışdır (Buddistlər və Yəhova şahidləri).

İtaliyadakı immiqrantların ümumi sayı 7.5% təşkil edirdi. Bunların 2.5%-i qeyri-katolik dini azlıqlara aiddir (2005-2012-ci illər üçün). Son illərdə ölkəyə gələn miqrantların böyük əksəriyyətini müsəlmanlar və pravoslavlar təşkil edir. Hazırda onların sayı İtaliyada təxminən bir milyon yarımdır.

Son bir neçə il ərzində qeyri-katolik dindarlıq ideyası gözlənilməz dərəcədə

dəyişdi. Bu vəziyyət əslində bəzi dinlərin dinamikası ilə də izah edilə bilər. Belə ki, bəzi dinlər öz ardıcıllarını səfərbər etmək qabiliyyətinə malikdirlər ki, bu da onlara müvəffəqiyyət qazandırır. Bunlara İslam, Pravoslavlıq və nisbətən az dərəcədə Buddizm daxildir. Digər dinlərin dinamikası zəifdir. Onların genişlənməyə meylləri güclü deyil. Onlar (yəhudilər, yevangelist kilsələr, Yəhova şahidləri və s.) sadəcə öz səviyyələrini qoruyub saxlayırlar.

İtaliyada kiçik yəhudi icmaları mövcuddur. Onların ən böyüyü əsas sinaqoqun olduğu Roma şəhərində yerləşir. Ölkədəki yəhudilərin ümumi sayı 36 min nəfərə çatır. Onlar arasında bir zamanlar Siciliyadan çıxarılmışların qədim əcdadları da vardır. Ən böyük icmalar Roma (15000 nəfər) və Milandadır (10000 nəfər). Turin, Florensiya, Leggorn (Livorno), Bolonya, Genoa, Trieste və Venesiyada da icmalar vardır. Müasir italyan yəhudilərinin əksəriyyəti sefard yəhudiləridir. Onların əcdadları 1492-ci ildə sürgündən sonra İspaniyadan gələn yəhudilərdir. İtaliyanın yəhudi əhalisi Şərqi Avropadan olan yəhudi qaçqınların sayəsində artıb çoxalmışdır. 1960-cı illərin sonları, 1970-ci illərin əvvəllərində təxminən 30 min liviyalı yəhudinin İtaliyaya köçürülməsi və ölkələrindəki mövcud şəraitə görə italyan koloniyası yaradıldı. Onların həyat şəraitləri daha da pisləşdi.

Rəsmi yəhudi icmasının təşkilatı olan Union delle Communita Ebraiche Italiane Roma şəhərində yerləşir. Bu təşkilat bir çox yəhudi cəmiyyətini və təşkilatlarını özündə birləşdirir. İtaliyanın demək olar ki, bütün şəhərlərində və şəhər ətrafında sinaqoqlar vardır. Lakin onların bəziləri yalnız festival və ya böyük bayram günlərində işləyirlər. Yaxın tarixlərdə Habad hərəkatı İtaliya yəhudilərinin dini həyatında mühüm bir qüvvəyə çevrilmişdir. 1904-cü ildə tikilmiş Roma mərkəzi sinaqoqu İtaliyadakı əsas yəhudi dini icmasının dini məkanıdır. Bu, 1986-cı ildə Papanın səfəri sayəsində tarixə düşmüş sinaqoqdur.

İtaliyanın cənubunda dini dəyərlərini qoruyan bəzi etnik icmalar da vardır. Yunanlar və rus mühacirləri ilə birlikdə pravoslavlıq son iki əsrdir ki, İtaliyada qorunub saxlanılır. Müqəddəs taxtın burada yerləşməsinə baxmayaraq katolik ölkəsinin ictimai həyatında kiçik bir yer tutur.

İtaliyada buddistlərin sayı 60000 nəfərdir. İtaliyadakı buddizm «İtalyan Buddist Birliyi» və «İtalyan Budizm İnstitutu - Soko Gakkai» dərnəkləriylə təmsil olunur.

İtalyan Buddist Birliyi Assosiasiyası Teravada, Mahayana və Vajrayana

buddist ənənələrinin italiyalı tərəfdaşlarını təmsil edir və 1985-ci ildə Milanda qurulan UBI Buddistlər Birliyinin üzvüdür. 1991-ci ildən İtaliya Respublikasının Prezidenti tərəfindən tanınır. 2014-cü ildə Avropanın ən böyük buddist mərkəzi Milanın cənubundakı Korsiko şəhərində açılmışdır.

İtalyan Buddizm İnstitutu Soka Gakkai, Nitiran Buddizm ənənəsini davam etdirənləri təmsil edir. 1998-ci ildə təsis edilmişdir. 2000-ci ildə İtaliya Respublikasının Prezidenti və İtaliya Baş naziri tərəfindən tanınmışdır.

İtaliyaya İslam ölkələrindən immiqrantların sayının çox olması orada müsəlman cəmiyyətin formalaşmasına səbəb oldu. İtaliyadakı müsəlmanların böyük əksəriyyəti Asiya və Afrikadan olan immiqrantlardır. Müxtəlif mənbələrə görə, İtaliyada 1.2-1.6 milyona qədər müsəlman yaşayır ki, bu da ölkə əhalisinin təxminən 2.5 %-ni təşkil edir. İtaliyadakı müsəlmanların böyük əksəriyyəti sünni məzhəbə mənsubdur. Buradakı şiələrin sayı isə təxminən 15 min nəfərdir.

Katolik dünyasının tam mərkəzində müsəlman icmalarının formalaşdırılması prosesi heç də asan məsələ olmamışdır. İtalyan müsəlmanlarının ikinci nəsli artıq italyan dilində sərbəst danışan, orta və hətta ali təhsil alan insanlardır. 1971-ci ildə ölkənin ilk müsəlman təşkilatı Perugia Universitetində təhsil alan ərəb tələbələri tərəfindən yaradılmışdı. 1970-ci illərdə isə İtaliyanın İslam Mədəniyyət Mərkəzi açılmışdı. Mərkəzin təşəbbüsü ilə yerli İtaliyada hakimiyyət orqanları və Vatikanla ilk məscidin inşası ilə bağlı danışıqlar başladı. Roma bələdiyyəsi tərəfindən məscidin tikintisi üçün ərazinin ayırılması burada İslam dininin rəsmi şəkildə tanınması kimi qəbul edildi. Səudiyyə və Mərakeş təsirləri olan Romadaki İslam Mədəniyyət Mərkəzi əsasən 1974-cü ildən bəri İslam təşkilatına çevrilmişdi. Bu təşkilat 5 min nəfərlik yerlə Avropanın ən böyük məscidlərindən birinə sahibdir. O, özündə 25 islam cəmiyyətini birləşdirir. İtaliya İslam Şurası 1999-cu ildə təsis edilərək İtaliyanın İslam Mədəniyyət Mərkəzi və İtaliya İslam Birliyi və Təşkilatları İttifaqı tərəfindən yaradılmışdır. İtaliya İslam Şurasının yaradılmasının əsas məqsədi özünü buradakı müsəlmanların vahid birliyi kimi təqdim etməkdir.

İtaliyanın İslam Birliyi və Təşkilatları İttifaqı 1990-cı ildə yaradılmışdır. Bu mərkəz ölkədə müsəlmanların maraqlarını qoruyan birləşmiş təşkilat kimi çıxış etmək üçün müsəlman icması ilə hökumət arasında müqavilə imzaladı. Mərkəz 200-300 müsəlman birliyini və təxminən 70-120 ibadətgahı bir araya gətirdi.

İtaliyanın Daxili İşlər Naziri Cuzeppe Pişanın təşəbbüsü ilə 2005-ci ildə İtalyan İslam Məsləhət Şurası yaradıldı. Bu Şura müxtəlif müsəlman mənəvi və dünyəvi təşkilatının 16 nümayəndəsindən ibarətdir. Onların yarısı italiyalıdır.

## 10.5. Müasir dövrdə multikulturalizm və tolerantlığa dair beynəlxalq sənədlər

VIII fəsildə qeyd olunduğu kimi, multikulturalizm siyasətini aparan dövlət milli azlıqların hüquq və azadlıqlarının qorunması sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, bu məsələ ilə bağlı beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş sənədlərə öz münasibətini bildirir. Müasir dövrdə multikulturalizm və tolerantlığa dair BMT, Avropa Şurası, ATƏT və digər təşkilatlar tərəfindən çoxsaylı sənədlər qəbul olunmuşdur.

BMT Baş Assambleyasının 10 dekabr 1948-ci ildə qəbul etdiyi "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi" multikulturalizm və tolerantlıqla birbaşa əlaqəsi olmasa da, bu mühüm məsələ ilə qəbul olunan ilk beynəlxalq sənədlərdən biridir. Belə ki, bu Bəyannamə yalnız əsas insan hüquq və azadlıqlarının deyil, həm də multikulturalizm və tolerantlıq prinsiplərinin rüşeymini təşkil edir. Elə buna görə də, multikulturalizm və tolerantlıqla bağlı digər beynəlxalq sənədlər Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin genişləndirilmiş forması və ya ətraflı şərhi kimi də qəbul edilir. Bəyannamədə bütün sahələr üzrə insanların hüquq bərabərliyi bəyan edilir və burada din, əqidə azadlığı ilə bağlı ayrıca maddə öz əksini tapır. Daha konkret desək, Bəyannamənin 18-ci maddəsində qeyd edilir ki, *"Hər bir şəxs fikir, vicdan və din azadlığı hüququna malikdir; bu hüquqa öz dinini və etiqadını dəyişmək azadlığı və öz dininə və inanclarına uyğun təhsil, dua və dini və ritual ayinlər zamanı təklikdə və ya başqaları ilə birlikdə, aşkar və ya fərdi şəkildə etiqad etmək azadlığı daxildir."*

Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən sonra bir sıra beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də insan haqlarının müxtəlif aspektlərinə, o cümlədən milli azlıqların hüquq və azadlıqlarının qorunmasına dair bir neçə sənəd qəbul edilmişdir. Belə sənədlərdən Avropa Şurası tərəfindən 4 noyabr 1950-ci ildə qəbul olunmuş *"İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi*

*Konvensiyasını",* BMT-nın Baş Assambleyası tərəfindən 21 dekabr 1965-ci ildə qəbul olunmuş *"İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanı",* BMT-nın Baş Assambleyası tərəfindən 25 noyabr 1981-ci ildə qəbul olunmuş *"Dinə, yaxud əqidəyə görə dözümsüzlük və ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Bəyannaməni*", Avropa Şurasının Nazirlər Komitəsinin 5 noyabr 1992-ci il tarixində 478-ci iclasında konvensiya qismində qəbul olunmuş *"Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyasını",* BMT-nın Baş Assambleyası tərəfindən 18 dekabr 1992-ci ildə qəbul olunmuş *"Milli yaxud etnik, dini və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında Bəyannaməni"*, BMT-nin Baş Assambleyası tərəfindən 20 dekabr 1993-cü ildə qəbul olunmuş *"Dini dözümsüzlüyün bütün formalarının ləğv edilməsi haqqında Qətnaməni",* Avropa Şurası tərəfindən 1 fevral 1995-ci ildə qəbul olunmuş *"Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasını"*, UNESKO tərəfindən 16 noyabr 1995-ci ildə qəbul olunmuş *"Tolerantlıq prinsipləri haqqında Bəyannaməni"*, 2 noyabr 2001-ci ildə qəbul olunmuş *"Mədəni müxtəliflik haqqında ümumdünya Bəyannaməsini",* 20 oktyabr 2005-ci ildə qəbul olunmuş *"Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiyanı*" göstərmək olar.

BMT-nın Baş Assambleyası tərəfindən 21 dekabr 1965-ci ildə qəbul olunmuş *"İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya"* irqi ayrı-seçkiliyin bütün mümkün formalarının, o cümlədən etnik və dini ayrı-seçkiliyin, cəmiyyətin sosial-iqtisadi, mədəni inkişafını ciddi şəkildə məhdudlaşdıran amillər olaraq aradan qaldırılmasının zəruriliyini göstərir.

BMT-nın Baş Assambleyası tərəfindən 25 noyabr 1981-ci ildə qəbul olunmuş *"Dinə, yaxud əqidəyə görə dözümsüzlük və ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Bəyannamə"* din və əqidə azadlığının təmin olunması və qorunub saxlanılmasına, dözümlülüyün və qarşılıqlı hörmətin bərqərar olmasına, eləcə də ayrı-seçkiliyin ləğv olunmasına yönəlmiş beynəlxalq sənəddir. Bu sənədi BMT-nın Baş Assambleyası tərəfindən 20 dekabr 1993-cü ildə qəbul olunmuş *"Dini dözümsüzlüyün bütün formalarının ləğv edilməsi haqqında Qətnamədən*" fərqləndirmək lazımdır. 1993-cü il Qətnaməsi 1981-ci il Bəyannaməsini bir daha təsdiq olunması baxımından əhəmiyyət daşıyır və hər bir şəxsin fikir, vicdan, ifadə və din azadlığına malik olduğunu tanıyır, əqidəyə

görə dözümsüzlük və zorakılıq hallarının, habelə qadınlara qarşı diskriminasiya hallarının qarşısının alınmasına yönəlmişdir.

Multikulturalizm siyasəti ilə bağlı digər mühüm bir sənəd BMT-nın Baş Assambleyası tərəfindən 18 dekabr 1992-ci ildə qəbul olunmuş *"Milli yaxud etnik, dini və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında Bəyannamə"ni* xüsusilə ilə qeyd etmək lazımdır. Bəyannamə yuxarıda adı çəkilən qruplara mənsub insanların etnik-mədəni dəyərlərinin qorunmasının vacibliyini göstərir.

Multikulturalizm və tolerantlıqla bağlı Avropa Şurası tərəfindən də bir sıra mühüm sənədlər qəbul edilmişdir. 4 noyabr 1950-ci ildə qəbul olunmuş *"İnsan hüquqları və əsas azadlıqların müdafiəsi Konvensiyası"* birbaşa bu siyasətlə bağlı olan sənəd olmasa da, onun bir çox müddəaları multikultural cəmiyyətin mövcud ola bilməsi üçün fundamental hüquqları özündə əks etdirir. Misal üçün Konvensiyanın 9-cu maddəsini ("*Fikir, vicdan və din azadlığı"*), 14-cü maddəsini ("*Ayrı-seçkiliyin qadağan olunması"*) göstərmək olar.

Avropa Şurası tərəfindən 1 fevral 1995-ci ildə qəbul olunmuş *"Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası"* da bu qəbildən olan mühüm sənədlər sırasındadır. Çərçivə Konvensiyası milli azlıqların hüquqlarının müdafiəsinə yönəlmiş ilk beynəlxalq müqavilədir və özündə sırf milli azlıqlara şamil olunan qarant hüquqları müəyyən edir. Misal üçün öz dilində danışmaq hüququ, eyni etnik-mədəni, dil və din identikliyinə aid şəxslərlə sərbəst ünsiyyət qurmaq hüququ və s..

*"Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası"*nın qəbul edilməsində əsas məqsəd milli azlıqlar ilə titul xalq arasında həqiqi bərabərliyə nail olmaq, ərazi bütövlüyü və milli suverenlik prinsiplərini rəhbər tutmaqla, milli fərdiliyi qorumaq və inkişaf etdirməyə imkan verən şərait yaratmaqdır. Bu qədər həssas bir sahədə mürəkkəb hüquqi və siyasi maneələr olduğundan Çərçivə Konvensiyası milli azlıq konsepsiyasına dəqiq anlayış verməmiş, ancaq aşağıdakı kriteriyaları irəli sürmüşdür. Belə kriteriyalardan din, dil, ənənələr və mədəni irsi göstərmək olar.

Çərçivə Konvensiyası dövlətlərin üzərinə milli azlıqlar siyasəti ilə bağlı bir çox öhdəliklər göymasına baxmayaraq, onun hər hansısa bir müddəası dövlətin ərazi bütövlüyü və siyasi müstəqillik prinsiplərinə zidd şəkildə şərh oluna bilməz.

Avropa Şurasının Nazirlər Komitəsinin 5 noyabr 1992-ci il tarixində 478-

ci iclasında konvensiya qismində qəbul olunmuş *"Regional və ya Azlıqların Dilləri üzrə Avropa Xartiyası"* milli azlıqların dil hüquqlarının qorunmasına yönəlmiş bir sənəddir. Lakin VIII fəslin əvvəlində qeyd olunduğu kimi, Avropa Şurasının bir neçə ölkəsi bu sənəddə olan müəyyən müddəaların onların milli maraqlarına uyğun gəlmədiyinə görə haqlı olaraq indiyədək onu ratifikasiya etməmişdir.

Multikultural cəmiyyətin formalaşması və onun qorunub saxlanması istiqamətində UNESKO tərəfindən qəbul olunmuş üç mühüm sənədi də qeyd etmək lazımdır: 16 noyabr 1995-ci ildə qəbul olunmuş *"Tolerantlıq prinsipləri haqqında Bəyannamə"*, 2 noyabr 2001-ci ildə qəbul olunmuş *"Mədəni müxtəliflik haqqında ümumdünya Bəyannaməsi"* və 20 oktyabr 2005-ci ildə qəbul olunmuş *"Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"*.

*"Tolerantlıq prinsipləri haqqında Bəyannamənin*" 1-ci maddəsində tolerantlığa belə bir tərifi verilmişdir. *"Tolerantlıq dünyamızın mədəniyyətlərinin zəngin müxtəlifliyinə hörmət, bu müxtəlifliyin qəbul olunması və dəyərləndirilməsidir. Tolerantlıq- müxtəliflikdə harmoniyadır"*.

Tolerantlıq yalnız mənəvi öhdəlik deyil, eyni zamanda hüquqi bir məcburiyyətdir. Bu Bəyannaməyə əsasən, hər il 16 noyabr tarixi bütün dünyada "Dünya Tolerantlıq Günü" kimi qeyd olunur.

*"Mədəni müxtəliflik haqqında ümumdünya Bəyannaməsi"* mədəni müxtəliflik və qarşılıqlı dialoq haqqında yeni anlayışları özündə birləşdirən 20 maddədən ibarət mühüm və ümumbəşəri bir sənəd hesab olunur. Bəyannamənin "Mədəni müxtəliflik, bəşəriyyətin ümumi irsi" adlı 1-ci maddəsində mədəni müxtəlifliyin əhəmiyyətinə dair deyilir: *"Mübadilənin, innovasiyanın və yaradıcılığın mənbəyi olan mədəni müxtəliflik təbiət üçün biomüxtəlifliyin zəruri olduğu kimi bəşəriyyət üçün zəruridir. Buna görə də mədəni müxtəliflik bəşəriyyətin ümumi irsidir və o, indiki və gələcək nəsillərin rifahı naminə tanınmalı və təsdiq olunmalıdır"***.** Bəyannamənin 3-cü bəndində isə qeyd olunur: "*Mədəni müxtəlifliyin qorunması - insanın şərəf və ləyaqətinə hörmət olunması baxımından bir məcburiyyətdir"*. Bu Bəyannamədən irəli gələrək hər il BMT Baş Assambleyasının 2002-ci il 20 dekabr 57/249 saylı Qətnaməsinə əsasən 21 may "Beynəlxalq Mədəni Müxtəliflik Günü" kimi qeyd olunur.

*"Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiya"*ya əsasən, mədəni özünüifadə dedikdə, ayrı-ayrı fərdlərin,

qrupların və cəmiyyətlərin yaradıcılığının nəticəsi olan  və mədəni məzmun daşıyan özünüifadə nəzərdə tutulur. Bu Konvensiyanın qəbul edilməsində əsas məqsəd mədəniyyətlərarası dialoqu təşviq etməklə müxtəlif mədəniyyətlərin inkişaf etməsi və qarşılıqlı şəkildə bir-birinə səmərəli təsir imkanı yaratmaqdır.

Beləliklə, yuxarıda qeyd olunan sənədlər multikulturalizm və tolerantlığı təşviq və təbliğ etməklə dünyada dözümsüzlüyün və ayrı-seçkiliyin aradan qaldırılmasının zəruriliyini göstərir, etnik-mədəni müxtəlifliyin tənzimlənməsində multikulturalizmin səmərəli siyasət olduğunu vurğulayır.

# Fəslə aid suallar

1. Alman politoloqu Kristian Yopkenin fikrincə, Kanada və ya Avstraliyada multikulturalizm bütün cəmiyyət üçün kimlik seçimi olduğu halda, Avropada multikulturalizm yalnız immiqrantlara yönəlib. Bu, nə ilə izah olunur?
2. Niyə müsəlman mühacirlər Qərb ölkələrində multikulturalizmə qarşı çıxışlarda əsas tənqid hədəfinə cevrilirlər?
3. Avropa Şurasının 2010-cu ildə miqrant siyasətinə dair hazırladığı təlimatda immiqrantlarla bağlı Qərb ölkələrində hansı fikirlərin geniş yayıldığı qeyd olunur?
4. Flerasa görə, multikulturalizm əleyhdarları hansı qruplardan ibarətdir?
5. Qərbi Avropa ölkələrində etnik-mədəni müxtəlifliyin tənzimlənməsində hansı siyasətə üstünlük verilir? Nümunələrlə izah edin.
6. Sizcə, immiqrantların Qərb cəmiyyətinə inteqrasiyasını çətinləşdirən amillər hansılardır?
7. Sərt assimilyasiya dedikdə nə başa düşülür?
8. Niyə immiqrant qəbul edən Qərb ölkələri dini müxtəlifliklə bağlı məsələdə orta mövqe tutmağa üstünlük verir?
9. Qərbi Avropada hansı ölkələri etnik-mədəni müxtəlifliyin tənzimlənməsi sahəsində nümunəvi siyasət yürüdən ölkə kimi göstərmək olar? Niyə?
10. Niyə islamofobiya Qərb ölkələrində dözümsüzlüyün, ksenofobiyanın və ayrı-seçkiliyin geniş yayılmış formalarından biri hesab olunur?
11. İslamofobiya nədir?
12. Niyə səlib yürüşləri islamofobiyanın ilk təzahür formalarından hesab olunur?
13. İslamofobiyanın meydana gəlməsi hansı tarixi dövrə aiddir?
14. Niyə Samuil Hantinqton "sivilizasiyaların toqquşması" haqqında hipotezi müasir dövrdə islamofobiyanın nəzəri-ideoloji əsasını təşkil edir?
15. Müasir dövrdə Qərb ölkələrində islamofobiya meyllərinin güclənməsi özünü nədə büruzə verir?
16. Avrabia nəzəriyyəsinin məzmunu nədir?
17. "Antisemitizm" termini ilk dəfə nə vaxt istifadə olunmuşdur?

18. Niyə semit xalqlarına yəhudilərlə yanaşı ərəblər, assuriyalılar, aramilər və digər xalqlar da aid olduqları halda, müasir dövrdə antisemitizm anlayışı yalnız yəhudilərə qarşı ayrı-seçkiliyin və dözümsüzlüyün bir forması hesab olunur?
19. Əksər alimlərin fikrincə, yəhudilərə qarşı ilk kütləvi qırğın hansı şəhərdə baş vermişdir?
20. Orta əsrlərdə Avropada sadə və kasıb əhalinin yəhudilərə qarşı nifrəti nədən qaynaqlanırdı?
21. XVI əsrdən başlayaraq bir çox Avropa dövlətlərində yəhudilərin məcburi şəkildə məskunlaşdırıldığı və təcridetmə zonasına çevrildiyi xüsusi məhəllələr necə adlanırdı?
22. Çar Rusiyasında "Oturaqlıq hüdudları"nın yaradılma məqsədi nədir?
23. "Qanlı iftiralar" nədir? Bu haqda danışın və misallar göstərin.
24. Birinci dünya müharibəsindən sonra Almaniyada antisemitizmin tüğyan etməsinin səbəbi nə idi?
25. "Holokost" sözünün bir soyqırım aktı kimi tərifini verin.
26. Müasir dövrdə Ermənistanda antisemitizmin geniş vüsət almasına dair misallar göstərin.
27. Kanada hökuməti tərəfindən aparılan multikulturalizm siyasətinin əsas məqsədi nədir?
28. Multikulturalizm siyasəti çərçivəsində Kanada hökuməti hansı təşəbbüsləri irəli sürmüşdür?
29. Kanada hökumətinin bu ölkədə multikulturalizm siyasətinin inkişafına yönəlmiş "cəmiyyətin bütün sahələrində iştirak etmək üçün burada yaşayan bütün xalqların nümayəndələrinə mədəni baryerləri aşmaqda yardım göstərmək" təşəbbüsünü necə başa düşürsünüz?
30. 1980-ci illərdə Kanadada meydana gələn bərabərlik multikulturalizmi dövrünün əsas xüsusiyyətləri nədən ibarətdir?
31. Kanada multikulturalizminin 1990-cı illərdə başlanan yeni dövrünün əsas xüsusiyyətləri nədən ibarətdir?
32. Kanada hökumətinin 2008-ci ildə qəbul etdiyi "İcmaların Tarixi Tanınması" adlı proqramın məqsədi nədən ibarətdir?
33. Ağ Avstraliya siyasəti nədir?

34. Avstraliyada aparılan multikulturalizm siyasətinin əsas istiqamətləri hansılardır?
35. Avstraliyada yaşayan miqrantlar hansı ölkələrdən bura köçmüşlər?
36. Hansı faktorlar Avstraliyanın multikultural mühitini zənginləşdirir?
37. Avstraliyada multikulturalizm siyasəti konsepsiyasının prinsipləri nədən ibarətdir?
38. Avstraliyada qəbul olunmuş "Harmoniyada Yaşamaq" adlı proqramın əsas məqsədi nədən ibarətdir?
39. Avstraliyada yaradılmış "İmmiqrasiya və Sərhəd Mühafizə" departamentinin funksiyaları nədən ibarətdir?
40. 2016-cı ildə Avstraliyada təsis olunmuş "Sosial Birlik, Harmoniya və Təhlükəsizlik üzrə Milli Fəaliyyət Planı"nın əsas məqsədi nədir?
41. 2010-cu ildə Avstraliyada qəbul olunmuş "Müxtəliflik və Sosial Birlik Proqramı"nın əsas məqsədi nədir?
42. Hansı fakta əsasən, müasir dövdə ABŞ dünyanın ən çoxmədəniyyətli ölkələrindən biri hesab olunur?
43. ABŞ-da yaşayan xalqlar neçə qrupa bölünür? Onlar hansılardır?
44. Niyə bəzi analitiklər ABŞ-ı "Protestant xalq" və ya "Protestanlıq prinsipləri ilə qurulan dövlət" adlandırırlar?
45. ABŞ-da tətbiq olunan "əridən qazan" yanaşması üzərində qurulan siyasətin əsas məqsədi nədir?
46. ABŞ-ın multikulturalizm siyasətinin əsas hədəfi nədir?
47. Müasir dövrdə Avropa multikulturalizm siyasətinin dinamikasını təşkil edən amillər hansılardır?
48. Böyük Britaniyada etnik-mədəni müxtəlifliyin təmin edilməsi konsepsiyasının əsas elementləri nədir?
49. Böyük Britaniya multikulturalizm siyasətini Avropa multikulturalizmindən fərqləndirən cəhətləri təhlil edin.
50. Fransada etnik-mədəni müxtəlifliyin tənzimlənməsi konsepsiyasının əsas dinamikası nədən ibarətdir?
51. Fransanın respublikaçı ideologiyası ilə multikulturalizm arasındakı münasibətləri şərh edin.
52. Fransada multikulturalizm siyasəti və dünyəvilik prinsipi arasındakı

ziddiyətlər nədən ibarətdir?

53. Avropada multikulturalizm siyasətinin iflasa uğramasının əsas səbəblərini izah edin.
54. Almaniyada etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin əsasında niyə immiqrantlar dayanır?
55. Almaniyada yerli milli azlıqlar qrupuna hansı xalqlar daxildir?
56. Almaniyada hansı dinlərin nümayəndələri yaşayır?
57. Almaniyanın Daxili İşlər, İnşaat və İcma üzrə Federal Nazirliyi milli azlıqların hansı xüsusiyyətlərini qeyd edir?
58. Almanyanın kansleri Angela Merkel multikulturalizmin bu ölkədə iflasının səbəbini nədə görür?
59. Müasir dövrdə Almaniyanın ictimai rəyində müsəlmanlara münasibət necədir?
60. Hollandiyada miqrantlar üçün əlverişli şəraitin olması nə ilə izah olunur?
61. Azlıqlara dair siyasət sənədinin (*Minderhedennota) məqsədi nə idi? Bu sənəd digər Avropa ölkələrində qəbul edilmiş eyni məzmunlu sənədlərdən nə ilə fərqlənir?*
62. "Allochtenenbeleid" (İmmiqrant siyasəti) adlı sənəd, "Azlıqlara dair siyasət" sənədi və "Etnik azlıqların inteqrasiyası siyasətinin Konturları" adlı sənəd arasında fərqli və oxşar cəhətləri göstərin.
63. Holandiyada 1974-cü ildə "İbtidai Təhsil haqqında" qanuna edilən dəyişikliklərin miqrantlar üçün əhəmiyyəti nədən ibarətdir?
64. Holandiyada 1990-ci illərdə azlıqlarla bağlı siyasətdə baş verən dəyişikliklərin səbəbi nə idi?
65. Niyə 1980-ci illərdə Holandiyada sənayenin yenidən qurulması miqrantlar arasında işsizliyin səviyyəsini artırdı?
66. İspaniyada neçə etnik qrup vardır?
67. Rekonkista dövründə nə baş vermiuşdir?
68. Niyə Rekonkista dövrü başa çatdıqdan sonra Pireney yarımadasındakı krallıqların vahid ideya ətrafında birləşdirilməsi zərurəti yarandı?
69. XV əsrin ortalarında İber yarımadasında hansı krallıqlar var idi və onların vahid bir ittifaqın yaradılmasına münasibəti necə idi?
70. Müasir dövrdə İspaniyanın hansı bölgələrində separatizm meylləri özünü büruzə verir?

71. İspaniyanın 1978-ci il Konstitusiyasının 155-ci maddəsini əhəmiyyəti nədən ibarətdir?
72. Niyə 2017-ci ilin oktyabrın 27-də Kataloniya parlamentinin birtərəfli qaydada öz müstəqilliyini elan etməsi separatizmin təzahürüdür?
73. Müasir italyan xalqının formalaşması prosesində hansı amil həlledici rol oynamışdır?
74. İtaliyada milli azlıqların əsas qrupları hansılardır?
75. İtaliyada dil azlıqlarının hüquqlarının qorunması özünü nədə büruzə verir?
76. İtaliya Konstitusiyasında dini və milli azlıqlara münasibət necədir?
77. İtaliya Konstitusiyasında din – dövlət münasibətləri necə tənzimlənir?
78. İtaliya dövlətinin yaranmasında katolikliyin rolu nədən ibarətdir?
79. İtaliyada hansı dinlərin nümayəndələri yaşayırlar?
80. İtaliyada hansı İslam təşkilatları vardır?
81. Müasir dövrdə multukulturalizmə və tolerantlığa dair beynəlxalq sənədlərin rolu nədən ibarətdir?
82. Multukulturalizmə və tolerantlığa dair hansı beynəlxalq sənədlər qəbul edilmişdir?
83. "Ümumdünya İnsan Hüquqları Bəyannaməsin"də nədən bəhs olunur?
84. BMT-nın Baş Assambleyası tərəfindən qəbul olunmuş "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya"sı nədən bəhs edir?
85. BMT-nın Baş Assambleyası tərəfindən qəbul olunmuş "Dinə, yaxud əqidəyə görə dözümsüzlük və ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi" haqqında Bəyannamədə nədən bəhs olunur?
86. BMT-nın Baş Assambleyası tərəfindən 18 dekabr 1992-ci ildə qəbul olunmuş "Milli yaxud etnik, dini və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında Bəyannamə"də nədən bəhs olunur?
87. "Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası" milli azlıq anlayışını hansı kriteriyalara əsasən müəyyən edir?
88. Avropa Şurasına üzv olan bir sıra dövlətlərin "Regional və ya azlıqların dilləri üzrə Avropa Xartiyası"na qoşulmamasının səbəbi nədir?

# Ədəbiyyat

1. Avropa İnsan Hüquqları və Azadlıqları Konvensiyası. Council of Europe: https://www.echr.coe.int/Documents/Convention_AZE.pdf
2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya http://justice.gov.az/prints.php?view=humanrights&id=14, 18/03/2019
3. Dinə və etiqada əsaslanan dözümsüzlüyün və ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasi haqqında bəyannamə, BMT Baş Məclisinin 25 noyabr 1981-ci il tarixli qətnaməsi http://multiculturalism.preslib.az/az_documents-Vx5OIStHjU.html
4. Dözümlülük prinsipləri haqqında bəyannamə, UNESKO, 16 sentyabr 1995, http://multiculturalism.preslib.az/az_documents-uGoBepJdVU.html,
5. Azərbaycan Respublikası Dini qurumlarla iş üzrə Dövlət Komitəsi, Müasir qloballaşma şəraitində multikulturalizm və insan hüquqlarının müdafiəsi, http://scwra.gov.az/az/view/news/1426/muasir-qloballashma-sheraitinde-multikulturalizm-ve-insan-huquqlarinin-mudafiesi
6. Azərbaycan multikulturalizmi. (Ali məktəblər üçün dərslik). (AMEA-nın həqiqi üzvü K.M.Abdullayevin və prof. E.Ə.Nəcəfovun redaktəsi ilə), Bakı, 2017 s. 37-40.
7. Əfqani C. Seçilmiş əsərləri, Bakı, 1998, s. 51-52.
8. İsmayılov G. Tolerantlıq: Bildiklərimiz və bilmədiklərimiz. Bakı 2014, http://elibrary.bsu.az/books_90/N_85.pdf
9. Kanadanın Vətəndaşlıq və İmmiqrasiya departamentinin rəsmi internet səhifəsi: http://www.cic.gc.ca/
10. Qurbanov R.Q. Tolerantlıq və multikulturalizm: beynəlxalq sənədlər toplusu / Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi; Bakı, Şans Mətbəə LTD, 2017. s.156
11. Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi, Mədəniyyət qəzeti, http://medeniyyet.az/page/news/46776/Medeni-ozunuifade-muxtelifliyinin-qorunmasi-ve-tesviqi.html
12. Məmmədli N. 2016. Multikulturalizm: Panaseya yoxsa Alternativ. “Elm və təhsil” nəşriyyat-poliqrafiya. Bakı. s. 82; 94

13. Nəcəfov E.Ə. Qərbi Avropa ölkələrində islamofobiya: tarixi, səbəbləri və nəticələri. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N1 (65), 2019, s.119-129
14. Бахрах Ц. Антисемитизм в новое время, Иерусалим, Министерство обороны Израиля, 1991.
15. Вайнштейн М. Антисемитизм и завтра, Иерусалим, 1983
16. Гаспринский И. Русское мусульманство. Мысли, заметки и наблюдения, Симферополь, издательство «Таврия», 1991, с. 64
17. Катастрофа европейского еврейства, ч. 1-2, Тель-Авив, Открытый университет, Израиль.
18. Оггер Г. Магнаты, магнаты. Москва «Прогресс», 1985 г.
19. Поляков Л. История антисемитизма, Москва-Иерусалим, 2008.
20. Рот С. История евреев, Иерусалим, 1967.
21. Рустамов Ю.И. Ислам и общественная мысль в Турции, Баку, 1980, с. 81.
22. American Community Survey Reports, 2013. Language use in the United States 2011. https://www2.census.gov/library/publications/2013/acs/acs-22/acs-22.pdf [Daxil olunub 10 fevral 2014]
23. Australian Bureau of Statistics. 2017. Cultural diversity in Australia. 2016 Census data summary [online] http://www.abs.gov.au [Daxil olunub 15 fevral 2019]
24. Babacan, Alper and Huriyet Babacan. 2007. Multikulturalism in Australia. The Journal of Industrial Relations and Human Resources 9 (3): 25-38. Və Koleth, Elsa., 2010. Multiculturalism: A Review of Australian Policy Statements and Recent Debates in Australia and Overseas. Canberra: Department of Parliamentary Services
25. Banthing K., Kymlica W. 2007. Multiculturalism and Welfare State: Recognition and redistribution in contemporary democracies. Oxford University Press
26. Beider H. White Working Class Voices: Multiculturalism, Community-Building and Change. University of Bristol: Policy Press, 2016.
27. Cameron D. My war on multiculturalism // The Independent. February 5, 2011
28. Canada's population continues to grow rapidly, driven by international

migration. https://www150.statcan.gc.ca/n1/daily-quotidien/190321/dq190321d-eng.htm?HPA=1&indid=4098-1&indgeo=0 [Daxil olunub 17 aprel 2019]

29. Constitucion espanola. Aprobada por las cortes en sesiones plenarias del congreso de los diputados y del senado celebradas el 31 de octubre de 1978. Agencia Estatal Boletín Oficial del Estado. 112 p.
30. Davie G. Modern Avrupada Din. İstanbul: Küre Yayınları, 2006.
31. Desde cuándo existe España y la nación española? https://www.abc.es/historia/abci-desde-cuando-existe-espana-y-nacion-espanola-201610122317_noticia.html
32. Definition of İslamophobia. https://dictionary.cambridge.org/dictionary/english/islamophobia
33. Definition of İslamophobia.https://www.merriam-webster.com/dictionary/Islamophobia
34. Department of Immigration and Citizenship (DIAC). 2006. A National Action Plan to Build on Social Cohesion, Harmony, and Security. Available at:http://www.immi.gov.au/living-in-australia/amulticultural-australia/national-action-plan/nap.htm [Daxil olunub 15 fevral 2019]
35. Department of Immigration and Citizenship (DIAC). 2009. Living in Harmony: Program Review [pdf]. Available at: http://www.multiculturalaustralia.edu.au/doc/immdept_4.pdf [Daxil olunub 15 fevral 2019]
36. Department of Immigration and Citizenship (DIAC). 2009b. Diverse Australia Program Major Community Grants. Available at: http://www.harmony.gov.au/dscp/dscpgrants/previous/grants2009/large/2009-nsw.htm [Daxil olunub 15 fevral 2019]
37. Department of Immigration and Citizenship (DIAC). 2009c. Annual Report 2008-2009. Available at: http://www.immi.gov.au/about/reports/annual/200809/html/outcome2/output2-4.htm [Daxil olunub 15 fevral 2019]
38. Department of Immigration and Citizenship (DIAC). 2010a. Annual Report 2009-2010. Available at: http://www.immi.gov.au/about/reports/annual/2009-10/html/outcome-6/program6-1.htm [Daxil olunub 15 fevral 2019]
39. Desde cuándo existe España y la nación española? https://www.abc.es/historia/abci-desde-cuando-existe-espana-y-nacion-espanola-201610122317_noticia.html

40. Doytcheva M. Çokkültürlülük. (tər. Tuba Akıncılar Onmuş). İstanbul: İletişim Yayınları, 2013.
41. El territorio español. Superficie y división administrativa http://agrega.juntadeandalucia.es/repositorio/07072011/72/es-an_2011070713_9100512/ODE-a05dd017-3be8-3dd4-b52e-d45c27da8c6d/3__el_territorio_espa-ol_superficie_y_divisin_administrativa.html
42. Entzinger H. 2003. The Rise and Fall of Multiculturalism: The Case of the Netherlands. Burada: Joppke, Ch.& Morawska, E. (2007). Toward Assimilation and Citizenship: Immigrants in Liberal Nation- States. Palgrave Macmillan. s.63
43. Eurostat Statistic, 2018. Migration and migrant population statistics [online] https://ec.europa.eu/eurostat/statistics-explained/index.php/Migration_and_migrant_population_statistics#Migrant_population:_almost_22_million_non-EU_citizens_living_in_the_EU [Daxil olunub 17 fevral 2019]
44. Federal Ministry of the Interior, Building and Community., 2019. National Minorities. https://www.bmi.bund.de/EN/topics/community-and-integration/national-minorities/national-minorities-node.html
45. Federal Ministry of Interior, Building and Community. 2019. BMI Structure. https://www.bmi.bund.de/EN/ministry/structure-and-organization/structure-and-organization-node.html [Daxil olunub 14 fevral 2019]
46. Federal Ministry of the Interior, Building and Community. 2019. National Minorities.https://www.bmi.bund.de/EN/topics/community-and-integration/national-minorities/national-minorities-node.html
47. Fleras A. 2009. The Politics of Multiculturalism. New York, NY: Palgrave Macmillan. p. 63; 153.
48. Gina G. Song Lopez, 2011. Multikulturalizm, Migration, & Governance in Australia [pdf]. E-International Relations Students. Available at: https://www.e-ir.info/2013/09/01/multiculturalism-migration-governance-in-australia/ [Daxil olunub 15 fevral 2019].
49. Glazer N. We Are All Multiculturalists Now. Harvard University Press, 1997
50. Guiraudon V., Phalet K., Ter Wal J. 2004. Comparative Study on the Collection of data to Measure the Extent and Impact of Discrimination in a

selection of countries. Final Report on The Netherlands. http://edz.bib.uni-mannheim.de/daten/edz-ath/gdem/04/pb_en.pdf

51. Habermas J. Democracy and the Public Sphere / Luke Goode. London: Pluto Press, 2005
52. Hammar T. 1985. European Immigration Policy: A Comparative Study. [ed]. Cambridge: Cambridge University Press. p.72
53. Haynes J. Religion in Global Politics. London: Pearson Longman Press, 1998.
54. Heywood, Andrew. Siyaset Teorisine Giriş. (tər. Hızır Murat Köse). İstanbul: Küre Yayınları, 2011.
55. Huntington S. The clash of civilizations and the remaking of world order. New York, Simon and Schuster, 1996, p.29.
56. Joppke Ch. 1999. Immigration and Nation State. UK: Oxford. Oxford University Press.
57. Joppke Ch. The retreat of multiculturalism in the liberal state: theory and policy.// The British Journal of Sociology, 55: 237–257, 2004.
58. Joppke Ch., Morawska E. 2003. Toward Assimilation and Citizenship: Immigrants in Liberal Nation-State. US: Palgrave Macmillan Ltd. S.10-16
59. Kymlicka W. Multicultural Citizenship: A Liberal Theory of Minority Rights. Oxford: Clarendon Press, 1995.
60. Kymlicka W. Contemporary Political Philosophy: An Introduction. New York: Oxford University Press, 2002.
61. La mezcla de culturas en España https://laemadrid.com/espana-mezcla-de-culturas/?lang=es
62. Many Europeans rate Roma, Muslims unfavorably. Pew Research Center. Global Attitudes and Trends. https://www.pewglobal.org/2016/07/11/negative-views-of-minorities-refugees-common-in-eu/ga_2016-07-11_national_identity-02-00/
63. McGhee D. The End of Multiculturalism? Terrorism, Integration and Human Rights, Maidenhead: Open University Press, 2008.
64. Migrants and their descendants – Guide to policies for the well-being of all in pluralist societies, Council of Europe Publishing, December 2010. 20 noyabr 2016-cı ildə burada əldə edilmişdir: http://www.coe.int/t/dg3/socialpolicies/socialcohesiondev/source/GUIDEMIGRANTS_EN.pdf

65. Miller D. Political Philosophy: A Very Short Introduction. New York: Oxford University Press, 2003.
66. Modood T. "Remaking multiculturalism after 7/7", https://www.surrey.ac.uk/cronem/files/Tariq-Modood-article.pdf. p.3
67. Morales H. L. La andadura Del Español por el mundo. Taurus. 2010. 256 p. 22-33
68. Navarro F. G. Espana, una nacion de naciones.Universidad de Navarra. 1993. p. 131-132; 131-168.
69. Netherlands Population. 2019. https://www.worldometers.info/world-population/netherlands-population/ [daxil olunub 16.05.2019]
70. Palmer H. (1976). Mosaic versus Melting Pot?: Immigration and Ethnicity in Canada and the United States. International Journal, Vol. 31, No. 3, 1776: The U.S. and Us, s. 488-528
71. Parekh B . Rethinking Multiculturalism: Cultural Diversity and Political Theory. Palgrave Macmillan, 2005.
72. Patowski K. 2010. Language Diversity in USA. Cambridge University Press. (p.1)
73. Pew Research Centre. 2016. Religion and Public. http://www.pewforum.org/religious-landscape-study/ [Daxil olunub 4 fevral 2019]
74. Pew Research Centre, 2017. Growth of Germany`s Muslim Population. http://www.pewforum.org/essay/the-growth-of-germanys-muslim-population/ [Daxil olunub 14 fevral 2019]
75. Pew Research Centre. 2018. Key findings about US immigrant. http://www.pewresearch.org/fact-tank/2018/11/30/key-findings-about-u-s-immigrants/ [Məlumatdan istifadə edilib 4 fevral 2019]
76. Pew Research Center. 2019. Faith on the Hill: The religious composition of the 116th Congress. http://www.pewforum.org/2019/01/03/faith-on-the-hill-116/ [Daxil olunub 4 fevral 2019]
77. Sarrazin Th. Deutschland schafft sich ab: Wie wir unser Land aufs Spiel setzen. München: Deutsche Verlags-Anstalt, 2010.
78. Statham P. (1998), İmmiqrasiya Siyasi İnkişafı. İtaliya: imkanlar, səfərbərlik və nəticələr. WZB, Berlin.
79. Taylor Ch. Multiculturalism: The Politics of Recognition. (editor Amy Gutmann). New Jersey: Princeton University Press, 1994.

80. Terra Abrami V. Le rilevazioni demografiche correnti dell'Istat su immigrazione e presenza straniera regolari, Roma, 2005.
81. The French National Institute of Statistic. Ethnic based statistics.2016. https://www.insee.fr/en/information/2388586 [Daxil olunub 17 fevral 2019]
82. Tolley E. 2011. Multiculturalism Policy Index: Immigrant Minority Policies. Queen`s University at Kingston, Canada. p.105-109
83. UK majority back multiculturalism. http://news.bbc.co.uk/2/hi/uk/4137990.stm
84. Vasta E. 2007. From ethnic minorities to ethnic majority policy: Multiculturalism and the shift to assimilationism in the Netherlands, Ethnic and Racial Studies, 30:5, 713-740
85. Vertovec, S., Wessendorf, S. Introduction: Assessing theBacklash against Multiculturalism in Europe, London, 2010.
86. Weinstock, D. 2013. Interculturalism and Multiculturalism in Canada and Quebec: Situating the Debate. Burada: Balint P., and Latour S.G. (ed). 2013. Liberal Multiculturalism and the Fair Terms of Integration. Basingstoke: Palgrave Macmillan. p. 91

# XI FƏSİL

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA MULTİKULTURALİZM

## 11.1. Azərbaycanda multikulturalizm siyasəti modelinin formalaşmasını şərtləndirən obyektiv və subyektiv səbəblər

Əvvəlki fəsildə müxtəlif Qərb ölkələrində etnik–mədəni müxtəlifliyin tənzimlənməsi təcrübəsini təhlil edərək biz gördük ki, qeyd olunan müxtəlifliyin tənzimlənməsi səmərəlilik baxımından ölkədən-ölkəyə fərqlənir. Bu fərq etnik-mədəni müxtəlifliyi hətta multikulturalizm siyasəti vasitəsilə tənzimləyən ölkələrdə də özünü büruzə verir. Multikulturalizm siyasəti vasitəsilə etnik-mədəni müxtəlifliyin tənzimlənməsi sahəsində böyük nailliyyətlər əldə edən Kanada, Avstraliya və Hollandiya kimi ölkələrin adı ilə bağlı multikulturalizmin konkret modelləri formalaşmışdır.

Kanada, Avstraliya, Hollandiya və bir sıra digər ölkələr kimi Azərbaycan da cəmiyyətdəki etnik–mədəni müxtəliflikləri multikulturalizm siyasəti vasitəsilə səmərəli şəkildə tənzimləyir. Uğurla apardığı bu siyasət nəticəsində Azərbaycan dünyanın əsas multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir. “Azərbaycan multikulturalizmi”, “multikulturalizmin Azərbaycan modeli” terminləri siyasi leksikonda geniş istifadə olunmaqdadır.

Azərbaycanda multikulturalizm siyasətinin əsasını Ümummilli lider Heydər Əliyev qoymuşdur. Yeni tarixi şəraitdə bu siyasət ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla aparılır. Bunun əsas göstəricisi kimi cəmiyyət daxilində müxtəlif etnik qrupların və dini icmaların inteqrasiya olmalarıdır. Bu, etnik və dini zəmində baş verəcək münaqişələrin qarşısını alır.

Azərbaycan multikulturalizminin meydana gəlməsini şərtləndirən səbəblər 2 qrupa bölünür: obyektiv və subyektiv səbəblər. Obyektiv səbəblərə ilk növbədə *tarixi və coğrafi faktorlar* daxildir.

Tarixi faktor Azərbaycan multikulturalizminin formalaşmasında mühüm rol oynamışdır. Tarixin bütün mərhələlərində Azərbaycan çoxmədəniyyətli bir

dövlət olmuşdur. Onun ərazisində müxtəlif xalqların nümayəndələri birgə əmin-amanlıq şəraitində yaşamışlar. Burada məskunlaşmış milli azlıqlar etnik, dini, irqi mənsubiyyətlərinə, etnik-mədəni dəyərlərinə görə əhalinin çoxluğunu təşkil edən və titul xalq olan Azərbaycan türkləri tərəfindən təqib olunmamış və ayrı-seçkiliyə məruz qalmamışdır.

Azərbaycanda multikulturalizmin meydana gəlməsində coğrafi faktorun roluna gəldikdə, qeyd etmək lazımdır ki, Azərbaycan olduqca əlverişli bir coğrafi məkanda yerləşir. Bura müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu ərazidir. Müxtəlif xalqların tarixi təcrübəsinə əsasən, belə ərazilərdə yerləşən ölkələrin xalqları müxtəlif etnik, irqi, dini və mədəni qrupların nümayəndələri ilə qarşılaşaraq onlarla iqtisadi-ticarət və mədəni əlaqələrini inkişaf etdirmişlər. Bu isə öz növbəsində belə ərazilərdə zəngin multikultural mühitin formalaşması üçün əlverişli şərait yaratmışdır. Məlum olduğu kimi, Azərbaycanın ərazisi müxtəlif sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Buradan qədim İpək Yolu keçmiş, Azərbaycanın bu əlverişli coğrafi məkanda yerləşməsi onun etnik-mədəni müxtəlifliyə malik olan bir cəmiyyət kimi formalaşmasında və inkişafında əhəmiyyətli rol oynamışdır.

Beləliklə, mahiyyətcə obyektiv xarakter daşıyan tarixi və coğrafi faktorlar Azərbaycan multikulturalizminin meydana gəlməsi və formalaşması prosesində həlledici rol oynamışdır.

Azərbaycan multikulturalizminin meydana gəlməsində və formalaşmasında qeyd olunan *obyektiv səbəblərlə* bərabər *subyektiv səbəblər* də mühüm rol oynamışdır. Azərbaycan multikulturalizminin meydana gəlməsinin və formalaşmasının subyektiv səbəbləri dedikdə ölkəni idarə edən dövlət xadimləri və Azərbaycan xalqı nəzərdə tutulur.

Azərbaycanın tarixinin müxtəlif mərhələlərində ölkə başçıları cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəliflikləri elə tənzimləmişdilər ki, burada etnik və dini zəmində ciddi münaqişələr baş verməmişdir. Azərbaycanda multikultural mühit ölkənin müstəqil olduğu zamanda daha da güclənmişdir. Məsələn, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı dünyanın ən çoxmədəniyyətli şəhərlərindən biri olmaqla bərabər burada etnik, dini və mədəni zəmində əhali arasında qarşıdurma, münaqişə müşahidə olunmamışdır. Parlamentdə ölkədə yaşayan bir neçə xalqın nümayəndələri deputat kimi fəaliyyət göstərirdilər. Burada bəzi milli azlıqların siyasi təşkilatları da təmsil olunmuşdur. Bundan

başqa, milli azlıqların nümayəndələri hökumətin tərkibində yüksək vəzifələr tuturdular. Onlardan bəziləri hətta nazir vəzifəsinə təyin olunmuşdular.

Azərbaycanda əlverişli multikultural mühitin olması tarixin müxtəlif mərhələrində təqib olunan xalqların nümayəndələrinin kütləvi şəkildə bura köçməsinə səbəb olmuşdur. Hələ təxminən 2600 il bundan əvvəl yəhudilər İudeyadan (indiki İsrail) Azərbaycana pənah gətirmişdilər. E.ə. 586-cı ildə yeni Babil hökmdarı II Navuhudanosor iudey üsyanını qan içində boğaraq, Qüdsü dağıdır və onların baş məbədini yerlə-yeksən edir. Bütün bu hadisələrin nəticəsində yəhudilərin böyük əksəriyyəti ölkədən çıxarılır. Onların böyük bir hissəsi İsraili tərk edərək Azərbaycana pənah gətirdi. Tarixin sonrakı mərhələrində yəhudilərin Azərbaycana köçmələri ilə bağlı Moisey Bekker öz əsərində qeyd edir ki, XIX əsrin əvvəllərində Rusiya İmperiyasının qərb quberniyalarından ilk aşkenazi yəhudiləri (Avropa yəhudiləri) 1810-cu ildə bura köçməyə başladılar. Daha sonra 1864-cü ildə qonşu Gürcüstandan da Azərbaycana yəhudilər gəldilər. Şübhəsiz, təqib olunan xalqların Azərbaycanda sığınacaq tapmaları o vaxt burada münasib tolerant mühitin olmasından xəbər verirdi. Moisey Bekkerin fikrincə, Azərbaycana köçmüş xristian xalqlarının bəzilərində müşahidə olunan antisemit stereotiplər Azərbaycanda yerli xalqın yəhudilərə bəslədikləri xoş münasibətin təsiri altında yox olurdu. Nəticədə əvvəllər yaşadıqları ölkələrdə antisemit ruhda tərbiyə olunan xristian xalqlarının bəzi nümayəndələri ölkəmizə köçəndən bir müddət sonra antisemit stereotiplərdən azad olaraq azərbaycanlılar kimi tolerant olurdular.

Azərbaycandakı multikultural mühit ölkənin müstəqillik illərində daha da yaxşılaşdı. 18 oktyabr 1991-ci ildə Azərbaycanda dövlət müstəqilliyinin bərpa olunması, xüsusilə, Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının istəyi ilə hakimiyyətə gəlişi ölkədə multikultural mühiti əsaslı şəkildə yaxşılaşdırdı. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışının nəticəsində ölkədə olan tarixi tolerantlıq ənənələrinin qorunması və inkişafı üçün real şərait yaradıldı, etnik-mədəni müxtəlifliyin qorunması istiqamətində mühüm işlər görüldü. Müasir dövrdə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizm siyasətini uğurla həyata keçirir.

Azərbaycan multikulturalizminin meydana gəlməsi prosesinin subyektiv səbəblərindən, bu prosesdə subyektiv faktorun rolundan danışarkən Azərbaycan xalqının rolunu da qeyd etmək vacibdir. Məlum olduğu kimi, Azərbaycan




*Ulu Öndər Heydər Əliyev Bakıda keçirilən "Müasirlik və dini-mənəvi dəyərlər" mövzusunda beynəlxalq konfransda və Qafqaz Müsəlmanlarının X Qurultayında. 30 sentyabr 1998-ci il.*

xalqının qonaqpərvərliyi, başqa xalqların, etnik qrupların, dini icmaların nümayəndələrinə tolerant münasibəti onun milli xüsusiyyətlərindəndir. Yuxarıda qeyd olunduğu kimi, tarixin bütün mərhələlərində Azərbaycan ərazisində məskunlaşmış milli azlıqlar etnik, dini, irqi mənsubiyyətlərinə, etnik-mədəni dəyərlərinə görə ölkənin avtoxton əhalisi olan Azərbaycan türkləri tərəfindən təqib olunmamış və ayrı-seçkiliyə məruz qalmamışdır. Bu, multikulturalizmin Azərbaycan xalqının həyat tərzi olmasından xəbər verir. Multikulturalizmin xalqın həyat tərzinə çevrilməsi onun inkişafının ən yüksək mərhələsini təşkil edir.

Azərbaycanda digər ölkələrdə olduğu kimi bir sosial hadisə kimi meydana gələn multikulturalizm özünün sonrakı inkişaf mərhələlərində dövlət siyasəti müstəvisinə yerləşdirilmişdir. Məlum olduğu kimi, Azərbaycan Respublikası multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir. Bu

mərhələlərin reallaşmasında əsas rol dövlətə məxsus olsa da, Azərbaycan xalqının milli xüsusiyyətindən irəli gələn cəmiyyətdəki etnik-mədəni müxtəlifliyə xalqın tolerant münasibəti burada multikulturalizmin dövlət siyasəti kimi bərqərar olmasında əhəmiyyətli rol oynamışdır. Multikulturalizmin Azərbaycanda dövlət siyasəti olması isə öz növbəsində onun xalqın həyat tərzi kimi möhkəmlənməsinə xidmət edir. Başqa sözlə desək, Azərbaycanda multikulturalizmin dövlət siyasətinə və xalqın həyat tərzinə çevrilməsi bir-birinə qarşılıqlı təsir göstərir. Hər ikisi Azərbaycan multikulturalizminin meydana gəlməsinin, formalaşmasının və inkişafının subyektiv səbəbləri olaraq bir-birilə sıx bağlıdır.

Beləliklə, tarixi və coğrafi faktorlar Azərbaycan multikulturalizminin meydana gəlməsi prosesinin obyektiv səbəblərini, dövlət başçılarının, eləcə də Azərbaycan xalqının cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin qorunmasına və bu müxtəlifliyin əsasını təşkil edən etnik-mədəni dəyərlərə göstərdikləri tolerant münasibət isə subyektiv səbəblərini təşkil edir.

## 11.2. Azərbaycan multikulturalizminin əsas xüsusiyyətləri

Multikulturalizm Azərbaycanda əsrlərdən bəri formalaşan, eyni zamanda ictimai-bədii, psixoloji-mənəvi müstəvidən kənara çıxmayan dəyərlər toplusu kimi, xüsusilə sovet ideologiyasının hökmranlıq etdiyi illərdə kifayət qədər sistemsiz və spontan mahiyyətə malik idi. Onun sanki bütün vacib özəllikləri mövcud idi. Tolerantlıq və mənəvi potensial, dini loyallıq və milli özünəməxsusluq, psixoloji səbat və bəşəri dəyərlərə açıqlıq Azərbaycan insanını multikultural bir rejimin içinə daxil etməyə hazır idi. Bu və buna bənzər xüsusiyyətlər Azərbaycan ədəbi-bədii düşüncə müstəvisində həm tarixən, həm də bu gün kifayət qədər görümlü və təsiredicidir.

«Kitabi-Dədə Qorqud» dastanından, şifahi və yazılı ədəbiyyatımızdan keçən bariz nümunələr uzaq keçmişdən bugünümüzədək multikultural ənənələrin mövcudluğunu aşkar şəkildə sübut edir. Bunun fonunda müasir dövrdə həllini tapası yalnız bir əsas məsələ qalırdı: hüquqi və siyasi müstəvidə multikulturalizmin yerini müəyyən etmək. Və bunu Ulu öndər Heydər Əliyev

etdi. O, Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçdi və öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Bu mərhələ siyasi mərhələ idi.

Ulu öndər Heydər Əliyev bununla ilk növbədə multikulturalizm siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. Akademik Ramiz Mehdiyev qeyd etdiyi kimi, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara vahid Azərbaycan dövlətinə mənsub olmalarının əsasında birlik hissi aşılanmağa başladı. ***«Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətəndiririk və qoruyub saxlayacağıq»*** deyən Ulu Öndər bütün sonrakı siyası fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi.

Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən *Azərbaycan Respublikasının Konstitusiyasında* əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir: *"Din və dövlət" (Maddə 18, bənd 1); "Dövlət dili" (Maddə 21, bənd 2); "Bərabərlik hüququ" (Maddə 25, bənd 3); "Milli mənsubiyyət hüququ" (Maddə 44, bəndlər 1, 2); "Ana dilindən istifadə hüququ" (Maddə 45, bəndlər 1, 2); "Fikir və söz azadlığı" (Maddə 47, bəndlər 1, 2, 3); "Vicdan azadlı*ğı" (Mad*də 48, bəndlər 1, 2); "Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri" (Maddə 127, bənd 10).*

Ulu öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndərin rəhbərliyi ilə, nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi *«dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik»*olmalarını təmin etməli idi.

Təbii olaraq, Ulu öndər etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan *Azərbaycançılıq* prinsipini milli ideologiya kimi irəli sürdü. O, qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu öndərin dediyi kimi, həqiqətən də *«Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da – bütünlükdə hamısı azərbaycanlıdır».*

Beləliklə, Ulu öndər Heydər Əliyev multikulturalizmi Azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi təqdim etməklə ölkədə multikulturalizm siyasətinin əsasını qoymuş və Azərbaycan multikulturalizminin siyasi banisi olmuşdur. Ulu öndərin multikulturalizm sahəsində həyata keçirdiyi bu böyük iş müasir dövrdə onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. O, multikulturalizm siyasətinə nikbin qütbü formalaşdırmışdır.

Müasir dünyada multikulturalizm siyasətinə ikili baxış, iki qütb formalaşmışdır – bədbin və nikbin. Bədbin qütbü Kameron, nikbin qütbü isə Azərbaycan Prezidenti İlham Əliyev formalaşdırmışdır. Prezident İlham Əliyev Kameronun bədbin nəticəsinə qarşı duran optimist baxışı və siyasi iradəni nümayiş etdirir. O, Azərbaycan xalqının çoxəsrlik multikultural dəyərlərə malik olması ideyasına arxalanaraq belə bir siyasi bəyanatla çıxış edir: *"Bu gün multikulturalizmin dünyada alternativi yoxdur."*

Müasir dövrdə Qərb ölkələrində multikulturalizm siyasətinin iflasa uğraması və bununla yanaşı, Azərbaycanda bu siyasətin yaşaması hansı səbəblərdən irəli gəlir?

Bunun həm obyektiv, həm də subyektiv səbəbləri var. Obyektiv səbəblər hansılardır?

Bəzi ölkələr tarixən ən qədim zamanlardan bəri hər hansı müxtəlifliklərlə üzləşmədən digər mədəniyyətlərlə təmas nöqtəsinə monoetnik bir birlik kimi gəlib çıxmışdır. Buradakı müxtəlif mədəniyyətliliyi *sonrakı müxtəliflik* kimi ayıra bilərik. Bəzi ölkələrdə isə müxtəliflik *ilkin* xarakterli olmuşdur. Birinci

hal ilə bağlı real sosial nəticə odur ki, gəlmə multikultural dəyərlər dəyərləri formalaşmış ölkədə özünə asanlıqla yer eləmir. Belə bir ölkədə yeni dəyərlərin calağı istər-istəməz süni alınır. Onun üçün də bəzi Avropa ölkələrində bu modelin iflasa uğramasının obyektiv səbəbləri yox deyil. Bəzi ölkələrdə isə xalqın tarixində müxtəliflik ilkin çağdan başlayır və müxtəlif xalqlar ən qədim zamanlardan etibarən bir-birini formalaşdıra-formalaşdıra müasir dövrə qədəm qoyurlar. "İlkin müxtəliflik" və "sonrakı müxtəlifliyi" bir-birindən ayırmasaq bu günkü dünyada hansısa ölkədə multikulturalizmin iflasının, hansında isə təntənəsinin sirrini öyrənə bilmərik.

Azərbaycanda normal multikultural əhvalın olması – müxtəlif konfessiyaların, etnik birliklərin dostluq və mehribançılıq şəraitində yaşaması yenə də tarixin qədim dövrlərindən qidalanır. "İlkin müxtəliflik" Azərbaycan ərazisində özünü göstərən nadir xüsusiyyətlərdəndir və bu hal "sonrakı müxtəliflikdən" kəskin şəkildə fərqlənir. Məhz "ilkin müxtəliflik" bu gün Azərbaycan ərazisində özünü qoruyub saxlamış sistemli münasibət modeli formalaşdırmışdır. Nəticədə isə əsrlərdən bəri şair, yazıçı və alimlərin bədii ədəbiyyatda, elmi traktatlarda özünü göstərən müxtəlifliyə loyal münasibəti məhz Azərbaycanda, özü də müstəqillik dövründə yeni bir siyasi ahəng qazana bildi. Ona görə də təəccüblü deyil ki, bir sıra Qərb ölkələrində multikulturalizmin iflasa uğramasının bəyan edildiyi dövrdə Azərbaycan Respublikasında multikulturalizm dövlət siyasəti kimi ortaya çıxır və Azərbaycan Prezidenti bu siyasətin davamlı olması üçün real və optimal fəaliyyət göstərir.

Şübhəsiz, Qərbi Avropa ölkələri ilə müqayisədə Azərbaycanın demokratik inkişaf sahəsində real təcrübəsi azdır. Amma mənəvi təcrübəsi böyükdür. Azərbaycan xalqının dastanlarından, nağıllarından, klassik ədəbi nümunələrindən qədim demokratik prinsiplərlə bağlı yetərincə misal və nümunələr göstərmək olar. Tarix boyu Azərbaycan mənəvi həyatında tolerantlıqdan xeyli danışmaq mümkündür. Bunlar, təbii ki, multikultural tərzin Azərbaycan cəmiyyətinə öncədən xas olmasına bir sübutdur.

Baxın, multikultural dəyərlər harada iflasa uğradı? O ölkələrdə bu belə oldu ki, mənəvi baxımdan formalaşma prosesini başa çatdırandan sonra oraya miqrasiyaların yeni dalğası ilə bu çağa qədər tanış olmayan multikultural dəyərlər, yad baxışlar gəlməyə başladı. Və artıq formalaşmış orqanizm bu süni

calağı qəbul etmədi. Sonrakı müxtəlifliyin mahiyyəti budur.

Azərbaycanda isə əvvəlcədən bu dəyərlər süni deyildi. Çünki onlar təbii halda, başlanğıcdan bir yerdə idi. Əsas məsələ budur. Buna görə də biz metodoloji olaraq, "ilkin müxtəliflik", "sonrakı müxtəliflik" anlayışlarını bir-birindən fərqləndirməliyik. İlkin müxtəliflik, əslində, özündə miqrasiya elementi saxlamır. O, hər hansı müxtəlifliyin ilk başlanğıcdan bir yerdə, yanaşı mövcudluğu kimi özünü göstərir.

Azərbaycanda multikulturalizm siyasətinin uğurla həyata keçirilməsinin subyektiv səbəblərinə gəldikdə, ilk növbədə ölkə rəhbərliyinin bu sahədə gördüyü böyük işləri göstərmək lazımdır. Prezident İlham Əliyev ölkədəki multikultural durumu daha da möhkəmlətmək məqsədilə bir sıra mühüm işlər həyata keçirir. O, ölkədəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsində multikulturalizm siyasətinə böyük önəm verir. Bunun bariz nümunəsi kimi ilk növbədə onun 28 fevral 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidmətinin (hazırda Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi adlanır), 15 may 2014-cü il tarixli Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasını, həmçinin Prezidentin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsini və 11 mart 2016-cı il tarixli Sərəncamı ilə "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsini göstərmək olar. Qeyd olunan təsisatların və Sərəncamların hər biri Azərbaycanın multikulturalizm siyasətinin uğurla həyata keçirilməsinə yönəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əsas məqsədi ölkədə mövcud olan milli müxtəlifliyin qorunub saxlanması, milli azlıqların hüquq və azadlıqlarının dövlət təminatının, milli azlıqlarla bağlı dövlət siyasətinin həyata keçirilməsi, ölkədəki multikultural mühitin öyrənilməsi və dünyada təbliği işinin aparılması, dövlətin din siyasətinin tənzimlənməsinə nəzarət etməkdən ibarətdir. Bu məqsədə nail olmaq istiqamətində həyata keçirilən işlər sırasında Şöbənin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə əməkdaşlığı xüsusi yer tutur.




*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin “Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır” mövzusunda keçirilmiş beynəlxalq konfransda çıxış edərkən. 2 dekabr 2008-ci il. Bakı, “Gülüstan” sarayı.*

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) əsas məqsədi Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etməkdən ibarətdir. BBMM-in qarşısında duran bütün vəzifələr Azərbaycan multikulturalizminin inkişafına yönəlmişdir.

Prezident İlham Əliyevin multikulturalizm siyasətinə yüksək önəm verməsi ölkənin daxili siyasəti ilə yanaşı xarici siyasətində də özünü büruzə verir. Mütəmadi olaraq Azərbaycan dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqinə həsr olunmuş bir çox beynəlxalq forumlara, konfranslara ev sahibliyi edir. Bununla əlaqədar qeyd etmək lazımdır ki, Azərbaycanda 2010-cu ilin 26-27 aprel tarixlərində Dünya Dini Liderlərinin Sammiti, 2011-ci, 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, 2011-ci, 2012-ci, 2013-cü, 2014-cü, 2016-cı və 2018-ci illərdə Bakı

Beynəlxalq Humanitar Forumları, 2013-cü, 2014-cü, 2015-ci, 2016-cı, 2017-ci, 2018-ci və 2019-cu illərdə Qlobal Bakı Forumları, eləcə də 2016-cı ilin 25-27 aprel tarixlərində Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçirilmişdir. Bu tədbirlər *"Bakı prosesi"* çərçivəsində keçirilir[11].

***"Bakı prosesi"*** – mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsini nəzərdə tutan bir təşəbbüsdür. "Bakı prosesi" təşəbbüsünü ilk dəfə Azərbaycan Prezidenti İlham Əliyev 2008-ci il 2-3 dekabr tarixində Bakıda Avropa və ona qonşu regionların mədəniyyət nazirlərinin *"Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır*" mövzusunda keçirilmiş konfransında irəli sürmüşdür. Bu konfransda ilk dəfə olaraq 10 islam ölkəsinin də iştirak etməsi ilə yeni bir formatın əsası qoyulmuşdur. Ümumilikdə 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksək səviyyəli nümayəndələrinin iştirak etdikləri bu konfransda Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq *"Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi"* qəbul edildi. Bununla sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan "Bakı prosesi"nin və bu prosesin uğurla davam etdirilməsi məqsədilə Azərbaycan tərəfindən təklif edilən "Sənətçilər dialoq naminə" layihəsinin əsası qoyuldu.

"Bakı prosesi"nin əsas aktorları Azərbaycan Respublikası hökuməti, UNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESKO, BMT-nin Dünya Turizm Təşkilatıdır.

"Bakı prosesi"nin məqsədləri aşağıdakılardır:

1. Mədəniyyətlər arasında anlaşmanın, dialoqun və tolerantlığın inkişafı;

2. Müsəlman və Qərb cəmiyyətləri arasında əməkdaşlığın inkişaf etdirilməsi;

3. Xalqlar arasında olan dini və mədəni gərginliyin azadılması məqsədilə

---

11 Azərbaycan Respublikasının "Bakı Prosesi" çərçivəsində mədəniyyətləarası dialoqa yüksək önəm vermәsinin daha bir bariz nümunəsi kimi 2019-cu il 30 iyun - 10 iyul tarixlərində Bakıda UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsini göstərmək olar. Dünya mədəni irsi ilə bağlı məsələlərin müzakirə edildiyi və dünyanın 180-dən artıq ölkəsindən 2500 nəfərdən artıq nümayəndənin qatıldığı 43-cü sessiyada Ümumdünya Mədəni İrs Siyahısına salınması üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayl (onlardan 28-i mədəni, 6-sı təbiət, 2-si qarışıq abidələr olmaqla) nəzərdən keçirilmişdir. İrs Komitəsinin 43-cü sessiyasında təqdim olunmuş 36 abidədən çoxu UNESKO-nun Ümumdünya İrs Siyahısına salınmışdır. Siyahıya salınan adidələr sırasında Şəkinin Xan Sarayı ilə birgə onun tarixi mərkəzi də vardır.

barışdıran və sakitləşdirən qüvvələrə dəstək göstərməklə mədəniyyətlər arasında hörmət və qarşılıqlı anlaşmanın qurulması;

4. Mədəniyyətin, mədəni irsin və incəsənətin imkanlarını müəyyən etməklə, onların potensialının mədəniyyətlərarası dialoqun və əməkdaşlığın həyata keçirilməsində daha səmərəli istifadəsi;

5. Mədəni və bədii fəaliyyətlərin dəstəkləməsi; qarşılıqlı anlaşma və dialoqun qurulması prosesində yaradıcılıq və incəsənət adamların təkan verici qüvvə kimi tanınması;

6. Üzv ölkələr və vətəndaş cəmiyyətinin cəlb olunması ilə, səlahiyyətli beynəlxalq və regional təşkilatlar arasında dialoqun inkişaf etdirilməsi.

"Bakı prosesi" əvvəlcə regional təşəbbüs kimi yaranmışdır. 2010-cu ildə BMT Baş Məclisinin 65-ci sessiyasında çıxış edərkən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev növbəti il Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsini elan etdi. Bu hadisə "Bakı prosesi"nin *regional təşəbbüsdən qlobal hərəkata çevrilməsinə* səbəb oldu.

Azərbaycan Respublikası tərəfindən irəli sürülən "Bakı prosesi" təşəbbüsünü BMT-nin Baş Katibi Antonio Quterreş yüksək qiymətləndirərək onu 2008-ci ildən bəri bütün dünyada mədəniyyətlər arasında dialoqun təşviq olunmasında mühüm rol oynadığını qeyd etmişdir. Bundan başqa Avropa Şurası Baş Katibinin müavini xanım Qabriella Battaini Draqoni "Bakı prosesi"nin əhəmiyyəti haqqında aşağıdakıları söyləmişdir: *"Bəli, 2008-ci ildə bu, bir xəyal idisə, indi "Bakı prosesi" bir reallığa çevrilib. "Bakı prosesi" və mədəniyyətlərarası dialoq forumları bizlərə çox mükəmməl bir fürsət yaratmışdır ki, bir yerə toplaşıb dünyamızı narahat edən məsələləri müzakirə edək... Cənab Prezident, Sizə, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya üz tutaraq xahiş edirəm ki, "Bakı prosesi"nin məşəlini heç zaman sönməyə qoymayaq. Çünki indi dünyanın sülhə, harmoniyaya, birgəyaşayışa daha çox ehtiyacı var".*

Beləliklə, multikulturalizm siyasətinin meydana gəldiyi bir sıra Avropa dövlətlərinin başçıları bu siyasətin ölkələrində iflasa uğradığını bəyan etdikləri bir dövrdə Azərbaycanda multikulturalizm siyasəti cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsində ən mütərəqqi və optimal siyasət modeli kimi çıxış edir.

## 11.3. Multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığı

Azərbaycan Respublikası öz müstəqilliyini qazandığı dövrdən bu günədək həyata keçirdiyi daxili və xarici siyasəti ilə özünü əhalinin dinc yaşadığı, sabitliyin hökm sürdüyü multikultural-çoxmədəniyyətli bir cəmiyyət kimi, eyni zamanda regional inkişafa, yüksək səviyyəli əməkdaşlığa və təhlükəsizliyə töhfə verən əhəmiyyətli beynəlxalq tərəfdaş kimi təqdim etməyə müvəffəq olmuşdur.

Bu fəslin əvvəlində qeyd olunduğu kimi, Azərbaycan cəmiyyətdəki etnik–mədəni müxtəlifliyi multikulturalizm siyasəti vasitəsilə tənzimləyərək dünyanın əsas multikulturalizm mərkəzlərindən birinə çevrilmişdir. Azərbaycanda dövlət siyasəti səviyyəsində multikulturalizm və tolerantlığın inkişafı qədim dövlətçilik tarixinə və milli dəyərlərin, ənənələrin inkişafına əsaslanmaqla, bütün ölkə ərazisində yaşayan xalqların qarşılıqlı hörmət və əməkdaşlıq çərçivəsində, öz milli-mənəvi dəyərlərinin qorunmasına şərait yaratmaqla təmin olunur.

Azərbaycan Respublikasının mədəniyyətlərarası dialoqun mərkəzinə çevrilməsi təsadüfi xarakter daşımır. Bu gün dünyaya istər multikulturalizm və tolerantlıq, istərsə də iqtisadi inkişaf baxımından yeni bir Azərbaycan modeli formalaşmışdır.

Azərbaycan müsəlman və xristian dünyası arasında körpü rolunu oynamaqla tolerantlıq və multikulturalizm sahəsində öz təcrübəsini yaymaq və təbliğ etmək, eləcə də bu dəyərləri beynəlxalq aləmdə təşviq etmək məqsədilə nüfuzlu beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq edir.

Azərbaycanın multikulturalizm siyasətinin həyata keçirilməsi sahəsində əməkdaşlıq etdiyi əsas beynəlxalq təşkilatlardan biri BMT-dir. Bu təşkilatla ölkəmizin əməkdaşlığı müstəqilliyimizin ilk illərindən başlamışdır. 2 mart 1992-ci il tarixində Azərbaycan Respublikası BMT-nin üzvlüyünə qəbul edilmiş və 6 may 1992-ci il tarixində BMT nəzdində Daimi Nümayəndəliyi açılmışdır. 2011-ci ildə isə Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının 2 il müddətinə qeyri-daimi üzvü seçilmişdir. BMT ilə əməkdaşlıq çərçivəsində Azərbaycan multikulturalizm, dini və mədəni müxtəliflik sahəsində bir sıra

mühüm beynəlxalq sənədləri ratifikasiya etmiş və öz daxili qanunvericiliyində bu normaları əks etdirmişdir.

BMT-nın Baş Assambleyası tərəfindən 10 dekabr 1948-ci ildə qəbul olunmuş "İnsan Hüquqları Haqqında Ümumi Bəyannamə"nin əsas prinsipləri Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il konstitusiyasında öz əksini tapmışdır. Bundan başqa ölkəmiz BMT-nın Baş Assambleyası tərəfindən 21 dekabr 1965-ci ildə qəbul olunmuş "İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya"sı 31 may 1996-cı ildə qoşulmuş və bu beynəlxalq sənədin də mühüm prinsipləri sahəvi qanunvericiliyimizdə tam şəkildə öz əksini tapa bilmişdir. Bu mühüm sənədlər arasında eyni zamanda BMT-nın Baş Assambleyası tərəfindən 25 noyabr 1981-ci ildə qəbul olunmuş  "Dinə, yaxud əqidəyə görə dözümsüzlük və ayrı-seçkiliyin bütün formalarinin ləğv edilməsi haqqında Bəyannamə»ni də xüsusi olaraq qeyd etmək lazımdır lazımdır. "Dini dözümsüzlüyün bütün formalarının ləğv edilməsi haqqında" 20 dekabr 1993-cü il Qətnaməsi və "Milli yaxud etnik, dini və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında" 18 dekabr 1992-ci il Bəyannaməsi Azərbaycan Respublikasının BMT ilə əməkdaşlıq çərçivəsində multikulturalizm və tolerantlıq ənənələrinin, dini və mədəni müxtəlifliyin qorunması istiqamətində qoşulduğu beynəlxalq sənədlər arasında yer alır.

2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi barədə qərarına əsasən, 2016-cı il aprelin 25-27-də Bakıda Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının VII qlobal forumu keçirilmişdir. Forumda dünyanın 140-dan çox ölkəsindən nümayəndə heyətləri, çoxsaylı beynəlxalq təşkilatların, dini konfesiyaların, QHT-lərin nümayəndələri iştirak etmişdir. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Azərbaycanda keçirilməsi ölkədə multikulturalizm və tolerantlıq mühitinin yüksək səviyyədə olmasının göstəricisidir. Multikulturalizmin bu formada geniş təsbit və tətbiq olunması Azərbaycanın dünyaya olan töhfələrindən biridir.

Azərbaycan Respublikasının sıx əmədaşlıq etdiyi beynəlxalq təşkilatlar arasında Avropa Şurasını xüsusi ilə qeyd etmək lazımdır. Ölkəmiz bu quruma 2001-ci il yanvar ayının 17-də tam hüquqlu üzv kimi qəbul edilmişdir. Bu əməkdaşlıq çərçivəsində Azərbaycan multikulturalizm siyasəti ilə bağlı bir mühüm sənədə qoşularaq onu ratifikasiya etmiş, həmçinin bir çox mühüm




*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində beynəlxalq təşkilatların birinci yüksək səviyyəli görüşdə çıxış edərkən.*
*5 may 2017-ci il.*

tədbirlərə ev sahibliyi etmişdir. Bu sənəd 1995-ci ilin 1 fevral tarixində Avropa Şurasının qəbul etdiyi "Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası"dır. Azərbaycan bu sənədi 2000-ci il iyun ayının 13-də ratifikasiya etmişdir. Göründüyü kimi, ölkəmiz Avropa Şurasına üzv seçilməmişdən əvvəl Çərçivə Konvensiyasına qoşulmuşdur.

Azərbaycan Avropa İttifaqının həyata keçirdiyi "Şərq tərəfdaşlığı" layihəsi çərçivəsində Avropaya inteqrasiya prosesini uğurla davam etdirir. Azərbaycanda tolerantlıq mühiti hər zaman ən yüksək səviyyədə olduğu üçün burada multikulturalizm, millətlər və dinlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli bir çox tədbirlər, elmi konfranslar keçirilir.

2010-cu ilin aprelində dünyanın 32 ölkəsini təmsil edən 200-dən çox nümayəndəsinin iştirak etdiyi "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusuna həsr olunmuş sammit Bakıda keçirilmişdir.

Əvvəlki yarımfəsildə qeyd olunduğu kimi, 2011-ci ildən bəri Azərbaycan "Bakı prosesi" çərçivəsində bir sıra beynəlxalq forum və konfranslara ev sahibliyi etmişdir. Bu tədbirlərin əsas məqsədlərindən biri multikulturalizmin, tolerantlığın, eləcə də dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğ və təşviq olunması idi.

İslam dünyasının da ayrılmaz hissəsi olan Azərbaycanın sıx əməkdaşlıq etdiyi və müstəqillik əldə etdikdən sonra ilk üzv olduğu beynəlxalq təşkilat İslam Əməkdaşlıq Təşkilatıdır (İƏT). Dövlətimiz öz müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikalarından ilk olaraq İƏT-ə (o zaman İslam Konfransı Təşkilatı adlanırdı.- Red) üzv olmaq barədə müraciət etmiş və 1991-ci ilin dekabrın 8-də dövlət və hökumət başçılarının İƏT-in Dakarda keçirilən V konfransında tamhüquqlu üzv kimi təşkilata qəbul olunmuşdur. Eyni zamanda Azərbaycan İƏT-in müxtəlif strukturları ilə də sıx əməkdalıq edir. Azərbaycan Respublikası 1991-ci ildən İSESKO-nun üzvüdür. 1991-ci ildə qurulmuş bu münasibətlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın 24 noyabr 2006-cı il tarixində İSESKO-nun ilk xanım xoşməramlı səfiri adına layiq görülməsi ilə uğurlu inkişaf mərhələsinə qədəm qoymuşdur.

Bu əməkdaşlıq çərçivəsində Azərbaycan həm İslam dünyasının, həm də Avropa mədəniyyətinin bir üzvü kimi bir çox mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etmiş, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa öz töhfəsini vermişdir.

Azərbaycanda çoxmədəniyyətlilik mühitinin qorunub saxlanılması istiqamətində ölkəmizin əməkdaşlıq etdiyi daha bir mühüm beynəlxalq təşkilat UNESKO-dur. Azərbaycan 3 iyun 1992-ci il tarixində UNESKO-ya üzv qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidentinin 29 sentyabr 2004-cü il Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikasının UNESKO yanında Daimi Nümayəndəliyi təsis edilmiş, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 2004-cü ildən UNESKO-nun xoşməramlı səfiri seçilmiş və bununla da Azərbaycanla UNESKO arasında qarşılıqlı əlaqələr ən yüksək şəkildə inkişaf etmişdir. Bu əməkdaşlıq çərçivəsində Azərbaycan mədəni müxtəliflik və tolerantlıqla bağlı üç mühüm sənədə qoşulmuşdur. Bu sənədlər "Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Beynəlxalq Konvensiya" (20 oktyabr 2005-ci ildə UNESKO-nun 33-cü sessiyasında qəbul olunmuş və 18 mart 2007-ci ildə qüvvəyə minmişdir. Azərbaycan Respublikası

bu konvensiyaya 26 noyabr 2009-cu ildən qoşulmuşdur), "Dözümlülük Prinsipi haqqında Bəyannamə"(16 noyabr 1995-ci ildə qəbul olunmuşdur) və "Mədəni müxtəliflik haqqında ümumdünya Bəyannaməsi"dir (2 noyabr 2001-ci ildə qəbul olunmuşdur).

Azərbaycan Respublikasının sıx əmədaşlıq etdiyi daha bir təşkilat ATƏT-dir. 1992-ci ildə Azərbaycan ATƏT-ə üzv olub ( o zaman ATƏM adlanırdı). Milli azlıqlar mövzusunda bu təşkilatla ən mühüm əməkdaşlıq sənədi "Helsinki Yekun Aktı"dır. Doğrudur bu sənəd məcburi hüquqi qüvvəyə malik olmasa da, ən ali siyasi iradə bəyanatı kimi qəbul edilir. Bu Akta "azlıqların qorunması" anlayışı dəqiqliklə qeyd edilib və ölkəmiz  "Helsinki Yekun Aktı" ilə öz üzərinə götürdüyü bütün öhdəlikləri tam şəkildə icra edir.

Yuxarıda qeyd olunanlardan göründüyü kimi, multikulturalizm siyasəti çərçivəsində Azərbaycan Respublikası beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Bu gün Azərbaycan BMT, ATƏT, Avropa Şurası, İƏT kimi mötəbər təşkilatların tamhüquqlu üzvüdür. Bundan başqa Azərbaycan tolerantlıq və multikulturalizm sahəsində təcrübəsini yaymaq və təbliğ etmək, eləcə də bu dəyərləri beynəlxalq aləmdə təşviq etmək məqsədilə nüfuzlu təşkilatlarla, o cümlədən UNESKO, İSESKO və digər qurumlarla yaxından əməkdaşlıq edir. Beynəlxalq humanitar və mədəni əməkdaşlığın inkişaf etdirilməsi, multikulturalizm siyasətinin həyata keçirilməsi, Azərbaycanın bütün dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı mədəni əlaqələrinin genişləndirilməsi hazırda Azərbaycan dövlətinin əsas prioritetlərindən biri hesab edilir.

## Fəslə aid suallar

1. Azərbaycan multikulturalizminin meydana gəlməsində tarixi faktorun rolu nədən ibarət olmuşdur?
2. Azərbaycan multikulturalizminin meydana gəlməsində coğrafi faktorun rolu nədən ibarət olmuşdur?
3. Azərbaycan multikulturalizminin meydana gəlməsində və formalaşmasında subyektiv faktorun rolu özünü nədə büruzə verir?
4. Niyə Azərbaycanda multikultural mühit ölkənin müstəqil olduğu zaman daha güclü olur?
5. Niyə multikulturalizmin Azərbaycan xalqının həyat tərzi sayılır? Bu, özünü nədə büruzə verir?
6. Azərbaycanda multikulturalizm siyasətinin əsasını kim qoymuşdur?
7. Azərbaycançılıq ilə multikulturalizmin münasibəti necədir?
8. Multikulturalizmin bədbin və nikbin qütbü nədir?
9. İlkin və sonrakı müxtəliflik nədir? Onların multikulturalizmin inkişafına təsiri nədən ibarətdir?
10. "İlkin müxtəliflik" və "sonrakı müxtəlifliyi" bir-birindən ayırmasaq bu günkü dünyada hansısa ölkədə multikulturalizmin iflasının, hansında isə təntənəsinin sirrini öyrənə bilmərik?
11. Azərbaycana ilkin yoxsa sonrakı müxtəliflik xasdır?
12. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əsas məqsədi nədir?
13. "Bakı prosesi" nədir?
14. Azərbaycan Respublikası multikulturalizm siyasətinin həyata keçirilməsində hansı beynəlxalq təşkilatlarla əməkdaşlıq edir?
15. Azərbaycan Respublikasının BMT ilə multikulturalizm sahəsindəki əməkdaşlığın əhəmiyyəti nədən ibarətdir?
16. Azərbaycan Respublikası İƏT təşkilatı ilə multikulturalizm sahəsində hansı tədbirləri həyata keçirmişdir?
17. Azərbaycan Respublikası multikulturalizm siyasətinin həyata keçirilməsi sahəsində Avropa Şurası ilə əməkdaşlığının əsas istiqamətləri hansılardır?
18. Azərbaycan Respublikası UNESKO ilə multikulturalizm sahəsində hansı tədbirləri həyata keçirmişdir?
19. Multikulturalizm siyasətinin həyata keçirilməsi sahəsində Azərbaycan Respublikasının ATƏT ilə əməkdaşlığının əsas istiqamətləri hansılardır?

# Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1995, http://www.e-qanun.az/framework/897
2. Heydər Əliyev. "Müstəqillik yolu", Seçilmiş fikirlər. Bakı, 1997.
3. İlham Əliyev. İlham Əliyev Respublika Günü münasibətilə rəsmi qəbulda iştirak edib. http://www.president.az/articles/19987
4. İlham Əliyev. IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində İlham Əliyevin nitqi. http://www.president.az/articles/13038
5. Aqasiyev İ. XVIII əsrin sonu – XX əsrin əvvəllərində almanların Qafqazda məskunlaşması. "Təhsil". Bakı, 2009.
6. Azərbaycan – İslam Əməkdaşlıq Təşkilatı əlaqələri, http://islamworld.preslib.az/page/CSE4l6AaIV
7. Azərbaycan tarixi, I cild, (ən qədim zamanlardan XX əsrədək), Bakı, "Azərnəşr", 1994, səh. 166-168.
8. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı, "Azərbaycan" nəşriyyatı, 1996 (872s.), səh. 295-296.
9. Azərbaycanın türkçülük və azərbaycançılıq problemləri. Bakı: Ay-Ulduz, 1998.
10. Azərbaycan və İSESKO münasibətləri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, http://mfa.gov.az/content/875
11. Mehdiyev R. "Tarixi idrakın elmliyi problemlərinə dair, Bakı, 2015.
12. Mehdiyev R. "Güclü Azərbaycan dövləti qloballaşma şəraitində milli ideyanın təcəssümü kimi" 03.06.2016, https://azertag.az/store/files/butun%20fayllar/RAMIZ%20MEHDIYEV-NOVIY.pdf
13. Nəcəfov E., Multikulturalizm Azərbaycan Respublikasının daxili və xarici siyasətinin mühüm istiqamətidir, "Azərbaycan" qəzeti, 16 fevral 2018-ci il.
14. Беккер М. Евреи Азербайджана: история и современность. Баку, Озан, 2000.
15. Беккер М. Толерантность и мультикультурализм в Азербайджане на примере участия еврейской общины в общественно-политической жизни страны. Диссертация на соискание ученой степени доктора философии по политическим наукам. Баку, 2016.

16. Бойс М. Зороастрийцы. Верование и обычаи. М., Наука, 1988, 303 с.
17. Вердиева Х. Немцы в Северном Азербайджане. Баку, 2009.
18. Вердиева Х. Гусейн-заде Рауф. “Родословная” армян и их миграция на Кавказ с Балкан. Издание второе, исправленное. Баку.
19. Вердиева Х. Переселенческая политика Российской империи в Северном Азербайджане (II издание, с изменениями, допольнениями). Баку, 2016.
20. Горские евреи. История, этнография, культура. Составление В.Дымшица. Йерусалим-Москва. ДААТ// «Знание», 1999.
21. Грибоедов А. Записка о переселении армян из Персии в наши области. – История Азербайджана по документам и публикациям. Баку, 1990.
22. Гумбатова Тамара. «Баку и немцы». Баку, 2008.
23. Гусейн-заде Рауф. Кавказ и армяне. Баку, 2014.
24. Зейналова С. Немецкие колонии в Азербайджане (1819-1941 годы). Баку, 2002.
25. Ибрагимов Н. Немецкие страницы истории Азербайджана. Баку, 1995.
26. К истории образования Нагорно-Карабахской Автономной области Азербайджанской ССР. 1918-1925: Документы и материалы. Баку, 1989
27. Маммадов И.М., Мусаев Т.Ф. Армяно-азербайджанский конфликт: история, право, посредничество. Баку, 2008.
28. Мехтиев Р. Национальная идея Азербайджана в эпоху глобальных трансформаций. (Книга II), Москва, 2017, сс.52-88, сс.136-186.
29. Мехтиев Р. ГОРИС - 2010: Сезон театра абсурда. Тбилиси, 2010.185 с.
30. Мехтиев Р. Нагорный Карабах: история, прочитанная по источникам. Москва, 2014. 280 с.
31. Мустафаев Р. Марши смерти. Преступления армянства против еврейского народа. Москва, 2008.
32. Помпеев Ю. Кровавый омут Карабаха. Баку, 1992.
33. Преступления армянских террористических и бандитских формирований против человечества (XIX-XXI вв.). Баку, 2002.
34. Сеидзаде Д. Азербайджанские депутаты в государственной Думе России. Баку, 1991.

35. Сеидзаде Д. Азербайджан в начале XX века: путь к независимости. Баку, 2018.

36. Cameron D. My war on multiculturalism. // The Independent. February 5, 2011, https://www.independent.co.uk/news/uk/politics/cameron-my-war-on-multiculturalism-2205074.html

37. Chandran K. Theoretical Foundations of Multiculturalism. http://econfaculty.gmu.edu/pboettke/workshop/fall04/theoretical_foundations.pdf

38. Fautre W. Azerbaijan. Ethnic diversity. Peaceful co-existence and state management. Brussels, 2014

39. Rau J. The Nagorno Karabakh conflict between Armenia and Azerbaijan. A brief Historical Outline. Berlin, 2008.

40. Stilo A. "Is multiculturalism in Azerbaijan a valuable model?", http://www.europe-infos.eu/is-multiculturalism-in-azerbaijan-a-valuable-model

Çapa imzalanmışdır: 09.06.2019
Kağız formatı: 60x90 1/16
Tiraj: 2000